ALATORAN

Xancan Kərimov

# Varlıq və Yoxluq Arasında

Xancan Kərimov
Varlıq və Yoxluq Arasında
*roman*

Redaktor: **Ceyhun Mirzəli**
Ön qapaq rəsmi: **Xancan Kərimov**
Kompüter dizaynı: **Turqut Qaraca**
396 səh.
Qiyməti: 6 manat.
Çap tarixi: 17.05.17
ISBN: 978-9953-8066-5-9

© XancanKərimov
© Alatoran 2017

*"Bizi nə vaxt məhv edəcəklər?"*

\- Faulkner

1

# SƏSSİZLİYİN GURULTUSU

Bəzi dərdlərin çarəsi olmur, sadəcə adı olur o da bədbəxtlik. Həyatda bəzən elə anlar gəlir çıxır ki, öz həyatının içində itib-batırsan. Tutduğun bütün qeydlərinin, bütün ürəyini isidən nikbin ümidlərinin və planlarının içində yıxılıb qalırsan. Keçmiş həsrət və peşmançılığı bir tərəfdən, gələcək təlaş və qorxusu bir tərəfdən ürəyini məngənə kimi sıxır. Bütün dünyan başına yıxılır. Hardan başlamalı olduğunu bilmirsən və kömək əli atacaq heç kimin yoxdur. Oturub ağlamaq istəyirsən. Onu da bacarmırsan. Özündən üzr istəyirsən. Darmadağın olmuş ümidlərini qucağına alıb üşüməyin deyirsən. Bir yolunu tapacam deyirsən. Ancaq nə edəcəyin barədə ən kiçik fikrin belə yoxdur. Anaların aclıq günlərində balalarını məcbur qalıb aldatdığı kimi özünü və ümidlərini aldadırsan. Qaranlıq girdaba girmiş ruhun pozulur və parçalanır. Ürəyindən sallanan ağır daşlara hər gün yeni birisi əlavə olunur və onlara sarılıb özünü ən yaxındakı çayın sularına buraxmaq istəyirsən. Sonra qorxur, boğulmağın çox da yaxşı bir fikir olmadığını qərara alır və bir də baxırsan ki araşdıraraq əzabsız intihar üsullarının ustası olmusan. Ancaq hələ də həyatdasan. Çünki heç bir ananın öz balalarını sağ qoyub ölməyəcəyi kimi heç bir in-

san da öz ümidlərini sağ qoyub ölmür. Bunu başa düşürsən və yaratdığın bütün ümidlərini bir-bir öldürməyə başlayırsan. Onlar ölməyincə sənə rahat yoxdur. Nə qədər yaxşı bir qatil olduğunu zaman göstərəcək. Nadir hallarda analar öz balalarını öldürəcək qədər qəddar olur.

Təkrar yaşama cəhdlərin müvəffəqiyyətsizlik və uğursuzluqla nəticələndikdən sonra bütün seçimləri götür-qoy edir və yenidən qərara gəlirsən: Həyatda ən yaxşı seçim ölümdür, çünki o heç vaxt peşman ola bilməyəcəyin tək seçimdir. Ancaq bütün insanlar intihar asan olmadığı üçün bu ən yaxşı seçimi göz ardı edir və elə yaşamağa çalışırlar.

Yaşamaq əziyyətinə dəymirdi, ən azından onun üçün. Və o, artıq yorulmuşdu. İşindən yeni ayrılmışdı. Bir neçə ay bəs edəcək qədər pulu var idi yığıb saxladığı. Təxminən üç aylıq kira, qida və digər xırda şeylərə ancaq bəs edərdi. Üç ay içində ya yenə iş tapmalı, ya da ölüb getməliydi. Yaşamaq artıq əziyyətinə dəymədiyi üçün ikinci seçim daha asan və cazibəli gəlirdi ona sanki. Həyatının ağırlığını qaldıra bilmirdi, nə də çıxış yolu tapa bilirdi. Şahmatdakı kimi zuqzvanqa düşdüyünü düşünürdü, nə edirsən et matsan, məğlub olmusan və çıxış yolun yoxdur. Buna görə də uzun müddətdir ki intihar planları qururdu. Əlbətdə ki asan idi deyə düşündü. Ölüb gedəcəkdi, vəssalam. Bütün dərdləri, ağrıları, çəkdiyi əziyyətlər, darıxmaları, qısqanclıqları, keçmiş həsrəti və bütün insana ağrı verən xüsusiyyətləri də onunla birlikdə çürüyüb gedəcəkdi. İntihar bu qədər asan idimi doğrudan da? Deyildi. Ona görə də uzun müddətdir tərəddüdlər və vəsvəsə içindəydi. Bu qədər əzab çəkən insanların bu qədər il həyatda qalmasının da başqa açıqlaması yox idi. Başqa bir məna verə bilmirdi. Ölüm əslində insanın doğrudan da ən böyük düşmanıydı. Ona görə yox ki o insanın həyatını bitirirdi, əksinə bu yaxşı tərəfi idi, ona görə ən böyük düşmanı idi ki, çətin idi. Çox çətin idi, həyatını bitirməklə həyatda qalmaq arasındakı bir əngəl idi. Varlıq və yoxluq arasındakı keçid. Sanki iki şəhəri bir-birindən ayıran olduqca enli və içi timsahlarla dolu bir çay idi ölüm.

Keçmək üçün hər yaxınlaşanda qorxub geri qayıtdığın. Sanki cəhənnəmdə yaşayırsan və səni cənnətdən ayıran enli bir çay var. Keçə bilmir, yaxınlaşa bilmirsən. Çayın digər tərəfi isə cənnət idi, bəli, cənnət. Yoxluq. Ən böyük cənnət deyilmi? Yoxsan. Yox olursan. Heçlik. Varlığından azad olduğun tək an. Ən müqəddəs qurtuluş. İnsanoğlunun ən böyük qurtuluşu yox olmasıydı ona görə. İnsanın içindəki savaşı bitirəcək olan tək şey ölüm idi. Yəni ölüm əslində insanoğlunun ən böyük dostu idi deyə düşündü. İnsansa ondan qaçmaq üçün əlindən gələn hər şeyi edirdi, bütün texnologiyasını, dava-dərmanını ölümdən daha da uzaqlaşa bilmə düşüncəsi ilə yaradırdı.

İnsanlar yoxluğun dəyərini başa düşə bilmirlər. Genləri onlara əngəl olur və dərk edə bilmirlər. Ölümün necə gözəl çıxış yolu olduğunu. İntiharın deyil, ölümün. İkisi ayrı-ayrı şeylərdir zira. Özünü öldürmək qorxunc səslənir və elədir də. Ancaq xəbərin olmadan və əzabsız olaraq gələn ani ölüm ən böyük xoşbəxtlikdir. Yoxsan və artıq nə ağrıların nə də istəklərin səni incidə bilər. Yoxluq, yəni var olmama buna görə də ən böyük nemətdir.

Ancaq insan beyni kimi mükəmməl bir bioloji mexanizm "ailəmə məni dünyaya gətirdikləri üçün minnətdaram" kimi cümlə qura bilər və bunu müdafiə edə bilərdi deyə düşünürdü. Cümlə başdan səhv və məntiqə zidd idi, zira varlıqla yoxluq bir-biriylə müqayisə edilə bilməz. Ancaq iki mövcud şey müqayisə edilə bilinər. Var olan həyat, yoxluqla necə müqayisə edilə bilərdi? Bir insan ailəsinə onu dünyaya gətirdiyi üçün necə minnətdar ola bilərdi əgər doğulmasaydı var olmayacaq və var olmadığını bilməyəcəkdisə belə? Biri səni yoxdan var edir və sən ona minnətdar olursan. Absurddur. Ancaq bəzi insanların beyin kimyası həyatda qalmaq üçün o qədər münasib və möhtəşəmdir ki bu absurdluğu heç vaxt dərk edə bilmirdilər.

O elə düşünmürdü. Daha doğrusu heç vaxt elə düşünməmişdi özünü tanıyandan. Ölümü sevirdi. Sanki onunla uzaqdan yaşadıqları bir sevgiləri var idi. İkisinin də fərqində olduğu,

ikisinin də biri-birindən ötrü darıxdıqları bir sevgi. Aralarında duran tək maneə isə sahib olduğu bioloji instiktiydi şübhəsiz. İnsanı həyatda tutan instikti, genləri. Sanki ölmək istəyən o idi, yaşamaq istəyənsə genləri. Əlbətdə ki elə də olacaqdı deyə düşündü. Milyard illik təsadüfi təkamülün tək səbəbi genlərin özlərini həyatda saxlayıb bir sonrakı nəsilə daha yaxşı formada ötürə bilmələri idi, çəkilən əziyyətlər vacib deyildi, fərdlərin, milyardların çəkdikləri yaşam əziyyəti vacib deyildi. Sonra o həyatda qalmaq istəyən genlərdən bəziləri o qədər inkişaf etmişdilər ki artıq şüur kimi kompleks və möhtəşəm bir düşüncə gücü istehsal edirdilər. Əslində onların həyatda qalma ehtimallarını daha da artırmaq üçün öz-özünə ortaya çıxmış şüur, indi onlara - genlərə - baş qaldırırdı. Yaşamının mənasını sorğulayırdı. Sanki mühafizəkar atanın oğlu böyüyüb ondan intiqam alırdı. Şüur bu nöqtədən baxanda bəlkə də canlı təkamülünün ən böyük nöqsanı idi və yavaş-yavaş onu yox edirdi. Amma bütün insanlarda qalib gələn tərəf şüur deyildi. Daha doğrusu, yaşamaqda olan insanların heç birində şüur hələ ki qalib gələ bilməmişdi zira həyatdaydılar. Hətta nəinki qalib gələ bilmək, bir çoxunda şüur həyatda qalmağın tərəfdarı və dəstəkçisi idi. İnsanlar bu nöqteyi nəzərdən ikisi şanslı biri şanssız olmaq üzrə üçə bölünürdülər eləysə. Şüuru və genləri yaşamaq istəyənlər, şüuru ölmək istəyib amma genlərinə qalib gələ bilməyənlər və şüuru ölmək istəyib geninə qalib gəlib intihar etmiş olanlar. Ən pisi ortada qalmaq idi. Nə oyanlıqsan nə buyanlıq. Nə yaşaya bilirsən nə ölə. Onda da vəziyyət eləydi. Nə intihar edə bilirdi, nə istədiyi həyatı yaşaya bilirdi. Varlıqla yoxluq arasında sürünürdü.

Bu, insanın varoluşundan bu yana içindəki ən böyük savaşı idi. Başları bir-biriylə savaşan nəhəng ikibaşlı əjdaha kimi. Həyatın yumor anlayışı idi bu, sevinclə gözyaşının bir-birinə qarışdığı an kimi, sevincdən ağlamaq kimi. Hər insanın içində sahib olduğu ən az iki mənliyi və biri-birləri ilə ömrü boyu höcət halında olmaları kimi. Sanki bütün şanlı tanrılar orkestra kimi bir yerə yığılıb ən böyük sənət əsərlərini yaratmışdılar və

bununla fəxr edirdilər. Belə kompleks bir paradoks yaratmaq nə də olsa asan bir iş deyildi.

Həyat gözəldir. Ancaq yaşama əziyyəti hamıda eyni dərəcəyə sahib deyil. Fərdin yaşama zəhmətinin faydalı iş əmsalının sıfırın altına endiyi andır intihara qərar verilən an. Ya da həyatdan aldığı həzzin yaşama əziyyətilə müqayisədə ki faydalı iş əmsalının dəyəridir intihar. Bu dəyərin miqdarı kişidən kişiyə dəyişə bilər. Ümid, arzu və istəklərin cəmi bölünsün çəkilən əzab-əziyyətin miqdarına.

Sonra birdən ilk intihar etmiş insanı düşündü. Böyük bir inqilab olmalıydı. Həm də istənilən yaradılış nəzəriyyəsində. İstər təkamül nəzəriyyəsi istərsə də ilahi yaradılış nəzəriyəsində ilk intihar bütün mənalarda qüdrətli bir çevriliş olmuş olmalı idi. Başqaldırırdı insan öz yaradılışına. Üsyan edirdi. İlk asi insan doğulurdu beləcə. Aralarından ilk dəfə biri çıxıb “bilirsiniz nə var? Mən gedirəm!” deyirdi. İnsanlıq tarixindəki ən böyük başqaldırı idi doğrudan da. Hətta ilahi yaradılış hekayələrindəki Adəm və Həvvanın ilk inqilabı sayıla biləcək alma oğurluğundan da daha şiddətli idi.

Bir anlıq  ilk intihar etmiş insandan ötrü darıxdı, onla tanış olmaq istədi. O insanı özünə yaxın hiss etdi. Sanki indicə bu anda belə o insanla tanışsaydı əgər, çox yaxşı yola gedərdilər deyə düşündü. Ortaq bir dillərinin belə olmamasına baxmayaraq yenə də yola gedərdilər deyə düşündü. Əlini o ilk üsyanı qaldırmış bezgin dostunun çiyninə qoyardı, gözlərinin içinə baxardı və onu başa düşdüyünün hiss etdirərdi ona...

Bir anlıq xəyaldan oyanıb əlindəki şəkər qamışından hazırlanılmış roma baxdı, butulkanın yarısı doluydu hələ də. Bu ona kiçik bir xoşbəxtlik hissi verdi. Romun bitdiyini sanmışdı. Qaldırıb bir qurtum daha aldı. Ağzını büzüşdürdü. Ətrafına baxınıb siqaretin harda olduğunu müəyyənləşdirməyə çalışdı. Sarma tütün çəkirdi. Əvvəlcədən sarıb tütünləri paketə yığmışdı. Biraz vurnuxdu. Paketin divanın o başında yerdə olduğunu gördü. Tənbəlcə ayağa durdu, içkinin təsiri ilə azacıq baş gicəllənməsi hiss edirdi. Müvazinətini qorumağa çalışdı,

səndələyərək irəli doğru bir addım atıb paketi yerdən götürdü. Sərxoşluğun tam bu anlarında yandırılan siqareti çox sevirdi. Ona görə siqaretdən alınan ən böyük həzz tam da bu an idi. Bir sarma götürüb dodaqlarının arasına qoydu. İki əlini birləşdirib bükərək sarmanı yandırdı. Uzunca sordu. Dərindən nəfəs alıb tüstünü ciyərlərinə çəkdi və kiçik anın həzzini yaşadı. Aldığı tüstünü burnundan çölə buraxdı. Romdan bir qurtum daha aldı. Əli ilə alnını və gözlərini ovuşdurdu. Bir neçə saniyəlik sükut içində dayandı. Ən son nə etdiyini, nə düşündüyünü xatırlamağa çalışdı. Başını silkələdi, gözlərini bir neçə dəfə yumub açdı. Divana doğru geri atdı özünü. Aşağı çökdü və uzun müddətdir yalnız yaşadığı birotaq mənzilinin pəncərəsindən çölə daldı gözləri. Səma tünd maviyə boyanmışdı, melanxoliyanın rəngi bəzəyirdi buludları. Tutqun buludların arxasında mavi şeytanlar gizlənmişdi və uzaqlarda bir yerlərdən kədər və qəmin musiqisi mavi notalı blues eşidilirdi.

İlk intihar edən insana getdi fikirləri yenə. Görəsən necə intihar etmişdi deyə sual verdi darıxan iç səsi ona. Fikir ona maraqlı gəldi. Axı o dövrdə daha da çətin idi intihar. Dövr deyəndə ki, hansı dövr? Lap əvvəllərə getsək hələ meşədə yaşayan yeni-yeni şüur inkişafı başlayan insanlara, o dövrdə axı hələ ağrısız intihar üsullarından heç biri yox idi. Özünü öldürməyə qərar vermiş biri olsaydı elə bir dövrdə, o nə edərdi deyə düşündü bir anlıq. İlk olaraq suda boğulmaq gəldi ağlına. Yüksək bir təpədə, dağın üstündəki meşə ilə dənizin birləşdiyi nöqtədəki uçurumdan düz aşağı tullanmışdı bəlkə

də ilk qəhrəmanımız. Yoxsa bəlkə də elə birbaşa ürəyinə sancmışdı daşdan düzəlmə nizəsini? Necə olmuşdu axı? Xəyalgücü ona istədiyi formada kömək etmirdi cavabı tapmaq üçün. Hansı üsul seçilmişdi. Özünü vəhşi heyvanların qabağınamı atmışdı bezgin? “Yox əşi” deyə cavab verdi iç səsi. Sonra birdən, o dövrdə bəlkə də intihar olmamışdı deyə düşündü. Çox ehtiyac da yox idi bəlkə də. Çünki hələ ki insan həyatındakı ağrıların sayı artmamışdı və sadəcə qida üçün yaşayırdılar. Sonra birdən o dövrdə yaşama həsrəti yarandı içində. İndi-

ki kimi saysız-hesabsız seçim ehtimalınının olmadığı, problem ehtimalının daha az olduğu, gözləntilərin sadəcə günlük qidadan ibarət olduğu dövrlər. “Axmaqca səslənir” deyə düşündü, “O dövrlərdə yaşamağın daha asan olduğunu düşünmək, bəlkə də bir yanılmadan ibarətdir”. Amma, “yəqin ki” dedi, ilk intihar irəliləyən vaxtlarda, ilk sivilizasiya vaxtlarında olmuşdu. Qəbilə savaşlarını düşündü. İnsanların ilk qruplar, tayfalar halında yaşadığı vaxtları və aralarındakı kiçik savaşları, xırda münaqişələri düşündü. “Aha” dedi iç səsi. Böyük ehtimal, ilk intihar da o vaxtlarda olmuş olmalıydı. İlk savaş alətləri ilə. Qanlı bir inihar olmuş olmalıydı. İlk insanın şanssızlığını düşündü buna görə də. İntiharları belə asan deyildi, indiki kimi işi qısa müddətə həll edəcək vasitələr yox idi.

Qeyri-iradi olaraq rom butulkasını dodaqlarına yaxınlaşdırdı. Bir qurtum aldı. İlk intihar etmiş insan indi onun yanında olsaydı ona əlindəki bu spirtli içkini verərdi deyə düşündü. İlk bir-iki təcrübədəki baş gicəllənmələrindən sonra onun da xoşuna gələrdi yəqin deyə özü-özünü təsdiqlədi. Həyat, yəqin ki şərabın kəşfindən əvvəl və sonra olaraq ikiyə bölünürdü, yola verilmə ehtimalı daha çətin və daha asan olmaq üzrə. İçki və onun kimi digər maddələr olmasaydı bəlkə intihar sayıları daha çox olardı. İnsanlar ani ruh düşkünlüklərini, psixoloji sarsıntılarını sovuşdura bilməz və ölümə daha çox can atardılar. Bunu düşündü və sonra bütün insanlığın şərəfinə, bütün şərab sevərlərin şərəfinə içkisini başına çəkdi. İçində bir damcı belə olsun qalıb qalmadığından əmin olmaq üçün butulkanı yenidən yuxarı qaldırdı, dilini çıxardı, butulkanı əydi və içindəki damcının butulkanın dibindən yavaş-yavaş irəliləməyə başlayıb sonra sürətlənib şüşə qabın ağzında yenidən yavaşlayıb sanki sallanırmışcasına dayanıb, dilin üstünə tullanmağını izlədi. Boş butulkanı yerə tulladı.

Sərxoş idi və sərxoş olduğu qədər xoşbəxt idi.

Tutulduğu nostalgiya xəstəliyindən canını heç olmasa bir saatlıq qurtara bilmişdi. Düşünməmiş və xatırlamamışdı. Keçmiş həsrəti zillətindən bir anlıq belə olsa azad olmuşdu.

Hər insan xatirələr bütünüdür. Hər bədən və beyin, xatirələr bütünüdür. Beyin, iformasiyalar şəbəkəsidir və hər informasiya bir xatirədir. Hər xatirə bir təcrübədir. Bir uşağı yetişkindən ayıran tək fərq sahib olduqları xatirələrin miqdarıdır. Yerimək, iməkləyən bir uşağın sahib olmadığı bir xatirə və təcrübədir. İməkləmək, əllər və dizlər üzərində hərəkət etmə aktının yaddaşda saxlanılmış xatirəsidir.

Qırmızı, bir xatirədir. Zərərsiz və kiçik xatirə. Mavi, soyuq, isti, qaranlıq, yaşıl, dəniz, A'nın tələffüzü, qaçmaq və gülmək ən incə təfərrüatlarına qədər işlənilib yaddaşa yüzlərlə ya minlərlə neyron şəbəkəsi tərəfindən həkk olunmuş xatirələrdir. Bütün bu zərərsiz və kiçik təfərrüatlar birləşərək daha böyük, kompleks və bəzən zərərli xatirələr yaradırlar. Məsələn "İsti yay günü dəniz sahili gülüşlərlə A'nın arxasınca qaçdığı o gün"  bir xatirəydi. Xoşbəxt bir anın kompleks neyron şəbəkəsi tərəfindən saxlanılan xatirəsi. Şirinmiş kimi görünən amma zaman-zaman incidici xatirə. Çünki keçmişdi və keçmişdə qalmışdı. Əgər yenidən yaşaya bilmirsənsə bəzən ən şirin xatirələrin belə öz cəhənnəminə çevrilə bilər. Toxuna bilmədiyin keçmişin və qucaqlaya bilmədiyin xatirələrin. İllər, yəni zaman və məsafələr nostalgiya xəstəliyinin ən böyük iki faktorudur. Ya keçmiş üçün darıxırsan ya da indi ancaq uzaqlarda olan yerlər və kimsələr üçün. Məsafələr insanı diri-diri öldürməyə qadir idilər. Həkimlər deyir ki nostalgiya insanın xoş xatirələrini xatırlayıb pis anlarda özünü yaxşı hiss etməsi üçün gözəl bir vasitədir və təkamüli olaraq belə formalaşıb. Ancaq ağın içindəki qara özünü göstərirdi. Keçmiş üçün susama və şiddətli arzunu unudurdular. Bəlkə də yaşlıların yaşadığı yaddaş pozğunluqları ya Altsaymer xəstəliyi tanrının onlara bir lütfüdür. Zira 80 illik xatirələrin qucağında insan həsrətdən məhv ola bilər.

Keçmişindən kadrlar xatırladığı anlarda beyninin başqa bir şeyləri düşünməsi üçün əlindən gələni edirdi. Çünki təkrar, xatirəni möhkəmləndirirdi. Bir xatirəni ya informasiyanı hər dəfə yenidən xatırladığımızda o xatirənin saxlanıldığı neyron

şəbəkəsinə hər dəfə impulslar ötürülür və hər ötürülən impuls əvvəlkindən daha da güclü iz buraxırdı və beləcə neyronlararası əlqəni - yəni yaddaşı möhkəmləndirirdi. Ona görə də istər pis istər yaxşı bir xatirəsini heç vaxt xatırlamamağa çalışırdı artıq. Qətiyyən. Hələ vizual olaraq heç canlandırmırdı gözündə çünki daha gülcü impulslar neyron şəbəkəsini daha da gücləndirirdi. Əksinə onları unutmağa çalışırdı. Gurultulu bir musiqi bəlkə, bəlkə qışqırmaq, bəlkə bədəninin limitini zorlayaraq qaçmaq ya da divarlara endiririlən yumruq zərbələriydi onun həmin xatırlama anlarından qaçma metodları. Qaranlıqa tək qalmış uşağın qorxmamaq üçün fit çalması ya zümzümə etməsi kimi belə anlarda özü üçün improvizasiya edərək dodaqaltı zümzümələrlə beyninin diqqətini dağıtmağa çalışırdı. Qorxmuş bir uşaqdan tək fərqi, o bunu hiss etdirmədən edirdi, dodaqlarını belə tərpətmədən hülqumunda mızıldanaraq. Bütün bu metodlar işə yaramadığı təqdirdəysə - ki heç vaxt işə yaramırdılar – içməyə və çəkməyə başlayırdı. Ya da digər reallıqdan uzaqlaşdırıcı süni ya təbii narkotiklərin qucağına atırdı özünü. Bu unutdurma, xatırlamama ya da diqqət dağıtma işini ən yaxşı bacaran narkotik alkoqol idi. Hətta alkoqolun sanki ən vacib funksiyası buymuş kimiydi. Zira alkoqol bədənə daxil olduğu andan etibarən sürətlə beyinə irəliləyir, qan-beyin bariyerini keçdikdən sonra qlutamat reseptorlarına təsir edərək qlutamatın transmissiyasını yavaşladır və beləcə onun beyindəki əsas funskiyalarını da yavaşladırdı: neyronlar arası informasiya ötürülməsi zəifləyir, dolayısilə daha az hiss edirsən, daha az qavrayırsan, daha az xatırlayırsan və daha az diqqət edirsən. Xatirələrin saxlanıldığı yaddaş anbarlarına gedən neyronlar yorğun düşür və siqnallar zəifləyir. Beləliklə sərxoş insan nəinki keçmişini, həyatındakı hazırki problemləri belə çox da xatırlamır ya da diqqət etmir və keçici olaraq süni xobşəxtliyi qucaqlayır.

Divara yapışdırılmış kağız üzərindəki qeydinə sataşdı gözü – *xoşbəxt ölüm!* – və intiharı üçün getməyə hazırlaşdığı yeni açılmış Evtanaziya kamplarını xatırladı.

* * *

Əgər yetəri qədər yalnızsınızsa, səssizliyin gurultusunu eşidə bilərsiniz. Yalnızlığının bom-boş otaqda əks-səda verən səssizliyinin gurultusu onu incidirdi və buna həyatda hər şeydən çox nifrət edirdi.

Memento mori
Memento te hominem esse
Respice post te! Hominem te esse memento!
*(Fani olduğunu xatırla.*
*Sadəcə bir insan olduğunu xatırla,*
*Arxana bax! Sadəcə bir insansan, xatırla!)*

\- ***Roman triumph*** *(qədim Roma zəfər paradları)*

* * *

# 2

# EVTANAZİYA KAMPLARI

Liberalizm bütün qapıları açdığı kimi ölümün də qapısını açırdı. Dövlətlər forma dəyişdirirdilər. Dövlət hədəfləri artıq əvvəlkinin əksinə yüksək demoqrafik hədəflər deyildi. Balansı qorumaq, tənzimləmək daha vacib idi artıq. Ağır xəstələrin öz ölümlərinə qərar verib həkim nəzarəti altında ölmələri üçün istifadə edilən üsul, evtanaziya, nəinki artıq leqallaşdırılmış, hətta az qala heç bir ağır xəstəliyi olmayan insanların belə öz qərarları ilə həkim nəzarətində ölmələrinə icazə verilməyə başlanılmışdı.

Proseslər yavaş-yavaş irəliləmişdi. Bir neçə il əvvəl qəza nəticəsində onurğa sütunu zədəsindən tək sağ əli xaric bütün bədəni iflic olmuş Hüqo Jeseina adlı yaşlı xəstənin evtanaziya istəyinə diqqət çəkməyə çalışan aktivistlərin cəhdləri gözlənilmədən əvvəlcə ölkə sonra isə qlobal səviyyədə səs gətirmişdi. Daha sonra ölkənin öndə gələn özəl insan haqları təşkilatları məsələni müzakirəyə çıxarmış və qarşı fikirli iki ayrı tərəfə bölünmüşdülər. Dinin cəmiyyətdəki təsirinin get-gedə azalmış olması müzakirədəki dini səbəblərin təsirini azaltmışdı. Yenə də evtanaziyaya qarşı olan insan haqları təşkilatları dini və ya bənzəri səbəblərdən insan həyatının müqəddəs olduğunu və onu sonlandırmağın düzgün olmadığını vurğulayırdılar. Daha

radikal sayıları azalmış kiçik dini qruplar isə insan həyatının tanrı tərəfindən verildiyini və sadəcə tanrı tərəfindən alına biləcəyini müdafiə edirdilər. Ölümcül xətsəliklərə belə son anda çarə tapıla bilinəcəyi, evtanaziyanın həyatın yaşamağa dəymədiyi mənasına gəldiyi, leqallaşmanın daha çox ölümlərə səbəb olacağı, tibbi tədqiqatların azalacağı kimi səbəblər də var idi evtanaziyaya qarşı olan tərəflərin səbəbləri arasında.

Evtanaziyanı dəstəkləyən tərəf isə nə olursa olsun insanın həyatı barədə qərarlarının öz əlində olması gərəkdiyini vurğulayırdılar. Xəstələrin çəkdikləri ağrılara diqqət çəkərək, bu ağrıları hiss etməyən yad insanların bir insanın o ağrılarla yaşayıb yaşamayacağı haqqında müzakirə etmə haqlarının belə olmadıqlarını sərt bir dil ilə tənqid edir və müasir insan haqlarını şiddətlə qınayırdılar. Ölkənin müxtəlif şəhərlərində kiçik qruplaşmalar əllərində Hüqo Jeseina və digər evtanaziya istəyən ölümcül və ağır xəstəliklərə məhkum xəstələrin şəkilləri ilə kiçik aksiyalar edir və “Xoşbəxt ölüm! Xoşbəxt ölüm!” deyə qışqırırdılar.

Tarixçi Suetonius miladın ilk illərində imperator Oktavian Avqustun ölümü ilə bağlı belə yazırdı: “Tez və əzabsız şəkildə yoldaşı Livianın qollarında əbədiyyətə qovuşdu, arzuladığı *evtanaziyanı* yaşayaraq”. Beləcə, insanlıq tarixinə yeni bir ifadə daha daxil olurdu, xoşbəxt ölüm, şərəfli ölüm, ya da ağrısız ölüm mənasına gələn söz: evtanaziya. İndi, Avqustun ölümündən əsrlər sonra, xoşbəxt ölüm ifadəsi pankartlarda, küçələrdə gəzirdi, Hüqonu xilas etmək adına.

Bütün insanlıq tarixinə, bütün yaşamış insanlara, əgər hamısına insan irqinin nümayəndəsi kimi, tək nəfər ya orqanizm kimi baxa bilsək, bütün o milyardlarla insanı tək bir nəfər saymış olsaq əgər, onda, ilk insanın doğumundan bugünə qədər keçmiş müddəti sanki bir insanın doğulub böyümə prosesi kimi canlandıra bilərik gözümüzdə. Belə olan halda, ilk insan, ana rəhmindən başlayaraq böyüyən bir uşaq kimi, düşüncəsi yeni formalaşan və illər keçdikcə böyüyən, dünyanı tanımağa başlayan, kəşf edən, sonra yeniyetməlik dövrünü yaşayan,

vuran, qıran sonra getdikcə daha da müdrikləşən tək bir varlıq idi. Hər əsrdə bir yaşı daha artırdı. Və yavaş-yavaş əsrlər keçdikcə, insanlıq şüuru irəliləyirdi. Keçmişdə qınanılmış, qadağa olunmuş məsələlər vaxt keçdikçə gündəlik həyatın bir parçasına çevrilir və normal qəbul edilirdi. Normal idi, kiçik bir uşaq kimi, insanlıq şüuru yetişmə mərhələsindəydi. Elm adamlarını yandıran kilsələr, qadınlara qadağalar gətirən köhnə və müasir adətlər, milliyətçilik uğruna qanlar tökən Avropa və neçə belə düşüncəsizliklər artıq tarixə qarışırdı. İnsanlıq öz köhnə atalarına baxıb onları qınayırdı. Tarix göstərirdi ki, cəmiyyətin başa düşmədiyi və qəbul etmədiyi məsələləri qavraması və anlaması, adət-ənənələr zəncirini qırıb aydınlanabilməsi vaxt alırdı və bir gün öz qaydasına düşəcəkdi mütləq. Sadəcə gözləmək lazım idi, bir gün evtanaziya da qəbul olunacaqdı.

Elmi tədqiqatlar göstərir ki, təxminən 100.000-70.000 il bundan əvvəlki insan ilə indiki insanın zəkası aşağı yuxarı eynidir. Baxmayaraq ki beyin həcmi getdikcə azalır (beyin daha da minimallaşır və neyronlar arası qısayollar tapır) zəka eyni idi təxminən. Və keçmişdə doğulmuş uşağı bugün gətirib böyütsək əgər, bəzi linqvistik problemlərin xaricində fərqi ayırd etmək mümkün olmazdı. Ancaq atalarımızla aramızda bir fərq var idi əlbət, təcrübələr və bu təcrübələrin işığında dünyanı, həyatı daha yaxşı anlama və qavrama bacarığımız. Bu təcrübələrin köməyi ilə inkifaş edən şüur və dərrakəmiz bizə yaşama sənətini xırdalıqlarına qədər öyrədir və səhvlərimizi göstərirdi. Aramızdan bəzi uzaqgörənlər çıxırdı və bizə bir şeyləri düzgün etmədiyimizi, yolunda getməyən bəzi şeylər olduğunu öyrətməyə çalışırdı, bizə dünyanın əslində dairəvi olduğunu başa salmağa çalışırdılar məsələn, ancaq atalarımız onları öldürürdülər. Bizi feodal qaydalar və kilisə zülmündən qurtarmağa çalışan, maarifləndirən və aydınlanmağa çağıran François-Marie Arouet'i, Voltaireni Bastiliya qalasına həbs edir, sürgün edirdik. Fikrlərimizi hələ təzə-təzə püxtələşdirməyə başlayan Sokratı edama məhkum edirdik. Sonra isə səhvimizi başa düşürdük, onlardan öyrənirdik. Eynicinsli insan-

ların kilsə və məscidlərin təkidi ilə öldürülməsindən tutmuş kilsə tərəfindən evləndirilmələrinə qədər keçən proses kimi, dəyişirdik. İnsanoğlunun bir-birini sevən iki eynicinsli insanın birlikdə yaşamalarına icazə verməsi min illər çəkmişdi, insanın öz ölümünə qərar verməsinə icazə verməsinə isə az qalmışdı.

Bir neçə ölkədə evtanaziya ya da assistentli intihar müəyyən şərtlər daxilində leqallaşdırılmışdı artıq. Hüqonun bəxti gətirməmişdi. Onun iflic olması, dözülməz bir xəstəlik olaraq sayılmırdı yaşadığı ştatda. Məhkəmə və həkim qərarı Hüqoya rahat ölüm icazəsini vermədi. Ani olaraq artmış mübahisələrin sayı bir an içində azaldı. Hüqoya evtanaziya üçün onu başqa ölkəyə aparma təklifi edildi, lakin o, bu təklifi rədd etdi. Bezgin Hüqo Jaseina, o günün gecəsi, səhərə doğru tək işlək sağ qolu ilə özünü xəstəxananın pəncərəsinə doğru sürüdü, pəncərəni çətinliklə də olsa açmağa müvəffəq oldu və özünü doqquzuncu mərtəbədən yerə buraxdı. Bəlkə də heç kimi narahat etməmək üçün öz intiharını gecəyə saxlamışdı. O, sağ əli ilə intihar və inqilab etmişdi.

Bu dəhşət qarşısında sarsılmış məhkəmə heyəti və həkimlərin qərarı ilə Hüqo Jaseinanın ölümündən on saat sonra ştat evtanaziya və asistli intiharı leqallaşdırdı. Tarix yenə gecikirdi. Yalnız qurbanlardan sonra atılması lazım olan addımlar atılırdı. Bu hadisələr domino effekti ilə digər ştatlar və ordan da federal səviyyədə evtanaziyanın leqallaşmasına apardı. Terminal xəstəliklər, dözülməz ağrılı xəstəliklər və iflic kimi bir sıra xəstəliklər siyahıya salındı.

Leqallaşma ilə birlikdə bir sıra qeyri-adi evtanaziya istəkləri gəlməyə başladı. Kor bir qadın təmizliklə bağlı obsesiyasının olduğunu və paltarındakı çirkləri görə bilmədiyinə görə əziyyət çəkdiyi üçün həyatına son vermək istədiyini bildirdi və istəyi müzakirələrdən sonra qəbul edildi. İntihar etməyə çalışaraq özünü yandırmış və müvəffəqiyyətsiz olmuş üzü və bədəni ağır yanıq xəsarətləri ilə dolu olan cavan bir oğlan öz bədəni və görünüşü ilə yaşamaqda əziyyət çəkdiyini və ölmək

istədiyini bildirdi və qəbul edildi. Bu hadisələri müxtəlif ağır depressiv xəstəlikləri olan namizədlərin müraciətləri izlədi. Ancaq bütün depressiv xəstəliklər və bənzərləri qəbul edilməyərək geri çevrildi. Qərarnaməyə əsasən "sağalmayan, terminal, ümidsiz və dözülməz ağrılı xəstəlikləri olan xəstələr" xüsusi dövlət qayğısı ilə həyatlarına son verə bilərdilər. Depressiya isə terapiyalar və dərmanlar vasitəsilə sağaldılma ehtimalı olan xəstəlik növü sayılırdı və "ağrısı" o qədər də yüksək deyildi, qəbul edilmirdi. Ancaq, kimin ağrısının nə qədər ağır olduğuna kim qərar verirdi? Bir gənc qız "O lənətə gələsi avadanlıqlarınız sırf mənim ağrımın dərinliyini ölçə bilmir deyə məni daha asan ölümdən məhrum edirsiniz, alın bu da sizə dərs olsun elə isə!" deyərək üstünə benzin töküb məhkəmə qarşısında özünü yandırdı. Xəstəxanaya çatdırıldığında dördüncü dərəcə yanıq xəsarəti səbəbilə artıq keçinmişdi. Onun intiharını digər depressiv xəstələrin toplu intiharları izləməyə başladı. Hüqonun sağ qolu ilə başlatdığı ölüm inqilabı bir gənc qızın külləri ilə alovlanırdı. İşlər cığırından çıxmışdı. Səhiyyə nazirliyinin statistikalarına görə ölkədə hər beş nəfərdən biri depressiya xəstəliyindən əziyyət çəkirdi. Depressiyanın dövlət nəzarətli intihar siyahısına salınması gözlənilməz nəticələr doğura bilərdi.

Araşdırmalara görə insanlar etmək istədikləri ancaq etməyə çəkindikləri hərəkətləri başqa insanların etdiklərini gördükləri zaman cəsarətlənirdilər və onlar da edirdilər. Domino effekti kimi ya da sürü psixologiyası. Bu insanın təkamüli keçmişindən gələn öyrəşilmiş və alışılmış bir xüsusiyyəti idi. Tapdığı yabani otun zəhərli olub olmadığına əmin ola bilməyən meşə insanı yanındakıların yeməsini görərək cəsarətlənir və o da yeyirdi. Bu tətikləmə təsiri yaxın insanlarda daha yüksək idi, xüsusən də ailə daxili münasibətlərdə. İntihar da eləydi və başqasının intiharı bir başqasını cəsarətləndirirdi. Ailə daxili intiharların zəncirləmə olaraq digərlərini də tətikləmə ehtimalı yüksəkdir. Ailə xarici olaraq isə, hər intiharın təxminən altı nəfərə dərindən təsir etdiyini göstərirdi təqiqatlar.

Dünyada hər il bir milyon insan intihar edərək həyatını sonlandırır. Bir milyon insan. Bu intiharların üçdə birindən çoxunun səbəbi depressiyadır. Bu intiharlardan insanların xəbəri olmur, heç bir qəzet yazmır o intiharları heç bir tv səsləndirmir. Dövlət mümkün qədər intiharları gizlətməyə çalışır. Zira intihar zəncirvari təsir yaradan hərəkətdir. Daha da zəruri detal odur ki, bir milyon sadəcə müvəffəqiyyətli olanların sayıdır, iyirmi beş dəfə artıq sayıda insan cəhd edir halbuki. Yəni əgər müvəffəqiyyətli olmuş olsaydılar rəqəmlər inanılmaz olardı. İndi isə dövlətdən, o müvəffəqiyyətsizlərə ölümlərində birbaşa kömək edilməsi tələb edilirdi.

Dövlət məsələni genişmiqyaslı müzakirəyə açmışdı. Bir-birini tətikləyən hadisələr getdikcə ölkə miqyasında fəlakətlərə səbəb olurdu. İnsanlar özlərini ticarət mərkəzlərində, küçələrdə, nəqliyyat tıxaclarında silahlarla öldürürdülər. İnsanlar, ölmək istəyirdilər. Dünya qaranlıq bir dövrə girirdi. Bütün gələcək proqnozları yanılırdı. İnsanlıq xoşbəxtliyə doğru yox, bədbəxtliyə doğru yol alırdı. Məclisdə məsələnin referenduma daşınıb daşınılmaması müzakirə edilirdi. Ölkə demək olar ki yarıya bölünmüşdü və hər iki qarşı tərəfdə öz içində fikir ayrımları yaşayırdılar. Məsələn depresiyadan əziyyət çəkən insanlara dövlət nəzarətli intihar verilməsini müdafiə edənlərin bir hissəsi depresiyadan əziyyət çəkdiyini deyən istənilən şəxsin müraciətinin qəbul olunmasını dəstəkləyirdi, bir hissə isə sadəcə müəyyən şərtləri ödəyən depresiya xəstələrinə bu icazə verilməli idi deyirdi, məsələn ən az altı aylıq bir müalicə keçmiş olmalı idi zərərçəkənlər.

Qarşı tərəf isə, daha da atəşli formada buna icazə verilməsinin səfehlik olduğunu müdafiə edirdi. Evtanaziya və assistli intihara qarşı savaşan vəkillərdən biri televiziyada belə deyirdi “Bu adamlar dəli olublar! Bu dəlilikdir! Mənim hələ də ağlım almır! Belə bir şeyi müzakirə etməyimiz belə axmaqlıqdır Bu səfsətədir. Onlar xəstəlikləri sağaltmaq əvəzinə, insanları öz əlləri ilə öldürürlər!”.

Başqa bir məşhur yaşlı marksist müxalifətçi və konspirasi-

ya nəzəriyyəçisi isə belə deyirdi "Bu müasir dövr dövlətlərinin zəifləri öldürmə formasıdır və şüurlu formada planlaşdırılır. Kapitalizm yenə öz işini görür. Onlar küçələrdəki evsiz və kimsəsizləri təmizləmək üçün yeni üsul tapılblar. Azad ölüm! Nə gözəl! Azad yaşam verə bilmədikləri vətəndaşlarını qətl edirlər."

Bir digər məşhur həkimsə belə deyirdi: "Bilirsiniz, Amerikalılar olaraq başqa ölkələrdən nümunə götürməliyik. Artıq neçə müddətdir ki bu sistemi tətbiq edən bir sıra ölkələr var, xüsusilə Avropada. Almaniyada artıq hər beş qocadan biri dövət köməyi ilə həyatını sonlandırır. Ümumilikdə isə evtanaziya ilə ölənlərin çoxu dözülməz ağrılar və ölümcül xəstəliklər səbəbi ilə deyil, başqalarına yük olmaq istəməmə, ləyaqətli formada həyatlarını bitirmə kimi səbəblərdən sonlandırırlar həyatlarını. Səbəblərin arasında ilk beşlikdə fiziki ağrı yoxdur. Hansı ki evtanaziyanı ağır ağrılı xəstələrə kömək məqsədilə leqallaşdırmışdılar. Məncə biz onlara özlərini öldürmək də yox daha yaxşı yaşamalarında kömək etməliyik. Bu qayğıya möhtac şəxslər üçün açılmış xüsusi qayğı evləri var, onların sayı və keyfiyyəti artırılmalıdır. Yaşlılar yalnızlıqdan əziyyət çəkir. Biz bu insanları daha yaxşı necə xoşbəxt edərik - bunları danışmalı ikən, bugün burada oturub onların ölümünə kömək olub olmamağın etik mübahisəsi üzərinə baş yoruruq. Əgər biz depresiyanı kömək sırasına salsaq kimin ölüb kimin ölməyəcəyinə kim necə qərar verəcək? Onsuz da dövrümüzün xəstəliyi depresiya deyilmi? Burda başqa bir nüans da var, əgər biz depresiya kimi səbəbləri evtanaziya müraciətlərində qanuni hala salsaq, onda bu depresiya xəstələrini daha da cəsarətləndirəcək. Bunu heç kim düşünmür. Onların sayı həndəsi silsilə ilə artacaq. Çünki həm asan ölümü həm də başqalarının da bunu etdiyini görüb cəsarətlənəcəklər. İnsan bədənindəki bütün hüceyrələr sağ qalmağa proqramlanıb, bir insanın öz başına özünü öldürməsi asan deyil. Ancaq onun işini asanlaşdırsanız o ilk dar macala düşdüyü anda dövlətin qapısına qaçıb öz iki qramlıq zəhərini tələb edəcək. İntihar bəzən keçici problemə, qalıcı həll üsuludur. Əgər şəxs ağır xəstə deyilsə. Onun hər kiçik problemdə

özünü öldürməyə can atmasına kömək etmək fəlakətlə nəticələnə bilər."

Həkim çoxlarına görə haqlı idi. Belə bir qərarın qəbulu zəncirləmə təsir yaradacaqdı və başqalarını da cəsarətləndirəcəkdi. Ancaq bir digər tərəfdən də, evlərdə cəsədlər tapılırdı və bu olduqca narahat edici idi. Xəstəxanalara intihara cəhd etmiş və müvəffəqiyyətsiz olmuş şəxslər gətirilird. Özünü silahla vurmuş və üzünün yarısını itirmiş ancaq hələ də həyatda olan xəstələr. Onlar silahın lüləsini düz istiqamətdə tuta bilməyənlər idi.

Məşhur "Ölmə haqqı" təşkilatının qurucularından biri, Hector Qonzalez isə öz müdafiəsini belə dilə gətirirdi: "Onlar onsuz da ölürlər. Onlara heç olmasa çəkdikləri bu əzab dolu həyatı sonlandırmaqda kömək etmək lazımdır. Bugün biz bu əsrdə əgər insan azadlığından bəhs ediriksə və insanın sahib olduğu ən vacib şeyi öz canı və bədənidirsə onda onlara onu necə idarə etməkdə icazə verməli və kömək etməliyik. Bu ölkənin azadlıq deklarasiya sənədinin ən vacib frazası *"həyat, azadlıq və xoşbəxtlik axtarışı"*dırsa, onda biz onlara kömək etməliyik. Nəinki depresiya xəstəliyi, istənilən öz həyatını sonlandırmaq istəyən şəxs dövlətə müraciət edərək bu dünyadan ayrılma haqqına sahib olmalıdır. Onsuz da bir çoxlarımıza məlum olduğu kimi illeqal formada dövlət xəstəxanalarındakı reseptli öldürücü dərmanları əldə etmək mümkündür və bunu edənlər də var. Biz isə onlar üçün bu işi daha da asanlaşdırmalıyıq. Hətta son dayanacaq olaraq onlara xoş günlər keçirə biləcəkləri kamplar belə təşkil etmə tərəfdarıyam mən. Bu dünya bir çoxunuz üçün gözəl və yaşanılası bir yer ola bilər, ancaq barı icazə verin, aranızda bu dünyanın dözülməz bir yer olduğunu qəbul edən və ölmək istəyənlərə kömək edək. Biz bu işdə ən çox vuruşan təşkilatlardan biri olaraq hər insanın öz şəxsi mülkü olan yaşamı barədə qərarı onların əllərinə buraxma qərarının verilməsindən yanayıq. Evtanaziya ona görə pisdir deyirlər ki, tibbi inkişaf əvəzinə, problemi həll etmək əvəzinə problemi yox edirlər. Yəni sırf tibbin inkişafı üçün rahat

ölmək istəyən insanlara ölüm imkanı verilməməlidir? Onları eksperiment heyvanları kimi istifadə etmək lazımdır? Ölüm ayağında olan insanın nə vecinə axı tibb inkişaf edir ya etmir? Xahiş edirəm, Jack Kevorkianı və onun xəstələrini xatırlayın. Qeyd etdiyim kimi, aramızda hələ də onun kimi həkimlər və onlardan mədət uman xəstələr var. Bu işi üstü örtülü və illeqal formada etməkdənsə leqallaşması hamının yararına olar."

Jack Kevorkian, illər əvvəl vəfat etmiş məşhur erməni əsilli həkim, rəssam və musiqiçi idi. O evtanaziyanın tamamilə qadağan olduğu dövrdə özü şəxsi olaraq 130dan çox xəstənin həyatlarını sonlandırmasına kömək etmiş, sonra isə dövlət tərəfindən günahkar olduğuna qərar verilərək yeddi illik həbsə məhkum edilmişdi. Onun öz düzəltdiyi thanatran (ölüm) və mercitron (mərhəmət maşını) adlı iki intihar aparatı var idi. Bir çoxları onu "doktor ölüm" adlandırırdılar. O isə özünü qatil yox, əzab çəkənlərin köməkçisi adlandırırdı. Onun evtanaziya qanunlarının yumşalmasında və leqallaşmasında xüsusi rolu olmuşdu. Və həqiqətən də təşkilatçının dediyi kimi hal-hazırda da qanunsuz yollarla bu tip həkimlərin köməyi ilə ağrısız ölümə müraciət edən insanlar var idilər.

* * *

Mübahisələrin üstündən aylar keçdi. Ştatlar bir-birinin ardınca qanunlarda güzəştlərə getməyə başladı. Sonda federal səviyyədə major depresiya xəstəliyindən əziyyət çəkən hər kəsin evtanaziya üçün müraciət etmələrinə icazə verildi. Sonra isə bir çox intihar edən insan bu yolla intihar etməyə başladığı üçün ayrıca şöbələr yaradılması təklif edildi. İntihar bəzən ani bir depressiv basqın ikən bəzən planlanan bir akt forması idi. Ani depresiya əhvalı ilə intihar edənlər yenə evlərində ölü tapılırdılar. Ancaq planlı formada inthar edənlər isə xəstəxanalara müraciət edirdilər. Bəzi xəstəxanalarda hələ də evtanaziya əlehinə duruş sərgiləyən həkimlər olduğu üçün onlar bu işi görməkdən imtina edirdilər və xəstəxanalarda intihar-assistent çatışmazlığı

yaranırdı. Buna görə də şəhərlərdə xüsusi ayrıca şöbələr yaradıldı əvvəlcə. Bunlar ilk başda olduqca kiçik və sadəcə bir neçə otaqdan ibarət şöbələr idilər. Ya həkim tərəfindən namizədlərə müvafiq dərmanlar verilir və onlar özləri istifadə edərək həyatlarını sonlandırırdılar ya da həkimlər bir başa tətbiq edirdilər dərmanları. Sonradan bir sıra təşkilatların təkidi ilə bu şöbələrdə nisbətən dəyişikliklər edilməsi təklif olundu.

Hector Qonzalez yenə olduqca ciddi və inadkar formada çıxış edirdi: "Biz bu insanlara heç olmasa zülüm çəkərək yaşadıqları bu həyatı sonlandırarkən heç olmazsa xoş bir gün yaşatmalıyıq. Vətəndaşları işsizlik və evsizlikdən əziyyət çəkən bu dövlətdən gözləntimiz odur ki heç olmasa onlara düzgün bir yaşam verə bilmirlərsə, düzgün bir ölüm versinlər. İki otaqlı dörd divarın arasında sanki bir qurban kimi gedib həyatla vidalaşmaq olduqca acılancaqlı səslənir elə deyilmi? Yəqin ki bu məsələdə mənimlə razılaşarsınız ki, siz, sabah o xəstələrin yerində olsanız, bu istəyəcəyiniz ən sonuncu vida forması olardı. Biz bir ictimai təşkilat olaraq öz borcumuzu yerinə yetirmişik və dövlətə bu barədə hazırlamış olduğumuz xüsusi layihəmizi artıq təqdim etmişik. Bu layihənin üstündə uzun müddətdir ki hazırlıqlarımız gedirdi, son çərşənbə günü bütün hazırlıqları tamamlayıb təqdimetməni bitirməyə nail olduq. Qısaca izah edəsi olsaq əgər, xəstələrimiz və zərərçəkənlərimiz üçün (o bu sözü həyatdan zərərçəkmişləri nəzərdə tutaraq xüsusi vurğuyla işlədirdi) spesifik kamplar, düşərgələr yaradılmasıyla bağlı geniş və ən kiçik təfərrüatına qədər düşünülmüş böyük bir layihədir. Evtanaziya kamplarının layihəsi."

Hector Qonzalez, uşaq ikən, bir gün məktəbdən evə qayıdanda, öz xəstə anasını otağında asılı vəziyyətdə ölü tapmışdı. Bir uşaq üçün bu olduqca ağır travma idi. Qorxudan ağlayaraq küçəyə qaçmış və səsə gəlmiş qonşular anasını yerə endirmişdilər. Atası yox idi. Anasını heç vaxt bağışlamayacağını düşünmüşdü ilk başda. Onu həm anasız, həm kimsəsiz qoyurdu öz gedişilə. Və üstəlik, balaca bir uşağın onu görə biləcəyi bir yerdə özünü asaraq. Bu şübhəsiz ki bağışlanmaz

bir hərəkət idi. Ancaq o, tez-tez anasının onu mütəmadi yoxlamaya gələn həkiminə yalvarışlarını eşitmişdi qapı arxasından "həkim, al canımı yalvarıram! Belə yaşaya bilmirəm! Bu ağrılara dözə bilmirəm! Dözə bilmirəm". Kimin ağrıları daha ağır idi? Gecələri belə qışqıraraq və zarıyaraq yatmağa çalışan və yata bilməyən anasının, yoxsa anasız qalmış Hectorun? O zamanla anasını anlamağa və bağışlamağa başlamışdı. Ölümdən sonra onu kimsəsizlər evinə, bir yetimxanaya yerləşdirmişdilər. Ona uzun müddət istədiyi vaxtı anasının məzarını ziyarət emə şansı vermişdilərsə də o getməmişdi, incik idi. Ancaq hər gecə anasının çığlıqlarını eşidirdi yuxularında və yetimxananın koridorlarında, "bu ağrılara dözə bilmirəm həkim", əks-səda edirdi anasının səsi qulaqlarında. Bir müddət sonra o anlayırdı artıq, böyüyürdü. Anası, hər ikisi üçün düzgün olanı etmişdi. Yavaş-yavaş əriyib getməsinə səbəb olan xəstəliyi onsuz da onun canını alacaqdı qısa müddətə və Hector onsuz da kimsəsiz qalacaqdı. Anası sadəcə ağrılarından tez qurtulmağa və Hectorun heç olmasa yetimxanaya gedərək daha yaxşı bir şəraitdə olmasına çalışırdı. Onsuz da, evdə dövlətin onlara xəstə anası və atasızlığı səbəbilə verdiyi yardım ilə olduqca çətin şəraitdə yaşayırdılar. Üstəlik balaca Hector xəstə anasının qayğısına qalmaq zorunda idi. Anası onu xilas edirdi əslində gedişiylə. Sadəcə, başqa seçimi olmadığı üçün özünü asaraq vidalaşırdı. Amma bu olduqca ağır olmuş olmalı idi. Tez-tez anasının son anlarını xəyal edirdi, ağlayaraq ipi boynuna keçirməsini təsəvvür edirdi, Hectorun birazdan evə gələcəyini bilərək edirdi bunu. Və buna görə daha da artıq ağlayırdı onu belə bir mənzərəylə üz-üzə qalmağa vadar etdiyi üçün. Bir gün qaçdı yetimxanadan Hector və anasının basdırıldığı məzarlığa getdi ağlayaraq. "Bağışla məni" deyə gözyaşı tökdü anasının məzarı üstündə. "Bağışla daha əvvəl gəlmədiyim üçün ziyarətinə. Bağışla səni qınadığım üçün. Bağışla uşaqlıq etdiyim üçün. Səndən ötrü çox darıxıram ana" deyə fəryad etmişdi onun yeniyetmə ürəyi sinəsində. "Söz verirəm sənə, vəkil olacam bir gün, sənin

istədiyin kimi" deyə söz verirdi əli ilə gözlərin silib anasının yanından ayrılarkən, uşaqcasına.

O böyüdü və sözünü tutdu. Mübairzəsinə sadiq qaldı. Yetimxanadan ayrıldı və hüquq fakultəsinə daxil oldu. Universitet illərində yolları evtanaziya təşkilatlarından biri ilə kəsişdi. Bir müddət üzvlükdən sonra öz dostu ilə birlikdə artıq vəkillik etdiyi illərdə "Ölmə haqqı" adlı təşkilatı qurdu. Anasının fəryadları hələ də qulaqlarında idi. Sadəcə insanların daha rahat və ağrısız ölə bilmələrini istəyirdi. Onun üzündə yaşamış olduğu həyatın hüznünü hiss etmək olurdu. Olduqca hüznlü, qəmgin və özünə məxsus üz quruluşu var idi. Əsil "ölmə haqqı" deyə bir adı olan təşkilatın qurucusu olacaq bir üz ifadəsinə sahib idi.

* * *

Bir müddət sonra onun "Evtanaziya kampları" layihəsi müvafiq qurumlar tərəfindən təsdiqləndi və ölmə haqqı təşkilatı dövlətlə iş birliyinə başladı. Həmçinin adlarını keçmişdəki intihar və edamlarda istifadə edilən bitkidən, həm də Sokratı öldürən *conium maculatum* bitkisindən alan başqa bir təşkilat, Hemlock Cəmiyyəti də onlara qoşuldu. Layihə həm də ona görə təsdiqlənmişdi ki onlar evtanaziya kamplarını şəhər xarici ərazilərə, təbiət qoynuna, dağlıq ərazi kimi yerlərə daşımağı təklif etmişdilər. Bu həm o şöbələri şəhərlərdən uzaqlaşdıraraq bu tip neqativ məkanların insanların gözü önündə olmamasına kömək edəcək, həm də zərərçəkmişləri son mənzilə yola salarkən onlara axırıncı dəfə təbiət qoynunda dinclik bəxş edəcəkdi. Üstəlik insanlar ani intihar qərarlarında uzun bir yol getməli olacaqdılar deyə onları ani qərarlardan yayındıracaqdılar. Layihə üçün ayrıca maliyə fondu yaradılmışdı. Fonda həm dövlət tərəfindən dəstək olunacaqdı, həm xüsusi şirkət və varlı şəxslərin bağışları, həm də zərərçəkənlərin özləri son mənzilə gedərkən istədikləri halda öz var-dövlətlərini

təşkilata bağışlaya biləcəkdi. Onlara həmçinin istədikləri halda öz var-dövlətlərini kimsəsizlər evinə bağışlamaları üçün də lazımi tədbirləri görməkdə köməklik ediləcəkdi. Yığılacaq maliyyədən isə kamp ziyarətçilərinə son günlərini xoşbəxt keçirmələri üçün nə lazımdırsa təchiz ediləcəkdi. Kampda xüsusi ziyafətlər təşkil olunacaqdı, diləyənlər üçün dağ gəzintiləri və dağ kampı proqramları, yenə diləyənlər üçün xüsusi psixoloqlar olacaqdı. Son etiraflarını emtək istəyənlər üçün qrup söhbətləri, psixoloq və ya rahiblər olacaqdı. Həmçinin diləyənlər üçün alkoqol, tibbi marixuana, tibbi mdma və digər bir sıra xüsusi psixoaktiv maddələrin istifadəsinə də icazə veriləcək və şərait yaradılacaqdı. Onlar üçün bir sıra ölüm alternativləri də təklif olunacaq və həyatlarını istədikləri formada sona çatdırmalarına icazə veriləcəkdi. Hələlik ölkənin qərbində bir, cənub-şərqində iki dispanser qurulacaqdı, sırasıyla Oreqon, Kolorado və Floridada.

* * *

3

# LARA

“Nə fikirləşirsən belə?”  dedi qapıya söykənmiş Lara.

Fikri dağıldı və dönüb qapıya söykənmiş Laraya baxdı. “Oyanmısan” deyə mızıldandı özünü təsdiqləmə ifadəsiylə. Dünən gecə evin yaxınlığındakı barda tanış olmuşdular. Uzun müddət sonra ilk dəfə sözün əsl mənasında bəyəndiyi bir qadınla tanışmış və gecəni birlikdə keçirmişdi. Son vaxtlar getdikcə pisləşən əhvalı onu daha da yalnızlaşdırır və kimləsə danışmasına ya tanışmasına əngəl olurdu. Buna görə də indilərdə barlara gedib barın ən küncündə oturub tək içir və sadəcə ətrafı müşahidə edirdi. Çox vaxt lap kimləsə tanış olmaq istəsə belə buna müvəffəq olmur, mümkün olası dialoqları özlüyündə təsəvvür edir sonra tanışma fikrindən daşınırdı. Artıq sadəcə müşahidə ilə kifayətlənirdi. Ayaqları ilə musiqinin ritmini tutar, bir-bir ordakı insanlara baxar və onlarla bağlı hekayələr uydurar, sonra da o hekayələrə inanardı. Bəzən  hətta o qədər dərin xəyala dalardı ki baxdığı qadınlar onun tam gözünün içinə baxsalar da onları görməzdi. O da onların gözünə baxardı, ancaq qarşı tərəfin baxışlarından xəbərsiz olardı. Bu bəzən ona baxan qadınları narahat edərdi və tez baxışlarını uzaqlaşdırardılar. Onunsa gözləri yenə olduqları yerə zillənmiş olaraq qalar və sanki gündüz yuxusuna dalardı.

Dünən gecə də elə olmuşdu və o yenə həmişəki küncündə təkcə oturardu. Ta ki Lara gələnədək. Birdən birə onun masasında peyda olmuşdu. “Burda belə tək oturduğuna görə ya çox utancaq ya da çox xüsusi biri olmalısan” deyib gülümsəmişdi . O isə nə deyəcəyini bilməyib çiyinlərini çəkmiş və bu gözəl gözlü mələyin sanki ona ən yalnız günündə göndərilmiş bir xilaskar olduğunu düşünmüşdü. Sərxoş və düşüncəliydi. Özünə gəlib Larayla normal ünsiyyətə girməsi biraz vaxt almışdı. Bir neçə dəqiqə gözlərini ovuşdurub ətrafa baxınmış sonra masasında əyləşən bu yad qadına baxmışdı. Laraysa ona maraq dolu baxışlarla baxmağa davam edir və gülümsəyirdi. “Yaxşısan?” deyə soruşmuşdu Lara onun bu qəribə vəziyyətini görüb. Nəhayət ki dilə gəlib “Belə də, yaxşı demək olarsa. Sən necəsən?” deməyə müvəffəq olmuşdu. Sonra onlar tanışmış, gecəyə qədər söhbət etmiş və nəhayətində onun evinə gəlmişdilər. Evə doğru sərxoş addımlarla aşa-aşa gedərkən Lara ona onun haqqındakı ilkin fikrində yanılmadığını və onun təxminən xüsusi və utancağın arasında bir insan olduğunu demişdi. O da Laraya dönərək “Üzündə çox qəribə tanış bir ifadə var. Deyəsən yuxularımda həmişə gördüyüm ya da görmək istədiyim o üzünü xatırlamadığım qadınsan. Səni gözləyirdim” demişdi.

Beyin qarşıdakı insana güvənilib güvənilməyəcəyinə 100 millisaniyədə qərar verir, bir ürək döyüntüsündən də tez müddətdə. Qadınvari və uşaqvari üzlər daha tez güvənilir və sevilir. O da Laraya bir ürək döyüntüsündən də tez müddətdə vurulmuşdu barda başını qaldırıb ona baxdığı anda. Onu ayıq başla seyr edə bilməmişdi hələ ki. Azca sərxoş idi yenə amma indi daha aydın görürdü və daha da çox vururlurdu. Lara qapıya söykənib ona baxmaqda davam edirdi. O iri və ecazkar gözləri ilə baxırdı. Dolğun dodaqları və həcmli saçları varıydı. Bütün bunlar ona qeyri adi ehtiraslı bir görünüş verirdi. Baxdıqca sanki dodaqlarına qan dolur və daha da qızarırdılar. Ancaq bir tanrının belə dodaqları ola bilərdi.

Dolu amma incə ayaqlarını, hündür boyunu, geniş çiyin-

lərini və sinəsini təkrar süzdü. Bədən dilini və özünə inamını süzdü. Üzündəki gizli hüznü süzdü və ona hər baxışında təkrar vurulduğunu anladı. Üzündə, özündə gördüyü hüznü görə bildiyi qadınları sevirdi daha çox. Ortaq ağrıları olan insanları. Dərdləri olmuş insanları daha çox sevirdi, çünki yanlarında rahat ola bilirdi. Heç vaxt özünü bədbəxt hiss etməmiş insanların yanında özünü pis hiss edirdi. Laranın üzündə görmüşdü amma o hüznü, ilk anda. Bəlkə bütün o sahib olduğu ehtiras bir yana, sadəcə o hüznü üçün ona bir gecədə bu dərəcədə bağlanmışdı. Həm də keçirdiyi bu son bədbəxt günlərində ən çox ehtiyacı olduğu üz idi. Gözlərini altındakı naməlum qaraltılar üzündəki hüznü daha da gücləndirirdilər deyə düşündü. Sonra bəlkə də onu sadəcə anasına oxşayırdı deyə bəyənmişdi deyə düşündü. Çünki atasının genləri də bu fenotipə sahib qadınları bəyənmişdi və o da eyni genlərə sahib idi. İnandığı yarı-deterministik həyatı təsdiqləyirdi sanki bütün fikirləri. Ya da tezisini dəstəkləmək üçün fikirlərini manipulyasiya edirdi.

Evdə içməyə nəyinsə olub olmadığını soruşdu Lara. O da ona mətbəx dolablarını göstərərək sağdan birinci dolabın içində çay və kofe olduğunu dedi. Olduqca kiçik bir mənzildə qalırdı. Qapıdan bir başa salona girirdin və salon mətbəx ilə birləşik kiçik bir otaq idi, girişin sol tərəfində isə əlavə bir kiçik yataq otağı var idi. Dolaba doğru getdi Lara və dolabın qapısını açarkən "nə fikirləşirdin, demədin," deyə soruşdu təkrar.

"Nə bilim, ordan burdan, Evtanaziya kamplarını düşünürdüm," dedi və Lara bir əlində fincan dönüb ona sarı baxdı çaşmış və təəccüblü formada.

"Nəyini düşünürdün?" deyə soruşdu və biraz dayanıb davam etdi "Bunun etik olub olmadığını, yoxsa nə?"

"Nə bilim, elə hər şeyi" deyə cavabladı qeyri əmin formada çiyinlərini çəkərək.

Lara əlində iki fincanla ona doğru yaxınlaşdı. Fincanları alçaq və kiçik masanın üzərin qoydu. Ondan siqaretinin olub olmadığını soruşdu, siqareti aldı, təşəkkür etdi və əlini bükərək

siqareti yandırdı, dərin bir nəfəs, sonra tüstünü buraxdı, kofedən bir qurtum alıb fincanı yavaşca masaya qoydu və gözlərin zilləyərək ona baxdı: “Yəqin” bir qədər susdu, “.. - düşündüyüm şeyi düşünmürdün də hə?” deyə soruşdu quru bir səslə. O da baxışlarını ona çevirdi. Bir-birlərinə baxdılar. Otağa ölü səssizlik çökdü. Pəncərənin azacıq açıq olan yuxarı hissəsindən otağa küçənin səsi daxil oldu və uzaqlaşan bir mator səsi sükutu pozdu. Yenə də dillənmədilər. Lara üz ifadəsiylə ona sualın cavabını gözlədiyini işarət etdi. O yenə susurdu, doğru kəlimələri tapa bilmirdi. “Kamplara qatılmaq istəyirsən?” deyə soruşdu ondan. O da, “Bilmirəm” deyə cavab verdi.

“Mənə görə bu axmaqlıqdır” Lara əlavə etdi bir qədər sonra.

“Nədir axmaqlıq?”

“O kamplar. Onlar sənin kimi qərarsız insanların qərarlarına təsir edirlər. Elə deyil?

“Onlar sadəcə kömək edirlər. Mənə gəldikdə isə, mən çoxdan bunu düşünürdüm”

“Ancaq heç vaxt etmirdin.”

“Çünki buna ehtiyac yox idi və xoşbəxt idim”

“İndi nə olub bəs, həyat sənə mənasız gəlir deyə özünü öldürmək istəyirsən?”

“Yox əşi,” başını yellədi inkar edərək, “Çox yersiz arqumentdir. Heç sevmirəm. Heç kim həyat mənasızdır deyə özünü öldürmür. Həyatın mənasız olduğunu bilib və qəbul edib yaşayan nə qədər insan var. İnsan sadəcə həyatdan aldığı zövq bitdikdə ayrılmağa qərar verir. Bioloji xoşbəxtlik üçün mənaya ehtiyac yoxdur. Necə ki itlər xoşbəxt olanda tullanıb düşüb sahiblərini yalayırlar insan da elə. Onlar nəinki həyatın mənasının olmadığını bilmir, bunu hətta düşünə belə bilmirlər. Yəni xoşbəxtlik hormonal prosessdir. Həyat çox mənasızdır, mən özümü öldürəcəm sözünü ancaq dünya ilə yeni tanışan və böyük ehtimal özünü öldürməyəcək olan yeniyetmə işlədə bilər. O ancaq xoşbəxtliyi bitdiyi anda öz intihar aktını yerinə yetirmə barədə düşünə bilər. Kimyəvi olaraq sadəcə iki şeydən zövq alırıq serotonin və dopamin. Geri qalanı təfərrüatdır. İn-

san ancaq zövq qaynaqları azalanda ya yox olanda məna daha doğrusu mübarizə axtarışına başlayır. Mübarizənin belə mənaya ehtiyacı yoxdur, beynini kimyəvi olaraq bəslədiyi müddətcə. Həyatda istənilən mübarizənin mənasızlığını başa düşsə belə insan, bu o mübarizə üçün savaşmağın mənasız olması demək deyil. Ümumiyyətlə mübarizələr mənadan doğmur müxtəlif hisslərin birləşməsindən doğur. Humanist təşkilat könüllüləri insanlara kömək etməyi mənalı iş olduğu üçün yox bu işi sevdikləri üçün edirlər. Mərhəmət hisslərini doyuraraq beyinlərinə serotonin, dopamin, oksitosin kokteyli içirərək xoşbəxt hiss edirlər. Ya da sadəcə diqqətlərini dağıtmaq başlarını qatmaq üçün edirlər. Belə baxanda başqasına kömək etməyin, altruizmin kökü yenə eqoya dayanır, çünki etdiyin şeydən həzz alırsan. Hansısa bir yaxşılığı mənalı olsun deyə etdiklərini deyən insanlar yaxşı mənada riyakardırlar yəni. Sərxoşam deyə söhbətdən əməlli yayındım."

"Bəs sənin dərdin nədir? Xoşbəxtliyin bitib? Ya həyat çoxmu bərbad yerdir deyəmi?"

"Mən sadəcə yorğunam. Həyatım əziyyətinə dəymir. Ən azından mənim üçün, mənim çəkdiyim əziyyətə dəymir. Bəsit bir işçi sinifi nümayəndəsiyəm və qarşılığında aldığım xoşbəxtlik bəs etmir. Sadəcə taqətim qalmayıb davam etməyə. Elə bil çiyinlərimdən daşlar asılıb və mən sonsuz dik pilləkənləri qalxıram yavaş-yavaş."

Dedi və bir siqaret yandırdı. Bir qədər dayandı, fikirləşdi və davam etdi: "...və , xeyr. Həyat bərbad bir yer deyil məncə. Əksinə, həyat olduqca gözəldir deyə düşünürəm. Ancaq əgər sən o gözəllikdən istifadə edə bilirsənsə. Resursların ya maddi vəsaitin varsa. Əks təqdirdə zülümdən başqa bir şey deyil. Elə bil ki bir həbsxana düşün, kənarlarda dəmir barmaqlı hücrələr və içində yalnız və heçnəsiz məhbuslar. Bu hücrələri birləşdirən ortadakı böyük salonda isə fahişələri düşün və ortalıqda gəzişən nəzarətçilər. Həyat o fahişələrdir, nəzarətçilər isə həyatın dadına baxa bilənlər, baxa bilmə şansı olanlar. Məhbuslar isə kasıblar, əziyyət çəkərək yaşa-

yan insanlar, yalnızlar, kimsəsizlərdi. Səncə o məhbusların özlərini öldürməsimi yerində olardı, yoxsa ömrü boyu oturub xoşbəxt insanları- nəzarətçiləri izləmələrimi?”

“Bütün məhbuslar həmişə həbsdə qalmır”

“Optimizm. Elədir. Buna görə də onların bəziləri oturub həyatın bir gün nə vaxt onların da üzünə güləcəyini, digərləri isə bu zillətdən canlarını qurtarmağı seçir. Tamamilə şəxsi seçim məsələsidir. Vəssalam. Ortada doğru ya da səhv qərar yoxdur. Bütün əzab çəkənlər özlərini öldürməlidir ya da gözləməlidirlər deyə bir şey yoxdur. Bu riyaziyyat deyil, həyatdır və həyatın konkret bir formulası yoxdur. Necə yaşamalı, necə ölməli ya nə vaxt ölməli.” Kofeden bir qurtum aldı, davam etdi: “O məhbusları da onsuz həyatda saxlayan ümiddir, bir gün hər şey yaxşı olar ümidi, oturub Qodotu gözləyirlər, gözləri yaşlı.”

“Nəyi gözləyirlər?”

“Qodotu”

“O nədir?”

“Nə olduğunu Samuel Beckettdən soruşmaq lazımdır. Onun bir pyesinin adıdır. Qodotu gözləyərkən. Əsərdə iki absurd qəhrəman nə etdiklərini niyə etdiklərini bilmədən hər gün görüşüb Qodotu gözləyirlər. Əgər Qodot gəlsə hər şeyin yaxşı olacağını düşünürlər. O isə heç vaxt gəlmir. Qodot hər şey ola bilər. Kimsə, ya pul, yaxşı iş, bir sevgili, ya da bütün insanların ömrü boyu gözlədikləri o gün, o gün ki bir gün hər şeyin yaxşı olacağını sanırlar. Bir gün birilərinin gəlib onlara əl uzadıb, hey, sən, ordakı, gəl mənimlə, sən xoşbəxtliyə layiqsən deyib onlara xoşbəxt həyat bəxş edəcəyi kimsədir Qodot bəlkə də. Ancaq o gəlməyəcək.” Susdu bir qədər. “Əgər sənə maraqlıdırsa kitabını və ya teatr formasında hazırlanılmış filmini izləyə bilərsən” təkrar susdu. “Qodot” dedi, “pul belə olsa, bir qadın, bir sevgili, yaxşı həyat belə olsa, insan doyumsuzdur və onun gəlməsi onu doyurmayacaq. Yenə əvvəlki kimi olacaq əhvalı. Deməli Qodot bunların heç biri deyil. Çünki Qodot gəlsə, hər şey yaxşı olmalıdır”. Bir qədər

aradan sonra əlavə etdi: “Qodot, bəlkə də sadəcə bir avtobus şoferidir”

“Yəni doyumsuzluq insanı xoşbəxt olmağa icazə vermir deyirsən?”

“Demək olar ki, hə. Daha doğrusu belə deyək, insan doyumsuz olduğu üçün yox, onu məmnun edəcək, doyuracaq qaynağı bitdiyi anda qəmginləşməyə başlayır. Yəni məsələn düşün ki insanın içində bir ağac var, xoşbəxtlik ağacı deyək və insan doyumsuzluğunu bir dənizə bərabər etsək deyək ki, insan o dənizdən hər gün öz xoşbəxtlik ağacını qoruyub saxlamaq üçün bir fincan su götürüb tökməlidir. Sən o dənizi əlindən alsan o insanın, xoşbəxtliyi quruyub yox olacaq. Ya da özünə susuz yaşamağı öyrətməlidir. Bir buddist rahib kimi. Halbuki bu da, asan deyil. Ən azından mənə görə deyil. Dediklərimin hamısı da subyektib həqiqətlərimdir bu arada,” - deyib dayandı, sonra fikrini bitirdi, - “bilirsən də necədi, insan doyumsuzluğu bir dəniz qədər böyükdür, hər dəfə düşünürsən ki bu dəfə bir fincan yox beş fincan götürsəm çox xoşbəxt olacam, ancaq olmursan. Çünki heç vaxt doymursan. Daha doğrusu, düşündüyün qədər xoşbəxt olmursan, ancaq yenə də xoşbəxtliyin davam edir, nə vaxt ki o su sənə bəs etmir ya da dənizini əlindən alırlar, onda ölümü düşünürsən. Bilmirəm, bəlkə də yanılıram. Bəlkə də bu sadəcə məndə belədir. Daha az şeylərlə xoşbəxt olan insanlar da var. Mənim həyatım narkotik kimidir, hər dəfə daha artıq dozaya ehtiyac duyuram, yoxsa bezdirici gəlir” - sonra dediklərini öz ağlında ölçüb biçirmiş kimi düşüncəyə daldı və əli ilə üzünü silərək sonlandırdı: “Bilmirəm, bilmək də istəmirəm. Sadəcə, artıq özümü bir torf kimi hiss edirəm. Sanki sinəmdəki ümidlər bataqlıqda cücərməyə çalışan bitkilərin çürümüş qalıqları kimi torfa çevriliblər və bir kibrit vursan alışıb yanacam.”

Sualların içinə qərq olmuş vəziyyətdə ayağa durdu, pəncərəyə yaxınlaşıb çölə boylandı. Geri döndü. Soyuducuya yaxınlaşdı, açdı, içəridə nələr olduğuna göz gəzdirdi, bağladı. Laradan bir şey yemək istəyib istəmədiyini soruşdu. “İştahım yoxdu” dedi Lara, “mənim də” dedi o da.

Bir qədər sonra Lara səssizliyi pozaraq dilləndi “Nə olur olsun, məncə bu kamplar, tamamilə axmaqlıqdır, bunun üçün peşman olacaqlar bir gün və yəqin ki bağlayacaqlar.” Sanki yaxın birini kamplarda itirmiş kimi qəmgin və bikef danışırdı. “Bir gün onlar küçələrin boşaldığını hiss edəcəklər. Evlərin boşaldığını. Küçələrdə kimsəsiz uşaqların artdığını. Mən hələ də bütün bu olanlara inana bilmirəm. Bəzən hətta az qala inanasım gəlir ki bu dövlətlərin artmaqda olan əhali sayını azaltma üsuludur. Həm də çox ağıllı formada zəifləri öldürürlər. Adını da seçim azadlığı qoyublar. Liberalizimmiş, Demokratiya imiş. İnsanların əllərinə belə qərarları buraxmaq olmaz. Demokratiya və  liberalizmin də bir sərhəddi olmalıdır”

“Bilmirəm. Bəlkə də haqlı ola bilərsən. Kamplar cəsarətsiz insanları cəsarətləndirir bəlkə də. Bilmirəm. Tək bildiyim situasiyanın mənim xeyrimə olmasıdır. Başqa heçnə vecimə deyil. Nə kimlərinsə ölməsi ya bütün insanlığın nəslinin kəsilməsi ya da situasiyanın doğurduğu əxlaqi normlar vecimədi. Mən sadəcə yorulmuşam. Taqətsizəm. Heçnə etmək istəmirəm.”

“Son vaxtlar yaşadığın depressiyalar və yalnızlıq səbəbilə normal düşünə bilmirsən artıq məncə. Öz pessimist fikirlərini təsdiqlədikcə təsdiqləyir və daha da dərinə batırsan”

“Məndən normal davranmağımı gözləyə bilməzsən, sahib olduğum bütün bu yaralarla birlikdə.”

“Bilirəm, dünən danışdığımız hər şey yadımdadı. Mənə bir vaxtlar oxuduğum Donjuançılıq essesini xatırladırsan. Qadınlara düşkün və mümkün qədər fərqli qadınlarla birlikdə olmaq istəyən kişi. Hiperseksuallıq var səndə. Gözəl səslənir, amma esseni oxuyanda da fikirləşmişdim ki belə bir adamı qadınlarından uzaq saxlasan nə olar? Məhv olar. Qarşımda dayanıb indi o qəfəsə salınmış Don Juan. Məncə sən qadınlarından uzaq qalmısan. Dünən mənə ehtiras tanrısı deyirdin amma sənə həqiqi ehtiras tanrısı belə bəs etməz. Ona belə xəyanət edərsən. Yanlış anlama, qınamıram səni, bəziləri yaşamaq üçün yaradılıb, bəziləri sevmək üçün. Sən, sevməlisən. Bir yolunu tap ya geri dön əvvəl yaşadığın yerlərə, bu lənət ölkədən

ya bu soyuq şəhərdən çıx get ya da nəsə başqa bir şey, yoxsa az qala özünü öldürəcəksən"

"Məsələ sadəcə qadınlar deyil. O işin asan tərəfidi. Məsələ çox qarışıqdı. Bütün nostalgia xəstəliyini filan bir kənara qoysaq da, işləmək də istəmirəm artıq. Uzandığım yerdə özümü günahkar hiss etmək istəmirəm. Vaxtımın getdiyi üçün özümü günahkar hiss etmək istəmirəm. Heçnə etmədiyin üçün günahkar hiss etmək ya da özünü nəsə etməyə məcbur hiss etmək. Yerində boş-boş otura bilməzsən, çünki ay sonu kira ödəməlisən. Bir maşında yaşasam məsələn istədiyim vaxt oyanıb istədiyim vaxt yatsam. Kiməsə kira vermə dərdim olsun istəmirəm. Ancaq bu ölkədə bu çətindi. Başqa ölkəyə gedəcək həvəsim də qalmayıb. Yaşamağı çox çətinləşdiriblər. Heyvanlar bizdən şanslıdı. Bu lənət olası ölkəyə nifrət edirəm amma həm də dəlicəsinə sevirəm. Özümü bu torpaqlara aid hiss edirəm. Sanki onsuz da burda doğulmuşam kimiyəm. Ya da sanki orda doğulmuşam kimi hiss etdiyim dörd beş yer var və hamısı üçün darıxıram. Bəlkə də Avropada qalmalıydım. Bəlkə də durduq yerdə özümə xəstəlik yaradıram. Bildiyim tək şey var, Sinəmdəki lənət yara hər gün böyüyərək sonsuz bir irinə çevrilir.

Lara ayağa durdu. Onun yanına gəldi və onu qucaqladı. İki yenicə tanışmış yad insan sanki illərdir tanış imişlər kimi qucaqlayırdılar bir-birini. Sanki illərdir axtardıqları insanı tapmış kimi bir gecədə bir-birlərinə vurulmuşdular. Hər ikisi bu anın heç bitməməsini diləyirdi eyni anda. Sonsuza qədər bir-birlərini qucaqlayıb buraxmamaq. Oradaca, ayaqdaca durub, qucaqlayıb, ölənə qədər ağlamaq istəyirdilər, xoşbəxtlikdən ya bədbəxtlikdən. Dünən bütün gecəni də bir-birini qucaqlayaraq yatmışdılar. Baxmayaraq ki ikisi də qucaqlaşıb yatmağı xoşlamırdılar amma bu son günlərində sanki ikisi də sevgiyə möhtac idilər. Lara onun çiynindən başını qaldırıb üzünə baxdı və "kaş ki səni çox daha əvvəl tanısaydım" dedi. O Laranın yanağından aşağı süzülüb gedən tək göz yaşı damlasını izlədi. Sonra damlanın gedib durduğu yeri, dodaqlarının birləşdiyi kənarı

öpdü yavaşca. Lara da onun dodağından öpdü və öpüşməyə başladılar. Bir-birini çox şiddətli formada öpürdülər, sanki hər ikisinin yer üzündəki son öpüşləriymiş kimi.

Sonra o birdən dayandı. Kənara çəkildi. Sanki qorxurdu. Sanki vurulmaqdan və ayrıla bilməməkdən qorxurdu. O sanki yaşamaq üçün yaranacaq istənilən bəhanədən qaçırdı. Fikrinin dəyişməsini istəmirdi. Hətta Laraya baxmağa belə cəsarət etmirdi sanki. Sanki baxdıqca vurulurdu ona. Gözlərinə, gözlərinin içində gördüyü o insana, saçlarına, bədəninə, hər şeyinə. Sanki həyatın onu son anda sınamaq üçün göndərdiyi ehtiras tanrısıydı və onun qarşısında özünü həyata uduzmuş hiss edirdi.

"Mən getməliyəm. Görüləsi bəzi kiçik işlərim var. Axşama qayıdaram. Burda olacaqsan? Sənə əlavə açarı buraxa bilərəm. Al, bax burdadı," açarı masanın üstünə buraxdı. Lara heç nə demədi. O yataq otağına keçdi. Dolabdan bir şeylər götürüb cibinə qoydu. Sonra yan otağa keçib üzünə soyuq su vurdu. Başını qaldırıb sınıq güzgüyə baxdı. Bir də su vurdu. Sanki nədənsə ayılmağa çalışırdı, amma ayılmaq istədiyi sərxoşluğun içdiyi içkininmi yoxsa yan otaqdakı qadınınmı sərxoşluğu olduğundan əmin deyildi. Üzünü köynəyi ilə quruladı. Salona keçdi. Laraya yaxınlaşdı və onu son dəfə qucaqladı. "kaş ki heç tanışmasaydıq" dedi.

Qapını açıb çölə çıxdı və getdi.

* * *

# 4

# SAUDADE

*- Heyvanların göz yaşı tökmədən*
*ağladıqlarını bilirdinizmi?*

Yaxınlıqdakı sahilə doğru yeriməyə başladı. Laraya yalan demişdi. Edəcək çox da vacib bir işi yox idi. Nə evdə oturmaq istəyirdi, nə də yanında kiminsə olmasını. Depressiv hiss edirdi və üzündəki heç bir əzələni tərpətməyə taqəti yox idi. İçkinin köməyi dəyməmişdi. Belə əhvalla oyandığı sabahlara nifrət edirdi. Neqativ fikirlər sarırdı bütün beynini və içinə getmə istəyi dolurdu. Keçmişdən xoş xatirələr yaddaşını ələ keçirir və onu boğurdular.

Keçmişdə bu qədər ilişib qalmış olmasının səbəbi onun yaşam formasıydı. Həmişə bir yerlərdən qaçmışdı. Özünü tanıyandan qaçırdı. Davamlı olaraq bir şəhərdən başqa şəhərə, başqa ölkəyə, başqa qitəyə köçmüşdü. Bəziləri planlı, bəziləri plansız olmuşdu. İndi olduğu nöqtədən geriyə dönüb baxanda, bu qədər vaxta o qədər şeyi necə sığdırdığına bəzən çaşıb qalırdı. Normal bir insanın həyatında tanıyacağı insan sayısından bəlkə də qat-qat artıq insan tanımış, hər cür insan tipi görmüşdü və bu onu həmişə valeh etmişdi. Nə qədər fərqli insanın var olmuş olması. Milyardlarla nəfərlik dünya-

da, milyardlarla hekayə var idi. Hər insanın bir hekayəsi var idi və o hekayələri sevirdi.

Yeni şəhərlər, yeni insanlar və yeni kitablar onun bəlkə də həyatdakı tək devizi olmuşdu bir vaxtlar. Heç vaxt doğulduğu yerdə ölən insanlardan olmaq istəməmişdi. Sıxıcı gəlirdi bu düşüncə və yaşam tərzi ona. Vətəndə xan olmaqdansa, qürbət eldə dilənməyi üstün tutmuşdu həmişə. Dilənə-dilənə də yaşamışdı elə başqa ölkələrdə. Hər şəhərdə, hər ölkədə sıfırdan başlamışdı hər şeyə. Heç vaxt peşman olmamışdı. Olacağını da sanmırdı. Onu həyatda tutan tək istəyin bu olduğunu bilirdi. Getmək. Amma hara qədər?

Eyni şəhərdə belə olsa, canı sıxıldığı zaman evini və işini dəyişməliydi. Bir yerdə ilişib qalmaq onu boğurdu. İçində bitmək tükənmək bilməyən bir maraq hissi var idi həmişə. Öyrənmə hissi. Başqa dünyaları, başqa insanları, başqa mədəniyyətləri görmə, bilmə və öyrənmə.

Köçəri həyat yaşamışdı. Və bunu sevmişdi. Həyatının heç bir dövründə bəhrəsini sonra görəcəyi şeylər etməmişdi. Planlı yaşamamışdı. Çəkinmişdi bu şeylərdən. Heç vaxt bitirməyəcəyinə əmin olduğu Universitetlərdə oxumuşdu məsələn. Əvvəlcə bir müddət psixologiya, sonra fransız dili və ədəbiyyatı, sonraysa fəlsəfə oxumuş və hamısını da yarım buraxmışdı. Ona görə yox ki nə istədiyindən əmin deyildi, ona görə ki hər şeyi istəyirdi. Həm də məsələ nəticə deyildi, əsas prosses idi onun üçün. Nəticə heç vaxt ona maraqlı deyildi. Əsas gedişat idi. Əsas bir çayın suyu kimi axmaq idi, o çayın gedib harasa tökülməsi yox. Gələcəyini heç vaxt düşünməmişdi. Ya da o qədər xoşbəxt olmuşdu ki anın içindən ayılıb gələcək təlaşıyla yaşamaq istəməmişdi. İnsanın keçmişində ilişib qalması kimi, gələcək təlaşıyla yaşamasını da qəbul edə bilmirdi. Çünki insan içində yaşadığı anı yaşamamış olurdu elə olan halda. Sırf daha sonra pul qazanmaq xətrinə sevmədiyi bir şeyləri öyrənmək üçün vaxtını sərf etməmişdi heç vaxt. İstəməmişdi bunu. Bəlkə də bütün həyatı boyu sevmədiyi işlərdə işləmişdisə də, bəhrəsini ən azından paralel

olaraq eyni anda görmüşdü. Ya da ən azından, özünün dediyi kimi, başqa şəhərlərdə başqa ölkələrdə olmuşdu həmin sıxıcı, yorucu bəzənsə macəra dolu işlər.

Hər an öləcəkmiş kimi yaşamışdı. Ölümü həmişə sağ cibində gəzdirmişdi. Və bu onu rahatlatmışdı həmişə. Hər an öləcəkmiş kimi yaşadığı üçün də daim tələsmişdi, başqa şəhərlərə, başqa ölkələrə, sanki hər an bir maşın qəzasına qurban gedə bilərmiş kimi hiss etmiş və ona görə hərəkət etmişdi. Sanki ölümün həmişə onun iki addım gerisində olduğunu hiss etmişdi. Ona görə də bu kiçik həyatına bir çox şeyi sığdırmış və indi onların əksikliyində qıvrılırdı.

Əgər bir gün sahib olduğun xoşbəxtliyi itirsəm ya da gələcəyi planlamadan yaşadığım üçün gələcəyim bir tıxaca girsə çıxış yolum sağ cibimdəki ölümdür demişdi.

Sağ cibində həmişə ölümü gəzdirməyi bacara bilmənin də şərtləri var idi amma. Bağlanmaq olmazdı, ailə olmazdı, uşaq olmazdı. Səni tərəddüdə salacaq heçnə olmazdı. Bəlkə də buna görə o həmişə qaçmış, yer dəyişdirmişdi. Bir vaxtlar həyatında məna kəsb edən insanların heç biri ətrafında deyildi indi. Ailəsindən və uşaqlıq dostlarından okeanlarca uzaqdaydı. Harda necə olduqlarını belə bilmirdi, bilmək də istəmirdi.

Anasının və xəstə bacısının ölümündən sonra daha yaxşı anlamışdı, bağlanmaq, bir insanı çox sevmək olmazdı. Yoxluğu da bir o qədər ağrı verəcəkdi çünki. Hər an hər kəsi və hər şeyi itirməyə hazır olmalısan. Elə o günlərdə qərar vermişdi: heç vaxt uşaq sahibi olmayacaqdı. Bağlanmaq olmazdı. Bəlkə də anasının və bacısının ölümü idi onu bu qədər uzaqlara aparan. Mümkün qədər uzağa qaçmağa çalışmışdı ağrını unutmaq üçün. Diqqətini dağıtmağa çalışmışdı. Ölümün və həyatın absurdluğu ilə ilk dəfə onda üz-üzə qalmışdı, hər gün birlikdə olduğun insan durduq yerdə birdən birə ölə bilər. İlk başda qəbullanmaqda çətinlik çəkirsən, başa düşmürsən, sonra qəbullanırsan. Əsl ağrı ilə baş-başa və yalnız qalırsan, birini anidən itirməyin və onun yoxluğunun ağrısı. Və içində heç vaxt yoxa çıxmayacaq bir yara peyda olur. Ömrünün sonuna qədər sinən-

də özünlə gəzdirəcəyin bir göynərti. Həmişə göynəyəcək, göynəyəcək və göynəyəcək. Həmişə içində qalacaq bir əksiklik hissi, saudade, həmişə hər nə olursa olsun, bir şeylər natamam və əksik olacaqdı. Heç vaxt gəlməyəcək birini pəncərə qarşısında illərcə gözləmək kimi. İçindəki göynərti heç vaxt yoxa çıxmayacaq, sadəcə bəxtin gətirsə bəzən diqqətin dağılacaq və unudacaqdın. O, son illərdə diqqətini dağıtmaqla məşğul idi.

Bəlkə də qadınlara olan hərisliyinin səbəbi də bu idi, diqqətini dağıdırdı. Dilini belə bilmədiyi ölkələrə getmiş, dilini belə bilmədiyi qadınlara vurulmuş və sevişmişdi. Sonra onları tərk etmişdi. Bağlanmaq olmazdı. Tək qayda bu idi. Sanki onu oturaq həyata vadar edəcək hər detaldan şüuraltı olaraq qaçmış, çəkinmişdi. Yanında gəzdirdiyi tək sevgilisi var idi, sağ cibindəki ölüm.

Bəlkə də uşaqlığında həsrətlə izlədiyi o hər payızda uçub gedən qaranquşlardan keçmişdi ona bu getmə alışqanlığı. İçində həmişə bir şeylər əksilmişdi onların gedişini hər gördüyündə. Və baharı gözləmişdi bütün qış. Bəlkə də ona görə qışları sevmirdi. Anasına hər dəfə “hara gedir qaranquşlar hər payızda?” demiş, “isti ölkələrə” cavabını almış və təkrar soruşmuşdu: *bəs biz niyə getmirik?*

Onları gözləmişdi bütün qış və baharın ilk günlərində onları axtarmışdı gözləri. Gəzib gəldikləri yerlər haqqında suallar vermişdi onlara, kaş ki o da onlarla gedə bilsəydi demişdi. Kaş ki sizin kimi qanadlarım olsaydı mənim də demişdi onlara.

Bir gün uçub gedəcəkdi o da. Qaranquşlardan fərqli olaraq o geri dönməyəcəkdi. Hər qış başqa bir yerə uçacaqdı, ta ki yorulanadək. Ta ki o qışların birində ilişib qalıb, bir daha bahar görməyəcəyi o qışa qədər.

Kimliyini unudanadək uçacaqdı, hər ölkədə yeni bir adla başlayacaqdı həyata. Hər ölkədə yeni bir şəxsiyyətə bürünəcəkdi. Uşaqlıqda həsrətlə oturub izlədiyi o göylə yerin birləşdiyi, dünyanın sonu sandığı yerlərə gedəcəkdi. Evin pəncərəsindən oturub izləmişdi o səma ilə yerin birləşdiyi uzaqda görülən həmin düz xətti. Daha da hündürə çıxmışdı daha da

uzağı görə bilmək üçün. Hər dəfə daha hündür ağaclara çıxmış və baxmışdı. Dünyanın sonunu görə biləcəyini sanmışdı. İlk dəfə dənizi gördüyü həmin gün daha da əmin olmuşdu. Bir gün gedəcəkdi. Əslində çox yaxın amma çox uzaq görünən o səma ilə dənizin kəsişdiyi düz xəttin oyatdığı maraq hissinin iziylə gedəcəkdi. Heç vaxt unuda bilməyəcəyi insanlar tanıyacaq, hadisələrə şahid olacaqdı. Bu möhtəşəm həyəcanlar onu daha da uzaqlara aparacaqdı. Eyni şəhərdə qocalmaqdansa Konqo cəngəlliklərində itib  ya And dağlarında saçını küləyə verməyi istəyirdi. Yazmağı yeni öyrəndiyi vaxtlarda kiçik bir dəftər tutmuşdu özünə, yarı rəngli televizorlarında hər gün izlədiyi heyvanlar haqqındakı filmlərdən qeydlər yazdırdı. Tam olaraq niyə yazırdı bilmirdi. Kenquru balasının uzunluğu: 3sm, Avstraliya çölləri, tundralar, iynəyarpaqlılar, adalar və yarımadalar. Nəyin harda olduğunu qeyd edirdi bir-bir. Bir gün gedəcək və öz gözüylə görəcəkdi. Rəngli və canlı olaraq.

Hekayələri sevirdi. Bir həyatın gözəl keçmiş olması ona görə həm də sahib olduğu, yaşamış olduğu  hekayələr idi. Kasıb ya zəngin olması əsas deyil. Əsas yaşanmışlıqlardır. Hekayələrindir. Səni sən edən hekayələrin. Hekayələr həmişə onu cəzb etmişdi. Hekayələri olan adamlar. Həmişə hekayələrin içinə soxurdu özünü və həyatını. Əgər qarşısına bir seçim çıxırdısa, maraqlı hekayəsi olan yolu seçirdi. Hekayələr yaşamış olduğunu göstərirdi, oturub tamaşa etmədiyini. Kimisi tamaşa etməyi sevirdi, kimisi hekayənin içində olmağı, o içində olmağı sevən tərəf idi. Magellanı sevmişdi o, səyyahları və onların həyatlarını, hekayələrini. Bir yelkənli gəminin gövdəsinə dırmaşıb heç gedilməmiş torpaqlar kəşf etmək istəmişdi həmişə. Kaş ki bir yelkənli gəmisi olsaydı diləmişdi həmişə.

Bir çox insan dünyanı gəzmək ya olduqları yerdən qaçmaq istəyərdi ancaq onlar qalmağın təhlükəsiz və rahat zonası ilə getməyin təhlükəli və narahat edici tərəfləri arasında seçim etməli idilər. O seçimini etmişdi. Ona görə sadəcə iki variant var idi: Maraqlı və maraqsız.

Bir çox insan əlbətdəki dünyani gəzmək ya olduqları yer-

dən qaçmaq istəyərdi, ancaq onlar təhlükəsiz və rahat zona ilə olası təhlükəli və narahat şeylər arasında seçim etməli idi. O seçimini etmişdi.

Tanımadığı küçələrdə özünü azdırmaq kimi adəti var idi onun ta uşaqlıqdan, indi tanımadığı ölkələrdə özünü azdırdığı kimi. *Oliver Tvist, Kiçik Şahzadə, Dəfinələr adası* nağılları ilə böyüdəcəkdi özünü. Və onlar kimi *getmək* istəyəcəkdi, uzaqlara. O da bir başqa macərapərəst olacaqdı. Böyüdüyü o balaca şəhərdə, gedə bildiyi qədər uzaqlara getmişdi balaca ayaqları ilə. Hər dəfə yeni küçələr, tərk edilmiş yerlər kəşf etmişdi o balaca şəhərində. Geri dönüb həyəcanla danışmışdı dostlarına, o gün tapdığı tanrının belə unutmuş olduğu yerlərdən.

Bəlkə də buna görə o qədər çox sevinmişdi ilk velosipedinə sahib olarkən. Daha da uzaqlara aparmışdı deyə onu. Səkkiz velosipedi olan bir uşaqdan, təkərləri deşik ilk və son velosipedini almışdı. Heç vaxt o qədər sevinməmişdi, baxmayaraq ki velosipedi balaca idi, boyuna uyğun deyildi və gülünc görüntü yaradırdı. O qədər kiçik idi ki pedalı hər çevirişində dizləri sükana çarpmışdı. Bu onu saxlamamış, hər səhər dizləri sükanı döyə-döyə başqa bir küçəyə getmişdi. Bir nöqtədən sonra getdiyi hər küçə bildiyi bir küçəyə çıxmış və məyus olmuşdu. O balaca şəhər artıq ona bəs etmirdi. Maraq hissi doyumsuzlaşır və daha artıq dozaya ehtiyac duyurdu.

Bildiyi tək şey var idi, yetəri qədər böyüdükdən sonra, bir daha geri dönməmək üzrə gedəcəkdi oralardan. Hər küçəsini əzbərləmiş olduğu o balaca və darıxdırıcı şəhərdən çox uzaqlara gedəcəkdi.

Bilmədiyi tək şey var idi, bağlanmaqdan nə qədər qaçsa da, xatirələr onun yaxasını heç vaxt rahat buraxmayacaqdı. Bir nöqtədən sonra sahib olduğu xatirələrin sancıları incitməyə başlayacaqdı onu və parçalara bölünəcəkdi ürəyi. Darmadağın bir ürəyi gəzdirəcəkdi özüylə hara getsə. Və hara qayıtsa, heç vaxt xoşbəxt olmayacaqdı, zira qayıdılası birdən çox yer olacaqdı. Günahkar, qaranquşlarmıydı?

Sağ cibində ölümü gəzdirərkən, sol cibi ağzına qədər xa-

tirələrlə dolacaqdı. Ta ki bir gün yaxasına qədər dırmaşıb onu öldürəcəkləri günə qədər. O son qışa qədər.

Bunu hesaba qatmamışdı, getdiyi və yaşadığı yerlərin bir gün daş olub ürəyindən sallanacaqlarını. Tarixin və ədəbiyyatın ilk və ən böyük vətən həsrəti çəkmişlərindən biri olan Homerin *Odisseyi* sadəcə evi üçün, Penelopesi üçün darıxırdı, onunsa evi on beş dənəydi, hər ölkədə hər şəhərdə bir ev. Özünü bu qədər zəif sanmamışdı heç vaxt. Xatirələrdə boğulacaq qədər aciz. Bəlkə də məsələ xatirələr deyildi? Bəlkə məsələ xoşbəxtlik idi?

Məsələ - bəlkəsiz - elə həqiqətən də *xoşbəxtlik* idi, bəlkə də. Xoşbəxt olmadığı üçün xatirələrinə sarılaraq yatırdı hər gecə, divarlara asırdı onları. Xoşgünlərini yada salaraq pis günlərini yola verirdi amma boğacaqdı o xoşgünlərin xatirələri onu. Yavaş-yavaş. Bütün deşikləri bağlı vannanı aramla dolduran su kimi içində uzanan bədəni öldürəcəkdilər vaxtı gələndə.

Sonra bir gün, dayan demişdi özünə. Bəsdir, öldürəcəksən özünü. Bəsdir getdiyin. Bəsdir qaçdığın. Yaşadığı bu son şəhər, onun son dayanacağı olmuşdu. Və deyəsən, belə getsə, həyatdakı son dayanacağı da olacaqdı. Az qalmışdı. Buna bir son verəcəkdi.

Köçəri həyatı arzulamışdı həmişə. 60 illik ömrü məsələn, tək şəhərdə tək şəxsiyyətə bürünərək yaşamaqdansa, 60 illik həyatın hər ilini ayrı şəhər ölkə ya qitədə ayrı şəxsiyyətlərə bürünərəkl yaşamağa tərcih etmişdi. Sanki onun maraq hissi digər insanlardan o qədər yüksəkdəydi ki, dayana bilməmişdi tək bir yerdə ya ikisində. Yeni həyəcanlar üçün təhlükəli belə olsa, hər deşiyə soxmuşdu özünü. Ötdüyü kimsəsiz yolun üstündəki qorxulu qaranlıq bir dərənin içindən onu çağıran bir əl görsəydi əgər, gedərdi o bilinməz qaranlığa doğru. Başını hər cür bəlaya soxmuşdu və bu bəlalar nəticəsində möhtəşəm insanlar tanımış, möhtəşəm xatirələrə sahib olmuşdu.

Ancaq, eynilə narkotik maddələrdə olduğu kimi, eynilə süni xoşbəxtliklərdə olduğu kimi, həyatının ilk dövrlərdinə partlama yaşayan maraq hissi indilərdə dibə vurmuşdu. Riyazi

dillə, üzü aşağı baxan parabola tək, sıfırdan sürətlə yuxarılara doğru yüksəlmiş maraq hissi, artıq sürətlə mənfilərə enirdi. Bəlkə də maraq hissi deyildi bitən, xatirələri boğmuşdu onu, yoxsa hələ də yerindəydi bütün köhnə xarakteristikası. Ya da maraq hissi o qədər şey dadmışdı ki artıq daha artıq dozada xoşbəxtliklərə və yeniliklərə ehtiyacı var idi və o hissi doyura bilmədiyi üçün kefsizləşirdi. Narkotik aludəçisinin hər dəfə daha artıq dozaya ehtiyac duyduğu kimi, həyatda da hər dəfə daha artıq dozaya ehtiyac duyuruq. Bir vaxtlar yaşamaq eşqiylə dolub daşarkən, bir başqa yorğun və həvəssiz Oblomov idi indilərdə, ya da bir başqa nihilist Bazarov.

Son dayanacağı olan bu şəhərdə düşdüyü tənhalıq ona bir daha *getməmə* əmri vermişdi. Bir daha getməyəcəkdi. Sıfırdan başlamayacaqdı. Bu şəhərdən də gedərək yaralı ürəyindəki deşiklərin sayına bir də bu şəhəri əlavə etməyəcəkdi. Getmək heç vaxt asan deyildi, getmək zəiflərə görə deyildi, onun kimi birini belə vurmuşdu getmək. Hansı ki özünü illərcə buna hazırlamışdı uşaqkən. Bəlkə də həddindən artıq getmişdi. Həddini aşmışdı. Oturaq həyat tərzi anlayışına indi əvvəlkinə nisbətən başqa pəncərədən baxır və zaman-zaman haqq verirdi. Çox da pis bir fikir deyildi, səyahətlərinin ona yaşatdığı bu qədər yalnızlıq və keçmiş həsrətindən sonra.

Gedə bilməməsinin bir səbəbi də o idi ki əgər bu şəhərdən və ölkədən getsə, bir daha geri qayıda bilməyəcəkdi. Amerikan imiqrasiya qanunlarına görə ölkədən çıxma icazəsi alması üçün bir neçə il keçməli və başvurusu dəyərləndirilməliydi. O vaxta qədər bu ölkəyə həbs olmuşdu. Başda bunun böyük bir problem olacağını düşünməmişdisə də indi bu gözləmə prosesi içində böyüyərək bir yaraya çevrilmiş və nostalgiya xəstəliyinə tutulmuşdu. Onun kimi *getmək* alışqanlığı olan insan üçün ölüm əmri idi sanki bu. Qəfəsə salınmış quşa çevrilmişdi və çırpınırdı.

Bu ölkəni sevirdi. Özünü bu torpaqlara aid hiss edirdi. Burdakı qarışıq irqliliyi, kosmopolitan havanı sevirdi. Sanki kiçik dünya kimiydi. Dünyaya olan acgözlülüyünü azaldırdı. Ona

görə də getmək və tərk etmək istəmirdi. Kierkegaardı dinləyir və özünə təsəlli verirdi. Nə edirsən et peşman olacaqsan. Getsən də, qalsan da. Özünü assan da, asmasan da.

Sahib olduğu bu nostalgiya xəstəliyi iyirmi birinci əsrin xəstəliyi idi həm də ona görə. Dünya kiçildikcə ölkələr arası imiqrasiya traffikləri artıdqca insanların sinəsində hər keçən gün böyüyən bir nostalgia yarası yaranırdı. Ancaq daha çox kasıblar üçün. Varlılar üçün işlər o qədər də çətin deyildi. Onun kimi kasıbları vururdu nostalgiya daha çox. Qlobalizm haqqında işlədilən o dünyanın kiçik bir kəndə çevrilməsi və hər yerin bir-birinə yaxın olması ifadəsi varlılara aid idi daha çox. Kasıblar üçün əksinə dünya hər keçən gün böyüyür və məsafələr daha da uzanırdı. Çünki görürsən, ancaq gedə bilmirsən, toxuna bilmirsən. Elektron ekranlarda virtual dünyalar görürsən ancaq gedə bilmirsən. Texnologiyanın insanları depressivləşdirən tərəfi. Ya da getmiş olanların nostalgiya xəstəliyini daha da artırırdı texnologiya onların keçmişlərini virtual ekranlarda canlı tutaraq. İnternetin bu xüsusiyyəti səbəbilə yaşamış olduğu heç bir yerin şəklini görməməyə çalışırdı. Heç kimlə danışmamağa çalışırdı keçmişindən. Qlobalizm kasıblar üçün dünyanı böyüdürdü, çünki virtual ekranda sevdiyin kimlərləsə danışa bilir ancaq toxuna bilmirdin. O heç kimlə danışmırdı. Yaddaşını canlı tutacaq heç bir xəbəri oxumur, yaşamış olduğu o yerlərin musiqilərini dinləmir, filmlərini izləmir, sanki yoxmuşlar kimi davranırdı. Ancaq ordaydılar və varıydılar.

Madam ki heç harda yaşamağa alışa bilmirdi, madam ki geri getsə yenə başqa yeri ya ən son yaşadığı yeri özləyəcəkdi onda getməmək ən yaxşısıydı deyə qərara almışdı.

* * *

Ancaq yenə də, içində getməyi istəyən biriləri var idi. Birdən çox kimsələr var idi içində, bəziləriylə danışmırdı belə, küsülüydü. Bəzilərinə nifrət edirdi. Bəziləri dayanmadan da-

nışıb onu az qala dəli edirdilər. Ən betəri, içindəki hər kəs eyni səslə danışırdı.

İçindəkilər və o, hərə bir tərəfə getmək istəyirdi. Kimisi getmiş odluqları yerlərə, kimisi getməmiş olduqları yerlərə getmək istəyirdi. Kimisi başlamış olduqları bu odisseyanı davam etdirmək, kimisi dayandırmaq istəyirdi. Kimisinin daha da radikal fikri var idi; ölmək istəyirdi. Bu dünya bəs etmir, ya da dar gəlir, sıxırdı içindəki bəzilərini və o biri dünyanın arzusundaydılar bugünlərdə. Yenə içindən bəziləri, olduqca əminliklə əlini ətrafına yığışmış olduqları o dairəvi stolun kənarına var gücüylə vurur və inadla gedib həmin o qızı tapmaları gərəkdiyini qışqırırdı onların üzlərinə! O, okeanlar ardındakı, tanrı əli toxunmuş qıvrım və kədərli saçlarını hər gün şimal küləklərinin sığalladığı qızı, onu istəyirdi içindəkilərdən bir grup. Yığışıb üsyan edirdilər. Sanki hər gün sahili ziyarət edib səmayla dənizin kəsişdiyi o düz xətti bir ümidlə izləyən həsrət dolu gözlərin qəmini kilometrlərcə uzaqdan hiss edirdi içindəki o qrup. Əllərində şərabla sərxoş gəzirdilər içində. Getmədiyi üçün ona küs idilər. Gəlmədiyi üçün uzaqlarda bir yerlərdə ona küs olan kimsələr kimi, o qıvrımsaç qız kimi. Sanki bir gün yelkənli bir pirat gəmisində, əli belində, əvvəlki tək vecsiz qayğısız və nəşəli formada çıxıb gələcəkmişcəsinə o səmanın dənizi kəsdiyi düz xətti həsrətlə və diqqətlə müşahidə edən həmin o qız. Ümidini boşa çıxarırdı onun. Unutmamışdı onu hələ də, unuda bilməmişdi. Unudabilməmiş olması, ona özü-özünü unutdurmuşdu.

İçində bir izdiham var idi, hərəsi bir ümidin sərkərdəsi olan. Hər gün yeni biri əlavə olurdu içlərinə, yeni bir şəxsiyyəti daha olmuş olurdu. Hər yeni fikir, hər yeni ümid bir şəxsiyyətə çevirilirdi. İçində eyni səslə danışan minlərlə kimsələr var idi indilərdə. Bəziləri bir-birlərini tanımırdılar belə, adlarını – ki adları ümidləri ilə eyni idi- bilmirdilər. Qıvrımsaç adlı otuz nəfər var idi məsələn, Lara adlı iyirmi nəfər (ki getdikcə artırdılar ya da adlarını dəyişirdilər), Barselona adlı on nəfər və s. Qadın və şəhər adları üstünlükdəydi. Ən çox üstünlüyə sahib olanlarsa ən təhlükəliləriydilər; ölüm adlı üç yüz nəfər!

Hərə bir səbəbi təmsil edirdi. Hər səbəb üçün yeni bir kimsə yaranırdı və onun ölüm üçün üç yüz səbəbi var idi.

Aralarındakı ümidi ölmüş olanlar yoxa çıxmır, adlarını ölüm olaraq dəyişirdilər. Ən təhlükəlisi də bu idi. İçində ölmüş ümidlər qəbirsanlığını daşıyırdı hara getsə. Doğulan hər yeni ümid, istəyi yerinə yetirilmədiyi təqdirdə adını ölümə dəyişməklə təhdid edirdi onu. Adı ölüm olanların sayları içindəkilərin sayının yarısını keçdiyi gün, o qanlı soyqırım başlayacaqdı. Və o gün uzaq deyildi. Üsyanın səsləri qulaqlarına qədər gəlirdi. O qədər çox idilər ki, özünü itirmişdi aralarında. Əsas dinləməsi gərəkdiyinin hansı olduğunu bilmirdi artıq. Özünün hansı olduğunu bilmirdi.

İçində adları xoşbəxtlik olan ən ümidli və sağlam ideologiya sahibi istəkli bir qrup var idi. Sayları hələ ki yetəri qədər çox idi və onu əgər xoşbəxt olsa – üsulunun fərqi yox idi, necə olur olsun – o bataqlıqdan çıxacağına inandırmağa çalışırdılar. Xoşbəxt olsa əgər, adları ölüm olanlarla sayıları az olmasına baxmayaraq savaşa biləcəklərinə inandırmağa çalışırdılar onu. Onları öldürə bilərdilər. Özlərinə yaxşı baxırdılar. Əli şərab dolu olan və qabağına çıxan hər yeri yumruqlayan digər sərxoş axmaqlardan fərqli olaraq onlar hər gün meditasiya və idman edir, gümrah qalmağa çalışırdılar. Aralarında Taoizm və Stoisizmin izləyiciləri də var idi. Ölümünə savaşmaq üzrə təlim etdirilən geridönməz bir ordunun sərkərdələriydilər. Yaşam ordusu. Onlara tam olaraq inanmırdı, forma dəyişdirmiş genlər olduqlarından şübhələnirdi. Genlər tərəfindən dəstəklənirdi bu qrup. Ölüm adlı olanları öldürsəydilər belə, hər şeyin yaxşı və xoşbəxt olacağına inanmırdı ona görə də. Xoşbəxtlik, indi ona uzaq bir xəyal kimi görünürdü. Tələb etdikləri xoşbəxtliyi əldə etmək üçün verməsi gərəkən savaş ona çox yorucu gəlirdi və həvəssiz idi. Yenə də, hər kim idisə bu qrup, genlər ya ümidlər, onu hələki həyatda tutmağa bəs edəcək qədər motivasiya göndərirdilər damarlarına. Oyadırdılar onu, silkələyib özünə gətirir və həyatda qalması üçün onu həvəsləndirirdilər.

* * *

Artıq oturaq həyat sürməsi gərəkdiyini düşünməsinə baxmayaraq içində hələ də getməsi gərəkdiyini düşünən çox fikir, ümid və kimsə var idi. Bura qədərki həyatında da, burda yaşadığı son illərində də həmişə getmək istəmişdi. Əvvəl getmədiyi yeni yerlər üçün can atmışdısa, indi yaşamış olduğu yerlərdən birinə (amma hansına?) qayıtmaq istəyirdi. Baudelaire'nin "Harda deyiləmsə orada xoşbəxt olacağam kimi hiss edirəm" cümləsinin canlanmış forması kimiydi. Ya da Baudelairenin bir başqa frekansda illər sonra doğmuş reinkarnasiyasıydı bəlkə də, özü də fərqində olmadan, ya da istəmədən. İstəmədən, hə, orası dəqiq idi, istəmədən doğulmuşdu, bütün hamı kimi.

Bildiyini sandığı tək şey var idi, harda deyildisə orda xoşbəxt olacaqdı. Yanıldığına qətiliklə əmin idi, ancaq yanılmadığına bütün qəlbiylə inanırdı. Ya da başqa dillə desək, son şəhərinə qədərki marafonunda bu illuziyaya inanırdı və bir yerdən başqasına qaçırdı, içindəki təlaşdanmı qaçırdı yoxsa maraq hissimi böyük idi, bilmirik. Ancaq son stansiyasından sonra, harada deyildisə orada xoşbəxt olacağının bir illuziya olduğunu hiss edə bilirdi artıq. Bəlkə də böyüyürdü deyə, bəlkə də təcrübələrinə əsaslanırdı, bəlkələr və kaşkilər.

Bu şəhərmi onu bulanıqlaşdırmışdı yoxsa bulanıqlaşdığı üçünmü bu şəhərə lənətlər yağdırmağa başlamışdı? Bilmirdi. Bəlkə də üçüncü səbəb idi doğru cavab.

Bu şəhərmi onu yalnızlaşdırmışdı yoxsa içinə düşdüyü ruh halı səbəbiləmi insanlardan qaçırdı bu son ildə? Artıq görüşdüyü heç kim yox idi. Bilərək kəsmişdi bütün əlaqələrini sanki, sadəcə keçici insanlarla tanışır və qalıcı əlaqə qurmaqdan qaçınırdı. Bağlanmaq olmazdı. Bir nömrəli qayda o idi. Ən azından bu son vaxtlarda. O, ölümündən əvvəl sadiq sahibindən ya ailəsindən uzaqlaşıb uzaqlara gedən itlər kimi inzivaya çəkilmişdi sanki. Sanki öləcəyini bilirmiş kimiydi.

İçindəki o lənətə gələsi nostalgiya və əksiklik duyğusun-

dan canını qurtara bilsəydi əgər, bəlkə də xoşbəxt ola bilərdi deyə düşünürdü. Həyat, gözəl idi amma. Həyatın heç vaxt bərbad bir yer olduğunu düşünməmişdi. Həyat gözəl idi, ancaq həyatı davam etdirmək üçün çəkilən əziyyətin ağrılığı hərə üçün fərqliydi.

Bəziləri kasıb doğulurdu məsələn. Başdan uduzaraq. Suya, qidaya, sevgiyə möhtaç doğulanlar. Həyatda qalmaq üçün (sırf genlərin səni vadar edir deyə) sevmədiyin bir işdə işləmək ya da onu belə tapa bilmədən sürünmək. Yaşamaq gözəl idi, ancaq bəziləri üçün yaşamaq əziyyətinə dəyirdi, bəziləri üçün yox. Hər insanın həyatı və ağrıları ayrı idi, bəziləri nostalgiyadan əziyyət çəkib, keçmişə duyulan həsrət səbəbilə hətta canlarına belə qəsd etmək istəyərkən bəziləriysə nostofobiyadan əziyyət çəkir və keçmişlərindən qaçır, olmamasını istəyir, unutmaq istəyir və bunun üçün canlarına qıyırdılar. Bəziləriysə solastalgiyadan əziyyət çəkir, olduqları yerdə olduqları yerin keçmişi üçün darıxırdılar. Bəzilərinin evi yox idi, bəzilərinin işi, bəzilərinin kimsəsi, bəzilərinin heç nəyi.

Nostalgiyanın ən pis tərəfi və insanın ona bu qədər bağlı olmasının səbəbi beynin keçmişdəki sadəcə xoş xatirələri yadında saxlaması, pisləri unutmağa çalışmasıdır. Köhnə günlərə olan həsrət və hər şeyin keçmişdə sanki çox yaxşı olmuş olmasının səbəbi heç şübhəsiz ki bu idi. Əslində keçmişdə heç də hər şey daha asan ya yaxşı olmur. Hər ilin hər günün öz problemləri olur, ancaq beyin onları unutdurur. Beləcə insan keçmişə həsrət duyurdu. Təkamüli olaraq beyin nostalgiya hissini həm də yalnızlığa qarşı bir qalxan olaraq inkişaf etdirmişdi. Yalnızlığa düşmüş fərdə keçmiş xatirələrdən kadrlar xatırladaraq onun əslində heç də həmişə yalnız olmamış olduğunu, dostlarını və ailəsini, yaxşı günlərini xatırladırdı. Beyin, fərdi həyatda saxlamaq üçün bütün yollara əl atırdı nə də olsa.

İçində əksik bir şeylər var idi. Saudade. İtirilmiş xatirələr, dostlar və sevgililər. Günün təsadüfi anlarında keçmişdən xoş xatirələr canlanırdı gözünün qarşısında. Gedəcəkdi deyə düşünürdü buralardan. Sanki çarə bu imiş kimi. Deyildi. Fərq

etməyəcəkdi. Burdan getsə, sonra da bura üçün darıxacaqdı. Ya da sanki getsə, gedəcəyi köhnə yerlər ona yad kimi gələcəkdi bəlkə də. Sanki heç yaşamamış olduğu yerlər kimi. İllər keçmişdi. Heç kimi tapa bilməyəcəkdi bəlkə də. Qıvrımsaçı tapa bilməyəckdi bəlkə də. Bəlkə də evlənmişdi. Geri dönüb görsəydi bunu qıvrımsaçın xoşbəxtliyi onun bədbəxliyinə çevriləcəkdi. Geri dönsə belə, xatirələrinə dönə bilməyəcəkdi nə də olsa. Onlar keçmişdə qalmışdı. Hər şey keçmişdə qalmışdı.

Keçmiş, bəzən sanki olmamış kimi gəlirdi. Anı yaşamağı üstün tutmuşdu həmişə. Ancaq anı yaşaya bilmək, ən böyük sənət olmalıydı. İnsanın hər anı, keçmişdən xatirələr və gələcəkdən planlarla dolur. Praktiki olaraq anı yaşamaq mümkünsüzdür çünki insan sahib olduğu xatirələr bütünüdür. Baxdığımız hər bir obyekt bizə keçmişimizdən izlər xatırladır. Şanslı olanlar bu şüuraltı xatırlamaların hamısının fərqində olmur, bəziləriysə baxdıqları bir ağacın hər bir budağınnda keçmişdən bir xatirəni xatırlayır. Hər şeyi bir kənara buraxıb o anın içində ola bilmək olduqca çətin, bəzən mümkünsüzdür. O, həyatının ortalarındaydı hələlik, amma bəzən yaşlıları düşünürdü. O qədər xatirəni özüylə daşımaq? Çətin olmalıydı. Yaşlıların çəkdikləri əziyyəti bilmək istəyirdi bəzən. Necəydi görəsən? Altmış ya yetmiş illik xatirələrin içində yaşamaq. Hər birini xatırlayanda orda olma istəyi və sızıldayan bir ürək. Hər gün küçələrdə görülən gənclərə olan qısqanclıq hissi. Yenidən gənc olma istəyi. Həyatın o ən gözəl vaxtına geri dönmə istəyi.

O hətta indi belə keçmişdə yaşamadığı anların peşmançılığını yaşayırdı. Xoşbəxt anlarından çox bədbəxt keçmiş vaxtlarını düşünür və elə deyil də belə olsaydı necə olardı deyə özünü pafosun içində boğurdu. Yaşanmamış yaşlar və kədər.

Bəlkə də hamı onun kimi deyildi, bəlkə də baş edə bilirdilər xatirələrlə. Bəlkə də xoşbəxtlik onlara unutdururdu hər şeyi. Bir yerlərdə oxumuşdu, tədqiqatlar insanların yaşlandıqca daha da dinc və xoşbəxt olduqlarını göstərir. Daha az şeyi dərd etməyə başlayır yaşlılar. Bəlkə də xatirələrini unudurlar. Hə, unudurlar. Onun kimi. Artıq onda da başlamışdı. Necə ola

bilərdi? Xatirələri unutmaq? Bu ki daha betər idi. Yoxsa yox? Bəlkə də daha yaxşıydı hə, beləcə içindəki o gözəl günlərin həsrətindən azad olardı. Sanki yaşanmamış kimi. Köhnə sevgililər və şəhərlər.

Bəzən oxuduğu kitab ya izlədiyi filmin ortasında bunu daha əvvəl oxumuş ya izlədiyini görüb təəccüblənmişdi. Ancaq xatırlamırdı. Bu ən sadə misal idi. Bəs insanlar? Yadına sala bilmirdi. Getmiş olduğu şəhərlərin bəzilərinə bəzən getmiş olub olmadığından əmin ola bilmirdi. Getmiş olduğu konsertlər və başqaları. Yaşlanmaq belə bir şey olmalıydı. Yaşlandıqca insanlar özündən xəbərsiz olaraq daha da yalançı olurdu bəlkə də. Olmamış şeyləri olmuş və olmuşları olmamış kimi xatırlayaraq. Yenə də, nə dəyişir dəyişsin, buludlar olduqları kimi qalırdılar.

Beyin idi hamısının günahkarı. Yalançı beyin. Tətiyi çəkib dağıtmalıydı bəlkə də əsas günahkarı. Nəmi edirdi beyin? Onu daşıyan bədəni həyatda saxlamaq və xoşbəxt edə bilmək üçün nə lazımdırsa. Məqsədə gedən bütün yollara bəraət qazandırırdı beyin. Aramızdakı ən böyük makiavellist başımızın üstündə gəzdirdiyimiz o boz maddədir. Xoşbəxtlik və həyatda qalma, vasitəyə haqq qazandırırdı. Necəmi edirdi bunu? Məsələn pis xatirələri ya unutmağa çalışır ya da yaxşıya doğru dəyişir, bəzəyirdi. İkincisi daha da betər idi. Sanki elə deyil də, belə olmuş kimi inandırırdı özünü və onu daşıyan fərdi. Bunu ilk öyrəndiyində, başda bunun üçün beyninə onu heç vaxt bağışlamayacağını demişdisə də, bugünlərdə o xüsusiyyəti üçün ona az qala yalvarırdı. Unut deyirdi. Hər şeyi unut. Sanki olmamış kimi. Sanki uzaqlar və yaşanmışlıqlar olmamış kimi. Unut qıvrımsaçı və o şimal küləkləri əsən gözəlim şəhəri.

Hiss edirdi də bunu, unudulmuş və bəzədilmiş ya dəyişdirilmiş xatirələrlə sarıldığını ətrafının. Əmin ola bilmirdi məsələn bəzən, hansı xatirənin doğru olduğuna. Ürəyinin eşq üçün hələ yenicə döyünməyə başladığı o yeniyetməlik illərindəki, üzünü və adını unutduğu o tenisçi qızı xatırlayırdı

məsələn zaman-zaman. Tanışlıqdan üç gün sonrakı ilk sevişmələrində dəlicəsinə vurulduğu qız ona bu son görüşməmizdir deyərək sancmışdı qəlbinə zəhərli oxu. İlk eşq yarasını ürəyinin üstünə, döş cibinə qoyub ayrılmışdı o gün həmin evdən. Yaşlı şəhərin qəlbini tam ortadan ikiyə bölən o çayın bilinməz və hamıdan uzaq bir sahilində oturub ağlamışdı həmin gecə, qucağında yeni sevgilisi alkoqolla birlikdə. Hava soyuduqca daha da çox sarılmışdı o şüşəyə, yalnızlaşdıqca daha da çox sarılmışdı. O gündən başlamışdı bəlkə də, içkiylə aralarındakı ayrılmaz bağ. Beyninə kömək edirdi spirt, unutma işləmini uğurla tamamlamaq üçün. Əmin ola bilmədiyi və beyninin bəzədiyi xatirəysə o idi ki, daha sonra sevişmişdilərmi? Artıq xatırlamırdı. Göydən leysan yağan günlərdə qızın iş yerinin qarşısında onu gözlədiyini xatırlayırdı, bura qədərindən əmin idi. Sonra nə olmuşdu? Bir neçə alternativ xatırlayırdı: qız labaratoriyasından çıxıb onu görməməzlikdən gələrək çıxıb getmişdi, qız çıxıb onu son dəfə öpmüş və getmişdi, qız çıxmış və onlar yenidən sevişmişlərdi, dəfələrlə. Sanki illər keçdikcə yeni alternativlər əlavə olunmuşdu. Doğrunu xatırlamırdı. Hər şeyin ən pis formada olmuş olduğundan şübhələnirdi. Özündən yaşca böyük olan o qız, onu tək səfərlik cinsi istək doyurucusu olaraq istifadə edib bir prezervativ kimi atmışdı. Ancaq beyni onu aldatmağa davam edərək əslində elə olmadığına inandırmağa çalışırdı. O gün bu gündür, doğruya həsrət yaralı ürəyi yalançı beyninə savaş açmışdı həqiqətlər üçün. İçində özüylə daşıdığı bir savaş var idi illərdir. Beynin yalanlarına yeniləri əlavə edilmiş və içi savaş meydanına dönmüşdü.

Doğrular artıq vecinə də deyildi. Tək istədiyi xoşbəxt olmaq idi, qarşılığı nə olur olsun. Beyninə xatirələri unutmaq üçün tam səlahiyyət vermişdi. Təslim olmuşdu. Keçmişi xatırladacaq heç nəyi etməməyə çalışırdı artıq. Keçmişi və uzaqları xatırladacaq heç bir musiqini dinləmirdi artıq məsələn. Ona müəyyən insanları xatırladan yazarlar və rejissorlardan uzaq qaçırdı. Kundera oxumur, Trier izləmirdi. Keçmişi xatırlada-

caq heç bir çiçəyi qoxlamırdı artıq. Proustvari yaddaşdan qaçırdı. Proust'un müasir elmdən əvvəl insanlığa xəbər vermiş olduğu o qoxlama hissinin keçmişi xatırlatmasından bacardığı qədər qaçırdı.

Que sont mes amis devenus
Que j'avais de si près tenus
Et tant aimés ?
*(Hanı mənim dostlarım,*
*bir vaxtlar çox bağlı olduğum*
*və çox sevdiyim)*

-Poèmes de l'infortune (Bəxtsizliyin şeirləri)
***Rutebeuf**, (1245 – 1285)*

Ubi sunt?
*(hardadırlar?)*

5

# EVSİZ VƏ İŞSİZ

Dənizə çatdı. Çəmənlərlə dolu sahildə oturub başını dizinə qoydu və ağlamağa başladı. Nadir hallarda ağlayırdı. Daha doğrusu ağlaya bilmirdi. Ancaq bu dəfə çox asan olmuşdu, heç nə düşünmürdü. Bu dəfə sanki həyatında ilk dəfə durduğu yerdə ağlamağa başlamışdı.  Və ağlamaqdan qəribə formada zövq alırdı. Boşalırdı sanki içi, sinəsi.  Ən son nə vaxt bu dərəcədə şiddətli və sakitləşdirici ağlamışdı yadında deyildi. Başını iki dizinin arasında saxlayıb səssizcə zırıldayırdı yaşıl otların üstündə. Yaxınlıqda heç kim yox idi, çimənlərin bitdiyi yerdə səki başlayırdı və ordan arada-sırada keçən insanlar var idi. Bir neçə metr aralıdakı ağacın dibində qoca bir evsiz kişi uzanmışdı, yaşlı ağacın gövdəsinə söykənərək. Ağlamasını heç kimin görmədiyindən əmin olmaq istəyirdi. Buna görə də uzun müddət başını dizlərindən qaldırmadı. Əllərini dizlərinin birləşdiyi nöqtədə çarpazlayaraq üzünü də gizlətmişdi. Ağladıqca rahatlayır, boğazına dirənən qəhər azalırdı. Ürəyindən daş sallanırdı və ağladıqca yüngülləşirdi. Ürəyini sıxan məngənə ağladıqca boşalır və yumuşalırdı.

Kirpikləri və yanaqları göz yaşı içindəyi. Əli ilə gözünü silərkən kiminsə onu ağlayarkən görəcəyindən qorxur, çəkinirdi. Ona görə də üzünü arada dizinə sürtərək silirdi. Əzab

dolu keçmiş uşaqlığını xatırladı. Və uşaq vaxtı ağlamalarını və bunun necə rahatladıcı olduğu düşündü. Əvvəllər, lap balaca olanda ağlayarkən kiminsə təsəlli verməsini xatırladı, bir qadının məsələn ağlayan kəsin başını sinəsinə dayayaraq "ağlama" deməsinin necə rahatladıcı olduğunu və o sinənin üstündə ağlamağın necə dinc olduğunu düşündü. Bunun üçün darıxdı, birinin ona təsəlli verməsi üçün darıxdı. Birinin ona mərhəməti üçün darıxdı. Birinin onunla uşaq kimi rəftar etməsiyçün darıxdı. Başını sinəsinə dayamış qadının hər şeyə rəğmən verdiyi yalan təsəllilər üçün darıxdı. Hər şey yaxşı olacaq yalanı üçün darıxdı. Saçlarının öpülməsi üçün darıxdı.

Böyüdükcə gizlin ağlamağa başladığı vaxtlar yadına düşdü. Artıq başqalarının yanında ağlaya bilmədiyi, ağlamağa icazə olmadığı vaxtları xatırladı. Qadağan olunmuş emosiyaları düşündü. Qadınları qısqandı. Onların hər xırda şey üçün ağlaya bilmə bacarıqlarına və bunu bir-birlərinin yanında çəkinmədən edə bilmələrinə qibtə etdi. Bir-birlərinə  yalan da olsa verdikləri təsəlliləri qısqandı. Həyat onlar üçün bu səbəblə kişilərə nisbətən, bir zərrə nisbətində olsa belə, daha asan olmalıydı deyə düşündü. Həm istədiyin vaxtı ağlaya bilmə bacarığı, həm də yanında ağlaya biləcəyin kimlərinsə olması. Kişilər üçün ağlamaq o qədər də asan deyildi. Ağlamaq istəsən belə gözündən yaş gəlməməsi, yuxuda qışqırmaq istəyib də qışqıra bilməməyə bənzəyirdi. Bəlkə də bəzi qadınlarda da eləydi deyə düşündü.

Ona heç vaxt ağlamadığını demiş bir sevgilisini xatırladı. İndi başa düşürdü, bəlkə də o heç vaxt ağlaya bilməmiş olduğunu vurğulamağa çalışmışdı. Onun adına üzüldü. Onu nə qədər sevdiyini xatırladı. Onun üçün darıxdı. Ağlamaq ilə sərxoşkən qusmaq arasındakı əlaqəni düşündü. Hardasa eyni şey idi. Sərxoş olduqdan sonra qusarkən insan rahatlayırdı. Ancaq ən azından qusamaq üçün barmağını boğazına sala bilirdin, ancaq ağlamaq üçün barmaqlarını gözülərinə sala bilmirdin.

Ağladığı üçün indi nisbətən daha yaxşı hiss edirdi özünü. Göz yaşları bədənindəki stres toksinlərini atmışdı. Depressi-

ya və aqresiyadan melanxoliyaya keçmişdi əhvalı. Melanxoliya tanrının ya başqa deyişlə təkamülün insana depresiyadan yoğrulmuş hədiyyəsi olmalıydı. Depresiyadan zövq almağın başqa açıqlaması ola bilməzdi yoxsa.

Kəskin bir qoxu firkini dağıtdı və yumulu gözlərini açdı. Marixuana iyini hiss etdi. Gözlərini və üzünü əliylə sildi. Başını azaca qaldırıb sağdakı evsiz qocaya baxdı. Qoca yerini dəyişib üzü dənizə doğru baxır və əlindəki yarımçıq ot sarmasını çəkirdi. Bir müddət onu izlədi. Gözlərində qara eynəklər var idi. Bir anlıq çəkdiyi otun ona xoşbəxtlik verib vermədiyini bilmək istədi. Onun gün boyu tapdığı bu kiçik xoşbəxtlik anını düşündü və yazığı gəldi. Ürəyini mərhəmət və şəfqət bürüdü. Kaş onun üçün edə biləcəyi bir şeylər olsaydı deyə düşündü. Görəsən siqaret istəyirmi deyə fikirləşdi.

Başını aşağı saldı və gözlərini yaxşıca sildi. Burnundan axan suyu əlinin üstüylə silib sonra əlini şalvarına sürtdü. Başını qaldırıb dənizə və sonra sol sahil boyunca uzanıb gedən şəhərə, qarşıdakı hündür binalara baxdı. Dənizin bu hissəsi körfəz kimi şəhərin nisbətən içinə girmişdi. Şəhər dənizi qucaqlayırdı. Buludları yarıb çıxan günəş şüaları gözünü qıymasına səbəb oldu. Ətrafa saçılan günəş şüaları hər yerin parlamasına səbəb olurdu. Çəmənlər daha da yaxşı görünürdülər. Ordaca yıxılıb yatmaq, bəlkə də heç oyanmamaq istədi.

Yatıb da oyanmamağın necə gözəl bir xoşbəxtlik olduğunu fikirləşdi. Öləcəyindən xəbərin olmurdu. Yatırdın və oyanmırdın. Ağrısız və xəbərsiz. Görəsən o anda insan nə yuxu görürdü? Bəlkə də yuxuda öldüyünü görürdü insan, ancaq bunun sadəcə bir yuxu olduğunu sanırdı. Yuxuda ölmək gedənə yox, qalana ağır idi ən çox. Gedən gedirdi, hiss etmədən, həyatın ağırlığını bir daha hiss etməmək üzərə. Ancaq qalan, hələ də yanında yatan biri varsa. Eyni yataqda. Oyanıb da birinin nəfəs almadığını görmək, necə ağır olmalı idi. Bir anlıq o insanları düşünərək kədərləndi. Onların yerinə ürəyini qəm bürüdü.

Atası sübh çağında gözlərinin qarşısında can vermiş dostunu xatırladı. Dostunun dediyinə görə səhər gün yenicə ağa-

rarkən anası qışqıraraq onu yanına çağırmışdı, atası onu görmək istəyirmiş. O qorxu və vahiməylə otağa gəldiyində atası yerində vurnuxmuş və nəfəs ala bilmirəm deyərək həyata gözlərini yummuşdu. Bu bütün ailə üzvləri üçün olduqca ağır bir ayrılıq forması olmalı idi. Həmin dostuna buna görə xüsusi nəvazişlə yanaşırdı həmişə. Üstündən illər keçmiş olmasına baxmayaraq ona rəhmi gəlirdi. Son anda oğlunun və arvadının çarəsiz və qorxu dolu baxışlarını görən ata və onu can verən halda görüb ancaq heç nə edə bilməyən çarəsiz ana və uşaq. Yaşanılabilinəcək ən böyük travmalardan biri olmalıydı. Qorxu dolu çarəsizlik.

İki başqa evsizin yandakı qocanın yanına gəlib onunla salamlaşmaları fikrini yayındırdı.  Çönüb onlara baxdı. Orta yaşlı iki nəfərdi. Paltarları köhnə və çirkli idi. İkisinin də çiynində böyük çantaları var idi. Evsizlərin hamısının böyük çantaları olurdu. Evlərini yanlarında daşıyırdılar. Başqa heçnələri yox idi. Paltarları rəngbərəng idi, adətən belə olurdu, çünki ordan-burdan tapdıqları paltarları geyinirdilər və o paltarlar adətən bir-birinə uymur, dəst olmurdular. Dəriləri günəşin təsirindən qızarmış olurdu. Çoxunun saçları təmiz kəsilmiş olurdu. Çöldə qaldıqları müddətdə saçları çirklənməsin deyə edirdilər bunu. Saç sadəcə artıq problem yaradırdı və kəsilməli idi. Bu görünüşləri ilə onları istənilən yerdə rahatca tanımaq olurdu, rəngbərəng köhnə və çirkli paltarlar, böyük çanta və bəzən də olduqca qısa saç. Şəhərin bu hissəsi onların ən çox yığışdığı və görüşdüyü yerlərdən biri idi. Günəşli havalarda onları həmişə burada tapa bilərdin. Ətrafda çəmənlərin üstündə oturur, söhbət edir və yatırdılar.

Diqqətini cəmləyərək onların söhbətlərini eşitməyə çalışdı. Yeni gələn iki nəfər də digərinin yanında oturub siqaret çəkirdilər. Bir müddət sonra onlardan biri dilləndi:

“Tanışlarımdan biri bir iş deyib mənə. İki nəfərlik işdi, bir saatlıq, saatı əlli dollar”

“Əlli?”

“Hə, bir saat, iki nəfər, əlli əlli”

“Əladı ki”

Ötüb keçən maşınların səsi onların səsini bir müddətlik basdırdı. Yanlarına bir cavan oğlan gəldi və qocadan soruşdu:

“Çips istəmirsən?”- Hansısa narkotikə taxdıqları ad olmalıydı.

“Yox!” qoca tamamilə əminmiş kimi uca səslə cavabladı.

“Əminsən?”

“Çips zad istəmirəm mən əşi! Çıx get başımdan!”

“Yaxşı,” deyə cavab verdi cavan, sonra yanındakı oğlanla söhbətləşməyə davam etdi, hansısa görüşün vaxtını təyin etməyə çalışırdılar. Bir qədər davam etdikdən sonra ayrıldılar. Cavan oğlan böyük ehtimalla narkotik satıcısı olmalıydı. Üst başı da digərlərinə nisbətən daha düzgün formada idi. Uzaqlaşıb çəmənliyin o biri başında yerdə oturmuş dörd-beş nəfər evsiz qadın və kişinin olduğu yerə yönəldi. Yəqin çips istəyib istəmədiklərini soruşacaqdı.

Onların arxasındakı böyük reklam lövhəsindəki yazı diqqətini çəkdi: “Kariyeranız əmin əllərdə! Bizə zəng edin!”. Yandakı digər lövhəyə baxdı: “İstədik və etdik! Sən də istə, sən də et! Bizə səng edin!” Taleyin ironiyası, evsizlərin arxasındakı kapitalist sloqanları. Əsəbləşdi, sanki hər şeyi etmək üçün istəmək bəs imiş kimi. Yerə uzanıb gözlərini yumdu. Gözünü günəş şüalarından gizlətmək üçün qolunu gözlərinin üstünə uzatdı. Günəşin qızdırmış olduğu torpağın və otların istiliyini kürəyində hiss etdi. Əsnədi. Bir anlıq heç nə düşünmək istəmədi və  ordaca yatmağı arzzuladı. Bir-biri ilə əlaqəli və əlaqəsiz sayısız fikir gəlməyə başladı ağlına.

Bəzən gəlib burda oturaraq evsizləri uzaqdan izləyirdi. Həm də burdakı çəmənliyi, dənizi və günəşi sevirdi. Evsizlərin arasında özünü rahat hiss edirdi. Kənardan durub söhbətlərinə qulaq asırdı, bəzən də söhbət edirdi. Siqaret paylaşırdı. Çox vaxt bəziləri onun da evsiz olduğunu sanırdı. Çünki üst başı adətən səliqəli olmurdu, yanında çox vaxt çantası olurdu və bu tip yerlərə tez-tez gəlib gedirdi.

Onların bərbad həyatları var idi, hətta bir həyatlarının olub-olmaması müzakirəyə açıq idi. Meşə insanı üçün həyat

bir mənada bundan ibarət idi, sadəcə həyatda qalmaq, günü yola vermək, qida və seks. Bəs indiki insan? Küçələrdə yaşamaq? Hər şey bir kənara, onlar xoşbəxt deyildilər. Üzləri çox vaxt gərgin və kədərli, yanaqları sallaq və halsız olurdular. Heç birinin üzündə xoşbəxtlik ya dinclik yox idi. Yəni evsiz olmaq da məsələyə çarə deyildi. Onlar sadəcə bezmişdilər və görünən o idi ki, ölmək də istəmirdilər ya da ölə bilmirdilər. Sürünürdülər. Onlara acıyırdı. Kaş edə biləcəyi bir şeylər olsaydı deyə düşünürdü. Ən kiçik şeylərə belə sevinirdilər bəzən. Bir paket siqaret. Yemək. Az miqdarda pul. Vodka. Zibillikdən tapılan eynək, bəzən işləyən qulaqlıq. Üzlərində uşaq təbəssümü yaranırdı. Qırx yaşlı kişi uşaq kimi tullanıb düşürdü bəzən. Yaş aralıqları geniş idi, qocası cavanı, qadını kişisi. Bəziləri keçici evsiz idilər bəziləri illərdir. Bəzisi üç dörd aylıq, müdürdən, işdən, həyatdan hər şeydən bezib evdən ayrılaraq küçələrdə yaşamağa qərar verir sonra peşman olub yenə geri qayıdırdılar köhnə həyatlarına. Bəziləri də küçələrdə qalmağa davam edir, xəstələnir, məhv olurdular. Xəstəxanalar çox vaxt onlara sahib çıxmayıb başlarından edirdi. Dövlətin yataqxana kimi bəzi sığınacaqları mövcud idi bu tip evsizlər üçün, ancaq çox vaxt dolu olurdu bu sığınacaqlar, yerlərin sayı az idi, evsiz çox. Ya da bəzilərinin xüsusi qaydaları var idi. Bəziləri incil oxudurdu, bəzilərinin qapıları hər axşam doqquzda bağlanırdı, bəzilərində hər axşam içəri girərkən alkoqol promili ölçülürdü və əgər fərd içki içibsə buraxılmırdı.

Küçədə yatdığı və yarı evsiz olduğu vaxtlar olmuşdu əvvəllər. İndi də küçədə yaşamağı da düşünmüşdü ölümə getməkdənsə. Ancaq məsələ o idi ki küçədə yaşamaq problemi həll etmirdi, iztirabı uzadırdı. Bildiyi tək şey var idi, işləmək istəmirdi. Çox pula ehtiyacı da yox idi xoşbəxt olmaq üçün. Pul bəlkə də xoşbəxt olmasını bilməyənlər üçün alətdir deyə düşündü. İqtisadi materializm amerikalıların düşdükləri bir çuxurdur əslindəysə çox pulun olmadan da xoşbəxt ola bilərsən, ancaq işləməməlisən və həyatda qalacaq minimum vəsaitin olmalıdır.

İşsiz qaldıqdan sonra daha çox düşünməyə və dolayısilə əzab çəkməyə başlamışdı. Çünki işləmək problemi həll etmirdi. Ortada keçinə bilməmək kimi bir problem var idi. Üç ay sonra ya ölməli ya yenidən işləməliydi. Ancaq yenə də vaxtını istədiyi şeyə vicdan əzabı duymadan xərcləyirdi işsiz qaldığı dövrdə. Kapitalizmsə insanı təşvişə soxurdu, işdən sonra az qalan vaxtını nəyə xərcləməli olduğuna qərar verə bilmirsən, vaxtı özünəmi ayırasan, yoxsa daha yaxşı iş imkanı tapmağamı. Boş durarkən belə insan özünü rahat hiss etmirdi sanki.

Həyat istəmədən oynadılmağa başladığın bir oyundur. Sonra bir gün oyunun ortasında sənə deyirlər ki vaxtının yarısını işləməli geri qalanını oynamalısan. Kimisi bununla razılaşırdı, kimisi də oyundan ayrılmağı qərara alırdı ölümə gedərək. Sadəydi əslində.

Nazilərin ən böyük ölüm düşərgəsi olan Auschwitz kampını ziyarətini və kampın girişindəki sloqanı xatırladı. "Arbeit macht frei". Mənasını başa düşməmiş gəzinti rəhbərindən soruşmuşdu o da izah etmişdi; "İşləmək insanı azad edər". Kapitalizmlə sloqan arasındakı bənzərliyi düşündü. Digər kamplarda da bənzər bir sloqan var idi. "Jedem das Seine" – *hərə özü üçün, ya da hər kəs haqq etdiyini, layiq olduğunu tapar*. Kapitalizmlə üst-üstə düşürdü mahiyyətləri. Hərə özü üçün idi və azad olmaq üçün işləməliydin.

Amerikada yaşadıqdan sonra daha da yaxşı başa düşürdü kapitalizmi. Əvvəllər sosializmə meyli olmuşdu və protestlərə qatılmışdı ancaq indi başa düşürdü ki sosializm bəlkə də doğrudan da utopiya idi. Amerikada, ən zəngin insanların ölkəsində küçədə evsizlər və yoxsullar gəzirdi. Çünki insanın təbiəti bu idi. Bu bir həyatda qalma savaşı idi. Təkamül idi. "Survival of the fittest" deyirdi Darwinin təkamül nəzəriyyəsi, yəni *ən uyğunun həyatda qalması*. Sosial darvinizm də eyni şeyi deyirdi. Fərdi orqanizmlər arasındakı rəqabətdən ətraf mühitə ən uyğunlarının həyatda qalıb artması kimi, sosial olaraq da situasiyaya ən uyğun olanlar zəncirin yuxarı başına qalxırdı. Təbiəti və genetikası işləməyə ən uyğun olanlar kapitalist sistemdə

yüksəlirdi ya da sağ qalırdı. Olmayanlar isə ya evsiz və pulsuz qalır, küçələrdə yaşayır ya da ölürdü. O başa düşürdü ki mövcud rejimə uyğun deyil, işləmə istəyinin olmaması onu zəncirin aşağılarına itələyirdi. İşləmədiyi ya da işləyə bilmədiyi üçün sıradan çıxanlar, belə çıxır ki, təkamülün qurbanlarıdır və təkamülün indiki mexanizması işləməkdi. Sosializm zəiflərin təsəllisidir. Təbii olmadığı üçün də totalitarianizmə məhkumdur.

İşləmək insanların beyninə o qədər yeridilib ki, onlar işsiz dayanmağı düşünə bilmirlər. Daha çox işləsələr hər şeyin daha yaxşı olacağını düşünürlər, ya da bəlkə də işləməkdən bir diqqət dağıtma mexanizmi kimi istifadə edərək öz faciələrindən uzaqlaşmağa çalışırlar. Səbəb hər nə idisə də, işləmək, insanları yadlaşdırırdı və onlar yavaş-yavaş özlərindən çıxıb işlərinə çevrilirdilər. İşləmiş olduğu işləri düşündü, mağaza kassiri, satıcı, barmen, ofisiant, poçtalyon, taksi şoferi və digər bütün keçici işlər. Keçici işlərdə işləmişdi çünki onlara girmək və çıxmaq daha asan idi. Ciddi işlərin iş görüşmələrini sevmir, hətta onlara nifrət edirdi. Onun üçün uğurlu bir iş görüşməsi özünü daha yaxşı sata bilmə və yalan danışma qabiliyyətiydi. Məsuliyyəti daha artıq olan işlərdən də qaçırdı, ümumiyyətlə məsuliyyətdən qaçırdı.

Həmişə keçici işlərlə yaşaya biləcəyini düşünmüşdü ancaq bir gün hamısından bezəcəyini düşünməmişdi. Həyatına digər bütün insanlar kimi həmişə deus ex machina gözüylə baxmışdı, göydən tanrının əli enəcək və onu xilas edəcək. Ya da Godot gələcəkdi. Təkamüli açıqlaması optimizm idi, insanı pis günlərdə motivasiyalı saxlayan hisslər bütünü: bir gün birdən-birə hə şey yaxşı olacaq. Olmadı. Heç kim gəlmədi və onun artıq gözləmək kimi bir fikri yox idi.

Acgöz olmasaydı əgər bəlkə küçələrdə yaşamaqla razılaşa bilərdi həyatının qalanını. Ancaq azgöz idi və çox şey istəyirdi, istədiklərini edəcək gücü özündə tapa bilmədiyi və bununla razılaşa bilmədiyi üçün də ölümə qaçırdı.

Nə qədər qəribə bir hal içində olmalıdı ki insan, həm dünyadakı hər şeyi acgözcəsinə istəyir həm də onları əldə etmək

üçün heç nə etmir, qılını belə tərpətməyə ərinir. Tənbəllikmiydi bu yoxsa nə? İstəksiz deyildi, digər insanlardan daha çox şey istəyirdi, içində dolub daşan istəklər yığını var idi. Anhedoniyaya qapılmamışdı, fəaliyyətlərdən hələ də həzz alırdı və hətta hedonist idi. Ancaq onu hərəkətə keçirən motivasiya mexanizmində problem var idi.

Baxılan ya təsəvvür edilən istənilən şeyə toxunma və ya ona doğru hərəkət etmə istəyi dopamin sistemini aktivləşdirir beyində. Və insan beləcə o şeyi əldə etmək üçün hərəkətə keçir. Məsələn ac meşə insanı gördüyü ya düşündüyü meyvə ya dovşanı əldə etmək üçün hərəkət edir. Əgər beynindəki motivasiya mərkəzi, dopamin sistemində xəsarət olsaydı hərəkət etməz və aclıqdan ölərdi. O düşünürdü ki, bəlkə də onun beynində tərs gedən bir şeylər var, bəlkə də dopamin sistemi nasazdı. Bəlkə də belə doğulub deyirdi, ya da bu bəd inama qapılaraq özünü aldadır və rahatlayırdı.

Ya da bəlkə də yaşama sevinci o qədər artıq idi ki, həyatdakı bütün seçimləri seçə bilmədiyini başa düşdüyü üçün ondan imtina edirdi. Yaşam sevincinin əksikliyi kimi artıqlığı da problem deməkdir deyə düşündü. Əgər artıqdırsa yaşama sevincin bir formada onun qol-qanadını qıracaq və öldürəcəksən, çünki hər şeyi edə bilməzsən. Nəticədə yaşama sevincin yenə əksik qalacaq. Deməli, həyat çox gözəl olduğu üçün həm də pismi olmuş olur? - paradoksuna cavab tapa bilmədi.

İstədiklərini əldə edə bilmədiyinə görə də bu son bir ildə ümidlərini öldürməklə məşğul idi. Hər insanın həyatında girdiyi ağır bir dövr olur, böyük ümidlərlə girib sınıq ya budanmış ya yontulmuş ya ölmüş ümidlərlə çıxdığı o ağır depressiv dövr. O dövrdən çıxmağı bacaranlar həyatda qalırdılar bəlkə də, çıxmağı bacaramayanlarsa intihar edirdilər. 27'lər klubunun səbəbi bu idi bəlkə də. Çünki çoxları üçün tam bir keçid dövrüydü. Doğumdan bu yana davam edən həzzlər, yeniliklər bitir və yerini monotoluq almağa başlayır. Bir körpü kimi. Əgər yaxşı bir həyatın varsa yaşamağa davam edirsən yoxdursa da ya onu yaratmaq ümidiylə sürünür ya ölürsən. O elə

düşünürdü. Ona görə də bügünlərdə səs küylü olaraq ümidlərini öldürürdü. Yerə çırpıb qırdığı hər bardaqda bir ümidi daha ölürdü. Yüksəkdə olan həyat gözləntisini aşağı endirirdi.

Hər dəfə insan biraz da çox təəccüblənir. Hər dəfə deyirsən ki yəqin daha artıq dözə bilmərəm amma dözürsən. Ümidlərinin, xəyallarının və gözləntilərinin hər ölüşündə, tragediyayla hər üz-üzə qaldığın anda bu yəqin ki sondur və bundan artığına dözə bilmərəm deyirsən ancaq dözürsən. İnsan hər şeyə alışır. Hətta aclığıa belə alışır. Pulsuzluqdan günlərcə ac qaldığı vaxtları və hər keçən gün bədənin necə də buna alışdığını xatırladı. O günlər üçün belə darıxdı. Restoranların qarşısında ac yeridiyi günləri və girib içəridən yeməkləri götürüb qaçmaq istədiyi anları xatırladı. Küçələrdə aclıqdan baş gicəllənməsi ilə yeridiyi vaxtlar.

O vaxtlar üçün belə darıxırdı çünki ən azından daha az yalnız idi o vaxtlar. İnsanlarla daha asan tanışa bilirdi. Bəlkə də yaşına görəydi, çünki yaş keçdikcə daha da az insanla tanışmağa başlayırsan. Çox vaxt maraqlı da olmur. 20li yaşlardan 30lu yaşlara keçdikcə daha da sakitləşir və bir kənara çəkilirsən. Yeniyetmə entuziazmı, coşqunluğu və həvəsi yox olur. Ya da tab gətirə bilmədiyin insanların və xaraketrlərin sayı artır. Daha az insanla danışır və əlaqə qurursan. Ən azından onda elə olmuşdu.

Həmin yalnız olmayan günlərini xatırladı, üzüldü və əsəbləşdi. O günlərə heç vaxt qayıda bilməzdi çünki keçmişdə qalmışdılar. Artıq heç nə geri gəlməyəcəkdi. O günləri daha da dolu-dolu yaşasaydı kaş deyə düşündü, bir şansı daha olsaydı kaş, deyə dilədi. Lənətə gələsi o günlərdə ətrafında diqqətini dağıdacağı o qədər insan və şey var idiki hətta yalnızlığı belə arzulamış və onu əldə etmişdi də. Amma sonra, tənhalığın necə bir zillət olduğunu daddıqdan sonra, ondan son sürətlə qaçıb uzaqlaşmış və bir daha heç vaxt geri baxmamışdı. Onda başa düşmüşdü, əgər sizi heç vaxt bir yaban köpəyi dişləməyibsə onun ağrısını bilə bilməzsiniz. O ağrını hiss etdikdən sonra bir daha ona geri dönməmək üzərə qaçmışdısa da taleyin ironiyası onu indilərdə o ağrının, yalnızlığın ortasına qoymuşdu.

İçindəki bu keçmişə, o günlərə olan həsrəti yox etmənin ölümdən başqa bir yolu varmıydı görəsən deyə düşündü. Yenidən xoşbəxt olmaqmı? Çox uzaq bir xəyal kimi görünürdü. Bu lənət ölkədən çıxıb gedərək o xoşbəxt olduğu yerlərə qayıtmaq da istəmirdi çünki məyus olmaqdan qorxurdu. Heçnəyi əvvəlki kimi tapa bilməyəcəyindən şübhələnirdi. Və hər şey bir tərəfə, hansı küçəyə, hansı şəhərə ya hansı ölkəyə qayıdacaqdı? Bütün xatirələr param-parçaydı və hərəsi bir yerə səpələnmişdi.

Nə olduğuna tam əmin ola bilmədiyi bir anı xatırladı, içində yenə yaxşı bir xatirənin izlərini hiss etdi, sinəsinə sanki yığınla hava doldu və yaz müjdəçisi quşları eşitdi. Sonra o ani hiss təkrar yox oldu. Onun hansı xatirənin hissi olduğunu xatırlamağa çalışdı ancaq heçnə təsəvvür edə bilmədi. Təsəvvüründə heçnə canlanmırdı, bom-boş və qaranlıq bir səhifə canlanırdı gözündə, ancaq hisslər bütün şiddətiylə oradaydı, sinəsində. Bəlkə də olmamış bir xatirənin izləriydi, bəlkə də gələcəkdən bir xatirənin izləriydi. Hə gələcəkdən, üç il bundan əvvəl beş il bundan sonrası üçün qurduğu xəyalların hissləri. Nə vaxtsa gəlib çıxacağını umduğu anların sevinciydi, ancaq heç vaxt gəlməyəcəklər. Sonra qərar verdi: insanı ən betər günlərə salan xatirələr keçmişdəkilər deyil, gələcəkdən xatirələr idilər.

İndi anlayırdı, gənclərin ən böyük səhvlərindən biri də odur ki onlar elə bilir ki gələcək var. Amma gələcək yoxdur. Onu sənin addımların təyin edəcək. Sabah məsələn, yoxdur. Bir düşün dedi özünə, sabahı, qaranlıqdır hə? Boş səhifə. Sabah deyə bir şey yoxdur. Sadəcə indi var. Sabah sadəcə təsəvvürdəki bir anlayışdan ibarətdir və bəzən zərərli ola bilər. Çünki insanlar sabahlara böyük mənalar yükləyirlər. Bəzən insan elə düşünür ki onun mövcud yazılmış bir gələcəyi var və nə vaxtsa ora gedib çatacaq. İnsanlar o qədər xəyal qururlar ki bəzən xəyalın fakt deyil sadəcə bir xəyal olduğunu unudurlar. Məsələn o, həmişə düşünmüşdü ki, işlər gələcəkdə yaxşı olacaq, daha yaxşı işlərdə işləyəcəyini düşünmüşdü məsələn. Yaşamağın çox da çətin olmadığını və həmişə bir yolunu tapacağını düşünmüşdü. Xəyallar qurmuşdu ancaq indi onları yaratmış olduğu üçün

peşman idi. Yeni nəslin xəyalları əlində qalmış başqa bir nümunəsiydi. Həmişə elə sanmışdı ki nə vaxtsa işlər düzələcək, ancaq məsələ o idi ki "nə vaxtsa" deyə bir şey yox idi. Onu sən qurursan.

Düşdüyün girdabdan beş il sonra çıxacağını sanırsan, amma xəbərin yoxdur ki beş il sonra da eyni dərəcədə zibilə batmış olacaqsan. Amma yenə də təkamülün sənə verdiyi optimizm səni məcbur edir düşünəsən ki yox, beş il sonra hər şey əla olacaq. Lap qəbul belə etsən ki beş il sonra heç nə düzəlməyəcək, yenə də fikirləşirsən ki, ən azından başqa formada bədbəxt olacam. Məsələ də odur ki, başqa formada bədbəxt olsan belə bunu hiss etməyəcəksən çünki ora birdən birə yox, zamanla gedəcəyin üçün elə o bədbəxtçiliyin də həmişə orda, səninlə olduğunu sanacaqsan. Necə ki, indiki çuxurunda illərdir yaşadığını sanırsan. Ya da başqa sözlə, insan beş il sonra da bədbəxt olacağını düşünəndə o dərəcədə də qorxmur, amma ona desən ki, təsəvvür et, indi yaşadığın bədbəxtlik beş il çəkəcək və sən beş il sonra da yenə həmin evində oturub əzab çəkəcəksən, o dəhşətə düşəcək. Necə yəni, beş ildə heç nə dəyişməyəcək? Yox dəyişməyəcək. Əhəmiyyətsiz faktorlar dəyişə bilər amma əhəmiyyətli olan tək faktor var, o da ki, yenə də sənin bədbəxt qalmandır.

Ölüm, bütün bu pessimist düşüncələrinin içində əslində onun üçün ən yaxşısı kimi görünürdü. Çünki o nəinki indi bədbəxt idi, həm də gələcəkdə də bədbəxt olacağına artıq özünü inadırmışdı. Bir optimist üçün bu düşündüklərinin nə qədər gülünc səslənəbiləcəyini düşündü və kaş ki bir optimist olsaydı deyə arzuladı. İnsanların biokimyalarının nə qədər fərqli olduğu düşündü və içində olduğu bədənə lənətlər yağdırdı. İstəmədiyin həyata həm də istəmədiyin bir bədən içində gətirilirdin. İstəmədiyin bir kimya, zəif, pessimist, nevrotik ya qorxaq. Bu lənət bədəndən qurtula bilsəydi kaş, deyə düşündü və ölümü xatırladı. Üzüldü. Üzüldü çünki ölmək istəmirdi.

Sahildən gələn sərin bir meh fikrini dağıtdı və son yalnız keçirdiyi doğum gününü xatırladı. Əvvəllər ətrafında dostları

var ikən doğum günlərinə qarşı vecsiz olduğunu düşünürdü, doğum günləri onun üçün əhəmiyyətsiz idi və təbrikləri etinasızlıqla qarşılayırdı. Ancaq son doğum günündə anlamışdı, bir təbrikə nə qədər möhtac olduğunu. Yanında onu tanıyan bir insanın olmasını və təbrik etməsini diləmişdi. Son doğum günündəki kədərini və hirsini xatırladı. Bu həm də ona görəydi ki yaşlanırdı və yaşlanmaq istəmirdi. Doğum günləri uşaq ikən böyüdüyün üçün çox sevindiriciydisə, sonralar yaşlandığın üçün kədər günlərinə çevrilirdilər. Həmişə gənc qalmaq istəyirdi. Ya da bəlkə də yaşlanmaqdan ona görə qorxurdu ki, xoşbəxt deyildi, çünki xoşbxət günləri gəncliyində olmuşdu və artıq geridəydilər. Xoşbəxt insan üçün yaşın heç bir fərqi olmaya da bilər, ancaq bədbəxt insanlar həyatlarındakı hər şeyi bədbəxtliklərinə görə günahlandırır və özlərində bitməz və əsassız obsessiyalar yaradırlar. Mən bədbəxtəm çünki çiyələklər qırmızıdır, onlar mavi olsa bəlkə xoşbəxt ola bilərdim, yenə də əmin deyiləm.

Küləyin uğultusu ona təkrar tənhalığın dözülməs ağrısını xatırlatdı. İnsanların tənhalıqdan necə qaçdıqlarını düşündü. İnsanlar o qədər yalnız və bir-birlərinə o qədər möhtac idilər ki, onlara ən primitiv bir səbəb belə versəydiniz onlarda qrub təfəkkürünün toxumunu atmağa bəs edərdi. Tənhalıqdan qorxur və qaçırdılar. Gülünəsi acizliklə ən primitiv səbəbdə belə bir-birlərinə arxa çıxmağa başlaya bilərdilər. Çünki təkamüli olaraq belə formalaşmışdılar. Çünki meşə insanı üçün tənhalıq ölüm demək idi. Məsələn, insanlar sadəcə qapı nömrələri cüt sayılı olduğu üçün belə qruplaşa və bir-birini dəstəkləyə bilərdilər. Onlara bəhanə lazım idi, nə qədər məntiqli olub-olmadığı yox. Məsələ tənhalıqdan qaçmaqdırsa, insan ən səfeh hərəkətlər toplusuna belə bürünə bilər. Bir futbol komandasına dəlicəsinə bağlı olmaq məsələn, bəlkə də insanın tənhalıqdan qaçma və diqqətini dağıtma metoduydu. Ya da daha bəsit misal və nümunələr. Dünya üzərində indiyə qədər qurulmuş bütün qruplaşmaların bəlkə də sadəcə bir tək və doğru cavabı var: yalnızlıq.

Biriləri ilə ortaq bir dəyəri paylaşma hissi insana yalnız olduğunu unutdurur. Bütün o inqilablar, hətta savaşlar, hər nə qədər kompleks səbəblərdən qaynaqlanır olsalar da bütün səbəblərin aralarına səpələnmiş tənhalıqlar varıydı. Öz keçmişindən nümumələr düşündü tezisini dəstəkləmək üçün. Dövlət əleyhinə keçirdikləri ya qatılmış olduğu böyük mitinq və protestləri düşündü. Üzvü olduğu və tez-tez ziyarət etdiyi kommunist təşkilatları və bunun səbəbini düşündü. O vaxtlar niyə o protestlərə qatıldığı sualına tam doğru cavab tapa bilmirdi, vicdanımıydı onu oralara aparan yoxsa nə? Polisin qaz bombaları altında qaçışmalarının səbəbi tam olaraq nə idi? Adrenalin hərisliyi ya nə?

İndi cavabı bilirdi, o sadəcə bir qrupla birlikdə gücü yetdiyi qədər bağırmaq istəyirdi. Evdə qalmış olduğu yalnız günləri xatırlayırdı və daha da çox qışqırırdı. Üstlərinə qaz bombaları yağan minlərlə insanın arasında var gücüylə bağırmaq, çox da böyük problem deyildi və asan idi. Hamılıqla bağırırdılar. Onlar sanki ömrünün yarısını şüursuz bir heyvan, məsələn bir pələng kimi keçirərkən birdən birə durduq yerdə şüur sahibi olmuş və varlıqlarının dayanılmaz ağırlığı qarşısında qışqıraraq ağlayan canlını xatırladırdılar. Üsyançıların yaş aralıqlarının əsasən gənclər olması təsadüf deyildi. Onlar birdən-birə həyatla üzləşir və bunu rədd edirdilər. Sonra isə onlar o həyata öyrəşirdilər. Təkamülün ən asi yetirmələriydilər, zira birbaşa ona baş qaldırırdılar. Uçuşan qaz bombaları altında qaçışan ümidlər.

Bir nöqtədən sonra o təşkilatlarla fikir ayrılıqları yaşamış və çoxundan ayrılmışdı. Yenə də yaşadığı bütün ölkələrdəki protestlərə qatılırdı, çünki ona yalnız olmadığını xatırladırdılar. Protestlərin mahiyyəti vacib deyildi, öz şəxsi fikrini gizlədib protestçilərin ideologiyalarına bürünürdü, əsas o idi ki tənhalığını unutdururdular.

Həzin bir parfüm qoxusu diqqətini çəkdi və gözünü açdı. Yanından keçən qıza fikir verdi. Yeriyişindəki özünə inam və rahatlıq həmən gözə batırdı. Qızın böyüdüyü mühit ya indi

içində olduğu mühiti düşündü, varlı bir mühitdə olmalı idi. Situasiyanın, mühitin, insanın yeriyişinə belə necə təsir etdiyini düşündü.

Parfümünün və gözəlliyinin təsiri ilə o qızı arzuladı. Və bir anlıq qərara gəldi, xoşbəxtlik qadın kimidir, arxasınca düşürsən ancaq əldə etdiyin an başqasını ya yenisini istəyirsən. Başqa qadını, başqa xoşbəxtliyi. Sonra bu mülahizəsinin nə qədər nisbi olacağını düşündü, hər insan üçün belə olmadığını və bəzilərinin sadəcə tək bir qadınla, tək bir xoşbəxtliklə kifayətlənərkən bəzilərinin təbiətləri səbəbilə nə qədər acgöz olduqlarını düşündü.

Bəlkə də gedib o qızla tanışmalı və son günlərini xoşbəxt keçirməliydi, deyə düşündü. Ancaq son günləri xoşbəxt keçirmək insanı ancaq daha da çox bağlaya bilərdi həyata. Pis keçirməliydi. Ölümə gedirdisə Laranı da unutmalıydı. Bəlkə onunla bir ay yaşayıb sonra ölə bilərdi, amma bu sadəcə yaşamaqla çəkdiyi işgəncəni uzatmaq demək olardı, başqa heç nə.

Təkrar ürəyi sıxıldı. Sanki içində sönməkdə olan bir ulduz var idi və yavaş-yavaş qara dəliyə çevrilərək onu bilinməz qaranlığa doğru çəkirdi. İçdə böyüyən ağrı ya sinənin məngənəylə sıxılması hissi kiçilən ulduz kimidir, bəzilərində qara dəliyə çevrilir, bəzilərindəsə partlama verərək əsərlər yaradır, onun kiçilən ulduzu ölümlə nəticələnəcəkdi.

Lənətə gələsi həyatın, xoşbəxt bir insan üçün çox qısa, bədbəxt bir insan üçünsə çox uzun olduğunu düşündü. Ona görə də bəlkə də həbsxanalarda edam cəzasının olması əslində qatillərin sayını artıra bilərdi, deyə fikirləşdi. Çünki əsl cəza yaşamaqla cəzalandırılmaq idi, kiçik bir qəfəsdə həm də. Əgər qatillər edam edilsəydi, öldürmək istədiyi bir insan olsa onu öldürərdi, ancaq düşünəndəki sən kimisə öldürməklə ömrünün sonuna qədər bir qəfəsə salınırsan, bu dəhşətli bir cəza idi və cinayət təşəbbüskarını əməlindən yayındıra bilərdi. Hessenin yalquzağını xatırladı, taleyi belə olmuşdu, o edam cəzası üçün can atarkən Mozart onu yaşamaqla ittiham etmişdi. Ən ağır ittiham yaşamaqla ittiham olunmaqdır.

Yandakı reklam lövhələrinə sataşdı gözü təkrar. "Mən xərçəngə necə qalib gəldim!" deyə bir reklam gördü və əsəbləşdi. Reklamda bir qadının gülən üzü var idi Sanki həyat ölümdən daha gözəlmişcəsinə xərçəngdən qurtulmağı qalibiyyət adlandırırdılar. Digər reklamlar ona son iş yerlərindən birində divara yazılan yazını xatırlatdı: "Birinci məqsədimiz: müştərini məmnun etməkdir". Müştərini xoşbəxt etmək üçün lazım olan hər yol qəbuldur. Biznesdə makiavellizm.

"Daha çox işlə daha çox oyna" sözünü xatırladı, bəlkə də "daha az işlə daha az oyna" olmalıydı düzgün forması, ya da "oynamasan qazanmarsan" sözü "oynamasan uduzmarsan" olmalıydı. Yaşamasan əzab çəkməzsən. Bütün yollar ölümə aparırdı.

Bu ölkənin iqtisadi yaşam tərzi ona heç uyğun deyildi deyə düşündü. O çox işləmək istəyənlərdən deyildi. Ancaq yenə də sevirdi bu ölkəni. Qarışıq irqliliyi. Kiçik dünya kimi. Yoldan keçən insanlara baxdı. İmiqrantlar və fərqli irqlər. Çinlilər, hindlilər, ərəblər, meksikalılar, braziliyalılar, avropalılar. Hər gün nə qədəri gəlirdi. Sanki dünyanın bir ucu boşalıb o biri ucu dolurdu. İş səbəbilə imqirasiyalar. Bir gün ölkələr yox olub yerlərini şirkətlər alacaqmı görəsən? Onsuz da Amerika ölkə yox, şirkət idi. Prezidentləri də biznesmenlər. Gələn yeni imiqrantlara iş icazəsi verilir və vergiləri alınırdı. 80'lərdən sonra daha da çox şirkətləşmişdi Amerika deyə düşündü, Ronald Reagan və neoliberal addımlar. İqtisadi globalizmin və sosial ədalətsizliyin artışı.

Bayaq yanından keçən o gözəl qızın qarşıda oturduğunu gördü. Görəsən xoşbəxtdirmi deyə düşündü. Əlbətdəki xoşbəxt olacaqdı. Amerikada sanki xoşbəxtsənmi sualına yox cavabı verənləri gilyotinlə öldürürdülər. Hamı hə deyirdi. İnsanların həzz mexanimzasıyla idarə edildiyi Amerika qitəsində Huxleyin ruhu dolaşırdı və Orwel ölmüşdü.

Ürəyinin belə dərindən sıxıldığı anlarda tək şeyi arzulayırdı, bir düymə olsaydı da və basan kimi ağrısız ölsəydi. Çünki insanı ölümdən uzaq tutan əsas şey ölümün fiziyoloji yox psixoloji ağrısıdır. Ancaq ani bir düymə hər şeyi dəyişə bilərdi

və elə olsaydı yəqin onsuz da insanların yarıdan çoxu ölərdi. Dünya qəbirstanlığa çevrilərdi.

Qarşı yoldan keçən bir qadının üzünə ilişdi baxışları birdən. Sanki ailəsindəki bütün yoxsulluqlarına, kasıblıqlarına və ümidsizliklərinə baxmayaraq dik durmağa çalışan və qarşıdan gələn bayramı üstlərinə çökmüş bədbəxtliyi uşaqlarına hiss etdirmədən yola verməyə çalışan bir ana üzü gördü qadının üzündə. Bu bayram uşaqlara hədiyyə alınmayacaqdı, son bayramda və ondan əvvəlkində də olduğu kimi. Amma gələn bayramda alınacaqdı. Mütləq. Çünki tanrı bu qədər mərhəmətsiz ola bilməzdi. Gələn bayram çox yaxşı olacaqdı. Ancaq bu bayramın bədbinliyini uşaqlara hiss etdirməmək lazımdı. Onlar hələ çox kiçikdirlər.

Qadına baxdıqca ürəyi parçalandı. Uşaqlığını və yoxsulluqlarını xatırladı. Bədəni istiləndi. Mərhəməti gözlərinə vurdu və gözləri islandı. Kişilərə məxsus ustalıqla göz yaşını əliylə silmədən qurutmağa çalışdı, bacarmadı. Xilas olmuş bir damla sol yanaqdan aşağı doğru süzüldü. Durub qadını qucaqlamaq istədi. Ancaq həyat o qədər də gözəl deyildi ki, yoldan keçən istədiyin hər insanı qucaqlayıb ağlaya ya öpə biləsən. Qadının məğrur baxışları altında bir çarəsizlik gizlənirdi. Düşüncəliydi. Bəlkə doğuştan xəstə bir uşağını bəlkə bu gün yeməyə üç kartofdan başqa heç nə qalamayan evdə nə hazırlayacağını düşünürdü.

Üzünü çevirdi. Laranı xatırladı. Neyləyirdi görəsən. Evdəydimi. Yenidən kefi pozuldu. Heç tanış olmamış olsaydı, görməsəydi, o gün orada olmasaydı deyə düşündü. Bir gün içində ona sanki vurulmuşdu. Birdən-birə evdən qaçıb çıxaraq bəlkə də ona qarşı düzgün hərəkət etməmiş olduğunu düşündü. Ancaq sanki onun yanında olduğu hər müddətcə ona daha da bağlanırdı. Düşünmək üçün qaçıb çölə çıxmışdı.

Yenidən yerə uzandı və gözlərini yumdu. Səhər isti olan hava indi bir anda dəyişmişdi və günəş buludların arxasında gizlənirdi. Soyumuş hava kefini pozdu. Bir qədər mürgülədi və sonra otların üstündəcə yuxuya getdi.

Poe və Emerson'un ruhunun dolaşdığı bu ziddiyətli şəhərin qoşatəbiətli bədbəxtliyi getdikcə üstünə çökür, bu bəs deyilmiş kimi üstünə bir də soyuq və bom-boz payızın ağırlığı yüklənirdi. Buralardan getməliydi. Ya da bu şəhərin onu öldürməsinə razı olmalıydı.

6

# RİÇARD

Bir müddət sonra küçədəki inşaatın səsi onu oyatdı. Qısa müddət ərzində dərin yuxuya gedə bilmişdi. Gözlərini qıyaraq yavaşca və azca açıb ətrafa baxındı. Bir qədər uzanmış vəziyyətdə gözlədi. Dikəldi. Yüngül baş gicəllənməsinin keçməsini gözlədi. Alçaq təzyiq problemi var idi. Ayağa durub həmişə getdiyi o parka doğru yollandı.

Parkın ortasındakı hündür heykəlin olduğu kiçik təpəyə getdi. Adətən gənclərin yığışıb oturduğu yer idi. Ot çəkənlər və satanlar olurdu. Həmçinin hündür heykəlin şəklini çəkməyə gələn turistlər, uşaqlarını ya itlərini gəzdirənlər, idman edənlər, oturub kitab oxuyan ya söhbət edənlər və s. Heykəlin başına bir dəfə fırlandıqdan sonra boş oturacaqlardan birini seçib oturdu. Gəlib keçənləri izlədi. Tam qarşısında oturub ot çəkən yeniyetmələrə baxdı, onların xoşbəxtliyini qısqandı. Qibtə etdi. Bir müddət onlara baxdı və ortada oturan gözəl gülüşlü qızın təbəssümündə itdi. Bir qədər sonra gənc qızın ehtirasının yaratdığı xəyaldan oyanıb əlini cibinə atdı, son oxuduğu kiçik kitabçanı çıxarıb oxumağa başladı.

Kitab oxumağın bütün məntiqi səbəblərindən əlavə, son vaxtlar sadəcə reallıqdan uzaqlaşmaq, beynindəki keçmişlə bağlı xatirələrdən bir an belə olsun yayınmaq üçün oxuyur-

du. Bu günlərdə oxuduğu vaxtlara nifrət etdiyi anlar olurdu. Həddindən artıq kitab oxumağı kasıbın əyləncəsi adlandırırdı. Ucuz əyləncə. Ən çox kitab oxuduğu aylar ən yalnız qaldığı aylar idi və bu fakta nifrət edirdi. Əgər xoşbəxt olsaydı bu qədər oxumazdı bəlkə də. Bədbəxtliyindən bu qədər oxuduğunu düşünürdü. Yenə də bəzən bitməməsini istədiyi kitablar olurdu, bədbəxtliyindən deyil sevdiyindən oxuduğu. Qərarsız və doymaz xisləti nəticəsində yarım buraxdığı yüzlərlə kitab var idi, digər yarım buraxdığı hər şey kimi.

Çox düşünən insan reallıqla əlaqəni itirir və illuziyalar dünyasında yaşayır deyirdi Alan Watts. Haqq verirdi ona, çox düşünən insan ya gələcək ya keçmiş ya da fikirlərin illuziyasında yaşayır. İndidə, anı yaşamaq üçün düşünməməlisən. Oxumaq ən azından onun fikirləşməsini dayandırırdı. Öz keçmiş ya gələcəyindən uzaqlaşdırırdı. Bir neçə saatlıq belə uzaqlaşdıra bilirdisə kitab onu öz reallığından, sevinirdi. Bir neçə saat fikirləşmədən, əzab çəkmədən keçmişdi.

Ümumiyyətlə, sadəcə oxumağın deyil, yazmağın da səbəbini yalnızlıq olaraq görürdü. İnsanlar yalnızlığa məhkum idilər. İnsanlar həm birlikdə yaşamağa, həm də təkliyə məhkum idilər. Taleyin ironiyası. Başqa bir insanı anlamaq həddindən artıq yorucuydu, onun iç dünyasına girmək və başa düşmək. İnsanı tamamilə başa düşəcək başqa birini tapması çətindir. O adam onun üçün bəlkə də Lara idi, bəlkə də sabah səhər şimal küçəsindən keçəcək olan o şəxs idi, bəlkə yox idi, bəlkə də Qodot idi. Dinlənilmək və başa düşülmək deyə düşündü, bütün insanların əsas dərdiydi. Tarixin səhifələrini bəzəyən qalın romanlar bəlkə də bunun ən yaxşı nümunəsiydi. Özü-özüylə yüzlərcə ya minlərcə səhifə söhbət edən dialoq quran yazarlar niyə yazırdı? Ədəbiyyat tarixi danışmağa yaxşı bir insan tapa bilməmiş yalnızlarla doludur deyirlər. Məsələ ətrafında kiminsə olması deyil. Milyonlarca sevəni olan insanlar belə yalnızdırlar. Söhbət etməyə yaxşı bir dostları olsa bəlkə yazmazdılar, ehtiyaclarını danışaraq ödəyərdilər, bəlkə də yanılırdı deyə düşündü. Səhifəni çevirərkən oxuduğu səhifədə heç nəyi

xatırlamadığını görüb yenidən eyni səhifəni oxumağa başladı. Oxumaq belə düşünməsini dayandırmırdı. O qənaətə gəldi ki insanlar yalnız qalmamaq üçün başqa bir insanla danışarkən dürüstlük və təsdiqlənmə arasında qalırlar. İnsanlarla heç vaxt tam səmimi ola bilməzsən, yoxsa həm söhbət edəcək kimsən qalmaz, həm də hamını incidə bilərsən onlar haqqındakı əsl fikirlərinlə. Ona görə də nəzakətli insanlar ən çox şirin yalan danışan insanlardırlar.  Olanı deyil, qarşı tərəfin eşitmək istədiyini deyirdilər. Bunu yaxşı bacaranların çox dostu olurdu, bacarmayanların, ya da bunu etmək istəyənlərinsə az.

Yaşadığı köçəri həyat onu yalnızlaşdırmışdı. Hər dəfə bir yerdən köçdükcə bütün əlaqələri ilə sağollaşmış və yenilərini qurmuşdu və bir nöqtədən sonra o qədər uzaqlaşmışdı ki artıq özü belə yanında deyildi. Artıq tənha belə deyildi, daha da betər idi. İnsanların xoşbəxtliyinin ya da xoşbəxt hiss etmələrinin ən güclü faktrounun nə pul nə şöhrət, sosial əlaqələr olduğunu düşünürdü. İnsan, başqa bir insana və bir nöqtədən sonra daha da başqalarına möhtacdır. Eyni insanlar bir nöqtədən sonra darıxdırıcı gəlir, yenilərinə möhtacdır insan. Ən azından onun təbiəti eləydi, bir introvert üçün belə olmaya bilərdi. Sosial əlaqələri zəif olan, ya da ətrafında heç kim olmayan insanlar ona görə də süni sosial mühitlərin, sosial medianın, internetin aludəçisi olurlar. Bir qrup içində olmaq üçün darıxmışdı. Onu başa düşəcək bir qrup insanın içində olmaq üçün, ortaq maraqlara sahib olduğu bir qrup üçün, köhnə günləri üçün darıxmışdı.

"Yanında otura bilərəmmi dost?" deyə kimsə səsləndi birdən. Başını qaldırıb səslənənə baxdı və "aha, otura bilərsən" dedi. Otuzlu yaşlarında bir oğlan idi. İlk görünüşdən bir evsizə oxşatdı onu. Əmin ola bilmədi. Dodaqlarının və burnunun bir hissəsinin dərisi soyulmuşdu. Yanıq izinə oxşayırdı. Sağ qolunda diqqəti tez cəlb edən ağ sarıq var idi. Kürəyində qara bel çantası. Hündür boy, sarı saç, yaraşıqlı, üst-başı dağınıqdı. Oturub əlində nəyləsə məşğul olmağa başladı. Kitabını oxumağa davam edirdi ki oğlan yenidən səsləndi:

“Nə var nə yox, necəsən?”

“Belə də, sən necəsən”

“Nədir o, nə oxuyursan?”

Kitabın üzünü qaldırıb adını göstərdi. Oğlan gözünü qıyaraq baxıb kitabın adını oxudu “qav-raaa-yış, qavrayış qapıları, aldous huxley”.

“Necədi, necə kitabdı?” – ciblərində nəyisə axtara-axtara soruşdu.

“Yaxşıdı, yaxşı kitabdı”.

“Riçard, mənim adım Riçarddır, səninki nədir?” - əlini uzatdı ona Riçard. O da öz adını dedi, əl sıxışdılar. Sonra Riçard cibindən çıxardıqlarını qucağına qoyub nəsə hazırlamağa başladı.

“Ot çəkmək istəyirsən?” deyə soruşdu Riçard

Bir qədər düşündü. Beyin kimyasını dəyişdiyi üçün içkidən başqa bütün hər şeyi buraxmışdı amma ölümə gedirsə nə fərqi deyə düşünüb razılaşdı.

“Çox çəkənsən?” - Riçard soruşdu

“Bir ara təmiz buraxmışdım, beyin balansını pozduğuna inandığım üçün, ancaq sonra həyatımdan əlimi üzdükdən sonra çox daha çəkməyə başladım”

Riçard sarmaqla məşğul ikən ətrafa baxındı biraz. Riçard haqqında düşündü. Qısa müddətdə ondan xoşu gəlmişdi. Qəribə birinə oxşayırdı. Xoşniyyətli biri təəssüratını bağışlamışdı. Səsi olduqca mülayim idi. Ağladıqdan sonra göz yaşları qurumuş ancaq gözətrafı qızarıqlığı qalmış kədərli bir uşağı xatırladırdı. Üzü sanki mərhəmət üçün yalvarır, ancaq bir o qədər də bunu gizlədir, hələ yıxılmadığını, başının dik olduğunu göstərirdi. Onun hələ də bir evsiz olub olmadığını başa düşməmişdi. Qolundakı yaranın izləri sarğının biraz ətrafına daşırdı, yara olduqca pis görünürdü, görəsən nə yarasıydı, deyə fikirləşdi. Nədənsə söhbət açmaq istədi, bilmədi nə desin. Kitabdan son bir cümlə oxuyub səhifəni qatlayıb örtü. “Meskalin haqqındadır bu kitab, bilirsən meskalini?” deyə soruşdu.

“Meskalin? Hə, bilirəm meskalini”

“Yoxlamısan heç nə vaxtsa? Mənə maraqlıdı, yoxlamamışam amma”

“Yox, mən də yoxlamamışam” - dili ilə sarmanı isladıb kənarlarını yapışdırdı.

Riçard işini bitirdi, çantasını götürdü və “dur gedək, hazırdı, ancaq burda uşaqlar var, uşaqların yanında olmaz” dedi. “Bu mənim qaydamdı, uşaqlar varkən olmaz”

Qalxıb yamacları çəmənlərlə örtülü təpənin biraz kənarına doğru gedib oturdular. Riçard sarmanı ona uzadıb yandırmasını istədi, o yandırdı, dərin bir tüstü aldı və geri ötürdü. Təkrar Riçardı müşahidə etdi, olduqca nəzakətliydi.

“Bacım məni evdən atdı,” - dedi birdən Riçard. “Vodka içirəm deyə atdı məni evdən,” bir tüstü daha aldı və üzgün səslə davam etdi: “Gəldi gördü içirəm, qovdu evdən, indicə, bugün, ordan gəlirəm”

“Neyləmək istəyirsən bəs?”

“Bilmirəm, heç bir fikrim yoxdu, gedəcək heç bir yerim yoxdu”

Riçard dodaqaltı nələrsə mızıldanır, heyfislənir, amma anlaşılmırdı. Hələ də bacısının onu evdən qovmasının təsirindəydi. “Mən onlar üçün əlimdən gələni etdim, onlarsa belə etdi. İşləyirdim, əlimdən gəldiyi qədər kömək edirdim, al bu da nəticə, sadəcə çox içdiyim üçün qovdu məni”

Riçard bayaqdan bəri arxada oturan gənclərə baxırdı. Birdən onları çağırdı və nəsə problemləri olub olmadığını soruşdu. Onlar heç nə başa düşmədilər. “O bayaq yanınızda oturan uşaqlar sizi narahat etdilər sandım, onu soruşurdum” dedi onlara. Onlar da problem olmadığını dedilər. Üç nəfər idilər. İki gənc yerli qız və bir asiyalı oğlan, yeniyetməydilər. Çəmənlərin üstündə oturub söhbət edirdilər.

- O gedən üç nəfər qaradərili uşaq nəsə şübhəli görünürdülər, onları narahat etdiklərini sandım, gəlib yanlarına oturdular və nəsə dedilər onlara, bilmək istədim nə məsələdi. – Riçard ona məsələni izah etdi.

“Başa düşdüm” - deyərək cavab verdi. Sonra Riçard çan-

tasını açdı, bir şeylər götürdü və "Yaxşı çantadı bu" - deyə dilləndi.

- Hə, yaxşı görünür,

- Baxmaq istəyirsən içinə? Al bax, bu arxa cibi görürsən? Bura öz kompyuterini qoya bilərsən. Sonra, bu ipi görürsən burda? Onu çəkirsən kompyuterin qalxır yuxarı, əladı hə? Al, bax çək ipi.

Kompyuter üçün ayrılmış cib boş idi. O ipi Riçard istədi deyə çəkdi və bunun çox yaxşı düşünülmüş bir fikir olduğunu dedi. "Bahalı çantaya oşxayır," - deyə davam etdi.

- Elədi, 240 dollar.

- 240?? O qədər pulu çantaya verməzdim yəqin

- Mən vermişəm demədim, - deyib gülümsədi Riçard.

Çantanın içində təkrar birşeylər axtarmaq üçün çabaladı, sonra davam etdi,

-Oğurlamışam.

-Necə?

-Sadəcə oğurladım, götürdüm və çıxdım. Aşağısında bağlı bir metal var idi, qırdım onu və çıxdım ordan.

-Başa düşdüm. Məni tutmuşdular bir dəfə oğurlayanda, oğurlaya bilməmişdim - gülərək Riçarda cavab verdi, – Tam qapıdan çıxanda iki nəzarətçi qabağımı kəsdi və mənə yaxınlaşıb yan otağa keçməyimi istədilər. Ağappaq olmuşdum, nə edəcəyimi bilmirdim. Onlarla otağa girdim. Bütün divarlarda təhlükəsizlik kamerasının çəkmiş olduğu oğurluq anları var idi, oğurlayanlar hansısa əşyaları tam ciblərinə qoyarkən çəkmişdilər. Ağ qara şəkillər idi, bir video kadrdan lentlər kimi. İndi yəqin o otaqda mənim də şəklimi vurublar divara – deyib yüksək səslə güldü.

Bir tüstü daha alıb sarmanı Riçarda ötürdü və davam etdi,

- Bilirsən nə oğurlamışdım? Paltar sabunu. Onlar sadəcə böyük qutunun içində iyirmi otuz ədəd kiçik sabunları satırdılar. Mənə isə sadəcə iki ədəd lazım idi. Qabı açdım və içindən iki ədəd kiçik sabun götürüb sonra qabı səliqəli formada geri qoydum. Bir də ondan əlavə, almış olduğum başqa ərzaqlar var

idi. Kassada onları ödədim. Sabun cibimdəydi, sonra çıxanda dayandırdılar məni. İçəridə dedilər ki ciblərimi boşaldım, bir anlıq dayandım, həyəcanlıydım. Sonra cibimdən iki sabunu çıxarıb stolun üstünə qoydum. Baxdılar və gülməyə başladılar. Sonra mənə divardakı şəkilləri göstərərək "vodka, vodka" deməyə başladılar. Ortaq dil bilmirdik, ingiliscə də bilmirdilər, başqa bir ölkədəydim. Mənə "niyə vodka oğurlamamısan, o daha dəyərlidi" deməyə çalışırdılar. Mən də onlarla birlikdə gülməyə başlayıb vəziyyəti yumuşaltmağa çalışırdım. Əslində gülməyim gəlmirdi, təqlid edirdim. Sonra aralarında bir şeylər danışdılar, anlamırdım, biri otaqdan çıxırdı, saxladım "hara gedirsən" dedim anlamasa da, o da "menecer, menecer" deyə təkrarladı. Əllərimi ortada birləşdirib onların dilində "xahiş edirəm, xahiş edirəm" deyə təkrarladım. O da mənə alayarımçıq ingiliscəsiylə "mənim işim, mənim işim" deyə qarşılıq verdi və getdi.

Bir siqaret yandırdı, Riçarddan siqaret istəyib istəmədiyini soruşdu və səs tonunu dəyişərək əlavə etdi: "Yəqin onlar da tutduqları oğru başına pul alırlar. Yazıqlar oturub bütün gün kiminsə nəsə oğurlamasını gözləyirlər yəqin" deyib güldü, Riçard da ona qoşularaq güldü.

- Sonra polis gəldi.

- Polis?? – Riçard təəccüblü formada sözünü kəsdi.

- Aha, polis.

- Polis çağırıb əclaflar?! –Riçard təkrar sözünü kəsdi əsəbi formada.

- İşimdi deyirdi də, yəqin məcburdu. Passportumu istədilər. Mən də yataqxanadadı dedim, getdik bunların maşınında. Yataqxanada da hamı gördü ki iki polis məni otağıma aparır. Hamısına öz dillərində nəsə deyirdi polis, yəqin "baxın bu xiyar sabun oğrusudu" deyirdilər. Otağımdakı içki butulkalarını görüb onlar da niyə vodka oğurlamadığımı dedilər, cavab verdim ancaq anlamadılar. Cəza yazdıqları bir kağız verdilər, 20 dollar kimi bir məbləğ ödədim, getdilər.

Siqaretdən uzun bir tüstü aldı və sonra ağzının sağ kəna-

rıyla dumanı havaya buraxdı. Riçard çantasını açdı, vodka butulkasını götürdü. İçində səliqə ilə qatlanılmış paltarlar var idi. "Elə bunlardı əşyaların?" deyə soruşdu o, "Hə, sadəcə bunlar, vəssalam" deyə Riçard üzgün formada başını yellədi. Bir qədər sonra dilləndi: "Həyat bilirsən nədir? Yola getmə, razılaşma, qəbul etməkdir həyat. Vəssalam. Başqa nə edə bilərsən ki?" dərdli formada vodkasından bir qurtum aldı, "Olacaqları dəyişdirə bilərik? Yox. Olmuşları dəyişdirə bilərik? Yox. Vəssalam. Sadəcə yola gedirsən həyatla. Başqa heç nə edə bilməzsən." Deyib susdu. Gəlib keçənlərə baxırdı. Arada dodağının altında birşeylər mızıldanırdı, ancaq onu başa düşmək olmurdu. "Elədi, haqlısan, sadəcə yola gedirsən və yola verirsən" deyə onu təsdiqlədi.

"Mən bacımı çox sevirdim, onun üçün hər şeyi edərdim, amma bax, o məni küçədə qoydu" deyib Riçard təkrar içdi. "Bacın üçün adam öldürərdin sən?" deyə soruşdu sonra.

"Mən??" - bir qədər qərarsız formada düşündü, "Yox yəqin, bilmirəm"

"Zarafat edirsən!? Bacındı o sənin, əlbətdəki öldürərdin" Riçard onun sözünü kəsib təəccüblənərək dilləndi.

"Bilmirəm, baxır niyə, baxır o anki vəziyyətə, əmin deyiləm, ümumiyyətlə heç nə üçün kimisə öldürəcəyimi düşünməmişəm, ancaq ola bilər ki buna səbəb olmayıb. Bir situasiyanın içində olmadan insan heç vaxt dəqiq əmin ola bilmir nələr baş verəcəyindən. Ancaq fərz edə bilərik."

"Mən öldürərdim əgər onu kimsə incitsəydi. Əslində indi yoldaşı onu incidir, ancaq daha çox sözlü olaraq incidir"

Arxada oturmuş bayaqki Asiyalı yeniyetmə onların yanında peyda oldu birdən-birə. Salam verdi. Onlar qarşılıq verərək onu salamladılar. Oğlan olduqca narahat görünürdü. Tez-tez eynəyinin ortasından işarət barmağıyla basaraq yerini tarazlamağa çalışırdı. Nisbətən kök barmaqları olan əlinin içi tərləmişdi sanki. Salam verdikdən sonra bir qədər dayandı. Onun niyə gəldiyini açıqlamasını gözləyirdilər. Durduq yerə birdən "Siz haralısınız?" deyə soruşdu. Sual ani olmuşdu. Çaşqın

formada ikisi də gülümsədi. "Buralıyam mən. Burda doğulmuşam. Bu küçələrdə böyümüşəm." deyə Riçard sualı cavabladı. Gənc oğlan hələ də çox həyəcanlıydı, sözlərini birləşdirib deyə bilmirdi. Durdu və birdən mızıldandıqdan sonra dilləndi: "mm, Kaliforniya". Bu anlaşılmaz cümləsinin üstünə onlar bir-birinə baxdılar. Oğlan "Yaxşı sağolun" deyib geri dönürdü ki Riçard onu çağırıb "Hey" deyə dilləndi ona. Oğlan dayandı, ona baxdı,

"Missiyan nə idi?" - deyə soruşdu Riçard.

"Nə missiyası?" oğlan çaş-baş formada cavabladı.

"Missiyan. Ordan durub bura gəlməkdə məqsədin. Niyə gəldin bura? Nə etmək istəyirdin?"

Oğlan daha da qızarıb əsməyə başladı. Üzündə güclü bir nifrət hissiylə Riçarda baxırdı. Sanki Riçarda onların rahatını pozduğu üçün nifrət edirdi və üzünə tüpürmək istəyirdi, amma qorxurdu.

O anda digər iki yeniyetmə qız onlara doğru yaxınlaşdı. Gülürdülər. Səmimi formada salam verdilər. Necəsiniz, deyə soruşdular. Riçard onlara yaxşı olduğunu deyib sonra da biraz əvvəl yanlarına yaxınlaşan oğlanların onları narahat edib etmədiklərini soruşdu. Onlardan şübhələndiyi üçün belə soruşduğunu əlavə etdi. Qızlar hər şeyin qaydasında olduğunu bildirdilər. Təkrar gülürdülər. Marixuananın təsirində idilər. Asiyalının qoluna girib "yaxşı, sağolun" deyərək uzaqlaşdılar.

Riçardla o bir-birinə baxaraq gözlərini bərəldib çiyinlərini çəkərək bu son olanlardan heç nə anlamadıqlarını bildirdilər. "Bu nə idi ki indi?" Riçard gülünc formada gəncin arxasınca baxa-baxa soruşdu. Gənc də hələ də arada geri dönüb qəzəb dolu gözlərlə onlara baxırdı.

"Bilmirəm. Yəqin qızların yanında özünü göstərmək istəyib. Onlara sataşdığımızı düşünüb kişilənib. O bir yeniyetmədi, nə gözləyirsən? Həyəcanlıdı. Görmədin necə əsirdi?"

"Hə, elədi," - bir qədər dayandıqdan sonra təkrar dilləndi Riçard - "Bu qız daha yaxşı oxuyur. Ən azından əvvəlkindən yaxşıdı."

Parkın o biri başında qurulmuş səhnədə oxuyan qızdan danışırdı. Səhnəni burdan görə bilirdilər. Riçard təkrar qızı dinlədi. "Hə, hə, bu qız çox yaxşıdı. O biri sanki ağzında penis varmış kimi oxuyurdu. Sən, başını hara qoyassan bugün?"

"Başa düşmədim?"

"Başını, başını deyirəm, qoyacaq bir yerin var? Harda yatacaqsan bugün?"

Nə cavab verəcəyindən əmin deyildi. Dayandı birdən. Düşündü. Ona qalmağa bir yerinin olduğunu deməliydimi yoxsa yox. Görəsən onun evində qalmaq istədiyini dilə gətirərdi? Əgər soruşsa necə yox deyəcəkdi? Yoxsa hə deməliydi? Artıq problem lazım idimi ona? Yoxsa yaxşılıqmı etmək istəyərdi?

"Sevgilimin evində qalıram" - deyə dilləndi birdən.

"Aydındı" - dedi Riçard. - "İşləyirsən?"

"Yox. Ayrılmışam işdən bu yaxınlarda. Əslində mən də küçələrdə yaşamağı düşünürdüm bir müddət.."

"Nəə? Yox! Qətiyyən elə bir şey etmə. Ciddisən? Asan deyil küçədə yatmaq. İşlə mütləq. Bir işin olsun. Məni işimdən də qovdular. Həm işsizəm, həm evsiz." Riçard onun sözünü kəsdi.

"Yox, bir müddətlik deyirdim. Ancaq hə, sonra əmin oldum ki yox, küçələrdə yaşamaq da alınmır. Asan deyil. Ancaq məncə, hər insan ayda bir dəfə çıxıb küçədə bir evsiz kimi yatmalıdır. Yatmalıdır ki görsün necə çətin olduğunu və bəlkə onda öz həyatından zərrə qədər belə olsa razı qalar heç olmasa. İnsanlar bəzən başını soxacaq bir daxmanın olmasının necə bir xoşbəxtlik olduğunu unudurlar həqiqətən."

"Birini də saraq bəlkə? Çəkmək istəyirsən?"

"Yox. Mən yaxşıyam."

"Yox? Yaxşı. Nədən danışırdın sən ən son?

O nə qədər etdisə ən son nədən danışdıqlarını xatırlaya bilmədi, "dilimin ucundadı bir dəqiqə.." bir qədər fikirləşdi, "yox, alınmır xatırlamıram, siktir et".

"Qısa müddətli yaddaş"

"Hə, nə qədər idi o? Üç dəqiqə?"

“Səndə otuz saniyədi deyəsən” deyib qəhqəhə ilə güldü Riçard, o da ona qatılaraq gülməyə başladı, sonra bunun otun təsirindən olduğunu dedi.

“Mən vodka almalıyam parkın başındakı mağazadan, həm də yeriyim biraz, oturmaqdan götüm düzləşib.” deyib durmağa hazırlaşdı Riçard. O da onunla birlikdə yığışdı və ayağa durdu.

“Sən də gəlirsən? Sənin də gedəcək yerin yoxdu deyəsən, mənim kimi”

“Aha”

“Yaxşı. Onda bəlkə belə edək. Bu parkın başındakı mağazada eyni vodka 7 dollardır, biraz aşağıda Çin məhəlləsində isə 5 dollar. Gələrsən ora qədər mənlə? Orda mənə satmırlar içki, sənə pulu verərəm alarsan mənə, olar?”

“Olar olar, gedək, problem yoxdu”

Getməyə hazırlaşırdılar ki birdən “Hey” deyə araxadan biri Riçardı çağırdı. Dönüb baxdılar. Asiyalı oğlan və yanında qızlardan biri var idi. Digəri yox idi. Olduqca kədərli görünürdülər.

“O sənin  dediyin oğlanlar dostumuzun portmanatını oğurlayıblar” - deyə mızıldandı oğlan dodağının altında kefsiz halda.

“Nəə?? Doğrudan?? Mən bilirdim! Mən bilirdim!” deyə Riçard təəccüblə cavabladı. “Onlar gəlib sizin yanınıza oturub eyni ağaca söykəndilər, mən düşündümki sizə nəsə deyib narahat edirlər, ancaq deməli əli ilə yavaşca portmanatı götürüb gediblər!”

“İnana bilmirəm, sən demişdin Riçard!” Onlar həm təəccübləndilər, həm də sevindilər. Portmanatı oğrulanan qız onlardan biraz aralıda yerə baxınaraq gəzinirdi.

“Yaxşı, sağolun” - dedi gənc asiyalı oğlan və yanındakı qızla dönüb getməyə başladılar yavaş-yavaş, kefsizcəsinə.

“Hey” - Riçard çağırdı onları, “onlar bu istiqamətdə getdilər, bax, görürsən, burdan düz o qapıya tərəf” barmağıyla parkın qərb çıxışını göstərdi.

“Onlar onsuz da tapa bilməyəcəklər o oğruları” - dedi Riçarda o.

“Bilirəm,”

“Bəs niyə elə dedin?”

“Onlara ümid vemrək istədim,”

“Bu daha da pisdir”

Çin məhəlləsinə doğru yola düşdülər söhbətləşərək. Təəccüblərini və haqlı çıxma sevinclərini hələ də basdıra bilmirdilər.

Parkın çıxışında dayanan bir qrup qaradəriliyə yaxınlaşdı Riçard. Satıcıydılar. Bir tərəfdə velosipedin üstündə oturmuşdu biri təkcə, digər tərəfədə isə üç dörd nəfər ayrı idi. Tək olan oğlana yaxınlaşdı Riçard.

“Hey, necəsən, 20lik varındı?”

“Aha”

Bir neçə metr aralıdakı dəstədən bir gənc yaxınlaşaraq yüksək səslə dilləndi “Hey, hey, dayan neynirsən? Gözlə burdakına da bax, seç sonra al da. Pulunu ziyan etmək istəmərsən, elə deyil?”

“Göstərin ikisini də, iyləməliyəmki bilim yaxşıdılar ya yox” - dedi Riçard.

“Ala, al, bax, necədi? Xoşuna gəldi, hə? Bu zibil deyil səninçün, ən yaxşısı budu, necədi, bəyəndin?”

Sol tərəfdəki velosipedli gənc cibindən öz satdığını çıxardı, solğun rəngi qaçmış malı görən kimi Riçard “onun söhbəti belə gedə bilməz” deyib söhbəti bağladı. Satıcı gənc səhərdən bütün müştərilərini bu formada itirmiş olacaqdı ki  kədərli formada başını aşağı saldı. Kefsiz idi. Riçard pulu digərlərinə verib, malı aldı, sonra biraz daha artıq verməsini xahiş etdi, satıcı da verdi və onlar ayrıldılar.

“Bax görürsən, birinin kefinin pozulmasına səbəb oldum, ancaq nə edə bilərəm? Mən yaxşı mal almaq istəyirəm, yaxşı olanı alıram, pisi satanın kefinin pozulmasına səbəb oluram. Hər şeyi idarə edə bilməzsən, bir nöqtədən sonra axışına buraxmaq lazımdı” deyə gileyləndi Riçard, “hə, bir də ki, malı alanda, həmişə daha artığını istə, mütləq verəcəklər”

Çin məhəlləsinə doğru yola düşdülər. Yolda Riçard “mən işəməliyəm” dedi, ətrafda işəniləcək yer yox idi.

-Bu kafelərdən birinə girəsən bəlkə?

-Yox, onlar biz işəməyək deyə tualet qapılarına şifrə qoyurlar. Gözlə məni burda, bir dəqiqə -  deyib bir neçə metr arxada az adam keçən küçənin divarına işəməyə başladı Riçard.

Olduqca uzun çəkdi və bu onu darıxdırdı. Şırıltı səsi ətrafı götürmüşdü. Bir müddət sonra kəsildi. Riçard gəldi.

-Qapılara biz işəməyək deyə şifrə qoyublar dedin, bilirsən nə yadıma düşdü? Bir müddət Avropada yaşamışam. Bel çantamı götürüb hər həftə bir ölkəyə gedirdim. Bəzən qalacaq heç kimi tapmayanda küçələrdə yatırdım. Çox az pulum var idi deyə sadəcə yola pul xərcləyirdim, bir də ucuz sandviçlərə. Bir gün Parisdə Notr-Dam kilsəsi tərəfdə boş-bekar fırlanarkən bərk qarın ağrısına tutuldum. Normalda küçələrdə evsizlər və turistlər üçün tualetlər olurdu, amma orda yox idi. Zənginlər üçün bahalı restoranlar idi hər tərəf. Restoranın birinə girib çantamı masaya qoydum. Üst başım bərbad haldaydı, içəridəki elitləri narahat etmişdim girən kimi. Tualetə getdim. Dayana bilmirdim. Qapını açıb tualetə girəndə çox sevindim, şifrə yox idi qapıda, ancaq sonra tualetin içindəki qapını açanda gördüm ki açılmır ağzında şifrə var. Təmiz kefim pozuldu. Pulum da yox idi onsuz da, sadəcə geri dönüş biletim var idi. Birdən kostyumlu bir elit parisli kişi gəlib qəpik atıb içəri girdi. O çıxanda qapını tez tutdum ardından mən girib oturdum tualetdə. Dəhşət sevinirdim. Bir az keçmişdi ki, bir də gördüm kimsə qapını açdı, baxdı, fransızca nələrsə dedi və örtdü. Zibilə qalmış qapıya qəpik atmasan həm də içəridən bağlanmırmış sən demə. Sonra bir-bir fərqli kostyumlu elit fransızlar qapını açıb nələrsə deyib örtürdülər. Lənətə gələsilər, atamı belə söyürdülərsə çox poetik səslənirdi. Həyatımda ilk dəfəydi ki, kimsə məni tualetdə o formada görürdü, ağlıma gəlməzdi ki, parisli burjua nümayəndələri olacaq onlar da. İşimi bitirib məyus formada ayrıldım restorandan. Bir daha da Parisə qayıtmadım.

Hər ikisi güldü və yola davam etdilər. O irəlidə hər ikisi üçün kofe aldı, Riçard kofe üçün dəfələrlə təşəkkür etdi, sanki bir uşaq kimi sevinmişdi. Uzun yürüşdən sonra məhəlləyə çat-

dılar. Girişində çin mədəniyyətini əks etdirən böyük və bəzəkli bir qapı düzəldilmiş uzun bir məhlə idi. Bir küncdə dayandılar. Riçard ona burda gözləməsini, əvvəlcə özünün getməsi gərəkdiyini sonra isə onun vodkanı almaq üçün gedə biləcəyini dedi. Mağazaya doğru getdi. Hər yer insan qaynayırdı. Çində olduğu kimi bura da izdihamlı idi. Ətrafda olduqca çox evsiz insan var id. Günəş tam təpədəydi. Gözəl bir gün idi. Özünü rahat və dinc hiss edirdi indi. Bir müddət reallığından uzaqlaşa bilmişdi. Bir siqaret yandırdı, üstündən kofesini içdi. Xüsusilə bu kafenin kofesini çox sevirdi, siqaretlə birlikdə çox yaxşı olduğunu düşünürdü. Bir qədər sonra Riçard içəridən çıxdı, əlində qara bir torba var idi. Ona yaxınlaşdı. İki pivə var idi, oğrulamışdı. “Hə, indi sən get, Rubl vodkasını alacaqsan, tam satıcının arxasında olur, 5 dollar, al bu pulu” deyib dəmir pulları və əzik kağız pulları onun ovcuna qoydu.

Mağazaya getdi, içəridə sıra var idi, sıranın arxasına keçdi. Gözü ilə Rubl vokdasını axtarmağa başladı. İçəridən narahat edici və pis iy gəlirdi, bütün çin mağazalarında olduğu kimi.

“Yerlisən sən?” - deyə qarşısındakı iri və yaşlı qaradərili kişi çevrilib bir müddət onu süzdükdən sonra soruşdu.

“Anlamadım?” - deyə qarşılıq verdi, söhbətin hansı yerlilərdən getdiyini anlamamışdı, ancaq ikisindən də deyildi onsuz.

“Yerli, yerli deyirəm, yerlisən sən?”

“Yox deyiləm”

“Yaxşı, mən yerliyəm. Burda doğulub burda böyümüşəm. İndi qulaq as mənə, al sən bu pulu” – deyib onun ovcuna xırda-xuruş pulları tökdü – “burda 3 dollar 25 sent var, bunu 4 dollar 50 sentə tamamla mənim göstərəcəyim vodkanı al, vəssalam, başqa da söz demə. Yaxşı?

“Yaxşı” deyib gülümsəyərək cavab verdi. Yaşlı kişi qəzəbli və qorxulu danışırdı, ya onu qorxudub vodkanı aldırmaq üçün belə ciddiləşmişdi ya da onu həyat bu hala salmışdı. İstənilən halda o, onsuz da kişinin heç pulu olmasaydı belə vodkanı alardı yəqin, deyə düşündü.

Növbələri gəldi çatdı. Kişi satıcıya vodkanı göstərdi, satıcı uzatdı, o vodkanın pulunu ödədi və kişi mağazadan çıxdı. Sonra o Rubl vodkasını istədi "və bir də qızıl Marlboro zəhmət olmasa" deyib pulu uzatdı, xırdanı götürüb çıxdı çölə.

Çöldə həmin yaşlı kişi onun qolundan tutdu, çönüb ona baxdı, kişi təkərli əlil arabasında oturmuşdu. Yuxardan aşağı kişiyə doğru baxırdı. Kişinin arabasını ağ dərili gənc və gözəl bir qız sürürdü.

-Özünü necə hiss edirsən əzizim?

-Nə?? - O heç nə anlamamış formada təəccüblə kişiyə baxırdı.

-Özünü deyirəm, necə hiss edirsən? Orda içəridə etdiyin hərəkətə görə? Məmnun hiss edirsən? Hə?

-Hə, hə, yaxşı hiss edirəm.

-Ay sağol, Tanrı səni qorusun, yaxşı iş gördün içəridə. Minnətdaram əzizim.

-Bir şey deyil

Riçard da gəlmişdi, qızla nəsə söhbət edirdilər. Vodkanı Riçarda uzadıb aldığı siqaret paketini açmağa başladı. Yola düşdülər. Riçard kişinin arabasını sürürdü, ən qabaqda onlar gedirdilər, arxada həmin ağbəniz qara saçlı qız və bir nəfər daha gedirdi. Qızla həmin üçüncü şəxs nəsə qızğın müzakirə edirdilər. Siqaretini yandırdı. Kişinin təkərli arabasına baxdı. Dilənmək üçünmü bu arabaya oturmuşdu görəsən, yoxsa həqiqətən də çox gəzə bilmirdi? Mağazanın içində ayaq üstəydi çünki. Yəqin dilənmək üçün belə edirdi, deyə düşündü. Bir qədər yeridikdən sonra qız dörd beş metr aralıdakı Riçarda baxaraq "mənim heç bir fikrim yoxdu, bu kimdi və arabanı hara sürür" - deyə mızıldandı və yüksək səslə Riçardı çağıraraq soruşdu:

"Heey, hara gedirsən axı sən?"

"Bilmirəm"

"Dayan orda görüm" - dedi qız və Riçardın yanına yaxınlaşdılar, qız arabanı aldı, "Yaxşı, burda yollarımız ayrılır gənclər, sağolun" - dedi.

“Sürürdüm də, nolub” deyə Riçard arabası alınmış uşaq kimi mızıldandı. Geri döndülər və yeriməyə başladılar. İzdihamlı küçəni enləməsinə keçərək yolun o biri başındakı sakit və ağaclar olan kiçik parka bənzər yerə getdilər.

“Bura necədi? Oturaq səncə burada?”

“Aha olar, olar oturaq” - dedi və oturdular.

Riçard yeni alınan vodkanı içdi, sonra oğrulamış olduğu iki pivəni çıxardı, “içmək istəsən götür iç” - dedi.

“Steel reserve? Mən də bu pivədən içirəm, çox sevirəm, amma dəmir qabda satdıqlarını bilmirdim heç, bunu neçəyə satırlar bəs?

“Bilmirəm”

“Yaxşıdı bu, ucuz və faizi çoxdu, səkkiz faiz, tez tutur adamı”

“Çəkmək istəyirsən birini də? Saraq?”

“Olar”

Oturduqları yer dar bir küçə kimiydi, baş tərəfində süni şəlalə var idi və ordan axan su küçənin kənarıyla axıb gedib başqa bir yerə tökülürdü. Sakit idi, arada bir-iki nəfər adam keçirdi. Keçənlər onları müşahidə edirdi, onlar da keçənləri. Onlara baxanlar qəribə gözlərlə baxırdılar, bəzən çəkinərək və qorxaraq. Küçədə oturub içən evsizlər kimi. “Qızınızın çox gözəl saçları var xanım” deyə Riçard nəzakətlə yoldan keçən ana və qızına səslənir və təşəkkür cavabı alırdı. Arada bir keçənlərə nəsə söz atır, bəziləri qorxur, bəziləri gülür, bəziləri qarşılıq verirdilər. “Hey, siz iki bacısınız?” - deyə o başqa bir ana və qızına səslənir, anaya hələ də cavan göründüyünü xatırlatmağa çalışaraq dostcasına sataşır və gülürdü. Qadınlıq qüruru oxşanan ana da ona gülüb keçirdi. “Ona bax, ona bax” - deyə Riçard qarşılarından keçib sağa doğru irəliləyən üç nəfəri göstərdi. O baxdı amma bir şey anlamadı. “Nəyə?” - deyə soruşdu.

“Homoseksual deyilsən sən təsadüfən? Ortadakı qızın götünü deyirdim, keçdi artıq”

“Yox deyiləm, baxdım qıza baxmasına amma yaxşı heç nə görmədim”

Yoldan keçən evsizlər onlara salam verib keçirdilər. Bə-

zilәri yaxınlaşıb onlardan müxtәlif narkotik maddәlәrin adını soruşaraq olub olmadığını soruşurdular, onlar da yox deyirdilәr. Sonra yavaş addımlarla biri daha keçirdi küçәdәn. Riçard ona da salam verdi. Otuzlu yaşlarında bir oğlan idi. Qәddar görünümü var idi. O da salam verdi. Riçard onunla yenә nәsә bir zarafat etdi, o qәribә formada onları süzdü, sanki nәdәnsә qorxurmuş kimi baxdı. Qaradәriliydi, qabaq dişlәri yox idi, köhnәlmiş vә çirkli qara şalvar vә köynәk geyinmişdi. Onunla zarafatlaşdıqlarını görüb yavaşladı. Üzündә zәhm, qәddarlıq, qәzәb, qorxu, maraq vә şübhә mimikaları biri birinә qarışmış formada sakitcә yanaşdı vә soruşdu:

"Olar yanınızda oturum?"

"Olar, olar, әlbәtdә olar. Otur. Necәsәn, neynirsәn?" Riçard soruşdu.

Onların oturduğu daşların sağında yanlarına oturdu.

"Adın nәdir?" - Riçard onu dindirdi.

"Ra"

"Ra? Günәş tanrısıydı o hә?"

"Hә, düzdü, bilirsәn ki"

"Әla addı, Ra, iki hәrfdәn ibarәt, Ra, Ra"

"Sizin adlarınız nәdir?"

"Riçard"

"Mavi"

Ra cibindәn sarma kağızı çıxardı vә içinә yumru qara nәlәrsә qoyaraq sarmağa başladı. Mavi bunun nә ola bilәcәyi barәdә düşündü, daha әvvәl belә bir şey görmәmişdi. Bugünlәrdә küçәlәrdә bir yığın narkotik maddә gәzirdi, yәqin onlardan biri idi.

Yoldan keçәn evsiz qılığında orta yaşlı bir qadın vә axsayan kişi onların yanında dayandı vә kişi boğuq sәslә Riçarddan soruşdu:

"Kristal varınızdı?"

"Yox"

Yaşına görә üzü hәddindәn artıq qırışıqlı olan axsaq kişi onlar ona sanki yalan deyirlәrmiş kimi onlara qәzәblә baxdı.

Üçünün də üzünü bir saniyəlik müddətə incələdi. Sonra qadınla dönüb axsaya-axsaya çıxıb getdilər.

Kristal deyərkən o ucuz kokaini nəzərdə tutmuşdu. Bu zonada elə adlandırırdılar evsizlər. Normal kokaindən dəfələrlə güclü və zərərliydi. Kişinin üzündəki erkən qırışıqlar, axsaq yerimə tərzi və həddindən artıq boğuq səsi onun ağır kristal aludəçisi olduğunu göstərirdi. Evsizlər arasında çox yayğın idi. Onları görünüşlərindən ayırd etmək olurdu. İstifadəçisi əvvəlcə tənəffüs problemləri yaşayacaq, sonra öskürəklər başlayacaqdı, nəfəs darlıqları, ağciyər xəsarəti və qanamalarla davam edəcəkdi problemlər. Sonra bir-birini izləyən ağır depresiyalar. Depresiyadan çıxmaq üçün aludəçi maddəni tapmaq adına hər şeyi edəcəkdi, hətta öldürəcəkdi. Əgər bunlar da işə yaramasa tək yolu qalacaqdı: intihar.

"Məni harda görürlər, gəlib kristal istəyirlər, yoxdu deyirəm, yenə istəyirlər. Yoxdu da, yoxdu. Məndə kristal ya daş zad yoxdu. Mən istifadə etmirəm elə şeylər" - deyə Ra gileyləndi.

Daha sonra bir neçə yoldan keçən də ayaq saxlayıb onlardan fərqli-fərqli ucuz küçə narkotikləri soruşdular. Gələnlər Riçarda yaxınlaşır, sanki onu uzun müddətdir tanıyırmışcasına bir şeylər deyir, Riçard da sanki söhbətin mövzusunu dəyişmək üçün çabalayırdı. Ən son bir kişi daha gəldi və Riçardla sanki hər gün görüşürmüş kimi hal-kef etdi. Riçard onu yola vemrəyə çalışdı və sonda bacardı.

"Tanıyırsan onu?" - Mavi soruşdu.

"Yoo, yo tanımıram"

Mavi hələ də Riçarddan baş aça bilməmişdi. Görünən o idi ki bu adamlar onu tanıyırdılar və o buraların çoxdankı sakini idi, küçələrin. Riçard Ra ilə bir şeylərdən danışırdı. Onun üzünə baxdı Mavi, uşaq məsumluğu var idi. Yanmış dodaqlarına baxdı, Riçard alovun onun qolunu və dodaqlarını yandırdığını demişdi. Mavi onun neçə yaraşıqlı və zəki olduğunu görüb heyfslənirdi. Həyatda yerini tapa bilməmişdi. Yeri səhv düşmüşdü. Ya da həyatda heç kimin doğru yeri deyə bir şey

yox idi əslində. Onun bükük belinə baxır və yazığı gəlirdi. Əlində olsa onun üçün ən yaxşısını edərdi deyə düşünürdü. Nə istəyirdi Riçard? İçməkmi? Olsun, onun içkisini və rahat yatağını təmin edərdi, deyə düşünürdü. İçsin istədiyi qədər, öz həyatı idi.

“Al yandır” - Riçard ona növbəti sarmanı uzatdı.

Ra onlardan haralı olduqlarını soruşdu, cavabları aldıqdan sonra bir qədər uzağa daldı. Mavi sarmanı ona ötürdü.

“Böyüdüyüm yerdə, küçələrdə adam öldürürdülər. Hamının silahı var idi. Bərbad bir yer idi,” - deyib Ra bir tüstü aldı və davam etdi, “O cəhənnəmdən canımı qurtarıb bura gəldim. Bir neçə ay əvvəl. Nəsə fərqli bir şey etmək istəyirəm. Bilirsən? Nəsə fərqli bir şey, fərqli bir şey, nəbilim” deyə həssas səs tonuyla bitirdi cümləsini. Sanki ümidlərinin indidən ölü doğduqlarını bilirmişcəsinə kefsizləşdi. Sanki yarısı getmiş ömründə bundan sonra da heç vaxt fərqli bir şey edə bilməyəcəyini başa düşür və üzülürdü.

Sözləri Maviyə təsir etmişdi. Onu yenidən müşahidə etdi. Onu ilk gördüyündə üzündəki zəhmdən çəkinmişdi, ancaq indi nə qədər həssas olduğunu görürdü. Demək ki, üzündəki bu zəhmin səbəbi böyüdüyü küçələr və şəhər idi. Elə bir yerdə yaşayırsansa əgər, onlar kimi davranmağa məcbursan. Tək ayaqlılar yaşayan kənddə sən də tək ayağınla gəzməliydin. Demək ki yeni bir insan ilə görüşərkən üzündəki o qorxu, zəhm, şübhənin səbəbi böyümüş olduğu illər idi. Elə formalaşmışdı.

Onun qolundakı ucuz və keyfiyyətsiz formada işlənilmiş siqaret çəkən Joker tattoosuna baxdı. Aşağı hissədə də yenə qraffiti yazı tərzi ilə nəsə yazılmışdı. O tattoo da keyfiyyətsiz görünürdü. Əlində silahlar gəzən insanların yaşadığı yerdə böyüyən bir uşağın necə bir tattoosu ola bilərdisə elə də tattooları var idi. O “nəsə fərqli bir şey eləmək istəyirəm” deyərkən necə də qorxaq bir ümid içində qıvrılırdı. Sanki dediyinə özü də inanmırdı. Sanki elə belə də ölüb gedəcəyinə artıq əmin idi, ancaq inanmaq istəmirdi. Nə edə bilərdi Ra? Onun kimi neçə Ra var idi? Onun kimi kimsəsiz, yoxsul, təhsilsiz böyü-

müş neçə ümidsiz və başdan uduzan Ra var idi? Fərqli nə edə bilərdi ki? Bir işə başlaya bilərdi məsələn, bəlkə də? Əgər ona iş verən birini tapsaydı təbii ki. Yaxşı olmasına ehtiyac yox idi, təki iş olsaydı? Bu hər şeyi həll edirdimi? Tək problem bumuydu? İşindən sonra insanlar yenəmi ondan qorxacaqdı? Bəlkə dişlərini düzəltdirərdi ilk maaşıyla? Bəlkə yeni paltarlar alardı? Bəlkə bir gün bir qadın gülümsəyərdi onun üzünə? Unutmuşdu bəlkə də isti bir qadın gülümsəməsini küçələrdə yaşayarkən. Unutmuşdu, yoxsa o istiliyi heç vaxt hiss etməmişdi? Necə üç fərqli dünya yaşamışdı Ra, Mavi və Riçard? Dünya qavrayışı onlar üçün nə qədər nisbi və subyektiv idi?

Hər üçü nə qədər fərqli həyatlar yaşamışdılarsa da, aralarından biri ölmək istəyir, digər ikisi sürünsələr də ölümdən imtina edirdilər. Həyat bu qədər çox dəyərliydi. Hər gün daha da əzilərək, ancaq yenə də yaşayacaq qədər. Yoxsa məsələ həyatın gözəlliyi deyil də, insanın həyatda qalma instiktimiydi?

"Yaxşı bir işin olmalıdı, yaxşı iş çox vacibdi və başının üstündə bir daxman" - Riçard dilləndi və davam etdi - "Ancaq yaxşı iş çox azdı. Hamıya bəs edəcək qədər yoxdu, nə olursa olsun, əhalinin yarısı həmişə əziyyət çəkəcək. Getdikcə də çətinləşir, işlər azalır, texnoloji işsizlik artır. Daha da betər olacaq. Ev və kira qiymətləri də çox bahadı. Neçə min illik dünyada milyardlarla insanın yaşadığı evlər sanki yoxdu və biz yaşamağa ev tapmırıq. Lənətə gələsi əmlak lobbisi."

"Lənətə gələsi dövlət şəhərlərin xaricində park yerləri ayırsa, maşında ya furqonda yaşamaq istəyənlər üçün, elektrik dirəkləri olsa ucuz qiymətə və duş yerləri qoyulsa, əla olardı. Amma kapitalist əmlak lobbisi ona da icazə verməz yəqin. Mən nə kira vermək nə ev almaq istəmirəm. Geniş furqonda yaşaya bilərdim. Lənətə gələsi yaxşı işləri tapmaqsa həddindən artıq həvəs tələb edir. Nifrət edirəm iş axtarma prosesinə. Sırf onun üçün belə özümü öldürə bilərəm" - Mavi dedi.

"Sənin gəldiyin yerin qadınları necədi?" - deyə Ra söhbəti dəyişib Mavidən soruşdu.

"Qadınları? Belə də. Bəzən ehtiraslı, bəzən təhlükəli,

bəzən dindar, bəzən utancaq. Darıxıram onlar üçün. Hamısının öz yeri var, utancaq qadının öz yeri var, utancaq olmayanın öz yeri. Ancaq yenə də bir qadında vaginadan əvvəl beynini üstün tuturam.”

“Maraqlıdı. Daha əvvəl dindar qadınla birlikdə olmamışam”

“Rəqibin başqa oğlan yox, tanrı olur. Maraqlı və şərəfli işdi”

“Bəs təhlükəli niyə dedin? Nə təhlükəsi??”

“Məni evinə çağıran qızın evindən əli bıçaqlı üç qardaşı çıxmışdı bir dəfə. Onu deyirdim, bəzən bilmirsən başına nə gələcək, bunun da öz marağı var.”

“Əli bıçaqlı qardaşları? Doğrudan? Niyə? Neylədin bəs??”

“Qızla evə girəndə evin içindən çıxdılar, gizlənmişdilər. Tez qaçıb çölə çıxdım, arxamca qaçmağa başladılar. Bir neçə küçə qaçdıqdan sonra gördüm ki qaça bilmirəm, yandakı divarın dibində gizləndim. Ya yanımdan qaçıb gedəcəkdilər ya da görəcəkdilər. Bəxtim gətirdi, keçib getdilər. Əsl nazi filmində hiss etmişdim özümü. Sonra onların küçəsindən altı ay keçmədim. Niyə o qədər əsəbiydilər bilmirəm. Qız razıdırsa sənə nə axı? Bəlkə də məni qısqanırdılar, bacılarına sahib ola bildiyim üçün. Bəlkə də onlar da istəyirdi. Bəlkə də insest əlaqəyə ən çox əsəbləşənlər onu ən çox istəyənlərdi. Bilmirəm.”

“Mənim bir dostum var idi. Anası uşaqlıqdan ona oral seks edirmiş, atası da bilirmiş. Qəribədi, amma düz deyirsən, hərənin öz işidi, bəyənmirsən etmə. Başqasını niyə qınayırsan öz şəxsi həyatına görə” dedi Ra və davam etdi “Hər şey bir tərəfə, nə vaxt ot çəksəm ya həyəcanlansam bağırsaqlarımda nəsə bir şey hiss edirəm, kəpənəklər uçuşur, çox qəribədi”

“Bilirsən niyə? Çünki bağırsaqlar beyindən sonra ən çox neyron olan yerdi. Ona görə sevinəndə ya həyəcanlananda filan bağırsaqlarda neyron partlaması yaşayırsan, kəpənəklər uçuşur. Sinir impulslarıdı onlar. Bağırsaq instikti ya intuisiyası ki deyirlər ha? Ordan gəlir”

“Doğrudan? Bağırsaq hisslərin deyir ki hər şey yaxşı olacaq” - dedi və güldü Ra.

“Onu ot dedirdir sənə Ra” - deyə Riçard araya girdi.

Gülürdü indi Ra. Riçard təkrar nəsə məzəli bir şeylər dedi. Ürəkdən gülürdü. Bir uşaq kimi bütün dərdlərini unutmuşcasına gülürdü, otun verdiyi təsirlə. Gözətrafı və yanaq əzələləri sonadək gərilmişdi. Qabaq üstdəki dörd əksik dişi ilə gülürdü. Biraz əvvəlki o zəhmli görünüşündən əsər-əlamət qalmamışdı. Yarımca saat içində yola gedə bilmişdilər. Bir insanın daxili dünyasını görəbilmək və onunla tanış olmaq bu qədər asan idi əslində. İnsanlar instiktiv olaraq tanımadıqları bütün digər insanlara ehtiyyatla yanaşırlar ilk başda. Şübhəylə. “Tanımdadığın yad insanlardan uzaq dur” cümləsini onlara analarından əvvəl genlərinə işləmiş olan təbiət öyrətmişdi. Meşə insanının bir başqa mirası. Əslində bütün insanlar - ən azından bir çoxu – eyni dərdləri bölüşərkən və bu lənətə gələsi həyatın eyni zülmünü paylaşarkən niyə də yeni bir insan görərkən sanki yad planetli kimi ondan çəkinir, tez öz ciddi qabığına bürünür, ciddi üz ifadəsi alır, qarşı tərəfi şübhəylə süzür və qorxurlar?

“Orada, divardakı yazını oxuya biləniniz var? Mənim gözərim zəifdi, oxuya bilmirəm” - deyə Riçard onun düşüncə axışını pozdu.

“dörd, üç.. Üçdü o ya beş? Yox, mən görə bilmirəm” - dedi Mavi.

“4,8,15,16,23 və 42” deyə bir nəfəsə bütün rəqəmləri oxudu Ra.

“Aa, halaldı Ra. Sən çox yaxşı görürsən deyəsən. Bilirsən, sənin kimilərə pilot göz deyirlər, yaxşı görənlərə, nadir tapılan dərəcədə yaxşı görənlərə” - dedi Mavi

“Doğrudan? Pilot göz?” - deyə soruşdu Ra. Sevinir və gülürdü. Bir işdə yaxşı olduğunu bilmək onu sevindirmiş olmalıydı. Özünü bir işə yarayır hiss edirdi ən azından.

“Aha”

“Mən həm də yaxşı üzə bilirəm” - deyə o həyəcanla əlavə etdi.

“Sən lap sağ qala bilmək üçün yaradılmısan ki” - deyə Riçard dilləndi. “Bəs qaçmaq? Yaxşı qaça bilirsənmi, geniş çiyinlərin və güclü qolların da var.”

“Belə də, pis qaçmıram” - deyə Ra Riçardın tərifinə sevinərək ürəklə dilləndi.

Həyatda sağ qala bilmək üçün insana lazım olan təməl güc Ra’da var idi. Ancaq hansı həyatda? Meşə insanının həyatında hə. Ancaq iyirmi birinci əsrdə bunlar çox şey ifadə etmirdi. Bütün müasir yaşam tərzini rədd edib küçədə yaşamaq istəyən insan üçün bunlar heç bir şey ifadə etmirdi. Özünə sadəcə başqa bir heyvan növü kimi baxmaq istəyən və elə yaşamaq istəyən insan üçün artıq yer yox idi dünyada. Bütün meyvə bağları və meşələr dövlətlərin əllərindəydi. O meşələrə milli qoruq adları verilmiş və ətraflarına çəpərlər çəkilmişdi. Küçədə yaşamaq istəyən insana sadəcə başqalarının gündəlik zibilləri ilə keçinmə şansı qalırdı.

“Mənim gözlərim yaxşı görmür, sanki gözümün ətrafı bulanıqdı, ancaq ortanı normal görürəm. Uzağı da görmürəm,” - dedi Riçard.

“Bəlkə də az şey görməyin daha yaxşıdı” - dedi Mavi. Ra onun cavabını xoşladı və güldü.

“Tapmaca kimi oldu lap. Sizə bir tapmaca deyim?”

“De”

“O nədir ki, düzəldən adam onu istəmədi, alan adamın ona ehtiyacı yox idi, işlədən adamın işlətdiyindən xəbəri yox idi.”

İkisi də düşüncəyə daldı, dodaqlarının arasında təkrar edirdilər: “düzəldən adam istəmədi”, “işlədənin xəbəri yox idi”. Bir neçə dəqiqə fikirləşdilər və bir qərara gələ bilməyib cavabı istədilər.

“Mən də tapa bilməmişdim, tabut” - deyə Ra uşaq həyəcanı ilə cavabladı, sonra da tapmacanı izah etdi. Sonra bir neçə tapmaca və lətifə daha danışdı.

Bir qız peyda oldu küçənin sol tərəfində və onlara yaxınlaşdı. Siqaret istədi. Verdilər. Yandırdılar. Qız onları süzdü, onlar da qızı. Gəldiyi istiqamətin tərsinə davam edən qız onlardan bir neçə metr aralıda uşaq arabası gördü və onlara səsləndi:

“Hey, bilirsiniz bu kimindi?”

Bir-birlərinə baxıb başlarını yelləyərək yox işarəsi verdilər.

Yəqin ki sahibi arabanı orda saxlayıb uşağı gəzintiyə çıxarmışdı və birazdan qayıdacaqdı. Qız peşəkarcasına tezcənə ətrafa baxındı, arabanın içindəki jaketi götürdü və öz köynəyinin altından qarnına salaraq gəlmiş olduğu istiqamətə tərəf qaçmağa başladı. Ağzında siqaretlə qaçan hamilə qadın təəssüratını yaradırdı.

"Bu nəydi ki ala indi?" deyə onlardan biri təəccübləndi, digər ikisi də mimikləri ilə ona qoşuldular.

Bir müddət daha söhbətləşdilər. Sonra Mavi Laranı və onun evdə olduğunu xatırladı. Bu qədər vaxt necə unutmuşdu onu? Otun təsirindən olacaqdı deyə düşündü, başı çox qarışmışdı. Birdən birə getmək istəyi tutdu onu. Getməliydi. Laraya getməliydi. Onunçün darıxdı.

"Mən artıq getməliyəm" - deyə dilləndi birdən durduq yerə.

"Doğrudan? Gedirsən? Nə oldu ki?" - Ra təəccübləndi. Qərar çox ani idi.

"Aha, getməliyəm,"

Ayağa durdu dönüb Riçarda baxdı, burnunu eşməklə məşğul idi. "Riçard, səni harda tapa bilərəm sonra?" - deyə soruşdu ondan, o da etinasızca "Bilmirəm" deyə cavabladı.

"Telefon nömrən filan nəyinsə var?"

"Yox. İstəyirsənsə mənə öz nömrəni yaz ver"

Mavi bircə saniyəlik dayandı. Qələmi var idi. Amma bir anda fikrini dəyişdi və ona əlaqə nömrəsi vermək istəmədiyini düşündü, qərarsız idi, birdən istəmədən onlara nömrəni yazacaq qələminin olmadığını dedi.  Ra inadla nömrəni deməsini istədi, yaddaşının belə şeylər üçün yaxşı olduğunu və nömrəni əzbərləyəcəyini bildirdi. Mavi ona nömrəni dedi, Ra bir neçə dəfə təkrar etdi və nömrəni əzbərlədi. Üç dəqiqə sonra unudacaqdı deyə düşündü Mavi, qısa müddətli yaddaş. Riçardı qucaqladı, Riçard ona soyuq davranırdı. Sonra Ra ilə sağollaşdı və ordan uzaqlaşdı. Evə doğru tələsirdi, çox tələsirdi. Metroya minməliydi deyə düşündü. Yaxındakı stansiyaya doğru tələsdi.

7

# YORĞUN ÜMİDLƏR

Metrodaydı. Fikirlər bir-birinə qarışmışdı. Laranı evdə eləcə qoyub çıxdığı üçün özünü günahlandırır və bunun necə axmaq bir hərəkət olduğunu düşünürdü. Metro onu arada bir silkələyirdi. Baxışları gerisi görülməyən qapqara pəncərəyə zillənmişdi. Lənətə gələsi həyatı nə qədər sevdiyini və ölümü nə qədər arzulasa da bir o qədər də yaşamağı istədiyini düşündü. Ölmək istəmirdi. Bəlkə də Lara onunçün yeni bir ümid ola bilərdi. Ola bilərdimi? Yoxsa artıq onu qurtaracaq heç bir ümid qalmamışdı? Tək istədiyi şey geri gedib onu bağrına basmaq idi. İki gündür tanıdığı bu yad insan, indi dünyada ən çox istədiyi varlıq idi. İki insanın bir-birini dəlicəsinə istəməsi üçün bir neçə saniyənin bəs etdiyini düşünürdü bəzən. Bunun üçün illər lazım deyildi. Hətta bəlkə də əksinə, illər bu təsiri azaldırdı. İki insan bir-birini nə qədər az tanıyırsa o qədər çox arzulayardı. Sevgi kimyəvi idi və son istifadə tarixi var idi. Bir insana olan istək və birlikdə keçirilmiş müddət tərs mütənasib idi Mavi üçün. O əslində bütün həyatını bu düşüncə üzərinə qurmuşdu. Bir müddətdən sonra, onun kimi insanlar üçün, ən müqəddəs məna belə dəyərini itiririd i. Lara haqlıydı, ehtiras tanrısından belə bezərdi. Kimilərinin təbiəti bir qadına, bir şəhərə və ya hansısa bir mübarizəyə ölümünə və ömürlük bağlı olmaq idisə,

kimilərininki də yenilik, yeni şəhərlər, qadınlar və yeni mübarizə uğrunda bitməz bilməyən axtarış idi.

Sonra birdən Riçardı eləcə qoyub çıxıb gəldiyi üçün inanılmaz ağırlıqda bir sancı hiss etdi. Sanki etdiyi hərəkətin nə qədər mənasız olduğunu ancaq indi anlaya bilmişdi. Onu bir də görə bilməyəcəkdimi? Niyə vermədi nömrəsini? Gözünü pəncərədən çəkib ətrafa baxdı anlamsızca. Sanki durub geri Riçarda doğru qaçmaq istəyirdi. Etdiyi hərəkətin adı əclaflıqdan başqa bir şey deyildi deyə düşündü. Qaşları çatılmışdı. Boş baxışları yerə zillənmişdi. Əli ilə oturduğu oturacağı tutub sıxırdı. Üzünü yumruqlamaq istəyirdi. Alçaq və vicdansız hərəkət etmişdi. Riçardın sonra ona zəng edib ondan bir şeylər istəyəcəyini düşündüyü üçün verməmişdi nömrəni. O an, problem istəmədiyini düşünmüş və belə etmişdi. Ya bir gün zəng edib də bir şey istəsəydi demişdi? Qalacaq bir yer, bir miqdar pul. Əgər nömrəni verməsə bir gün ona yox cavabı vermək məcburiyyətində də olmayacaqdı deyə düşünmüşdü. İndiysə bunun peşmançılığında boğulurdu. Riçard, son vaxtlarda tanıdığı tək insan idi ki onun yanında saatlarca oturmaq istəmişdi. O zəki idi və özünəməxsus satirik üslubu var idi. Sadəcə həyat, onun da üzünə gülməmişdi.

Qərara gəldi ki indi evə getsin. Sonra səhər qayıdıb Riçardı parkda axtaracaqdı. Oralarda bir yerdə olacağını ümid edirdi. Amma əvvəlcə Laraya qovuşmalı onu bağrına basmalı və ona səhər dediyinin əksinə, gec də olsa tapdığı üçün nə qədər minnətdar olduğunu deməliydi. Onunla bir müddət yaşamaq istədiyini deməliydi. Birdən-birə elə həyəcanlanmışdı ki evtanaziya kamplarına getməyi, intiharı belə unuda bilərdi. Həyatın gözəl olduğunu düşünürdü. Ya da, gözəl olmasa belə, Larayla birlikdə bəlkə öhdəsindən gələ bilərdilər.

Eşq kimyəvi hissdir. Ya da daha dəqiq sözlə, bio-kimyəvi hissdir. Və aşiq olduğumuz anda bədənimizdə gedən bir sıra bio-kimyəvi prosesslər var. Loru dildə desək, hormonların sevişməsi kimi. Bilinən ən möhtəşəm xoşbəxtlik hormonlarının şaha qalxması və bir-birini qucaqlamasıdır eşq. Və sözsüz ki,

müqəddəs bir hissidir. Ya da, düzəldirik; hiss yox, prosessdir. Çünki hiss dediyimiz şey də, kimyəvi prosesslər bütünüdür. Eşq, ən müqəddəs prosessdir eləysə.

Aşiq olduğunu düşünürdü. Laranı xatırlayarkən ürəyi ayaqlarından da çox əsirdi. Məsələ o idi ki, bu romantik sevgi idi deyə düşünürdü indi. Çünki onlar sevişmişdilər, bu sadəcə primitiv bir cinsi eşq deyildi. Eşqə düşərkən hiss etdiyimiz prosesslər əgər sevişmə sonrası hələ də davam edirlərsə əgər, bu artıq romantik eşq olmuş olurdu və o bunu çoxdandı yaşamamışdı. Hər dəfə bir yadla sevişmə səhəri yatağındakı qadını unudub yeni bir qadın arxasınca qaçırdısa, indi onun ayaqları və ürəyi hələ də əsirdi Laranı düşünərkən. Larayla birlikdə hər şeyin çox gözəl olacağına bütün qəlbiylə inanırdı indi.

Eşqə düşərkən partnyorların beyinlərinin ön lobu olan frontal lobun fəaliyyətində azalma hiss olunur və frontal lob beyindəki analitik düşünmə, fikir yürütmə kimi məntiqi funksiyaların yerinə yetirildiyi yerdir. Eşqin gözü kordur deyimi burdan gəlir. Frontal lobun fəaliyyəti azaldığı üçün partnerlər sevdikləri insanın qüsurlarını görmür, analitik dəyərləndirmə edə bilmirlər. Əksinə onun hərəkətlərini, gözəlliyini şişirdirlər. Həmçinin zaman-zaman hərəkət pozğunluğu da hiss edilə bilinir, əl əsə bilər, nələrsə səhvən sındırıla bilər. İnsanın qorxu keçmişinin saxlanıldığı amiqdalada da fəaliyyət pozunutusu yarandığı üçün aşiq daha cəsarətli olur və qorxmur. Bu dəyişikliklərin təkamüli açıqlaması, sevənin sevdiyi üçün özünü risklərə atması, onu qoruya bilməsi, genlərini paylaşacağı partnyorunu qorumasıdır.

İndi o eşqə düşdüyünü və düşündüklərinin böyük ehtimal doğru olmadığını, Lara ilə birlikdə olsa hər şeyin heç də çox da yaxşı olmayacağını düşünür, ancaq yenə də buna - hər şeyin yaxşı olacağına - bütün qəlbi ilə inanırdı. İnsana bəxş edilmiş ən böyük psixoloji paradokslardan biri idi bu. İdraki ziddiyət. Bir-birini səhv çıxaran tezislərin hər ikisinə eyni anda yüksək dərəcədə inanma hissi. Həyatına son verməyi düşünən Mavi, bir anda Larayla tanışırdı və onunla birlikdə olsa əgər, bütün

ağrılarını unudacağını sanırdı. Bir tərəfdən də onu bu yanılqıya salan şeyin mədəsində uçuşan kəpənəklər – kapilyar damarlarında hərəkət edən sürətli qan dənəcikləri- olduğunu bilirdi.

Ancaq o qərarını vermişdi. Bunun bir illuziya olub olmaması vacib deyildi. Onsuz da həyat bir xoşbəxtlik oyunundan ibarət idi və xoşbəxtlik çox vaxt sadəcə bir illuziyaydı. Nə olur olsun Laranı istəyirdi. Çəkdiyi bütün ağrılar, keçmiş həsrəti, həyatda qala bilmək üçün işləmə əziyyəti, hər an seçim etmə əziyyəti və qalan digər bütün əziyyətlərə göz yuma bilərdi. Lara ilə bir neçə ay daha xoşbəxt ola bilərdi. Gerisi önəmli deyildi. Onsuz da həyatında bir neçə aydan daha uzun planlar qurmamışdı, qurmaq da istəməmişdi heç vaxt.

İndi ona maraqsız və dadsız gələn, bu şəhərdə bildiyi bütün yerlərə, küçələrə, meşələrə, parklara, göllərə Lara ilə birlikdə yenidən gedə biləcəklərini, onu gəzdirə biləcəyini düşündü. Bir yeniyetmə kimi həyəcanlı və xoşbəxt idi. Görəsən onun ən sevdiyi o gölü bilirdi Lara? Bilməsə nə yaxşı olardı deyə düşündü, onu ilk o apardı. Bilirdisə də eybi yox, yenə gedərdilər. Sahilində sərxoş olardılar. Tək gəzdiyi bütün o yerlər, artıq onun çarəsiz yalnızlığını paylaşan və yalnızlığını onun üzünə vuran, bar-bar bağıran birər cəhənnəm halını almışdılar. Düşündüyü o göl məsələn, sıxıntılı günlərində gedib yalnızca dolaşıb, sahibsiz bir it kimi sülənib sonra boynu bükük o yalnız otağına qayıtdığı və artıq ona heç bi həyəcan verməyən quru bir təkliyin hökm sürdüyü su yığıntısından başqa bir şey deyildi. Halbuki Lara, o quru gölə bahar gətirə biləcək bir təravətə sahib idi.

- deyə düşünürdü Mavi.

Ya da,

- deyə yanılırdı Mavi.

Onu Riçarddan uzaqlaşdıran qatarlar, Laraya yaxınlaşdırırdılar. Bugün tanıdığı və sevdiyi bu iki insanın ikisini də bilərək özündən uzaqlaşdırmışdı. Necə də axmaq idi. İlk öncə evə gedib Laranın könlünü alacaq, sonra da Riçardı tapacaqdı. Hətta Larayla birlikdə gedərdilər onu axtarmağa? Hə, əla fikir idi,

Laranı da onla tanış edərdi. Həm Riçarda dediyi sevgilimin evində qalıram yalanının o qədər də yalan olmadığını göstərmiş olardı. Bir də Rubl vodkasını alardı Riçard üçün, onu tapdıqdan sonra içərdilər birlikdə üçü. Əla plan idi deyə düşündü. Riçardı yəqin ki tapacaqdı, uzaq başı həmin o çin mağazasına gedəcək və orda gözləyəcəkdi, onlardan soruşacaqdı. Tapacaqdı, hər şey yaxşı olacaqdı.

Səhər Laraya demiş olduğu o lənət cümləni – kaş səni heç tanımamış olaydım – cümləsini, Laranınkı ilə dəyişəcək və ona kaş səni daha əvvəl tanımış olaydım deyəcəkdi. Bu qədər gec tanımışkən heç hara buraxmaq fikrinin olmadığını deyəcəkdi. Laranın ona dediklərini xatırlayırdı, ona hələ onlar dünən axşam barda ikən bir neçə günlük qalacaq bir yerə ehtiyacı olduğunu, gedəcək bir yerinin olmadığını dediyini xatırlayırdı. Ona məndə qala bilərsən bir müddətlik demişdi, indi isə ona istədiyin qədər məndə qala bilərsən deyəcəkdi. Yığıb saxlamış olduğu pul onlara bir müddətlik bəs edərdi. Bəlkə işlər yolunda getsə, köhnə işlərindən arası yaxşı olduğu müdürlərdən birinə gedər və bir iş istəyərdi təkrardan. İşlər bəlkə qaydasına düşərdi yavaş-yavaş. O bir daha işləməmə qərarı almışdısa da, hətta onu evtanaziya kamplarına itən səbəbin bu lənət dünyada hara getsə işləmək məcburiyyətində olması olmuşdusa da belə, indi Laranın eşqi, qadın istiliyi onu geri qaytarırdı və rasional düşüncə emosiyaların arasında itirdi. Məsələ xoşbəxt olmaq idi və olacaqdı da.

Metroya ilk mindiyində ən başdakı vaqona minmişdi. Evə gedərkən isə son vaqonun yaxın olduğu çıxışdan çıxıb getməliydi. Ona görə metrokı müddət ərzində Lara üçün getdikcə daha çox darıxdıqca, qatar hər növbəti stansiyada dayananda olduğu vaqondan çıxıb tez qaçıb ondan əvvəlki vaqona minir, enəcəyi stansiyada çıxışa ən yaxın sonuncu vaqona doğru yaxınlaşdırırdı özünü. Sona yaxınlaşdıqca iki vaqon birdən qaçıb minirdi ən arxadakına. Qatardan endikdən sonra evə ən qısa müddətə çatması üçün edirdi bunu, Laraya aparan ən qısa yol idi ən gözəl yol. Ya da bəlkə də, nə olur olsun, *bütün yollar Laraya aparırdı.*

İndi, Laraya ən yaxın vaqonda idi və növbəti stansiya son stansiyası idi. Ayaqlarını yellədirdi. Daha doğrusu mindiyindən bəri dayandırmamışdı ayaqları. Dayanmadan yelləyirdi. Vaqondakı siqaretiydi sanki yellənən ayaqları. Həyəcanını yatışdırır, gözlədiyi vaxtın tez keçməsinə kömək edirdilər. Sanki dağları aşmışdı bu kiçik amma ona uzunmu uzun gələn metro yolçuluğunda. Laranın həsrətinin yaratmış olduğu adrenalin səbəbi ilə heç bir ağrısını hiss etmirdi.

Bir qoxu diqqətini dağıtdı və keçmişə getdi yenə. Çox gözəl hisslər xatırladı və qoxunun nəyin qoxusu olduğunu anlamağa çalışdı. Bir anda xatırladı, nərgiz gülüydü. Amma bu dəfə, ona keçmişi xatırlatmış qoxuya nifrət etməmiş, əksinə onu təkrar qoxlamışdı. Başqa vaxt olsa durub yerini dəyişər və xatırladığı keçmiş hisslərindən qurtulmağa çalışardı. Ancaq indi xoşbəxt idi. Və xoşbəxt insan üçün keçmiş xatirəsi də gələcək xatirəsi də gözəldir. Dünyanın və hisslərin nə qədər nisbi olduğunun göstəricisi, bir nərgiz gülü qoxusu bədbəxtkən sizi ağrıdan ağlada, xoşbəxtkən sevincdən meyxoş edə bilərdi. İyi dərin nəfəslə ciyərlərinə çəkdi və üzünə nostalgia təbəssümü qondu.

Mavinin son, qatarınsa sondan üçüncü stansiyasına girdi vaqonlar. Yavaşladılar. Qapıda hamıdan əvvəldə durub hazır gözləyirdi. Çıxışda önündə heç kim olmasın da qaça bilsin deyə. Açıldı qapılar. Evə tələsdi. Sürətli addımlarla qalxdı eskalatoru. Yuxarıdakı çıxış qapısında digər istiqamətlərdə hərəkət edən qatarlardan çıxmış insan izdihamında biraz gözləməli oldu. İzdiham qapıdan əvvəl qıf kimi enlidən ensizə doğru yavaş-yavaş daralıb, qapıdan sonraysa getdikcə eyni həndəsi silsilə ilə yavaş-yavaş genişlənir və bütün bu proses ona qum saatını xatırladırdı.

Ən pis hiss isə sözsüz ki, xüsusilə də belə bir istəklə alışıb yanarkən, var gücünlə qaçmaq istəyərkən o izdiham içində önündəki insanın ardınca yavaş-yavaş addımlamalı olmaq idi. Çıxdı metrodan və evə yönəldi.

Metronun iki küçə aşağısında qalırdı. Nisbətən izdihamlı

olan ilk küçəni bitirib sağa dönərkən tindəki hər gün gördüyü gül satıcısına sataşdı gözü. Qadınlara gül almaq kimi bir xasiyyəti yox idi. Deyəsən heç vaxt da almamışdı. Amma bu dəfə, Laraya bir üzür borclu olduğunu düşündü. Laranın da onun kimi bir tip olduğunu və gülün çox da önəmi olmayacağını bilirdi. Amma ikisi üçün də simvolik bir mənada belə olsa ayaq saxladı, geri döndü və qoxladıqdan sonra bir dəstə mavi gül aldı. Adlarını bilmirdi, o an üçün vacib də deyildilər. Tələsməyə davam etdi. Gülü qoxlayırdı ara sıra, heç də pis olmadıqlarını və əslində Laranın da onları sevəcəyini düşündü, daha da sevindi, təkrar qoxladı. Uzun zamandır ayıq başla təbii olan nədənsə heç bu qədər zövq almamışdı, həyatın əslində nə qədər gözəl olduğunu düşündü və təkrar qoxladı.

Dörd mərtəbəli binanın qarşısına çatdı, pilləkənləri qaçaraq çıxdı və qapını açıb içəri atdı özünü.

"Lara!" deyə qışqırdı qapını açıb girərkən. O gedərkən dağınıq olan evin hər tərəfi səliqə ilə yığışdırılmışdı. Təbəssüm qondu üzünə. Ancaq bir tərəfdən də üzündəki sevinc, həyəcan və təbəssüm ifadəsi boş otaq qarşısında qərarsız və anlamsız forma aldı. Qaşlar çatıldı. Yataq otağında olduğunu güman etdi. Oradaydı əlbətdə, başqa harda olacaqdı. Qorxaq iki addımın ardından otağa boylandı. Boş idi. Dayandı bir qədər. Lara, əlbətdəki hamamda olmuş olmalıydı. Evin qapısı açıq idisə əgər, demək ki Lara evdəydi. Və deməli hamamdaydı. Qapısı bağlı hamama doğru yaxınlaşdı. Barmaqları ilə sakitcə döydü. Ölü səsslizliyi dinlədi. Ürkək bir ürək döyüntüsü səsi qulaqlarında əks-səda verirdi. Qapını açdı. Boş otaq. Dondu. Ordaca dayandı. Gül dəstəsi boşalan əlindən yerə düşdü. Nəyi düşünəcəyindən əmin deyildi. Bəlkə aşağı mağazaya düşmüşdü? Qapı niyə açıq idi? Bəlkə sıxılıb, dünənki yaxınlıqdakı bara gedib içməyə? Başqa nə ola bilərdi ki, orda olmuş olmalıydı. Özünə təsəlli verərək qorxusunu azaltdı. Ağlına gələn başqa fikirlər onu qorxutdu və narahat etdi. Sakitləşməliydi. İçməliydi. Evdə heç içki qalmadığını xatırlayıb gəldiyi kimi evin açıq qapısından aşağı doğru tələsdi.

Məhlənin başındakı içki mağazasına getdi. Bir Rubl aldı. Hesabı verərkən satıcıya “bugün qara həcmli saçları olan bir qız nəsə almayıb səndən?” kimi tutarsız bir cümlə qurdu, satıcı mənasızca ona baxdı. Çarəsiz idi. Vodkanı açıb ordaca içdi, su kimi içirdi. Sakitləşməliydi. Pulun üstünü aldı “Görməmisən?” deyə təkrar soruşdu. Bilmirəm cavabını aldı. Çölə çıxdı. Bar. Barda olmalıydı. Sadəcə canı sıxılmışdı. Ordaydı. Bara qaçdı. Onu barda başqa oğlanla içib gülərkən düşündü. Bu düşüncə onu məhv edirdi. Var gücüylə bara yaxınlaşırdı. Birdən qorxduğu mənzərə ilə qarşılaşsaydı? Hər nəysə, əsas onu tapmaq idi. Qapıdan içəri girdi. İçəri o qədər sürətli girdi ki, içəridəki beş altı müştəri və barmen dönüb hamı ona baxdı. Aralarında heç biri görmək istədiyi o üz deyildi. Ümidləri puç olurdu bir-bir. Barmenə yaxınlaşdı. Dünən onunla birlikdə oturan qızı görüb görmədiyini soruşdu. Yox cavabını aldı. Barmendən qızı xatırlayıb xatırlamadığını soruşdu. Xatırlamırdı.

Birdən gözü tam onun solunda, barın o başında dünən onunla Laranın oturduğu stola sataşdı. Bir oğlan oturmuşdu. Qarşısında içkisi. Tək idi. Ancaq, qarşısında yarısı içilmiş bir içki daha gördü, Laranın burda içdiyi həmin içkidən idi və o içkini çox nadir hallarda sifariş verən olurdu. Başını çevirib tualetlərə zillədi gözünü. Yaxınlaşdı. İki tualetin ikisi də bağlıydı. Kişi tualetinin qapısını əliylə yoxladı yavaşca, qapı açıldı. İçəri boş idi. Ürək döyüntüsü getdikcə artırdı. Qadın tualetinə apardı əlini ağlında min bir düşüncəylə, sağa doğru çevirdi tutacağı, bağlıydı. Min bir düşüncə. Vodkadan bir qurtum daha. Geri addım atdı. Gözləməyə başladı. Qapıdan çıxanın Lara olması təqdirində nə edəcəyini bilmirdi, hər şeydən əvvəl o oğlan kim idi? Bəlkə də sadəcə can sıxıntısından danışmaq istədiyi bir yad idi. Ya da bəlkə də oğlan gəlib ona yaxınlaşıb, o da nəzakət xətrinə bir içkisini içirmiş. Başqa nə olacadı? Lara hər gün gəlib burda biri ilə tanışıb özünə qalacaq yer axtarmırdı yəqin ya da Mavi elə olmamasını arzulayırdı.

İçəridən su səsi gəldi. Ürək döyüntüləri son həddə çatdı. Bütün ümidləri tualet qapısına bağlı idi. Tualet qapısından do-

ğan ümidlər, nə qədər real ola bilərdilər? Dözə bilməyib qapını taqqıldatdı, içəridəkinə, Laraya, tez ol çıx deyirdi. Bir qurtum daha. Qapı açıldı.

Şalvarının zəncirbəndini bağlaya-bağlaya hündür bir oğlan çıxdı içəridən. Mavini salamladı. Hıçqırdı. Necəsən dedi. Döndü, bara getdi. Mavi dəliyə dönmüş kimi onun ardınca getdi. Harda oturduğunu görmək istəyirdi. Oğlan Laranın dünən oturduğu stolda, bayaqki yarımçıq içkinin başına oturdu. Bütün bunlar bir zarafat olmalıydı deyə düşündü. Əlindəki içkini yerə vurmaq istədi. Özünü saxladı. Çölə atmağa tələsdi özünü. Qarşısına çıxan stollara təpiklə vurub aşırmaq istəyirdi. Çölə çıxdı. Vodkanın hamısını başına çəkib sonra bir başa yerə çırpdı. Evə doğru səndələməyə başladı əsəb və içki təsiriylə. Təkrar yol üstü Rubl aldı. Bu dəfə böyük butulkada. Pilləkənləri çıxdı. Açıq buraxdığı qapıdan içəri girdi. Təkrar otaqları bir-bir yoxladı. Heç kim yox idi.

Divana çöküb düşünmək üçün iki dəqiqə ayırmaq istədi bütün bu olanlara. Hər yerin necə də səliqəli təmizlənmiş olduğuna fikir verdi. Hər şey səliqəyə salınmışdı. Günlərdir yerə dağlmış gülqabının zibilləri artıq orda yox idi. Lara hər şeyi yığışdırmışdı. Bu yaxşı bir əlamət idimi? O getməmişmiydi? Bəlkə də hansısa parkdaydı? Axı əgər o getmişdisə, niyə onun evini yığışdırsın? Əgər ona əsəbi deyildisə? Niyə getsin? O nədi elə? O, masanın üstündəki, fincana söykənən o kağız parçası nədir elə? Qorxaraq yaxınlaşdı.

*"Tanışlığımıza səbəb olduğum üçün üzr istəyirəm, Lara."* - yazılı lənət bir not. Getmişdi. Birdəfəlik həm də. Daha da pisi, Mavinin onu tapa bilməyəcəyi formada yoxa çıxmış olmalı idi. Oturdu stolda sakitcə. Bu yeddi sözdən ibarət cümləni on dəfə oxudu. İki söz arasında bir paraqraf qaçırmış olmaqdan qorxar kimi, təkrar oxudu və təkrar oxudu. Səbəb-olduğum-üçün. Heç nə yox idi, sözlərin arasında heçnə yox idi. Getdiyi evin adresini hara yazmışdı bəs? Telefon nömrəsi? Burda bir yerdə yazılmış olmalıdı axı. Hanı. Arxası, arxasına baxdı, yoxdu. Əlbətdəki gedəcəkdi. Ona kaş səni tanımamış

olsaydım demişdim. Əlbətdəki gedəcəkdi. Həm, kim niyə ölmək istəyən intihara meyilli axmağın biriylə bir gündən artıq qalsın axı. Lənət olsun.

Baxışları boşluğun mənasızlığını doldururdu. Üç metrlik otaqda, gözləri kainatın ta dibinə zillənmişdi. Peşman, qərarsız, çaşqın, cavabsız və niyələrlə dolu baxışlar. Niyə elə demişdi ona səhər. Niyə o axmaqlığı etmişdi. Niyə getmişdi Lara. Niyə yığışdırmışdı otağı əgər ona nifrət edirdisə? Evə bu qədər gec gəldiyi üçünmü getmişdi yoxsa? Görəsən bir müddət gözləyib sonra bezibmi getmişdi, yoxsa səhərdənmi qərarını vermişdi? Yoxsa qərar dünəndən verilmişdi? Axı ona evində bir neçə gün qala biləcəyini demişdi Lara. Lənət olsun.

Böyük Rublu açdı. İçdi. Ucuz olduğu üçün dadı bərbad idi. Ağzına bir şeylər atmaq üçün ayağa durdu. Hissləri keyləşmişdi. İçki təsirini çox tez göstərirdi. Ayağa niyə durduğunu unutdu. Ortadakı stolun altından var gücüylə sağ ayağıyla vurdu, yüngül stol havaya qalxdı, üstündəki fincan və içindəki yarımçıq çay ayrı-ayrı istiqamətlərə səpələndi. Yerə düşən fincan parçalara ayrıldı. Stolun ardından stul divara doğru təpikləndi. Qışqırıq səsinin dalğaları pəncərədən azalaraq çölə doğru uzaqlaşırdı və keçməkdə olan xoşbəxt quşları narahat etdi. Əlinə keçən hər şeyi yerə atırdı. Boşqablar. Soyuducunun üstündəki əşyalar. Hər şeyi dağıtmaq istəyirdi və hər şeyi dağıdırdı.

Ürəyi, yuvasına geri dönüb dişisini tapmayan bir aslan kimi kükrəyirdi. Ürəyində yas elan olunmuşdu və hamı ağlar vəziyyətdə idi. Bütün orqanları bir-bir süqut edirdi. Üsyan edirdilər. Divara söykənərək aşağı doğru çökdü. İstəmsiz olaraq ağlamağa başladı. Səssiz zırıltı və ardından çıxan o nalə. Çarəsizlik. Göz yaşı. Vodka. Çarəsizlik. Nalə. Siqaret. İnilti. İntihar. Lara. Zarıltı. Sərxoşluq. Göz yaşı və sinədəki o düyüm. Düşünməmə istəyi. Orqanların süqutu. Çarəsiz beynin ümidsizcə işləri qaydasında saxlama cəhdi. Beyninə baş qaldıran şəxsiyyəti. İntihar etmək istəyən şəxsiyyəti. Lara üçün darıxan şəxsiyyəti. Onu unutmağa çalışanı. Hər şeyi dağıtmaq

istəyən şəxsiyyəti və sakinləşmənin tərəfini saxlayan şəxsiyyəti. İçində hamı bir-birinə girmişdi. Şəxsiyyət müharibəsi. Dəlilik və dəliliyə bir addım qala.

Fəaliyyəti pozulmuş frontal lob. Qorxu hissini itirmiş amiqdala. Bağrına basmaq istədiyi Laranın yerini belə bilməyən oksidosin. Hər şeyi vurub dağıtmaq istəyən vazopressin. Bir-birinə qarışmış hormonlar və fizioloji müdafiə mexanizmi. Stresi yüksəlmiş bədəni sakitləşdirmək üçün ağlama əmri verən metabolizm, artmış ürək döyüntüsü, nəfəsi yavaşladıb boğazda heçklikdən ibarət o yumrunu yaradan kortizol, göz yaşlarının işə saldığı və işləri yoluna salmaq üçün səfərbərlik elan etmiş endorfin dənəcikləri, sakitləşməyə doğru azalaraq çökən sakitlik. Ətrafdakı insanlara siqnal verərək onlarda empatiya hissini gücləndirmək üçün yanaqdan axan göz yaşları, amma, hansı insanlara? Yalnızın ətrafında neçə insan vardır? Yer üzündə tək şanslı canlı olan insana təbiət tərəfindən bəxş edilmiş o gözəl hədiyyə, göz yaşları, bir insan axtarırlar indi ətrafda, ağrıyan bir bədəndən axdıqlarını və dəstəyə ehtiyacı olduqlarını bildirmək üçün. Ancaq kimə? Kimi vardır yalnızın? Siqnal fəaliyyətini yerinə yetirə bilməyən göz yaşları və əlacsızlıq. İşlərini yarımçıq da olsalar gördülər, ifraz etdikləri sehirli kimyəvi zərrəciklər şirə dönmüş bədəni divarın bir küncünə doğru sıxıb dizlərini qucaqlayan bir zərərsizə çevirdilər. Zərərsiz, çarəsiz və yalnız. Qapının altından sızıb qonşulara qonaq olan inilti səsi və mavi bir çarəsizlik. Tünd mavi çarəsizlik.

O gün evində ölsəydi, qapı altından sızıb qonşuları narahat edəcək o qoxuya qədərki bir neçə gün içində heç kimin xəbəri olmayacaqdı bəlkə də yoxluğundan. Bu yalnızlığı özü seçmişdi və indiyə qədər belə yalnız olmamışdı. Sadəcə o deyildi bu situasiyanın içində olan, getdikcə yalnızlaşan yüzminlər var idi çöldə. Ətrafda nə qədər mavilər var idi, mavi ruhlar. İyirmi birinci əsrin mavi xəstəliyi, yalnızlıq və depresiya. Mavi ruhlar qəbrislanlığı. İnsanlar yalnızlaşırdı. Yollar, içində tək nəfərlərin oturduğu maşınlarla doluydu. Magist-

ralların ən solundakı o *“iki və daha artıq sərnişini olan avtomobillər üçün”* yazılı xüsusi olaraq ayrılmış ekspres yollar boş idi. Ya da ən azından Mavi və onun kimi digər yalnızlar üçün elə bir yol yox idi. Magistralda hər dəfə o yol ayrıcına gəldiyi vaxt, sağdakı, yalnızlar üçün ayrılmış olan yola keçirdi. Bəzən nifrət edirdi o işarəyə. Magistraldakı iki və daha artıq sərnişini olan maşınları mənzillərinə daha tez çatdırmaq üçün asılmış cansız işarədən başqa bir şey deyildi o göstəriş yazısı ancaq yenə də, Mavi nifrət edirdi o işarəyə. İki və daha artıq. İki bəs idi ona, daha artığı yox, ancaq yox idi, ikinci nəfər, yox idi. Lara, yox idi. Onu ləpəli suyu olan o hüznlü və şən gölə aparacaqdı halbuki.

Saatlar sonra küncdə yerə yıxılıb bir neçə saat yuxu ilə reallıq arasında gedib gəldikdən sonra gecənin dərinliklərinə doğru qonşudan bir drel səsi eşitdi. Aşağı qatlardan gəlirdi səs. Bir müddət qulaq asdı gecənin səssizliyini dağıdan drelin səsinə. Sonra səs dayandı bir anlıq və Mavinin yanaqlarına enən ümidsiz təbəssümün yerini səssizliyin narahatedici sükutu aldı. Səs yenidən başladı və Mavi yenidən təbəssüb edib laylaya qulaq asan uşaq kimi səsi dinləməyə başladı. Gecənin bu saatında qonşuları narahat edəcəyini düşünmədən drel işlədən bu adama qəzəb yox minnətdarlıq duyurdu Mavi. O lənətə gələsi səssizliyi dağıtdığı üçün. Bu lənət binada tək yaşamadığını yada saldığı üçün. Bu lənət gecələr çox səssiz keçirdi. Bir zamanlar çox sevdiyi o gecə səssizliklərinə indi nifrət edirdi. Gecə gözəldir, gecə səssizdir deyirdi bir vaxtlar, ancaq artıq səssizlikdən qaçırdı. Çünki gecənin səssizliyi, beyninin və fikirlərinin gurultusu ilə əvəz olunurdu.

Ondan olsa durub gedib qucaqlayacaqdı o dreli işlədəni. Bu lənət olası binada yaşayan hamı çox ciddi idi. Sanki eyni yerdə yaşamırmış kimiydilər. Qonşu deyildilər. İnsanlar əvvəlcə fərdi azadlıqları üçün can atmışdılar, indi isə azadlıqlarının gətirdiyi yalnızlığın içində boğulurdular. Binada yaşayanların hərəsi bir ölkədən idi və yarısı bir-birinə nifrət edirdi. Amerikalısı, çinlisi, hindistanlısı, italyanı, yaponu və fransızı. Onla-

rın hamısını birlikdə sadəcə bir dəfə binanın təhlükəsizlik siqnallarının işə düşdüyü gün görmüşdü. Birdən-birə gecə vaxtı binanın hər tərəfini siqnal səsləri bürümüşdü və hamı ümüdlərini qucağına alıb ölüm təhlüksindən qorxaraq aşağı enmişdi. Mavi enməmişdi. Nə ölümdən qorxurdu nə də ki özünü tərpədəcək taqəti var idi. Ancaq hamının aşağı endiyini görüb sevinmiş və aşağı enib qonşuları ilə tanış olmaq istəmişdi. İstədiyi tək şey qonşularıyla və yeni insanlarla tanış olmaq idi, ancaq ona da nail ola bilmədən məyus formada geri qayıtmışdı. Hamı çox ciddi idi. Çünki hamının başı öz həyatına və ölü ümidlərinə qarışmışdı.

Drel səsi kəsildi və yıxıldığı küncdə yatıb tünd mavi bir yuxuya daldı.

* * *

Bir zooparkta qəfəsin arxasına düşmüş kiçik uşaq və onun üstünə cummağa çalışan qəzəbli bir şirin olduğu yuxuya ayıldı. Qəfəsin ətrafındakı insanlar qorxuyla onları izləyirdi. Şir Mavini görmürdü və onun qaçıb getmə şansı varıydı. Əlində xəncər olduğu görüb tərəddüdə düşdü. Ya şir ya uşaq öləcəkdi. Heç fikirləşməyə macal tapmamışdı ki şir uşağın üstünə tullandı və Mavi də cəld şirin üstünə tullanaraq xəncəri onun boynuna keçirdi. Şir yerə yıxılıb can verdi. Mavi peşmanlıq hissiylə şiri qucaqlayıb ağlamağa və ondan üzr istəməyə başladı. Şirin nə olduğundan xəbərsiz yeni doğmuş balaları Mavinin yanına gələrək onun ayağını yalamağa başladılar və o daha da çox ağlamağa başladı.

Ordan şiddətli qaranlıq tufanların ağacları yerindən çıxarıb atdığı başqa bir yuxuya oyandı. Şimşəklər çaxır və bədbəxtlik leysanları yağırdı. Ətraf alçaq dağlarla doluydu və birinin arxasından daha əvvəl heç görmədiyi licimdə nəhəng və qorxunc bir yaratıq uzun boynunu qaldırmağa başladı ağır-ağır. Bir bina qədər böyük idi. Nə əjdaha nə dinozavr idi, ancaq hər ikisini xatırladırdı. Yuxulardakı o üzünü belə

görmədən yanımızdakının kim olduğunu anladığımız hissin köməyi ilə bir anda gördüyünün Laplas şeytanı olduğundan əmin oldu. Nəhəng və vahiməli şeytan ona qorxunc gözlərlə baxırdı.

Mavi onun kim olduğunu anladıqdan sonra qışqıraraq ona səsləndi: “Sən keçmişin nəticəsi və gələcəyin səbəbi olan kosmosun aqibətini görəbilən tək varlıqsan. Haqqında deyilənlər doğrudurmu? Doğrudan da sən kosmosdakı hər atomun yerini hesablayaraq gələcəkdəki formalarını anlaya bilirsənmi? Eləisə mənim gələcəyimi görə bilirsənmi? Nə görürsən? Nə olacaq? Ölmək istəmirəm. Ancaq gələcəyimdə qaranlıqdan başqa heçnə görmürəm. Yenə bu qədər bədbəxt olacağamsa ölmək istəyirəm. Səndən istədiyim tək şey, xoşbəxt olub olmayacağımı deməyindi.”

Şeytan ona ikrah hissiylə baxmağa davam edir gözlərindəki nifrətlə onu süzürdü. “Sənə ancaq burdan baxanda nə qədər qədirbilməz, nankor, naşükür, tamahkar, doymaz və acgöz göründüyünü deyə bilərəm” - deyə kinli səslə onu cavabladı, sualları cavabsız qalmışdı.

Cavab ala bilməyən Mavi yalvarmağa başladı amma heç bir qarşılıq ala bilməyib şeytana əsəbləşməyə başladı: “Heç bir cavab vermirsən, çünki heçnə bilmirsən! Gələcəyi hesablaya bilməzsən. Lap bütün atomların fəzadakı mövqeyini bilsən belə yenə də hesablaya bilməzsən! Lənət olsun sənə də o determinist Laplasa da! Onsuz da Heisenberg səni də Laplası da təkzib edib qeyri-müəyyənsizlik prinsipi ilə. Kaş ki real olsaydın və kaş ki Laplas haqlı olsaydı. Kaş ki mənim iradəmin xaricində olsaydı aqibətim. Daha rahat olardım. Taleyimin məsuliyyətindən azad olardım. Ancaq təəssüf ki elə deyil. Hər şey olmasa da çox şey bizim öz əlimizdədi. İradəmiz yarı da olsa azaddır. Sənə yazığım gəlir. Varlığının heç bir mənası yoxdur, bunu özün də bilirsən. Elə ona görədə sən reallıqda yox, ancaq yuxularda mövcud ola bilərsən. İndi get və rədd ol burdan.”

Şeytan qaranlığı qucaqlayaraq yox oldu.

* * *

Pəncərədən içəri sızan günəş şüaları otağı aydınladırdı. Gözləri heç açılmayacaqmış kimiydilər. Yumulu gözlərinin ardındakı aydınlığı hiss edə bilirdi. Açdı gözlərini. Yuxuda keçirdiyi şiddətli hissləri xatırlayırdı, ancaq yuxunu xatırlaya bilmədi. Sanki çox vacib bir sualın cavabı gizliymişcəsinə xatırlamağa çalışdı yuxunu, alınmadı. Bir müddət eyni nöqtəyə zillənmiş formada qaldı göz bəbəkləri. Sanki oyanmaq istəmirdilər. Sanki bir başqa cəhənnəmdən canlarını qurtarıb, daha da betərinə düşmüşdülər. Yuxu və reallıq.

Bəzi insanlar üçün, yuxu, çıxış yoludur. Real həyatın dəhşətli əziyyətindən qaçmaq üçün bir çıxış yolu. Yatmaq və heç oyanmamaq istəyən insanlar vardır. Həyatındakı ağrı və acıları unutmaq və bir an belə olsa düşünməmək üçün hər gün içən insanlar kimi, real həyatda daha az oyaq qalmaq üçün davamlı yatmaq istəyən insanlar var. Axşamın gəlməsi üçün can atan insanlar, darıxan insanlar.

Yatmaq hamı üçün asan da deyildi. Əvvəllər çox rahat yuxuya gedə bilirdi. Son illər niyə rahatca yata bilmədiyini bir gün durduq yerdə başa düşmüşdü. Çünki artıq yatağa girərkən xəyal qurmurdu. Xəyal qura bilmədiyi üçün də yuxunu gözləmək uzun və darıxdırıcı çəkirdi. Xəyal qurmağı özünə qadağa etmiş sonra da peşman olmuşdu. İndi istəsə də xəyal qura bilmirdi. Bütün xəyallar mümkünlüyü çox uzaq bir yalan kimi gəlirdi. Xəyal qura bilməmək deyə bir xəstəlik adı varmıydı görəsən. Xəyalpərəst vaxtlarında çox xoşbəxt idi çünki ümidi var idi. Çünki bilirdi, xəyalpərəstlər yalnız uyumaz və xəyalpərəstlər yalnız oyanmazdı. İnsanın həyata olan bütün inamını öldürən ən güclü şeylərdən biri də artıq xəyal qura bilməməsidir. Çünki gələcəkdən heç bir gözləntin olmur, heç bir motivasiyan olmur. Belə adamın tək dərdi olur, yatmaq və oyanmamaq.

Birdə yatmaq üçün can atan insanın əksi var: yatmamaq üçün hər şeyi edən insanlar. Yuxuları kabus dolu olan insanlar.

Hər gecə qışqıraraq oyanan insanlar. Və ya, daha da betəri, qışqırıb amma oyana bilməyən insanlar. Oyanmaq üçün can atan insanlar. Şüuraltılarında cəhənnəm əzabı kimi kabuslar yatan insanlar var.

Bu ikisinin birləşmiş forması var birdə: həm yuxusu həm həyatı kabus olan insanlar. Ən betəri. Ağrıların ən böyüyü. Nə oyaqkən nə yuxudaykən rahat tapa bilən o ürəyi yaşlı pərişan insanlar. O insanlar, bu dünyanın cəhənnəmindən qurtulmaq üçün başlarını hər gecə böyük ümidlərlə daş yastığa qoyub bir neçə saatlıq belə olsa *var olmamaq* üçün yuxuya gedirlər. Və başqa bir cəhənnəmə oyanırlar, başqa bir dünyaya, başqa kabus dolu bir kainata. Sonra o qaranlıq və qorxu dolu cəhənnəmdən qurtulmaq üçün hər gecə erkən saatlarda qışqıraraq ayılıb səhərlərə qədər oyaq qalan insanlar. Gözlərində kədər yaşları və əllərində qan ağlayan parçalı bir ürək. Beyinlərini iki dəqiqəlik belə olsa susdurmaq üçün nələr verməzdilər. Düşünməmək. Artıq o lənət ağrılı fikirləri düşünməmək üçün həyatını verəcək insanlar var. Biz buna intihar deyirik. Düşünməmək üçün, bir an belə olsa varlığından uzaqlaşmaq üçün intihar edən insanlar.

Kabus dolu yuxudan əzab dolu reallığa oyanırsan, sonra yenə o kabus dolu yuxulara yatıb sonra yenə oyanırsan. Sonsuz dövr. Çıxılmaz vəziyyət. Hansı dünyanın daha ağır olduğuna qərar verə bilmirsən, reallığın ya yuxuların.

O səhər gözlərini açarkən, tam da bu lənətli paradoskun içindəydi Mavi. Şiddətli yuxular və ardından oyanılmaq istənilməyən bədbəxt bir həyat. Nə bir dostun var nə işin nə gedəsi yerin. O sabah nə edəcəyi ilə bağlı heç bir fikri yox idi. Heç bir planı yox idi. Sanki bir qaranlığa oyanmışdı və işıq axtarırdı.

Yorğun və tənbəl göz qapaqları onun eyni lənət nöqtəyə zillənmiş ümidsiz baxışlarını yavaş-yavaş örtdü. Yerdəcə yatıb qalmışdı. İçilmiş alkoqolun təsirindən olacaqdı ki bu qədər narahat formada soyuq döşəmənin üstündə yatmış olmasına baxmayaraq gecə oyanmamış, yerini belə dəyişməmişdi. O an bədəninin buz kəsdiyini hiss etdi. Soyuq və sərt

döşəmə bədənini ağırlaştırmışdı. Azacıq tərpənməklə belindəki dözülməz ağrını hiss etdi. Yanağının bir hissəsi döşəmədəydi. Təkrar açdı gözünü, yerdəki qırıq əşyalar və dağınıq otağı gördü, lənətə gələsi gecəni xatırladı. Otaqdakı hər detal onu daha da əsəbləşdirməyə və kefsizləşdirməyə başladı. İlk başda yerə düşüb solmuş gül dəstəsindən səpələnmiş solğun mavi gül ləçəklərini gördü. Ürəyini kədər bürüdü. Sanki sayısı yüzminlərdən ibarət qanlı ordunun hər bir cəlladı ürəyinə hər tərəfdən xəncərini basırdı. Amma ölmürdü. Ən betəri də bu idi. Yumruq boyda bir ürək, nə qədər ağrıya dözəbiləcək formada proqramlanmışdı?

Heçnə düşünməməyə çalışdı. Bəziləri üçün ən çətin olan şeyi etmək istəyirdi, düşünməmək. Dünəni xatırlamaq istəmirdi, ancaq hər cəhdi, ona bir detalı daha xatırladırdı. Bara gedişini xatırladı. Laranın orda olma ehtimal və ümidinin puç çıxdığı anı. Düşünməmək üçün cəhd etdi və Laranın buraxdığı notu xatırladı. Hər cəhd bir detalı xatırlatdı.

Bu tip anlarda düşünməmək üçün kəşf etdiyi o işəyaramaz meditasiya üsuluna əl atdı yenə. Dənizdə üzmək. Gözünü yumurdu və bir dənizdə, böyük bir okeanda üzdüyünü düşünürdü. Qurbağavari üzmə tərzində əlləri ortada birləşib irəli gedib və iki kənara açılırdılar. Beləcə o gözünü yumub ağlına gələn fikirləri əlləri ilə sağa ya sola ataraq düşünməməyə çalışırdı. Üzməyə davam edirdi. Ağlına gələn və xatırladıqca onu məhv edən keçmiş qırıntılarından xilas edirdi özünü. Zaman-zaman işə yarayan bu üsul, zaman-zaman xatirə ya da fikrin qorxunc ağırlığı altında əzilir və heç bir işə yaramırdı. Dəniz suları arasında yox, fikirlər içində boğulurdu. Fikirləşməmək üçün hər şeyi verərdi. Canını belə. Verəcəkdi də. Az qalmışdı. Lənət keçmiş. Lara. Barselona. Həsrət. Üzməyə davam. Fikirləşmə. Qaranlıq bir boşluq. Düşünmə. Açma gözünü. Lara. Boşluq. Və yenə Lara. Lənət olsun.

Bütün ümidini üzərək açdı gözlərini. Üzündə kədər, əsəb, qəm və həsrətin o möhtəşəm qarışımı var idi. Qaşları çatılmışdı. Heç bir insanın səhəri belə açılmamalıydı. Hər səhəri bir

fürsət, yeni bir başlanğıc olan insanlar var idi, bir də hər səhəri zindan olanlar. Ədalət, sadəcə bir zarafatdan ibarət idi. Həyatın zarafat anlayışı. Təsadüflər nəticəsində yaranmış və davam etməkdə olan bir prosesdən - həyatdan - ədalət kimi ciddi və homogen bir anlayışı gözləmək ən axmaq gözləntiyə qapılmaq idi. Yenə də rasional yox emosional olan insanların bir çoxu o tələyə düşür və ədaləti gözləyirdilər. Yuxarılarda bir yerlərdə bir gün onların taleyinə baxacaq bir tanrılarının olduğunu və o çox gözəl möhtəşəm günü gözləyirdilər. Bütün çəkdikləri əziyyətləri sona erəcək və tanrıları onların üzünə gülümsəyəcəkdi. Onlar bilirdilər ki karma, hər şeyi tənzimləyəcək. Axı bu düzgün deyildi, əziyyətləri. Bunu haqq etmirdilər. Haqsızlıq idi bu.

İnsanlar, ədalətə aşiq idilər. Ədalət, olduğu sanılıb da olmayan ən böyük ehtiraslardan biri olmuş olmalıydı. İnsanlar, ədalət aludəçisiydilər. Onları bundan daha çox xoşbəxt edən heç bir düşüncə yox idi. Ən kiçik ədalət xülyası belə onları meyxoş edir, başlarının gicəllənməsinə bəs edirdi. Onlar, küçədə qadınını vəhşicəsinə döyən kişini beş metr sonra təsadüfən vuran maşını ədalət adlandırırdılar və gözləri ədalət yaşlarıyla dolurdu. Qışqırıqlarla sevinclərini bölüşürdülər. Ədalət oradaydı, gəlmişdi və o kişini cəzalandırmışdı.

Doğru olmayan bir şeyə həddindən artıq ehtirasla inansanız əgər, onun doğruluğunu təsdiqləyən kiçik ipuclarını hər yerdə görməyə başlayacaqsınız. Bu, beynin işləmə prosessi idi. İnsanları tanrılara və dinlərə inandıran güc bu idi. Ədalət də eləydi.

Məgər, ədalət, tanrının özü deyildimi? Niyə yaratmışdı insan tanrını və nə istəyirdi ondan? Ədaləti istəyirdi. Bu dünyada ya o biri dünyada, fərqi yox idi. Onlar bir gün hər şeyin çox yaxşı olacağına inanırdılar. Və əlbətdəki, heç şübhəsiz, bunu onlara inandıran, başlarının üstündə gəzdirdikləri o beyinləri idi. Belə proqramlanmışdı insan. Onu həyatda saxlayacaq hər yalana inandırırdı beyni onu. Əks halda sürülər formasında intihar etməzdimi insanlar? Edərdi. Beləcə, bir ömür boyu ona

yalan danışan orqanını başının üstündə gəzdirməyə məhkum idi insan. Bir yalançı ilə bir ömür yaşamağa vadar idi.

Məsələ burasındadır ki, beyin, işini o qədər gözəl görür ki, insanlar onun yalançı olduğunu ağıllarına belə gətirmirlər. Yalançı yalanı danışa bilməyənə deyilir, elə deyilmi? Bax elə. Milyardlarca illik təkamülün müvəffəqiyyətli nəticəsi olan beyinləri o qədər mükəmməl formada inkişaf edib ki, onu daşıyan saf bədənləri gözü yumulu aldadır. Varlıqla yoxluq arasında onlar əlbətdəki varlığın üstünlüyünə aldanırlar. Və hər şey, amma hər şey, çox gözəl olacaq. Bir gün. Ədalət. Yerini tapacaq.

Bir də, digərləri var idi əlbətdə. Beyni yalan danışa bilməyənlər. Beyni onları hər şeyin bir gün yaxşı olacağına inandıra bilməyənlər. Ya beyinləri bu işdə çox zəif idi, ya da onlar belə ağ yalanlara inanmayacaq qədər ağıllıdırlar. Beləcə insanoğlu öz bədəni içində ən böyük düşmanını tapır və paradoksial olaraq ikiyə bölünür. Yalançı bir beyin və xəyanətə uğramış küsgün bir şüur. Al, yaşa bu ikiliylə, artıq nə qədər xoşbəxt ola bilərsənsə. Beləliklə bədəndə insan tarixinin ən böyük savaşı, mücərrəd savaş başlayır. Və müharibələr nəticəsində xarabaya dönmüş bir fərd çıxır ortaya. Hər şeyin yaxşı olacağını iddia edən optimist bir beyin və heç nəyin düzəlməyəcəyini irəli sürən pessimist şüur. Qazanan ikinci tərəf olacağı təqdirdə savaşın sonu hər iki tərəfin ölümünə aparacaq: intihara.

Elə buna görə də beyin, bütün ordusunu yığıb dayanıb şüurun qarşısına. Milyonlarca il çəkib ordusunun təlimi və hər biri tək məqsəd üçün ixtisaslaşdırılıb: ölməmək. Bütün genləri arxasına alıb beyin. Amma, bütün ordunun dizləri əsir. Hamısının. Zira qarşılarında tarixin ən möhtəşəm və ən güclü düşmanı dayanıb: şüur. Mücərrəd olan tək şey. Fikir. Və bu, ən ağıllı şüurlardan biri olmuş olmalıydı digər milyonlar arasından, çünki onu aldada bilməmişlər. Ona görə də dizləri əsir bütün ordunun. Beynin küçələrində bugünlərdə qan, su yerinə axır.

Ona yalvaran bir beyni var idi Mavinin, ölmək istəməyən. Yalvarırdı ona. Və utanmadan gözünün içinə baxaraq yenə

yalan deyir, ona bir şans daha verməsini və hər şeyin yaxşı olması üçün əlindən gələcək hər şeyi edəcəyini deyirdi. Ona vədlər verirdi. Vədlərin bəziləri zaman-zaman Mavini tələyə salmağa bəs edirdi. Məsələn ona bir gün şəhərin hansısa təsadüfi bir küçəsində Larayla qarşılaşma ehtimallarından bəhs edirdi beyni. Və bəzəyirdi hekayəsinin arxa planını şirnikdirici detallarla. Romantikləşdirirdi. Günəşli və gözəl bir gündə deyirdi məsələn. Bihuş edirdi. Sözün əsl mənasına bihuş edirdi, zira *bi-huş*, huşu, fikri, şüuru başından getmiş, insana deyilirdi. Rasional düşüncə arxa cibə qoyulurdu və beyin yalanları ilə onun şüurunun diqqətini dağıda bilirdi zaman-zaman.

Kaş ki deyirdi hərdən, kaş daha yaxşı bir yalançı olsaydı beyni. Kaş inansaydı ona. Razı idi cahil xoşbəxtliyə. Eybi yox, əsas olan xoşbəxt olmaq idi, forması deyildi. Qətiyyən. İnsan, hormonları əl verdikcə istənilən şəkildə istənilən yerdə və zamanda istənilən situasiyada xoşbəxt ola bilərdi. Xoşbəxtlik zira, hormonal bir oyun idi. Artığı deyil. Dünyanın ən ucqar yerlərində belə xoşbəxt və bədbəxt insanlar var idi birlikdə yaşayan, dib-dibə. Uzaqlarda, Tibetdə məsələn, kilometrlərcə yuxarılarda dağ başındakı o maşıngirməz təpələrdə yaşayan iki xəyali kasıb qonşu məsələn. Hər ikisi tək və kasıb yaşayan bu iki yaşlı kişidən, sağ qapıda qalanı necə də xoşbəxt idi hər səhər. Sol qapıda hər gün intihar planlarıyla qıvrılan 70 yaşlı qocadan nə fərqi var idi onun? Hər ikisi eyni situasiyadaydılar, eyni yer, eyni küçə, eyni dərəcədə mal varlığı və yalnızlıq. Keçmişlərimi fərqliydi? Xatirələrmi? Bəlkə də. Məlum olan tək şey var idi: xoşbəxtlik situasiyadan daha çox hormonal idi və hər şey hamı üçün nisbi idi.

Əlbətdə xoşbəxtlik həm də situasiyaya bağlıydı. Situasiya, yəni fərdin olduğu vəziyyət, şərait, olduğu yer, şəhər, işlədiyi iş, sahib olduğu dostlar və bütün bunların bütünü xoşbəxt bir fərdin hormonal balansını poza da bilərdi, bədbəxt fərdi nirvanaya da çatdıra bilərdi. Ya da hormonal balansı fərqli bir fərd də heç bir təsir göstərməyə də bilərdi.

Hormonal balans sanki beynin fərqli prespektivləri kimiydi. Homronal balansı kimisi üçünsə həyatı möhtəşəm gözəllikdə bir yer kimi göstərərkən, kimisi üçünsə həyatın nə qədər bərbad bir yer olduğuna dair arqumentlər sıralayırdı ona. Həyat, kimisinin pəncərəsindən yeni insanlar yeni şəhərlər yeni hekayələr tanımaq və ondan alınan o möhtəşəm hissdən ibarətdir, kimisinin pəncərəsindən nə qədər xoşbəxt olursan ol hər gecə yuxularında ölmüş uşağını görməkdən ibarətdir, yenə bir başqasıyçün həyat sadəcə istəksizlikdən ibarət bir zaman yolçuluğudur. Kimisi üçün həyat, dadına doyulmayacaq nemətlərlə dolu ikən, kimisi üçün o nemətlər heç bir dad vermirdi.

Mavi, ədalət axtarmırdı. Ədalətin sadəcə bir zarafat olduğundan xəbərdar idi. Yuxarılarda bir yerlərdə onun taleyi ilə maraqlanan bir tanrısı olmadığına inanırdı. Amma kaş ki deyirdi bəzən, kaş ki bir tanrı olsaydı. Kaş ki bir tanrı olsaydı da, bərabər bölsəydi ədaləti. Kaş ki təsadüflərin əsəri olmasaydıq. Əziyyət üstünə əziyyət çəkilməsəydi. Üzündəki hər nöqtədən, heç vaxt əziyyət çəkməmiş olduğu anlaşılan insanlar var idi. Bir də üzündəki hər qırışda olmazın əziyyətini çəkmiş insanlar. İşgəncə üstünə işgəncə. Dözülməz ağırlıqda bir dərdin vurduğu insanı eyni həftdədə arxa-arxaya vuran lənətə gələsi başqa ağrılar var idi. İnanılmaz saydakı təsadüflərin qəribə formada tək bir insanda birləşmələri var idi. Kimisində xoş təsadüflər idi bunlar, kimisində ağırlığına dözülməyəcək təsadüflər. Yaşamaq üçün proqramlanmış o güclü genlər, nə qədər ağrıya dözə biləl变rdi? Varlığın neçə qramına dözə bilərdilər?

Gözü dünən hər yeri dağıdarkən yerə düşmüş əşyaların arasından bir zamanlar cücərtməyə çalışdığı öz düzəltdiyi dibçəkdəki bitkinin quru saplağına sataşdı və onu əkdiyi gecəni xatırladı.

Kliniki yalnızlıq bədbəxtliyinizlə birləşərək sizdə absurd davranışlara səbəb ola bilər. Məsələn evinizdə cücərmiş bitki ilə emosional bir bağ qura bilərsiniz. Bu olduqca sevimli

səslənsə də əslində dəhşətli bir hadisədir. Ən azından Mavi ona yalnızlığını xatırlatdığı hər şey kimi bu hissinə də nifrət etmişdi. Mavi bu dəhşətli xəstiliyi ilk dəfə otağında elə-belə cücərmək üçün isladıb saxladığı marixuana toxumunda hiss etmişdi. Bir gecə, bütün gecələrində olduğu kimi yuxusu qaçmış və saat dörddə oyanıb boş otaqda fırlanarkən toxumun üstünü örtüyü yaş parçanı qaldırmış və cücərdiyini görmüşdü. Ürəyində nə olduğu bilinməz bir hiss baş qaldırmış və sürətlə döyünmüşdü. Yanında sevincini paylaşacaq heç kimi yox idi. Bəlkə də ona görə daha da çox sevmişdi cücərən bitkini, yalnızlığından. Əlləri əsmişdi, birdən əli dəyər cücərən toxum qırılar deyə. Bütün bədənini basan o qəribə hissin təkidiylə gecənin qaranlığını bölərək həyətə enmiş və ağacların dibindən torpaq yığaraq evə qayıtmış və onu bir su butulkasını kəsərək basdırmışdı. Bitkinin başında uşağının ilk qızdırmasını yaşayan ana kimi əsmiş və sanki evinə yeni bir otaq yoldaşı gəlibmişcəsinə sevinmişdi.

Bildiyi ya hiss etdiyi tək şey var idi, o da ki o bitkiyə nəsə olma ehtimalını düşünmək belə onun şiddətli dərəcdə kefini pozmuşdu. Bəs o bitkinin yerinə bir evində heyvan, bir it ya bir insan olsaydı necə? Dəhşətli düşüncəydi, bağlandığın birini itirmək. Bağlanmağın pis fikir olduğunu təkrar inandırmışdı özünə. Sonra təkrar düşünmüşdü, insan səbəbi hər nə olursa olsun güclü emosiyalarla bağlanır başqa canlılara. İnsan sosial varlıqdır və sosial olacağı başqa insanlar olmayanda heyvanlara hətta bitkilərə sarılır.

Yoxsa küçədə çəmənləri tapdalayaraq gəzən insanı evində cücərmiş bitkiyə bu qədər bağlayan şey nə idi? Bədbəxtlik məntiq tanımır, emosiyalar rasional deyillər və insan həm bədbəxt həm emosional varlıqdır.

Bəşəriyyətin bütün mənasızlığını dərk edən Mavi, bitkisinin quruyacağı təqdirdə keçirəcəyi üzüntü hissinə olan qorxusundan qaça bilməmişdi və tədirgin yaşamışdı ilk günlərini. Ona görə yox ki Mavi sadəcə emosional idi, ona görə ki o həm də bədbəxt və yalnız idi. Sonra absurd həyatın təsadüfi bir bəd-

bəxtliyi bitkini vurmuş və onu durduq yerə qurutmuşdu, ya da bəlkə də bitkini qurudan Mavinin neqativliyi olmuşdu. Bütün ümidləri kimi bitkisi də qurumuşdu və o lənətli bəxti səbəbilə çox da təəccüblənməmişdi.

Ayağa durdu və dibçəkdə qurumuş bitkini yerdən qaldırıb bir kənara qoydu və sonra dünən yerə düşmüş gül dəstəsini götürdü əlinə. Bir ananın, görsə, dözə bilməyəcəyi ağırlıqda hüzün var idi yanaqlarında. O hüznlü gözlərlə süzdü çiçəkləri min bir xəyalla. Qurumuş və solğun ləçəklər tökülürdü döşəməyə. Dərinləməsinə düşüncələrə daldı. Əşyalara mənalar yükləyən biri deyildi. Amma insanlar bu işin ustasıydılar, əsas da yalnız olanları. O da bir insan idi nəticədə, yalnız olanlarından həm də. Çiçək dəstəsiylə arasında bir bağ qurulurdu ona baxdıqca. Hər ləçək ona Laranı xatırladırdı. Bağrına basmaq istəyirdi dəstəni. Qucaqlamaq və Laranın yoxluğunu doldurmaq. Evin boş divarlarına çevirdi gözlərini. Bəlkə də, deyə düşündü, asmalı idi o çiçəkləri bir yerdən. Dekorativ gözəllikləri üçün yox əlbətdə, Laradan geri qalan tək parça xatirə olduqları üçün. Ama yox, əlbətdəki yox. Ağrı divarımı yaradacaqdı yaşadığı yerdə? İşgəncə divarı kimi, hər baxanda Laranı ya keçmişi xatırladacaq? Əlbətdəki yox.

Divarlardakı deşiklərə baxdı. Kiçik mismar yuvaları. Yapışdırıcı izləri. Divardakı bütün şəkil və xatirələri yerlə bir etdiyi o günü xatırladı. Dəliyə döndüyü o günü. Nostalgia xəstəliyinin dəliliyə çevrildiyi günü. Boş divarın əvvəlki forması gəldi gözünün önünə. Hər tərəfdə şəkil və digər xatirə dolu əşyalarla dolu divar. Keçmiş həsrəti ona hər gün yeni bir şəkili asdırmışdı divara. Bu kiralıq evə köçdüyü gündən bəri hər gün bir neçə şəkil asmışdı divara. Hər gün keçmişin həsrəti ilə qıvrılaraq yeni bir fotoşəkil yeni bir xatirə. Beləcə o, keçmişi gözünün önündə saxlayaraq daha yaxşı hiss edəcəyini düşünmüşdü. Bu lənətə gələsi yalnız otağında hər gecəsində ona bir vodka butulkası və o divarlar müşayiət etmişdi. Yüzlərcə fotoşəkil yapışdırılmışdı divarlara, həmçinin, kitablardan səhifələr, əllə çəkilmiş məlum və qeyri-məlum rəsmlər. Danışmışdı o şəkillərlə bəzi gecələr

sərxoşkən. Danışacaq heç kəsi olmadığı üçün butulkayla tanışdırmışdı onların bəzilərini. Bəzən sərxoşluqdan hər gecə bir küncündə yuxuya qalmışdı o divarların. Hər gecə keçmişdən biriylə danışmışdı. Bir qadınla məsələn. Yaxşı olub olmadıqlarını soruşmuş, onlar üçün necə darıxdığını bildirmiş, sonra da keçmiş xatirələrdən danışmışdılar.

Xoşbəxt olmadığı üçünmü keçmişdə ilişib qalmışdı Mavi? Bəlkə də. Bəlkə də yox. Xoşbəxt olmayan insan, getmək istəyər. Xoşbəxt olmayan insan, keçmişini didikləyər, xoşbəxt günlərini yada salar və onlarla yaşayar. Ancaq bədbəxt bir insan keçmişdən xatirələrlə dolu divarları olan yalnız və soyuq bir evin kimsəsiz bir küncündə əlində vodka butulkası oturub fotoşəkillə söhbət edə bilərdi.

Bəzi günlər evə tələsmişdi Mavi. Əlindəki digərlərindən nisbətən böyük həcmdə çap edilmiş keçmiş bir xatirənin izlərini daşıyan yeni bir fotoşəkili divara vurmaq üçün.

Gözlərini xatirələrin divarlarda yaratmış olduğu izlərdən ayırıb təkrar əlində tutduğu gül dəstəsinə baxdı. Onu divardan asmayacağından qətiliklə əmin oldu. Gülləri əsəbiliklə havaya tulladı. Evin tavanına çarpan güllərin qurumuş mavi ləçəkləri fəzada dörd bir tərəfə yayılaraq yerə dağıldı.

* * *

Bir nöqtədən sonra bu yeni hobbisi, divarlardan xatirələr asmaq, onun cəhənnəminə çevrilmişdi özü də fərqində olmadan. Ta ki bir gün bir psixoterapistin ona divardakı şəkilləri yığışdırmasını məsləhət görənə qədər. Evtanaziyanın ölkədə leqallaşma reformlarının başladığı həftələrdə o xəstəxanadan major depressiya xəstəsi olduğuna aid bir ərizə alma məqsədiylə psixoterapistə yönləndirilmişdi. Əgər altı aylıq depresiya müalicəsi almış olduğuna aid olan bir sənədi olsaydı, evtanaziya kamplarına buraxıla biləcəkdi. Məclisə girəcək qanun nizamnaməsi bunu deyirdi. Elə də oldu və qanun təsdiqləndi. Pisoxoterapistə yazıldı. Və müalicə üçün lazım olan dərmanları götürürdü hər dəfə. Heç birini də istifadə etmədi.

Psixoterapistin ona nə dediyi də vecinə deyildi. Sadəcə məcburi proseduranı tamamlamaq üçün yanına getməli idi bir müddət. Onunla çox bir şey də danışmırdı. Cəmi bir neçə dəfə görüşmüşdülər. Terapist zorla bir iki kəlmə danışa bilirdi onunla ancaq. Bir gün özüylə gətirdiyi şəkili təsadüfən görmüşdü psixoterapist və nə olduğunu soruşmuşdu. O da sadəcə divara asmaq üçün çap etdirmiş olduğu bir şəkil olduğunu demişdi.

- Başqa da varmı bu şəkillərdən evdə?

- Aha, var, divarlara şəkil asmağı sevirəm. Hətta heç yer qalmayıb deyə bilərəm.

Terapist, ondan divarlar barədə biraz da məlumat almış və sonra ona bu şəkillərin onun yaşadığı nostalgiya həsrətini sakitləşdirmək əvəzinə daha da tətikləyə bilmə ehtimallarından danışmışdı. Ona daha əvvəl də nostalgiyadan əziyyət çəkən xəstələrinin olmuş olduğunu və əlamətləri çox yaxşı bildiyini demişdi. Şəkillərlə danışmağın başda normal, sonraysa həddindən artıq dərəcədə psixoloji problemlərə yol açdığından bəhs etmişdi. Vəfat etmiş insanları hələ də yaşayırmış sanmaq, onlarla danışmaq, bir müddətdən sonra fərdin gündəlik rutininə çevrilir və məsələ fərdin şəkillərlə danışmasından, şəkillərin və əşyaların fərdlə danışmasına çevrilirdi.

Mavi o otaqda olduğu vaxtlarda terapistin danışıqlarını eşitməmək üçün əlindən gələni etmişdi hər dəfə. Eşidərkən də qəbul etmədiyi fikirlərə cavabları iç səsi ilə vermişdi, əsəblə. İçində qışqıraraq. Ancaq heç vaxt terapistə heçnə demirdi. Münasibətləri sanki heç vaxt dost olmağı bacara bilməmiş ata ilə oğul kimiydi. Ata məsləhətini verir, oğulsa iç səsi ilə onun dediklərinin nə qədər mənasız olduğunu qışqırırdı atasına. Sonuncuda Mavi dözə bilmədi və terapistin özünə dedi:

- Nə deməyə çalışırsan? Yavaş-yavaş ağlımı itirəcəyimimi deməyə çalışırsan? Bilirsən, dediklərinin heç biri vecimə deyil. Heç vaxt da deyildi, olmayacaq da. Olar mən də sənə bir sual verim? Burda oturaraq nə etdiyini sanırsan sən? Gələn-gedənə nağıl danışırsan. Başqa heçnə. Əminəm, əsl yaranın, ağrının nə demək olduğunu belə bilmirsən. Heç vaxt hiss

etməmisən. Üzündəki o iyrənc xoşbəxt ifadədən hər şeyi oxumaq olur. Xoşbəxt və sakit həyat keçirmiş birinə oxşayırsan. Çünki əgər o dərin ağrının nə demək olduğunu bilsəydin, bu danışıqlarının heç birinin işə yaramayacağını bilərdin. Və gedib özünü asardın. Burda oturub yanına bir ümidlə gələn insanlara öyrənmiş olduğun nağılları danışırsan, vəssalam. Dərdimin nə olduğunu səndən yaxşı bilirəm. Çarəsini də yaxşı bilirəm. O çarə ki, sənin kimi qorxaqlar onu düşünməyə belə cəsarət edə bilmir. Mən ya ölməli, ya da bu ağrılarla yaşamalıyam. Sənin nağıllarının faydası olmaz. Məsləhətinə ehtiyacım yoxdur. Yanına sadəcə lənət proseduranı tamamlamaq üçün gəlirdim. Bəlkə sənin axmaq terapiyan bəzi zəif düşüncəli insanları aldada bilər, onları daha da xoşbəxt edə bilər. Ancaq məni yox. Sənin yerində olsam, bugündən sonra o lənət diplomunu yandırıb bir daha bu otağa girməzdim. Ancaq sən sabah yenə nağıllarını başqalarına danışmağa davam edəcəksən. Əminəm ki işinə də nifrət edirsən, ancaq sən də o cəsarət yoxdur ki, qapını örtüb bu qədər illik əziyyətini arxanda buraxasan. Psixologiyaya düşman deyiləm, bəlkə də səndən də çox sevirəm psixologiyanı, ancaq sənin kimi insanlara sözün əsl mənasında nifrət edirəm. Orda niyə oturduğunu belə bilmirsən ay yazıq. Sikdiyimin dörd illik diplomuyla orda oturmusan və nə edəcəyin barədə ən kiçik fikrin belə yoxdur. Sənin kimilərdən çox görmüşdüm psixologiya fakultəsində oxuyarkən. Və sənə bir söz deyim? Orda gələcəyini təsəvvür etdiyim o nifrət etdiyim səfehlər haqqında yanılmayıbmışam, çünki tam da sənin kimi bir tip olacaqlarını gözləyirdim. Mən pulum olmadığı üçün bitirə bilmədim və yarım qoydum. Aramızdakı ən yaxşıların çoxu fakultəni ya məcburi ya maddi ya da başqa səbəblərdən yarım qoydu, bitirə bilmədi və bitirənlərin çoxu sənin kimi axmaqlar oldu. Çünki əsl intizam və prosedura adamısan. Sən, məndən də daha çox zavallısan. Nə deyirsən, biraz da sənin bədbəxt həyatından danışaq bəlkə? Tək sualım var, utanmırsan? Yanına gələn insanların bədbəxtliklərinin pulu ilə cibini və öz xoşbəxtliyini doldurarkən, hə? Dediklərinə heç özün inanırsan? Həyatında neçə dəf..

- Bəsdir!! Otağı tərk etməyinizi xahiş edirəm. – deyib qapını göstərmişdi əsəbdən qıp-qırmızı olmuş terapist.

Mavi ayağa durdu və qapıya tərəf getməyə başladı.

-Halaldı. Gözümü yaşartdın. Səndən bunu gözləməzdim düzü. Sanırdım ki dediklərimin hamısına sonuna qədər qulaq asacaqsan. Axı prosedura belədir. Sən ki tam bir prosedura və intizam adamısan. Bravo, ciddi deyirəm. Bu hərəkətindən xoşum gəldi. – deyib Mavi qapının ağzında əl çalmağa başladı. Sonra cibindən siqaret çıxarıb dodaqları arasına qoydu. Terapistdən yandıranı olub olmadığını soruşdu və davam etdi – Siqaret üçün soruşmuram, sabah bu lənət otağını yandırmağın üçün deyirdim. Bunu da etsən, gözümdə bir pillə də yüksələcəksən.- deyib siqaretini yandırıb yandıranı terapistin masasına tullayıb qapını açıb örtmədən çıxıb getmişdi Mavi.

Terapist heç bir şey demədən yerində oturmuş və bir an əvvəl Mavinin rədd olub getməsini arzulamışdı. Mavi, binanın dəhlizi ilə çölə doğru gedərkən iti və əsəbi addımlarla özünü bir an əvvəl o lənət binadan çölə atmağa tələsmişdi. Əlində son terapiya səbəbilə aldığı ölüm kağızı var idi – evtanaziya kamplarına giriş bileti. Çöldə poçt qutuları və zibil qablarını təpikləyərək özünü sakitləşdirməyə çalışmışdı.

Bu, Mavi ilə o terapistin son görüşü olmuşdu. Terapist, otağını yandırmamışdı. Ancaq Mavi, divardakı bütün şəkilləri əsəbinin doğurduğu göz yaşları içində yırtıb atmışdı o günün axşamı. Bir uşaq kimi ağlamışdı. Üz gözü əsəb və kədərin bəhrəsi olan göz yaşlarıyla yuyulurdu. Əlində yenə içki ilə evə gəlmiş. İçməyə başlamış və bir nöqtədən sonra divardakı hansı şəkilə baxsa Terapistin o murdar üzünü görməyə başlamışdı. Sonra terapistin üzünü gördüyü sandığı divarları yumruqlamağa və qışqırmağa başlamışdı. Bütün şəkillərə bir-bir baxaraq, terapistin dediklərini düşünmüşdü. “Yox” deyirdi, doğru ola bilməzdi. Sahib olduğu tək şey idi bu xatirələr onun. Şəkillərdə ona baxan gözlərə baxırdı. Gözlər, sanki onunla danışırdılar. Hallüsinasiya görürmüş kimi, şəkillərin hərəkət etdiyini görürdü. Bəzi şəkillərdən adları unudulmuş qadın əlləri uzanır və onu qucaqlayırdılar.

Terapist haqlıydı. Yox, ağlını itirmirdi. Hallüsinasiyalar onun əvvəlki adəti idi. Lizergin turşusu və sehirli göbələklər kimi psixoaktiv maddələr istifadə etməyə başladığı vaxtlardan bu yana onun əyləncəsinə çevrilmişdi hallüsinasiyalar. Ancaq, bu şəkillərin onda nostalgiya hisslərini artırması danılmaz idi. Mavi, düşünməmək üçün əlindəki içkidən hər dəfə biraz da artıq içir, içdikcə də daha da dərindən ağrıyırdı yarası. Üzünü hara çevirsə keçmişdən üzlər və izlər görürdü. Bir boşluğa baxmaq istəyirdi ancaq divarlarda boş yer yox idi. Otağın ortasında durdu və fırlandı. Dörd divar arasında gəzdi gözlər. Var gücü ilə fırlatdı əlindəki butulkanı, butulka havaya qalxdı, şəkillərin tam ortasına çarparaq parçalara ayrıldı və içindəki alkoqol damcıları aşağıya doğru süzülməyə başladı.

Mavi, divara doğru yaxınlaşdı. Tam ortada, illər əvvəl - bəlkə də artıq on il olurdu, xatırlamırdı – sevmiş olduğu bir gənc qız gülümsəyirdi ona şəkildən. Mavinin sol qolu qucaqlayırdı qızı bu dondurulmuş xatirədə. Ona baxan bu iki cüt göz, onu keçmişə, o vaxtlara, o şəkilin çəkilmiş olduğu günə aparırdı. Başqa bir ölkədə, başqa bir şəhərdə, başqa bir dildə və başqa bir Mavi olaraq sevdiyi bu qızın, indi harda olduğunu belə bilmirdi. Sanki ayrılmayacaqmışcasına sevmişdilər bir-birlərini. Ancaq indi, sanki iki yad insan kimiydilər. Qızın ona demiş olduğu son sözləri xatırlayırdı: sənin kimi birinin otuz yaşında necə biri olacağı mənə çox maraqlıdı və səni o yaşında təkrar görmək istəyərdim.

Hardaydı o indi? Ubi sunt? Hansı ölkə? Hansı Şəhər? Hansı dildə? Hansı arzuların insanıydı indi? Digər ona baxan gözlərə baxdı, hardaydı bu insanlar? Olduqca yad və uzaq görünürdülər sanki. Bəzilərinin adlarını belə unutmuşdu. Çevrilib təkrar həmin qıza baxdı. Çox gözəl gülürdü. Gözləri xoşbəxt və kədər görməmişcəsinə parıldayırdılar və yəqin ki elə də qalmışdılar.

Siqaretini yandırdı Mavi, sonra kibriti istəmədən, bəlkə də istəyərək alkoqol iyi verən dondurulmuş xatirəyə doğru yaxınlaşdırdı. Şəkilləri alov bürüdü. Bir neçə saniyə alov içində giz-

lənən gülümsəməsinə baxdı qızın. Sonra öz keçmişinə baxdı. İndikindən daha xoşbəxt və qəmsiz gülüşlərinə baxdı. Ümidli və arzu dolu baxışlarına acıdı. Hər şey başqa cür ola bilərdi deyə düşündü. Öz seçimləri idi onu bugünə salan.

Yüksələn alovlar diqqətini dağıtdı və həcmi artmış alov onu vahiməyə saldı. Bir anlıq yerində qərarsız hərəkətlər bütününü təkrarladıqdan sonra əlini təşviş içində divanın üstündəki balaca yastığa atdı. Yastığı alışan şəkillərin üstünə basıb alıovu söndürməyə çalışdı. Yastığın kifayət etmədiyini görüb bəlkə də bir qaba su doldurması gərəkdiyini düşündü. Mətbəx dolablarına doğru tərəddüdlü bir addım atdı, bunun üçün çox vaxt olmadığını düşünüb köynəyini çıxarıb alovlara basdı. Ağlına daha yaxşı bir fikir gəldi və cəld su kranına doğru gedib köynəyi islatdı. Geri gəlib alovlu divara basdı. Köynəyi ilə divardakı bütün alovları söndürdü. Təngənəfəs arxasındakı divana söykənib sakitləşməyə çalışdı. Yanan xatirələrini söndürməyi bacarmışdı.

Dərin nəfəsləri, otağın sakitliyini pozurdu. Başını divara doğru qaldırdı və yanmış şəkillərə baxdı. Onları bir daha görmək istəmədiyinə daha da əmin idi artıq. Bütün şəkilləri, əşyaları, xatirələri sökməyə başladı. Divardakı bütün izləri yığışdırdıqdan sonra yerdə zibilə çevrilmiş xatirələrinin üstündə gəzə-gəzə bir yerə yığdı. Tapdalanmış, əzilmiş və yanmış xatirələrini bir zibil torbasına yığıb aşağı düşdü.

Gecənin qaranlığını pozan küçə işıqlarının yaratdığı kölgəsini izləyərək dəmir zibil qablarının olduğu yerə gəldi. Xatirələrini zibil qabına boşaltdı. Və bu dəfə tamamilə iradi formada kibriti onların üstlərinə tulladı. Məhvə üz tutmuş xatirələrdən çıxan alovlar gecənin zülmətini aydınlandırırdı. Qabın kənarında qaçınılmaz sonluğundan imtina etməyə çalışaraq həyatda qalmağa çalışan fotoşəkilə zillədi gözlərini. Bir hissəsi yandıqca fotoşəkilin digər yanmamış hissəsi ağırlaşmağa başlayaraq qabın kənarından yerə düşməyə çalışırdı. Xatirə, dəhşətli alovdan qurtulmaq üçün bədəninin bir hissəsini qurban verməyə məhkum idi. Mavi, onu bu əzabdan xilas etmək üçün yanmamış hissəsindən tutaraq qaldırdı özünə doğ-

ru. Dodaqları arasındakı siqareti alışdırdı. Və son vəzifəsini də yerinə yetirmiş olan xatirəni alovun tam ortasına doğru atdı. İnsanda olduğu kimi, xatirələrin də tək xilas yolu varlığın ağırlığından qurtularaq yoxluğu qucaqlamaq idi.

Ürəyinin ağrısı, ona əlindəki yanığın ağrısını unutdurmuşdu. Geri dönüş yolunda əlinin sızıldadığını hiss etdi. Evə gəlib soyuq suyun altına tutdu əlini. Kaş ki ürəyini də tuta bilsəydi deyə düşündü. Başını qaldırıb güzgüyə baxdı. Üzünün hər çizgisini incələdi. Görmək istəmirdi. Baxmaq istəmirdi. İstəmsiz olaraq yumruğunu düz üzünün ortasına vurdu. Görmək istəmədiyi üzündən indi sınıq güzgüdə on-onbeş dənə görürdü. Sanki içindəki şəxsiyyətləri idi və düz gözünün içinə baxırdılar. Parçalanmış güzgü, Mavinin tam gözünün içinə baxaraq sanki ona bir şeylər deməyə çalışırdı. Sağ əlindəki yanığı sakitləşdirmək üçün girdiyi hamamdan digər əli kəsik və qanlı olaraq çıxmışdı Mavi.

Ürəyini qucaqlayıb yatmışdı o gecə Mavi, başqa qucaqlayacaq kimsəsi yox idi. O gecə, terapist dinc yatmışdı. Xoşbəxt və intensiv həyatı Mavinin dediklərini bir neçə saata unutdurmuşdu. Maviysə, əlləri yaralı, ürəyi əzab içində yatan tərəf idi. Otağını yandıran tərəf də o olmuşdu. Taleyin istehzası bu olmuş olmalıydı.

* * *

– Je suis malheureux.<br>
–Sans blague! Depuis quand?<br>
– J’avais oublié.<br>
- *Mən xoşbəxt deyiləm*<br>
*-Yox bir! Nə vaxtdan bəri?*<br>
*-Xatırlamıram*

*En attendant Godot (Qodotu gözlərkən)*<br>
***Samuel Beckett**, 1953*

8

# GERÇƏYİN HALLÜSİNASİYALARI

Artıq evtanaziya kampları barədə bir qərar verməliydi. Ya da bəlkə də artıq qərarını vermişdi özü də bilmədən. Planladığından daha da tez müddətə gedəcəkdi. Bitirmək istədiyi bir-iki son kiçik planı qalmışdı. Görüşmək istədiyi bir-iki nəfər var idi. Onlarla görüşəcəkdi. Sonra da sağollaşacaqdı bu lənət şəhərlə. Zəng etmək üçün yaxınlıqdakı küçə telefonlarına getməyə qərar verdi. Son işindən ayrıldıqdan sonra telefonundan da yaxasını qurtarmışdı, izolyasiyaya ehtiyacı var idi bir müddətlik. Texnoloji inkişafın yetirməsi olan telefon və kompyuterlər ona toxuna bilmədiyi xatirələrinin ya uzaqlardakı sevdiklərinin donmuş surətlərini göstərməkdən başqa bir işə yaramırdılar onsuz da.

Evdən çıxmamışdan bir göz atdı otağa, hər şey yerdəydi, dağıdılmışdı. Huşunu itirəcək dərəcədə əsəbləşdiyi son axşam, xəbəri olmadan qırmış olduğu əşyalara göz atdı. Qırılmış olduqlarına heyfsləndi. Sanki onlara bir daha ehtiyacı olacaqmış kimi.

Ayda bir ya həftədə bir dağıdırdı otağını və əşyalarını Mavi. Onu sakitləşdirirdi bu. Hər kəsin özünə aid bir otağı olmalıydı deyə düşünürdü Virginia Woolf'un dediyi kimi, başqalarından uzaq, istəyəndə vurub dağıda biləcəyi. Boşal-

maq üçün. Mavi hər dəfə içir, dağıdır və səhər yığışdırırdı əşyalarını. Psixodelik maddələrin istifadəsinə başladıqdan sonra, oturub saatlarca söhbət etmişdi o vaxtlar olduğu evdəki əşyalarla, yalnızlıqdan. Onda başa düşmüşdü, canlı və cansız deyə bir ayrım olmadığını, küçədəki ağacdan tutmuş elektrik dirəyi ya svetofora qədər hamısının bir hekayəsi olduğunu. Oturub saatlarca onların arasında və söhbətlərində itmişdi. Divardan asılı olan lampa məsələn, ona son günlərdə onu yaxşı gördüyünü demişdi. Sonra ona hər şeyi danışmışdılar, daha əvvəlki kirayəçilərin həyatlarından danışmışlar ona, necə həyat görmüş olduqlarından danışmışdılar. Heyran və valeh olmuşdu, ətrafında nə qədər hekayənin olduğundan və onun xəbərinin belə olmamış olmasından. Küçənin başındakı ağac məsələn, ona nə qədər yorulduğundan və bahar üçün necə darıxdığından bəhs etmişdi. Bəlkə də hallüsinogen maddələr deyildi onu əşyalarla danışdıran, bəlkə də yalnızlığıydı onun xəyal gücünü genişləndirən şey. İnsanın bəyəndiyi bir söhbət dostu olmayanda dialoq quracağı tək insan özü olduğu üçün xəyal gücünü genişləndirmək məcburiyyətində qalır. Psixodelik maddələrin istifadəsi onun özünü aldatma forması idi bəlkə də, özünü dəli olmadığına, sadəcə maddənin təsiri altında olduğu üçün buludlarla danışdığına inandırırdı.

Boş divarlarda tək-tük əşya asılı qalmışdı, onlardan biri də çox sevdiyi dəlisov Sokratın Jacques-Louis David tərəfindən 1787ci ildə yağlı boya ilə canlandırdığı "Sokratın ölümü" adlı rəsm əsəriydi. Yaxınlaşıb əsərin qarşısında dayandı və son dəfə baxdı rəsmə. Atina cəmiyyətinin kefini və gənclərin əxlaqını pozması ilə təqsirləndirilən Sokratın yunanlılar tərəfindən edamı göstərilirdi əsərdə. Şəhərin tanrılarını inkar edirdi və gənclər onu təqlid etməyə başlayırdılar. Fikirlərini və hərəkətlrəini təqlid edirdilər, hətta onun kimi ayaqyalın və ac gəzirdilər. Dəlisov Sokrata ya şəhəri tərk edib insanlara öz fəlsəfəsini aşılamaqdan əl çəkmək ya da ölüm təklifi edilmişdi və o ölümü seçmişdi. Rəsmdə tələbələri onun başının üstünü kəsdirib kədər və tədirgin baxışlarla gözləyirdilər. Kədərdən

ağlayan müridlərindən biri ona içmək məcburiyyətində olduğu baldırğan otu zəhərini uzadır və onu ən çox sevən tələbəsi Platon dizini sağ əliylə qavrayaraq son dəfə heyran baxışlarıyla ona baxırdı. Sokrat isə ölüm anında belə sol əlini göyə qaldıraraq hələ də öz mübarizəsini və fikirlərini müdafiə edirdi. Sokratın ölümə gedərkən belə özünə olan inamını və cəsarətini izlədi. Hər baxışında heyran qalırdı. Rəssam yaxşı iş çıxarmışdı. O da Sokrat kimi cəsarətli ola biləcəkmiydi görəsən intihar anında? Sokrata qarşı bəslədiyi bir sevgisi var idi, bəlkə də onun çürümüş bədənindən ayrılan atomlardan birinə sahib idi. Bu əsər indi divarda asılı qalan tək şey idi və son vaxtlar ona hər baxışında intiharı üçün özündə cəsarət toplaya bilirdi. Sokratla son bir dəfə sağollaşdı və "Sənin əksinə dostum, mənim Asklepiyə olan borcumu ödəyəcək kimsəm belə yoxdur" sözləri töküldü dilindən.

Sonra divarın o biri tayında asılı duran yarısı cırılmış dünya xəritəsinə baxdı. Yaşadığı bütün otaqlarda həmişə xəritə asmışdı. Ancaq bu son otağındakı xəritəni ölkədən çıxma qadağası səbəbilə gedib gəzə bilmədiyi üçün cırmışdı əsəbindən. Artıq xəritələr ona səyahət eşqi yerinə təşviş verirdilər sadəcə. Onsuz da ölkədən çıxma icazəsi olsaydı belə az maaşlı işlərdə işlədiyi üçün gedib gəzə də bilməyəcəkdi heç haranı.

Gözlərini xəritədən ayırdı. Bu son yaşadığı otağa yalnızlığı səbəbilə nə qədər nifrət etdiyini düşündü. Yerə səpələnmiş olan Laraya bəstələnmiş quru ləçəklərin üstündən keçib bir-iki əşyanı yerdən götürüb düzəltməyə cəhd etdi. Ləçəklərin xışıltısı səssiz divarlarda əks səda verdi. Həddindən artıq əşya yerdəydi. Hər dəfə dağıtdıqdan sonra səhəri günü yığışdırmışdı onları, bu dəfə yığışdırmamağı qərara aldı. Qapıya doğru yeridi. Sanki əşyaların onun arxasından baxdıqlarını hiss edirdi və sanki əşyalar, onun hara getdiyini bilirdilər. Başını çevirib hüznlü gözlərlə son dəfə olaraq otağı süzdü. Bir-bir, ən sevdiyi əşyaların gözlərinin içinə baxdı. Onun və içəridəkilərin, hamının tükləri biz-biz oldu. Getmə vaxtıydı, bunu hiss edirdi. Qapını açıq buraxıb pilləkənlərdən aşağı enib arxasına baxmadan çıxıb getdi.

Binanın girişində, ona aid poçt qutusuna son dəfə bir ümidlə göz atdı. Bütün məktublar ödəmələrlə ya da reklamlarla bağlıydı, həmişəki kimi. Başqa nə olacaqdı sanki. Bir məktubmu? O adresdə yaşadığını bilən belə yox idi.

Məktubları götürüb girişdən biraz aralıdakı zibil qutusuna atdı. Yaxınlıqdakı telefon köşkünə getdi. Görüşmək istədiyi ilk iki nəfərdən birincisinə zəng çatmadı, nömrəsini dəyişmiş olmalıydı, ikincisi şəhərdə deyildi və bir neçə həftə də olmayacaqdı. Üçüncüsü Fred idi və evindəydi həmişə ki kimi. *"Nə vaxt gəlirsən gəl, evdə olacam, sənin üçün darıxmışam"* dedi. "Yaxşı" dedi Mavi, "Gələcəm". Maşınlamı yoxsa maşınsız gələcəyini soruşdu Fred, "maşını bir neçə həftə əvvəl satmışam" deyə cavabladı Mavi. Sonra quru bir səslə əlavə etdi, "Gedirəm buralardan, səninlə son dəfə görüşmək istədim". *"Mütləq gəl, gözləyəcəm"* dedi Fred, sanki başa düşmüşdü o an, Mavinin geri dönməmək üzrə getdiyini.

Telefonu geri asdı. Çölə çıxdı. Uzun müddət sonra tanıdığı birinin səsini eşitməsi rahatlatmışdı onu. Hələ bu adam Fred idisə. Ona qarşı xüsusi bir sevgisi var idi. Onları birləşdirən hər ikisinin yalnızlığı, Proustun *İtirilmiş zamanın axtarışında* əsəri və kitabxana qapısı qarşısındakı siqaret fasiləsi olmuşdu. Birdə, yəqin ki, Fredin homoseksuallığı birləşdirmişdi onları. Bir şəhəri tərk etməmişdən əvvəl görüləcək bir insan var idisə əgər, bu insan, şübhəsiz Fred kimi biri olmalıydı. Yazarlığa olan marağı və yazar olma istəyi onu kifayət qədər söhbətcil biri edirdi və onunla danışmaq rahatladırdı.

Hər ikisinin ən yalnız vaxtlarına təsadüf etmişdi tanışmaları. Kitabxana günlərinə. İkisi də yalnız vaxtlarında kitabxanaya gedib nələrsə oxumağı sevirdilər. Kitabxanada hər dəfə eyni insanları görürsən, bəziləri bel çantalı evsizlər, bəziləri evi olsa da yalnızlıqdan başını götürüb qaçanlar, bəziləri utancaqlar və s. Kitabxanadakıların yarısı hər həftə ya hər gün ora gələnlər idi. Heç kim bir-biri ilə danışmasa da hamı bir-birini tanıyırdı və sanki hamı bir digərinin orda olduğu üçün minnətdar idi. Hər gün görüb amma danışmadığın dostlar idilər. Heç

kim danışmırdı amma hamı bir-birinin yanına oturmağa çalışırdı çünki tənhaydılar. Bəziləri göz-gözə gəlməyə çəkinənlər idi, bəziləri gözünün içinə baxaraq bircə kəlmə danışmaq üçün yalvaranlar. Fredlə də belə tanışmışdılar və utancaq tərəf Fred olmuşdu. Axşam ya da gecə onun yanına getməyi planladı.

Kitabxanaları xatırladı. Düşünürdü ki həyat metaforik mənada kitabxanalar kimiydi, həddindən artıq kitab/seçim var və sənin onların hamısını oxuyacaq/seçəcək vaxtın yoxdur. Və seçəcək "doğru" kitab yoxdur. "Doğru kitab" fikri sadəcə miskin insanın təsəllisiydi. Ona görə də kitabxanalar onu həmişə təşvişə salırdılar, həmçinin həyat. O qədər çox və gözəl kitab var idi ki hamısını oxuya bilməmək fikri onu dəli edirdi. Həyatda da o qədər seçim var idi ki hamısını seçə bilməmək onu məhv edirdi. Bu fikirlə - hər şeyi edə bilməyəcəyin fikriylə - yola getməyi bacarmalısan, yoxsa həmişə əzab çəkəcəksən.

Bəlkə də buna görə oxuduğu kitabların çoxunu yarım buraxırdı. Bir kitabdan başqa kitaba, bir qadından başqa qadına, bir şəhərdən başqa şəhərə keçirdi və hamısı yarımçıq qalırdı. Çünki seçimlərinin limitli və zamanının az olduğunu hiss edirdi və bu fikirlə razılaşa bilmirdi. Həddindən artıq acgöz, həris və aludə olmaq heç bir mənada yaxşı deyil, nə oxumaqda, nə sevgidə, nə yaşamaqda.

Axşama qədər hələ ki bütün şəhəri uzaqdan izləyə bildiyi o yaxınlıqdakı kiçik dağlıq əraziyə getmək istəyirdi. Həmin tərəfə doğru dönüb gedirdi ki sonra bir şeylər unutmuş kimi geri dönüb əks istiqamətə yollandı.

Küçənin sonuna doğru getdi, həmişə içki aldığı mağazanın qarşısına gəldi. Yerdə köhnə ədyala bürünüb yatan bir evsiz var idi. Onun başı üstündə əyildi. Aşağı səs tonuyla bir neçə dəfə "hey, oyaqsan?" deyə soruşdu, səs çıxmadı. Əli ilə yerdə uzanan kişinin çiynini tərpətdi yavaşca. Kişi anlaşılmaz sözlər bütününü tələffüz edərək oyanıb başını çevirdi və əsəbləşdi:

- Nə var? Sən kimsən?

- Oyatdığım üçün üzr istəyirəm.

- Nə istəyirsən?

- Təsadüfən Riçard deyə uzun boy ya Ra deyə qara dərili evsiz birilərini tanımırsan bu ərazidə?

- Buna görə oyatdın məni? Cəhənnəm olsun ikisidə, tanımıram heç kimi. Rədd ol qoy yatım, gicbəsər. – deyib kişi əli ilə Mavinin qolunu itələyib ədyalı başına çəkdi.

- Üzr istəyirəm, bunun üçün oyatmamışdım yox, sadəcə soruşmaq istədim, mənim üçün vacib idi. Tanımayacağını təxmin etmişdim ancaq yenə də soruşmaq istədim. – deyib Mavi əlini cibinə atdı, kişi yenidən ona sarı dönüb əsəbi sifətlə onu süzdü, - O binanı görürsən? Dördüncü mərtəbədəki sağ qapı mənim evimin qapısıdır. Müqavilənin son üç ayının pulu əvvəlcədən ödənilib. Mən bu şəhərdən gedirəm. Ev üç ay boş qalacaq. Bu evin açarıdır. Qabaqdan qış gəlir, bütün qışı burda yata bilmərəsən. Evə get. – açarı kişinin ovcuna qoyub, biraz fikirləşdikdən sonra əlavə etdi - əgər istəsən, buralarda qalan başqa evsizlərə də deyə bilərsən. Evdə qalmalarına icazə verməsən də, heç olmasa arada bir hamamı istifadə etmələrinə icazə versən sevinərdim. Yenə də son qərar sənindir. – deyib ayağa durdu, unutmuş olduğu bir şeylərin olub olmadığını düşünürdüki həyəcanla əlavə etdi – hə, bir də, əgər evə Lara adında bir qız gəlsə, ona dediklərim üçün peşman olduğumu və artıq bu şəhərdən çox uzaqlara getmiş olduğumu deyərsən. Yaxşı?

Kişi təəccüblə və çaş baş formada ona baxırdı. Qərarsız formada cavab verdi;

-Yaxşı.

-Yaxşı, hələlik. Özünə yaxşı bax. Mən getməliyəm. Oyatdığım üçün təkrar üzr istəyirəm. - Əlini kişinin çiyninə qoyub sonra uzaqlaşmağa başladı.

Kişi arxadan onu çağırdı,

- Hey!

- Hə? – Mavi geri dönüb soruşdu.

- Ev üçün çox sağol – üzünü həyəcan və sevinc bürümüş kişi açarı havaya qaldırıb ona göstərdi.

- Dəyməz.

* * *

Alçaq dağ və hündür təpələrin olduğu o əraziyə doğru yeridi. Meşəvari, sıx ağac və təpəliklərin olduğu bir yeriydi. Ona bəzən elə gəlirdi ki ora gələn insanların heç biri xoşbəxt deyildi və şəhərin gurultusundan qaçıb onu uzaqdan izləmək təbiətlə birlikdə olmaq üçün gəlirdilər. Adətən hər təpənin üstündə ya bir yalnız, ya iki tənha insan olurdu. Yenə burda danışmışdı o ağaclarla. Sehirli göbələklərin təsiri ilə bəzən qorxmuş bəzən qucaqlamışdı onları.

Havada çox gözəl payız ətri varıydı. Heç vaxt düşünməzdi ki nə vaxtsa payızı arzulayacaq. Ancaq indi, ilk dəfə olaraq birdən birə payızın necə də gözəl fəsil olduğunu düşündü. Uşaq vaxtı ən sevmədiyi fəsil idi payız. Ancaq indi, ona həsrət duyurdu. Payızı və yarpaqların tökülüşünü düşünərkən içində o ağladıqdan sonra gələn boşalma və rahatlamanı hiss edirdi. Payız, ən yaxşı fəsil olmalıydı deyə düşündü. Yolun üstündəki və kənarlarda yerlərə sərilmiş ağacların göz yaşlarını, sarıdan qırmızıya doğru rəng dəyişən yarpaqlara baxdı. Payızı qucaqlamaq istəyirdi. Havada payız ətri var idi və o xoşbəxtlikdən ağlamaq istəyirdi.

Bir qərar vermişdi və onun rahatlığını yaşayırdı. Bəzən ən pis qərar belə, qərarsızlıqdan yaxşıydı. Beyin qərar vermə anlarında fəaliyyətinin pik nöqtəsinə çatırdı. Seçimlər və qərarlar beyni yorurdular. Tənbəllik və heç bir işi görməmə istəyi, ediləcək istənilən şeyə qarşı yaranan təxir etmə hissi burdan gəlirdi. Frontal lob veriləcək istənilən qərarda işə düşür və sanki bir elektronik aparat kimi qızır və yorulurdu. Qərar verilə bilinmədiyi anlarda və bir neçə ya iki seçim arasında qalındığında isə bu prosses insanda təlaş və narahatçılıq yaradırdı. Ancaq verilmiş qərar səhv belə olsa ən azından onun artıq qərarlaşdırılmış olması bir az da olsa sakitləşdirirdi beyni və neyronları. Baxmayaraq ki ağlın bir hissəsi yenə də digər seçimlərdə qalırdı, hansı ki buna görə də insan heç vaxt tam olaraq dinc ola bilməzdi faktiki olaraq. Çevrilmiş bir radio

stansiyasını ya televiziya kanalını dinləyib də digərlərini gözardı edə bilmək sağlam iradə ya da ən azından nisbətən düzgün iradə tələb edirdi. Bəlkə də buna görə Kasparov şahmatı beyin işgəncəsi adlandırırdı çünki veriləcək qərarların sayı bir yığın idi və beyin yorulurdu deyə düşündü.

Bəzi seçimləri gözü yumulu edirsən onların doğruluğuna əminsən ya da əmin olduğuna dair özünü inandırırsan. Hər şey haqqında düşünüb nəticəyə gələ və hər şeyi bilə bilməzsən ona görə bəzi şeylərə məcbur inanırsan. Doğrusuna əmin olmadan seçdiyin cavaba inanırsan ideologiyandakı boşluqları doldurmaq üçün. Məsələn deyirsən ki öldükdən sonra insan yox olur ancaq əslində isə müşahidə etməmisən. Eynilə oyaq olduğunda oyaq olduğunu bildiyin kimi bunu da doğru qəbul edirsən. Əslindəysə oyaq ikən belə bir kompyuter ya süni intellekt simulasiyasının içində olub olmadığından belə əmin ola bilməzsən.

Bir qərar vermişdi və onun rahatlığını yaşayırdı. Yaşamaq seçmək demək idi, hər anında. Hər anda bir seçim var idi. İxtiyari və qeyri-ixtiyari qərarlar toplusu. Beyin həyatda olduğu hər an qərar vermək zorundaydı. Sağolsun ki qeyri-ixtiyari olanları  beyin özü bizim yerimizə yerinə yetirirdisə də, ixtiyari olanlara birlikdə qərar verməliydik - bizi manipulasiya etməyə çalışan hisslərimizlə savaşaraq. İntuisiyalar rasionalizmə qarşı. İki yenilməz düşmən ordu. İnsanın düşüncə və qərar vermə prossesinə ən çox təsir edənlər intuisiyalar və emosiyalardır. Genlər və hisslər. İnsan tam olaraq rasional qərar verə bilməz buna görə də. O lotareyanın həmişə ona çıxma ehtimalının  normalda olduğundan daha da yüksək olduğuna inanacaq. Çünki insanların böyük çoxluğu təkamüli olaraq optimist düşüncə tərzinə meyillidir. Əks halda meşədə ac qalan ilkin insan riskə girməz və ac qalardı. Rasional düşüncə tərzinə sahib heç bir canlı bir başqasının sağlığı üçün heç vaxt müharibəyə getməzdi məsələn. Buna görə də rasional düşüncə tərzi ancaq süni intellektin düşüncə tərzi ola bilər, insanın yox.

Beynimizdə seçimlər və qərarlarla apardığımız böyük bir müharibə var. Ehtimalları bir-biri ilə ölç və ən faydalı və doğru

olanların içindən birini seç. İnduktiv və deduktiv müddəalar, mühakimələr, maksimal fayda və yorğun beyin.

Seçilən seçimlərin peşmanlığı ya da seçilməmiş olanlarda qalan ağıl. Tək şəhər seçib orda yaşamaq və bunun ən yaxşı olduğuna özünü inandırmaq. Seçimsiz yaşaya bilərdimi insan? Şərq fəlsəfəsini düşündü və Allan Watts'ın sözlərini xatırladı, *"bir buludu səhv edərkən görmüsünüzmü?"* deyirdi. Seçimlərdən özünü azad etməkdən bəhs edərkən. Bulud sadəcə gedir, seçmədən, səhv etmədən. Su kimi yaşamaq mümkün idimi? Sadəcə axmaq və qərar verməmək. Seçiləcək heç bir seçimdən peşman olmadan yaşamaq. Fikirləşmədən. Meditasiyanın beyni sakitləşdirmə və xoşbəxt etmə səbəbi bu idi doğrudan da, seçməmək və düşünməmək.

Bəzi günlər - bir çox günlər - ya da deyəsən son bir ildir, ayağını evədən çölə atası gəlməmişdi ona görə də. Çünki ayağını çölə ataraq  - ya da atmayaraq - yeni bir "mən" yaradacaqdı. Atacağı hər addım ona yeni bir yol açacaqdı və bunun ağırlığını qaldıra bilmirdi. Evdən çıxmaqdan imtina edirdi. Seçim etməkdən imtina edirdi. Ancaq evdən çıxmaqdan imtina edərək də yenə bir seçmiş etmiş olduğu üçün sinəsinə yenə varlığın dayanılmaz ağırlığı çökürdü və son çarəyə baş vururdu: uyuşdurucular, içki və digərləri. Həyatının aqibətinin onun əllərində olması fikri onu dəli edirdi. Azadlıq fikri onu dəli ediridi. Şahmat taxtasındakı piyada olmaq istəyirdi. Piyadanı idarə edən yox. Eləsi daha rahat idi.

Bəzən onu bu seçimlərdən azad edən şey psixodelik maddələr, lsd və gobekler idi. Onu sakinləşdirir və təbiətlə bir edirdilər. Bir panteistə çevrilirdi. Hər şey tanrıdır və tanrı hər şeydir. Spinozanı və stoaçıları qucaqlayırdı. Su kimi axıb getməsinə kömək edirdilər. Xoşbəxt və dinc hiss edirdi, içində olduğu situasiya bədbəxtliyini göstərsə də. Xoşbəxtliyin əsas çoxluğu içimizdədir və bizə bağlıdır fikri doğru çıxır və sakinləşirdi. Bir dərviş kimi bütün insanları başa düşür və qucaqlamaq istəyirdi. Onlara rəhmi gəlirdi.

Düşünürdü ki, insanlar xoşbəxtliyi axtarır ancaq doğrusu

xoşbəxtlik sizi tapmalıdır. Xoşbəxtlik bəlkə də dünən əqrəblər saat tam üçü göstərdiyində Washington küçəsindən keçirdi, bəlkə də bugün saat beş radələrindən yaxınlıqdakı otelin lobisində olacaq ya da bəlkə də xoşbəxtlik sabah səhər saatlarında sahildə gəzəcək. Şans yaradaraq xoşbəxt olma ehtimalını artırmaq olar, ancaq siz yenə də onun sizi tapmasını gözləməlisiniz. Xoş bir bəxtiniz olmalıdı ki xoşbəxt olasınız. Xoşbəxtlik bəlkə bir insandı, bəlkə bir kölgə, bəlkə gerçək bir xəyal ya sadəcə xəyaldan ibarət bir reallıq. Ya da bəlkə xoşbəxtlik sadəcə bir düşüncə idi.

Maviyə görə xoş-bəxtlik həyatdakı təsadüflərin kəsişmə nöqtəsiydi. Həyat bir müstəvidirsə, o müstəvidəki sonzus düz xətlər həyatdakı fərqli seçimlərin sayıdır və insan o müstəvidəki sadəcə bir nöqtədir. Hərəkət edərək digər düz xətlərlə kəsişən bir xətt yaradır insan. Seçimlərinin limitli olduğu dünyada nə qədər çox hərəkət etsə o qədər çox ehtimal yarada bilər özünə. Ona görə bir şəhərdən başqasına, bir ölkədən başqa ölkəyə, bir qadından başqa qadına, bir işdən başqa işə qaçmışdı həmişə və hamısını yarım qoymuşdu. Acgözlüyünü doyurmağa çalışmışdı. Hər nə qədər seçimlərin arxasınca qaçmaq bütün seçimləri seçə bilmədiyi üçün onu tam məmnun etmirdisə də, ən azından bu reallıqdan uzaqlaşdıraraq diqqətini dağıdmağa kömək edirdilər.

Beləcə hamı öz şansını yaradırdı. Hərəkət edərək şansını artıra bilərsən. Təsir əks təsirə bərabərdir. Nyutonun üçüncü qanunu. İstədiyini əldə etmək üçün öz şansını yaratmalı və təsadüflərin kəsişmə nöqtələrindən keçməyə çalışmalısan. Bu əziyyət tələb edir, ancaq kifayət qədər cəhd etsən, bəlkə istədiyini əldə edərsən.

Ölmək, - deyə düşündü yenidən - peşmanlığınını yaşamayacağın tək seçim ölümdür. Möhtəşəm bir hiss idi bunu düşünmək. Bir qərar verirsən və heç vaxt peşman olmursan, ehtimalı belə yoxdu. Bundan daha gözəl nə ola bilərdi? Ölümü düşünmək onu həmişə rahatlatmışdı. Bu düşüncə insana sanki istədiyi hər şeyi etmə azadlığı verirdi. Ölməyi gözə alaraq ya-

şamaq möhtəşəm bir şey idi. Necəki itirəcək heç nəyi olmayanlar itirməkdən heç vaxt qorxmazdılar, bu da elə. Başına bir silah dayanılsaydı, vur deyə biləcək qədər cəsarətli hiss edirdi o anlarda. Möhtəşəm bir hissi idi bu.

Başını qaldırıb buludlara baxdı. Xoşbəxt görünürdülər. Buludların axışında şüuraltısının hakimiyyəti altına keçdi Mavi. Baxdığı buludlar qıvrılıb qorxulu ilana çevrildilər. Hər tərəfi qaranlıq basır və qorxunc ilanın dəhşətli sarı gözləri ona baxaraq dilini oynadırdı. Sonra uşaq vaxtı təkrarlayan aralıqlarla gördüyü o yuxudakı ilana çevrilir, qapı deşiyinin içində qıvrılaraq onu izləyən ilan olurdu. Sanki bir şeylər demək istəyirdi və illərdi arxasındaydı. Bəlkə də onun əzrailiydi. Ondan qorxmadığını göstərmək üçün düz gözünün içinə baxırdı Mavi. İlan yox olur və ətrafı duman bürüyürdü. Duman səhradakı toz buluduna çevrilir və toz buludunun içindən şimal küləyini arxasına almış  bir atlı gəlirdi yəhər üstündə, başı dik və məğrur.  Atlı onun yanından keçərkən səhnə yavaşlayır, hər şey bir anlıq donur və cəngavər başını yavaşca çevirərək ona baxaraq keçirdi yanından, dəbilqəsinin içindən sadəcə gözləri görülürdü. Sanki xəyal ona bir şeylər deyir ancaq o heçnə anlamırdı.

Quru yarpaqlar arasında eşələnən kiçik bir dələnin çıxardığı səs fikrini dağıtdı. Təpəliyə çatmışdı. Qalxıb sakit və kimsəsiz bir qayanın üstünə oturdu. Ətrafda çox da kimsələr yox idi.  Yanda qayaları dələrək  qərbə doğru uzanıb gedən çay var idi. Çayın şəffaf suyunun sanki sinəsinə axtığını hiss etdi. Ətrafdakı üstü divar yazıları ilə dolu iri qayalar kiçilmiş nəhəng dağları xatırladırdılar. Hər tərəfləri rənglənmiş, üstlərinə şəkillər çəkilmiş və sloqanlar yazılmışdı. Hər təpənin ya qayanın üstündə aralıqlarla bir yalnız oturub şəhərin yüksəkdən görüntüsünü ya günbatımını izləyərdi adətən. Yada psixodelik maddələrin təsirində gənclər ağacların arasında özlərini itirib reallıqdan qaçmağa cəhd edirdilər.

Bu ağacların arasında lsd təsiri altında eqosunun öldüyü və günəşlə danışdığı günləri xatırladı. Bütün ağacları və insanları qucaqlamaq istədiyi anları. Bütün mənliyinin silinib özünü bir

bitki, təbiətin bir parçası kimi bir bütün olaraq hiss etdiyi vaxtları xatırladı. Özünü kökü olmayan bir bitki kimi hiss edirdi zaman-zaman. Yetəri qədər şüur açılsaydı əgər insan özünü bir enerjinin, bir bütünün parçası kimi hiss edə bilərdi. Sanki hamının bir ulduz tozu olduğunu hiss edə bilirdi o anlarda.

Eqo ölümü inanılmaz bir hiss idi. Beyin və insan normal gündəlik gedişat ərzində daima "mənlik" üçün vuruşur, başqaları tərəfindən fərqində olunmaq istəyir və olunmayanda fərd üzülürdü. Buna görə də yalnızlığı sevmirdik. Təkamüli olaraq olduqca sadə açıqlaması var, tək insan həyatda qala bilməzdi, başqalarına ehtiyac var idi. Yalnız qalmamaq və başqalarının sənin yanında olması üçünsə sənə ehtiyacları olmalıdır. Bacardığın nəsə bir şey ya yaxşı bir tərəfin olmalıdır. "Mənliyinin" qeydinə qalmalısan. Buna görə də insanlar təkamüli olaraq status üçün can atıb, vəzifə sahibi olmağa çalışıblar və eqoları onları həyatda tutmuşdu. Eqo, təkamülün insanı qorumaq üçün formalaşdırdığı ən böyük qoruyucu idi, o olmadan yəqin ki bir çoxları ya həyatda qalmaq üçün lazım olan savaşı verməz, sürünər ya da intihar edərdilər. Əslində elə də olmuşdu. Ölmüşdü bütün eqosuz insanlar və biz hamımız, eqoistlərin davam edən nəsilləriydik, eqoist genlərin kədərli uşaqları.

Beləcə təkamül təbii seçmə üsulu ilə eqoist olmayanları *zəifləri* – ya da *istəksizləri* – aradan çıxarmış və yalnızca ən optimal olanların, eqoistlərin nəsli davam etmişdi. Bəli, onlar ölmək istəyənlərə *zəif* ləqəbi taxmışdılar. Sanki istəmədən və bilmədən bir oyuna salınmış insanların hamısı o oyunu oynamalı və sevməliymişcəsinə, istəmədən və bilmədən doğulmuş bütün insanlardan həyatı sevmələrini gözləyirdilər. Ya da oyunu qaydalarına görə oynamayanlara *uduzmuş* adı taxmışdılar. Uduzmuş – deyə iç səsiylə kinayəli formada tələffüz etdi. Uduzmuş. Əgər müvəffəqiyyətli deyilsənsə uduzmuş sayılırdın. Bəlkə istəksiz? Hə, istəksiz. Ya da psixoloji dillə apatiya və ya fəlsəfi dillə nihil. Və ya yox. Hər nihil insan həyata qarşı apatiya hiss etməyə bilərdi. Ya da hər apatiya vəziyyətindəki zehin nihilist olmaya bilərdi. Ancaq heç şübhəsiz, bu ikisinin

kəsişməsi dərin bir dibə vurmaydı. Apatiya – iştahsızlıq və nihil- mənasızlıq və heçlik vəziyyətinin kəsişməsi. Həyata qarşı dərin bir laqeyidlik, etinasızlıq və istəksizlik.

Uduzmuş deyə təkrar içdən-içə səsləndi. Sanki qələbə ya kapitalizmin müvəffəqiyyət anlayışı arzusunda olan biri varmışcasına. Yoxsa var idi də özündənmi gizlədirdi? Bəlkə də istəyirdi Eqoist genlərin yetirməsiydi o nə də olsa. Qələbə, istər kapitalist mənada istərsə normal müvəffəqiyyət, status sahibliyi hər insanın içində olan istək idi. Sadəcə bu istək görünüşə görə kifayət qədər güclü deyildi. Bir şeyləri əldə etmə istəyi hamıda böyük ola bilər, ancaq o istəyi əldə etmək üçün səni hərəkətə gətirən mexanizm, həvəs-motivasiya hamıda çox olmur. Bir başqasını əldə etdiyi şeylər üçün qısqanan insan o insanla özü arasındakı motivasiya fərqini nəzərə almadan kefini pozur. Həvəsinin faydalı iş əmsalının aşağı olduğunu gözdən qaçırır.

Mavi eqoist deyildi. Beyni isə o qədər eqoist idi ki kibirində boğulurdu və bu Mavini dəli edirdi. Sıyrılıb qabığını dəyişən ilan kimi çıxa bilsəydi kaş istəmədiyi bədənindən ya beynindən. Əslində beyni olmasa çox dinc yaşaya bilərdi bəlkə də, amma oradaydı, düz başının içində. Lənətə gələsi boz maddə.

O və onun kimi insanlar təkamülün nöqsanıydı açıq-aşkar deyə düşündü uzaqlardan keçən bir təyyarəni izləyərkən. Bəzən özü-özünə təbəssüm edirdi, əgər həyatını intiharla sonlandırsa, təkamülü haqlı çıxaracaqdı. Zəif bənd olaraq aradan çıxmış olacaqdı. Bəzən qüruruna toxunurdu bu və inciniyirdi. Sinəsində bir şeylərin dağıldığını hiss edirdi sanki. Sanki içində beş mərtəbəli bir bina var idi və gurultuyla yerə enirdi bunu hər düşündüyündə. Ətrafı toz basırdı sinəsində.

Ancaq ölməsəydi belə, genlərini heç vaxt ötürməyəcəkdi, bundan əmin idi, heç vaxt törəməyəcəkdi, uşağı olmayacaqdı. İntihar etməsə belə heç vaxt bir övladı olmayacağı üçün yalnız və kimsəsiz olaraq ölüb gedərək təkamülü necə haqlı çıxaracağını düşündü. Sadəcə bioloji darvinizmi deyil həm də sosial darvinizmi də necə də haqlı çıxardığını düşündü indiki həyatına baxaraq. Heç vaxt status ya vəzifə davası verməmiş-

di və verməyəcəkdi də. Darvinizm sanki onu ayaqları altına almış əzirdi, birinci sol – bioloji ayağını basırdı üstünə, sonra sağ – sosial ayağını basırdı. Cəhənnəm olsun hər ikisi, sanki vecinəydi deyə iç keçirdi. Məsələ çox sadəydi, həyatda qalmaq üçün əziyyətini çəkmək lazım idi. Ən sadəsi, qida üçün belə bir əziyyət çəkilməli ya hansısa işdə işləlməliydi. Və o bunu rədd edirdi. Məsələni qəlizləşdirən, bunu başa düşməyən insanların olmasıydı. O dar beyinləri ilə ətrafda dolaşır və sanki onlarınkindən başqa heç cür anlayış ola bilməzmiş kimi intihar edən insanları anlamadıqlarını deyirdilər. Təkamülün çiçək uşaqları, ən güclü bəndləri. Genlərin ən yaxşı əhliləşdirmiş olduğu kölələr.

Bəzən onlara kin duyur, sonra özünü sakitləşdirirdi. Onların heç bir günahı yox idi zira. Danışan genlər olaraq baxırdı onlara. Özündən böyük ağzı olan tək hüceyrəli organizmlər. "Axı insan nə olur olsun, necə özünü öldürmək istəyə bilər anlamıram?!!" deyən axmaq və eqoist genlər.

Sonra təkrar lsd'nin yaşatdığı eqo ölümü vaxtlarını xatırladı. Onu həyatda tutan bir qramlıq istək var idisə, o da eqo ölümü ilə yox olurdu, bir bitki kimi dolanırı ətrafda. O an heç tərəddüd etmədən özünü öldürə bilərdi doğru zamanda ölümü düşünsəydi əgər. Məsələn hündür bir şəlalənin tam başında durmuş olsaydı, qollarını quş kimi açar və özünü küləyin qollarına buraxardı, bunu ölmək üçün yox, küləyin onu başı boş bir yarpaq kimi hara gəldi aparması üçün də edə bilərdi. Onu tərəddüdə salacaq bir eqosu olmayacaqdı sağ cibində. Eqo ölümünün bu təsiri bütün insanlarda eyni olmaya bilərdi, ancaq o zaman-zaman ölüm düşüncəsinin verdiyi o yüngüllüyü hiss etmişdi.

İnsan, ölümü düşündüyü zaman, deyək ki bu dəqiqə özümü öldürəcəm dediyi anda, gələcəkdə qaçıracağı anları düşünür, indidə ikən *gələcək* üçün darıxır. Gələcək. Genlərə yüklənmiş tək misiya. "Gedə biliyiniz qədər gələcəyə gedin" deyə fısıldamışdı onların qulağına ana təbiət. Bəs sonra? Heç nə.

Gələcək üçün darıxma təşvişi və indi ölsəm gələcəyi qaçıracam hissi yox olurdu sanki eqo ölümü yaşadığı anlarda.

Öləcəmsə öləcəm. Vəssalam. Necə ki indi varam, birazdan olmayacam və bu heçnəyi dəyişməyəcək. Təbiətin balansı pozulmayacaq. Hər gün ayaq altında əzilərək ölən milyardlarda bitki dənələrindən sadəcə bir başqası kimi, yox olub qurumağa üz tutacam. Vəssalam. Bu qədər asan və bu qədər çətin.

O an ölmək istəsən, içində səninlə davaya qalxacaq olan heç bir xudbin və mənfəətgüdən eqon olmayacaqdı. İçində "Olmaz! Yaşamalısan!" deyə qışqıran bir xudbin olmayacaqdı. Bu anlarda fəlsəfənin ilk sualı eqoist genləri çaşdırırdı yenə: Niyə? Niyə yaşamalıyam?

Arxasından keçən üç beş gəncdən yayılan lavanda qoxusu fikrini dağıdıb onu indidən keçmişə apardı. Neyronlar keçmişdə lavanda iylənilmiş bütün xatirələrin yaddaşda saxlanıldığı hissələrə hücum edərək impuls atəşinə tutdular və lənət darıxma hissi işə düşdü. Sinəsi göynədi. Fikrini dağıtmaq üçün hər şeyi etdi və bir siqaret yandırdı.

Ancaq nə olur olsun deyə düşündü, özünü öldürsə belə, bunu heç bir maddənin təsirində olmadan qərar verərək etməliydi. Əgər ölməyə qərar versəydi, bəlkə ölüm anındakı psixoloji ağrıdan qurtulmaq üçün eqo ölümü yaşatmaq istəyə bilərdi özünə və sonra intihar edərdi.

Eqo ölümünün qırtlağına qədər dayandığı anlarda özünə nifrət etmişdi bəzən, o anları xatırladı. İçində "mən" kəliməsi keçən bütün cümlələr dodaqlarına qədər gəlmiş ancaq ordan çıxa bilməmişdilər. Yanında birilərinin olduğu və onlarla ünsiyyətdə olduğu anlarda deməyə hazırlaşdığı hər cümləni sanki qusarkən insanın refleksiv olaraq əlini ağzına apardığı kimi dodaqlarındaca saxlamış və deməmişdi. Dayanıb düşünmdüşdü. Niyə bu cümləni demə ehtiyacı hiss etmişdi? Məsələn divardakı bir rəsmi göstərərək "Necədir? *Mən* çəkmişəm" demə anında, eqonun özünü ortalığa ataraq işlətdiyi *mən* sözünə nifrət etmişdi. Sanki bir mələk ya dərviş ədasıyla qarşı tərəfi nə incidəcək, nə özünü ona göstərəcək, nə də eqosunu oxşayacaq heç nə deməməyə və etməməyə çalışmışdı. Bədənin və dilin eləcə də insan xarakterinin əzələ yaddaşı tək əzbərləmiş

olduğu hər tərəfindən eqo axan o hərəkətlər və kəlimələrin üst başından necə də axdığını görmüş və özündən tiksinmişdi. Qeyd-şərtsiz, qarşılıq gözləmədən özünü unudaraq sadəcə və sacəcə qarşı tərəfi düşünən bir altruistə, fədəkara çevirirdi eqo ölümü insanı.

Birdən daha əvvəl heç baxmadığı bir çərçivədən baxdı intiharına: Qəribə bir formada Eqoistlik, həm insanın intiharına əngəl ola bilərdi, həm də intiharın səbəbi məhz elə eqoistliyin özü ola bilərdi. İnsan intihar edir çünki eqosu istədiyi həyatı yaşamır, amma həm də insan intihar edir çünki eqosu həm də yaşamaq istəyir. Əslində intihar edənlər həm ən eqoistlər həm də ən az eqoistlərdir kimi bir paradoks yaranır. O zaman eqo ölümü yaşanan anlar insanın intihara həm ən yaxın həm də ən uzaq olduğu andır.

Parçalanmaqda olan bir buludun son çırpınışlarında itdi baxışları. Və ölümü bu qədər düşünmüş olmasından olacaqdı ki, içində qışqırmaqda olan və boğazına dirənmiş o kiçik genlərin gurultularını eşitdi. Onu qorxutmağa çalışırdılar. Necə də aciz idilər deyə düşündü. Ölməmək üçün yalvarırdılar. Onlara acıdı. Və əllərindəki son təhdidləri diqqətini çəkdi: ölümdən sonrakı həyat fikri ilə qorxudurdular onu.

Birinci dəfə idi ki ölümü düşündüyü anda, tərəddüd etmişdi bir anlıq, daha əvvəl, başına silah dayanmış olsaydı əgər həmişə tətiyin çəkilməsinə can atardısa, bu dəfə birdən tərəddüd etdi, ya burda bitməzsə deyə düşündü. Bir anlıq həm qorxmuş həm də çaşmışdı. Daha əvvəl heç bu barədə tərəddüd etməmişdi, təəccübləndi. Və içində həqiqətəndə o qorxunun özünə yer etdiyini gördü, içində sanki bir şeylər ya burda bitməzsə ya gerisi varsa deyə onu qorxudurdu. "Əlbətdəki" deyə təbəssüm etdi uzaqlardakı mənzərəni izləyərək. Genlər əllərindəki son kartlarını oynayırdılar, əlbətdəki. Onu özünü öldürdükdən sonra belə başqa bir dünyanın olması fikri ilə qorxutmağa çalışırdılar.

Ölümdən sonrakı həyat düşüncəsi genlərin psixoloji müdafiə mexanizması olmalıydı. Və möhtəşəm bir mexanizm olduğu bariz idi. İnkar edilməzdi. Milyardlarca insanı inandırmağa

nail olmuşdular nəticədə. Bir anlıq Mavi də tələyə düşürdü az qala deyə düşündü. Genlər və beyin fərdi həyatda saxlayacaq hər üsula əl atacaq qədər hiyləgər idilər. Genlərin beyinə təzyiqi ilə beyin şah əsəri olan sonrakı dünya mifini uydurmuşdu. Bu beynin şahəsəri olmalıydı. Yaratdığı ən böyük şahəsərlərdən biri olan tanrı belə bunun yanında sönük qalırdı.

Təkamülün iziylə addım-addım geriyə gedək: Əgər məqsədi ölməmək və nə olursa olsun cütləşib çoxalaraq özünün daha yaxşı formasını yaradıb gələcəyə göndərəcək şüurlu bir orqanizm yaransaydı, bu orqanizmin sıxıntıya ya bezginliyə düşüb özünü öldürməsinin qarşısı necə alına bilinərdi? Onu, özünü öldürməklə ruhunu öldürə bilməyəcəyini, ya da daha başqa bir dillə desək, başqa bir həyata keçəcəyi yalanına inandıraraq. Beləcə bu o şüurlu canlının əl qolunu bağlayacaqdı. Mükəmməl bir psoxoloji müdafiə mexanizmasıydı deyə düşündü Mavi. Bu fərziyyə, sözsüz ki, Mavinin inandığı, ya da bəlkə də şübhəylə yanaşsa belə, ən azından ən yüksək ehtimal verdiyi doğru idi, mütləq doğru deyil. Bəlkə də Mavini sonrakı dünyanın olduğuna inandırmağa çalışan genləri yox idi, əksinə, ona bunun genlərin psixoloji müdafiə mexanizması olduğunu inandırmağa çalışan içindəki ölüm tərəfdarı kimsələr var idi. Bəlkə də Mavi ölümə can atdığı üçün, bu nəzəriyyəni özünü sonrakı həyatın olmadığına inandırmaq üçün uydurmuşdu. Kimə və nəyə inanacağından artıq əmin ola bilmirdi.

Ölümü haqqında verdiyi qərardan tam əmin olmadığı üçün içindəkilərlə təkrar höcət etməyə başladı. Bəlkə də püşk atmalıydı deyə düşündü. Sonra da tanıdığı hansı filosofun intihar barədə onla eyni qərarda və əks qərarda olacağını düşündü və özü üçün saymağa başladı. Sokrat, Konfutsi, Şopenhaur, Seneca və Stoaçılar onun tərəfindəydilər və əgər fərd istəmədiyi, sevmədiyi ya çətin bir həyat yaşayırsa öz canını ala bilər deyirdilər. Nietzsche, Kamyu, Kant, Hobbes, Locke və digərləri isə daha çox intihar etməməsi gərəkdiyini müdafiə edənlər idilər. Aralarında ən çox Kant, Hobbes və Locke kimi intiharın əxlaqi olmadığını müdafiə edənlərə nifrət edirdi. Kantın əxlaqi

kateqorik imperativinə görə fərd dünyada hamının etməsinə razı olmadığı şeyləri etməməliydi hətta intiharı belə. Ölməkdə olan biri üçün axmaqca səslənirdi. Kamyu'nun arqumentləri də onun üçün çox da güclü səslənmirdi, ümumiyyətlə son vaxtlar Kamyu'nu nə vaxt düşünsə bir qıcıqlanma hiss edirdi ona qarşı, gizli bir kin ya da bəlkə bir qısqanma. Ya da onda özünü və riyakarlığını görürdü və buna görə nifrət etməyə başlayırdı. Nietzsche, intihar etdiyi üçün ona qəzəblənərdi deyə düşündü. Ağrılara dözmədiyi və savaşmadığı üçün.

"Həyat uzun bir xəstəlikdir, ölüm isə insana bəxş edilmiş ən böyük nemətdir" deyirdi Sokrat və Nietzsche buna görə ona əsəbləşirdi. Onlardan hansı həyatda daha çox əzab çəkmişdi? Hansının mental sağlığı daha güclüydü? İnsanın həyatda qalaraq savaşıb öz xislətini və beyin kimyasını, düşüncə formasını dəyişməsi nə dərəcə mümkündür?

Bütün cavabsız sualları bir kənara qoyub insan psixologiyasının dərinliyinə enərək bir sual verdi Mavi: əgər bütün insanları onları "özləri" edən genləri, böyüdükləri mühit, təcrübələri və içində olduqları situasiyalarıdırsa və bütün bunlar unikaldırsa və hamınının beynindəki hormonlarının balansı az da olsa fərqlidirsə, onda necə yaşamaq, intihar etmək ya etməməklə bağlı hər hansısa məsləhət universal ola bilərmi? Hər şey kişidən kişiyə nisbi deyilmi? Kierkegaardın deyimiylə, həqiqət subyektiv deyilmi?

Əgər hərhansısa məsələ barədəki məsləhət və fəlsəfə universal deyilsə, Albert Kamyu məsələn, bir insanın intihar edib etməməli olduğuna necə qərar verə bilər? Dünyaya sadəcə öz pəncərəsindən baxaraq? Əgər fərdlər unikal və həqiqət subyektivdirsə, Buddanın ya Nietzsche'nin fəlsəfəsi bütün fərdlər üzərində müvəffəqiyyətli ola bilərmi?

Ya da bəlkə də həqiqət sadəcə praqmatistdir.

Ayaqları olmayan əlil biri məsələn ya qalıcı xəstəliyə, qüsura sahib biri intihar etməyi düşünürsə qalıb savaşmalı və ağrılarınamı dözməlidir? Yoxsa Kamyu sadəcə fikirləri ilə kimlərinsə ölümünə səbəb olmaq istəməyərək nikbinliyinimi

qoruyurdu? Bəlkə də sadəcə özünü razı salmağa çalışırdı. Əgər şikəst, qalıcı xəstəliyi olan insanların intiharı ilə razılaşsaq onda əqli qüsur, major depresiya ya bipolar pozuntu kimi ciddi psixoloji xəstəliklərə sahib insanların intiharı ilə də razılaşarıq. Əgər major depresiyə xəstəliyinə sahib insanların intiharı ilə razıyıqsa onda ortaya Sorites ya Eubulides paradoksu çıxır: major depresiya xəstəliyi yaşayan insanı daha aşağı səviyyəli depresiya xəstəsindən nə ayırır? Və daha az depresiya xəstəliyi olan insanı arabir depresiyalar keçirən normal insandan nə ayırır? Hansı nöqtədə biz qərar veririk ki kişinin ağrısı çoxdur ya az? İntihar edə bilər yoxsa yox?

Nikbinliyi cibimizə, papağımızı qabağımıza qoyub cavab verməliyik: intihar, hər insanın haqqı və qurtuluş yoludur. İntiharı dəstəkləyən filosoflar da bunu deyirdilər, əgər insanın həyatı xoşbəxtlikdən uzaq və kədər içində keçirsə o zaman canını almasında bir problem görmürdülər.

Bütün bunlardan bir nəticəyə gəldi Mavi, nə heç bir filosof dünyanı tam başa düşüb şərh edə bilər, nə də heç birinin fəlsəfəsini bütün insanlara aid etmək olar. Çünki bütün həyatları yaşamayıblar, bütün seçimləri dəyərləndirib təcrübə etməyiblər və böyük ehtimal bir çoxu bədbəxt olublar, ona görə də xoşbəxt insana ya xoşbəxt həyata onların analizləri tətbiq edilə bilməz. Təkcə bədbəxt insan həyatındakı bədbəxtliyi analiz etməyə və nəyin, niyə, necə olduğunu irdələməyə başlayır. Xoşbəxt insan çox da baş yormur nə, necə olsa yaxşı olardı deyə, o sadəcə su kimi öz həyatını yaşayır. Bədbəxt isə öz girdabında boğularaq keçmişdə atmış olduğu addımları ya indi atmaqda olduqlarını analiz edir və mənasız bir bəhanələr yığının içində boğulur. Bunu etsəm yaxşı olardı bunu etməsəm pis olardı və sair.

"Ümumiyyətlə xoşbəxt insan varmı?" deyə düşündü Mavi. Ya xoşbəxt insan yoxdur ya da "xoşbəxt insan yoxdur və xoşbəxtlik keçicidir" frazaları bədbəxt insanın sığındığı yeganə təskinlikdir. Xoşbəxt isnanlar hardadırlar? Əgər bədbəxlərdən soruşsan sənə onların kimlər olduğunu və harda olduqlarını

göstərəcəklər ancaq gedib o xoşbəxt sayılanlardan soruşsan onlar xoşbəxt olduqlarını inkar edəcəklər. Çünki insan doyumsuzdur ya da hərənin dərdi özünə böyükdür. Yenə də, ortada mütləq olmasa da nisbi bir xoşbəxtlik anlayışının olduğu danılmazdır və bəzi insanlar nisbi də olsa xoşbəxtdirlər. Dinc insanlar da var, xoşbəxtlik arxasınca qaçmırlar. Sakit təbiətli və rahatdırlar.  Kasıbın ya bədbəxtin özünə təsəlli verdiyi "nə olursa olsun hamı həmişə əzab çəkəcək" kimi fəlsəfələr tam olmasa da yarı-yanılmadan ibarətdirlər deyə düşündü Mavi.

Paketi çıxarıb bir siqaret daha yandırdı. Yanında içiləcək bir şeylər arzuladı. Gün batımı bənövşəyi rəngə bürüyürdü uzaqlardakı səmanı. Yorğun şəhərin axşam işıqlarına baxdı. Təpənin aşağısından böyük magistral keçirdi. Daimi olaraq keçən maşınların yaratdığı səs frekansları diqqətini dağıdaraq yola cəlb etdi. Baxışları bir neçə saniyə hərəkətsiz olaraq magistralı süzdü. Yolun ona yaxın olan tərəfindən nəqliyyət sağa doğru axırdı, digər tərəfdən isə sola doğru. Yuxarıdan maşınların yaratdıqları işıqları aydın görmək olurdu. Sola doğru gedən maşınların arxalarındakı qırmızı işıqlara, sonraysa sağa doğru gələn maşınların qabaqlarındakı ağ işıqlara baxdı. Başını sağa çevirdikdə isə sağdan gələn eyni maşınların ağ və sağa gedən maşınların arxadakı qırmızı işıqlarına baxdı. Qəribə bir şəkildə bu ona şeytan və mələk, pis və yaxşını xatırlatdı. Prespektiv dəyişdirildiyi zaman eyni maşınaların həm qırmızı həm də ağ işıqlara sahib olduqlarını görmək mümkün idi. Bir insanın içində ağ və qaranın, pis və yaxşının birləşməsi kimi. Bir insanın həyatında yaxşı və pis günlərin iç-içə yoğrulmuş olması kimi. Yin və yang kimi. Gözyaşının həm sevinc həm kədəri təmsil etməsi kimi.

Başqa bir təyyarə daha diqqətini dağıtdı. Qarşısındakı geniş mənzərədən şəhərə enib qalxan bütün təyyarələri görmək olurdu. Həmin təyyarələri izləməyi heç sevmirdi, xüsusilə də şərqə doğru gedənlərini. Ölkədən çıxma qadağası səbəbilə başqa bir ölkəyə ya öz ölkəsinə gedən heç bir təyyarənin içində ola bilməzdi və bu onu dəli edirdi. O təyyarələrin içindəki hamını qısqanırdı. Getməyə bu qədər alışmış biri üçün hansısa

ölkədən çıxma qadağasının olması ölüm əmrinə bərabər idi. Ümumiyyətlə ölkə içi belə olsa harasa gedən bütün təyyarələrə təşvişlə baxırdı həmişə, çünki hamısının içində ola bilərdi və sadəcə birini seçmə düşüncəsi onu məhv edirdi. Təyyarə, qatar və şəhərlərarası avtobus stansiyalarında özünü pis hiss edirdi. İçindəki getmə təlaşı baş qaldırırdı. Şərqə doğru uçan bir təyyarə daha gördü və sonra özünə xatırlatdı: şərqə baxmaq qadağandır. Xroniki nostalgiyaya səbəb ola bilər.

Birdən yenə şərqdə yaşamış olduğu ölkələrdən birini və ilk ekstazi atdığı günü xatırladı. O günü və o gün ki xoşbəxtliyini xatırladı, sanki heç vaxt üzülməyəcək kimi hiss etmişdi, sanki bir daha kefini heçnə pozmayacaqmış kimi hiss etmişdi. Sonra yenə durduq yerə keçmişdən kadrlar xatırlamağa başladı,

İlk öpüş
İlk kokain
İlk sevişmə
İlk dodaqlar
İlk qələbəsini
Və ilk məğlubiyyətini xatırladı.

Uşaqkən getdikləri ilk meşəni xatırladı,
Meşədə çimdiyi ilk soyuq çayı xatırladı,
İlikləri üşüdü.
İlk sərxoş olduğu anı,
Və ilk kefli olduğu anı xatırladı.
Göbələklərin ilk hallusinasiyalarını xatırladı.
İlk yediyi yumruğu xatırladı,
Və ilk vurduğu yumruğu.

İlk qəzəbini,
İlk mübarizəsini,
İlk intiqamını,
İlk xəyalını xatırladı.
Buludları ilk fərq etdiyi günü xatırladı.

Sonra xatırlamaması gərəkdiyini xatırladı. Xatırlamağın ona qadağan olduğunu xatırladı. Xatirələrin üzünə qondurmuş olduğu təbəssümün yerini lənət bir kədər aldı.

Bütün bu düşüncələri bir dəqiqəlik arxa cibinə qoyub düşünməmək və xatırlamamaq üçün başını silkələdi. Geriyə, soyuq daşın üstünə uzandı. Təkrar qalxdı. Düşünməmək və xatırlamamaq,  ona çox uzaq kəlimələr idi. Bunun üçün ya içməli ya çəkməli ya sevişməliydi. Kaşki "ya da yatmalıydı" deyə bilsəydi düşə düşündü ancaq yox, yatarkən də şüurüstünün yerinə şüuraltı düşünür və bu onu daha da yorurdu bəzi gecələr. Bəlkə də bara gedib biraz içməliydi deyə düşündü. Uzun müddətdi özündəydi, yəni ən azından bugün səhərdən etibarən. Və özündə olduğu anlar, ən çətinləriydi, ya da ölümə ən yaxın anları.

* * *

Getmək üçün ayağa durdu. Bayaq yanından keçmiş yeniyetmələri gördü ondan bir qədər aralıda oturan. Hansısa film barədə qızğın müzakirə edirdilər.

Gəncliklərini qısqandı. Artıq ona maraqsız gəlirdi. Ədəbiyyat, filmlər ya başqa nəsə. Təkrar və təkrar eyni şeylər. İndiki nəsil əvvəlki insanların təsəvvür belə edəcəyindən daha çox film və kitabda fərqli hekayələr görmüşdü ancaq artıq hamısı təkrar və təkrar edirdi. Fərqli filmlər və kitablar ancaq bənzər sujetin fərqli formaları idi. Əlbətdəki bunlar sadəcə yeniyetmələr üçün hələ də həyəcanlı idi, çünki onlar dünya ilə yeni tanışırdılar və hər şey onlar üçün yeni idi. Onları qısqanırdı Mavi ancaq bəzən eləleriylə söhbət edə bilmirdi, onların entuziazmına cavab verə bilmirdi. Həyəcanla yeni oxuduğu ya izlədiyi filmdən bəhs edən gənc. Yeni heçnə qalmamışdı. Həyatının elə bir nöqtəsindəydi ki artıq qəbul edirdi ki insan bir yerdən sonra hər şeyi təkrar etməyə başlayır. Heç vaxt çox sevsə belə eyni filmi təkrar izləyə bilmirdi o. Təkrarı sevmirdi və yenilik aşiqiydi. Ancaq bir nöqtədən sonra ayılırsan ki dünyada mahiyyət etibarı ilə sənə maraqlı heçnə qalmayıb və

keçmiş sevdiklərinə bürünürsən. Təkrar oxuyursan eyni kitabları bəzən. Eyni insanlarla daha tez-tez görüşməyə başlayırsan. Qadınlara olan ehtirası belə təkrarın qurbanı olurdu. Bir nöqtədən sonra fərqli qadınlar belə eyniləşir və maraqsızlaşırdı. Əsas da media dövründə insanlar, eləcə də qadınlar bir-birinin təkrarı, surəti kimiydilər. Media insanlara o qədər təsir etmişdi ki fikirləri, hətta əl hərəkətləri belə hansısa məşhuru ya məşhur ideyanı təqlid edirdi. Orijinal ruhlu insanlar gizlənmişdilər və ruhlarının pozulmasından qorxurdular sanki.

Geri dönüb getməyə hazırlaşarkən solda, ondan on beş ya iyirmi metr məsafədə oturan iyirmili yaşlardakı gəncə ilişdi gözləri. Biraz da diqqətli baxdı və onu tanıdı. Aradakı iyirmi otuz illik fərqə baxmayaraq onu şəkillərdən xatırladığı qədərilə tanımağa müvəffəq ola bilmişdi. Yanına doğru yeridi. Gənc oturub şəhəri izləyirdi. Yaxınlaşdı Mavi. Əlini cibinə salıb siqaret paketini tutdu və gəncin yanındaca dayanıb səsləndi,

- Siqaretin olmaz?

- Aha, var, bir dəqiqə - deyib gənc əlini cibinə atdı – buyur – deyib Maviya doğru uzatdı siqareti və davam etdi – son həftələrimdi düzü, buraxacam bir dəfəlik, əgər istəsən yenə verə bilərəm, siqaretimin azalmağı mənə də sərf edir, daha az çəkirəm. Əslində bu il Universiteti bitirdikdən sonra buraxacaqdım ancaq qərar verdim ki elə indidən buraxım.

Gənc, Mavini tanımamışdı.

- 55 yaşında səhhət problemlərin ortaya çıxana qədər siqareti heç vaxt buraxmayacaqsan və hüquq fakultəsini heç vaxt bitirə bilməyəcəksən – dedi Mavi şəhər işıqlarını izləyərək siqareti dodaqları arasına qoyub yandırarkən.

- Hü..hüquq oxuduğumu hardan bilirsən?- deyə kəkələdi gənc Maviyə təəccüblə baxaraq.

- Haqqında sənin bildiyindən daha çox şey bilirəm deyək. Həm oxuyub həm də axşama qədər işləyib kiçik bacılarını tək böyütdüyün kimi məsələn.

- Başa düşmürəm.

- Başa düşməyinə ehtiyac yoxdur, istəsən belə başa düşə bilməzsən. Ancaq istəsən əgər, sənə bir məsələdə köməyim dəyə bilər.

- Nə məsələsi?

- Bir gün birinin ölümünə səbəb olacaqsan və bu həyatını alt-üst edəcək. Bunun qarşısını əgər dediklərimi etsən, ala bilərsən.

- Mən? Mən birinin ölümünə necə səbəb ola bilərəm? Niyə səbəb olum?

- Böyük qardaşının 40cı ad günündə artıqlamasıyla sərxoş olacaqsan və içki bitdiyi üçün təkrar almağa mağazaya getmə qərarı verdiyində evdəki hamı getməməyini məsləhət görəcək. Sən inkar edəcəksən və özün sürmək istəyəcəksən maşını. Böyük qardaşın məcbur qalıb səninlə gələcək. Qırmızı işıqda dayanmayıb keçərkən sağ tərəfdən bir maşın sürətlə sizə çarpacaq və qardaşın ordaca keçinəcək. Özünü heç vaxt bağışlamayacaq və içkiyə daha da çox bağlanacaqsan. Bədbəxt bir həyatın olacaq və hamı sənə qardaşının ölümünə səbəb olduğun üçün nifrət edəcək. Nə olur olsun, o ad gününə getmə. Gedib də içməyəcəyini ya sürməyəcəyini düşünürsənsə, yanılırsan.

- Nə danışırsan sən? Hansısa narkotik maddənin təsiri altındasan hə?

- Sənin səbəb olacağın ölümləri danışıram.

- “Ölümləri?” Başqa da var yəni?

- Aha.

- Kim?

Bir anlıq dayandı Mavi. Söhbəti davam etdirib etdirməmə mövzusunda əmin deyildi. Əslində illərcə bu anı gözləmişdi deyə düşündü, tərəddüdünü bir kənara qoyub cavab verdi.

- Səncə bütün insanların ölmələrindəki əsas səbəb nədir?

- Necə bəyəm? Qocaldıqları üçün?

- Bu cavab özünü öldürəcək olan insanların fəaliyyətinin səbəbini izah etmir.

- Özünü öldürmək? Axı o başqa məsələdir, o zəiflik və ax-

maqlıqdan iləri gəlir. Bütün ölümlərin səbəbini birləşdirəcək bir səbəb tapa bilməzsən.

Təbəssüm etdi Mavi, cibindəki paketi çıxarıb qəzəb və kinin köməyiylə bir siqaret daha yandırdı. Və gəncin gözlərinin içinə baxdı;

- Heç dəyişməmisən. Daha doğrusu, Heç dəyişməyəcəksən.

- Sənin siqaretin var idi?

- Maşın qəzası keçirərək ölən beş yaşındakı məsum uşaq ilə qocalaraq ölən yaşlı bir poçtalyonu, özünü öldürən sənin deyiminlə desək *zəif ya axmaq* ilə düşmən gülləsinə qurban gedən bir gənci, ya da təcavüz edilərək öldürüləcək olan bir qızın ölümlərini birləşdirən tək və vacib sadəcə bir səbəb var.

- Aha, nədir o?

- Doğulmuş olmaları. Birinin onları doğmuş olmaları. Doğulan hər canlı öləcəkdir. Başqa çərçivədən baxsaq əgər, ölümlərinin ilkin günahkarlarının onları doğan valideyinlərininn olduğunu görərik.

- Nə?! Bu çox səfehcə səslənir.

- Heç dəyişməyəcəksən. Sənin üçün elə səsləndiyini bilirəm. Elə ona görə də, mənim ölümümə də səbəb olacaqsan.

- Sənin ölümünəmi səbəb olacam?

- Bəli.

- Sən ağlını qaçırtmısan.

- Bəlkə də. Bəlkə də buna görə özümü öldürəcəm. Ancaq hər iki ehtimalda, həm ağlımı itirməyimin həm özümü öldürməyimin ilkin səbəbkarı sən olaraq qalacaqsan.

- Mən? Niyə mən axı?!

- Başa düşmürsən ya başa düşmək istəmirsən? Sənə verəcəyin cavabını bildiyim bir sual verim, təkrar dünyaya gəlmə şansın olsaydı və bu seçimi sənə buraxsaydılar təkrar doğulmaq istəyərdin?

- Əlbətdə ki hə.

- Dediyim kimi heç dəyişməyəcəksən. Mən ancaq, doğulmaq istəməzdim başa düşürsən? İndi olmazın əzabını çəkirəm.

Həm yaşamaq istəyir amma həm də yaşaya bilmirəm. Özümü ən ağrısız hansı yolla öldürə biləcəyimin yollarını axtarıram. Təxmin et səncə niyə? Çünki iki gənc sevgili birləşib və sonrasını və olacaqları heç düşünmədən məni yoxdan peydahlayıblar. Üstəlik sanki çox da müqəddəs bir iş görüblərmiş kimi mənimlə fəxr ediblər. Bir oyuncaq və kölədən başqa heçnə olmamışam halbuki. Sənə deyəcəyim heç bir söz, heçnəyi dəyişməyəcək. Özümü boşuna yoruram, heç vaxt dəyişməyəcəksən.

- Niyə özünü öldürmək istəyirsən? Dərdin nədir? De, bəlkə bir məsləhətim toxundu? Nə ola bilər ki bir insanın dərdi bu qədər böyük? Yaşamaq bu qədər çətin deyil, özünə gəl biraz.

- Sən? Sən bu həyatda dərdləşmək istədiyim ən son insansan. Və məsləhətlərinə gəlincə, onları vaxtı gələndə kifayət qədər dinlətdirəcəksən sevimli kölənə, səndən məsləhət almaq fikrim yoxdur artıq. İndiki situasiyada, məndən daha kiçik olan sənsən, biraz da sən mənə qulaq as. Qardaşının ad günündə heç kim ölməyəcək, sadəcə ora getməyinin qarşısını almaq üçün elə deyirdim. Ancaq bir ölümün toxumu atılacaq, orda məni peydahlayacağın qadınla tanışacaqsan, o lənət gecədə. Vecimə də deyil, istəyirsən get, istəyirsən doğ. Nə istəyirsən et. Ümid edirəm fertilizasiyanın nəticəsində trilyonda bir ehtimalla yenidən eyni dna'nı peydahlamazsız. Ya da əgər determinizm yenə öz sözünü deyəcəksə də, bəxtimə küsməliyəm. Nəysə, qulaq as, sənə pis bir xəbərim var, genlərin mənimlə birlikdə məzara gedəcək və artmayacaq. Sənin etdiyin səhvi heç vaxt etməyəcəm və uşaq sahibi olmayacam, yaşasam belə. O müqəddəs günahla batırmayacam əlimi. Ataların günahlarını uşaqları çəkər deyirdi ya incil ya Şekspir, mən günahlarımı kiminsə çəkməsinə icazə verməyəcəm. Sənə və sevgilinə gələcək sevişmələrinizdə uğurlar, ümid edirəm özünüzə oxşayan birilərini peydahlamağa nail olarsınız heç olmasa birlikdə xoşbəxt olacağınız. Xəstə və yazıq bacımın ölümü belə sizə onun çəkdiyi əziyyətlərin səbəbkarının siz olduğunu başa sala bilməyəcək. Onsuz da bəlkə də xəstə olduğunu bilsəydiniz belə doğumdan əvvəl,

onu yenə də tanrının bir neməti adlandırıb doğardınız yaşayacağı əzabları düşünmədən belə.

Dedi və ordan uzaqlaşmağa başladı Mavi. İti addımlarla. Gənc arxadan onu səsləyirdi, "Hey, getmə, dayan bir dəqiqə, bura gəl!" deyə səslədi onu bir neçə dəfə. Mavi arxaya belə baxmadan addımlarını itiləşdirdi və uzaqlaşdı ordan. Yanından yavaş addımlarla keçən bir kor kişinin baxışları diqqətini dağıtdı.

* * *

Özündən başqa hamını günahlandıra bilmə kimi dərin insani bir xarakterə sahib idi Mavi. İnsan, səhvlərinin bütün məsuliyyətini öz boynuna götürə bilmir. Əgər o dərk etsə ki əslində həyatının müqəddəratı düşündüyündən də artıq dərəcədə öz əlindədir, onun ağırlığı altında yaşaya bilməz. Ona görə də insan şərtləri, ailəni və başqalarını günahlandırmağa başlayır.

9

# MÜQƏDDƏS GÜNAH

*“Ataların günahlarını uşaqları çəkər”* deyə təkrarladı öz-özünə. İncildən’miydi ya Şekspir’dən, xatırlamırdı. Çox gözəl deyilmişdi. Ancaq ilkin başa düşülən mənasıyla yox, uşaqlara ötürülən karmavari bir günahlar sistemi olaraq yox. Atanın hansıssa pis hərəkətinin nəticəsini uşaq çəkmirdi. Burdakı günah onun üçün *doğum* idi. Ata və ananın bu müqəddəs günahının ağrısını yaşamaqla çəkən uşaqlar olurdu. Ya da bəlkə də valideyn olmaq, günah yumaq demək idi, etmiş olduğun günahı yuyurdun ömür boyu uşağı böyüdüb qayğısına qalaraq.

İsa, deyə düşündü Mavi, Tanrının günahlarını çəkmiş olmalıydı demək ki. Poetik səsləndi bu fikir ona, ki eləydi də. İsa, insanların günahlarını çəkməmişdi əslində incildə deyildiyi kimi, o öz atasının günahlarını çəkmişdi. Əzab çəkmişdi çünki yoxdan var edilmişdi. Varoluşu idi əzablarının əsas səbəbkarı və varoluşunun səbəbkarı da atasıydı. Tanrı.

Əgər varoluşun əzablar və zövqlərlə dolu olduğunu nəzərə alsaq, çəkilən bütün əzab və zövqlərin səbəbkarı fərdi yoxdan var etmiş valideyinləri olmalıydı Maviyə görə. Bu ən böyük əxlaqsızlıq idi ona görə. Baxmayaraq ki o əxlaq beşikçisi deyildi, əxlaqlı olduğunu da iddia etməmişdi heç vaxt. Onun öz fərdi əxlaq anlayışı var idi. Ancaq onu məhv edən şey, insan-

ların uşaq doğmaq kimi ən böyük əxlaqsızlığı və günahı etmiş olmaqlarına baxmayaraq, bununla həm fəxr etməkləri, həm etmiş olduqları şeyin dünyanın ən tərbiyyəsiz hərəkəti olmuş olmasını qəbul etməməmələri, həm də bütün bunlar yetmirmiş kimi, doğduqları uşağın köləsi olacaqlarına, onu özlərinə kölə etmələriydi.

Bu, dəlilikdən başqa bir şey deyildi. Bunu necə inkar edə bilərdilər? O, uşaq doğmayın deyə bar-bar bağırmırdı, ağrıları o qədər böyük idi ki, bu əzab dolu dünyaya gətirilmiş başqa uşaqların ağrılarına əhəmiyyət verəcək gücdə deyildi. Ancaq istədiyi tək şey, insanların instiktlərinə məğlub düşüb etmiş olduqları günahın fərqinə varıb ona görə hərəkət etmələriydi.

İnsanları sahib olduqları instiktlərinə görə bir az da olsa bağışlayırdı, yaxşı deyirdi, genləri onları məcbur edir çoxalmağa. Ancaq şüurlu istənilən bir varlıq, etdiyi hərəkətin fərqinə varmalıydı. Özünü saxlaya bilməyib bu əzab dolu dünyaya əzab çəkməsi üçün və heç doğulmaq istəyib istəmədiyini bilmədən birini peydahlayırdısa, ən azından, sonrakı həyatı boyu o uşağın köləsi olmalıydı. Əksi, əxlaqsızlıq, vicdansızlıq və tərbiyyəsizlik idi.

On yaşında təcavüzə uğramış bir qızın anası ya atası böyük ehtimalla belə deyərdilər "kaş edəcək bir şeylərim olsaydı bunun qarşısını almaq üçün", ancaq onlar heç vaxt təmələ enərək ən böyük günahkarın özləri olduqlarını etiraf etməyəcəkdilər. Həyatda, zövqdən çox əzab var idi və doğulmuş hər uşaq əzabı dadacaqdı. Daddığı hər əzabın günahkarı da onu doğanlar olacaqdı.

Sonra hər şey bəs etmirmiş kimi, böyüdülmüş uşağa minnət qoyulurdu. Onu böyütmək üçün çəkilmiş əzablar, başına qaxılırdı. Bu dəlilik idi. Bunun adı tərbiyyəsizlik idi. İnsanlar uşaqlarını böyütdükləri, yedirdikləri, ona qalacaq bir yer verdikləri üçün daha sonra bu hərəkətlərini onların başlarına qaxırdılar. "Səni yedirmişəm" –"Bəli, çünki məni doğmuşdun, mən istəmədən".

Yenə hər şey yetmirmiş kimi, insanlar doğduqları uşağın hərəkətlərini qınayır, onu dartıb istədikləri formaya soxur, kölə kimi budayırdılar. Elə yox, belə olmalısan.

Sonra da yazıq doğulmuş uşağın əzabını görməməzdən gələrək, hələ bir çəkdikləri əzab və işkəncə üçün təsəlli dilənirdilər başqalarının yanında. Uşaqların haqqında danışır və onlar üçün nə qədər şey etdiklərini, yorulduqlarını deyirdilər. Sanki doğmaq müqəddəs bir vəzifədir və məcbur, istəmədən ediblər. Ancaq onlar heç vaxt etiraf etmirdilər, ən böyük tərbiyyəsiz olduqlarını.

Doğmamalıydılar deyə düşündü Mavi kinli formada, doğublarsa da, günahlarını yumaq üçün uşağın köləsi olmalıydılar və üzr dilənməliydilər ondan. Onu bu əzab dolu dünyaya gətirdikləri üçün.

İnsanların uşaq doğmaq üçün bəhanələri çox gülməliydi. Evliliyi birlikdə tutmaq üçünmü? Yəni bir oyuncaq kimi, bir alət kimi istifadə etmək üçün? Həyata məqsəd vermək üçün? Birinin rızası olmadan onu həyatına məqsəd vermək üçün istfidadə etmək? Ya da, birinin səni sevməsi üçün uşaq doğmaq? Yenə xoşbəxtlik üçün bir alət kimi? Bütün səbəblər ifrat dərəcədə eqoistcə səslənirdi.

Doğulacaq uşağı mənəvi və maddi olaraq tamamilə təmin edə biləcəyindən belə əmin olmadan uşaq doğub onu öz bərbad həyatının parçası edən insanlar var idilər. Nəyə görə? Sırf öz çəkdiyi işgəncəni azaltmaq üçün? Öz əzabını azaltmaq üçün başqasını doğursan və əzabının yarısı ona yüklənir?

Doğulacaq uşağı mənəvi və maddi olaraq tamamilə təmin edəcək gücdə olsa belə insan, doğulacaq uşağın rızası olmadan və hansı genetik xüsusiyyətlərlə doğulacağını bilmədən nə olursan olsun onu dünyaya gətirmək yenə də tərbiyyəsizlik idi. Ya beyin hormonal balansı elə deyildə belə doğsa? Optimist deyil də pessimits olsa? Bipolyar pozuntu ya depressiya xəstəliyiylə doğulsa? Həyatla heç vaxt yola gedə bilməsə? Xoşbəxt ola bilməsə? Kimin vecinəydi sanki bunlar? Əsas olan yalnız qocalmamaq üçün yanında kiçik kölələrinin olmasıydı elə deyilmi? Bəli.

Eynilə yaşama instikti kimi, uşaq sahibi olma instiktinə görə də başa düşürdü o insanları. Bütün bədəndəki genlər həyatda qalma və çoxalma üzərinə qurulmuş ikən instiktiv hisslərə görə qınanıla bilməzdi insanlar bir mənada. Təməldə yatan əsas səbəblərdən biri bu idi, doğum. Bir qadını sevmə, onu arzulama, ehtirasında ərimə və seksin şüuraltı ana səbəbiydi doğum. Əsas səbəblər arasında artım və yalnızlığı aradan qaldırma məqsədi var idi, instiktiv olaraq. Hal belə ikən, içində çoxalmaq üçün səni zorlayan genlər var ikən, qınanıla bilməzdi insan bəlkə də. Özü belə zaman-zaman atalıq instiktinə yenik düşmüş və ondan olanı qucaqlama arzusu hiss etmişdi. Ancaq nə olursa olsun, qəbul etmədiyi şey, sahib olunmuş uşaq qarşısında öz borcunu başa düşməyən insanlar idi. Onun bütün bəd anlarının səbəbkarı olduqlarını qəbul etməyən insanlar idi. Və sanki onlar uşağa deyil də uşaq onlara borcluymuş kimi davrananlarda. Bir valideyin, ölənə qədər uşağına borclu olaraq qalacaqdır halbuki. Yenə də başa düşürdü Mavi, insan psixologiyasının öz səhvlərini və günahlarını şüuraltına itələdiyini və gizlətdiyini. O valideyinlər, uşaqlarının çəkdikləri bütün əzabların səbəbkarının özləri olduğu reallığının ağırlığı altında yaşaya bilməzdilər və buna görə də bunu inkar edirdilər.

Bəlkə də xəstə bacısının olması idi Mavini doğuma bu qədər düşmən edən, bəlkə də öz çəkdiyi əzablar. Bacısının ölümünü arzuladığı hər gecə özünə nifrət etmişdi Mavi. Onu o qədər sevirdi ki doğuşdan xəstə doğularaq çəkdiyi əzablarının bitməsi üçün ölümünü arzulayırdı, ancaq arzusu səbəbilə özünə də nifrət edirdi. Bütün ömrü boyu bacısının çəkdiyi ağrılarda özlərini günahlandıran ailəsinin də ölümünü istəmişdi çəkdikləri ağrının bitməsi üçün. İnsanın uşaq sahibi olaraq özünü sonrasını təxmin edə bilməyəcəyi necə bir bəlaya buladığını görürdü beləcə Mavi. Saki cibində bir əl bombasıyla yaşayacaqsan bütün ömürün boyu.

Doğuma olan nifrətinin əksinə, uşaqlara olan bitməz bir sevgisi var idi. Onlar məsum və günahsız idilər. Gördüyü kasıb

və imkansız uşaqları izləyəndəysə ürəyi parçalanırdı, oyuncaq olaraq doğulmuşdu və əzab çəkəcəkdi. Yenə də, qucağında uşaq tutan ata ilə uşağı arasındakı bağa heyran idi. Təkamülün onlara verdiyi instiktə heyran idi. Başqaları ilə işi yox idi Mavinin, hərənin öz seçimi idi və seçimlər sonsuz və doğrusuz idi. O sadəcə özü üçün qəbul etmirdi, uşaq sahibi olmaq və həm özünə həm uşağına iztirab çəkdirmək.

-Bəs sən nə məsləhət görürsən cənab üsyankar? Dünyanın axırınımı gətirməyi düşünürsən insanlara doğmamağı məsləhət görərkən? – deyə bir qız ona səsləndi yanında üşüyərək yeriyərkən.

- Dünyanın sonumu? Mən başa düşmürəm sənin doğrudanda vecinədirmi bu? Yəni ciddi soruşuram bax, insanların doğmasının dayanması və hamının ölüb getməsi, səni narahat edir? Maraqlıdır. Psixologiyanı anlamaq istəyirəm. Mənə maraqlıdır başqa insanların hadisələrə baxışı və hiss etdikləri şeylər. Çünki mənim həqiqətən də vecimə deyil bəli. Yəni axı niyə olsun. Bilmirəm. Məncə bu insanın həyatında nə qədər problem olub olmadığı ilə bağlıdır. Dünyanın qeydinə qalacaq səviyyədə olmaq üçün ən azından insanın özünün problemləri çox da böyük olmamalıdır deyə düşünürəm.

- Əlbətdəki var problemlərim. Ancaq bəli, dünyanın problemləri məni üzür həqiqətən də, vecimədir. Həm, necə düşünə bilərsən axı bütün bu insanlar, var olan hər şey yox olsun getsin? Bütün tarix, bütün hər şey, bütün gözəlliklər? Sənin dediyin kimi hamı doğmasaydı insanlığın sonu necə olardı?

- Hamı doğmasaydı necəmi olardı? Nədi o indi də Kant'çı oldun? Gör sənə nə deyirəm. Ola bilər ki sən Kant'çı nəzəriyyəni xoşlayırsan ya razılaşırsan, ancaq mənim nə Kant vecimədir, nə əxlaq fəlsəfəsi, nə də onun kateqorik imperativ konsepsiyası. Mən heç bir hərəkəti edərkən bütün dünya bunu etsə necə olardı deyib öz əxlaqımı mühakimə etmirəm. Bütün dünyanın dərdini çəkəcək qədər əxlaqlı ya da dərdsiz deyiləm. Boş ver. Sən həmişə belə makiyajlısan?

- Yox. – qız titrəyərək balaca barmaqları ilə dodağından

siqaretini götürüb tüstünü çölə buraxdı və sonra onlar o tüstünün içindən keçib yeriməyə davam etdilər. Üstündə uzun bir kurtka var idi, başında papaq. Nisbətən kiçik boylu və arıq idi. İlk gözə çarpan xüsusiyyəti incə dodaqlarıydı.

- Dodaqlarındakı qırmızı siqaretini boyayır

- Mən, düzü nifrət edirəm buna. Sadəcə təəssüf ki işimə görə hər gün makiyajlı oluram. İşim də makijyaj mağazasındadır. Bütün gün başqa insanları makiyaj edirik və satırıq. Biz də başdan ayağa makiyajlı olmalıyıq. Həyatımda heç vaxt belə bir işi görmək istəməzdim. Ən son edəcəyim şey olardı. Ancaq elə pis bir vaxtda çıxardı ki məni lənətə gələsi müdürüm son işimdən, iki üç ay işsiz qaldıqdan sonra məcbur qalıb bu işi tapdıqdan sonra qəbul etdim. Həyatımda heç vaxt makiyaj dəsti filan almamışdım. Heç işə girəndə adlarını belə bilmədiyim şeylər var idi. Digər qızlar mənə sən necə qızsan deyirdilər. Ora getdiyim hər allahın günü həyatıma nifrət edirəm. Başqa bir iş tapan kimi çıxacam. Ancaq pul və görülən iş nisbətini müqayisə etdikdə daha normal bir iş tapa bilmirəm hələ ki.

- Və səni pinqivinlərin nəslinin kəsilməsi maraqlandırır.

- Hə.

- Və insanların.

- Bəli.

- İnsanlar qəribədir.

- Eləyik.

- Əlbəttə ki qəribəyik. O qədər qəribəyik ki, aramızda bir çoxumuz yoxluq kimi müqayisə belə oluna bilməyəcək dərəcədə böyük və müqəddəs bir fenomeni varlıqla müqayisə edirlər. Onlar o yoxluğa inanırlar ki orda varlığını hiss edə bilirsən. O yoxluq ki orda rənglər var, ağrı var. İlluziyalar. O insanlar mükəmməl təkamüli mexanizmə sahib korlardır. Həqiqəti görən insanlar isə nöqsanlıdır. Çox yaşamazlar. Yaşayırlarsa da tərəddüdlərlə, ayaqları titrəyərək. Doğulmamaq möhtəşəmdir, doğulub xoşbəxt olan insanlar varsa belə yoxluqla xoşbəxtlik müqayisə edilə bilinməz. Ümumiyyətlə mən doğan insanları da qınamıram, onlar o qədər güclü deyillər ki

instiktlərinə qalib gələrək doğacaqları uşağın varoluş böhranları və yaşayacağı həyat ehtimalını düşünsünlər. Ancaq yenə də ironikdir, insanlar həyatda qalmaq üçün birini doğaraq özlərinə məqsəd yaradırlar. Hər şey bir tərəfə, mən nəyə görə kimisə doğub gecə gündüz işləyib ona baxmalıyam? Durduq yerdə özünü poxa salırsan. Çəkəcəyin iqtisadi əziyyət bir yana, özünü bir insana bağlayırsan və onun başına gələcək istənilən fəlakət səni məhv edəcək. Durduq yerdə ölsə ya nəsə. Uşağı doğduqdan sonra hər saniyən onun üçün narahat olaraq keçəcək. "Ya başına bir şey gəlsə" deyə. Bəlkə mən çox emosionalam, bəlkə insanlar daş ürəklidir. Ancaq sahib olduğun iti belə itirərkən kədərlənərkən, öz uşağının itkisi ya hər an onu itirmə qorxusuyla necə rahat yaşaya bilərsən? Məncə uşaq bütün ağrıları və bu rasional düşüncəni unutduracaq formada təkammülləşib. İnsan o uşağa sahib olduqdan sonra onun üçün hər şeyi etməyə razı olur. Özünü ölümə də atar, gecə gündüz kölə kimi də işləyər. İnsanlar öz həyatlarını doya-doya yaşamamış uşaq doğurlar və sonra deyinirlər ki mən boğazımdan kəsib uşağı böyütdüm ancaq özüm yaşaya bilmədim. Əlbətdə ki elə olacaqdı, nə gözləyirdin? Boğazından kəsməzdin, səni məcbur edənmi var idi sanki. Dediyim kimi, insanlar qəribədir. Hələ üstəlik sanki Yerdə çəkdiyimiz əzablar bəs deyilmiş kimi bir də Marsda koloniya qurmağa hazırlaşırıq. Toxumumuzu ora da atırıq.

- Çünki hər an Yerdə vulkanik qiyamət başlaya bilər, ya 66 milyon il əvvəl dinozavrların nəslini tükədən qışı başladan həmin asteroidlərdən biri növbəti 500 milyon içində başımıza düşə bilər, hansısa ulduzun partlama sonrası yaydığı qama işıqları yerə təsadüf edə bilər. Ya, uşaqlarını öldürən Midia kimi həyat özü öz sonunu gətirə bilər. Bütün bunlar olmasa da, 5 milyard ilə günəş genişləyərək böyük qırmızı ulduza çevrilərək yeri və digər planetləri öz içinə alaraq həyatı bitirəcək.

- Göründüyündən daha çox şey bilirmişsən.

- Dodaq pomadası səni çaşdırıb yəqin, ilkin mühakimənin qurbanı olmusan.

- Bəs sonra? Sonra nə? Yəni 5 milyard il sonra dünyanın sonunun gəlməsi indi yaşayan kimə maraqlıdır axı. Mən o insanların səmimiyyətini anlaya bilmirəm.

- İnsanları tanımır kimi danışırsan. Genetik instiktləri unudaraq. Səmimiyyət məsələsi deyil bu, onlar elə hiss edirlər. Təbiətin bir parçasıdırlar və onu qoruyurlar özləri belə fərqində deyil bunu niyə edirlər.

- Qəribədi hə? Bütün insanlar sadəcə ayrı fərdlərdir və hamının öz dərdi var, ancaq uzaqdan Yeri uzaqlaşdırıb baxsan tək hüceyrəli bir orqanizm kimi yaşadığı yerdən başqa planetə keçməyə çalışan kompleks canlını xatırladacaqlar. Yəni demək istədiyim ümumilikdə hamısı birlikdə hərəkət edir ancaq planlı deyil. Qrup formasında. Amma ayrılıqda hərənin öz həyatı var. Hər birimiz yer üzündəki həyatın bir hüceyrəsiyik və birləşərək bir orqanizmi yaradırıq. Deyəsən mən xərçəngli hüceyrələrindənəm o orqanizmin. Görəsən, bizi nə zaman məhv edəcəklər?

- Qaia fərziyyəsi. Yunan mifologiyasındakı həyat ya bənzər nəsə ilahəsi Qaia. Yerdəki həyatın bir orqanizm kimi hərəkət etdiyini və özü-öz nəslini davam etdirdiyini deyir. Marsa gedən ya da getməyə çalışan insanlar deyil, yerdəki həyatdır. İnsanlar bunu şüurlu olaraq etməsə də, yenə də edirlər. Bunu deyirdin?

- İki insanın bir-birini tam başa düşməsi mümkünsüzdür, ancaq səninlə bir-birimizi yaxşı başa düşürük deyəsən. Diktyosteliumdu nədi, o amyöbləri eşitmisən heç? altruizm təcrübəsini? Tək hüceyrəli orqanizmlərdir. Təcrübə göstərir ki qidaya çata bilmək üçün qrup formasında hərəkət edirlər və bunun üçün içlərindən iyirmi faizi ölməlidir. Bəziləri könüllü olaraq altda qalaraq çubuq kimi körpü düzəldir digərlərinin keçməsi üçün və ölürlər. Bəzilərisə aradan qaçaraq vəzifəsindən imtina edir və ölməməyə çalışır, ən maraqlısı isə, sonda aradan qaçanları qrupdakılar bir formada öldürür, ya da çoxalmalarının qarşısı alırlar. Yəni bir növ kiçik cəmiyyət kimi işləyirlər. Öz nəsillərini davam etdirmək üçün bəziləri könüllü ölür, aradan qaçanlar cəzalandırılır və sair. Təsəvvür edə bilirsən? Lənətə

gələsi tək hüceyrəli orqnizm deyirsən, tək hüceyrəli. Ancaq genetik instiktə sahibdir. Dəhşətdir.

- Sonra da təbiətin ən inkişaf etmiş, möhtəşəm mərkəzi sinir sisteminə sahib canlısını qınayırsanki niyə 5 milyar il sonra belə yaşamağı düşünürlər ya niyə doğurlar.

- Qınamıram əslində. Yəni düzdü hə deyinirəm, boş-boş danışıram yeniyetmə üsyankar kimi, ancaq başa düşürəm yəni. Həyatda qalma instikti və sair. Amma yenə də nə bilim, bu qədər problemin içində mənə veridyin suala bax, bəs bütün heç kim doğmasa dünyanın gələcəyi nə olarmış. Sanki dünyada heç kim doğmasa insanlığın nəslini davam etdirmək üçün doğmaq istəyəcək tək insanmış kimi verdin sualı. Başa düşürəm, sadəcə hər insan başqa cürdür.

- Bilirsən, belə danışmağıma baxma, mən də həyata çox da bağlı biri deyiləm. Hətta bəzən özümü tısbağa bədəninə girmiş yüksək zəkalı varlıq kimi hiss edirəm. Heçnəyi dəyişdirə bilmərəm o bədəndə yaşamalıyam. Özümü öldürməyimə əngəl olan bir instiktim var arxa cibimdə, əlim çatmır çıxarıb atım. Sadəcə yaşayırsan. Qəfəsdəki bir tısbağa məsələn, necə intihar edə bilər yemək yeməyi dayandırmaq xaricində? Hansı ki ən çətin ölüm olardı. Həyat da elədir sanki. Ölümü seçmirsənsə, xoşbəxt yaşama sənətini öyrənməyə başlayırsan ya da əlindəkiləri qəbullanırsan. Qəbullanmaq. Həyat bundan ibarətdir.

Payızın sarıdan qırmızıya doğru dəyişən rəngli yarpaqları ilə bəzədiyi yolun sol kənarı ilə yeriməyə davam edirdilər. Arada bir yalançı yağış özünü xatırladırdı ya da şərq küləyi kilometrlərcə uzaqdan birilərinin sinəsindən çıxmış havanı onların burnuna doldururdu. Və hələ gəldikləri qədər gedəcək yolları qalmışdı.

Yavaş adımlarla yeriyib, sanki yolun bitməməsini istəyirdi hər ikisi, rəngi solmuş ağaclara baxır, siqaret tüstüsü ilə havanı kirlədir, bəzən gülür bəzən ciddiləşirdilər.

Mavi, yenə veczisliyindən danışırdı. İnsanin öz ağrıları kifayət qədər artıq olduğu zaman başqaları və dünyanı vecinə belə ala bilmir və bilməz deyirdi. Qlobal istiləşmə? İnsanlığın

gələcəyi? Uşaqların gələcəyi? Savaşlar? Depressiyadan əziyyət çəkən birinin nə qədər vecinə ola bilər?

Düşünmürdü, nə gələcəyi, nə əriyəcək buzları. Nə gələcəyin maraqsız insanlarını və həyatlarını. Kimin vecinə axı? Kimin? Mən ölürəm burda. Qışqırıram və səsimi eşdidən yoxdur. Sanki eşitsələr nə olacaq.

Ölümdən sonrakı dünyanın qeydinə qalmaq böyük bir altruizm tələb edir olmalıydı. Ya da problemsiz insanın həyatına yeni problemlər əlavə etməsiydi bu.Siyasət? Siyasilər? Aldadılan xalqlar və başqaları? Hə, əvvəllər vecinəydi, yeniyetməliyində, ağzı isti yerdəykən, o qədər problemsiz idi ki bunları düşünür, savaşır, qaz bombaları altında polis əleyhinə sloqanlar səsləndirərək qaçırdı. Həyəcanlıydı. Ya da bəlkə də sadəcə yalnızlıqdan bir qaçış yoluydu? Bəlkə sadəcə adrenalin aludəçiliyiydi? Hər nə idisədə, artıq yoxuydu. Ölməyi istəmək kimi müqəddəs bir dərdi olan insanın növbəti prezidentin kim olması çox da vecinə olmur. Sonra da başqaları onları apolitik ya qeyri aktiv adlandırırdılar. Həyatın bir başqa ironiyası.

-Və sən bütün bu qədər saydığın varoluşun gətirdiyi problemlərə baxamayaraq yenə də mənə insanların doğmamasının səhv olduğunu deyirdin. – deyə davam etdi Mavi.

- *Səhv* deməmişdim, sadəcə sənin təklifin nədir demişdim nəsil kəsilməməsi üçün.

- Bax, burdakı anlaşılmazlıq bilirsən hardadır? Kritik teoriyasını bilirsən? Tənqidi nəzəriyyə. Siyasi nəzəriyyədir, təxminən 80ci illərdə yeni bir siyasi fikir axımı kimi ortaya çıxıb sosializm və kapitalizmi tənqid edirdilər. Mövcud hər iki qütbün səhvlərini deyirdilər. Sonra hər iki qütb onlara sənin dediyni dedi: "yaxşı bəs bu qədər ağıllısınızsa, sizin təklifiniz nədir?" Onların isə bir cavabı yox idi, ola da bilməzdi. Çünki axımın əsas mahiyyəti tənqid idi. Onlar heç bir təkliflərinin olmadığını dedilər. Tənqidi nəzəriyyənin təklifi olmur. Mənim heç bir təklifim yoxdur. Vecimə də deyil axı heç. İstədiklərini etsinlər. Virus kimi bütün planetlərə yayılsınlar istəyirlər. Ya yoxa çıxsınlar, o da vecimə deyil. "Könüllü İnsan Nəslini Bi-

tirmə Hərəkatı” deyə bir şey var məsələn. İnsanların dünyaya zərər verdiyini iddia etdikləri üçün insanların nəslinin kəsilməzi üçün təbliğatlar aparan bir təşkilatdır. Onlar da vecimə deyil. Bəlkə də sadəcə yalnız olduqları üçün təşkilat qurublar. Sülh də vecimə deyil savaş da. Realist siyasətçilərdən biri şey demişdi məsələn, *savaş xalqların ruhudur,* bəlkdə haqlıydı, nəbilim. Bəlkə də insanlara, xalqlara, bir-birinə tutunmaq üçün savaşlar lazımdır. Sadəcə heç bir mənası olmayan həyatda özlərinə kiçik mənalar yaradırlar, emosiyalarını əmmək üçün özlərinə problemlər yaradırlar. Ancaq bunları da aşıb artıq dünya, yavaş-yavaş. Milliyətçilik kimi bəsit məhvumlar keçmişdə qalır, yəqin indi də yadplanetlilərlə savaşıb bu dəfə də öz irqləri ilə fəxr edərlər. Düşüklər. Təsəvvür edə bilirsən? Yadplanetlilərə savaşlar olur və dünya müharibələri vaxtlarındakı kimi sloqanlar və musiqilər yazılır, sadəcə “vətənə can qurban” yerinə “dünyaya can qurban” kimi düşük səviyyəsiz sloqanlar və sair. Bilirsən bəzən nə düşünürəm? Robotların bir gün insanları öldürəcəyini düşünmürəm ancaq təsəvvür edək ki elə bir şey oldu və insanların kökü kəsildi, robotlar etdi və ya hər necəsə oldu. Amma robotlar sağ qalır və üstündən minlərlə il keçir. Arada informasiya itkisi yaşanılır və robotlar onları insanların yaratdığını unudurlar ya bilmirlər. Necə yarandıqlarını axtarmağa başlayırlar. Məsələn Marsda insanların yerləşdirdiyi robotlar. Sonra içlərindən bir robot çıxıb deyir ki, bizi nəsli minlərlə il əvvəl kəsilmiş yer kürəsində yaşayan insan adlı heyvan növləri yaradıb. Bir fərziyyə kimi deyir və hamı onu inkar edir. “Necə yəni, axmaq bir canlı bizim kimi kompleks varlığı necə yarada bilər axı!?”. İnsanların ilk başda meymunlarla qohumluqlarını dandıqları kimi onlarda bizimlə qohumluqlarını danırlar.  Bu arada Mars demişkən, Marsda günün 25 saat olduğunu bilirdin? Həyatın işgəncə müddəti 1 saatda artıqdı orda.

- Və Venerada 2800 saat, yəni 116 gün.
- Yupiterdə 9 saat.
- Hə.

- Bəlkə də orda doğulmalıydım. Yerdəki həyat bədbəxtlər üçün, mənim üçün həddindən artıq uzun gəlir. Həyat heç də qısa deyil. O qədər uzundurki, əcəli gözləyərək ölmək bəzən işgəncə kimi gəlir.

- Sən sadəcə xoşbəxt olmağın yolunu tapmalısan məncə.

- Artıq xoşbəxtlik də vecimə deyil.

- "Vecimə deyil, vecimə deyil, vecimə deyil!" Nifrət edirəm bu sözü işlədən bütün oğlanlardan!

- Mənə nifrət etməyin də vecimə deyil düzü

- Nə olub axı sizə? Bir qism oğlan var ki hamısının tək dərdi seks narkotik və vecsizlikdir, tənbəllik. Sadəcə biraz mübarizə aparmaq lazımdır. Savaşmalısan.  Nə bilim, maraqlı şeylər var dünyada, gələcək, gələcəyi düşün, süni intelekt və transmhumanizmi düşün, maraqlı deyil heçnə sənə? Doğulmasaydım deyə oturub ağlamaqla nə dəyişir? Yeniyetmə üsyankar kimi. Hələ də böyüyə bilməmisən! Heçnə etmədən oturub sənə lotareya çıxmasını gözləyə bilməzsən! Sanki biz çoxmu sevirik həyatı? Sadəcə ölmək o qədər də asan deyil və xoşbəxt olmağa çalışırıq. Mənim çoxmu xoşuma gəlir sanki hər gün gedib lənətə gələsi sikik şirkətlərin məhsullarını üzümə yaxıb kloun kimi o sikik müştərilərin üzünə gülümsəyərək biraz da onların üzünə maska yaxmağım? Yox! Sadəcə yaşamaq istədiyim şeylər var və onları yaşamadan ölmək istəmirəm! Ölmədən əvvəl yaşamalıyam! Sənin kimi biraz Şopenhaur oxuyub küçələrə düşüb qabağıma gələnə kaş ki doğmaz olaydım demirəm!

- Şopenhauru heç vaxt oxumamışam. Tək lənətə gələsi antinatalist o deyil bu milyardlarla nəfərlik dünyada. Fəlsəfəsi mənə maraqlı da deyil heç, əminəm yaraşıqlı ya xoşbəxt olsa o da öz fəlsəfəsinə nifrət edə bilərdi. Hər gördüyün doğulmaq istəməyən insanı Şopenhaurdan təsirlənib sanma, bir toyuq belə, şüuru olsaydı həyatına nifrət edə bilərdi, ona da deyəcəkin ki hansısa pessimistdən təsirlənib? Və, mübarizəmi? Niyə axı? Sırf biri məni doğub və mən həyatımı sevmirəmsə mübarizəmi etməliyəm? Cəsarətimi toplayıb özümü öldürmək varkən? Bəzən özümə nifrət edirəm, ölmək istəyirəmsə niyə

sadəcə ölmürəm, üstünə bu qədər düşünüləcək şey deyil axı ölüm. Sadəcə qorxaqam. Ya da bəlkə ölüm üstünə minlərcə səhifə düşünüləcək qədər çətindi. Doğulmamaq isə sadəcə möhtəşəmdir. Yəni təsəvvür et yoxsan. İnsanların burda başa düşmədikləri şey məncə, doğulmamaq istəyərdinmi sualına cavab verəndə, qorxurlar ki bəs mənim yaxşı günlərim? Onlar da olmayacaqdı axı deyə. Axı sən doğulmasan o yaxşı günlərdəndə xəbərsiz olacaqdın. Yəni hara çevirsən sən udursan doğulmamaqla. Hərnəysə. Cəhənnəm olsun. Mənə yaxınlaşıb söhbəti başladan da sən idin bu arada, bəyənmirsənsə gedə bilərsən. Həm də ki mən, mənə lotareya çıxacaq günü də gözləmirəm artıq, ya da kimin ya nəyinsə gəlib həyatımı xilas edəcəyini, o ümidlərimi çoxdan öldürmüşəm. Şükür ki öldürmüşəm artıq, rahatam. Görünür səndə hələ diridirlər, öləcəkləri günlərə qədər çəkəcəyin əzablarda sənə uğurlar arzulayıram. Dərin ağrılar yaşayacaqsan, yaşın hələki azdır, hiss olunur ki ümidlərin var, onları öldürmək çətin olacaq. Dediyin kimi, ölmədən əvvəl yaşamaq istədiyin şeylər var, mən o şeylərin çoxunu yaşamışam özümçün, indi ölə bilərəm. Bundan sonrası işgəncə kimi gəlir. Gələcək mənə də maraqlıydı əvvəllər bəli, süni intelekt, transhumanizm ya nəsə. Ancaq bəlkə də sonradan bu maraq qısqanclığa çevrildi, heç vaxt görməyəcəyim o gələcəyi düşünmək qısqandırır bəlkə də məni. Heç birimiz görməyəcik transhumanizmi. Həm, dediyim kimi, mən də istəyərdim çəkdiyim ağrılar olmasın və rahat yaşayım, onda maraqlarıma da vaxt ayıra bilərdim. Ancaq indi heç bir marağım vecimə deyil və onları doğduqları yerdəcə öldürürəm. Yeniyetmə anarxist üsyankar və sairə məsələsinə gəldikdəysə, həyat bərbaddırsa və mən bundan şikayətlənirəmsə bu məni yeniyetmə etmir. Mənim keçdiyim yaş dövrü məncə, körpü kimidir, bu yaşı keçsən şikayəti buraxıb olanla qəbullanırsan, ya da burdaca ölürsən. Sən isə məndən aşağıda, ümidləri diri olansan hələ ki. Qaldı ki bütün oğlanların tənbəl və qız və narkotikə can atmasına. Sənin istədiyin kimi olmadıqları üçün onların adına səndən üzr istəyirəm. Həm, tənbəllik ən təbii insan haqqıdır.

Heçnə etmək zorunda deyilsən. Heçnə etmədən bir ot kimi də yaşaya bilərsən. Kimisə sənətçi ya biznesmen olmadığı ya olmaq istəmədiyi üçün qınaya bilməzsən. Hər şey bir tərəfə, yaşadığımız dünya dəyişir, yaşam forması dəyişir və o yaşam forması insanları tənbəl ya narkotikə bağımlı edirsə insanları yox rejimi sevməyə bilərsən. Hələ bu harasıdır? Qarşıdakı on illiklərdə daha da iyrənəcəyin şeylər görəcəksən. Özünü hazırla. Texnologiya insan həyatına hər gün daha da çox girir və girəcək. Ya da bəlkə də biz vecsiz və tənbəllər qalib gələcəyik.

- Siz sadəcə yox olacaqsınız.

- Ay sağol. Təkamül bizi öldürəcək. Və indiki həyat formasına uyğun olanlar həyatda qalacaq, müvəffəqiyyətpərəstlər, ambisiyalılar, saxta gülüşçülər, optimistlər, göstəriş sevənlər və başqaları. Hələlik isə ətrafında olub səni narahat etdiyim üçün üzr istəyirəm, yaxında ölərəm bəlkə.

- Mənim də səndən geri qalan tərəfim yoxdu əslində. Sadəcə optimist beynim pessimist beynimi aldatmağa çalışır deyə dedim bütün o sözləri. Xətrinə dəydimsə bağışla.

- Xətrimə dəyməkmi? Mənim artıq bir xətrim yoxdu deyiləsi. Öldürmüşəm. Kaş ki bir xətrim olsaydı, biri xətrimə dəysəydi. Hələ də içimdə yaşamı ciddiyə aldığıma dair bir işarə olmuş olardı. Amma yoxdu. Heçnə vecimə deyil. Elə bil ki dəri hissiyatını itirmisən və toxunduğun heçnəyi hiss edə bilmirsən. Sanki sadəcə mənim olmayan bir bədənə girmişəm içindəki iki deşikdən dünyaya baxıram.

- Məndə də elə olur. Təkrarlayan aralıqlarla gördüyüm bir yuxu var. Hər dəfə görürəm ki hansısa başqa bir irq ya nəsə, üstün irq ya yadplanetlilər bizi əsir götürüb. Böyük qaranlıq bir otaq və qəfəslər var. Hər qəfəsdə lüt qadınlar oturub. Hər səhər uşaq doğuram və gəlib götürüb aparırlar. Onları yeyirlər. Bəzən əllərindən düşənlər olur, təpikləyib bir kənara atırlar ya götürürlər. Ölmək üçün yavarıram hər dəfə. Otaqdakı digər insanlar şüurlarını itiriblər məndən başqa. Onlar heyvan kimi hərəkət edirlər və nə baş veridyindən xəbərsizdilər. Mən isə ağlayıram bütün yuxu boyu. Üstəlik bizə öz uşaqlarımız-

dan hazırladıqları yeməyi verirlər. Hamı yeyir çünki bilmirlər, mənsə aclıqdan sürünürəm və onlar hər yemək gətirəndə dəliyə dönürəm. İnsanların cücələrə toyuq yumurtası verərək yemlədiklərini bilirsən də? Bax elə. Yuxudan oyanmaq üçün can atıram ancaq oyana bilmirəm.

-Sanki bir toyuq bədəninə girmisən, şüurlusan və yumurtanı hər səhər götürüb aparırlar.

- Hə.

- O yuxudan sonra, həm də təkrarlayan yuxu, necə yeyirsən bəs toyuqları? Çətin olur ya yadına düşmür heç?

- Yemirəm. Ət yeyə bilmirəm. İlk başlarda yeyirdim. Sonra qusmağa başladım. Hər gecə yatağa girməmişdən o yuxunu görməmək üçün yalvarıram. Hər şey çox canlı gəlir. Və o yuxuda zaman o qədər yavaşlayır ki, işgəncənin müddəti uzanır. Bəzən mənə elə gəlir ki etmiş olduğum abortun kabusudur bu, hər gecə yuxuma girir.

- Abortmu? Və nə? Bəzənmi? Əgər elə bir şey olubsa əlbətdəki ona görə görürsən yəqin. Sənin adına üzüldüm. Ömrün boyu yaxanı buraxmayacaq bir kabusun var artıq.

- Hə. Universitetdəki xoşbəxt vaxtlarım idi və hər gecə başqa cür xoşbəxt keçirdi. Partnyorum da çox olurdu. Sərxoş gecələr və səhərlər. Belə etinasızlıq heç vaxt göstərməzdim. Ancaq bir gün necəsə oldu və hamilə olduğumu öyrəndim. İlk başda dünyam başıma yıxılmışdı. Sonra alışdım kimi. Ancaq sonra bu yuxu ki var, yaxamı buraxmır. Sırf yuxu görməmi azaldır deyə hər gecə yatmamışdan marixuana çəkirəm. Əslindəysə o qədər çəkmək istəmirəm. Tənbəlləşdirir. Əvvəllər ayda bir çəkirdim. İndi bu lənətə gələsi yuxu ki var, nə bilim.

- Başa düşürəm. Sənin adına üzüldüm. Yuxuların nə qədər bərbad yer ola biləcəklərini bilirəm. Hiss edirəm ağrını. Həm yaxşı ki abort etdirmisən, bu qədər gənc vaxtı sənə işkəngə olardı uşaq. – deyib Mavi əlini qızın çiyninə qoydu.

- Yox, mən də sənin kimi ümimiyyətlə heç vaxt doğmağı düşünmürəm. Düşünmürdüm də. Hətta həmişəlik qısırlaşdırma əməliyyatını düşünürdüm.

- Sən də doğuma qarşısan? Bəs bayaqdan mənlə nəyin davasını edirdin?

- Mən o mənada qarşı deyiləm. Yəni istəyən doğsun mənə nə. Ancaq uşaq doğaraq həm öz azadlığımı azaltmaq istəmirəm. Yəni bayaq sənin dediyin hər şeyə qatılıram. Uşaq doğmaq sanki boynunu ipdən asmaq kimidir, təsəvvür elə hər gün üstündə əsməlisən və bir gün o uşağa nəsə olsa, ölsə ya nəsə pis bir şey olsa, sənin həyatının ondan sonrakı dövrünü düşünə bilirsən? Yəni sanki problem doğursan. Və əlbətdəki sənin dediyin kimi uşağa əgər çox gözəl həyat verə bilmirsənsə niyə doğum. Heç vaxt bizim kimi axmaq işlərdə işləməyəcəyi gözəl bir həyat. Amma məni orası çox maraqlandırmır. Çünki dediyim kimi, doqquz ay qarnımda kiminsə spermlərini böyüdüb sonra özümə dərd etmək istəmirəm. Atan öldüyündə depresiyaya girirsən, ona qalmış uşaq? Ölməsə belə sən həyatın boyu o uşağın harda necə olduğu üçün narahat ola bilərsən. Bilmirəm bəlkə məndə analıq hissi o qədər güclü olmaz, ancaq, belə dəki, niyə doğum axı? Yalnız qalmamaq üçün? Yetimxanadan bir kimsəsiz götürüb onunla yaşayaram o qədər yalnız qalsam. Ya bir itim olar. Bilirsən biz özümüzə vecsiz deyirik, ancaq bəlkə də ən böyük vecsiz bilirsən kimdir? Elə o ailə quran, uşaq doğan ya riskə girən insanlar. Deyirsən ki uşaq doğmaq riskdir, bu insanlar özlərinə problem yaradır həm maddi həm mənəvi. Birdən uşaq doğsan ölsə nə edəcəksən? Unuduruq ki elə insanlar da var ki bütün ehtimalları görür və vecinə almır. Uşaq doğacam və öləcək? Ölsün də. Neyləyim? Ona görə istəyirəmsə doğmamalıyam? Ölər birini də doğaram. Öləcək öləcək də. Hamı bizim kimi həssas deyil bəlkə də.

- Bir-birinə bu qədər zidd düşüncələrimiz varkən bu qədər oxşar düşüncələrə sahib olmağımız qəribədir. Dediklərinin dəstəkləyirəm. Haqlısan. Bir şey deyim, lənətə gələsi metro reklamlarında ya internet reklamlarında bilirsən nə yazırlar? Çox gülməlidir, belə deyirlər: “Evliliyiniz təhlükə altındadır? Uşaq sahibi olun!” Necə axmaqca səslənir hə? Yəni maraq-

sız və mənasız bərbad iki həyatı olan evli ailə darıxdıqları üçün uşaq doğurlar. Evliliyi xilas etmək üçün uşaq doğursan. Ümumiyyətlə mən doğumu sevmədiyimdən daha artıq formada evlilyə nifrət edirəm. Məncə evlilik orta əsr ənənəsidir və önümüzdəki əsrdə yox olacaq ya azalacaq. İndiki evlilərə yazığım gəlir. Hamısına yox əlbətdəki, onlara ki öz azadlıqlarını məhdudlaşdırırlar evlilikləri ilə. İndi biz təkpartnyorluluq dövründən çoxpartnyorluluq dövrünə keçirik. Mənim bəyəndiyim də budur. İki bir-biri ilə yaşamaq istəyən cütlük yaşaya bilərlər birlikdə ancaq hərəsinin öz azad seks həyatı ola bilər. Ya da ümumiyyətlə ayrı yaşayarlar. İnsanlar indi bu düşüncəyə pis baxırlar ancaq əlli il sonra qəbul edəcəklər. Həm də ona görə pis baxırlar ki çünki qısqanırlar. Yoxsa sənə nə dəxli var kim necə yaşayır. Gələcək insanı məncə evlilik məhvumuna çox ürəkdən güləcək. Təsəvvür elə özünü birinin qoluna qandalla bağlayırsan və deyirsən ki mən səninəm. Bərbad bir düşüncədir. İstəyərək və sevərək evlənənlər cəhənnəm, ancaq bunu birdə niyə etdiyini bilməyənlər var. Elə insanlar var ki onların genetikası monoqamiyaya yatğındır və evliliyi sevirlər, onlara bir şey demirəm, mən də elə deyil ən azından. Ancaq eləsidə var ki monoqamiyə yatqınlığı da yoxdur ancaq qoyun sürüsü kimi qaydadır deyə evlənir. Evlilik azadlığı azaltdığı kimi məncə yaradıcılığı da azaldır, maraqlı həyat ehtimalını da azaldır. Evlənən insan öz dostları və başqalarıyla daha az görüşməyə başlayır. Dar görüşlü olmağa başlayırlar. Altı aylıq, bir ya iki illik evliliklər ola bilər. Son istifadə tarixi olan evlilik kimi, evlilik müqaviləsində son istifadə tarixi olur. Yoxsa bir ömürlük? Zindan. Dünya da bu qədər partnyor seçimi var ikən sadəcə biri ilə kifayətlənmək mənə çatmır, mənlik deyil. İstəyən evlənsin. Yaşlandıqda yalnız qalma kimi qorxular hamısı maraqsız insanların qorxularıdır, mənim heç yaşlanmaq fikrim də yoxdur onsuz. Ağlıma bir şey gəldi onu deyim, bəzi insanlar qocalanda yalnız qalmamaq üçün uşaq doğurlar, bəzən mən də düşünürdüm, məsələn 60 yaşımda 30 yaşlı bir oğlumun ya qızımın olmasını çox istəyərdim. Onu böyütmə

tələşı olmadan amma, birbaşa 30 yaşlı bir uşağın olsa. Sonra düşündüm ki, görəsən hansı daha ağır hissdir? 60 yaşında yalnızlıqdan əziyyət çəkən bir antinatalistin olmayan uşağ üçün darıxması və axıtdığı göz yaşları yoxsa bir natalistin ölmüş uşağı üçün ağlaması?

- 60 yaşında o yalnızlığı yaşamadan deyə bilmərəm amma ikisi də ağır səslənir. Evlilik haqqında dediklərinlə razıyam, bu arada. Evlilik və uşaq insanın mənasız həyatına məna yaratma cəhdləridir. Dünyada bu qədər fərqli zövqlərə, maraqlara və xarakterə sahib oğlan varkən sadəcə biri ilə yaşamaq mənə də mənasız gəlir. Dediyin kimi iki il yaşadıqdan sonra onsuz da bir-birinizdən bezirsiniz. Bir ömür boyu dost qalmaq olar əlbətdə, ancaq digər bütün oğlanlara yox deyib sadəcə biriylə birlikdə olmaq mənlik də deyil heç. Nəbilim, mən bəzən sadəcə heçnə düşünmək istəmirəm. Sadəcə zövq almaq üçün yaşamaq istəyirəm. Vəssalam. Başqa heçnə.

- Siz qadınlar üçün indi daha asandı yaşamaq və zövq almaq. Matriarxiya qismi də olsa formalaşıb. Ya da qadınlar azadlıqlarını elan ediblər deyək, dünyanın çox az yerində amma. İqtisadi və cinsi mənada azad. Artıq sırf yaşamaq üçün evlənməyə ehityacınız da yoxdur. Vibratorunuz da var. Doğum idarə həblərinin kəşfi qadınların azadlıqlarına qovuşmasında əsas amillərdəndi bu arada. Təsəvvür edə bilirsən prezervativsiz və həblərsiz qadın olmaq nə qədər çətin olub? Qadınlar insan yox kölə olub bir növ, tək işi doğmaq olan heyvan kimi. Nəysə, canınız sıxılanda istədiyiniz bara ya kafeyə ya harasa gedib kefinizi narkotiksiz, içkisiz yüksəldə də bilirsiniz. Bizdə və məndə elə deyil. Zövq almaq üçün savaşma vaxtım keçib deyəsən. Mən də əvvəl sənin kimiydim, hedonosit, ancaq artıq gücüm qalmayıb. Evliliklərin sayı həm də ona görə azalır ki artıq qadınlar sikik bir kişinin cibinə möhtac deyillər. Lənət media hələ də axşama qədər bağıraraq qadınlara nə olduqlarını xatırlatmağa çalışır. Onların sadəcə ailə üçün, uşaq üçün, tək bir partyor üçün yaradıldıqlarını deyir. Elm də sənə deyəcək ki qadınlar tək bir partnyoru sevmək üçün yaradılıb bla bla.

Ancaq mən düşünürəm ki kişilər qədər dünyadakı hər ləzzətin dadına baxmaq qadınların da haqqıdı və onlar istədikləri vaxt istədikləri insanla birlikdə ola bilməlidirlər. Kimsə ki deyirsə "bəs cəmiyyətin onurğası dağılar", soxdum cəmiyyətə də onurğasına da. Cəmiyyətlər, onurğaları dağıla-dağıla yenilərini və daha yaxşılarını qururlar onsuz da. Gələcək cəmiyyətləri belə olmayacaq. Düşünməyə gəldikdə isə, bəlkə də - dedi Mavi – bu qədər şüur ya zəkaya ehtiyacımız yox idi. Dostoyevskinin tamamını unutduğum sözləri var idi bir kitabında oxuduğum, belə deyirdi *"insanın sahib olduğu şüur həddindən artıq çoxdur, bu qədər düşünməyimizə ehtiyac yox idi, indiki zəkanın dörddə biri ilə belə yaşaya bilərdik, dörd divar bəs idi xoşbəxt olmaq üçün elə bir axmaq insana,"* - düz deyirdi.

- Ölmək ölmək deyirsən, ancaq məncə səninkimilər yaşamalıdır. Təkrar düşün məncə.

- Mən yaşamaq istəyirəm, başa düşürsən? Ancaq nəinki istəmədiyin və bilmədiyin bir həyata icazəsiz gətirilib oyuna məcbur soxulursan, bunu həm də bilmədiyin ya istəmədiyin təsadüfi bir insan xisləti ilə etmək məcburiyyətindəsən. Bəlkə başqa bir insanın xislətiylə yaşaya bilərdim ancaq Mavinin bədənində və onun xarakterindəyəm. Hansı ki, nifrət edirəm, ac gözlülüyünə, qısqanclılığına, doyumsuzluğuna, obsesiyalarına. Özümü dartıb onun cəhənnəmindən xilas edib daha sakit bir insanın bədənində yaşaya bilsəm kaş ki. Ancaq onun xislətinin yaratdığı determinizminin çarəsiz qurbanıyam. O mənim istədiyim heçnəyi etmir. Mənim arzularım üçün savaşmır. Ümimiyyətlə arzular belə onun üçün mənasız ya əlçatmazdır və o tənbəldir.

Havadakı melanxoliyanı yarıb yeridikiləri uzun küçənin sonuna gəldilər, bir müddət sakit qalaraq təbiətin səsini dinlədilər və siqaret dumanı ilə yarpaqları zəhərlədilər.

- Mən, qarşıdan sağa dönməliyəm, sən?
- Mən sola.
- Hələlik onda.
- Hələlik.

## 10

## AĞRILAR VƏ HƏZZLƏR

Sola dönüb metroya girdi, Fredin yanına getməmişdən əvvəl son dəfə hər həftə yalnızlığını bölüşdüyü o yalnızların yığışdığı bara gedəcəkdi.

Vaqonun gəlməsini gözlədi və mindi. Vaqondakı sərnişinlərə baxırdı növbəylə, yorğun insanlar. Onların həyatlarını, hekayələrini təsəvvür etməyə çalışırdı. Hər tərəf həyatın bütün təsadüfi zərbələrinə və yumruqlarına qarşı dayanan, yenə də ayaqda durmağa çalışan insanlarla doluydu. Yorğun gözlər və dik yerimə cəhdləri. Sağdakı vaxtından tez qocalmış kişiyə baxdı, üz qırışıqları onu ələ verirdi. Sanki kəsilmiş ağacın gövdəsindəki halqaların sayı necəki onun yaşından xəbər verirdisə, bu kişinin üzündəki hər qırışıq da onun keçmişindən izlər saxlayırdı özündə. Anasının ölümündən sonra ondan geri qalan tək xatirə olan o üç yaşlı kiçik qızını fəhlə işləyərək necə böyütdüyünü göstərirdi məsələn izlər. Məğrur baxışları bütün zərbələrə baxmayaraq hələ də qürurunu ələ vermədən necə də ayaqda durmağa çalışdığını göstərirdi. Yıxıla bilməzdi. O kiçik qız böyüyənə qədər. Ölmək belə qadağan idi bəzi insanlara.

Yandakı yaşlı qadına baxdı. Hələ də onu atıb getmiş oğlunu gözləyirdi. Bir gün gələcəkdi deyə inanmaq istəyirdi. Gəlməyəcəkdi. Özü də bilirdi. Gözlərindən oxunurdu. Ondan sağ-

dakı kök oğlana baxdı. Ümidsizcə başqalarını süzürdü və yenə belə düşünürdü “Bircə daha az kilom olsaydı, bu bədbəxtlərin hamısından daha xoşbəxt olardım. Onlar sadəcə necə xoşbəxt olmaq lazım olduğunu bilmirlər. Mənim yerimdə olsalar nə edərdilər. Bircə arıqlasaydım. Hər şey çox yaxşı olardı. Hər şey başqa cür olardı. Hələ bu axmağa bax, dünyanın sirrini bildiyini sanır.”-deyə qarşısındakı bir başqa gəncə baxırdı. Onun yanındakı başqa bir qız əlindəki telefondan dostlarının şəkillərinə baxır və kefi pozulurdu: “Mənim yarım qədər belə gözəl olmayanlar məndən daha yaxşı yerlərdə işləyirlər mənsə həyatımın ən gözəl çağında ofisiant işləyirəm, üstəlik bu qədər gözəl ikən! lənət olsun!” Sonra səhər bir cavan müştərinin ona dediyi sözü xatırladı qız: “Sizin kimi gözəl qızlar belə yerlərdə işləməməlidirlər” deyib gülümsəmişdi oğlan. Qıza iltifat etdiyini sanmışdı ancaq düşüncəsizcə qızın sinəsinə hər gün xərçəng kimi daha da böyüyəcək bir yara yerləşdirmişdi. Qız cinsinin ən yaxşı bacardığı şey olan o saxta gülüşü ataraq təşəkkür etmiş və mətbəxə qayıdan kimi siqaret arasına çıxaraq taleyinə lənət oxumuşdu.

Etdiyi müşahidə ona Tolstoyun “bütün xoşbəxtlər eyni formada xoşbəxt bədbəxtlər isə hərəsi ayrı formada bədbəxt olur” cümləsini xatırlatdı. Yanında dayanan ehtiraslı və xoşbəxt görünümlü qıza baxdı, sonra digər tərəfdəki həyatında hər şeyin qaydasında getdiyi bütün halından məlum olan oğlana baxdı, olduqca rahat görünürdü. Dərin bir qısqanclıq hissiylə gözlərini yayındırdı və onlar haqqında düşünmək istəmədiyinə qərar verdi.

Yanda oturan qara dərili orta yaşlı bir qadın az yaşlı uşağın qolundan tutub onun üstünə qışqırır və çiyninə vururdu uşağın. Uşaq bir şeylər istəyirdi mısmırığını sallayaraq. Qadın onu vuraraq “Sənin hər istədiyini edə bilmərəm! Bu qədər şey edirəm sənin üçün hələ, minnətdar olmaq əvəzinə yenə istəyirsən! Mənə bilirsən nə qədər şey borclusan? Sənə görə həyatım məhv oldu mənim! Lənətə gələsi şey! Doğmaz olaydım səni!” Mavi ayağa durdu, gedib uşağı qucağına aldı. “Sənə heçkim

onu doğasan deyə yalvarmamışdı. Öz lənətə gələsi günahına görə uşağı günahlandıra bilməzsən indi. Sənin axmaqlığının cəzasını o çəkir. Sənə heçnə borclu deyil o. Kaş ki doğmaz olaydın bəli, kaş ki!"

Sonra bu xəyalından oyandı Mavi, kaş ki durub ayağa o qadının üzünə bağıra-bağıra deyə bilsəydi deyə düşündü bu sözləri. Dişlərini bir-birinə sıxaraq dərin nifrət hiss etdi. Son bir dəfə zavallı uşağa baxdı. Onun üçün acıdı və üzünü çevirib diqqətini yayındırmağa çalışdı. Mərhəmət hissinin lənət bir şey olduğunu düşündü. Xoşbəxt günündə belə yolda gedərkən başqalarının yazıqlıqlarını görüb için yana bilərdi. Durduq yerdə kefin pozulurdu. Kaş ki olmasaydı deyə düşündü. Sonra onun da əslində melanxoliya hissi kimi pisdən daha çox, xoş bir hiss olduğunu düşündü.

Bu düşüncələr ona bir kişinin ağlamasını xatırlatdı. Atasını ilk dəfə ağlayarkən gördüyü günü xatırladı. Gizlicə izləmişdi onun ağlamasını. Sanki elə o gündəcə böyümüşdü bir anda. Kişilərin də ağladığını öyrənmişdi. Həm təəccüblənmiş həm içini kədər bürümüşdü. Mavi bir kədər. Və mavi gözyaşları. Niyə ağladığını düşünmüşdü atasının. Onlara daha da xoşbəxt bir həyat verə bilmədiyi üçünmü? Onun yanına gedib "bu qədəri bəsdir bizə" demək istəmişdi. Ancaq çəkinmişdi. Uşaqlar atalarının ağlamalarını görməməliydi deyə düşündü. Güvəndikləri tək adamın göz yaşlarını görmək onlara həyatları boyu dünyanın etibarlı bir yer olmadığını xatırladacaqdı. Ataları belə ağlamışdı, demək ki dünya bərbad bir yer idi. Atalarının belə sinə gərə bilmədiyi problemlərə qarşı onlar nə edə bilərdilər ki?

Kişinin ağlamasından daha müqəddəs nə var idi dünyada? Qadının ağlamasıyla qətiyyən eyni deyildi bu. Empatiya hədiyyəsi ilə doğulmuş qadınlardan fərqli olaraq kişilər erkək pələnglər kimi savaşmaq və liderlik üçün doğulmuşdular və ağlamaq onlara tanrılar tərəfindən qadağan edilmişdi.

Ancaq sanki tökülən hər gözyaşı təkamülün alovunu söndürən damla kimi idi və dama-dama göl olurdu. Sanki kişilər

üstlərinə düşən təkamüli məsuliyyəti inkar edir və sadəcə insan olmaq istəyirdilər. Sanki kişi olmaq yalnızlığa məhkum olmaq idi, istər ata ol istər uşaq. Və bir kişinin gizli ağlamasından daha müqəddəs bir şey varsa deyə düşündü, o da bir neçə kişinin birlikdə və bir yerdə ağlaması idi. Bir fəlakət baş vermiş olmalıydı. Sözün bitdiyi yerdəsizin demək idi bu.

Metro dayandı. Çıxıb bara doğru yönəldi. Hər həftəsonu o bara gedəndə, yalnızlığının ağırlığını hiss etmişdi. Qapıdan içəri girərkən yalnız girmək. Və gedib bir küncdə dayanıb içmək. İçəridəkilərin yarısı onun kimi yalnız, yarısı isə dostları ilə birlikdə yalnız idi. Həftəsonları barın ortasındakı masalar yığışdırılır və oynamaq üçün yer düzəldilirdi. Həm zirzəmi qatı həm də ikinci mərtəbə də açılırdı həftəsonu və hər üçündü yüksək səsli musiqi və qaranlığı dolduran izdiham və rəngli işıqlar olurdu. Ortada qızlar oynayır, ətrafları isə yalnız ya da ikili üçlü yalnız oğlanlarla dolurdu. Bu mənzərə kənardan baxıldığında dişi və erkək pələngləri xatırladırdı. Dişi pələnglər üçün savaşan erkəklər.

Gecənin əvvəlində hamı ayıq başlı olduğu üçün bir-birinə məsafəli davranır, sonuna doğruysa içki və narkotikin təsiriylə hamı getdikcə daha da unudurdu yalnızlığını və başqa insanlarla aradakı sərhəddi. İnsanlar ikicə saatlıq belə olsa yalnızlıqlarını unutmaq istəyirdilər, ancaq, sanki burda nə qədər yalnız olduqlarının daha da çoxmu fərqinə varırdılar? Başqa yalnızlara baxaraq təsəllimi tapırdılar yoxsa başqa cütlükləri və onların xoşbəxtliklərini görüb əzilirdilərmi? Sosial fobiyası olan yalnızlar üçün hər şey daha da çətin idi. Hamının onları izlədiyini sanaraq hər saniyə ayaqlarının duruşunu dəyişir, əllərini bir cibdən çıxarıb o birinə salır, telefonla oynayır, sanki nə iləsə məşğulmuş kimi görünməyə çalışaraq içdən-içə həyatlarına və taleylərinə lənət oxuyurdular. Və belə deyirdilər "Bircə bu sosial fobiyam olmasaydı, hər şey o qədər fərqli və yaxşı olardı ki!". Yanılırdılarmı? Hər şey yəqin ki fərqli olardı, amma bəs yaxşı? Yoxsa onlar sadəcə Qodot'umu gözləyirdilər? O gəlsə, hər şey yaxşı olacaqdı.

Təqdiqatlara görə içki qana qarışdıqdan sonra insanı olduğundan xoşbəxt hiss etdirir, özünü olduğundan daha zəki, cəsarətli və yaraşıqlı hiss edirsən. Etdiyin zarafatların olduğundan daha da yaxşı olduğunu düşünürsən. Bəlkə də sadəcə buna görə bara gəlir və içirdilər.

Barın qapısı ağzındakı siqaret çəkənləri ötüb içəri girdi. Yenə həmişəki kimi insan qaynayırdı. Həftənin bugünləri ən qızğın vaxtlarıydı barın. Hər tip insan tapmaq olardı, narkotik satıcıları ya aludəçiləri, transseksuallar ya homoseksuallar, bdsm tayfası, sesk aludəçiləri, dəri geyimlilər, qotiklər, hippilər, metalçılar və s. Ən çox da buna görə sevirdi buranı, müxtəliflik yeniliyə olan doyumsuzluğunu azalda bilirdi heç olmasa. Səhnə tərəfdə üç-dörd qız yarı çılapaq formada qırmızı və çəhrayı işıqlar altında rəqs edirdi. Beldən yuxarı heçnə geyinməmişdilər və döş gilələri xaçabənzər qara lentlə örtülmüşdü. Bir müddət onları izlədikdən sonra içki almaq üçün izdihamı bölərək yaxınlaşıb sifarişini verdi. Biri əlini çiyninə atdı yavaşca,

- Hey, yaraşıq, necəsən, haralardasan nə vaxtdır? Görmürəm səni buralarda.- deyə sarı uzun saçları və mülayim səsi olan bir oğlan onu salamladı. Adını unutduğu burda tanışdıqları biriydi. Homoseksuallığı səbəbilə oğlan Maviyə həddindən artıq maraq göstərirdi.

- Necəsən. Aha, yox idim bir müddətdir. – deyib əlini uzadıb gülümsədi və salamlaşdılar.

- Bax bu Lillydir. Lilly, Maviylə tanış olmaq istəyirsən? – yanındakı qızı göstərdi Maviyə. Qız səbəbsiz heyranlıq və heyrətlə baxaraq əlini uzatdı və tanış olduğuna sevindiyini bildirdi gözlərini Mavinin gözlərindən çəkmədən. Ekstazi təsiri altındaydı böyük ehtimal deyə düşündü Mavi.

- O buralı deyil, uza - oğlan qıza bardakı musiqinin səsi səbəbi ilə yüksək səslə dedi. Qız heyran baxışlarını Mavidən ayırmadan başını yellədi.

İçkisini alıb onlarla sağollaşıb ayrıldı, küncə doğru getdi. Oturacaq yer yox idi, ayaqda durub divara söykəndi və insan-

ları müşahidə etməyə başladı. Barda yüksək səslə danışmağı sevmədiyi və indi kefsiz olduğu üçün həmin oğlan və qızla görüşüb bir kənara çəkilmişdi. Oğlanın ona olan cinsi marağını hiss edir və bu onu narahat etmirdi. Normal qarşılayırdı. Hətta çox vaxt homoseksual oğlanlar tərəfindən  bəyənilmə hissi eqosunu oxşayırdı. Nəticədə bir insan səni bəyənir və arzulayırdı.

Laranı xatırladı. Artıq ona olan hirsinin azaldığını hiss edirdi. Çıxıb getdiyi üçün o qədər də hirslənmirdi sanki. Bəlkə də onun gedişinə bu qədər çox reaksiya göstərməsinin səbəbi yalnızlığı idi deyə düşündü. Yoxsa onsuz da yəqin ki bir ay sonra bir-birlərindən bezməyəcəkdilərmi? Bəlkə də hə, bəlkə də yox.

İçəri girdiyindən bəri arasıra göz-gözə gəldiyi qızı təkrar gördü. Qız ona baxıb güldü, Mavi təbəssümlə qarşılıq verdi ancaq yanına gedib danışmağa həvəsi tapmadı.

Təkrar bir içki aldı və sanki Lara olasydı hər şey fərqlimi olacaqdı deyə düşündü. Ancaq yenə də təəccübünü gizlədə bilməyərək onun niyə getdiyinə məna verə bilmədi. Axı onlar tanışdıqları andan etibarən etdikləri söhbətdə uzun müddətdir bir-birlərini axtardıqlarını və çox sevindiklərini bildirmişdilər? Hər şey ani olaraq inkişaf etmiş və pik həddə çatmışdı. Onun sinəsini boynunu və dodaqlarını xatırladı. Hər şey necə mükəmməl idi. Ayaqlarını xatırladı. Çılpaq bədənini xatirələrin arasından dartıb çıxarmağa çalışdı. Sanki tanrı qadınları Laraya baxaraq yaratmağa çalışmış və uğursuz olmuşdu. Ən gözəl əsərləri belə, Laranın çirkin bir yamsılamasıydı.

İçkini damarlarnın içində hiss etməyə başlayırdı. Qolundakı damarlarda sanki bir şeylər damarın içini qıdıqlayır ya qaşıyırdı.  Qarşıda oynayan qızın ayaqlarını izləyirdi. Sonra ona baxan oğlanları. Qızın pik həddə çatmış həyat eşqi və özinamı. Onun üçün hər şey daha asan olmalıydı deyə düşündü. Sonra bəlkə də bu fikrin səfehcə olduğunu düşündü. Onun yanındakı başqa qıza baxdı. Əlində içki yox idi, içməmişə oxşayırdı ancaq necə də xoşbəxt idi, xoşbəxt olmaq üçün içkiyə ehtiyacı yox idi. O qədər gözəl idi ki, xoşbəxt olmaq üçün birilərinin

ona heyran-heyran baxması kifayət idi. Yanındakı qız isə içirdi və çox içmişdi, ikisi də eyforiyayla gülürdü, ancaq birini süni içki digərini isə saf xoşbəxlik güldürürdü.

Aralıqlarla bir neçə qız ona baxıb gülümsəyərək rəqsə dəvət etdilər ancaq heç birinə yaxınlaşmadı. Təbəssüm edib yola verdi. Həvəssiz idi. Səs küyün içində arasıra xəyala dalıb təkrar oyanırdı. Belə yerləri ona görə sevirdilər əsas da, reallıqdan uzaqlaşa bilmək üçün. O qədər gutultulu səs və izdiham olur ki bəzən öz iç səsini belə eşitmirsən. Diqqətin yayılır və öz real problemlərini unudursan. İnsanlar həyatlarındakı narahat edici səssizliklərindən qaçmaq üçün barlara gedirlər. Üstəlik burda qaranlıq və izdihamın içində dəliliklərini ortaya çıxara bilir, istədikləri qədər qışqırır və oynaya bilirdilər. Məsələn çöldə heç kim tək siqaret çəkmək istəmirdi, siqaret üçün çıxmaq istəyənlər qapının ağzında heç kimin olmadığını görəndə yarısı geri dönürdü. Çünki bəzən siqaret çəkmək məqsəd yox, qapının ağzındakı hansısa yadla keçici söhbətlər etmək üçün vasitə idi.

Böyük spikerlərə yaxınlaşıb qulaq dəliyini barmağıyla tıxayıb başını gurultulu musiqinin qaynağına dayadı və bas dalğalarını bütün bədənində hiss etməyə başladı. Sağ ayağı ritmə uyğun templə yellənməyə başladı. David Bowie'nin *I am afraid of Americans* musiqisi bitdi və yerinə Wolfsheim'dən *Touch* başladı. Gözünü yumdu və musiqini hiss etdi.

İçkinin təsiri siqaret istəyini tətikləmişdi amma hələ ki çıxmamağı qərara aldı. Ortada tək oynayan olduqca uzun boylu təxminən 40 yaşlı kişiyə fikir verdi. Hansı qıza yaxınlaşırdısa qız üzünü çevirirdi. Ancaq o içkinin təsiriylə yenə də özünü sındırmır və başqa qıza yaxınlaşırdı o da üzünü çevirirdi və o sərxoş əl qol hərəkətləriylə sanki "rədd olun" deyirdi, "hamınız rədd olun". Niyəsə onu Riçarda oxşatdı, bəlkə də yazıqlığı səbəbilə. Mavinin ona baxdığını gördü və oynaya-oynaya, səndələyərək ona yaxınlaşdı. Yanındakı divara söykəndi.

- Çəkirsən? –deyə yüksək səslə Mavidən soruşdu.

- Nə? Eşitmirəm. – Mavi yüksək səslə soruşdu

- Kokain deyirəm, çəkənsən?

- Bəzən.

- Əgər istəyirsənsə gəl mənlə, maşında varımdı.

- Bilmirəm, yox yəqin. Yaxşı maldı?

- Hə, əlimə keçmişlərin ən yaxşısıdı. Gəl. – deyə sərxoşca səndələyərək çağırdı Mavini.

- Biraz fikirləşim – deyib Mavi on on-beş saniyə oynayanlara baxaraq düşündü.

- Sadə bir sual üçün həddindən artıq fikirləşirsən. Mən gedirəm, əgər gəlmək istəsən beş dəqiqə vaxtın var, çöldə maşında olacam- deyib səndələyərək uzaqlaşdı.

Getmədi. Heçnə istəmirdi canı. Bir müddət sonra kişini gördü oynayanların arasında. Eyforiyadaydı. Artıq heç bir qıza yaxınlaşmadan özü üçün oynayır və dərin xoşbəxtlik hiss edirdi. Onun üçün həm sevinib həm üzüldü Mavi. O sadəcə başqa bir yalnız idi. Qarışıq və təkrarsız hərəkətlərlə oynayır ancaq yəqin ki möhtəşəm oynadığını düşünür və özünü tanrı kimi hiss edirdi bu dəqiqələrdə. Sabah isə hər şey onun üçün yenə eyni hətta daha da pis olacaq. Beynindəki xoşbəxtlik hormonlarını açıb buraxmış olan kokain sabah onu daha da süründürəcəkdi. Ortaya qədər yeriyib kişini qucaqladı Mavi, sonra əlini bir neçə dəfə çiyninə vuraraq ona əla oynadığını və davam etməsini dedi. Ordan keçib bir içki daha alıb tualetə getdi. İçəridə narkotik alıcı və satıcıları var idi. Təkliflərə yox deyib işini görüb çölə çıxdı. Siqaret çəkmək üçün ordan da çıxdı. Soyuq idi. Siqaretini yandırıb bir küncdə dayandı. Qısa paltarlı qızların ayaqlarına baxdı. Üşümürlərmi deyə düşündü. İçkinin təsiriylə daha da ehtiraslı formada təkrar süzdü ayaqları.

- Oi! Səncə də o oğlanın bığları Nietzschenin bığlarına oxşamırmı?- deyə yanında yüksəs səslə müzakirə etməkdə olan iki irlandiyalı sərxoşdan biri ondan soruşdu.

- Deyəsən- deyə etinasızca cavabladı.

- Maraqlıdı görəsən onun kimi dahidirmi - deyə digər oğlan dilləndi və onlar yüksək səslə güldülər.

- Nietzsche özü belə dahi deyildi – deyə mızıldandı Mavi öz-özünə.
- Nə? Zarafat edirsən? Sən özünü nə sanırsan – deyib təkrar güldülər
- Hansı kitablarını bitirmisən- dedi o biri.
- Heç birini, bir neçəsinə başlayıb yarım buraxmışam, öz məsləhətindən sonra.
- Öz məsləhətindən sonra?
- Hə. Haqqındakı bioqrafik romanda deyirdi. Yazarı İrvin Yalom idi ya kim? Nitşe gözünün korlanmağa başladığı andan sonra daha az oxumağa başladığını demişdi, bu da ona öz orijinal fikirlərinin yaranmasında kömək edibmiş. Mən də onu oxumağı saxladım, öz məsləhətinə qulaq asaraq.
- Bu çox axmaqca səslənir – deyib təkrar güldülər siqaret çəkərək.
- Hər nə poxdu. Vacib deyil. Nietzsche də vacib deyil. Dahi də deyil.

Yanda bir qızın siqareti Mavinin ayağının yanına düşdü və qız yüksək səslə bir şeylər söydü, irlandiyalılar ona da güldülər. Onların digər bütün irlandlar kimi sərxoşluqları və xoşbəxtlikləri Mavinin əsəblərinə toxundu.
- Sənə görə kim dahidir? Bir ad çəkə bilərsən? – deyib güldülər.

Bir az düşündükdən sonra dilləndi Mavi:
- Bilmirəm. Deyəsən heç kim. Yəni dahi nəyə deyirsən axı? Bir insanın yüksək zəka ilə doğulması onu dahi edir səncə? Yəni bir riyaziyyatçı yaxşı analitik beyin ilə doğulub və böyüyüb deyə dahimi olmuş olur? Yoxsa sadəcə xoş-bəxti olduğu üçünmü dahi olmuş olur? Dahi dediyin adam sadəcə bir şəxs olsaydı bəlkə hə. Ancaq sənin dediyin kimi minlərlə dahi var, nadir deyilsə nəyi dəyərlidi? Müəyyən cəhdlərdən sonra ya da yüksək zəkayla doğularaq olunursa bir şey, nə bilim. Dahi deyillər. Musiqiçi və ədəbiyyatçılarmı dedin? Zarafat edirsən? Onların sadəcə gözəl tərzləri var, bu o demək deyil dahidirlər. Müəyyən şərtlər və cəhdlərdən sonra müəyyən vaxt ərzində, ki

əgər o qədər boş vaxtın olsaydı, səndə eyni şeyi edə bilərdin. Nə? Mozart ola bilməzdin? Özünü niyə bu qədər alçaldırsan, əgər Mozartın tərzini sevirsənsə deməki sendə o zövq və o dad var, vəssalam. Sadəcə aləti necə işlətmək lazım olduğunu bilmirsən. Bilirəm, düz deyirsən, məsələ onsuz da o aləti işlətməyi öyrənmək ola bilər. Ancaq bu sadəcə vaxt məsələsidir. Doğru yerdə və doğru şərtlərdə doğulsaydın əgər səndə Mozart ya Nietzsche olardın. Sən çoğrafi determinizmin qurbanısan, onlar da coğrafi determinizmin yetirməsi. Taleyin tamamilə sənin əlində deyil və onların da əlində deyildi. Bu onları dahimi edir? Bilmirəm. Hər nəysə, boş ver, dahi deyə birinin olub olmaması nə məni nə də sizi daha xoşbəxt etmir. Ancaq yenə də, başqalarını gözünüzdə bu qədər böyüdüb özünüzü kiçiltməyin.

- Xətrinə dəyməsin, ancaq məncə sən sadəcə həddindən artıq kibirli birindən başqa heçnə deyilsən. Ya da dindarsan, hamının bir tale ilə doğulduğuna inanırsan – dedi biri və istehzayla güldülər.

- Ola bilər – deyib siqareti söndürüb içəri tərəf yeriməyə başladı.

Yolunun yarısında bir şeylər xatırlamış kimi olub lənət İrlandiyalılara döndü və səsləndi:

- Hey, madam ki lənət Nietzsche bu qədər dahi sanırsız və sevirsiniz, onda niyə onun məsləhətinə qulaq asaraq gedib süd içmirsiniz amma gəlib burda içki içərək dərdlərinizi unudub xoşbəxtlik axtarışına çıxırsınız? Heç olmasa onu bilirsinizmi bilmirəm, amma insanın içki içərək əzablı anlarını keçiştirməyindənsə onlarla üz-üzə qalıb başa çıxmağın tərəfdarıydı. Siz İrlandiyalılara çox uzaq bir fikirdi amma bu, yəqin sizə də nifrət edərdi. – dedi və içəri getdi.

İçəri girərkən qapının ağzında bir neçə ay əvvəl albaniyalı dostu dəlisov Sezarla birlikdə aptekdən aspirin oğurlayıb kokain adıyla 200 dollara satdıqları həmin oğlanı gördü. Sonra o pulu götürüb eyni küçədəki başqa bara gedib xərcləmiş, yarısıyla içki yarısıyla da əsl kokain almışdılar. Oğlan onlardan kokain əvəzinə 200 dollarlıq aspirini alarkən çarəsizcə “kar-

maya inanırsız də hə?" deyə soruşmuşdu və onlar da *"hə hə əlbəttə inanırıq, o nə sözdü"* demişdilər. Üzünü çevirdi ki oğlan onu tanımasın. Yanından keçib içəri girdi.

Kiçik bardaqda vodka və alkoqolu çox olduğu üçün IPA pivəsi istədi. Vodkanı birbaşa içib pivəni əlinə götürdü. Bu sifarişi bir neçə dəfə təkrarladı. Bəzən vodkanı pivənin içinə tökdü. Hər dəfə belə edirdi. Beləcə həm ucuz həm də daha tez və artıq sərxoş olurdu. Bir vodka bardağı və bir pivə, ən ağır kokteyldən belə daha yaxşıydı. Ən azından içini su, buz ya kolayla doldurmurdular.

Barın içində sərxoş formada ora bura gəzirdi. Səhnənin yanından keçəndə bayaq ona baxıb gülən həmin qızla qarşılaşdılar. Qotik üslubunda geyinmişdi qız. Qotik aksesuarlar və başdan ayağa qara yarı-çılpaq geyim onu olduqca ehtiraslı göstərirdi. Boyasız qıp-qırmızı dodaqları və zil qara dalğalı saçları var idi. O qədər gözəl və təbəssümü o qədər şirin idi ki Mavi bir anlıq bütün hər şeyi unutdu. Qız gülümsədi və Mavi təbəssümlə qarşılıq verdi. Danışmadılar. Qız onun əlindən tutub səhnəyə çəkdi. Səhnədəki digər rəqs edənlərin arasında sarılıb oynamağa başladılar. Mavi qızın üzünə dağılan saçını yığışdırıb onu öpməyə çalışdı. Qız bir anlıq tərəddüdlə dodaqlarını çəkdisə də sonra onu öpdü. İçkinin təsiriylə dodaqlarını sərt formada dişlədilər.  Mavi belini qucaqladı qızın və digər əliylə belindən aşağı enib budunu qavradı ovcuyla, sıxdı və daha da ehtiraslandı. Qız dodaqlarını çəkib arxasını Maviyə çevirdi və budlarını onda ayırmadan rəqs etməyə başladı. Qızın köynəyinə "mayhem" yazılmışdı, yubkasına isə "burzum". Bu nüans Maviyə daha da ləzzət etdi. Qadınlara olan mübtəlasını, məftunluğunu düşündü. Fikirləşdi ki qadınlar onu həm həyatda tutan həm də bəlkə ölümü bu qədər arzulamasının səbəbkarları idilər. Onu təkrar öpməyə çalışdı amma qız üzünü çevirmədən arxası ona dönük oynamağa davam etdi, dayanmadan gülürdü. Bir kənara çəkilib divara söykəndi Mavi və qız bədənini ondan ayırmadan ehtiraslı rəqsini davam etdirdi. Mavi ayaqlarının arasındakı şəhvət partlamasının təkidi ilə əli-

ni qızın paltarının altından salıb onun döşünü qavradı. Digər əlini qızın yubkasının altından salıb budunu oxşamağa başladı. Qız ona döndü və təkrar öpüşdülər. Mavi qızın qulağına yaxşınlaşıb pıçıldadı: "Səni gözləyirdim"

Barın iki mühafizəçisi onlara yaxınlaşıb hərəsi birini çağırdı. Qara dərili qadın "təhlükəsizlik" yazılı bir köynək geyinmişdi və yüksəs səslə Maviyə nələrsə deyirdi, eşitməyib təkrar soruşdu və qadın təkrar dedi "Sən kifayət qədər sərxoş göründüyün üçün qoluna bu lenti vurmalıyam ki bir daha içki ala bilməyəsən bi gecə". Mavi gülümsədi və razılıq bildirərək qolunu qaldırdı. Digər təhlükəsizlik nəzarətçisi də iki metr aralıda qıza eyni şeyi deyirdi yəqin. Onun da qoluna bağlayırdılar. Üzünü çevirib qoluna bağlanan lentə baxdı "21 yaş altı" yazılmışdı. Başını təkrar qaldırdığında qız yox idi. Ətrafı gəzib onu axtarmağa başladı ancaq heç harda tapa bilməyib bir müddətdən sonra axatarmağı dayandırdı.

İçəridə sadəcə bədənini tərpədərək aşağı templə biraz rəqs etdikdən sonra çölə siqaret arasına çıxdı səndələyərək. Çöldə iri bədənli birinin ona bayaq kokain təklif edən Riçarda bənzəyən o uzunboy yalnızla dalaşdığını gördü. Onlar bir-birini itələyir, dartışır və söyüşürdülər. Məsələnin nə olduğunu bilmirdi Mavi. Uzun boy yalnızın qorxduğunu hiss etdi. Tərəddüd etmədən yanlarına getdi. Yanlarındakı insanlar heçnə etmədən gözləyir ya polisin ya da bar mühafizəçilərinin gəlməsini gözləyirdilər. Mavi olanları tam olaraq başa düşmür, başı gicəllənir və öz-özünə mənasız ifadələr işlədir, söyürdü.
–aəle sizinha-mı dayan gö çəki rəd ol qabağımna-

Yaxınlaşan kimi uzun boyu geri çəkib aralarına girdi və iri həcmli olanı sinəsindən möhkəmcə geri itələdi və ardından üzünə sərt bir yumruq vurdu.  Oğlan yerə yıxıldı. Mavinin səndələməsi yaralı aslanı xatırladırdı. Bağıraraq ütsünə getdi oğlanın. Sol yanağına bir yumruq yedi və yerə sərildi. Bir neçə saniyə sonra özünə gəldi və daha da artıq baş gicəllənməsi ilə ayağa durub müvazinətini qorumağa çalışdı. Oğlanın təkrar üstünə getdi vurmadan. Yenə yumruq yedi və

yerə sərildi. Təkrar ayağa durdu və üstünə getdi, vurmadı. Yenə yumruq dəydi geri-geri gedib yıxılmadan dura bildi və təkrar yöndəmsiz addımlarla irəli gəldi. Vurmadı. Qarşısındakı da vurmadı və “özünü öldürtməkmi istəyirsən axmaq!” deyə qışqırdı onun üstünə. Mavi onu sinəsindən geri itələyib olduğu yerdə dayandı. Oğlan geri gəlib onun köynəyinin yaxasından tutdu və üzünə vurdu, sonra təkrar vurdu və təkrar vurdu. Sonra təkrar vurdu. Nə dediyi anlaşılmırdı artıq Mavinin və partlamış dodağı ilə qaşı üzünü qana bulamışdı. Hər yumruqda daha da bərk qışqırır və sanki bundan zövq alırdı.

Bir qız gəldi və onu tutub vuranı saxlamağa çalışdı. “Xahiş edirəm dayan, mən onu tanıyıram, sadəcə çox içib.” deyib Mavini geri çəkməyə çalışdı. “Götür rədd elə bu axmağı burdan!” deyə qışqırdı qızın üstünə oğlan.

Qız Mavini bir kənara dartıb yerə oturtdub köynəyini yuxarı qaldıraraq üzündəki qanı sildi. Sonra orda oturub gözləməsini deyib maşınların arasında itib əlində suyla geri gəldi. Suyu üzünə töküb üzünü yudu. Yaş əlini Mavinin alnına tutdu. Saçlarını isladıb onu ayıltmağa çalışdı.

- Ağlını itirmisən? Niyə səni bugünə salmasına icazə verdin onun? –deyə soruşdu qız.

Mavi anlaşılmaz kəlimələr deyib əl qol hərəkətləri etdi. Sanki hələ də qışqırmaq istəyirdi. Sanki zərbələr xoşuna gəlmişdi. Ağır bir şeylərin üzünə zərbəylə dəyməsini istəyirdi. Sanki ölmək istəyirdi ancaq qorxurdu. Sanki magistralda hər dəfə maşın sürərkən maşını əks tərəfdən sürətlə gələn maşınların üstünə sürməmək üçün özünü güclə saxladığı o anlardan birindəydi və maşını onların üstünə sürmüşdü. Sırf ağır bir zərbəyə məruz qalmaq üçün. Əgər ayaq barmağınız qapıya dəysə və onu əzsəniz, qolunuza ya ayağınıza möhkəm formada vuracağınız şillə sinir sisteminizin fikrini dağıdacaq və barmağınızdakı ağrını hiss etməyəcəksiniz. O da sanki ürəyindəki ağrını bir anlıq belə olsun unutmaq üçün bədəninə zərbələrin enməsinə sevinmişdi.

Qızın əlindəki yarımçıq su butulkasını alıb başına tökdü sonra ağzını doldurub, yaxalayıb yerə tüpürdü.

- ..iqetn vvar?- deyə soruşdu qızdan

- Nə?

- Siqret – deyib barmaqlarını dodaqlarına apararaq siqareti olub olmadığını soruşdu.

- Aha var – deyib qız cibindən siqaret çıxarıb uzatdı ona – evə necə gedəcəksən? Maşınlasan? Belə sürə də bilməzsən.

- Y oxdu içni sikm

- Nə yoxdu?

- Ev, maşımn

- Mən maşınlayam. Harda qalırsan bəs? Küçədə qalana oxşamırsan, apara bilərəm səni

- Ffred – dedi Mavi kəkələyərək və oturduğu yerdə yellənərək. Sonra yerə yıxılıb gözünü yumdu və sayıqlamağa başladı. Titrəyirdi. "Nyə belə soyuxdu bu siklmiş şəhrr" deyə titrəyən çənəsiylə sayıqladı.

Qız təkrar geri gedib maşınların arasında itdi. Bir neçə dəqiqə sonra qırmızı bir maşın barın qarşısında dayandı. Qollarının altından dartıb ayağa qaldırmağa çalışdı onu və maşına oturdu. Maşını yoldan çəkib kənarda saxladı. Qızdırıcını isti havanın Mavinin üstünə vuracağı formada nizamladı. Bir siqaret yandırdı. Mavi özünə gələnə qədər bir müddət gözlədi. Radiodan musiqi seçib səsini azaltdı. Mavi yerində fırlanır və sayıqlayırdı. Qızın qolundakı tatuirovka diqqətini çəkdi ancaq baş gicəllənməsi və diqqətsizlik səbəbilə nə olduğunu başa düşə bilmədi. Qızın incə dodaqları diqqətini çəkti. Onunla eyni boyda və orta saçlı idi. Gözlərini yumdu və biraz daha su içdi.

Bir müddət belə keçdi və qız radiodakı mahnıları davamlı olaraq dəyişməklə məşğul oldu, qərar verə bilmədi.

- Bu qalsın –bir müddət sonra Mavi mızıldandı. Elliott Smithin səsini tanımışdı.

- Elliott?

- Aha – deyə cavabladı Mavi başı sinəsinə doğru bükülmüş yorğun formada, gözləri nizamsız aralıqlarla yumulub açılırdı.

- Bəlkə qusasan? Biraz özünə gələrsən?

- İki gü-iki gündür heçnə yeməmşəm. Ya üç. Dyəsən. Qusacaq heçnə yoxdu. Həm də yuxusuzam. Yetəri qədər ac və yuxusuzluğun hallüsinasiyalara səbəb olduğunu bilirsən də? Bəlkə də sən real deyilsən, əmin deyiləm.

- Dibinə qədər realam sən narahat olma. Qızındın biraz indi?

- Aha. Sağol. Üzümü hiss etmirəm sadəcə. Soyuq getdi amma yumruqlar. Maşında salfet var?

- Yox təəssüf ki, köynəyinlə sil dodağındakı qanı, onsuz da silmişəm mən artıq, qandı hər yerin.

Köynəyiylə üzünü təkrar sildi Mavi. Qıza baxdı. Qız huşsuz formada onun qanlı və partlaşım dodağına baxır və dili ilə dodaqlarını isladırdı.

- Vampir kimi baxırsan – deyib gülümsədi Mavi.

- Fred kimdi? Gedəsi yerin var? Ya evə sürüm? Bu halda hara gedəcəksən, mənə gedək, paltarını da yuyarıq.

- Dostumdu. Sən hardan bilirsən? Nə vaxt dedim? Məni gözləyir, gecə mütləq gələcəyimi demişdim.

- Zəng et de ki səhər gedərsən?

- Telefonum yoxdu. Getməsəm oturub məni gözləyəcək adamdı.

- Telefon yox maşın yox ev yox, nə olub sənə? Ölməyə gedirsən elə bil.

Mavi təbəssüm etdi. Qızın siqaret paketindən bir siqaret götürüb "Olar?" deyə soruşub razılıq aldıqdan sonra yandıran istədi, qız onun siqaretini yandırdı və baş barağıyla dodağındakı partlamış hissəyə yığılmış qanı təmizlədi. Gözlərini Mavinin gözlərindən çəkmədən baş barmağını diliylə yavaşca yaladı. Sonra ikisidə güldülər.

- Tək sərxoşun mən olduğumu sanırdım. Sən belə sürə biləcəyinə əminsən? Həm mən vampir məsələsində zarafat etmişdim – dedi Mavi.

- Bizə gedirik ya yox? – deyib qız maşını biraz geri verdi.

- Hər şey üçün çox sağol. Amma bilmirəm, dostum məni

gözləyir. Həm nə halda olduğumu görürsən, sənə heç bir köməyim dəyə bilməz bu halda sənə getsək belə. Gecənin davamını necə təsəvvür edirsən bilmirəm, amma yəqin ki gedən kimi yıxılıb yatacam.

- Mən də səni özünə gətirəcək bir şey var.

Mavi qızın üzünə baxıb fikirə daldı. Qızın israrına qarşılıq çıxıb getmək istəmirdi üstəlik onu bəyənmişdi də. Onun da başqa bir yalnız olduğu ortadaydı. Tənha gecəsini bir yad ilə qısa müddətli də olsa unutmaq istəyirdi. Ya da bəlkə də sadəcə içkiliydi və sevişmək istəyirdi. Bəlkə də sadəcə darıxırdı.

- Yaxşı mən səni dostunun yanına aparmasam nə edəcəksən? Deyək ki aparmadım? Sən evli filan deyilsən? Əminsən səni gözləyənin dostun olduğuna? Yoxsa sevgilindi? – deyib əlini kurtkasının cibinə atıb kiçik şəffaf paketi çıxardı – al bax, bu da səni özünə gətirəcək olan xoşbəxtlik dənəciklərimiz. Gedirik ya yox?

- Telefonun var?

- Var. Niyə?

- Fredin nömrəsini bilirəm.

- Lənət olsun. Bilirsən və bayaqdan məni danışdırırsan. Ala, yığ.

Telefonu alıb Fredi yığdı. Bu gecə gələ bilməyəcəyini və bunun üçün üzr istədiyini dedi. Fred problem olmadığını, sabah nə vaxt istəsə gələ biləcəyini və evdə olacağını bildirdi.

- Gedək, harda qalırsan sən?

- On on beş dəqiqəlik məsafədədi burdan. Dostun harda qalır?

- Maşınla iyirmi iyirmi-beş dəqiqə. Malı barda kimdənsə aldın?

- Aha. sənin o savaşdığın, daha doğrusu özünü döydürdüyün xiyar ki var idi ha, onun səndən əvvəl dalaşdığı uzun boy var idi. O gəldi mənə təklif elədi. Ondan aldım. Ümid edirəm pis mal deyil. – deyib maşını sürməyə başladı qız.

- Ver baxım görüm. O uzun boy mənə də gəlmişdi. – qızdan paketi alıb ağzını açdı və iylədi – pis mala oxşamır.

- Deməli sən dahiləri xoşlamırsan hə? O iki irlandıyalıyla sən söhbət edəndə yanında durmuşdum mən. Diqqətini çəkmək üçün özümü dağıdırdım orda. Siqaretimi yerə atıb güya əsəblməşmişəm kimi yüksək səslə söydüm filan bəlkə dönüb baxarsan deyə amma sən o xiyarlarla söhbət edib sənə gülmələrindən zövq almağa davam etdin. Səni bir neçə dəfə görmüşəm buralarda.

- Doğrudan? Maraqlıdı. Mən, nəmm, düşüncəliydim, həm də kefsiz. Nə bilim. Yəni hələ də kefsiz, yorğun, ac, yuxusuz, döyülmüş və üşümüşəm.

- Bəlkə sən vurasan bir az indidən?

- Olar, saxla istəyirsən, birlikdə vuraq? Bu arada, sənin adın nədir? Mən Mavi.

- Babette. Mavi? Nə gözəl adın var.

- Babettemi? Haralısan sən? Həyatımda gözəl olan tək şey adımdır deyəsən onsuz.

- Danimarkalı. Daha doğrusu atam Fransız anam Argentinalıdı, Danimarkada doğulub böyümüşəm mən amma. İndi burdayam, haralı olduğumdan mən də əmin deyiləm düzü – deyib güldü Babette.

- Nə? Danimarkamı? Mən orda yaşamışam bir müddət. Təsadüfə bax. Hansı şəhərdənsən?

- Tanıyırsanmı bilmirəm, Klitmoller, balaca bir yer idi.

- İnana bilmirəm Klitmoller dedin?! Lənət olsun təsadüfə bax mən də orda yaşamışam! Axı sən niyə orda yaşayırdın? Balaca şəhər. Hansı illərdə yaşamısan orda?

- Beş il əvvələ qədər ordaydım, sonra bura gəldim. Atam orda işləyirdi. Sənin nə işin var idi ki orda? Daha çox Thisteddə olurduq, orda oxuyurdum filan. Amma ev o lənətə gələsi Klitmollerdə idi. Zəhləm gedirdi ordan, yaxşı canımı qurtardım.

- Eyni vaxtda orda olmuşuq! Mən də orda işləyirdim, turistlər üçün. Ancaq orda tapa bilmişdim işi internetdən. Bir müddət avropanın fərqli ölkələrində yaşamışam. Lənət olsun yəni deyirsən ki eyni vaxtda 1000 nəfər əhalisi olan kənddə

yaşamışıq və bir birimizi görməmişik tanımamışıq? Sonra üstündən illər sonra burda qarşılaşırıq?

- Bəlkə də görmüşük bir-birimizi, kim bilir. Bəlkə də orda da sən mənimlə tanış olmaq üçün siqaretini yerə atmısan amma mən dönüb baxmamışam – deyib güldü Babette.

Maşını bir kənarda saxladılar. “Dəftər ya kitab ya bir şey varmı” deyə soruşdu Mavi. Babette ona bir şeylər verdi. Malı düzüb iki sıraya böldülər. “Bu biraz çox oldu” deyib bərabərləşdirdilər və sonra sırayla çəkdilər.

- Zibilə qalsın, bu olduqca təmizdir

- Deyəsən.

- Məni vurur indidən, hiss edirəm.

- Sinəm genişlənir.

- Siqaret

- Mütləq

- Tanrı olduğumu unutmuşdum!

- Biraz daha çox musiqi, lütfən

- İstəyir bütün yunan tanrıları gəlsin vecimə deyil!

- Həyatın nə qədər gözəl olduğunu unutmuşdum az qala.

Musiqinin səsini artırdılar. Babette maşını təkrar işə salıb hərəkətə keçirdi ki arxadan qırmızı və mavi işıqlar maşının içini aydınlatdı və polis maşını sirenası eşidildi. Polis onlardan dayanmalarını istədi.

- Zibilə qalsın!

- Qorxma, sakit ol, qələt eliyir – deyə dilləndi Mavi.

- İçkini və malı gizlət, likyoru götür, tez ol!

- Hanı? Görmürəm mən heçnə.

Babette içki butulkasını oturacaqların ortasından götürüb altına atdı. Mavi paketi cibinə qoydu. Polis maşından enmədən maşını ilə onların pəncərəsi səviyyəsində saxladı öz pəncərəsini yavaş-yavaş aşağı saldı

- Gecə vaxtı burda maşın saxlaya bilmərsiniz.

- Y-yaxşı, oldu. Biz də indicə saxlamışdıq onsuz, gedirdik. Bağışlayın.

- Gecəniz xeyrə qalsın.

- Sizin də.

Polis maşını uzaqlaşdı.

- Zibilə qalsın, bu nəydi belə.

- Üzünü görməliydin, necə qorxmuşdun – deyib güldü Mavi – dedm axı sənə, narahat olma deyə.

- Bax gör nəfəsimdən içki iyi gəlirdi? – deyib Babette nəfəsini onun üzünə üfürdü və eyni zamanda maşını sürməyə başladı.

- Promil ölçən deyiləm amma deyəsən gəlmir

- Necə qorxdum

- Qorxu sonrası adrenalin partlaması yaşayır insan bilirsən də? Sən bir tərəfdən kokain bir tərəfdən adrenalinin təsiriylə yatmarsan bu gecə.

- Mən yata bilməyəcəmsə, sən də yata bilməyəcəksən deməkdi də bu bilirsən?

- Yatmaq istəyən var? Biraz da içmək istəyirəm, hanı bu sənin butulkan hara soxdun zibili - əyilib yan yörəsinə baxdı.

- Burdadır, amma bunun yaxşı fikir olduğuna əminsən? Çox içmisən bu gecə.

- Zarafat edirsən? Yaxşı yox möhtəşəm fikirdir, kokain hamısını sıfırladı o yorğunluq və sərxoşluğun, bundan sonra içəcəklərimi də. Sən sadəcə de görüm evdə başqa içki də var? Yoxsa bu gecə vaxtı açıq likyor mağazası tapa bilməyəcik.

- Var, narahat olma. Olmasa belə məni içə bilərsən.

- Əla. Möhtəşəmsən. Bu butulka onsuz da yarımçıqdır. Evə qədər bitirərəm bunu hətta. Sinəm dağılır. İçimdə xoşbəxtlikdən öləcək kimsələr var elə bil. Xoşbəxtlikdən ölmək. Möhtəşəm bir şey olmalıdı hə? Uzun müddətdir bu qədər dərindən və hiss edərək nəfəs almamışdım. Sənə minnətdar olmalıyam.

- Sən uzun müddətdi istifadə etmirdin deyəsən? Mən mütəmadi isitafadə edirəm deyə səninki kimi çox böyük partlama yoxdu məndə amma pis deyil. İkincini çəkməliyəm artıq. Polis bəlkə də qorxutdu məni nəbilim. Bu arada evə çatırıq az qalıb.

- Hə, mən bir müddət ara vermişdim bütün hər şeyə. Beynimin təmiz olmasına ehtiyacım var idi. Yəni, bilmirəm, ağır

depresiyalar keçiririridim və bunların maddələr səbəbilə olub olmadığını anlamaq üçün ara verdim, uzun bir ara və anladım ki maddələr deyil situasiyadadır problem. Təbii olaraq maddə istifadə etmədiyim üçün daha da çox dəliləşir, əsəbləşir evi dağıdırdım və sair. Bugün gördüyün kimi birinci dəfə deyil özümü döydürməyim. Babat rahatladır döyülmək. Olduqca içkili olmalıyam amma. Bu axırıncı az qala dişlərimi qırmışdı. Qırılsaydı da çox da vecimə deyildi deyə düşünürdüm çünki qısa müddətdə ölməyi düşünürdüm. Amma kokain mənə həyatın nə qədər gözəl olacağını xatırladır. Ölmək axmaqlıq kimi görünür, bu qədər dolu-dolu zövq eyforiyaları varkən. Zibilə qalsın dəniz üçün necə darıxıram bir bilsən. Günəşin sümüklərimi qızdırmasına ehtiyacım var – Cümlələri iti-iti deyir. Həyəcanla yüksək səslə danışır. Başını və ayaqlarını musiqinin ritmlərinə görə yelləyirdi.

- Çatdıq. Dəniz demə hə. Və hə, düz deyirsən, əgər həyatında hər şey bərbatdırsa maddələrdə deyil günah. Sadəcə qədərində istifadə etməlisən. –pilləkənləri çıxıb lifti çağırdılar - O heyvan səni vəhşi kimi vururdu. Onun kimi adamları anlaya bilmirəm. Necə əli gəlirdi elə vurmağa. İçkiliydi təbii amma yenə də. Amma sənin hər dəfə yıxılıb durub onun üstünə qorxmadan və cəsarətlə yeriyib vurmadan yumruq yeyib yenə üstünə yeriməyin məni qəribə formada ehtiraslandırdı. Necə dözürdün? O an qanlı bədənini üstümdə və səni içimdə istədim. Bəlkə də qana qarşı nəsə qeyri-adi bir istək var məndə nəbilim. Hələ də qanlı üzünə baxanda dəli oluram.

Lift açıldı. Mindilər və Babette düyməni basdı. Sonra Mavinin üzünə baxdı. Butulkanı başına çəkirdi. "Mənə də saxla" deyib aldı Babette, "Bu zəhirmarın dadını çox sevirəm, sırf bu brendin, aromasını hiss edirsən? Möhtəşəmdi hə?" deyib başına çəkdi içkini. Bitirdi. Və sanki normalından iki qat böyük gözlərlə Maviyə və onun partlaq dodağına zillədi gözlərini. Dili ilə dodaqlarını islatdı və özünü Mavinin üstünə atdı. Dodaqları məngənə kimi bir-birinə yapışdı ikisinin. Əli ilə boynunu və üzünü qavradı Mavinin. Butulka yerə düşdü. Çanaq-

ları bir-birinə yapışdı. Lift dayandı və qapılar açıldı. Dodaqları bir-birindən ayrılmadan çıxdılar və Babette onları darta-darta qapısına gətirdi. Açarı baxmadan yerinə salmağa çalışdı, bir az əlləşdikdən sonra aça bilməyib göz ucu baxaraq açarı yerinə salmağa müvəffəq ola bildi.

Sanki ağızları oksigen maskasına bağlanıbmış kimi dodaqlarını bir-birindən ayırmağa heç niyətli deyildilər. Sanki kosmosdaydılar və dodaqlarını bir-birindən çəkdikləri anda boğulmağa başlayacaqdılar. Sanki kosmosdaymış kimi gravitasiyadan uzaq və yüngül hiss edirdilər.

İçəri keçdilər. Babette ayağıyla qapını itələyib örtdü və Mavini divara söykədi. Əlini köynəyinin altından içəri salıb bədəninə toxundu. Hərarəti hiss etdi. Əlini onun sinə əzələlərində gəzdirdi. Mavinin barmaqları onun kürəyində gəzişirdi. Babette onu dartıb yan otağa keçirdi və itələyib yatağın üstünə atdı. Üstündəkiləri cəld hərəkətlərlə çıxarıb ətrafa atdı. Sonra özünü Mavinin üstünə atdı.

Dodaqlarını yavaşca onun dodaqlarına yaxınlaşdırdı və diliylə Mavinin dodağındakı qurumuş partlağı yaladı. Sonra dişləriylə yaranı sıxıb təkrar qanatdı. Diliylə yana axmaqda olan qanı yalayıb dodaqları ilə yaranı əmdi. Qana bulanmış dodaqları ilə boynunu öpdü. Köynəyini çıxardı və sinəsini öpərək aşağı enib kəmərini açdı.

Ehtirasın oyatdığı beyindən göndərilmiş sinir siqnallarının genişlətdiyi arteriya damarlarına dayanmadan daxil olan, qanla doldurularaq şişmiş olan orqanı öpdü Babettenin qanlı dodaqları. Qana bulanmış yerləri diliylə yalamağa başladı. Dili, şişərək barizləşmiş arteriya və vena damarları ilə sevişməyə başladı. Sanki dili əvvəlcə arteriyalarla gələn qanı aşağıdan yuxarıya doğru oxşayır, sonra yuxarıdan aşağıya doğru venalarla tərk etməkdə olan qan dənəciklərinin keçdiyi damarı oxşayırdı. Göz qapaqaları qalxdı Babettenin və Mavinin gözlərinə baxdı. Onun saçlarını əliylə qavradı Mavi və barmaqlarını saçlarının arasında itirdi.

Babette, sanki qana doymayıbmışcasına və bu qanla nasos-

lanaraq dolmuş damarları udmaq istəyərcəsinə bütün hamısını birlikdə dodaqları arasına aldı və zəli kimi sormağa başladı. İçindəki qanı soraraq içinə çəkmək istərcəsinə dodaqları arasındakı qanla dolu damarlar bütününü yavaş-yavaş yuxarı və aşağı doğru sormağa başladı. Mavinin iniltisi yayıldı otağa və əlləri daha da çox sıxdı qavramış olduğu saç topasını. Babettenin dırnaqları onun bədənində gəzməyə və çızıqlar açmağa başladı.

Gözləri təkrar kəsişdi. Böyümüş və gülən gözlər. İriləşmiş göz bəbəkləri və yavaşlayan zaman hissi. Otağı bürümüş inilti və çılpaq bədəndə gəzişən barmaq ucları. Sinəni cıracaqmışcasına yerində dura bilməyən ürək və onun döyüntü səsi.

Saçından tutub Babeti özünə doğru çəkdi və qanlı dodağını öpdü. Dikəlib üstünə çıxdı və bir pələng kimi onu pəncələri arasına aldı. Bir anlıq dayandı. Yenə bir pələng ədasıyla Babetteni süzdü, boynuna yaxınlaşıb onun qoxusunu içinə çəkdi və onun içinə girdi. Sonra təkrar girdi, təkrar girdi və təkrar girdi. Daha sürətli və daha da sürətli. İki ehtirasla dolu bədəndən çıxan səs dalğaları boşluqda qışqıraraq bir-biriylə sevişdi. Qopmaq istəmircəsinə birləşmiş iki bədən. Eyforiya və sevinc iniltiləri. Babetin dırnaqlarının sinədə açdığı cızıqlar və qan. İsti nəfəs səsləri. Daha sürətli və daha da sürətli. Qanı sürətləndirən adrenalin və hipofizdən damarlara göndərilən endorfin. Yox olmuş ağrılar və son həddinə çatmış həzz alma duyğusu.

Mavi sanki xoşbəxtlik adlı bir quşa minmişdi və quş onu ən dərin hisslərin yaşandığı həmin o dörd mövsüm yay olan yam yaşıl adaya aparırdı. Sanki dağların başında buz tutmuş bir qar topasıykən birdən birə yaz gəlirdi və qayalarla otların arasında süzülərək yeddi min fut hündürlükdəki yüksəklikdən aşağı doğru axan bir şəlaləyə çevrilirdi sinəsindəki düyümlər.

Tərli iki bədənin ətrafa yaydığı feromonlar və beyinə nasoslanan xoşbəxtlik dənəcikləri. Dopaminlər, serotoninlər və paralel orqazm. Boşalaraq yox olan ağrılar və rahatlamış bədən. Aktivliyi söndürülmüş beyin, yox olmuş mühakimə və idarə sistemi. İtmiş qorxu və təlaş hissi. Buludların üstündəy-

mişcəsinə yüngül hiss etdirən morfin dənəcikləri. Saniyələrə sığdırılmış saatlar hissi və titrəyən iki bədən.

Babettenin bədəni Mavinin ayaqları arasında titrəyərək boşaldı və dırnaqları daha da dərinə girdi kürəyində, dişi pələng pəncəsi kimi cırmaqladı bədənini. Mavi onun üstünə yıxıldı və idarə sistemi söndürülmüş beyin bir neçə saniyəlik belə olsa oyaq ikən yox olmuş olmanın həzzini daddı. Yox oldu. Nəfəslər yavaşladı. Gözlər yumuldu və qaranlıq bir qalaktikada itdi ruhları.

Babettenin bədənində sintezi artmış sevgi hormonu oksidosin onu erkək pələngini qucaqlamağa sövq etdi. Qucaqladı və sinəsinə doğru sıxdı Mavini. Başını Babettenin döşləri üstünə qoydu və onların arasında itdi Mavi.

Babette əlini yandakı masanın üstünə atıb siqaret götürdü.

- Siqaret istəyirsən? Sərxoş olmadığım anlarda siqaret çəkə bilmirəm mən, sevmədən sevişmək kimi. Güya özümə söz vermişdim ki siqareti buraxıram və sadəcə sərxoş olanda çəkəcəm. Sonra bir də gördüm ki alkoqolik olmuşam

Siqareti Mavinin dodaqları arasına qoydu və yandırdı.

- Vibratorumdan daha sürətlisən. Sanki evcilləşdirilməmiş bir buğa kimiydin. Yaxşı ki təsadüf bu gecə bizi birləşdirdi. – dedi Babette

- Səndə evcilləşdirilməmiş vampir kimisən

- Cırmaqlamalar üçün üzr istəyirəm, ağrımır? Mənə zövq verir, özümü itiririəm.

- Ağrımaqmı? Varlığımın belə ağrısını unutdurdun mənə, ona qalmış bir-iki cırmaq yarası. Bayaq evdə içki var demişdin, nəyin var? Bu arada sənə Babette yerinə Babet deyə bilərəm?

- Babet daha yaxşıdı məncə də. Bayaqkini bəyəndinsə onun eynisindən var konyak, bir-iki ucuz vodka və fərqli pivə növü var. Salona keç, soyuducunu görəcəksən, ordan istədiyini götür mənə də eynisindən gətir. Ya da get ora mən də gəlirəm.

Mavi ayağa durdu, şalvarını götürdü və geyinərək salona getdi. Soyuducunu açıb bir neçə içki götürdü. Salonun ətrafında yerə düzülmüş rəsm əsərlərinə baxdı. Rəssam olmalı idi.

Saolun kənarında rəsm alətləri və çəkilməkdə olan bir şəkil var idi çılpaq bədənlər və penislərdən ibarət. Babet siqaret paketini də götürüb onun arxasınca getdi. Maddənin qısamüddətli təsiri hər ikisində azalmışdı.

- Şalvara nə ehtiyac var idi ki cənab utancaq? – deyə Babett ehtiraslı və məzəli formada soruşdu.

- Sən həm vampir həm də nudistsən?

- Həm də sadist – deyib güldü Babett - Bədənində açdığım yaraları görmək məni ehtiraslandırır. Çıxar şalvarını, öz evində kimi rahat ola bilərsən.

- Təşəkkür edirəm, amma mən öz evimdə də şalvarla gəzirəm – deyə güldü Mavi və konyak butulkasını açıb başına çəkərək bir-iki qurtum içdi.

Babett butulkanı aldı və Mavinin sinəsindəki cırmaq izlərinin üstünə tökdü. Sonra cırmaq yaralarından birini aşağıdan yuxarı doğru diliylə yaladı. Bir pivə butulkası açıb başına çəkdi.

- Rəssamsan sən?

- Çəkməyi sevirəm hə, reallıqdan uzaqlaşdırır və sakitləşdirir.

- Burda tək yaşayırsan?

- Aha. Bizim kimilər yalnızlığa məhkumdur. Yəni ən azından fərqli növ yalnızlığa.

- Bizim kimilər?

- Sən, mən, bizimkimilər, doğulduqları yerdən başqa yerdə öləcəklər olanlar.

- Elədi. Başqa növ yalnızlıqdı

- Sanki ətrafında nə qədər yeni insan olsa da bir şeylər əksikmiş kimi

- Saudade.

- Saudade.

- Bir tədqiqatda deyirdi ki musiqi zövqümüz yeniyetməykən dinlədiklərimizə əsasən formalaşır. Ondan sonrakı illərdə də daha çox o musiqi tərzinin ətrafında fırlanırıq və onu sevirik. Bəlkə də sevdiyin həyat tərzi ya yaşadığın yerlər də yeniyetməykən formalaşır. O vaxt içində olduğun mühit üçün həmiş darıxırsan ya onun əksikliyini hiss edirsən. Yenə də bu

qədər bəsit deyil amma. Yəni hə. Yeniyetmə vaxtı yaşanılan şeylər sonralar nostaglianın başında gəlir, sözsüz. O şeyləri sevir və özləyirsən. Dünyanı yeni tanımağa başladığın və heçnə bilmədiyin üçün oxuduğun ilk kitablar sənin inqilabi gözəllikdə kitabların olur, filmlər də elə. Həddindən artıq məna yükləyirsən. Fikirlərin də o yaşlarda formalaşır və sonra ondan budaqlanır. Amma bütün insanlarda belə olmur. Bəziləri dəyişir. Sərhəddin kənarına keçir. Musiqi zövqü on dəfə dəyişir ya genişləyir başqa şey dinləyir. Yəqin ki ekstravertlər, ətrafa və yeniliklərə daha açıq olanlar, daha çox qeyri-konservativ insanlarda belə olur. Başqa yerlərə köçürlər. Sənin kimi. Mənim kimi. Başqa dadlara açıq olurlar. Ona görə də dayana bilməyib uzaqlaşırsan istənilən halda böyüdüyün mühitdən, sənə bezdirici gəlir. Bu qədər böyük dünyada onsuz da iyirmi ilini keçirmiş olduğun yerdə yaşamaq istəmirsən. Sonra uzaqlara gedirsən. Bir də görürsən ki özünü belə unutmusan. Harda olduğunu da. Ətrafında heç kim yox. Geri getmək də heçnəyi düzəltmir. Olduğun yerdə qalmaq da. Tanışdığın bütün insanlarda bəzən sanki nəyinsə əksikliyinimi hiss edirsən nə? Otuzlu yaşlardan sonra yeni insanlarla tanış olmaq çətinləşir deyir psixologiya. Daha da qapalı olursan. Sevgi münasibətləri də daha çox seks üstünə. Normal olaraq. Əvvəl gördüyün hər yeni insanla tanış olmaq istəyərdinsə sonralar sakitləşirsən, susursan, daha az insanla danışırsan. O fazanı sevmirəm. Bəlkə də ona keçid mərhələsindəyəm dey narahatam. Bəlkə də keçmək istəmirəm. Ancaq içində də əvvəlki ehtiras qalmayıb. İndi hər gördüyün insanla danışacaq qədər həvəsli deyilsən. Yeniliklər azalıb. Hər gördüyün şey yeni deyil artıq. Yaşamısan çoxunu. Bəlkə də lazımından artıq sürətli yaşamısan. – Keçib salonun ortasındakı divanda oturdular. İçkilərini yanlarına qoydular. Şəffaf paketi çıxardı cibindən və stolun üstündəki şüşənin üstünə qoydu.

- 27 yaşım var – dedi Babett – heçnə gölzədiyin kimi olmayacaq hər şey bərbad olacaq ancaq alışacaqsan yaşamağa. Körpünü  keçdikdən sonra. İşləməsən, başqacür ola bilər hər şey.

- Elədi. Bəzən adama çox pis təsir edir. Bir gün sənin yüzilliyinin ən böyük problemləri gələcək yüzilliklər üçün bəsit bir tarix faktından o tərəfə keçməyəcək. Ən böyük əzabların. Necəki keçmişdəki insanların ən böyük problemləri bugün sənin üçün heçnədir. Yoxdur. Bəsit bir aşı ya başqa dərman olmadığı üçün bütün ailəsini vəbadan virusdan itirən keçmiş insanının dərdi indi həll olub. Bizim yüzillik insanının ən böyük xəstəliyi depresiyanın ana səbəbi işləmək ya işsizlik gələcəkdə olmasa necə olardı görəsən? Təsəvvür et dünyəvi minimum gəlir sisteminə keçilir və insanlar işləmədən pul alır məsələn. Yox bu mümkün deyil. Robotlaşmaya keçildikdən sonra belə yenə də işləməlidi insanalar. Ya da belə deyək həftədə sadəcə bir neçə saat işləyəcəklər. Və ona uyğun həyat tərzinə keçəcək insanlar. Darıxmamağın üçün birdən çox səbəb olacaq. Əhali sayı azalar bəlkə. 2100-dən sonra azalma gözlənilir. Onlar indi bizim problemlərimizə baxıb təbəssüm edəcəklər. İşləməkmi? Sırf işsizlik ya işləmə səbəbiylə yaranmış depresiyadan özünü öldürən nə qədər insan var.  Ya işləmənin yadlaşdırdığı insan. Bəlkə də həmişə belə qalacaq bəlkə insanlar daha da yadlaşacaq. Və təbii seçmənin öldürdüyü üsyankarlardan geri sadəcə yadlaşmağı bacarmış insanlar qalacaq. Ya da bəlkə də insanlar işləməklə xoşbəxt ola biləcək. Xoşbəxtlik dərmanları və sair. Ya da bəlkə başda dediyim kimi işləmək yox olacaq. Bəlkə də robbotlaşmanın gətirdiyi işsizlər ordusunun səbəb olacağı bir dünya böhranından sonra keçiləcək dünyəvi minimun gəlirə bəlkə də tədricən, yavaş-yavaş.

- Amma lənətə gəlsin ki nə olur olsun biz faydalana bilməyəcik.

- Təəssüfki. İşləyərək ömürlərini məhv edən son nəsil də ola bilərik tarixdəki.

- Gələcəyə belə optimist baxırsan?

- Dünya həmişə yaxşıya doğru gedib. Tarixi təcrübəyə əsasən deyirəm. Nə olursa yaxşılığa doğru dəyişir insan həyatı. Səncə elə deyil? Keçmişlə bugünü müqayisə etsən? Krallar kölələr dövrü? Ordunun qarşısında kralının adını

qışqıraraq əlində nizyələ 200 metr qaçıb qarnını deşib keçən bir başqa nizəyə girdiyin dövrlər? Yəni belə deyək, bəlkə də pis olacaq ancaq insanlar xoşbəxt hiss edəcək. Yəni vacib olan xoşbəxtlik deyilmi zatən? Mən razıyam. Xoşbəxt kölə olmağa. Yeniyetməliyimdə bir asi kimi cahil ya aldadılan xoşbəxt olmaqdansa həqiqəti bilib bədbəxt olmağı seçirdim hə. Amma yox. Artıq istəmirəm. İnsan həyatının ilk dövrlərini cahil xoşbəxtlikdən aydın bədbəxtliyə keçmək üçün çabalayır. Sonra da aydın bədbəxt olmaqdansa xoşbəxt cahil olmağı üstün tutur. Mən tuturam ən azından. Ağrını daddıqdan sonra. Düşünmək də istəmirəm. *Cəsur yeni dünya'da Huxleyin* bəhs etdiyi kimi sistemin köləsi olub ancaq xoşbəxt olmağı seçirəm.  Ola bilsəydim kaş ki.

- İşləyirsən?

- Yox. Çıxmışam bir müddət əvvəl. Gedirəm buralardan.

- Gedirsənmi? Hara? Hələ yeni tanışmışdıq axı biz? Görüşə biləcik yenə? Nə qədər tez müddətə gedirsən?

-Yaxında.

- Nə qədər yaxın?

- Şəfəq ağarmadan. Sadəcə mənfi yan təsiri olmayan xoşbəxtlik maddələrinə ehtiyacımız var vəsaalam. Başqa hansı maddələrdən istifadə edirsən bu arada?

- MDMA bəzən. Çox yox. Marixuana və içkiylə fırlanıram başqa vaxtlar. Sən?

- Bir müddətdi ara vermişəm əslində hər şeyə, yarısını da buraxmışam. Səhəri günü intihar dərəcəsinə çatdırır depresiyanı bəziləri. Psixodeliklərlə necədi bəs aran?

- Çoxdan etmişəm bəzilərini. Dmt yoxlamaq istəyirəm amma. Etməmişəm. Maraqlıdı.

- Bir dostum dmt haqqında bir fərziyyəni danışırdı həmişə. İnsan ölərkən və doğularkən həddindən artıq miqdarda dmt sintez edir beyin, bilirsən yəqin. Deyirdi bəlkə də o biri dünya, biz ölərəkən beynimizdə sintezlənən o inanılmaz miqdardakı dmt'nin yaratdığı tripin, səyahətin məhsuludu. Dmt'də zaman qavrayışı dəhşət yavaşlayır, məsələn 10

dəqiqə bir saat, bir gün, bir həftə, bir il kimi hiss etdirə bilərsə, beynin sintezlədiyi dmt səni minlərlə illik bir kainata ya səyahətə soxur. Digər dünya dedikləri cənnət ya cəhənnəmi orda yaşayırsan. Cəhənnəm pis-trip dedikləri şeydir, Cənnət isə eyforiya. Ya da sadəcə qaranlıq bir boşluqda, koskosda minlərlə il qalan bir qara maddəyə çevrilirsən və qışqırırsan. Bədənin yoxdur ancaq varsan. Ya da məsələn, bəlkə də doğularkən beyində sintezlənən dmt ilə birlikdə bir xəyala, tripə, hallüsinasiyaya girmisən və real sanırsan. Bəlkə də sən öləndə gördüyün hallüsinasiya sona çatacaq və başına yığışmış yadplanetlilər dmt səyahətinin necə keçdiyini soruşacaq. Bəlkə də indi yaşadığın həyat bir dmt səyatəhidir. Bəlkə də mən sənin xəyalının məhsulu, hallüsinasiyayam.  Bəlkə də o barda bir oğlan sənə dmt satıb və onu istifadə edib evə gəlmisən. Hə? Bu arada maraqlı bir söhbət də var ki bəzi fərziyyələrə görə atalarımızın gördükləri tarix və yaddaşları genlərimizdə yarımçıq formada saxlanılır, bəzən hallusinasiyalarla min il əvvəldən hansısa kadrları görə bilərsən, ya bilmədiyin bir dili danışa bilərsən. Bu tamamilə səhv fərziyyə də olsa maraqlı səslənir.

- Bəsdi, məncə sən biraz da çəkməlisən.

- Zarafat bir yana, istəyir bu dünya real olsun ya olmasın, istəyir bir maddənin təsiriylə gördüyün hallüsinasiya olsun ya biz bir kompyuterin içindəki süni intelekt simulasiyaları olaq, dəqiq, qəti və dəyişməyən tək şey var: əzab və iztirab, realdır. Vəssalam. Gerisi mənə maraqlı deyil. Niyə burda olduğumuz necə burda olduğumuz maraqlı suallardır. Ancaq cavab nə olur olsun əzabı və ağrıları azaltmayacaq. Niyəmi burdayıq? İstər təkamülün yetirməsi olaq istər həyatından bezmiş tanrının oyuncaqları, fərqi yoxdur, əsas burda olmaq istəyib istəməyindi, necə yarandığın yox. Əgər zövq alırsansa vəssalam. Hansısa böyük bir missiya üçün burda olub olmadığımız mənim iztirabımı azaltmayacaq. Bizim qalaktikanın uzağındaki inkişaf etmiş canlıların ilkin variantları da ola bilərik, biq-banq'dən əvvəl yaşamış canlıların qohumları ya biq-banq ilə yaranmış

yeni kainatin insanları da ola bilərik. Rahatladım? Yox. Real olan tək şey var, əlim, qolum və iztirablarım.

- Sən, artıqlamasıyla ayılmısan, biraz daha artıq çəkməlisən məncə.

Mavi paketi ondan aldı və bayaqdan bəri söhbət edərkən yanında oturan Babetin çılpaq bədənini tamamilə unutduğunu gördü. Ordaydı və çılpaq oturmuşdu. Döşlərinə baxdı. Ürək döyüntüsü ona ehtirasının səsini xatırlatdı.

- Düz deyirsən çox danışdım. Lənət olsun. Bəzən özüm belə bezirəm danışdıqlarımdan, yəqin ki ən çox özüm bezməliyəm çünki eyni şeyləri ən çox mən eşitmişəm. Ömrü boyu bir bədəndə yaşamaq da bezdiricidi hə? Eyni fikirlərlə yaşayırsan. Bu arada, bu otaqdakı qırmızı işıqlar məni tripə salır – deyib ayağa durdu, içkilərə tərəf getdi.

- Aha, mənim xoşuma gəlir bu işıqlardan. Narahat edirsə normal işıqları yandıra bilərəm?

- Yox, yox, belə möhtəşəmdi. Sənin çılpaq bədəninə düşən qırmızı işıqlar möhtəşəm görünür.

Biraz əvvəl çəkdiyi miqdarın iki qatı çox kokain çəkdi. Dənəciklərin burnundan beyninə o andaca çatdığını hiss etdi. Sanki göz bəbəklərinin böyüməsini belə hiss edirdi. Babettin dadını sevdiyi o konyakı götürdü. Ona doğru yaxınlaşdı. Əlindən tutub ayağa qaldırdı  onun çılpaq bədənini. Qolundakı maşında görə bilmədiyi o tatuirovkaya baxdı. Nə olduğunu yenə anlaya bilmədi, qırmızı rənglərin iç-içə keçdiyi abstrakt bir düşüncəyə oxşayırdı və ölümü xatırladırdı.

Əliylə Babettin çənəsini qavradı, öpdü. Konyakı yavaşca sol döşünün üstündən sinəsinə doğru boşaltdı. Aşağı doğru ağmaqda olan damlaları ölümsüzlük iksiri içirmişcəsinə diliylə yaladı. Qara giləyə qədər qalxdı yarısı partlaq dodaqları və niyə bu dünyada olduğunu belə bilməyən körpə uşaq kimi zövqdən bihuş formada əmməyə başladı o giləni. Ayaq üstə dura bilən normal insan boyundakı altı aylıq uşağı xatırladırdı, başı bir qadın döşü üstündə onu içərkən. Özündən keçmiş olduğunu xatırlayıb ayılana qədər içdi Babetti. Sanki

yuxu görürmüş kimi qaldırdı başını və nə qədər vaxtdır ayaqda durduqlarını düşünməyə çalışdı. Qırmızı işıqlar, ehtiraslı bir yuxunu xatırladırdı.

Babetti çevirib arxasını özünə doğru fırladı. Kürəyindəki iri başqa bir tatuirovka diqqətini çəkdi. Qırmızıya boyanmış qanadları olan əjdərha ya şeytnamı, mavi geyimli bir mələk ya məsum qadını qolları qanadları arasına almış, quyruğuyla ayaqlarına dolanmış və ona kinli, qəzəbli, ehtiraslı baxışlarla baxaraq uzun dilini onun boynunda gəzdirirdi. Dizləri üstünə oturtdu Babetti. Kürəyindən itələyərək onu önlərindəki alçaq masanın üstünə uzatdı Mavi. Hamar dərisinin eczakarlığını hiss etdi. Çılpaq bədəninin yuxarıdan aşağı belinə doğru incəlməsini və sonra çanaqlara doğru genişləməsini incələdi. Barmaqlarını onun kürəyində gəzdirdi. Çanağının sağ tərəfində kürəyinin aşağısında pələng dərisi formasında işlənmiş bir başqa tatuirovka daha var idi, pələng dərisinin üstündə də pələng pəncələrinin izi var idi. Bir başqa pələnglə savaşdan çıxmış yaralı pələng dərisinin xatırladırdı. Kəmərini açıb şalvarı çıxardı. İki əliylə qarşısında diz çökmüş çanaqları yanlardan qavradı. İstiliyi hiss etdi və özünü irəli itələyərək dayanmadan nasoslanan qanın təzyiqi ilə partlamağa hazır orqanıyla birlikdə onun içinə girdi. İstiliyi daha da çox hiss etdi və biranlıq sanki özündən getmiş kimi oldu. Geri gedib təkrar girdi və təkrar girdi. Ritmik bir musiqi kimi hər dəfə daha da sürətlənməyə başladı.

Əli ilə Babettin saçlarını qavradı arxadan və ehmalca geri çəkdi. Masanın üzərinə çılpaq uzanaraq diz çöküb əyilmiş Babett və onun arxasında diz çöküb dik durmuş  çılpaq Mavi, bir əli qarşısındakı qadının saçlarında digəri çanağındakı pələng dərisini sığallayır, üstlərinə düşən qırmızı işıq, otağa yaydıqları inilti səsləri və digər hər şeylə birlikdə sanki ehtiras tanrılarını xatırladırdılar.

Hər ikisi zaman-zaman özlərinən keçir, harda olduqlarını unudur sonra geri gəlirdilər. Bədənləri sponton olaraq onların yerinə geri və irəli gedərək sevişmənin balansını qoruyurdu.

Onlar fikirdən-fikirə, xəyaldan xəyala keçir, bəzənsə sadəcə eyforiyadan ibarət qaranlıq bir boşluqda uçurdular.

Hər şey deyə düşündü Mavi, möhtəşəm olacaqdı. Şəhəri tərk etməkmi? Yox! Ölməkmi? Həyat bu qədər gözəl ikən? Özünü tanrı kimi hiss edirdi. Nə qədər axmaq bir hərəkət idi ki sadəcə işləmək istəmədiyi üçün özünü öldürməyə gedirdi. Axmaqlıq! Sürətli və daha da sürətli! Danimarka dilində anlaşılmaz sözlər eşitdi. Babett qışqıraraq təkrar edirdi. Nə qədər vaxt keçmişdi deyə düşünməyə çalışdı. Xatırlaya bilmədi. Nə qədər vaxtdır sevişirdilər? Hər şey çox sürətliydi. Ürəyi çox sürətliydi. Dayanmadan irəli və geri gedib gələn bədəni daha da güclüydü. Sanki dayandırmaq istəsə dayandıra bilməyəcək kimi hiss edirdi bədənini. Ya da sanki hərəkət etməyi dayandırsa ürəyi partlayıb öləcəkmiş kimi hiss edirdi. Otaqdakı reallığa döndü. Qarşısında ritmlə oynayan bədəni gördü, daha da ehtiraslandı. Stimulant maddələrinə məxsus o məmnunsuzluq ya da doyumsuzluğu hiss etdi bir anda, qarşısındakı bədənin içindəykən, yenə də içinə girmək istəyirdi. Bu siqaret çəkdiyiniz anda yenə siqaret çəkmək istədiyiniz üçün əlinizin paketə getməsi və o anda əlinizdə onsuz da siqaret olduğunu fərq etməyiniz kimi idi. İnsanoğlunun ən böyük bəlalarından biri, doyumsuzluq. Siqareti xatırlatdı bu düşüncə. Əyilib paketə uzandı. Yandırdı. Uzanıb Babettin dodaqları arasına yerləşdirdi onu, sonra birini də özü üçün yandırdı. Əli ilə qarşısında ritmik olaraq yellənən çanaqdakı pələng dərisini var gücüylə vurdu. Barmaqlarının izi qaldı dərinin üstündə, sonra təkrar vurdu və təkrar vurdu.

Babett başını geri çevirib ona baxdı və özünə doğru çəkdi onu, dodaqlarına yapışdı, zəli kimi öpdü və əmərək yaranı təkrar partlatdı. Masanın üstündəki əşyalar yerə töküldü. Konyak butulkasını götürdü Mavi. Özündən keçmiş kimiydi. Başının üstünə qaldırdı, ağzından bir xeyli aralıdan içkini üzünə tökməyə və ağzıyla tökülən içkini içməyə çalışdı. Sonra Babettin kürəyinə, həmin o şeytanvari əjdərhanın üstünə tökdü. Butulkanı Babett aldı və içdi.

Əlindəki siqaretin barmaqları arasında qalan tərəfini qarşısındakı çılpaq bədəndə gəzdirməyə başladı. Sonra hər şey deyə düşündü, möhtəşəm olacaqdı. Daha yaxşı bir iş tapacaq və yalnız olmamaq şərti ilə bir ev tutacaqdı. Bəlkə bir oğlanla, bir qadınla, yalnız olmayacaqdı sadəcə. Tək etməsi gərəkən düzgün bir iş tapmaq olmalıydı. Onu da ki, tapmağa nə var idi? Ortalamanın altında olmayacaq qədər bacarıqlı və zəkiydi, tək lazım olan şey ambisiya, hirs, ehtiras, həvəs idi, ki o şey də indi sinəsində atmaqdaydı. Heç ölməyəcəkmiş kimi yaşamaq istədi bir an. 120 yaşına qədər yaşayacaqdı deyə düşündü. Bir tanrı misalı, özünə ölməyi qadağan edirdi sanki.

Babett onu geri doğru itələdi, masanın üstündə tərs çevirldi və üzü üstə ona doğru baxdı, sürətli nəfəslərlə qolundan tutub onu təkrar içinə çəkdi. Mavinin əllərini dartıb öz döşləri üstünə qoydu. Ayaqlarını qaldırıb Mavinin kürəyində birləşdirdi. İşləmə prinsipi pozulmuş ya söndürülmüş frontal lobla heçnə düşünmür ya da kəsintilərlə bir fikirdən başqa fikrə ondan da üstlərinə zövq yağışı yağan bir qaranlığa keçirdilər. Saniyələrin yerini saatlar alırmış kimi hiss edirdilər. Nə qədər vaxtdı başlamışdılar? Sanki saatlardı burdaydılar. Babettin ayaqları arasındakı o möhtəşəm istiliyi hiss etdi. Onun vaginası sanki bir dar qara dəlikmiş kimiydi və bütün bədənini içəri salmaq istəyirdi. Girib yox olmaq istəyirdi. Niyə belə hiss etmişdi? Aldığı zövq səbəbiləmi? Doyumsuz idi deyəmi içində olduğu yerə təkrar girmək istəyirdi yoxsa şüuraltısı vaginadan çıxıb gəldiyi bu dünyadan rədd olub getməsi üçün təkrar vaginaya girərək yox olacağınımı düşündürmüşdü. Qara dəlikdən içəri girsə, əbədi yoxluqa qovuşardı deyə düşündü. Boşluq, qaranlıq və yoxluq. Var olmama.

Sonra sanki tanımadığı birinin yaddaşındakı bir xatirənin içində itmiş kimi hiss etdi bir anda Mavi. Nə olduğunu anlaya bilmədi. Ətrafa baxdı, ayıla bilmədi. Otaqda deyildi, başqa bir yer idi. Yuxu görürmüş kimi hiss etdi. Bir küçədəydilər. 40lı yaşlarında bir qadın maşından düşüb mağazaya girərkən ona gülümsəyirdi. Qadın onunla yatmaq istədiyini dedi danışma-

dan. Mavi ehtirasla ona doğru getdi və qadın yox oldu. Mavi hal-hazırda onsuz da sevişməkdə olduğunu xatırladı ancaq xəyala dalmış olmalıydı sadəcə. Nə qədər acgöz olduğunu düşündü, onsuz da sevişərkən başqa bir qadının arxasınca qaçırdı. Sonra bir qapıdan keçdi və az yaşlı uşaqlarının oynayıb qışqırışdığı bi küçəyə girdi. Uşaqları görmürdü ancaq onlar hər yerdəydilər. Ayaqlarına ilişiridlər. Bir uşaq ona bir məktub verdi. Mavi o an qadın olduğunu hiss etdi. Özü deyildi bu. Ağbəniz, qısa və qıvrımsaçlı bir qız idi və vacib bir məsələni araştırmaq üçün zamanda geriyə getmişdi. Lənət olsun deyə keçirdi içindən, ayılmaq istəyirdi. Nə edirdisə ayıla bilmirdi. Yenidən o qadını gördü, qadın soyundu və Mavinin çağırdı. Getmək istəyirdi ancaq nə qədər yerisə də olduğu yerdə qalırdı. Başqa birinin xatirəsinin içində itmişəm deyə düşündü. Necə ola bilər axı? Bir anda qarşısında Babetti gördü. Ayılmışdı. Lənət olsun dedi və sevindi. O an arxadan biri əlini onun çiyninə vuraraq çağırdı otağın arxasından. Bu nədir!? Axı evdə heç kim yox idi bizdən başqa. Kim idi bu. Lənət olsun! Qorxmuşdu. Geri çevrilməyə çalışdı ancaq bədəni o qədər yavaş dönməyə başladı ki Mavi daha da qorxdu. Arxa da biri var idi. Ordaydı. Sadəcə lənətə gəlsin dönməliyəm arxaya. Niyə bu qədər yavaş hərəkət edir başım?

Yavaş-yavaş hərəkət edən başı gözləri tam arxasını gördüyü anda normal sürətinə döndü və yıxılacaqmış kimi səndələdi Mavi. Xəyaldan hələ indi ayıldığını anladı. Heç kim yox idi arxada. Sadəcə xəyaldan xəyala ayılmışdı. Son dərəcə real və canlıydı arxadan çağıran əl. Dərin bir ah çəkdi. Qışqırdı. Anlaşılmaz bir şeylər söydü arxasına baxaraq. O an bütün bədəninin boşaldığını hiss etdi. Hərəkət edən bədənləri dayandı və özlərini bir-birilərinə doğru sıxdılalar var gücləriylə. Ritardando və ritardando. Tədricən azalan əsas temp. Babettin onu qucaqlayan ayaqları məngənə kimi sıxıldı və bir anda titrəməyə başladılar. Danimarka dilində söyüşlər və lənətlər yayıldı qırmızı işıq dalğalarının cüzi formada aydınlatdığı otağın gizli künclərinə. Mavi onun üstünə yıxıldı. Tərli və təngənəfəs bə-

dənləri birləşdi. Qarınları havayla dolaraq şişib birləşir və ayrılırdı. Getdikcə ritmik formada yavaşladı nəfəsləri və normala dönməyə başladı.

* * *

Qaranlıq bir salonda tapdı özünü. Böyük salon idi. Teatr ya opera salonu kimi. Qapısından içəri girmişdi və çıxa bilmirdi. Girməməsi gərəkdiyi yerə girdiyini və sanki başına pis şeylər gələcəyini hiss edirdi. Tam girişdəki qorxulu və qəzəbli üzə sahib bir oğlan üstünə doğru yeriyirdi, “sənin nə işin var burda lənətə gələsi, peşman edərəm səni indi mən” deyib onun başına vurmaq üçün bir şeylər qaldırırdı və bu səhnə dayanmadan davam edirdi. Oğlan vurmurdu, ancaq üstünə gəlirdi davamlı. Nə qədər yerisə də çatmırdı, iki metr var idi arada və nə qədər qaldırırdısa da əlini vurmurdu, səhnə tam vuracağı yerdən davam edirdi. Vursaydı da canı dincəlsəydi amma vurmurdu. Həyat kimiydi bir növ, bir dəfəlik ölüb getmirdin ki canın dincələ, ancaq hər gün ölürdün. Refleksiv olaraq qorxub gözünü bağlayırdı Mavi oğlan hər üstünə gəldiyində ancaq hər dəfə səhnə təkrarlanırdı. Lənətə gələsi bir yuxuda olduğunu anladı o an. Ancaq çıxa bilmirdi içindən. Niyə girdim axı bu xarabaya dedi. Çıxa bilmirdi yuxudakı otaqdan da. Çıxsa da çöldə bir yığın adamın yığışıb onu gözlədiyini və çıxan kimi onu vuracaqlarını hiss edirdi. Qışqırırdılar. Sanki uzun müddətdir yemək verilməmiş ac itlər kimiydilər.

Oğlanın üstünə gedib onu vurmağa ya danışaraq dərdinin nə olduğunu soruşmaq istəyirdisə də alınmırdı. Sanki sənin üçün bir səhnə onsuzda yazılıb və onu oynayırsan, ona proqramlanmısan, yuxudaki kiçik taleyin odur. Yuxuda olduğunu bilirsən, ancaq dəyişdirə bilmirsən. Sonsuz dövr edən qorxulu bir yuxuda ya həyatda, bir bədənə girmisən, içəridən qışqırırsan ancaq heçnə dəyişmir. Sanki tale, determinizim yox idi ancaq əslində var idi. Yuxu ona bir şeylər mi başa salmağa çalışırdı?

Ordan başqa bir səhnəyə keçdi. Başqa bir qaranlıq otaq-

daydı. Deyəsən yaralıydı. Bayaqki salonun davamındakı gizli otaqlardan biri idi. Geri döndü və arxada tək gözü deşilmiş qoca bir kişi gördü. Əlində nəsə bir şey var idi, silah, bıçaq, sopa, bilmirdi ancaq kişini görən kimi əlindəkini ona doğru tutdu və kişi qorxub geri çəkildi. Kişi ona danışmadan düşman olmadığını başa saldı ona heçnə etməyəcəyini dedi və Mavi əlindəkini yerə atıb burdan necə çıxa biləcəklərini soruşdu. Kişi əlinə bir stul götürüb göyə qaldırıb qışqıraraq onun üstünə yeriməyə başladı. Deşik gözü və qəzəbli üzü Mavini dəhşətə salırdı. Hər tərəf qaranlıq idi. O geri çəkildikcə Kişi onun üstünə gəlirdi. Qışqırıb yuxudan oyanmağa çalışırdı amma səsi çıxmırdı. Qorxudan öləcəkmiş kimi hiss etdi. Kişini vurmaq istəyirdi ancaq yuxuda onun üçün hazırlanmış rolun xaricinə çıxa bilmirdi. Ayağını qaldırıb vurmaq istəyirdi onu ancaq ayağı qalxmırdı. Sənin üçün bir həyat hazırlanmışdı və nə qədər etsən də onun xaricinə çıxa bilmirdin. Sanki sən nə etsən də həyatın onsuz da yazılmışdı. Kişi stulu qaldırdı və var gücüylə Mavinin üstünə qaçaraq başına çırptı.

O anda gözünü açdı Mavi. Dərin bir nəfəs. Bir anlıq harda olduğunu anlamağa çalışdı. Başını qaldırdı. Qızın yatağındaydılar. Adını unutmuşdu. Gecə evinə gəldiyi qız. Oyandığı üçün sevindi. Lənət olası yuxu çox canlıydı deyə düşündü. Başını geri uzadıb nəfəsini sakitləşdirməyə çalışdı. Otaqların hansındasa nəsə yerə düşdü, ya nəsə səs gəldi. Qorxdu. O yuxudakı adam burdaydı deyə düşündü. Yuxudan yuxuyamı oyanmışdı yenə? Qızı oyandırmaq istədi. Ona baxarkən telefonunu gördü yanında. Götürüb saata baxdı. Telefonu geri qoyub yerinə uzandı.

Geri yatsam əgər lənət olası yuxunu yenə görəcəm deyə düşündü. Ancaq başı çartlayırdı, yuxusuz idi, içkinin baş ağrısı, üzündəki şişliklərin baş ağrısı, hər şey ağrıyırdı və yatmalıydı. Normalda oyanan kimi xatırlamaq istədiyin yuxu yadından çıxırdısa bu lənət yuxu hələ də ən xırda detalına qədər yadındaydı. Yaxşı, başqa şey düşün. Fikrimi ən tez nə poza bilər? Düşündü, dünən olanları, bugün edəcəklərini, hər şeyi düşündü. Ancaq qayıdıb yuxunu hələ də xatırlayırmı deyə hər

dəfə yaddaşını yoxlayanda bütün detalları orda görürdü. Lənət olsun deyə düşündü, mən unutmuşammı deyə yoxlamaq üçün xatırladıqca eyni şeyi, o xatirəni yaddaşda saxlayan neyronlar daha da aktivləşir və yuxu yaddaşıma daha da yaxşı həkk olur. Artıq o qədər yoxladım ki yaddaşı, bütün detalları ilə həkk oldu və yatsam mütləq eyni şeyi görəcəm deyə düşündü.

Durdu. Geyindi. Üzünü yudu. Aynada üzündəki şişliklərə və partlaqlara baxdı. Evdə gəzişdi. Bəlkə də Babetlə görüşmədən getsəm – artıq xatırlayırdı adını – daha yaxşı olacaq deyə düşündü. Ona bir daha görüşməyəcəklərini demək istəmirdi. Yaxşısı getmək idi. Oyadıb ayıq başla təkrar özünü xatırladaraq onun yaddaşını yeniləməkdənsə, sadəcə içkili bir gecənin üzü bulanıq xatırlanan bir partnyoru olması daha yaxşı olardı.

Çıxmağa qərar verdi. Babettin yatan məsum üzünə bədəninə və yorğanın yarısını örtdüyü tatuirovkasına baxdı. Öpmək istədi onu yanağından, oyanar deyə qorxdu.

Hazırlaşdı və çıxdı evdən.

* * *

Qapıdan çıxdı və lifti çağırdı. Fredin evinə necə gedəcəyi barədə düşündü. Qapılar açıldı liftə mindi. Yerdə boş içki butulkası gördü, qaldırdı. Dünən Babettin içdiyi konyak markası. Gələrkən liftdə düşmüş olmalıydı. Təbəssüm etdi. Özüylə çölə çıxarıb binanın girişindəki zibil qabına atdı.

Yaxınlıqdakı avtobus dayanacağını axtarıb tapdı və ora getdi. Gözləyib Fredin evinə yaxın keçən birinə mindi.

Lənət olsun deyə fikirləşdi. Laranın mənə etdiyini mən də Babetə edirəm. Belə getməməliydim. Peşmanlıq hiss etdi. Bəlkə də Laranı axtardığım kimi o da məni axtaracaqdı. Bəlkə də Lara getdikdən sonra hiss etdiyim ağrını indi də Babett hiss edəcəkdi. Bəlkə də vecinə olmayacaqdı. Amma ya vecinəydisə?

Axı neyləyə bilərdi deyə düşündü, onu oyandırıb, sonra da ölümə getdiyinimi deyəcəkdi. Onun adına üzüldü, ancaq edə

biləcəyi heçnə yox idi deyə fikirləşdi. Əgər ölümə getməsə, belə bir hərəkəti heç kimə etməzdi deyə düşündü. Baxmayaraq ki daha əvvəl etmişdi, ancaq sonra fikrini dəyişmişdi.

Bəlkə də Babett onun üzünü belə xatırlamayacaq deyə düşündü, dünən çox içkiliydi. Ancaq sonra bunun əslində daha da pis fikir olduğunu düşündü, üzünü xatırlamaması dərdini azaltmayacaqdı. Universitet tələbəsiykən qaldığı yataqxanalardan birində içkiliykən tanışıb sevişdiyi və səhər oyanarkən getmiş olduğunu gördüyü o qızı xatırladı. Tamamilə eyni şeyi etmişdi Babetə. O qızı çox axtarmışdı. Üzünü xatırlaya bilməmişdi heç vaxt. Yataqxanada hər həftəsonu keçirilən içki gecələrinin birində qızla hamının içib oynadığı salonda tanışmış, öpüşmüş, sonra onun otağına gəlmiş və sevişmişdilər. Səhər oyandığında qız getmişdi. Sonra nə qədər etmişdisə qızın üzünü xatırlaya bilməmişdi. Qız onunla heç vaxt əlaqəyə keçməmişdi. Yaşananları olmamış kimi qəbul etmək istəmişdi yəqin. Qızın sevişərkən ona yaşatdığı hissləri bütün möhtəşəmlikləri ilə birlikdə xatırlamış, ancaq nə üzünü, nə adını nə kimliyini xatırlaya bilmişdi. O gündən sonra yataqxanadakı bütün qızları hər gün incələmişdi onu tapmaq üçün, şübhələnmişdi hamısından bir-bir. Ancaq heç bir nəticə əldə edə bilməmişdi və yavaş-yavaş qızı unutmuşdu.

Keçmiş üçün təkrar həsrət duydu və özünə evtanaziya kamplarına çox yaxın olduğunu xatırlatdı.

## 11

# FRED

Zəngi basdı. Bir qədər sonra qapı açıldı. Üzündəki o ecazkar hüzün, təbəssüm və nəzakətlə birlikdə Fred salamladı onu. Gözünün içi gülürdü. Saqqalı həmişəki kimi sıx və qarışıq idi. Uzun boyu, diqqətə çarpan dərəcədə qara və uzun kirpikləri onu hər zaman olduğu kimi, olduqca yaraşıqlı göstərirdi. Uzun və qara saçları çiyinlərinə dağılmışdı. Yuxudan yenicə oyanmışa oxşayırdı. “Bu qədər tez gözləmirdim” deyib güldü və bir-birini qucaqlayaraq salamlaşdılar. Görüşülməmiş günlərin müddəti ilə düz mütənasib formada uzun idi qucaqlaşmalarının çəkdiyi zaman miqdarı.

-Yuxum qaçdı, durdum gəldim. Oyandırmadım ki?

-Əcəb elədin. Üzünə nə olub belə? Yox. Oyandırmadın. Yataqdaydım, amma yata bilmirdim mən də.

Evin içindən Pluto qaçaraq gəlib Mavinin üstünə tullandı. Qoluyla tutub qaldırdı onu Mavi. Pluto onu yalayaraq salamladı.

- Yata bilməyən təkcə biz deyilik deyəsən – dedi Mavi – Dünən bar davasına qarışmışdım, vacib problem yoxdu narahat olma, danışaram. Necəsən Pluto?

Fredin ən yaxın dostları heyvanlarıydı, qara pişik Pluto, tutuquşusu Lulu və ölmüş iti. Çox sevdiyi itini itirməsi onun üçün olduqca ağır olmuşdu.

Bu torpaqlarda ən çox vaxt keçirmiş olduğu canlı Plutoydu. Fred bir gün onu qaranlıq və yalnız gecələrin birində öz evinin içində tapmış, qorxmuş, təəccübməlnmiş və yiyələnmişdi. Pluto, hər necəsə evə girə bilmiş və qaranlıq gecələrin birində evin salonunda Fredlə qarşılaşmışdılar. Bir müddət hər ikisi hərəkətsiz dayanmış, hər ikisi də qorxmuş sonra yalnızlıqlarını bölüşməyi qərara almışdılar. Fred onu divarda Poe ilə yanaşı şəkli asılı olan həmin məşhur qara pişiyin adı ilə çağırmağa başlamışdı.

Böyüdüyü konservativ vətənindəki homoseksual diskriminasiyasından sonra istəməsə də tərk etmək zorunda qalmışdı ölkəsini Fred. Yeni dünyaya gəlmişdi, yeni torpaqlara. İçinə qapalı, öz aləmində yaşayan biri olduğu üçün çox dostu da olmamışdı yeni torpaqlarda. Ta ki bir gün Maviylə tanışana qədər.

* * *

İkisinin də bir vaxtlar mütəmadi olaraq getdiyi həmin kitabxanada həmişə gözləri kəsişirdi. Mavi Fredin gizli baxışlarını sezmişdi bir müddət sonra. Hər dəfə üzləri bir-birinə baxacaq formada qarşı masalarda oturur və bir şeylər oxuyurdular. Aralarında bir neçə masa olurdu. Ancaq hər dəfə necəsə üzləri bir-birinə sarı və bir-birini görəcək formada otururdular. Bir müddət sonra Mavi bunun təsadüf olmadığı qərarına gəldi. Hər dəfə kitabxanaya gəlib oturduqdan sonra kitabdan başını qaldıranda qarşı masaların birində onu görürdü. Fred ya yeni gəlmiş olurdu ya da Mavinin gəldiyini gördükdən sonra yerini dəyişərək onun qarşısına keçirdi. Sonralar, Mavi hər gəlişində Fredi axtarır və bu dəfə o gedib onun qarşısına otururdu. Bir neçə dəfə bu dövr təkrarlandıqdan sonra bir gün siqaret arasına çıxarkən Fredin də qapı qarşısında dayanmaqda olub siqaret çəkdiyini görmüşdü Mavi. Əlində tutduğu kitabın adını oxumağa müvəffəq ola bilmiş və siqaretini yandırıb Fredə dönərək dillənmişdi:

- Bu günlərdə Proust oxuyan çox adam tapmazsan.

Çaşmış formada təəccüblənərək çəkingən formada cavablamışdı Fred:

- Hə? Proust? Hə, elədi. Ədəbiyat oxuyan yoxdu çox da bu günlərdə. Sən nə oxuyursan? Proustu oxumusan?

- Yox oxumamışam. Hər nə qədər bugünlərdə itmiş zamanımın axtarışında gəzinirəmsə də, Proustu oxumamışam heç vaxt. Oxumaq istəyirəm, ancaq yəqin ki heç vaxt oxumayacam. İndi oxuduğum kitabı soruşursansa nevrologiya haqqında bir kitabdı. Biraz sakit qalmaq istəyirəm deyə oxuyuram kitabı, həm də maraqlı sahədi mənimçün.

- Anladım. Elə mən də itmiş zamanın axtarışındayam bir növ.

- Hə? Buralı birinə oxşamırsan, gəlməsən deyəsən. Bütün gedənlərdə ya gəlmələrdə olduğu kimi, bizi birləşdirən bir dəyərimiz var anlaşılan, itmiş zamanımızın axtarışında olmağımız. Adım Mavidir – deyib əlini uzatmışdı.

- Fred deyə bilərəsən mənə. Burda elə deyirlər. Burda dediyim, adımı çox çağıranım da yoxdu əslində.

- Tək yaşayırsan?

- Özümü tanıyandan – deyib bir qədər dayanmışdı Fred, ikisi də kitabxananın qarşısında gəlib keçənləri izləyirdi – bir növ taleyimdə var təklik. Bəs sən?

- Mən də tək yaşayıram. Heç olmadığım qədər. Və heç istəmədiyim qədər. Amma tək yaşayan insanları sevirəm.

- Niyə?

- Yalnızlığı daddıqları üçün. Səni başa düşdükləri üçün. Sənin onlara olduğun kimi onların da sənə möhtac olduğu üçün. Səninlə dialoq halında ikən səninlə dialoq halında olduqları üçün. Başa düşürsən? Yəni səninlə dialoq halındaykən bütün diqqətləri o dialoqda, anın içində olur, çünki yalnız olduqları üçün uzun müddətdi gözlədikləri an olmuş olur o an. Üstəlik, söhbət üçün ən yaxşı say ikidir deyirdi bir filosof. Elədir mənə görə də. Başqa birinin araya girmədiyi söhbət. Qadınların da yalnız olanlarını sevirəm. İç dünyalarına girməyi sevirəm. Bir-

dəki, özün düşün, hər gün çoxlu insanla görüşən çoxlu dostu olan insan, hər gün istədiyi meyvədən yeyə bilən zəngin birinə oxşayır. Səncə sadəcə bayramdan-bayrama meyvə yeyən kasıb daha iştahla yeyər meyvəsini yoxsa hər gün yeyən zəngin? Yalnız insan da möhtaclığı səbəbilə daha iştahla söhbət edəcək sənlə, əgər partnyorundursa daha iştahla sevişəcək sənlə, daha iştahla öpəcək, daha çox sevəcək səni. Çox praqmatist, faydaçı səslənə bilərəm, eləyəm də. Əsas da insan əlaqələrində, çox praqmatistəm. Mənə faydası olmalıdır görüşdüyüm insanın.

Bir neçə siqaret daha söndürmüşdülər o qapı ağzında birlikdə söhbət edərək. Ordan da kitablarını alaraq bir bara getmiş, pivə içmiş, söhbətlərini daha da uzatmış, sonralar mümkün olduğunca daha çox görüşmüş və bir-birinin ən çox görüşdüyü insanlar olmuşdular.

Fred onu ilk gördüyü andan təsirlənmişdi. Mavi də bunun fərqindəydi. Ancaq onlar bu barədə heç vaxt danışmamışdılar. Fredin içində ona qarşı bitmək bilməyən bir sevgi var idi.

* * *

Plutonu yerə endirdi və içəri keçdilər. Səliqəli formada dağınıq olan evin divarlarındakı şəkillər salamladı Mavini yenə. Yerdə hər tərəfdə bir əşya, kitablar və daha da çox kitablar var idi. Özünə qapanıqlığı Fredin kitablara olan bağlılığını hər dəfə daha da artırmışdı. Divarlarda müxtəlif yazar, musiqiçi və şairlərin portretləri, məşhur rəsm əsərləri, Fredin öz çəkdiyi rəsmlər, bir vərəqə çap edilmiş sözlər, əl yazıları və frazalar asılmışdı. Demək olar ki divarda boş yer yox idi. Bir küncdə də Fredin öz əkdiyi ya aldığı bitkiləri var idi. Uzun müddətdir ki bu evdə qalırdı Fred. İki mərtəbəli həyət evinin birinci mərtəbəsini kiralamışdı. Pəncərələr həmişə tünd qırmızı rəngli pərdələrlə bağlı olurdu, içəri mümkün qədər az günəş işığı buraxılırdı. İçəridə evin işıqları səhər belə olsa yanılıydı. Fred sanki vampir kimi gizlənirdi bu yuvasında. Mətbəxlə salon birləşik idi və əlavə bir otaq var idi. Salonun ortasında alçaq

masa və ətrafında iki divan və oturacaqlar var idi. Fred demək olarki tək olurdu evdə.

İçəridə tutuquşu Lulu onları salamladı. Fredin tək qalmaması üçün Lulunun yanına aldığı Felisite adlı sadəlövh quş ölmüşdü. Deyirdilər ki belə olan hallarda digər quşun da ürəyi partlayıb ölürmüş. Ancaq Lulu hələ də öz kədəriylə birlikdə yaşayırdı. Yanına başqa yeni quş aldıqda isə onlar yeni gələn quşu döyüb öldürürlər deyilirdi. Beləcə Lulu tək qalmışdı.

Həyatlarındakı son yenilikləri bir-birinə xəbər verərək salona keçib söhbətləşməyə başladılar. Fred ikisi üçün kofe hazırladı. Mavidən üzünə nə olduğunu danışmasını istədi, Mavi ona detalları çatdırdı. Vacib bir şey deyildi deyə yenilədi. Buralardan getmək üzrə olduğunu və onu görməyə gəldiyini bildirdi. Bu xəbərə sevinməyəcəyini bilirdi. Bir müddət sükunəti dinlədilər. Kofeləriylə oynadılar. Mavi bu barədə - getmək barədə - fikrinin qəti olduğunu və bu haqqda danışmaq istəmədiyini başa saldı yarımçıq cümlələr, jestlər və mimiklərlə.

Fred hər ikisi üçün səhər yeyiləcək bir şeylər hazırladı. Masaya oturdular. Bir müddət ordan-burdan hal əhval etdilər. Şəhərdəki tək və ən yaxın dostunu itirirdi Fred. Sadəcə tək qalacağı üçün özünə görə kədərlənməyi bir tərəfə, Mavinin intihara meyilli yanını da bildiyi üçün daha da çox boğurdu onu kədər. Ancaq Mavi qərarını vermişdi və təsəlliləri sevmirdi. Hər hara gedirdisə getsin, bu barədə danışmaq istəmirdisə, bu barədə danışılmayacaqdı.

Girişdəki şkaflara doğru yeriyib divardan şahmat qutusunu götürdü və başqa şkafa doğru gedib kiçik bir qutu gətirdi Fred. Oynayırsanmı deyə soruşmadı, həmişə hə cavabı alacağını bilirdi. Çəkmək istəyirsənmi deyə soruşmadı, cavabı bilirdi. “Sən al daşları düz, mən də otu sarım. Çox da çəkmirəm artıq. Ayda bir dəfə çəkirəm. Səni gözləyirdim çoxdandı söhbət üçün,” deyib şahmatı Maviyə uzatdı. Əlindəki otu sarmağa başladı və paralel olaraq Maviyə səsləndi:

-Dediyin kimi, məni də içdən içə məhv edir keçmişim. Aramızdakı fərq, sən istəyərək tərk etmisən öz ölkəni, başqa

yerlərə getmisən, yaşamısan, hamısını istəyərək etmisən və yəqin ki nəticəsi nə olur olsun, əvvəldən bilirdin və bunu qəbul edərək çıxmışdın odisseyana. Mənsə, istəmədən və məcburən. Sanki öz ölkəndən qovulurmuşsan kimi bir şeydi bu. Bəzən götür-qoy edirəm, görəsən tərk etməklə doğru olanımı etdim deyə. Ancaq sonra yadıma düşür ordakı pis günlər və burda nə qədər yalnızlıq çəksəm də çəkim, ordakı çəkdiyim iyrənc işgəncələrdən daha yaxşıdı deyə təsəlli edirəm özümü. Sözsüz ki, beynim ordakı yaxşı xatirələri xatılradır mənə, pisləri silir və mən darıxıram. Ancaq elə xatirələr də var ki, beynim nə edir etsin, silə bilməz onları, kaş ki siləydi. Onun intiharını hər düşündüyümdə məhv oluram, - deyə o ən çox sevdiyi homoseksual dostunun intiharından bəhs edirdi – geri dönsəm, hər yerdə onun xatirələrini görəcəm. Onu öldürən o cəmiyyət, bir gün məni də öldürəcəkdi, ya da daha betəri, mən onun qədər cəsarətli olmadığım üçün özümü asa bilməyəcəkdim, hər gün ölə-ölə yaşayacaqdım. Əzilə-əzilə. Burada yaxşıyam. Dəyib dolaşanım yoxdu. Ancaq dediyin kimi, içimdə əksik olan bir şeylər var. Nostalgiya var. Geridə darıxdığım bəzi insanlar var. Mən sənin kimi deyildim, sevirdim ölkəmdə bəzi şeyləri, istər-istəməz instiktiv bir doğmalıq var yəni. Ona görə də darıxdığım şeylər var. O da sevirdi, mən ona nə qədər təklif etdim çıxıb getməyi, ancaq o qətiliklə rədd edirdi bunu. Orda yaşayacaqdı, elə də oldu. Orda da öldü. Sevirdi oraları, insanlarını belə. Ona iyrənc bir varlıqmış kimi baxan insanlarına qarşı belə bir sevgisi var idi. Sevdiyi biri belə var idi. İş yerində. Oğlan təbii ki ona homoseksual olduğu üçün nifrət edirdi, digərləriylə birləşərək onu lağa doyurdular. Ancaq, o lənətə gələsini sevirdi. Ona baxışlarını görmüşdüm. Ona olan istəyi məni qıcıqlandırır və qısqandırırdı. Sənin cinsindən, varlığından iyrənən bir adamı sevmək nə deməkdir başa düşürsən? Homoseksual olaraq homofobik birinə vurulmaq. Niyə? Çünki genlərində var idi. Belə izah edirdi. Sevgisi instiktiv imiş, edəcəyi bir şey yox imiş. İnsan hara qaçıb gedir getsin öz geninə yaxın olan insanları genetik olaraq daha çox sevməyə meyilliymiş. Doğmay-

mış ordakı oğlanlar onun üçün və nə qədər iyrəncliklər etsələr də, onlara qarşı bir doğmalıq hissi var imiş. Doğmaları, onu öldürdülər. – deyib sarıb bitirdi əlindəki otu.

Bəhs etdiyi oğlanın ölümündən sonra tərk etmişdi ölkəsini Fred və çox sevmişdi onu. İki oğlanın sevgisi, bir qadın və bir kişinin sevgisindən belə daha qüdrətli və müqəddəs olmalıydı. Hələ də içində yaşadırdı sevgisini. Fred çox gülsə də, təklikdə öz hüznünə bürünən o insanlardan idi. Pozitivliyini və üzündəki daimi təbəssümü görən heç kim əslində içində nə qədər ağrılar daşıdığını bilə bilməzdi. Ancaq yenə də, insan üzünü yaxşı oxumağı bacaranlar, üzündəki kiçik çizgilərin və fərqliliklərin hiss etdirdiyi o hüznü görəcəkdilər. Sanki hüzün və sevinc sevişmiş və Fredin üzünü yaratmışdılar.

Mavi şahmat daşlarını düzüb bitirdi. Fred sarmanı yandırdı, çəkdi və Maviyə ötürdü. Piyadanı e4 damasına aparıb oyunu başlatdı Fred. Yəqin hind müdafiəsiylə davam edəcək deyə düşündü Mavi, Fredin onun strategiyanı sevdiyini  bilirdi.

- Burdakı lənət məmurların dediyinə görə sənədləşmə prossesim bitənə qədər bu ölkədən çıxa da bilmərəm – deyə davam etdi Fred – bir növ həbsdəymişəm kimi gəlir. Keçmişimdən uzaq və olduğum yerdən çıxa bilmirəm. Ölkədən çıxa bilsəm, arada gedib keçmişimin içində fırlansam, əla olardı. Ancaq belə, içim-içimi yeyir. Yəqin ki internet olmasa keçmişimin olmadığına inana bilərəm bir nöqtədən sonra. Yada sadəcə bir illuziya olduğuna. Yəqin səndə də elədi. Yəni düşün, bizim əvvəl tanıdığımız insanların heç biri ətrafımızda yoxdu. Heç kimlə danışmırıq. Şəkillər və internet olmasa görməsək, bizi istənilən şeyə inandıra bilərlər bəlkə də. Xatirələrimizin əslində olmadığını, onları bizim yaratdığımızı filan.

- Məndəki xatirələr dediyin kimi uydurma gəlir artıq, internet istifadə etmirəm bir müddətdir. Şəkilləri də məhv etmişəm. İnternet dediyim, sosial media saytları yəni.

- Mən də, istifadə etmirəm artıq. Pis təsir edir. Xüsusilə bizim vəziyyətmizidə. Niyə məndən kilometrlərcə uzaqda olan birinin həyatını görüm və izləyim axı? Darıxdırır bu insanı.

Sən bir seçim etmisən, orda yox burdasan və başqa yerdəki birinin həyatını izləyirsən, normal olaraq istəyirsən də. Ancaq sadəcə bir yerdə yaşaya bilərsən. Bunu qəbullanmalı və gözünü digər seçimlərə yummalı, özünü aldatmalısan. Yoxsa əzab çəkəcəksən.

-Elədi. Ya da mənim kimi olacaqsan, bütün seçimlərin dadına baxmaq üçün ordan-ora qaçdım, sonda budur, burdayam. Əksik bir şeylər yox, çox şeylər var.

- Səndə məncə başqa cürdü, sən bunu edə bilirsən və sevirsən ordan-ora köçməyi, yeniliklər filan, sadəcə pulun yoxdu. İqtisadi azadlığın olsa, xoşbəxt olmağı çox yaxşı bacaran adamsan. Yaşamağı bacarırsan sən. İnsanlar sevirlər səni. Həm özünlə vaxt keçirməyi bacarırsan, həm başqalarıyla. Mən başqalarıyla sənin kimi rahat tanışa ya danışa bilmirəm. Öyrəndiklərimi də səndən öyrənmişəm. Səndən sonra biraz açılışmışam mən, özün də bilirsən. Zövq almaq üçün yaşayan insansan və zövq almağı bacarırsan. Sərhədlərin, özünü çərçivələdiyin inancların və komplekslərin yoxdu. Evliliyi sevmirsən, uşaq sahibi olmaq istəmirsən. Azadsan və nə istəsən edə bilərsən. Mənim kimi utancaq deyilsən, homoseskual deyilsən, cəsarətlisən, qorxaq deyilsən. O qədər şey yaşamısan ki artıq gözünü qorxudan heç nə yoxdu. Danışacaq yüzlərlə maraqlı həyat hekayən var, söhbətcilsən. Bildiyin şeylər var. Qadınları ölümünə sevirsən, onlar da səni sevir. Bu qədər gileylənmə yəni əksik çox şey var filan deyə. Əksik olan tək şey pul, yaxşı bir işdir sənin həyatında. Mən kaş sənin kimi olaydım, homoseksual olmayaydım və sənin kimi təcrübəli və özünəinamlı olaydım. Keçmiş üçün darıxma səbəbin indi yaxşı günlərinin olmamasıdır, indi imkanın olsa əgər əvvəlkindən də daha yaxşı xoşbəxt ola biləcək adamsan, onda keçmişi də özləməzsən. Düzgün bir iş tapmalısan sadəcə. Sonra gedib ziyarət edərsən arada keçmişdəki darıxdığın yerləri ildə bir dəfə, qayıdıb gələrsən sonra.

Bir dostunun intiharından sonra, növbəti tapdığı Mavinin intiharını qaldıra bilməzdi Fred. Ancaq Mavi ona hara

getdiyini belə demirdi. Ölümündən belə xəbəri olmayacaqdı. Amma daha əvvəl bu barədə yaranmış böyük mübahisələri zamanı Mavinin ona dediklərini xatırlayırdı. Əgər ölümə gedəcəkdisə bir gün, heç kim ona qarışmayacaqdı. Fredin onu intihar fikirlərindən daşındırmağa çalışdığı vaxtı əsəbləşərək demişdi ona. “Ölmə azadlığımı əlimdən alan heç kimin olmasını istəmirəm. Bəlkə də mənim keçmişimdən bu qədər qaçmağımın səbəbi özümü unutdurmağım və ətrafımda intiharımla üzəcəyim heç kimin olmamasıydı. İndi sən mənə məsləhətlər verirsən. Vermə. Bu barədə danışmaq istəmirəm. Əgər bir gün ölmə qərarı alacamsa mən, öləcəm. Vəssalam. Dostlarımla vidalaşacam və gedəcəm. Məncə vidalaşmalıdır insan, ölümə getsə belə. Ən azından mən belə düşünürəm. Onun üçün dəyərli olan insanlara son bir dəfə təşəkkür etməlidi. Sağollaşmalı, vidalaşmalıdı. Mən belə istəyərdim, bir dostum ölməyi qərara alsa, gəlib mənlə görüşməsini istəyərdim. Ona son sözlərimi deyərdim. Fikrini yayındırmaq üçün yox, sadəcə demək istəyərdim. Keçən xoş günlərimiz üçün oturub içərdik birlikdə. Və sonra hər şey olacağına varardı.” – deyə demişdi ona, aylar əvvəl, bəlkə də il keçmişdi, xatırlamırdı. Ancaq yenə də indi, Maviyə mətnaltı mənalarla da olsa fikrindən yayınması barədə fikirlər verirdi. Onun kimilər yaşamağı yaxşı bacarır deyirdi.

- Mən də istəyərdim gedim gəzim keçmişdəki yerləri, ancaq birincisi lənətə gələsi imiqrasiya ölkədən çıxmağa icazə vermir, ikincisiysə o qədər düzgün bir işim olacağını sanmıram, ki bütün o yerlərə yenidən gedə bilim. Amma gedə bilsəydim, ölsəm də peşman olmazdım sonra. Son bir dəfə görmək, son bir dəfə hiss etmək. Mənim darıxdığım ancaq onların bəlkə də mənim adımı belə unutduğu bəzi kəslər var, onları görmək, bəziləriylə son bir dəfə öpüşmək istəyərdim. Sonra rahat ölərdim. Ancaq bunun üçün düzgün işdən də artığı lazımdı və nə düzgün işi, nə də artığını tapmağa həvəsim yoxdu. – deyib gedişini etdi Mavi və atını c6 damasına çıxardı.

Otu aldı Fred Mavidən, çəkdi. Dənizkənarından götürdü-

yü külqabı kimi işlətdiyi böyük balıqqulağının kənarına qoydu sarmanı.

-Yazmağa başlamışam bu arada, əsas da ona görə azaltmışam çəkməyi.

- Doğurdan? Təbrik edirəm başlamısansa. Necə gedir? Nə qədər vaxtı başlamısan? Nə yazırsan, hekayə ya daha uzun?– deyə Mavi sevindi. Gedişini etdi, bir siqaret yandırdı. Divanın o biri başında oturub oynayan Plutoya baxdı və üzünü Fredə çevirdi.

- Hə. Bir roman üstündə işləyirəm çoxdandı. Əslində yazmaq istəmirdim. Bir ara qərar vermişdim ki heç vaxt yazmayacam roman, kitab ya nəsə. Yeniyetməlik vaxtı yazırdım. İki romana başlayıb sonra yarı qoymuş və silmişdim. Sonra yazmamağı, yazmaqdansa yaşamağı üstün tuturdum. Mənə görə yazmaq uduzmaq demək idi. Yaşayacaq qədər maraqlı həyatın yox idi və yazırdın deyə, yalnız idin deyə. Ancaq gördüm ki, mən deyəsən yalnızlığa məhkumam. Və yazmağa başladım. Məcbur yəni. Mənə elə gəlirdi ki nə qədər bədbxət olmalısan ki oturub yazasan, elə də oldu. Doğruymuş. Yazarlar, ən azından mənim kimilər, bədbəxtlikdən, yalıznıqdan və əlazcsızlıqdan yazırlarmış. Ya da xoşbəxt insan yazmağı o qədər çox sevməlidi ki oturub yazsın. İndi yazarkən özümü itirirəm və daha az düşünürəm deyə yazıram həm də. Əslində bir tərəfdən də həm də Orvel demişkən illərdir beynimdə dolanıb duran monoloqları yazıya tökmək istədim. Beynimin sancılarını azaltmaq üçün. Bəlkə sonra dincələrəm deyə. Həm də ən azından bir şeylər etmək istədim. Bir şeylər bitirmək. Bir məqsədim olsun istədim. Başlamamışdan əvvəl pis günlər keçirirdim. İntihara meyilli ruh halları filan. Ancaq başladıqdan sonra roman məni sanki həyatda saxladı. Başlamamışdan əvvəl bu qədər çətin və həm də asan olacağını da düşünməmişdim. Ağlıma bir ideya gəldi. Belə bir şey niyə yazılmayıb deyə düşündüm, sonra da bəlkə də yazılıb dedim, sonra dedim özüm yazım, ancaq sonra əsər öz yolunu cızdı və başdakı ideya sadəcə əsərdəki kiçik bir faktora çevrildi. İlk 10 səhifəni yazdıqdan sonra 100 səhifəni

necə dolduracam deyə gileylənirdim öz-özümə. Sonra 100ə çatdım və bu dəfə də necə edim ki qısa alınsın roman deyə qıvrılmağa başladım, indi hardasa 250 səhifə olub, başını buraxmışam harda bitər bitər. Məsələ odur ki, o qədər yazmışam, ancaq əmin deyiləm demək istədiyimi başa sala bilmişəmmi? Yox.

- Necədi, gözlədiyin qədər yaxşı gedir ya necə? Özün bəyənirsən?

- Bilirsən, məsələ çox qarışıqdı yazmaq barədə. Yazdığın şeyin yaxşı olub olmadığına qərar verə bilmirsən, üçüncü bir nəfər qərar verməlidi. Üçüncü deyirəm, ikinci yox, yəni səni tanıyan yox, tanımayan biri. Çünki sən və səni tanıyan biri onsuz da sənin fikirlərinə bələddi, onlar üçün yeni nəsə olmur əsərdə. Mən özüm məsələn, bilmirəm necədi. Çünki onsuz da özümün axşamacan düşündüyüm şeyləri yazıram. Əslində bir növ bezdiyim fikirlərimdi. Ona görə yazıb bitirib başqasına oxutmadıqca insan əmin ola bilmir. Bəlkə də bərbad bir əsər çıxarmışam ortaya, bəlkə də pis deyil. Bilmirəm. Əmin olduğum tək şey varsa o da başlarda və ortalarda çox əyləndim. İndi çalışıram bitirim, çox uzanır əsər. Sanki eyni şeyləri təkrar yazıram. Bir də ki, onsuz da yazdığın şeyi bir müddət sonra bəyənmirsən çünki fikirlərin dəyişir. Əgər yazdığın şeyi bir il ya on il sonra hələ də tamamilə bəyənirsənsə deməli heç inkişaf etməmisən. Məsələn indi bir neçə ay əvvəl yazılmış şeylərə baxanda bəyənmirəm. Yaxşı əlamətdi bu. Hə, bir şey də var, işləyə-işləyə yazırsan və bəzi həftələr vaxtın belə olmur yazmağa. Nə yazdığını unudursan, geri gəlib ya əvvəllərdə yazılmış paraqrafı yenidən yazırsan, ya da əvvəl də yarımçıq qalmış nə qədər fikir olur yenisinə başlayırsan. Qırıq-qırıq olur fikirlər. İş çox əngəl olur. Bəzən ağlına nəsə fikir gəlir, mütləq yazmalısan, ancaq yaza bilmirsən, fikir çıxıb gedir. Ona görə bütün potensialımı verib yaza bilmirəm. Ancaq başda özümə şərt qoydum, ya mükəmməl əsəri yazmaq üçün uyğun vaxtı gözləməliydim, halbuki o uyğun vaxtı neçə il gözləyirsən, gəlmir və gəlməyəcək, ya da dedim, başlayacam yazmağa, necə olar olar. Mükəmməlliyyət-

çiliyin qurbanı olsan əgər, heç vaxt yazmayacaqsan. Mükəmməl olmaq məcburiyyətində deyil yazdığın əsər, dedim özümə və başladım yazmağa. İnsan həmişə etmək istədiyi hər şeyi sonraya saxlayır və heç vaxt etmir. İndi et dedim və başladım. Necə bir kitab oxumaq istəyərdim deyə sual verdim özümə və elə bir kitab yaz dedim. Ən çox sevəcəyin kitabın içində hansı mövzular olardı deyə soruşdum özümdən və o mövzulardan yaz dedim. Həm də dedim ki, kitab pis olsa belə ən azından yazma istəyindən canım qurtaracaq bir dəfəlik. Həmişə yazar olmaq istəmişəm, sonra bu istəyimdən yayınmışdım, indi yalnızlıq məni təkrar birləşdirdi o istəyimlə və yazdım. Çox yaxşı yazmadığımı görürəm, ən pisi də budu, amma yenə də bəzən xoşuma gələn paraqraflarım olur. İstədiyim qədər yaxşı deyil əsər, gözlədiyim qədər pis də deyil. Ortalama bir əsərdi. İnqilab gətirəcək bir tərəfi yoxdu, kimlərinsə həyatını dəyişdirəcək bir gücü yoxdu, bəlkə də var, bilmirəm, sadəcə bir əsərdi yəni. Bir çox əsər, sadəcə yazılmaq üçün yazılıb. Yalnız qalınılıb və yazılıb, bu da elə. Dediyim kimi, canım çox sıxılırdı intihara meyilli günlər keçirirdim, başlayım dedim və başladım. Ancaq maraqlıdı. Yazmaq, yeni bir həyat yaratmaq! Bəzən nəzərində belə tutmadığın şeylər olur öz yazdığın əsərdə və özün belə təəccüblənirsən. Birdən bir obraz daxil olur kitaba, bu kimdi deyirsən? – deyib güldü və sönmüş ot sarmasını təkrar yandırıb çəkdi gülərək – Hekayə gözlədiyindən fərqli istiqamətdə axır məsələn. Buraxıram axsın. Görək nə olur deyə. Birdəki, heç belə düşünməzdim ancaq həqiqətən də əsərin içinə girib orda yaşayırsan bəzən. Sanki səhifələrin arasında yaşadığın başqa bir dünyan var. Bəzən obrazlarım yuxularıma girir, söhbət edirik, sonra durub yazıram olanları. Bəzən xatırlamırsan, ancaq möhtəşəm şeylər olduğunu bilirsən yuxuda. Çox pis olur. Öz ana dilimdə yazıram əsəri. Dar dildi, istədiyim qədər geniş düşünə bilmirəm yazarkən. Çox götür qoy etdim başqa dildə yazım ya yox deyə ancaq öz dilimdə yazmağı qərara gəldim. Bəlkə də sadəcə ona görə ki birinə ilk dəfə bu dildə səni sevirəm demişəm. İlk davam bu dildə olub. İlk etirazım bu dil-

də olub. İlk dəfə bu dildə “qorxdum” demişəm. Məncə sən də yazmalısan bir şeylər. Görəcəksən, maraqlı olacaq. Ağrılarını səhifələrə tökə bilərsən, həm rahatladacaq, həm səni həyatda tutacaq bir məqsəd olacaq yazmaq.

- Mən? Yox əşi, mən oturub yaza bilmərəm. İstəmirəm də. Yaşamağa həvəsi olmayan adama yazmaqdan danışırsan. Həm də ki, ağrılarını səhifələrə tökərək yazmaq səni həyatda tutacaq deyirsən də, məni yeyib bitirən hüznümü məni həyatda saxlayacaq alətə çevirim deyirsən? Sanki içindəki su dəyirmanı fırlanmasa öləcəksən və sən ora öz hüznünü tökərək çarxı fırladırsan. Mən sənin kimi yaxşı da yazmaram. Bir ara düşünmüşdüm düzü, ancaq yaxşı süjet yaza bilmərəm mən. Süjet uydurma bacarığım yoxdu.

- Bax görürsən, mən də belə deyirdim. Elə deyil. Birincisi hamı yaza bilər. İkincisi Sujet yazdıqca yaranır. Əgər əvvəlcədən ağlında qeyri-adi bir sujet yoxdursa, yazmağa başladıqdan sonra ağlına bir çox şey gəlir. Eynilə şahmat kimi, hər daşı oynadıqdan sonra yeni ehtimallar yaranır. Özündə çaşırsan ki əsəri hansı istiqamətdə irəlilədəsən. Həyatımızı tamamilə azad formada öz istədiyimiz istiqamətə çəkə biləcək gücümüz yoxdur. Ancaq əsərdə sən tanrısan. Hər şey sənin əlindədir. Ədəbiyyat oxumuş və sevmiş biri olmasan deməzdim yaz. Amma məncə hamı yazmalıdı. Hətta məktəblərdə ilin sonunda iri həcmli hekayələr istəməlidirlər tələbələrdən. Hər insanın bir hekasəyi var, hamı yazmalıdı. Hər insanın unikal olduğuna inanıram. Deyəcək bir sözü var hamının. Ümumiyyətlə xəyalgücünü də genişləndirir yazmaq. Hamı yazmalıdırsa hamının yazdığını hamı oxumalıdı demirəm. Xeyr. Sadəcə ona görə yazmırsan ki kimsə səni oxuyacaq, çox vacib bir fikrin var dünyayla bağlı və sən inqilab başladacaqsan, yox, sadəcə əsas da ona görə ki bu bir terapiyadır. Yazmaq ən az oxumaq qədər terapiyadır. Niyə şəkil çəkirik? Xoşumuza gəlir, rahatladır, əyləndirir, zamanın axışını dayandırır, itirsən, biriləri baxır və bəyənir və sairə. Yazmaq da elə. Yazarkən transa girirsən, bəzən uydurduğun obrazın kədəri səni ağladır, ağlaya-ağlaya

yazırsan, bəzən obrazlarından biri səni o qədər güldürür ki, son vaxtlar o qədər ürəkdən gülmədiyini xatırlayırsan. Sırf biriləri oxusun deyə yazmaya da bilərsən yəni. Söhbət edirsən də sanki, sadəcə yazılı söhbət edirsən. Əgər sonda bəyənsən, bəlkə yayınlada bilərsən. Qaldı ki oxuyucu məsələsi, o da vacibdi əlbətdə. Ola bilər ki yayınladasan və düşün, sadəcə bircə nəfər belə oxuyub bitirib və ürəkdən sevsə sənin yazdığını, bu sənə bəs deyilmi? Məncə möhtəşəm hissdi. Bir oxuyucumun olmasını həmişə istəmişəm. Düşün, səndən kilometrlərcə uzaqda biriləri var, sənin tanımadığın, səni tanımayan. Oturub bir yerlərdə, bəlkə yatağında, bəlkə yağışlı bir bazar günündə yanında çayı ya pivəsi tənha evində sənin kimi tənha, bəlkə avtobusda, bəlkə də meşədə, dəniz kənarında, hər hardadısa sən onunla söhbət edirsən. Sonra əsərin son səhifəsini çevirib örtür kitabı və səninlə tanış olmaq istəyir. Sənin necə biri olduğunu tanışmadan bilir artıq. Sənin fikirlərini sevən biridirsə, onlarla razılaşırsa, deməli sən onunla hələ tanışmamış olsan da sən də onunla razılaşarsan, deməli bənzər fikirlər və yaxın hisslərin sahibisiniz. Bənzər şeylərə gülür və ağlayır, oxşar şeylərdən ilhamlanırsınız. Möhtəşəm deyilmi? Mən öz yazdığım barədə o qədər də ümidli deyiləm düzdü, ancaq yenə də, sənə misal verirəm. Mən öz yazıma pessimist müdafiə mexanizmasıyla yanaşıram daha çox. Yəni ən pisinə hazırlayıram özümü. Ona görə də rahatam. Heç kim oxumasa belə, bəyənməsə belə. Sadəcə yazıram. Onsuz da, öz dilimdə yazdığım üçün, yazdıqlarımı biri bəyənsə belə, lənət olsun ki nə görüşə bilərəm, nə danışa. Ölkədən çıxmağım qadağandır. Əsəri nəşr etdirəsi olsam öz ölkəmdə etdirəcəm. Yəqin ki oxumuş heç kimlə tanış ola bilməyəcəm. Ona görə də yayımlatdıqdan sonra əsərin aqibətiylə maraqlanmamağa çalışacam. Maraqlıdı, bəlkə də homoseskual olduğumu öyrəndikləri an kitaba nifrət edənlər olacaq. Bəzən ona görə başqa bir ləqəblə nəşr etdirməyi düşünürəm. Bilmirəm, nəşr barədə hələki əmin deyiləm, olmaya da bilər.

-Yazma prossesindən zövq alma hissəsində haqlısan, bir yerdə oxumuşdum, sənətçi sənəti yaratma prosessindən

həzz alır çünki yaradıcılıq zamanı beyində müəyyən kimyəvi maddələr sintezlənir. Dopamin idi deyəsən, yəni bildiyin narkotik maddə və seks zamanı aldığın hisslərin bir hissəsini alırsan rəsm çəkib bitirərkən, çəkərkən, yazarkən, musiqi bəstələyərkən və ifa edərkən. Oxunma məsələsinə bu qədər ilişmə məncə, yazılan hər mətnin bir oxuyucusu vardır mütləq.

-Yox, bilirsən necədi, kitabı yazdıqca olduqca pessimistləşdiyimi hiss etdim. Günlərə görə dəyişir sanki kitabın ritmi, kefli günümdəyəmsə normal gedir, kefsiz günümdəyəmsə can sıxıcı sətrlər və pessimizm. Kim belə kitab oxumaq istəyərki deyə düşünmədən edə bilmirəm bəzən. Kim canını sıxacaq şeyi oxumaq istəsin ki.

- İnsanlar dram izləməyi və oxumağı sevirlər, çünki bu onlara tək olmaqdıqlarını hiss etdirir.

- Elədi. Özümə təskinlik vermək üçün ara-sıra mən də elə düşünürəm. Ancaq yenə də nə bilim.

- Çox adam sevir dramı, tragediyanı, faciəni. Özlərindən bir şeylər tapır hamı. Ya da öz həyatlarına daha az nifrət edirlər, başqalarında da eyni dərdlərin olduğunu görüb. “Mən burda ölərkən hamı kef edir” deyə düşünmürlər sonra. Təkcə bu da deyil təbii səbəb, melanxolik hiss etdirə bilər onları bir dram filmi ya ağrılarla dolu kitab. Melanxoliya da olduqca gözəl hissdir, aldudəçilik yaradır, yaxşı hiss etdirir. İnsanlar öz həyatlarında tragediyalar yaradırlar, sırf ona aludə olduqları üçün. Həyatlarının adi, bəsit olmadıqlarına özlərini belə inandırırlar, bəsit problemlərini böyüdürlər. Sevirlər yəni insanlar tragediyaları. Narahat olma, bir oxuyucun mütləq olar, birdən çox olar.

- İntihara meyillilik yarada bilərsə bir kitab, kim niyə oxusun? Nə verəcək o kitab onlara? Ancaq kim bilə bilər ki, əlində tutduğu kitab, müəllifi intihardan uzaqlaşdıran şey olub.

- Sən bütün oxuduğun kitabları nəsə öyrənmək üçün oxumusan? Yox. Bir kitab sırf terapiya məqsədli, zövq almaq üçün də oxunula bilinər. Verdiyi heç bir mesaj heç bir ana tema olmasa da. Sakitləşmək üçün dinlənilən həzin musiqilər kimi də ola

bilər bir kitab. Yalnız birinin yastığı altında saxladığı tək dostu da ola bilər. Yeniyetmə birinin həyatında inqilab yaradacaq bir kitab da ola bilər, başqaları üçün heç bir məna kəsb etməsə də. Bax bu çox vacibdir, nisbidir, özün də bilirsən, yeniyetməykən oxuduğun ya baxdığın filmlər daha çox təsir edib sənə nəinki sonra, elə deyilmi? Kitabın təsir gücü məsələsi olduqca nisbidi, oxuyucuya görə dəyişir, oxuyucunun yaşı ya təcrübələri, daha əvvəl bənzər şeylər oxumuş olması ya olmaması, fikirləşmiş olmasına görə dəyişir. Bir də ki, əsas sənin sevməyindi yazdığın şeyi. Əgər özün yazdığın cümləni bəyənirsənsə deməli sənin zövqünə sahib başqaları da sevəcək. Kitab oxumağın o qədər səbəbi var ki, oxuyuruq çünki bitmək bilməyən maraq hissimiz var. Ruhdan düşmə yəni, yazmağında ol. Birdə ki, bu sənin ilk əsərindi. Nə gözləyirsən? Əsərlərini oxuduğun Nobel mükafatçıları ilə müqayisə edirsən? İlk əsərindi və mükəmməl olmaq məcburiyyətində deyil. Bir də ki, hər yeni kitab haqqında deyirlər ki "nəyə yazırlar axı, onsuz da bütün yazılacaqlar yazılıb", ancaq məsələ odur ki əsas olan deyiləcək olan deyil onun necə deyiləcəyidir. Eyni şeyi qadınlar haqqında deyənlər də var ki "Nə fərqi var, hamısı eyni şeydir". Xeyr. Elə deyil. Bəli nəticədə bütün qadınlar sadəcə bir qadındır. Kitab kimi. Ancaq hərəsinin öz deyilmə forması var. Hərəsinin öz təzahür forması var.  Hər gözəl qadın ayrı gözəl olduğu kimi eyni şeyləri belə desə hər yaxşı kitab ayrı formada gözəl ola bilər.

- Bilirəm, haqlısan, ancaq yenə də. Nə bilim, ədəbiyyat ölür getdikcə, yəni ən azından müəyyən janrlar tarixə qarışır, artıq onları oxuyan yoxdur. Ədəbiyyat internetdən əvvəlki əsr üçün daha vacib idi. İndi insanlar vaxtını internetlə öldürür, ya da ani zövqlərə qaçırlar. Ya da filmlər var. Yəni oxuyucu sayısının onsuz da az olacağını bilirəm. Ancaq məsələnin oxuyucu tərəfini boş ver, yazma məsələsi daha da maraqlıdı. Dediklərinin də çoxuna qatılıram. Onsuz da mən kitabımı həm tənqid edir, həm də tərifləyirəm haqqında düşünəndə. Yəni bədbin tərəfim mənə deyir ki bu nədi yazmısan? Nikbin tərəfim isə deyir hər şey əladı. Hər iki tərəfin arqumentlərini dəyərləndi-

rirəm. Məsələn, bayaq sənin dediyin kimi, sanki bütün kitablar hansısa inqilabi məqsədlər üçünmü yazılır? Yox. Kitab dediyin zövq və üslubdur. Hərə bir cür yazır. Eyni şeylər daha əvvəl yazılıb deyə yazılmamalıdırmı yenidən? Yox. Yazılır və yazılacaq. Çünki məsələ eyni şeyi təkrar demək deyil, necə deməkdir. Yəni originallıq yoxdur əslində. Biz, bizdən əvvəlkilərin yazdıqlarının üstünə yazırıq. Hər yazılan yazı, bir əvvəlki yazılmışların imitasiyası sayıla bilər. Kitabımda yazdığım və ilk dəfə mənim düşündüyümü sandığım mövzunu yüz il əvvəl ölmüş bir yazarın kitabında görəndə kefim pozulur bəzən. Olur da elə anlar. Əslində dərinə getsən onsuz da görəcəksən ki bəlkə də yazdığının doxsan faizi artıq yazılıb. Ona görə kitab yazdığım ərərfədə başqa yazarları oxumamağa çalışıram indi, çünki eyni şeyi mənim də yazdığımı görəndə kefim pozulur. Amma çox qəribədir, iki yüz il əvvəl ölmüş bir fiolosofla eyni şeyi düşündüyünü görürsən, heç vaxt da oxumadığına əminsən o adamı. Eyni dünyada yaşayırıq nə də olsa, çox da qəribsənəcək hadisə deyil başqa insanlarla eyni şeyi yazmış olmağımız. Ya da bəzən özümü tənqid edirdim ki, mən heç bütün ən məşhur romanları bitirməmişəm amma roman yazıram deyə. Ancaq sonra özümü sakitləşdirirəm, bütün keyfiyyətli əsərləri oxumaq zorunda deyil fərd özü yazmamışdan əvvəl. Sənə bir şey də deyim, məni Emersonla tanışdırdığın üçün minnətdaram. Mənə özümə inam və əminlikdə çox kömək etdi. Həmçinin individual fikirlərimi çəkinmədən yaza bilməyimə kömək etdi. Mənə verdiyin kitabında bir neçə sözü var ki, hər xatırlayanda içimdə günəş açır, belə deyir fikirlərimizi yazmağımız mövzusunda: “Hər dahiyanə əsərdə rədd etdiyimiz fikirlərimizi görürük”, “Sabah bir yad insan gəlib həmişə düşündüyümüz və hiss etdiyimiz şeyləri ustalıqla deyəcək və biz də öz fikrimizi bir başqasından eşitmək məcburiyyətində qalacağıq utanaraq.” Sadəcə möhtəşəmdir.

Fred bitkilərinin olduğu tərəfə gedib onları sulayıb əzizlədi. Sonra onları sulaya-sulaya birdən durduq yerə dilləndi: “Mənim ölməyə haqqım yoxdu. Mənə nəsə olsa bitkilərim su-

suzluqdan öləcəklər. Nə də onları heç kimə etibar etmərəm. Mən ölsəm Lulu və Pluto neyləyəcəklər?”

- Ölmək demişkən, – deyə davam etdi Fred – mənə məqsəd verib kitab. Ölməkdən qorxuram indi. Kitabımı bitirib bir neçə nəfərə oxutmadan ölmək istəmirəm. Ya da kimləsə oturub söhbətini etmək istəyirəm heç olmasa. Sonra bilirsən nəyi düşündüm? Eqo elə güclü hissdir ki, bir kitab yazırsansa çox qorxursan ki, birdən yarımçıq qalar və sən ölərsən. Nəşr olunmaz ya sevdiyin birinə oxuda bilməzsən. Hansı ki öləcəksənsə öləcəksən də. Yox olacaqsan. Ancaq yenə də ağlın bu dünyada qalır. Yoxluğun mənasını bütün dərinliyi ilə dərk edən insan belə bəzən bu tələyə düşür. Bir insan axtarırsan ki deyəsən, mən ölsəm bu kitabımı nəşr etdir, hansı ki, nə mənası var? Ancaq bir də elə insanlar var ki kitab yazır və özünü öldürür. Kiminsə oxumasını heç gözləmədən, həyata al, mən gedirəm demək, deyə bilmək.

- Maraqlıdı, - deyə davam etdi Fred - Bəzən çaşıb qalıram, sadəcə 30 fərqli hərf minlərlə dili və hər dilin içində minlərlə fərqli kitabı yarada bilir, möhtəşəmdi.

- Elədi. Nəsə deyəcəkdim unutdum. Ot və içki o qədər vurdu ki məni bütün fikirlər qarışıb bir-birinə. Başa düşürsən mənim demək istədiklərimi ümumiyyətlə? Çox qarışıq danışmıram? Qoy sən getmədən çoxdandı fikirləşdiyim şeyləri deyim, sonra heç kim olmayacaq. Mən də çoxdandı gözləyirdim ki gələsən danışaq biraz. Kaş yanımda dostlarım olaydı ədəbiyyat ya fəlsəfə müzakirə edə biləcəyim. Bütün kitabları oxuya bilmərəm məsələn, birini mən oxuyub danışardım birini başqası. Amma heç kimim yoxdu. Əvvəl də ətrafımda intellektual bir mühitim yox idi. Ətrafımdakıların hamısı səfeh deyəcəyin saf, gözəl və axmaq insanlar idi, ancaq onları sevirdim, çünki onlardan başqa heç kimim yox idi. Saatlarca danışmaq istəyərdim məsələn bir kitabın necə yazıldığından. Məsələn musiqi dinləyərək kitab yazmaq və heç nə dinləmədən yazmaq. Musiqi dinləyərək kitab oxumaq yoxsa sakit oxumaq? Hamısının ayrı gözəl yanları var. Nəysə. Kitaba geri dönüm. Bir yazar deyirdi

ki, yazarkən mühakimə etməməlisən, başa düşməlisən. Məncə oxumaq da elə olmalıdı, mühakimə etməməlisən kitabı, anlamalısan. Çünki hərə bir cür düşünür və sən yazarın dünyasına girməlisən, onu anlamalısan, mühakimə etsən oxuduğundan heç nə anlamayacaq və zövq almayacaqsan. Yazmaqda ən çox sevdiyim şeylərdən biri də intertekstuallıqdı. Mətinlərarasılılığı sevirəm. Başqa kitablara göndərilən mesajlar. İstinadlar və sitatlar. Mətnaltı mənalar. Ölmüş yazarların ruhlarıyla söhbət edirmişsən kimi. Söhbət etməyə heç kimin olmayanda onlarla danışırsan. Onlara suallar ya cavablar verirsən. Cümlələr arasında nələrisə gizlətməyi sevirəm. Oxuyan hərənin başqa formada anlayacağı mətinlərarası mesajlar. Bəzilərinin dəfələrlə oxusa da görməyəcəyi beş sözdən ibarət cümlənin içində gizlədilmiş paraqraflar və buludlar. Sadəcə tək bir kişinin anlaya biləcəyi sətirlər. Sadəcə tək bir kişiyə yazılmış sətirlər. Sadəcə oxumağı bacaranların anlayacağı ikimənalı üstüörtülü eyhamlar. Ən yaxşı kitab odur ki geri dönüb bir də oxuyanda nəsə tapırsan. Elə kitab yazmaq hər adamın işi deyil, asan da deyil. Birinin romanımı oxuyarkən ot çəkməsini ya psixodelik maddələrdən istifadə etməsini çox istəyərdim. Daha çox söz görərdilər bir cümlədə olduğundan. Daha da içinə girərdilər. Alkoqol tam da o effekti vermir məncə beyni sakitləşdirdiyi üçün. Ümumiyyətlə istənilən əsərdə cümlələr, paraqraflar daha vacibdir nəinki əsas sujet. Necəki şahmatda taktikalar strategiyadan daha vacibdir. Bu arada, obraz yaratmaq məsələsi də çox maraqlıdı. Yaratdığın xarakterə vurula belə bilərsən. Görmək istədiyin birini yaradırsan. Kitabdan dartıb çıxarıb həyatına gətirmək istəyirsən bəzən. Ən sevdiyin insanların birləşmələrini görə bilirsən obrazlarında, çünki onların imitasiya və interpretasiyalarıdır obrazların. Bayaq dediyim mükəmməlliyyətçiliyin ən pis tərəflərindən biri də bilirsən nədi? Geri dönüb əsəri oxuyanda hər dəfə cümlələri daha yaxşı formada dəyişirsən, ya yeni cümlə və paraqraflar əlavə edirsən. Sonra belə bir problem çıxır ortaya, nə vaxt əmin olacaqsan ki hazırdı əsər? Heç vaxt. Mükəmməlliyyətçiliyin daşını atıb bitirməlisən. İndi

bir an içində canımı qurtarmaq istəyirəm ona görə bu əsərdən. Yazım bitsin. Dincəlim bir az. Bəlkə bir də yazmaram, çünki deyəcək sözüm yoxdu artıq. Bəlkə nə vaxtsa yazaram. Bilmirəm, - dedi Fred və oturduğu divana uzandı.

Divara asılmış şəkillərin birində Fredlə Lulu və ölmüş tutuquşu Felisitenin şəkili var idi. Lulu qəfəsindən çıxdı, həmin Felisitenin şəklinin olduğu divarın qarşısındakı asılqana qondu və anlaşılmaz bir şeylər təkrarladı. Kədər, evin qonağıydı.

Mavi kofesini təzələmək üçün mətbəx şkafları tərəfə yaxınlaşdı. Mətbəx salonun içindəydi. "Kofe istəyirsənmi?" deyə soruşdu Freddən. Geri dönüb stəkanını götürdü, hər ikisi üçün kofe hazırladı. Sonra otağın divarındakı şəkil və yazılara baxaraq yeriməyə başladı. Fred sevdikləri bir nu-caz musiqisi qoşdu. Mavi şəkillərin birinin qarşısında dayandı. Şəklin altındakı yazını oxudu səsli formada, "Strazburq rəqs vəbası". 16-cı əsr Avropasında Strasburqda bir qadının küçədə birdən-birə rəqs etməyə başlaması, dayanmaması və sonra başqalarının da ona qoşulması və beləcə bir ay davam edən dayanmadan rəqs edən insanlar və hər gün 15-20 nəfər, ay sonunda isə 400-ə yaxın insanın yorğunluqdan ölməsi. Daha sonra Avropanın bir neçə başqa şəhərində də eyni mistik hadisə baş vemrişdi. Nə onda, nə indi ekspertlər hadisənin səbəbini tam olaraq bilmirlər. Bəziləri bunu stress qaynaqlı kütləvi isteriya adlandırmış, bəziləri mistik adlandırmışdı.

- Əladı da, ölümünə rəqs edirsən, sonra da ölürsən, hə? – deyə soruşdu Freddən.

- Təbii ki, əgər bundan xoşun gələrək edirsənsə, istəyəndə bədənini saxlaya bilirsənsə. Yoxsa işgəncədən başqa bir şey deyil. Onların niyə oynaması barədə fərziyyələrdən biri də bilirsən nədi? Hamısı hansısa bilinməyən zəhərli bir bitkini yeyiblər deyəsən xəbərləri olmadan, sonradan tapılıb ki içində nəsə kimyəvi bir maddə var imiş onları oynadan.

- Maraqlıdı. Əgər xoşbəxt olaraq yorğunluq hiss etmədən oynayıb ölüblərsə mən şəxsən istəyərdim – dedi gülərək Mavi.

- Kim istəməzdi ki, xoşbəxt ölüm.

- Dünən biriylə söhbət edirdim, yadıma düşdü, gələcəkdə təsəvvür elə, bizim indiki bu axmaq dərdlərimizin heç biri olmayacaq, çox gülünc görünəcək. İşləmək filan. İşləyərək ömrünün yarısını itirən insanlar var və sevmədiyi cəhənnəm, nifrət etdiyi işdə işləyən insanlar var. İndidən işsizlik sayı artır, daha da artacaq və sonra dünyəvi bir böhrandan sonra yeni sistemə keçiləcək yəqin, hə? İnsanlara aylıq minimum gəlir veriləcək, daha az işləyəcəklər, daha doğrusu ehtiyac olmayacaq işləmələrinə. Ondan sonrakı dünyanı təsəvvür et. Tək yaşama səbəbin əyləncə, zövqlər, sənət. Gələcək kasıbının dünya səyahətinə çıxma ehtimalı nə qədər olar bilmirəm, ancaq ən azından gəzə bilərlər bir az da olsa. Nə istəyirsən bundan artıq?

- Səncə insanlar bekarçılıqdan depresiyaya girib intihara başlayarlar yoxsa dediyin kimi əylənərlər?

- Bekarçılıq, depresiya, intihar kimi nəticələr olacağını sanmıram, ya da belə deyək, o dövrə alışa bilməyən insanlar öləcək, alışacaq olanlar davam edəcək, təbii seçmə. İndidən başlayıb o təbi seçmə. Həm, hər dövrün öz məşğuliyyəti var, işsizlikdən sonra daha çox vaxt ayıracaqlar özlərinə, sənətə, yaradıcılığa, ya da sadəcə əyləncəyə.

- Hər gün eyni əyləncədən nə qədər məmnun ola bilərsən axı? Hər dəfə fərqli əyləncə olsa da bir nöqtədən sonra eyniləşəcək.

- İndiki dünyanın gözüylə baxırsan gələcək dünyasına. Hər şey o zamanki şərtlərə uyğun dəyişəcək yəqin. Ya da ən bəsitindən Huxley'in Yeni Cəsur Dünya'dakı kəhanəti reallaşacaq. Tək edilməsi gərəkilən şey yan təsiri olmayan anti-depressantlar, kimyəvi maddələrdi. Səncə də dünya ora getmirmi zatən? Bəzi fərqliliklər olsa da olacaq olan odu. Əsas olan xoşbəxtlik deyilmi? Vəssalam. Ya da belə deyək, insanlar axır əvvəl əsas olanın xoşbəxtlik olduğunu anlayacaq və digər hər şeydən imtina edəcək. Ciddi deyirəm. Əsərdə onsuz da bilirsən də, düşünmək, ədəbiyyat, şeir bunların hamısına gülməli baxırlar həmin o gələcəyin süni xoşbəxt insanları. Çox belə qəribə, çirkin görünür sanki, ancaq elə deyil məncə.

- Düzdü. Huxley özü də qərarsız idi bu barədə bilirsən? Hansını seçərdi deyə, indiki əzablarla dolu insan həyatımı yoxsa heç bir əzabın olmadığı düşünməyən, süni, sadəcə xoşbəxtlik arzusunda olan həmin o gələcək axmaq insanınımı.

- Əsərdə onsuz da görünür tərəddüddə olduğu. Axı niyə də olmasın. Xoşbəxt və axmaq kölə, ağıllı azad, ancaq əzab çəkən insandan daha yaxşıdı. Mən bunu hələ indi başa düşürəm. Həqiqətmi? Kimin vecinə axı? Ancaq təəssüf ki, "bu vecimə deyil" sözünü deyə bilmək üçün həqiqəti tapmalısan əvvəl, ondan sonra da artıq gec olur. Bir növ paradoks yəni. Deyirsən ha, gələcəyin işləməyən insanlarına əyləncə hər gün darıxdırıcı və maraqsız gələ bilər, darıxmaq və maraqsızlıq nədir? Kimyəvi reaksiya, vəssalam, nə etməlisən? Bir başqa kimyəvi reaksiyalarla təsir edərək darıxmaq və maraqsızlıq hisslərini, daha doğrusu reaksiyalarını yox etməlisən. Hiss yoxdu, reaksiya var. Və hər reaksiyanın da bir katalizatoru, onu yavaşladan ya sürətlədən bir əks nəyisə var. Onu tapmalıdı sadəcə elm adamaları vəssalam. Ya da ki uzaq başı ölüb gedəcəyik də, yəni nə var ki burda.

- Cahillik xoşbəxtlikdir deyirsən yəni.

- Əlbəttə. Daha doğrusu, belə deyək, xoşbəxtsənsə, cahil ya ağıllı olub olmamağının fərqi yoxdu. Yəqin ki əhali sayı azalacaq, evlənənlər azalacaq ya yox olacaq, ya da evlilik köhnəlmiş bir ənənəyə çevriləcək. İnsanlar indi ya darıxır ya keçmişdə belə olduğu üçün evlənirlər, gələcəyin şərtləri dəyişdiyi zaman, nə ehtiyac qalacaq ki evlənməyə? Qadınlar öz azadlıqlarını elan etdikdən sonra kim niyə evlənsin? Ya da belə deyək, bir-iki illik evliliklər ola bilər, elə məntiqlidi, hə. Niyə də yox. 6 aylıq evlilik kontraktına yox deməyəcəyim qızlar tanıyıram, evlilik dediyim, birlikdə yaşamaq yəni. Uzaqdadılar amma. Hər nəysə yəni. Tutdun da sən məsələni.

- Nə bilim, gələcəyi düşünəndə adam ölmək istəyir bəzən.

- Səndə də elədi? – gülərək təəccübləndi Mavi – Yəqin bilirsən niyə elədi? Məndə də elədi. Gələcəyi düşünəndə bir o qədər tez ölmək istəyirəm. Əsas da məsələn 60 il sonraya

keçdikcə 100, 200, 300 il hər dəfə daha da tez ölmək istəyirsən, tərs mütənasib. Yəqin səbəbi əks təsirdi. O qədər yaşaya bilməyəcəyini başa düşən beyin depressiyaya girir və bunu düşünməməyə çalışır, bunu düşünməməyin tək yolu da ölməkdi. Arada beynimə yazığım gəlir, əminəm onun da mənə yazığı gəlir. Beynim və məni də elə deyirəm ki elə bil beynimnən başqa da mən var.

- İşin insan həyatında həddindən çox yer almasının fəlakət olduğunu bilirəm. Bu günün dünyasında baxanda da görürük onsuz da. Əsas da vəhşi kapitalist ölkələrdə. İnsanlar yadlaşır, özlərinə vaxtı qalmır. Yaradıcılığı da öldürür iş. Başqa şey etməyə vaxtın qalmır. Halbuki yeni nə qədər şey öyrənə bilərsən. Ancaq yenə də mən sənin qədər ümidli baxmıram gələcəyə. Sən əminsən ki insanlara işləmədən pul veriləcək? Kapitalistlər edər bunu?

- Ola bilər ki həftədə sadəcə iki saat işləyəsən.

- Bəlkə elə bir şey ola bilər. Daha sosial bir dövlət.

Fred soyuducudan iki pivə çıxardı və ağzını açıb birini uzatdı.

Mavi fikirli formada davam etdi,

- Birdəki, gələcəkdə xoşbəxtlik dərmanlarına ya antidepresantlarına bilirsən niyə daha çox ehtiyac olacaq? Çünki insanlara bir məqsəd verərək bu yüzilliklərə qədər gətirib çıxaran dinlər öz güclərini itirirlər. İnformasiya əsri onları yıxıb tarixə gömür. İndiyə qədər dinlərin kifayət qədər insanı həyatda saxladığına, məqsəd verdiyinə, intihardan qaçırdığına inanıram. Ölümü hər düşündüklərində onları saxlayan bir dinləri olub. Digər tərəf olduğundan qorxublar, tanrıdan qorxublar, hesab verməkdən qorxublar. Gələcək insanını həyatda saxlayan belə uydurma səbəblər də olmayacaq. Daha ağıllı olacaq. Ona görə də insanlıq forma dəyişdirəcək yəqin. Bir şəkildə xoşbəxt olmağın yolunu tapacaq ya da xoşbəxtlər ayaqda qalacaq. Məsələ odur ki dünya əvvəlkinə nisbətən daha sürətli inkişaf edir və dəyişir ona görə də insan bir ömür ərzində bir neçə fərqli sistem görür, internetdən əvvəli və sonrasını eyni həyat-

da yaşayan insanlar kimi. Adaptasiya problemləri yaşayırlar. Dinlər son dövrlərini yaşayırlar hardasa, indiki inananlar öldükdən sonra inanclı insanların sayı dramatik formada aşağı düşəcək. Onda həyatında kiçik bir problem olduğu zaman belə öldürə bilər özlərini insanlar. Düzdü mən hamıya öz gözümlə baxsam səhv etmiş olardım. Hamı eyni hiss etmir. İnsanların böyük çoxluğu təkamüli olaraq optimist düşüncəyə meyillidir, asan-asan öldürməzlər bəlkə də özlərini.

Divarda Fredin səliqəli əl yazısıyla bir kağıza yazılıb yapıştırılmış yazının qarşısında dayandı Mavi və oxudu,

"Heç peşman deyiləm. Bir ümidim var. Romanını bitirmək üzərəyəm. Orginal bir əsər olacaq" – Dostoyevskinin qardaşına məktubundan.

Fred onun oxuduğu yazını divanda oturduğu yerdən gördü və dilləndi:

- Mənə motivasiya verir Dostoyevskinin o sözləri, niyə bilmirəm amma hər oxuyanda tüklərim biz-biz olur, bədənim istiləşir. Kaş mənim də o qədər güvəndiyim bir əsərim olardı, möhtəşəm bir hiss olmalıdı, təsəvvür et, yaratdığın romanda olduqca iddialı olmaq, necə olduğunu bilmək, yaxşı olduğunu iddia etmək.

- Bəlkə sadəcə kibirdi? Kibirli biri olub kimimə gəlir, bəlkə elə ona görə elə iddia edib. Həm də, onun yaşadıqlarını yaşayan insan, ölümdən geri dönən insan, sürgündə olmuş insanın istər istəməz deyəcək bir şeyləri olur. Yazacaq bir şeyləri. Yazmaq ağrılardan qaynaqlanır çox vaxt, zəki birinin edəcək heçnəyi yoxdursa, evdə oturur və yazır, başqa neyləsin. Dostoyevski barədə fikirlərimdən əmin deyiləm. Mənə qalsa o tək olmayıb, onun düşündüyü şeyləri düşünən nə qədər insan da olub, o sadəcə onları yazmağı seçənlərdən olub. Ona görə yaxşı yazardı deyə bilərsən, ancaq müqəddəs deyil mənə görə.

- Sənin ümumiyyətlə rus ədəbiyyatına elə baxdığını bilirəm. Ancaq sənin kimi düşünsək onda dahi adlandırılacaq adam qalmır. Sənə qalsa heç bir yazar müqəddəs deyil.

- Hə. Ümumiyyətlə məncə bilirsən necədi. Bilinən ən məşhur əsərlər məsələn, yazılmış ən yaxşı əsərlər deyil, sadəcə ən çox tanınmış olanlardır. Bir şəkildə bəxtləri gətirib deyək, təsadüflər o kitablarda birləşib, məşhur olublar. Yoxsa o qədər eyni şeyi yazmış kitablar və yazarlar var ki itib batıb gediblər. Ya yaxşı reklamları olmayıb, ya kiçik bir dövlətdə yazıb tərcümə olunmayıblar və.s  Belə deyək də, Mona Liza məsələn, çəkilmiş ən gözəl əsərdir? Yox. Ancaq bir şəkildə daha çox tanınıb və ən gözəl sayılıb. Haqqında tərifnamələr, esselər yazılıb və sair. Mənə qalsa Mona Liza çox da vacib bir əsər deyil. Onu məşhur edən sadəcə insanlardı. Bilinən ən məşhur musiqiçilər ən yaxşılarıdırmı? Onlarla eyni səviyyədə nə qədər başqası da olub ya var. Sadəcə onların bəxti gətirib və təsadüflərin kəsişmə nöqtəsində olublar ya reklamları yaxşı olub.

- Müəyyən mənada razıyam amma yenə də bilinən bir çox musiqiçi ya ədəbiyyatçının həqiqətən də ən yaxşı olduqlarına inanıram.

- Sözsüz ki, qaçınılmazdır orası. Yaxşıların bəziləri həqiqətən də yaxşıdır əlbətdə, ancaq onlar kimi başqa yaxşılar da var itib batıb ölüb gedən. Məsələn Max kimi dostu olmayan yazdıqları özüylə birlikdə ölən Kafka'lar ola bilər, ya da Max kimi "xəyanətkar" dostu olmayan Kafkalar ölmüş getmiş ola bilər və dostlarından yandırılmasını istədikləri yazıları yandırılmış ola bilər. Başa düşürsən də yəni.

- Aha.

- Bu bir növ bilirsən nəyə oxşayır, müvəffəqiyyətli insanlar və uduzmuşlar deyə ikiyə bölür cəmiyyət insanları. Və "uduzmuş" damğası elə vurulur ki sanki həmin o adamlar nələrəsə cəhd edib və uduzublar. Halbuki potensialı olmasına baxmayaraq uduzmağı başından seçmiş insanlar belə var. Oyunu oynamamış insana uduzmuş deyə bilməzsən. Heç vaxt roman yazmamış çox gözəl yazarlar olub və var yəqin ki, elə deyil? Onlar sadəcə oyanamamağı seçiblər. Bildiyin bütün məşhur yazarlar, sadəcə yazmışlar arasındakı ən yaxşılar ola bilər, ancaq yazmamağı seçmiş olan minlərlə eyni

səviyyəli yazar namizədi insanlar var. Bu dediklərim müdafiə mexanizmi kimi səslənə bilər, ancaq məncə sadəcə realist çərçivədi.

- Müdafiə mexanizmandısa belə dedirdən səni, onda əlbətdə realist çərçivədən baxdığını düşünəcəksən.

- O da düzdü.

Divardakı yazılar qarşısında biraz daha gəzindi Mavi və bir başqasını oxudu bu dəfə;

*Smith*: Niyə, Cənab Anderson? Niyə, niyə, niyə? Niyə edirsən bunu? Niyə, niyə ayağa qalxırsan? Niyə savaşa davam edirsən? Nə üçünsə savaşdığına inanırsan? Həyatda qalma səbəbindən daha artıq? Mənə bunun nə olduğunu deyə bilərsən? Nə olduğunu bilirsənmi heç? Azadlıqdırmı bu, yoxsa həqiqət? Bəlkə sülh? Sevgi üçün ola bilər? İlluziyalar, cənab Anderson. Qavrayışın aldatmacaları. Məqsədi ya mənası olmayan bir mövcudiyyəti çarəsizcə haqlı göstərməyə çalışan aciz insan zəkasının müvəqqəti uydurmaları! Və hamısı matriksin özü qədər sünidir, ancaq sadəcə insan ağlı sevgi qədər dadsız bir şeyi kəşf edə bilərdi. Bunu görməlisən axı sən, cənab Anderson. Bunu indiyə qədər öyrənmiş olmalıydın. Qazana bilməzsən, savaşmağa davam etmək mənasızdır. Niyə cənab Anderson, niyə inad edirsən?

*Neo*: Çünki mən bunu seçmişəm.

**- Matrix**

- Möhtəşəmdi. Smithin bu sözləri deyərkənki aktyorluğu hələ də yadımdadı. Məqsədi ya mənası olmayan bir mövcudiyyəti çarəsizcə haqlı göstərməyə çalışan aciz insan zəkasının müvəqqəti uydurmaları – deyə təkrarladı Mavi, - bir cümlə ilə bütün varoluşumuzun açıqlaması. Lənətə gələsi Vachovski qardaşları sizi.

- Bacıları

- Hə, doğrudan, bacıları, Vachovski bacıları. Cins dəyişdirmə əməliyyatlarını unutmuşam.

Divardakı digər notları da oxudu sırayla Mavi, olduqca tez aralıqlarla davamlı olaraq siqaret çəkirdi hər ikisi. Söhbət edərkən sanki siqaret çəkmədən dayana bilmirdilər. Və biri

yandırdığı zaman psixoloji olaraq digəri də yandırdığı üçün normaldan daha da çox çəkirdilər.

Bir neçə oyun daha şahmat oynadılar. Mavi şahmatda bilərək bəsit və axmaqca səhvlər ya da qurbanlar etməyi sevirdi. Adəti idi bu. Sanki həyatdakı seçimlərin acığını şahmatdakı seçmlərindən çıxırdı. Ya da şahmatda da həyatdakı kimi hərdəmxəyal ya vecsiz idi. Həyatda həmişə səfeh xətalar etmə şansımız olmur. Şahmatda isə durduq yerdə topunu qurban verirdi məsələn. Məqsəd arxasınca qaçmırdı, mat üçün qaçmırdı, prosesi sevirdi əksinə. Bir qadını əldə etdiyi anı deyil də qadını əldə etmək üçün keçən zamandakı prosesi sevdiyi kimi. Əsas mat etmək deyil, maraqlı taktikalarla oynamaq idi.

Oyunu kimin udması çox da vacib deyildi onlar üçün, onlar üçün əsas proses idi, gedişat idi. Həyatda da eləydilər bir növ, əsas gedişat idi, nəticənin necə olacağı vacib deyildi. Məsələn universitet oxuyarkən əsas olan onu bitirmək deyildi, o auranın içində olmaq idi, gedişatın içində. Bir kitab oxumanın məqsədi onu bitirmək deyildi, gedişatı idi. Həyatda yaşamaqda məqsəd əsas sonda nəsə əldə etmək, status sahibi olmaq, bir məqsədə çatmaq deyildi, əsas gedişat və ondan zövq almaq idi. İçdilər, çəkdilər, söhbət etdilər, bir müddət özlərini itirdilər, sonra geri gəldilər. Balkona çıxıb buludları izlədilər. Payız yağışının başlamasını və bitməsini izlədilər. birlikdə susdular və birlikdə uzaqlara daldılar. Ən yaxşı yola gedilə bilinən insan əslində səsli dialoqun ən yaxşı aparıldığı insan deyildi, ən yaxşı yola gedilə bilən insanlar bir-birlərinin yanında saatlarca susaraq bir-birlərini başa düşən insanlar idilər. Onlar da eləydi. Yanında saatlarca heç bir şey danışmadığın ancaq yenə də rahat hiss etdiyin insanlar vardır. Sırf orda, yanında olduqları üçün minnətdar olduğun.

İnsanlar səssizliyin səsini dinləməkdən qorxduqları və qaçdıqları üçün bu hərəkət istər-istəməz onlarda öyrənilmiş çarəsizliyin göstəricisiyidi sözsüz. Ancaq həyatda bəzən elə anlar olur ki sözün bitdiyi yerdə olursan və deyiləcək bir neçə sözdən artıq nəsə demək ayıbdır. Birinin bir yaxını ölübsə, orda

deyiləcək çox söz yoxdur. Danışmaq tərbiyyəsizlik olardı. Ancaq bəzi insanlar danışmağa davam edəcəklər. Tərbiyyəsizcə təsəllilər verəcəklər.

Çünki həmişə özlərini nəsə demək məcburiyyətində hiss ediblər. İki insanla birlikdəykən susarkən belə. Ən sevdiyi insanın yanında belə susa bilmirsə bir insan, o insan bədbəxtdir. Maraqsız görünəcəklərindən qorxublar bəziləri, bəziləriysə narahat olub o səssizlikdən. İki nəfər birlikdə səssizliyi dinləməkdən qorxmamalıdır. O insanlar ki var dialoq zamanı səssizlik çökdüyü zaman özlərini narahat hiss edir və yeni söhbət açmağa çalışırlar, onlar heç vaxt rahat olmayacaqlar çünki insanın səssizliyə qalib gəlməyə gücü çatmaz. Ona görə də səssizliyi dialoqun bir hissəsi kimi qəbullanmaq lazımdır. Fredlə Mavi o insanlardan deyildilər və birlikdə susmağı çox yaxşı bacarır və sevirdilər.

Elə də etdilər və susdular bir müddət. Sonra təkrar danışdılar. Vaxtın necə keçdiyini bilmədilər. Sanki ikisi də uzun müddətdi bir-birini gözləyirmiş kimi sırayla söhbət edirdilər, biri öz beyini qusur, fikrini boşaldır, digəri dinləyir, bəzən fikir bildirir bəzən etiraz edir və sonra öz sırasını alaraq danışırdı. Dialoqları bəzən monoloqları xatırladırdı. Hər ikisi yaxşı dinləyiciydi. Danışdılar, kefli-kefli birlikdə yemək bişirdilər, yıxıldılar, durdular. Film izləməyə qərar verdilər və seçib bir film izlədilər.

Fred ondan nə vaxt gedəcəyini soruşdu, mümkün qədər qalmasını istəyirdi. Sabah səhər yola düşəcəyini dedi Mavi. Və ölü sakitlik bürüdü hər yeri. Onun kompyuterini istifadə edərək bilet aldı özünə Mavi. Bileti alarkən kifayət qədər içkiliydi və etdiyi hərəkət haqqında dərindən düşünmək istəmirdi. Sonrasını düşünmək istəmirdi. Bədənini istilik basırdı və üzündəki əzələlər aşağı doğru dartılırdı hər düşündüyündə. Sadəcə gözünü yumub tezbazar həll etmək istəyirdi hər şeyi. Avtobuslamı yoxsa təyyarəyləmi getmək barədə düşündü əvvəlcə biraz. Sonra avtobusun olduqca uzun olacağını və düşünmək üçün olduqca əlverişli bir yer olduğunu nəzərə alsaq avtobus

səyahətinin çəkilməz bir çilə ola biləcəyini düşündü. Hər şey tez olmalıydı, tez getməliydi. Mümkün qədər içkili ya hallı keçirməliydi vaxtını. Ayıq başla çox dolanmamalıydı. Sanki gəzməyə gedir deyə düşünməliydi. İçindəki savaşı hər an yaşam tərəftarı olan daxilindəki digər şəxsiyyətləri qazana bilərdi.

Çiyinlərindən aşağı tərifi naməlum bir şeylər süzülüb gedirdi intiharı hər düşündüyündə. Sanki çiyinlərini və başını dik tutan bir həyat enerjisi var idi və öləcəyini qəbbullandığı hər an biraz da süzülüb gedirdi o enerji və sallanırdı bütün bədəni aşağı. Sanki həmişə düşündüyü və necəliyini bilmək istədiyi o itirəcək heçnəyi qalmayan adam formasını alırdı. Həmişə maraqlı olmuşdu sənə, deyə düşünürdü, hər şeyini itirmiş ya hər şeydən əlini üzmüş, itirəcək heçnəyi olmayan insan necə hiss edər görəsən? Bax belə hiss edir, indi sənin hiss etdiyin kimi. Sahib olduğun bütün əşyaları satdın ya kimlərəsə verdin, işlərindən ayrıldın, dostlarınla görüşdün və indi tam hazırsan ölməyə. Ölməyə gedən və itirəcək heçnəyi olmayan insan kimi hiss edirsən indi. Ancaq qərib bir şəkildə, heç gözləmədiyin duyğularla dolur sinən. Belə olacağını gözləmirdin, belə olacağını sanmırdın ölməyə gedən itirəcək heçnəyi olmayan insanı. Sinən yaşam eşqiylə dolur sən əlindəki hər şeyi itirib ölümü qəbullandıqca. Özünü ölümə hazırladığın hər dəqiqə bir o qədər çox yaşamaq istəyirsən. Öldürdüyün hər kiçik ümidinin yerini böyük bir yaşam eşqi alır. Sanki artıq ən kiçik həzzləri belə gözündən çıxarmış bədənin onların yoxluğunu hiss edir və varlığının xəyalı ilə bihuş olur. Çünki itirəcək heç nəyi olmayan adam, itirəcək nələrəsə sahib olmaq üçün can atmağa başlayır. Heçnəyi olmayan biri hər şeyi əldə etmək üçün can atan insana çevrilir.

O öləne qədər əl çəkməyəcək olan beynin səni yenə aldadır yoxsa? Sanki bir paradoks, içindən çıxılmaz bir labirint kimi sıxışıb qalmısan həyatda. Ölmək üçün özünü hazırlayarkən həyat həsrətilə dolur sinən. Çünki sənin dərdin həyatı sevməmək deyil, onu həddindən artıq sevməkdir.

Tələyə düşürəm yenə, deyə düşündü. Qorxduğum da bu idi

və indi o tələyə düşürür məni beynim. Mən özümü ölüm üçün hazırlayarkən beynim də özünü son anki savaş üçün hazırlayırdı əlbətdə. Xoş xatirələrdən qısa fragmentləri bir yerə yığaraq uzunmetrajlı filmlər hazırlayırdı mənim üçün. Mən ümid və gözləntilərimin soyqırımına qalxanda o bəzilərini gizlədərək qoruyurdu onları. Bütün ümidləri öldürməyimə əngəl olurdu. Aralarından potensiallı olanları tutub gizlətmişdi sanki və indi mənə təqdim edir, bunlar mümkündür, bunları edə bilərsən, ölmədən xoşbəxt ola bilərsən və sair. Lənətə gələsi. Ən nifrət etdiyim şey, zamanın bizi qəbul etmədiyimiz yaşam formalarına alışdırmasıdır. Mən bunu edə bilmərəm, belə yaşayaya bilmərəm deyir və özünə yaraşdırmırsan, bundansa ölərəm deyirsən ancaq bir ay ya bir il sonra baxırsanki artıq elə yaşayırsan və içində olduğun situasiyanın fərqində də deyilsən. Əvvəlki sənin nifrət edəcəyi bir şəraitdə yaşayırsan, ancaq bununla bir problemin yoxdur. Ən betəri də odur, bununla bir problemin yoxdur artıq, qəbullanmısan. Lənətə gələsi qəbullanma. Yoxsa müqəddəs qəbullanma deməliyik? İnsanları düşündükləri dəhşətli həyat formalarına öyrəşdirə bildiyi üçün müqəddəsdir bəlkə də qəbullanma?

Hər nə olursa olsun, deyə düşündü, ən nifrət etdiyi şey o idi ki, zaman və beyni insanı sevmədiyi hər şeyə öyrəşdirmə qabiliyyətinə sahib idi. Əgər istədiyim, düşündüyüm, xəyal etdiyim kimi, ya da ən azından bunun bir bənzəri formasında yaşaya bilməyəcəyəmsə, yaşamaq istəmirəm demişdi özünə. Müəyyən standartların altında heç bir həyat formasını qəbul etmirdisə bir vaxtlar, indi beyni onu bunun əslində çox da pis bir fikir olmadığına inandırmağa çalışırdı. Manipulyasiya edirdi. Və işin ən pis tərəfi, o bunların bəzilərinə inanırdı.

Heç vaxt işləmək, ya da bir başqası üçün işləmək ya da ən azından sevmədiyi bir işdə işləmək istəməmişdisə məsələn, ölümə getdiyi bu son aylarda beyni ona düzgün bir işin çox da pis bir fikir olmadığını diktə edirdi. İnsan belə alışır bədbəxt həyatına və kədərinə. Əvvəlcə bütün böyük ümidlərini öldürür və ölməyə belə hazır olacaq dərəcədə həyatdan əlini üzdüyün-

də, əvvəl yuxarıdan aşağı baxdığı sahib olduğu həyat tərzinə indi aşağıdan yuxarı baxır və əslində belə də yaşaya biləcəyinə inandırır özünü. Əvvəl onun üçün bədbəxt sayılan işlər indi onun üçün düzgün bir işə çevrilirdi.

Balkona çıxdı və bir siqaret yandırdı. Qaranlıq və ulduz dolu səmada itdi baxışları. Uzaqlarda bir yerlərdə başqa planetlərdə həyatların var olma ehtimalını sevdi və o ehtimallar arasında düşüncələrə daldı. Uzaq, bəlkə də yaxın bir qalaktikada başqa həyatların olma ehtimalı onu həyəcanlandırır, həyəcan siqnalları beyinə ötürülür, beyindən ürəyə daha çox qan nasoslama əmri verilir və o bir az əvvəl yaşadığı həyəcanı indi sinəsindəki döyüntüdə tapırdı. Uzaqlarda həyat olma ehtimalını sevdi və varsa, ki böyük ehtimal var deyə düşündü, nə qədər ilə əlaqə qurulacaqdı və necə fərqli və qəribə canlı növləri olacaqdı tapılanlar ya onları tapanlar? Gələcəyə həsrət duydu.

Fredi düşündü, onu sevirdi. Ona görə iki kişinin dostluğunu poza biləcək ortaq rəqabətlər var idisə, bir homoseksualla heteroseksualın dostluğu daha güclü idi. Qısqanclıqdan azad əlaqə.

Fred post-rock və bənzər janrlardan hər ikisinin sevdiyi musiqiləri açdı, *İnspiral* - Leech, *İcarus* - Monkey3, *Black Sands* - Bonobo, *The Crossing* – Menahan Street Band, *İn The Face Of Evil* - Magic Sword, *Terrible Tommy* - Ryan Horne. Hər bir musiqi onu başqa bir xəyala apardı.

Birdən izlədiyi qaranlığın içindəki bilinməzlik özünü Maviyə göstərdi və o qorxmurmuş kimi davrandı. Bir kölgə ona yaxınlaşaraq "Qorxulu bir yuxudan oyanmaq üçün özünü öldürə bilərdin?"-mi deyə soruşub yox oldu.

Bütün o xəyallardan yayınıb təkrar zülmət qaranlığa bürünmüş səmada gəzdi baxışları. Gözləri qaranlıq gecədə tənha Veneranı axtarırdı sanki. Çiynində Babetin açdığı dırnaq izləri qaşındı. Soyuğu hiss etdi. Havanı qoxladı. Yağış sonrası qoxan torpaq qoxusunu çəkdi içinə. İnanılmaz bir həyat eşqiylə doldu sinəsi. İçəri girib Fredi qucaqlayıb heç hara getmirəm demək istədi. Ya girib bileti geri qaytarıb, əvvəllər yaşamış olduğu

şəhər ya ölkələrə, köhnə dostlarını ziyarətə getməyi düşündü. Bəlkə okeanın o biri tayında sevdiyi o qızı görməyə getsə deyə iç keçirdi. Gözləri sanki bütün yorğunluq və ümidsizliyinə baxmayaraq birə beş açılmış və yaşamaq eşqiylə alışıb yanırdılar. Küçəni və ağacları izlədi. Üzərlərinə çökmüş qaranlığın ağırlığıyla başını aşağı salıb yuxuya getmiş ağacları və yarpaqlarını izlədi. Bütün küçələri tək-tək gəzib kəşf etmək istədi. Həyəcanlandı. İçində baharın gəlişini dəli kimi arzulayan bir uşaq var idi, sanki bahar gəlsə hər şey düzələcəkdi, ancaq hələ çox var idi və o vaxta qədər dözə biləcəyindən əmin deyildi. Yenə o məlum ümidsizlik basdı içini və göz qapaqları aşağı düşdü yavaş-yavaş.

Kaş indi universitet oxuma şansı olsaydı deyə düşündü. Lənətə gələsilər oxumağı belə pullu etmişdilər. Universitetləri sevirdi. Çox xoşbəxt yaşamışdı universitet illərində. Hər zaman ətrafında tapa biləcəyin yeni dostlar var idi. Yeni nələrsə öyrənə biləcəyin insanlarla qaynayırdı hər tərəf. Ancaq bütün bu xəyalların artıq necə bitdiyini düşündü. Hər şey bitmişdi. Arzuladığı hər şey. Gələcəyi görmürdü artıq, çünki onu öldürməyi bacarmışdı.

Hansı pulla, ya hansı vaxtla gedəcəksən sanki yaşadığın yerlərə ya universitet oxuyacaqsan, deyə iç səsiylə danladı özünü. Yenə o sonsuz dövrün içinə soxacaqsan özünü. Bir az işləyim pul yığıb gedim görüm darıxdığım yerləri və kimsələri deyəcəksən, ancaq bir baxacaqsan ki yenə  bir il keçib və sən yenə eyni iyrənc həyatını yaşayırsan.

Ölməyib gözləmə səbəbin həmişə o olur ki, fikirləşirsən birdən bir ay sonra bəxtim dəyişdi? Bəlkə həyatımda çox böyük bir dəyişiklik gözləyir məni? Yox, Bu sadəcə beynin illuziyası deyil. Həqiqətən də gözlənilmədən yaxşı nələrsə ola bilər. Çünki bəzən həqiqətən də oturub gözləməlisən, bir il, iki il oturub gözləməlisən. Ancaq oturub gözləmək üçün də həvəsi qalmayıb deyə düşündü, iş axtarmaq istəmirdi. İş görüşmələri, onlayn formlar və s. Əsəbləşdi, düşünməyi dayandırdı və öz deyimiylə desək, rədd olub içəri keçdi.

- Babat soyuqdu yenə.

- Hə - divanda oturub oxuduğu kitabdan başını qaldırıb cavabladı Fred.

- Lənətə gələsi qış. Mövsümi əhval pozğunluğu yaşayıram. Yuxum gəlir bütün gün, daha çox depressivəm. Gün işığı görmür sümüklərim. Addım atmağa həvəs olmur bəzən. Mənim kimilər şimalda heç vaxt yaşamamalıdır. Cənuba getməliyəm, mümkün qədər cənuba.

- Mənim bir problemim yoxdu qışla, varlığı məni xoşbəxt edir. Bütün ili yay olaraq keçirə bilməzdim yəqin. Qış gələndə evdə oturmaq ləzzət edir. Ya da əmin olursanki evdə oturmusan və bütün şəhər də oturub. Sən içərdəsən çöldə kimlərsə əylənir deyə bir hiss qalmır içində. Yayda elə olur amma. Günəşli gündə evdə oturanda adam özünü pis hiss edir ki çıxım gəzim bəlkə.

- Qışı sevmək tərbiyyəsizlikdi Fred, məzələnirsən? Şadlığa şıllaq atmaqdır. Bizim atalarımız qışdan qaçıblar. Qış soyuq olub, meyvə olmayıb. İndiki insanlar qışdan həzz alır. Belə şey olar? Qış dediyim zülmətdir. Boz rəngi niyə darıxdırıcı hisslərlə eyni tuturuq? Çünki qış bozdur. Yəni demək istədiyim, qışı sevmək insanın təbiətinə ziddir. Bizə yayı, istini və gözəllikləri xatırladan əlvan rəngləri sevirik ancaq qışı xatırladanları yox.

- Mən, boz rəngi də sevirəm.

Bir qədər sonra Fred oturduğu yerdəcə yuxuya getdi. Narahat etməmək üçün səssiz davrandı Mavi. Üstünü örtdü. O qədər içmiş və çəkmişdilər ki artıq ayaqda dura bilmirdi yorğunluqdan. Depresiya basmışdı bütün ruhunu. Əvvəlki saatlarda içilmiş kofein də yox etmədi yorğunluğunu. Gecənin ortalarını keçmiş səhərə doğru irəliləyirdilər. Pluto öz küncündə varlığından tamamilə xəbərsiz şəkildə yatmaqda idi. Divanın birinə də o uzandı. Boyuna görə kiçik olduğu üçün dəfələrlə fırlanıb rahat formanı tapmağa çalışdı. Sonra bu fırlanmaların, beynin ayıq qalmaq üçün göndərdiyi siqnallardan olduğunu xatırladı və fırlanma istəyi hər gələndə onu bastırmağa çalışdı ki yuxuya getsin. Bir neçə cəhddən sonra

onda da müvəffəqiyyətsiz oldu, yenə fırlandı. Otaqdan gələn hər səs hər dəfə onu təşvişə saldı. Gözünü açıb bir neçə dəfə otağı nəzərdən keçirdi hər dəfə. Qaranlıq üstünə çökmüşdü və onu qorxudurdu. Sanki bilinməz nələrdənsə qorxurdu. Nə qədər etdisə yuxuya gedə bilmədi. Bir neçə addımlığındakı ölüm qorxusundan narahat idi.

Gözünü açdı, indi getməyi düşündü, təyyarənin vaxtı gələnə qədər gəzərdi deyə düşündü bəlkə şəhərdə son dəfə. Fredlə vədalaşmadan getmək istədi bir an, bəlkə beləsi daha asan olardı. Saniyələr sonra bu fikrdən də vaz keçdi. Gedəcəkdisə də, oyadıb vidalaşmalıydı. Fred belə istəyərdi ən azından. Sonra geri qalan pulunu xatırladı, Fredə verəcəkdi. Ətrafa boylanıb harda gizlədə biləcəyini düşündü. Kitabların daha çox olduğu küncə getdi. Kitabların arasına qoymaq istədi əvvəlcə, sonra fikrini dəyişdi. Divarın içindəki qapısı açıq şkafda Fredin paltarları asılmışdı. Bir pencəyin cibində kitab dəydi gözünə, götürdü. *Georges Perec, La Vie mode d'emploi*. Təəccübləndi, bunu oxuduğunu bilmirdi Fredin, onun üçünü maraqlı kitablardan birydi, heç vaxt oxumamışdı, heç vaxt da oxumayacaqdı. Məzmunu barədə heç vaxt danışmamış olduqları üçün heyfsləndi. Kitabı götürdü, üstündəki pullardan özünə yol xərcliyi və içki pulu saxlayaraq geri qalanını kitabın arasına qoydu. Bağladı kitabı. Tərəddüd etdi, açdı yenidən, kitabın arasındakı puldan bir yüzlük götürüb cibinə qoydu. Tərpənmədən düşündü biraz, sonra cibindən yüzlüyü geri qaytarıb kitabın arasına qoydu yenidən. Sonra bir anlıq Fredin bu pulu gördükdən sonra onun ölümə getmiş olacağından tamamilə əmin ola biləcəyini düşündü, bəlkə də pulu qoymamalıdı deyə düşündü, ancaq yenə də üstündə çox düşünmək istəmədi və kitabı pullarla birlikdə pencəyin cibinə geri qoydu. O pulla başqa heçnə etmək istəmirdi zira. Fredin də ehtiyacı olacağını da bilirdi. Miqdar çox deyildi, ancaq ən azından iki aylıq kirasını ödəyə bilərdi. Bəlkə romanını yazması üçün özünə vaxt ayırmasına kömək olardı həm də. İki üç ay işləməyib əsərini yaza bilərdi.

Pəncərə qarşısına gedib oturdu. Bircə yuxuya gedə bilsəydi deyə düşündü. Ya da ən azından düşünməsəydi. Yatsa belə, yuxusunun ən dəhşətli kabuslarla dolu olacağını bilirdi. Ölüm qabağı şüuraltısı bütün ordusuyla qapısına dayanacaqdı. Ancaq indi şüurlu halından daha çox qorxurdu, nəinki şüuraltısından. Biraz ətrafda vurnuxdu. Fredin sarma tütünündən sardı, çəkdi, bir qədəh brendi içdi və bunun ona kömək edəcəyini umdu. Havanın işıqlanmağa başlaması və quşların səsi onu qıcıqlandırdı. Divana geri dönüb düşüncələrə daldı. Divanın yanındakı Fredin kompyuterini gördü, açıq idi. Götürüb son bir dəfə okeanlar ardındakı o qızın internet profilinə daxil olub şəkillərinə baxmaq istədi. Tərəddüd etdi. Yanında kimlərisə görə bilərdi. Baxmırdı heç vaxt. Yenə baxmadı. Onu ölüm fikrindən vaz keçdirəcək heçnəylə məşğul ola bilməzdi. Sevdiyi bir qadının şəkildəki baxışları belə onu hər an fikrindən geri qaytara bilərdi. Ölüm qorxusunun istiliyi basdı təkrar qulaqlarından dizlərinə qədər. Heçnə düşünməməkçün meditasiya zamanı tətbiq etdiyi şeyi etməyə başladı, sanki bir okeanda üzdüyünü xəyal etməyə başladı, önünə gələn hər fikrini qollarıyla yanlara ataraq, üzdü, üzdü və təkrar üzdü.

* * *

Səhər sanki qaranlıq bir bilinməzliyə doğru açıldı. Hər ikisi üçün də çətin olan bu ayrılma anına gərəkən dəyəri necə vermələri gərəkdiyinə ikisi də içdən-içə qərar verə bilmədən getmə anı gəldi çıxdı və onlar qapının ağzında üz-üzə dayandılar. Fred son dəfə hava limanına gəlmək üçün inad etdi və Mavi qətiliklə etirazını bildirdi. Bir-birinin gözlərinə baxmaqdan çəkinərək bir neçə qeyri-məlum dialoqa girdilər. Qucaqlaşdılar. Var gücüylə sarıldı qollar. Hər iki dil, dolaşıb görüşərik deməmək üçün zor tutdu özünü və kirpiklər çölə heç bir göz yaşı dənəsi buraxmamaq üçün əlləşdi.

Pluto miyovladı və onlar ayrıldı.

* * *

Fred yavaş addımlarla divar yazılarının yanına gedib kiçik bir kağız və qələm götürüb bir şeylər qaralayıb divara yapışdırdı:

*“Əgər bir yazar sənə aşiq olarsa, heç vaxt ölə bilməzsən”*

*- M.E*

* * *

Nə mənə mənasız gələn seçilmiş bir azınlıq üçün, nə də “kütlələr” deyə bilinən o göylərə çıxarılan platonik varlıq üçün yazıram. Demaqoqların sevdiyi hər iki abstraksiyaya da inanmıram. Özüm, dostlarım və zamanın axışını yumuşaltmaq üçün yazıram.

*- **Jorge Luis Borges**, Qum kitabı və Şekspirin yaddaş, 1983*

12

# BULUDLARIN ÜSTÜNDƏ

Alkoqolun unutdurucu və sakitləşdirici təsirindən faydalanmaq üçün cibinə kiçik butulkaya dolduruğu brendini qoymuşdu. Hava limanına qədər içə bilərdi, həm də təyyarədə yatmasına kömək olardı. Avotbusa minib hava limanına yollandı. Minərkən bu bəlkə də mindiyi son avtobus olacaq deyə düşündü. Sonra bu barədə sentimentallaşmamaq üçün çabaladı. Ara-sıra lirizmə qapılır sonra oyanırdı. Bundan sonrakı bir gün ərzində edəcəyi heçnə barədə dərindən düşünmək istəmirdi. Özünü o qədər yaxşı hazırlamışdı ki, tək istədiyi şey ölmək idi deyə düşündü. Avtobusdaykən uşaqlıqdan yarımçıq formada yadında qalan bir kitab adını xatırladı, "9 nömrəli avtobusla cənnətə". Kitab idi ya film deyə tərəddüddə qaldı. Hər nəydisə. Mən də cənnətə gedirəm. Yoxluq. Mövcud olan tək cənnət.

Evtanaziya kampları nə yaxşı ki var deyə düşündü. Yoxsa içinə düşdüyü bu bərbad həyatdan canını heç vaxt qurtara bilməyəcəkdi yəqin ki. Heç vaxt özünü nə asa bilərdi, nə körpüdən ata bilərdi nə də biləklərini kəsə bilərdi. Nə də heç bir dərmanı udub müvəffəqiyyətsiz intiharın qapısından qayıtmaq istəmirdi. Yaşama sənətində onsuz da müvəffəqiyyətsiz olmuşdu, üstünə bir də ölümdə də müvəffəqiyyətsiz olmaq istəmirdi. Kampların varlığını düşünmək belə onu rahatladırdı.

İşlərin yolunda getmədiyi istənilən anda gedib özünü yox edə bilərdin. Mükəmməl idi. Kamplar var olmamışdan əvvəl belə bunun kimi birşeylər düşünmüşdü həmişə. İnsanlığın ehtiyacı olan ən gözəl çıxış yolu bu idi. Nə humanistlik oynamağa ehtiyac var idi nə də sentimentallığa. Ölkədəki zəif, gücsüz, işsiz, pessimist və intihara meyilli hamı üçün asan bir çıxış yolu təqdim edirsən və beləcə həm zəiflər sıradan çıxır, həm populyasiya normaya düşürdü. Bütün şikəst insanlar həyatda qalmaq istəmir məsələn, nə də texnoloji inkişafın gətirdiyi yeniliklərdən faydalana bilirdilər. Möhtəşəm funksionallığa sahib protez ayaq və qollar kəşf olunurdu hə, ancaq kasıblar üçün yox. Şikəst kasıbsa ölmək istəyir. Niyə də hamını qane edəcək çıxış yolu olmasın? İnsanların təkamülə necə qarşı gəldiyini düşündü təkrar. Zəiflər ölməliydilər, ancaq nikbinlər onları həyatda tuturdular. O, məsələn, ölməliydi deyə düşündü, çünki kapitalist rejimə, işləmə rejiminə uyğunlaşa bilmirdi. Sonra da bəlkə də bunun onun günahı olmadığını, siyasi rejimin günahı olduğunu düşündü. Bəlkə də sadəcə özünü aldadırdı, özünə sərf edən cavabları seçirdi fikrindən.

Qurtuluşa az qalıb. Sanki yuxudasan və oyanmaq üçün özünü öldürməlisən. Qurtuluşa bir addım qala yaşanan vəsvəsə. Tərəddüd və vahimə.

Yanında oturan latın amerikalıların səs-küylü danışığı onu fikrindən oyatdı. Çevrilib onlara baxdı. Qulağıyla beyni arasında sanki kilometrlərlə məsafə var imiş kimi yanındakı insanların dialoqunu çox uzaqdan gələn bir uğultu kimi eşidirdi. Halsız, vecsiz formada yavaş hərəkətlərlə avtobusun pəncərəsinə söykədi başını. Üzündə heç bir emosiyanın izi yox idi. Sifəti ölmüş bir insanın xatirəsini xatırladırdı. Ürəyi sanki atmırmış kimi yavaş hərəkət edirdi. Sanki artıq ürəyi də yorulmuşdu.

Təkrar yanındakı latınlara baxdı. Üst-başlarından yoxsulluq yağırdı. Ancaq yenə də xoşbəxt görünürdülər. Çünki dostları var idi. Danışdıqları ispan dilinin poetikasında itdi bir müddətlik. İspan dilini nə qədər çox sevdiyini xatırladı. Yaşadığı Barselonanı və xoşbəxt Qranada dağlarını xatırladı.

Günəşi və dənizi xatırladı. O çox sevdiyi Qranadalı sevgilisini xatırladı. Onun o yayı xatırladan gülən üzünü xatırladı. Böyüdüyü torpaqlar onu sanki heç vaxt kədər üzü görməyəcək kimi yetişdirmişdilər. Əlini uzadıb toxunmaq istədi xatirələrinə və təkrar məyus oldu. Xoşbəxtlik artıq sadəcə xatirələrin qoynunda gizlənirdi. Və içində ardı-arası kəsilməyən leysanlar var idi. Tanrılara qəzəbliydi, onların özlərindən başqa heç kimə faydaları yox idi. Hətta özlərinə belə faydaları olduğundan şübhə duyurdu. Sinəsindəki ağır melodiyalar sanki hülqumunu şişirdir və nəfəsini daraldırdı.

Avtobusun içindəki insanlara fikir verdi təkrar. Kasıblar və zavallılar. Mövsümi olaraq ölüb dirilən şikəst ümidlərə sahib yazıq insanlar. Varlıqla yoxluq arasında ilişib qalmış çarəsizlər. Qoca bir kişi, şişirdilmiş nəzakətlə gənc bir qadına yerini verdi. Qarşılığında aldığı təbəssümü əzizləyib yan cibinə qoydu və sürücü Mavinin son stansiyasında dayandı.

Avtobusdan enib hava limanına girənə qədər içkini bitirməyə çalışdı. Siqaret yandırdı. Musiqiyə ehtiyac duydu. Kədərinə müşayiət edəcək bir musiqi. Lənət oxudu. Fikirlərini yayındırdı. Uçan təyyarələrə baxdı. Şərqə uçanlar. İçində ola bilərdim. Hər şeyi rədd edib bilet alıb şərqə uçmağı düşündü. Lənət oxudu.

Yenə həmişə düşdüyü yanılmaya düşür və düşünürdü, bəlkə də məsələn Praqaya köçməli və qatar şoferi olmalıydı, ya da bəlkə də gedib Peruda bir fermada işləməli və hər şeydən uzaqlaşmalıydı. Ancaq yox, bunlar onsuz da indiyə qədər etmiş olduğu cəhdlər idi və işə yaramırdı, getmək, işə yaramamışdı. Əgər xislətini də özünlə aparırsansa.

- Özünə gəl qorxaq – deyə iç səsi təhqiramiz tonla onu alçaltdı – şərqə uçub hər şeyi yenidən başlatmaq istəyirsən? Bütün işgəncələrini yenidən yaşayacaqsan? Və həyata tutunmaq üçün yeni bəhanələr və illuziyalar axtaracaqsan?

- Qorxaq? Qorxaq olmadığımı kim iddia etdi ki? Qorxaq olmayan kim ölümə təyyarə ilə uçardı ay axmaq? Sən də ən az mənim qədər qorxaqsan. Ölümə təyyarə ilə uçacaq qədər.

Sanki ölüm kilometrlərcə uzaqdaymış kimi, bir ipi boğazına keçirib asmağa belə cəsarətin çatmadı.

Siqareti söndürüb içəri getdi. Ani içilmiş içki bütün damarlarına yayılmışdı və düzgün yeriməsinə əngəl olurdu. Səndələyir və sayıqlayırdı. Hər addımda nəsə bir dəlilik etmək gəlirdi ağlına. Durduq yerdə qışqırmaq və bütün stresini boşaltmaq istəyirdi. Girdiyi şüşə qapını təpikləmək istədi. Özünə gəl deyə sakitləşdirdi bədənini. Təhlükəsizlik qurğularını keçdi. Daxili uçuşlar tərəfə gedib uçuşunu axtardı. Bütün prosedurаları yarı-ayıq formada tamamlayıb təyyarə sırasına gəlib oturdu.

Gözləmələr. Lənətə gələsi gözləmələr olmasa hər şey daha yaxşı olardı deyə düşündü. Sanki dözə bilməyəcəkdi kimi gəlirdi. Həyatın ən yaxşı tərəfləri gəlirdi ağlına indi. İçindəki savaş sözün əsl mənasında başlamışdı artıq. İçindəki bütün mənlikləri ölmüş, xoşbəxtlik və ölüm deyə iki qarşı tərəf qalmışdı sadəcə və bütün gücləriylə hücum edirdilər.

İçindəki həyat tərəfdarları onun baxışlarını qarşısında oturan bir gənc qızın dolğun ayaqlarına zillədilər və şəhvətini son nöqtəyə qaldırdılar. Qızın dizlərinə və budlarına kilidləndi baxışları və ordaca itdi. Nə qədərdir xəyalda olduğuna əmin olmadığı bir müddətdən sonra yayındı fikri və qızın ona baxıb təbəssüm etdiyini gördü. İçində ziddiyət partlaması yaşadı və sinəsində gurultu başladı. Gözlərini qızın gözlərindən ayırdı və aşağı saldı. Lənət olsun dedi. Beyni onu həyatda saxlamaq üçün bütün ehtimallara açılmışdı. Bütün yollara əl atırdı. Ən xoş və ehtiraslı şeyləri xatırladırdı ona. Yaşasa sahib olacağı qadınları xatırladırdı və içində bir şeylər dirilirdi. İndi və gələcəkdə sahib ola biləcəyi qadınlar.

Pis şeyləri fikirləşməliydi deyə düşündü, yaşadığı çətinlikləri. Yaşasa yenə hansı problemlərlə qarşılaşacağını. Bədəni istəmədən başını qaldırtdı. Sanki içində onun oturduğu bədəni bir başqası idarə edirmişcəsinə qızın yarı-açıq budlarına baxdı, ürəyi döyündü. Əlləri ondan izinsiz qalxıb toxunmaq istədi o ayaqlara. Qızın dolu bədənini süzdü gizli baxışlarla. Paltarı o qədər incə və şəffaf idi ki altındakı bədəninin bütün cizgiləri-

ni görə bilirdin. Dik və dolu döşlərində dayandı gözləri. Qız təkrar ona baxdı və gülümsədi. Durub onu öpmək istədi bir an, islaq dodaqlarına baxdı. Dili qurudu ağzında. Sanki tale onunla oyun oynayırdı. Sanki biriləri o qızı qəsdən ora oturtmuşdu ki onun ölümünə əngəl olsun. Durub başqa yerə gedib oturub gözləməliydi deyə düşündü. Ancaq qızın baxışlarındakı şirinlikdən özünü ala bilmədi. Ya gəlib yanıma otursa birdən? Danışmağa başlasa? Lənət olsun. Görəsən o da Koloradoya gedir? Bəlkə ölmədən əvvəl bir günü birlikdə keçirə bilərik? Yoxsa yox? Lənət. Yox. Çiyinlərinə dağılan sarı saçlarında süzüldü baxışları.

Şəhvət dolu budlar və döşlər. Qızın ayaqlarının arasındakı şəhvət günəşinin işığı onun gözlərini qamaşdırır və həyata çağırırdı. O sanki yazın ehtiraslı tərənnümü ya da insan bədəninə girmiş təzahürüydü. Ona baxanda düşünmürdün ki hər şey yaxşı olacaq, ona baxanda bütün qəlbinlə *inanırdın* ki hər şey yaxşı olacaq.

Bütün məntiqi ilə bir daha baxdı onun üzünə və onun sadəcə bir başqa dodaq və gözə sahib insan ya qadın olduğuna inandırmağa çalışdı özünü. Alınmadı. Bir məntiq axtarmağa çalışdı vurğunluğunda. Bir qaşın, burnun ya gözün bircə millimetrlik aşağı ya yuxarı olması belə nə qədər fərq yaradırdı insan üzündə. Əl boyda insan üzündə nə qədər fərqli aşiq ola biləcəyin sifət var idi və bəziləri necə də ecazkar idi.

Kaş çirkin bir yanını görüm deyə üzünə saatlarca baxılan, üzü didik-didik edilən qadınlar var, saatlar sonra bütün ümidlərin qucağında ayılırsan və heç bir qüsur tapa bilmirsən. Tapa bilmədiyin hər qüsur üçün ürəyinə bir daş asılır o qadının həsrəti ağırlığında.

Qızın burnundan aşağı enib üst dodağıyla birləşən latınların *philtrum* dediyi o möhtəşəm bariz, səlis və hamar çuxuru izlədi. Philtrum. Necə də doğru adlandırılmışdı deyə düşündü, “eşq iksiri” . Sanki onu içsən, bir daha ağrı nədir bilməyəcəkdin.

O çuxurun burundan enib üst dodaqla birləşdiyi hissəyə baxdı. *Procheilon* deyilən o üst dodaq yumrusu. Öpmək istədi.

Həmin philtrum çuxuruna uzanıb başını da procheilon yumrusuna qoyub sonsuza qədər yatmaq istəyirdi.

Birdən qız əlindəki telefonundan başını qaldırıb ona baxaraq nəsə deyəcəkmiş kimi oldu və Mavi tez baxışlarını qaçırtdı. Başını çevirib arxa oturacaqlara baxdı. Qıza qarşı maraqsız kimi davranmağa çalışdı.

Ayağa qalxdı və arxaya gedib başqa yerə oturdu. Təyyarəyə girişin başlamasını gözlədi. Qızı unutmağa çalışdı ancaq bacarıqsız oldu. Zira onu gördüyü ilk anda posterior parietal korteksində minlərlə neyron alışmağa başlamış və onun üzündəki ən incə xırda detalı belə yaddaşa kodlamışdılar. Minlərcəsi bir-biri ilə birləşərək əzəmətli neyron ansamblı yaradırdılar.

Bir qədər sonra təyyarəyə girişlər başladı. Sıradan keçib gedib oturdu. Az da olsa sərxoş hiss edirdi. Pəncərə ağzındakı yerindən çölü izləməyə başladı. Bu lənət yolu yatmalıydı deyə düşündü yoxsa dözə bilməyəcəkdi. İndidən klostrofobiya basdırırdı. Sanki təyyarə havada olanda qışqırıb düşmək istəyəcək kimiydi.

Bir qədər sonra bir nəfər gəlib yanına oturdu. Çevrilib baxmadı belə. Maraqsız idi. Ümid etdi ki yanına oturan kəs onunla dialoqa girməyə cəhd etməz. Heç nə danışmaq istəmirdi. Bəlkə də yalan yerə də olsa təyyarənin qulaqlıqlarını taxmalıydı deyə düşündü. Heç kim narahat etməzdi. Götürüb taxırdı ki birdən yanına oturan kəs ona səsləndi: "Hey".

Təəccüblə başını çevirdi və həmin qızı gördü. Həm o qızla oturacaq nörmələri yanaşı oladuğu üçün təəccübləndi, həm də sevindi. Ancaq yenə də təsadüfün bu qədəri onu həddindən artıq çaşdırdı. Sanki tale ona həqiqətən də bir şeylər deməyə çalışırdı. Qız heçnə demədən onun üzünə baxır və təəccüblənməsindən zövq alaraq gülümsəyirdi. Mavi bir şeylər deməyə çalışdı ancaq doğru olan sözləri tapa bilmədi. İlk diqqətini çəkən şey qızın gözlərinin mavi olmasıydı. Yaxından daha da gözəl görünürdü o qeyri-adi üzü. Ona doğru hər addım atdıqca daha da gözəlləşirdi üzü.

- Təsadüfə bax – deyə dilləndi Mavi.

- Necə?

- Təsadüf deyirəm, düz yanıma oturdun.

- Bura nömrəsizdir - deyib gülümsədi qız.

- Necə yəni? Axı mənim biletim nömrəliydi.

- Ola bilər, ancaq mənim biletim nömrəsizdir, burdan gerideki yerlərdə harda olsa otura bilərəm dedi stüardessalar, mən də buranı seçdim. Gözləmə salonunda mənə nəsə demək istəyir kimi baxırdın. Mən hazırlaşırdım ki yanına gəlib tanış olum, amma sən durub getdin. Maraqlı gəldi ki niyə getdin, mən də gəldim soruşum.

Mavi bilmədi nə desin. Qız özü seçmiş və istəmişdi onun yanına oturmağı. Bilmədi sevinsin ya üzülsün. Pəncərədən çölə baxdı, fikirləşdi. Çaş-baş idi. İndi daha çox sərxoş hiss edirdi özünü. Nələrəsə heyfislənir kimiydi, qıza çevrildi və dilləndi:

- Sən sadəcə məni dəli edirsən.

- Niyə? - deyib güldü. Gülüşü heyrətamiz bir ekstaz hissi yaradırdı.

- Ən sadə bir şeyin belə açıqlamasını eşitməsəniz ürəyiniz partlayar hə? Niyə nədi? Məni niyə dəli etdiyini bilmirsən sanki?

- De mənə onda, eşitmək istəyirəm deməli.

- Çoxda şairanə iltifat gözləmə, o əhvalda deyiləm.

- Ən güclü iltifat ən sadə və səmimi olanıdır, bəzəmək məcburiyyətində deyilsən.

- Burnundan dodaqlarına enən o balaca çuxur məni dəli edir. Bir də ayaqların. Saçların da ola bilər. Ümimiyyətlə hər şeyin.

- Çox da uzağında deyillər.

- Nədir bu? Səni tanrılar əlbir olub göndərib məni xilas etməyə ya nə?

- Başa düşmədim.

- Mənim üçün kilometrlərcə, hətta neçəsə işıq ili qədər uzaqda görünür burdan o ayaqlar və dodaqlar.

- Məsafə anlayışlarımız olduqca nisbidir anladığım qədərilə. Yoxsa utancaq filansan? Elə birinə oxşamırsan, - qız öz qadınlıq qürurunu oxşatmağa davam edir, Mavinin onun qarşısında əriyib getməsindən xüsusi bir zövq alır, ona o ecazkar və sanki nələrisə əmr edən baxışlarını davam etdirir, isti bir alovun içində yanır və istisiylə Mavini əridirdi.

- Çəkiləcək əzabım var təyyarə enənə qədər.

Qız möhtəşəm bir əminliklə "İstəsən yerimi dəyişə bilərəm" deyib gözlərinə baxdı Mavinin, baxışlarıyla sanki hünərin çatırsa "Hə de" deyirmiş kimiydi və sanki yox cavabı alacağından heç bu qədər əmin olmamışdı.

Gözlərinə baxdı qızın, islaq dodaqlarına baxdı, diliylə təkrar islatdı onları qız və Mavi başını pəncərədən çölə çevirib yavaş, ciddi, bezmiş və quru bir səslə dilləndi:

- Pis olmazdı.

Qız təəccübləndi, zarafat olub olmadığından əmin olmağa çalışdı, biraz gözlədi, ancaq Mavi hələ də maraqsız formada çölü izləyirdi. Dərisinin altında gizlətməyə çalışdı pərtliyini, ancaq o qədər də bacarıqlı ola bilmədi, güldü və məyusluğunu gizlətməyə çalışan bir səs tonuyla cavabladı:

- Hə? Yaxşı, elə olsun, - üzünü çevirib dururdu ki Mavi əlini onun ayaqlarına atıb saxladı. Ayaqlarındakı istiliyi hiss etdi. Əli yarı-ixtiyari olaraq yavaşça gəzdi qızın ehtiras dolu ayaqlarında, ürəyi qırtlağında vurdu və qurumuş ağzıyla gülərək dilləndi:

- Otur, zarafat edirdim.

- Mən də elə düşünmüşdüm onsuz da - deyib dərin nəfəs aldı və güldü. Əlini ayaqları üstündəki əlinə qoydu Mavinin. Çəkməsini istəmirmiş kimiydi və sanki özündə o əli ayaqları arasına itələyəcək gücü axtarırmış kimi tərəddüdlə titrədi.

Möcüzəviydi. Günlərdir Mavinin bədəninə hər cür toksin maddə girmişdi və bədən yorğunluqdan çökmüşdü. Ancaq qızın tək gülüşünün yaratdığı ehtiras bütün bədəninin yorğunluq hisslərini bloklayaraq onu cuşa gətirirdi. Ən güclü kimyəvi stimulantlardan belə daha güclü təsirlə bütün ağrılarını unudaraq tək şeyə fokuslanırdı bədən: Qadın. Təbii dillə cütləşmə,

romantik dillə sevişmə. Çünki Mavinin deyimiylə biz, onsuz da bunun üçün yaradılmışdıq.

Mavi ona sarı əyildi və qulaqlarına pıçıldadı:

- Saatlarla çəkiləcək əzabım var deyəndə nəzərdə tutduğum şey - bir qədər dayandı – sənin çılpaq bədəninə sarılmaq üçün gözləməyin işgəncəsiydi - deyə fısıldadı. Dodağı onun qulağına toxundu və bədəni istiləndi. Təyyarə qalxmaq üçün hərəkətə keçdi və müvəqqəti olaraq işıqlar söndürüldü.

Qız gözlərini onun üzünə, partlamış dodaqlarına zillədi, bir şeylər demək istədi amma düzgün sözləri tapa bilmədi, ayaqlarının üstündə tutduğu Mavinin əlini sıxdı. Qeyri ixtiyari olaraq üzləri arasındakı bir santimetrlik məsafə yox oldu və dodaqları bir-birinə yapışdı. Ruhlarını sordular içlərinə doğru. Mavinin əli qızın ayaqları arasıında yanıb tutuşan şəhvət günəşinə tərəf sürüşdürdü özünü. Təyyarənin təkərləri yerdən ayrıldı. Kiçik pəncərədən içəri dolan günəş şüaları onların üzünə səpildi. Qısa müddətli öpüşməni dayandıran tərəf Mavi oldu. Gözlərinə baxdı qızın, bəbək giləlvarinə, böyümüşdülər. Kiçik, millisaniyə qədər kiçik bir müddət içində onun bəbəklərində fırlanıb duran həndəsi naxışların arasında xəyala daldı və hipnoz oldu. Göz qapaqlarını təkrar yumduğunda naxışlar yox olmuşdu. Qızın üzünə baxdıqca beyni onun üçün hormon kokteyli düzəldirdi sanki. Dərindən nəfəs aldı. Geriyə dönüb təyyarənin arxasında tualetlərin olduğu tərəfə baxdı və qız onun hara baxdığını görüb təəccüb və heyrət içində gülümsədi.

- Qatar və avotbusda təcrübələrim var, təyyarədə yox,– dedi Mavi təbəssüm edərək, qızın onun hara baxdığını gördüyündə və əlavə etdi - hələ ki.

- Hələ ki? Neyləmək istəyirsən? Ciddisən? Ölsəm də olmaz.

- Yanılırsan. Ölsəm də olmaz deyərkən. Bu təyyarədən endiyin anda öləcəyini bilsəydin, son dəfə sevişmək üçün təyyarə tualetinə girməzdin? Əminsən? Yoxsa axmaq?

- Belə hiyləli sualları sevmirəm. Əgər öləcəyini bilsəydin, əgər milyon dollar udsaydın, əgər penisim olsaydı..

- Amma hər gün oyanıb sabah ölməyəcəyindən əmin formada yaşaya bilirsən. Ən böyük hiylə də elə budur.

- Əgər iki saat sonra öləcəyimi bilsəydim bəli ora gedər və səninlə sevişərdim.

- Bəs indi səni saxlayan nədir? – Mavi pəncərədən çölə baxır, təyyarənin buludların üstünə yüksəlməsini izləyir, vecsiz formada qıza baxmadan mızıldanaraq danışırdı.

- Bilmirəm, qorxuram, nə bilim – bir qədər susudu və davam etdi - əslində düşünəndə həyəcandan ürəyim dayanacaq kimi oluram, istəyirəm, amma çəkinirəm. Bizi görsələr, tutsalar. Sadəcə gözlə, bir neçə saat sonra enəcik onsuz da. Əgər qatar olsaydı nəysə, avtobus tualetini sanmıram amma.

- Düzü, bizim sevişdiyimiz avtobusda heç tualet yox idi

- Bəs necə?

- Gecə, hamı yatarkən. Sadəcə iki balaca uşaq yatmamışdı və birdən təsadüfən bizim oturacağın yanından keçərkən dayanıb baxmağa başladılar. Nə etdiyimizi anlamağa çalışırmış kimi təəccüb və maraqla baxırdılar. Bizsə onlar üçün dayana bilməyəcək qədər itirmişdik özümüzü və əlimizdən sadəcə onlara baxıb gülmək gəlirdi. – Sanki o anın içinə giribmiş kimi sözünü bitirib heyfsləndi. Xatırladı və darıxdı. Başını yana yellədi, dərindən nəfəs aldı – kaş o günlərə qayıdıb orda da yaşaya bilsəm elə. Sənə gəldikdəysə, ilkin müşahidəmdən bu qədər qorxaq və çəkingən biri olduğunu sezməmişdim düzü. Uzaqdan sənə baxanda başqalarının sənin haqqında düşünəcəyi şeylərə görə utanıb etmək istədiyini etməyəcək birinə oxşamırdın. Ancaq indi, daha çox həyatda həyəcanlanacaq ya qorxacaq bu qədər macəra varkən süni karusel parkına gedib həyəcanlanmaq və qorxmaq üçün pul verən adamlara oxşayırsan. Neyləyəcəklərini düşünürsən? 7 milyard insanın dünyada olma səbəbi olan sevişmə aktını yerinə yetirdiyinçün səni həbs edəcəklərini? Ya buludların üstünə polis çağıracaqlarını? Ya bəlkə üzünə tüpürəcəklərini sanırsan? Sənə nə olacağını deyim: özlərinin etməyə cəsarət etmədikləri şeyi bir başqasının etdiyini görüb qısqanacaq və

sənə o çirkin baxışlarını atacaqlar, hə. Qorxduğun şey budursa əgər.

Qız bir şeylər deməyə çalışdı ancaq Mavi ona icazə vermədən ağlına gələn başqa bir şeyi demək üçün sözünü kəsib əlavə etdi:

- Və işin ən ironik və paradoksal tərəfi odur ki, bu qədər qorxaq və başqalarının fikriylə yaşayan bir qızla heç vaxt sevişmərəm də, yəni indiki qorxaqlığın səbəbilə təyyarədən endikdən sonra da sevişə biləcəyimizi sanmıram. Daha doğrusu təyyarədən endikdən sonra görüşəcəyimizi belə sanmıram. Çünki onsuz da görüşəcək vaxtım yox idi.

Çaşqın, karıxmış və yeniyetmə yaşının verdiyi cəsarətlə qorxaq olmadığını sübut etməyə çalışmaq istəyən qız fikirləri bir-birinə dolaşmış formada küsmüş uşaq kimi qaşqabağını sallayıb fikirləşir, ağlına gələn həyəcanlı fikirləri zaman-zaman üzündəki mimiklərdə biruzə verir, dırnaq ətlərini dişləyir, bəzən dərin fikirə dalır, bəzən də təyyarənin salonunu gözüylə yoxlayır, ortalıqda gəzişən stüardessalara baxırdı.

Mavi, rolunu yaxşı oynamışdı, onun yaşındakı gənc bir qıza psixoloji təsirin necə edilməsi gərəkdiyini yaxşı bilirdi, qızın qorxaq olmadığını da bilirdi. Yanına gəlib onunla ilk söhbəti başladacaq hətta öpüşəcək qədər istədiyinin arxasından gedən biriydi və Mavi onun növbəti sözünün nə olacağını da bilirdi:

- Yaxşı.

“Qorxaq olmadığını bilirdim” demək istədi, fikrini dəyişdi, qızın mükafatını, öz mükafatını aldıqdan sonra verəcəkdi. Başını çevirib ona baxdı, qızın gənc bədəni həyəcandan titrəyirdi. Mavi başını qaldırıb oturacaqların üstündən stüardessaların harada olduqlarına və tualetin qarşısında kiminsə olub olmadığına baxdı.

- Əla. Yemək və içkiləri gətirmək üçün hazırlaşırlar, birazdan onlar başa gedəcəklər və yemək paylamaq üçün kifayət qədər vaxtları olacaq, ortada yemək masasını sürəcəkləri üçün də arxaya heç kim keçib gələ bilməyəcək. İkimizin içəri girməsi də çətin deyil, birinci sən gedəcəksən, birinci sən çıxa-

caqsan, sadəcə mən çıxarkən diqqət çəkməməliyəm, vəssalam, qorxacaq heçnə yoxdu. Həyəcanlanmaq da işin gözəl tərəfidi.

- Yaxşı – deyə bildi qız ancaq. Ayaqlarını həyəcandan dayanmadan yellədir, qızarmış yanaqları ilə dayanmadan ətrafı süzür, həm də elə bilirdi ki dayanmadan yüksək templə atan ürəyinin səsini təyyarədəki hamı eşidir və o səsi gizlətməyə çalışırdı. Sanki təyyarədəki hamının onların planlarından xəbəri var sanır və hürkürdü.

- Halına bir bax – dedi Mavi gülərək – az qala sənə bu həyəcanları yaşadan və yaşadacaq olan insana yox deyirdin. Bu qədər həyəcanlanacağını düşünməmişdim, ancaq bu məni daha da çox dəli edir.

-Adın nədir? Adını belə bilmirəm. Ümumiyyətlə sən kimsən? Mənə özündən danış biraz, bu qədər danışmışıq ancaq haqqında heçnə bilmirəm və maraqdan partlayıram. Bu arada, minməmişdən nə qədər içmisən ki bu qədər alkoqol qoxur nəfəsin.

- Bu qədər ki dözmüsən, bir az da döz, ordan çıxdıqdan sonra deyərəm adımı, sonra həm təyyarədə həm də adını belə bilmədiyin biriylə sevişmiş olarsan və bunu həyəcanla ən yaxın dostuna danışarsan. Sənin üçün gözəl bir hekayə olar.

Onları eşidən olmaması üçün bir-birinə yaxın və alçaq səslə danışırdılar. Qarşılarında iki qoca film izləməkdəydilər və qulaqlıqlarını taxmışdılar. Onlardan sağda eynəkli ortayaşlı bir qadın uşağıyla oturmuş kitab oxumaqdaydı. Mavi əlavə etdi:

- Di gəl ki daha əvvəl adını belə bilmədiyin biriylə sevişməmiş birinə də oxşamırsan, mənim yanıma oturaraq söhbəti başlatma cəsarətini ilk dəfədir göstərmirsənsə əgər, daha əvvəl də yəqin ki adını belə bilmədiyin kimlərləsə sevişmisən.

- Siz kişilər, hər şeyin ilkinin sizinlə olması üçün ölmürsünüzmü.

- Yaradılışımızın belə olması səbəbilə bizi mühakimə edə bilməzsən məncə, hə? Təbiəti, tanrını ya da hər nəyə inanırsansa onu mühakimə et, məni yox. Bir də ki, ilk adını bilmədiyin partnyorunun mən olub olmamağım çox vecimə deyil düzü,

mən sadəcə müşahidəmi deyirdim, istəsən səmimiyyət dərəcəmi azalda bilərəm. Həm, ilk olmanın dərdini çəksəydim, təyyarədə ilk və bəlkə də son sevişəcəyin insan mən olacam, onla oxşayardım eqomu.

- Hər şey bu qədər asandır hə? Təbiətim belədir. Birini öldür və sadəcə de ki mənim yaradılışım belədir, hə?

- Təəssüf ki bəli, əslində bir nöqtədən baxanda hər şey bu qədər sadədir. Olduqca determinist səslənsə də.

- İlk olmağın dərdini çəkmirsən dedin? Əminəm ki elədir, qarşında çılpaq dayanmış on səkkiz yaşlı gözəl bir bakirə qıza qarşı da bunları deyə bilərsənmi, ondan əmin deyiləm amma.

- Nə əlaqəsi var? Səhv anladın. Mən elə bir şey demədim, sənin ilk adını bilmədiyin şəxs olub olmamaqdan danışırdım. On səkkiz yaşlı bakirə və gözəl qadını o qədər sevmə səbəbimiz təkamül formamızdır, bioloji quruluşumuz, biz yox. Onun daha əvvəl heç bir kişiylə cütləşməmiş olması genlərimizin xoşuna gəlir və onları əmin edir ki qızın hamilə olma ehtimalı sıfırdır və öz spermləri üçün möhtəşəm bir hədəf və yuvadır. Gənc olması da həmçinin, sağlam olması deməkdir. Bizim şüurlu olaraq sevdiyimiz tərəf isə, qız üçün hər şey ilk olacağına görə bədəni əsəcək həyəcandan və bu fikir olduqca ehtiraslıdır. Utancaq və ehtirasla alışıb yanan gənc bir bədən. Niyə də yox. Sənə bu fikir kifayət qədər ehtiraslı səslənmir bəlkə də çünki qadınsan. Siz daha az ya da sadəcə bir partnyor istəyirsiniz. Amma siz qadınlar həm də partnyorunuzun daha çox qadınla birlikdə olmuş olması fikrindən ehtiraslanırsınız, çünki bu, o kişinin daha əvvəl bir çox qadın tərəfindən seçilib, istənilib, sınanılmış olması deməkdir. Heç kimin sevişməyi seçməmiş olduğu bir kişinin seçilməmiş olması üçün yaxşı bir səbəb olmuş olmalıdı yəqin ki hə?

-Yaxşı. Nevroloqsan ya psixoloq? Başa düşdüm, hazır cavabsan, dilin kifayət qədər güclüdü. Maraqlıdı başqa nələrdə bu qədər güclüdür, başqa haraların onun kimi itidir ya da içəridə nə qədər yaxşı olacaqsan, ümid edirəm üç dəqiqəyə çıxmarıq – deyib güldü.

- Bilirsən, insanlarda uşaqları yemə istəyi deyə bir istək var. *Şirin aqressiya* deyirlər. Uşaq olmasan da mən də səni yemək istəyirəm. Qəribə hissdi. Qolunu var gücümlə dişləmək istəyirəm. Yəqin Palahniuk dediyi kimi, gözəl bir şeyləri məhv etmək istəyirəm. Ya da bəlkə də səbəb başqadır. Həyatdan əldə edə bilmədiklərimizin acığını sahib olduğumuz ən gözəl partnyorlarımızla sevişərkən sevinc və nifrət qışqırıqları ataraq çıxarırıq məncə. Ona görə sənin içinə hər sürətli və sərt girişimdə bağıraraq həyata meydan oxumaq istəyirəm. İçinə dalarkən həyata olan əsəbimi çıxarmaq və bütün bədənimdəki sinirləri boşalmaq istəyirəm. Eqoist səslənə bilər. Amma səni istəməyimin əsl səbəbi tam olaraq budur. Nifrətimi, hirsimi, əsəbimi qusmaq istəyirəm ayaqların arasında yanan alovun içində yox olarkən. İstədiyim şey tam olaraq budur.

- Hər necə səslənir səslənsin, dediklərin xoşuma gəldi əslində.

Bir qədər müddət sonra stüardessalar yemək və içəcək masasını sürərək onların yanından keçib təyyarənin başına doğru getdilər və yeməkləri paylayaraq ortaya qədər gəldilər.

- Get içəri. On saniyə sonra gələcəm mən də.

Qız getdi. Ardından Mavi getdi, qapını açıb içəri girdi və içəridən qapını bağladı.

Bir anlıq tərpənmədən bir-birlərinin üzünə baxdılar, güldülər və dodaqları onlardan xəbərsiz bir-birinə yapışdı. Dayandılar bir müddət sonra. Mavi qızın ipək kimi incə yubkasının ətəklərini tutdu və yuxarı doğru qaldırmağa başladı, çəkib üstündən çıxardı paltarı, soyundurdu onu. Qızın sərt, dolğun, hamar və gənc bədəni onun huşunu aldı bir anlıq, tərpənmədən bədənin hər hissəsini müşahidə etdi gözüylə. Əlini qızın sərt göbəyinə apardı, barmaqları bədənində gəzişdi, döşlərinə doğru qalxdı. Sonra cəld hərəkətlərlə şalvarının kəmərini açmağa başladı. Qızı qaldırıb əlüzyuyanın üstünə oturtdu və ayaqları arasındakı qaranlıq, bilinməz, isti, yaş və dar qapıdan qızın ehtiras dolu dünyasına girdi.

Kosmosdakı uzaq bir boşluqdaymış kimi varlığının gravita-

siyasız yüngüllüyünü hiss etdi. Qollarıyla qızın həyəcanla əsən isti bədənini qucaqladı və ritmik hərəkətlərlə insanoğlunun ilk rəqsini oynamağa başladılar. Qız iniltisinin eşidilməməsi üçün alt dodağını möhkəmcə dişləyir, ekstaz içində üzən məst olmuş sifəti və bərəlmiş gözləriylə Maviyə baxır, onun kürəyini barmaqlarıyla vəhşi pişik kimi cırmaqlayırdı. Qızın mavi gözləri içində yoxa çıxdı Mavi və varlığını unutdu. Bulutları üstündəymişcəsinə yüngül və yumuşaq hiss edirdilər, sonra doğrudan da buludların üstündə olduqlarını xatırlayır və daha da çox coşurdular. Bədənləri zövq və həzzdən əriyir və anın içində itirdi.

Qapını geridən açmağa çalışan kimsənin cəhdi onları oyandırdı. Təngnəfəs bir-birlərini öpməyə başladılar. Dilləri bir-birinə sarıldı və dodaqlarını sordular. Qızın ritmlə qalxıb enən dik və sərt döşlərini dodaqları arasına aldı Mavi. Burda çox qala bilməyəcəklərini xatırladılar və üzüldülər.

Ritmik rəqsləri sürətləndi və kulminasiya mərhələsinə daxil oldu. Sürətləndilər. Ayaqlarıyla Mavinin kürəyini qucaqladı qız və onu özünə tərəf itələməyə başladı gərilmiş əzələləriylə. Birlikdə ifa etdikləri musiqiləri kreşendoya daxil olaraq yüksək səsli və intensiv kulminasiyasını nümayiş etdirir ya da birlikdə oynadıqları baletləri *pas de deux*'una çatıb *grand coda* mərhələsinə girirdi.

Hər ikisinin bədəni gərildi və gərilmiş ayaq və qollar bir-birinə sarıldı. Bir-neçə saniyəlik gərilmənin yerini pambıq kimi boşalmış bədənləri aldı. Orqazmın bir saniyəlik belə olsa söndürdüyü frontal lobun fəaliyyətsizliyi nəticəsində hər ikisi sanki heç vaxt var olmamış ya doğulmamış kimi qaranlıq fəzanın bir küncündə kiçilib bir qara nöqtəyə çevrilərək gözdən itdilər. Və adajio.

Başını qızın boynuna qoydu və onun tanrı əli toxunmuş qızılı saçlarının arasında özünə təskinlik tapdı. Qızın qulağının arxasından boynuna qədər enən bədəninin ifraz etmiş olduğu tər dənəciklərini qoxladı və öpdü. Sanki feromonlar həqiqətən varmış və bu hiss etdiyi ən gözəliymişcəsinə qoxladı. Ən bahalı fransız ətirindən belə daha gözəl idi.

İçəridə lazım olandan artıq vaxt keçirmiş olduqlarının fərqindəydilər hər ikisi, dillərini bir-birindən ayırmadan tələsik üst-başlarını düzəltməyə başladılar.

- Yaxşı, çıx get, mən arxandan gələcəm.

Qız onu son dəfə öpdü və həyəcanlı əlləriylə qapını açıb çölə çıxdı qapını tələsik bağladı, Mavi arxadan yenidən bağladı qapını. İçəridə bir az gözlədi. Aynada biraz özünü izlədi və ölümü xatırladı. Qapını açıb çıxdı və həmin o yanlarında oturan eynəkli otuzlu yaşlardakı qadının qapıda gözlədiyini gördü. Qadının gözləri hər şeyi deyirdi. Mavi digər tualetin qapısındakı yazıya baxdı, yaşıl rəngli açıqdır yazısı var idi, ora girməmiş, bu birini gözləmişdi qadın. Bir məqsədi var idi.

- Bayaqdan sənə demək istəyirdim ki gözəl zövqün var, bu köynək möhtəşəmdir. Eynək seçiminsə köynək seçimindən də əladı. Ümumiyyətlə hər şey möhtəşəm görünür, zövqünə deyiləcək söz yoxdur – dedi qadının gözlərinə baxaraq Mavi və onun üzünə gətirdiyi ani heyrəti zövqlə izlədi.

Qadının köynəyini heç sevməmişdi və qeyri-adi heçnə yox idi, eynəyə gəldikdəysə, bir eynək nə qədər fərqli seçilə bilərdi ki? Qadının üzündəki incə makiyaj və qırmızılaşdırılmış dodaqları ona icazə verirdi ki qadının baxımlı görünməyə çalışdığı fikrinin doğruluğundan şübhə etməsin. Və baxımlı görünməyə çalışan hər kəs ortaya bir zəhmət ya səy qoyur və bunun qiymətləndirilməsini, təqdir edilməsini istəyirdilər. Yaxşı görünmək üçün bir səy göstərmişdisə fərd, demək ki onun üçün yaxşı olanı geyinmiş olmalıydı. Mavi üçün seçim pis də olsa, qadın bunu anlaya bilməzdi. Ona köynəyinin gözəl olduğunu deməsi qadının ürəyini oxşamasına bəs idi. Qadın onsuz da ona görə gözəl olduğu üçün geyinmiş olduğu köynək haqqında deyilənlərin doğru olduğuna inanacaqdı, elə deyildisə belə, şirin yalana aldanacaqdı yenə də. Hər şeyin tək səbəbi var idi: Mavi onun üzünü və bədənini bəyənmişdi. Ona birbaşa “çox gözəl üzün var” da deyə bilərdi. Demədi, çünki birincisi qadın bundan utanacaqdı, ikincisi bu olduqca bəsit bir iltifat olacaqdı

birbaşa hədəfi vuran, hansı ki dolayı yolla demək daha yaxşıydı, ikincisi bir qadının onsuz da doğuştan sahib olduğu heç bir cəhdsiz əldə etmiş olduğu gözəl üzünü tərifləməkdənsə, onun sonradan öz seçimləri sayəsində özünün əldə etmiş olduğu (ya da özünün əldə etdiyini *sandığı*) zövq qabiliyyətini tərifləmək onu daha da çox qürurlandıracaqdı. Son olaraq, onun yaşındakı qadınlara deyilən istənilən iltifat onlar üçün böyük məna kəsb edir çünki otuzlu yaşların gətirdiyi qocalma təlaşını biraz da olsun unutmaqlarına kömək edirdi.

- Tə-təşəkkür edirəm, si.. –qadın öyrənilmiş iltifatı geriqaytarma alışqanlığının təsiriylə eyni şeyləri Maviyə demək üçün köynəyinə baxdı, çox sadəydi, eynəyi yox idi, bir şey tapa bilməyib mızıldandı – siz də çox yaxşı görünürsünüz.

Mavi qadının iltifatdan sonra narahat edici bir səssizliyə düşüb deyəcək bir şey tapmayacağını bildiyi üçün dialoqlarının növbəti cümləsini də hazırlmışdı artıq:

- Oxuduğun kitabın adını oxumağa çalışırdım bayaqdan, sonra fikir verdim ki sənin görünüşün, kitabın adından daha çox diqqətə layiqdir. Bilirsən insanların qırmızı dodaqların dəlisi olmasının elmi açıqlaması nədir? – Mavinin gözü qadının qıpqırmızı dodaqlarıyla uzun qara kirpikli ətrafı sürməylə qaraldılmış gözlərinin yaratdığı üçbucağın içində həbs olub itmişdi. Qadının o qırmızı dodaqlarına hər baxdığındaysa qeyri-ixtiyari olaraq öz dodaqlarını diliylə islatmadan dayana bilmirdi. Və qadının ona siz deməsinə baxmayaraq o sən deməkdə israr edir, aralarındakı ilkin sərhəddi qırmağa çalışırdı.

- Bilmirəm, niyə? – deyə gülümsədi qadın.

- Hər şeydən əvvəl niyə dodaqları sevirik? Fərziyyələrin birinə görə insan təkamülündə anaların uşaqlarını ağızdan-ağıza yemləmə vərdişindən bizə qalan vərdişdir. Qırmızı dodaq haqqında fərziyələr isə, bəzilərinə görə yetişmiş qırmızı meyvələrə olan ehtirasımıza görə formalaşıb. Həm də bəzi primatlar arasında dişilərin çiftləşmə vaxtı çatanda bədənlərində cinsi orqanlar və dodaqlar qan damarları vasitəsilə qırmızıya boyanır və erkəklər bilirlər ki bu dişinin çiftləşmə vaxtı çatıb. İnsanlarda

da qohumlarımız olan primatlardakı bu xüsusiyyətə görə qırmızı dodaqları daha cəlbedici qəbul etmə meyli var. – gözünü onun qırmızı dodaqlarından ayırmadan bitirdi sözünü və dolayı yolla qadına onun qırmızı dodaqlarının onu necə dəli etdiyini dedi.

- Maraqlıdı. Heç belə düşünməmişdim. – O sanki dodaqlarını gizlətməyə yer axtarırmış kimi utandığından bilmirdi neyləsin. Mavi onu çox da sıxmamaq və qapının ağzında gözlətməmək üçün "yaxşı, danışarıq yenə" dedi, güldü və "yaxşı" cavabını alıb sanki qadının arxasından onunla birlikdə tualetə girmək istəyirmişcəsinə həsrətlə baxıb yerinə doğru yeridi.

Ən yaxşı etməyi bacardığı şeyi edir, qadınlara iltifat edir və ya bilgisizliklərindən faydalanaraq onları təəccübləndirəcək bir-iki şey deyərək öz qürurunu oxşayırdı Mavi. Bəzən hamısına eyni kompliment ya məlumatları deyir eyni mövzulardan danışırdı, bəzənsə hamısına fərqli şeylər deyir, kiçik hiyləgər yaradıcılığını inkişaf etdirir və ortaya çıxarmış olduğu dəyişikliklə daha da çox qürurlanırdı. Tünd-qırmızı ehtirası alovlandırmaq və doyurmaq üçün deyilən mavi yalanlar.

- Nə danışırdınız?

- Heçnə. Vacib deyil. – deyib yerinə oturdu Mavi.

- Mənim hələ də ürəyim əsir həyəcandan.

- Gördün ki heçnə olmadı, əvəzində indi hamının sahib ola bilməyəcəyi bir hekayən var.

- Hə, gözlədiyimdən çox asan oldu.

- Bax görürsən, insanlar belə primitiv şeylərdən qorxur və elə sanırlar ki bütün dünya onlara güləcək ya nəsə və etmək istədikləri şeyləri etmirlər. Etdikdən sonraysa hər şeyin çox asan olduğunu görürsən.

- Etmək istədiyi hər şeyi etmiş biri kimi danışırsan.

- Müəyyən mənada, zaman-zaman etmişəm hə, bilmirəm.

- Adını deyəcəkdin.

- Gözlərinin rəngi.

- M-mavi? Ciddisən?

- Nə oldu? Qadın romantikan sənə bunun bizi birləşdirən təsadüfün rəngi olduğunu deyir?

- Təsadüfün rəngi? Sən şair olmalıymışsan məncə.

- Mən, ümumiyyətlə, olmamalıymışam. Mənə qalsa.

- Niyə elə dedin? Bu arada mənim ki də Hera. Minnesotalıyam. Şad oldum – deyib əlini uzatdı qız gülərək.

- Minnesotalılara xüsusi bir sevgim var. Məmnun oldum, Hera. Ümid edirəm mən sevişdikdən sonra əlini uzadıb adını deyərək tanışdığın ilk və tək oğlan olaram və beləcə bəlkə içimdəki doymaq bilməyən acgöz kişi mənliyim biraz belə olsa sakitləşər.

- Sən çox qəribə birisən. Bu arada hələ də alkoqol iylənirsən. Niyə olmamalıymışam dedin?

- Niyəsini başa düşmək üçün həddindən artıq gözəlsən. Bilmirəm ki, desəm belə, niyəsini başa düşərsənmi?

- Necə yəni həddindən artıq gözələm?

Mavi onlar danışmağa başlayandan bəri uzun aralıqlarla xəyala dalır, baxışları bir nöqtədə donur, pəncərədən çölə baxır, bir şeylər fikirləşir və ağlı elə hey ölümə gedirdi.

- Sən nə fikirləşirsən axı bu qədər? – təkrar soruşdu Hera.

- Qərar verə bilmirəm, ki sənə sabah səhər intihar edəcəyimi deyimmi yoxsa deməyərəkmi davam etdirim söhbətimizi. Demədən heçnə yoxmuş kimi danışmağa qeyri-səmimi davam edə bilərik, ya da deyərək sənin kefini pozaraq söhbətimizə neqativ bir ağırlıq qata bilərəm. Ancaq ən azından səmimi söhbət olar. Səncə deməliyəm?

- İntiharmı? Mən heçnə başa düşmürəm, niyə intihar edirsən ki?

- Sənə başa düşmək üçün çox gözəl olduğunu demişdim.

- Gözəlliyimin buna nə dəxli?

- Çox dəxli. Fərqli dünyaların insanları olduğumuz üçün ola bilər səncə? Mənim yaşadığım problemləri sənin yaşamamış olmağın bəlkə? Sən intihar etmək üçün həddindən artıq gözəlsən və həyatının ən gözəl çağındasan, gənc və xoşbəxtsən. Kefinin hər pozulduğu anda qarşında biri ehtirasından əriyərək nə qədər gözəl olduğuna dair mədhiyyələr deyərək sənin kefini qaldıra bilər. Demələrinə ehtiyac belə yoxdur, sənə baxış for-

maları bəsdir. Səndə heç kimdə olmayan, puldan və savaddan daha üstün bir şey var, gözəlliyin. Onu nə əldə etmək üçün, nə də azalmasının qarşınını almaq üçün əziyyət çəkirsən. Və elə bir şeydir ki, göstərməyinə ehtiyac yoxdur, ortadadır. Bu nöqtədə bir-birimizi başa düşməyimiz mümkünsüz görülür. Məncə ümumiyyətlə deməməliyəm sənə intihar edəcəyimi.

- Nə qədər dayaz düşünürsən. Gözəl olmaq heç bir dərdi olmamaq deməkdir sanırsan hə? Hər şey bu qədər sadə deyil, mənim çəkdiyim ağrıları bilə-bilməzsən.

- Dərdlərin ola bilər, mən intihar üçün həddindən artıq gözəl olduğunu nəzərdə tuturdum.

- Bunun gözəlliyimlə əlaqəsi yoxdur, məncə həyat intihar etməyəcək qədər gözəldir. Sürünsən belə, yenə də qarşına gözləmədiyin gözəlliklər çıxır.

- Sənin yaşında olanda mən də elə düşündürdüm.

- Yaşıma görə mənə fərqli münasibət göstərən insanlara nifrət edirəm.

- Sənin yaşında olanda mən də onlara nifrət edirdim.

- Xahiş edirəm kəs bu “sənin yaşında olanda” səfsətəsini. Mən də hamı kimi insanam. Yaşın nə fərqi var axı?

- Məsələ də elə budur ki, yaşın nə fərqi olduğunu başa düşə bilmək üçün böyüməlisən. Sənin yaşında olanda, mən də hər şeyi bildiyimi və həyatı tamamilə başa düşmüş olduğumu sanırdım. Zaman səni yanıldacaq. Ən güclü şey zamandı, o hamıya nə qədər yanıldıqlarını göstərəcək qədər güclüdür və bunu heç danışmadan edir. Sonda haqlı çıxdıqda isə heç vaxt qoltuğu qarpızlanaraq “mən demişdim” demir, o sadəcə başa düşür və nəvaziş göstərir. O yeniyetməlik burulğanından o vaxt çıxacaqsan ki başa düşmədiyin şeyi qınamayacaq ya mühakimə etməyəcəksən. Alışacaqsan. Sanacaqsan ki artıq böyümüsən, hər şeyi bilirsən, ancaq sonra görəcəksən ki yenə də böyüməmisən, sonra yenə böyüdüyünü sanıb yenə kiçiləcəksən. Yeniyetməliyin ən çaşdırıcı tərəfi də budur, dəfələrlə böyüdüyünü sanıb yanılacaqsan. Yeniyetməlik sadəcə 19cu yaşda bitmir, davam edir. 20, 21, 23, 25. Sənin dediyinin əksinə, yaşın, çox

fərqi var. Mən də yeniyetməykən adam yerinə qoyulmaq istəyirdim, fikrimə hörmət edilsin istəyirdim. Məsələ odur ki, 18 yaşında, sənin böyük ehtimalla fikrin belə yoxdur. Yeni formalaşır və səfsətələrdən, ziddiyətlərdən ibarətdir, ona görə də sənin yolunu keçmişlər üçün dediklərinin çoxu maraqlı deyil. Onlar üçün bezdiricidir. Ancaq sənə yenə də hörmət edəcəklər, - dedi Mavi və onlara yaxınlaşan stüardessaya çevrildi.

Stüardessanın qeyri adi üz quruluşu və onun verdiyi izahedilməz qəribəlikdəki gözəlliyi Mavini gözlənilməz kiçik bir təəccübün içinə atdı.

- Xoş gördük. Nə içmək istəyərdiniz?

- Viski zəhmət olmasa, mümkündürsə tam doldursanız əla olardı.

- Yaxşı.

- Maraqlıdı, işinə yarayırmı – alçaq səslə stüardessanın üzünə baxaraq mızıldandı.

- Necə? Nə işimə yarayırmı? –stüardessa içkini doldurarkən soruşdu.

- Gözəlliyin, xoşbəxt olmaq da işinə yarayırmı.

- Deməzdim, təşəkkür edirəm yenə də – deyib gülümsədi qız və içkini uzatdı.

Hera da bir içki aldı. Mavinin gözü yandakı eynəkli qadının dodaqlarıyla kəsişdi, bir-birinə təbəssüm etdilər. Heraya döndü mızıldandı:

- Yəqin sən təyyarədə içki içənlərə də və içməyənlərə də nifrət edirsən, hə?

- Başa düşmədim, absurd səslənir.

- Bilirəm. Elə ona görə dedim. Yeniyetmələr də belə absurd səslənirlər. Onlar eyni anda hər iki zidd varianta nifrət etmə potensialına sahibdirlər.

- Sən doğrudan intihar edəcəksən? Axı niyə? Necə?

- Evtanaziya kamplarını eşitmisən yəqin ki.

- Deməli evtanaziya kampına gedirsən? Ona görə Koloradoya gedirsən? Axı sənin nə problemin var ki onlar hətta səni qəbul da edirlər?

- Yaşaya bilməmək kimi bir problemim var desəm? Ya da yaşamaq mənim üçün əziyyətinə dəymir desəm? İşləmək və əziyyət çəkmək istəmirəm. Həyatla bir problemim yoxdur çox da. Əslində mən hər nə qədər insan təbitətini bilsəm də, ölməmək üçün hər şeyi edən genləri filan bilməyimə baxmayaraq bu qədər insan necə intihar etmədən dayana bilir hələ də təəccüb edirəm.

- Mən sənə deyəcək söz tapmıram. Nəsə deyib fikrini dəyişdirmək istəyirəm, ancaq bilmirəm nə deyim. Mən də həyatdan bezirəm bəzən, ancaq yenə də həyat gözəldir.

- Əgər sözümü kəsməsən, qoy sənə bir-iki şey deyim. Sən həyatdan bezməyin çox uzağındasan, çünki bunun üçün həm artıqlamasıyla gözəl həm artıqlamasıyla cavansan, sənin yaşındakı insanlar hər nə qədər həyatdan bezmişəm desə də bir çox şey yenidir sizin üçün. Yenilik də xoşbəxtliyin əsas lazım olan formulalarından biridir. Beynimiz qarşılaşdığımız hadisə və şeylərə sırf yeni olduqları üçün reaksiya verərək xoş hiss etdirən kimyəvi maddələr ifraz etdirir. Dopamin kimi. Yeniyetmə illəri yəqin ki ən gözəl illərdir, hər şeyin dadının təzə olduğu, ilk olduğu. Necə ki ilk öpüş də əlin ayağın əsib, bədənin və hormonların bayram edibsə, yeniyetməlik də sanki həyatla ilk öpüş kimidir. Bütün əl ayağın, hormonların və beynin əsir.

Yeniyetmə *bilmir*. Yeniyetmə *bilməyəndir*. Yeniyetmə sanki insanların içinə yenicə gətirilmiş həyəcanlı tarzan kimidir; öyrəndiyi hər sözü böyük entuziazmla, çoşğuyla qışqırır ancaq başa düşmür ki ətrafdakı insanlar üçün o sözlər (fikirlər) sadəcə dəfələrlə işlətmiş olduqları və onlara heç bir əlavə həyəcan qatmayan bəsit sözlərdir (fikirlərdir). Tarzan üçün isə bu çox maraqlıdır, o hər gün yeni bir söz (fikir), yeni bir dünya kəşf edir və bunu dünyaya qışqırmaq istəyir. Çox sevdiyim gözəl bir fraza var: "yeniyetmələr qocaların axmaq olduğunu *düşünür*, qocalar isə yeniyetmələrin axmaq olduğunu *bilir*". Bu cümlə illərin insanı dəyişməsinin, təcrübənin insana, dünyaya necə fərqli prespektivdən baxdırdığının çox gözəl və qısaca izahıdır.

Yeniyetmə, uşaq olaraq doğulub əylənərək yeniyetmə yaşına qədər böyüyür, sonra onun şüuru və beyni inkişaf etməyə başlayır bədəni ilə birlikdə və o artıq fikir yürüdə bilir. O həyatın ilkin problemləri ilə qarşılaşır, sevir, aşiq olur, aldadılır, dostlarının xəyanətinə uğrayır, onu başa düşməyənlər olur, ailəsinə nifrət edir, depresiyaya girir, siyasət haqqında fikir formalaşdırır, fanatik olur, həyatda məna axtarır, intihar etmək istəyir və sonra qərara gəlir; *“bütün insanlar axmaqdır - ən azından böyük çoxluğu- və həyat bərbad bir yerdir, həyatın heç bir mənası yoxdur! Hətta o, bəlkə də, ölməlidir!”*

İllər onu sakitləşdirəcək, sözssüz. İllər ona yaşamaq üçün mənaya ehtiyac duyulmadığını, həyatın sadəcə bir xoşbəxtlik oyunu olduğunu göstərəcək. O, onun keçdiyi yaşlardan keçib onun yaşamış olduqlarını yaşamış insanlara "məni başa düşmürsünüz!" kimi absurd bir cümlə qurma bacarığına malikdir, absurddur.

Dünya ilə yenicə tanışan yeniyetmə tanış olduğu ilk fərqli insanlara heyran olacaq, məşhurların şiddətli fanatiki olacaq, məşhur yazarların, aktyorların, futbolçuların. Onun şiddətlə müdafiə etdiyi idman komandaları, siyasi axımlar, musiqiçilər, ideologiylar olacaq. O aid olmaq istəyəcək. Aidiyyat hissini doldurmaq istəyəcək. İnsanın ilkin instikti olan qrupa aid olma instiktinin ilk praktikalarını yerinə yetirəcək. O öz ideologiyasının, müdafiə etdiyi şeyin neqativ yanlarını gizlədəcək, görməzdən gələcək, bəlkə də görməyəcək və bir fanatikə çevriləcək. Geri dönüb bunları gördüyü vaxt artıq o böyümüş olacaq. O artıq ideologiyanı yox, doğrunu müdafiə edəcək. Özü-özünü salmış olduğu çərçivələrdən yenidən özünü çıxaracaq və aydınlanacaq. O aydınlanmanın ilk addımını yeniyetməliyə girərək atacaq və onu böyütmüş iqtidarları sorğulamağa başlayacaq; ata, cəmiyyət, dövlət, tanrı. Bu dörd iqtidarı dağıdıb, yenidən özü öz iqtidarını qurmadığı təqdirdə o aydınlanmayacaq. Onlardan bəziləri həmişə bu iqtidarların ardınca gedəcək, bəziləri öz iqtidarlarını quracaq və özbaşına olacaq. Necə də gözəl sözdür halbuki, öz-başına. Başqalarının

başına olmaqdansa, öz-başına olmaq daha yaxşıdır. O tanrıya meydan oxuyacaq qədər cəsarətli olacaq, onu yerlə bir edəcək və onu öldürəcək.

Bütün yeniyetmələr kimi o da xəyalpərəst olacaq ilk başda, hər şeyin bir gün çox yaxşı olacağına inanacaq. Düşünəcək ki o başqalarından fərqli olacaq, yanılacaq. İlk məyusluqlarını yaşayacaq və bunlar onu gücləndirərək böyüdəcək.

İmitasiya edəcək hər yeniyetmə, təqlid edəcək. Bu təbii prosesdir. O heyran olacaq, oxşamaq istəyəcək, yamsılayacaq. Onun əl hərəkətinin formasını belə başqaları təyin edəcək bəzən, beləcə bir insan quracaq öz seçimlərindən ibarət, təqlidlərindən ibarət. Tanımadığı, üzünü belə görmədiyi məşhurlar üçün şiddətli müzakirələrə girəcək, müdafiə edəcək. Onlar üçün üzüləcək qədər axmaq olacaq.

Onun dünyası o qədər kiçik və yeni olacaq ki, bir kitab və film belə onun yolunu şəkilləndirə biləcək, ona istiqamət verə biləcək. Adətən insanın həyatını dəyişdirən kitablar, məhz yeniyetməlik vaxtı oxunmuş olur, təsadüf deyil.

Yeniyetmə, *cahildir*, biraz böyük yeniyetmə isə, *yarı-cahildir.*

O sanacaq ki hər şeyi bilir, artıq dünyada bilinəcək heçnə yoxdur, həyatı başa düşüb. Sanacaq ki çox şeyi bilir, zamanla isə bu düşüncəsi tərs mütənasib olaraq azalacaq, öyrəndikcə daha da az bildiyini görəcək.

Bəzən heç bir fikirdən əmin ola bilməyəcək, şübhələr içində qalcaq, bəzən isə fikrlərindən o qədər əmin olacaq ki, sanki heç yanılmayacaqmış kimi.

Başqalarını qınayacaq, çünki başa düşməyəcək. İnsan bilmədiyini qınayır. Böyüdükcə isə bunlardan utanmaqdan daha çox, dərs çıxaracaq, necə etməli olduğunu anlayacaq.

Onların çoxunun çox böyük eqosu olacaq, çünki özlərini tək sanacaqlar, çünki onlar çox insan tanımamış olacaqlar, tanıdıqca illər keçdikcə o özünü bəyənmişliyin yerini "əslində mən tək və xüsusi deyiləm" fikri alacaq.

Yeniyetmə nəinki hər il, hər ay, hər həftə, hətta iki gün ara-

sında belə bir məsələ haqqında fikrini tamamilə dəyişəcək və belə yox belə olmalıdır deyə qərar verəcək, sonra onu da dəyişdirəcək. Beləcə o püxtələşəcək və pişəcək. Və bu proses illər alacaq, o hər dəfə artıq yeniyetmə olmadığını, artıq böyüdüyünü sanacaq, artıq iyirmili yaşlardayam və böyümüşəm deyəcək, yanılacaq.

Özündən böyük gənclərlə dialoqları zamanı yeniyetmə olmadığını göstərmək üçün hər şeyi edəcək, ancaq bunu o qədər bariz, açıq formada biruzə verəcək ki, narahata edici görünəcək. Yeri oldu olmadı ən son ağlına gəlmiş fikri səsləndirəcək, son təsirində olduğu obrazı təqlid edəcək, cümlələrin arasına sırf bildiyini göstərmək üçün son öyrənmiş olduğu üfqünü açmış olan məlumatı qoyacaq, ancaq böyük, bunların hamısını görəcək. Bəzi böyüklər bu hərəkəti alçaldıcı formada ortaya çıxaracaq və onu ələ salacaq. Ancaq öz keçmişini xatırlayan gözəl xarakterli insanlar təbəssüm edib keçəcək, səbrli olacaq və bunun təbii bir proses olduğunu özlərinə xatırladacaqlar.

Bu yeniyetmə və bəzi böyüklər qarşılıqlı olaraq bir-birlərinə fikrlərinə görə nifrət edəcəklər, ancaq böyüyün unutmuş olduğu şey, onun da o mərhələdən keçmiş olmasıdır, günahkardır. Kömək etməyə bilərsən, ancaq kinli olmamalısan.

Daha çox oxuyan yeniyetmələr sözsüz ki digərlərindən nisbətən daha ağırbaşlı olacaqdırlar çünki onlar ədəbiyyatın gözü ilə başqa insanların da içini görəcək, öyrənəcək, aydınlanacaqlar. Baxmayaraq ki oxuduğunun çox az hissəsini başa düşəcək yeniyetmə. Ancaq, yeniyetməlik kimi gözəl və qısa bir yaş dövrünün hamısını kitab oxuyaraq da keçirməmək lazımdır. Yeniyetmə dəliqanlıdır, yeniyetmə yeniyetmə kimi davranmalı, riskə girməli, eşqə düşməli, sevişməli, çılğınlıqlar etməli, dəli-dolu olmalıdır.

Bütün yeniyetmələr düzgün inkişaf etməyəcək, onlardan bəziləri həmişə kinli qalacaq, bəziləri başqalarını həmişə qınayacaq, bəziləri başqalarının hisslərini düşünməyəcək, bəziləri səhv ideologiyaların qurbanları olacaq. Çünki onların yol göstərənləri olmayacaq. Özlərindən yaşca çox böyük olan

ailələri ya da qohumlarının fikrini qəbul etməyəcəklər. Ona görə də hər yeniyetmənin yeniyetməliyi atlamış aydın bir gənc böyüyə-dosta ehtiyacı var. Bu, onun üçün istənilən kitabdan daha gözəl bir rəhbər olar. Ancaq bu da çətin tapılan bir rəhbərdir sözssüz.

Ümumiyyətlə fikirləri tez-tez dəyişəcək yeniyetmənin və bu məncə yaxşıdı. Hər-tərəfli prespektivlərə sahib olmaq üçün. Paradiqmalara arası keçişlər yaşayırsan və bu gözəldir. Mənim düşüncələrim həmişə belə olmayıb məsələn, dəyişiblər davamlı. Hüceyrələrim belə ildə yeddi dəfə dəyişərkən keçmiş məndən mən deyə bəhs edə bilməzsən. Həm də sürüşkən olmalısan, ideologiyalar arası keçidlərə razı və hazır olmalısan, özünü konservativcəsinə bir ideologiyayla çərçivələməməlisən, bu yaradıcılığın qarşısını alır. Beynin və şüurun genişləndikcə icazə verməlisən çərçivələri qırsın və öz individualizminə yaxınlaşsın. Ümumiyyətlə, uşaqlar yeniyetməliyə yelkənli bir qayıq kimi girir, ancaq bəziləri yelkənləri sındırılmış halda çıxırlar cəmiyyət və ailə kimi avtoritetlər tərəfindən. Yelkənlərini qırmalarına izin vermə. Səni budamalarına izin vermə. Ancaq bəzi yelkənlərin də var ki onları həyat qıracaq. Fırtınanın içinə girmiş yelkənli qayığı düşün, ertəsi gün qanadları qırıq çıxacaq o fırtınadan. Ancaq əsas bilirsən nədir? Əsas odur ki o fırtınadan çıxmış olacaq və o qırıq yelkənlərinin yerinə, daha da güclülərini inşa edəcək əvvəlki tək bir fırtınanın bir daha qıra bilməyəcəyi qədər güclü olan. Bir növ Hegelin dialektikası kimi, əvvəlcə bir qərara gələcək insan, sonra onu inkar edəcək, sonra inkarı da inkar edəcək və tezis və antitezisləriylə yavaş-yavaş nəticəyə yaxınlaşacaq və həmişə daha da güclü olacaq - dedi və içkisindən bir qurtum da içdi Mavi.

- Çox gözəl müşahidə edirsən. Sən danışarkən fikirləşirdim ki, bəlkə də bunları deyərək məni yeniyetməlikdən çıxarmağa haqqın yoxdur. Buraxardın, zamanla özüm də bilmədən bu perioddan çıxardım. Əslində çox gözəl dedin hamısını. Amma bundan sonra dediklərinin içində özümdə gördüyüm simptom-

ları özümdən asılı olmadan çıxarmağa çalışacam. Sən kənar təsir oldun. Yoxsa bəlkə beləsimi yaxşıdı?

- Dediyim kimi, orasını mən də bilmirəm. Bəlkə sponton olaraq fikrin öz-özünə formalaşması daha yaxşıdır. Bilmirəm, əmin deyiləm. Kitab oxumaq da eyni şeydir nəticədə. Əgər yaşamaq istəyirsənsə, necə yaşamalı olduğunu öyrənməlisən, ona görə də kitablara sarılacaqsan. Ya da kitabların müəlliflərinin illərlə yığdıqları təcrübələrə deyək.

- Mən çox kitab oxumuram.

- Təəccüblənmədim.

- Niyə? Qadınam deyə? – kinayəli formada soruşdu Hera.

- Yox. Dedim axı, gözəlsən deyə. Səmimi olmağımı istəyirsən yoxsa sənə şirin yalan satmağımı?

- Səmimi ola bilərsən, - deyə cavabladı Hera

- Yaxşı. Sən, ağıllı görünmək üçün artıqlamasıyla gözəlsən. Kifayət qədər ağıllı belə olsan insanlar səndə birinci gözəlliyini görəcək və böyük ehtimal axmaq olduğunu düşünəcəklər. Həm də qısqanclıqdan elə düşünəcəklər. Çox kitab yazmaq və oxumağın əsas səbəbləri yalnızlıq, depresiya kimi şeylərdir. Ümumiyyətlə kitab oxumağa ehtiyacın olmaya da bilər. Sən həm də zəngin birinə oxşayırsan, elədirmi bilmirəm. Ancaq əgər elədirsə sahib olduğun şanslı bir doğum determinizmin var. Determinizmə, taleyə, inanmıram əlbətdəki. Ancaq insanların həyatlarının necə olacağına, istiqamətinə qərar verən bir doğum determinizmi olduğuna inanıram. Hansı ölkədə, hansı şəhərdə, necə bir ailədə doğulublar. Hamısı sənin gələcək həyatına, seçimlərinə təsir edir. *Xoş-bəxt* deyə bir söz var sənin kimiləri tərif etmək üçün. Sözün quruluşuna fikir ver, xoş-bəxt, yaxşı-bəxt-şans. Yəni bəxti gətirmiş. Bir də var bəd-bəxt. Şans yoxdur, gözəl təsadüflərin birləşmə nöqtələri var. Sən o nöqtələrin birində doğulmusan və davam edirsən. Gözəl və zənginsən. Bəlkə də xoşbəxt olunmur, xoşbəxt doğulur insan. Ya da xoşbəxt olmaq üçün sən heçnə edə bilməzsən, bəxtin gətirsə, xoş təsadüflərin kəsişmə nöqtəsində olarsan və xoşbəxt olarsan. Ümumiyyətlə sənlə mənim bir-birimizi və ağrılarımı-

zı başa düşməyimiz çətin məsələdir. *Halo effekti* deyə birşey eşitmisən heç? Məsələn halo effektinə görə cazibəli ya gözəl qadınların ya kişilərin dediklərinə daha tez inanır insanlar, yalan belə olsa. Gözəl və yaraşıqlı olanların daha yaxşı, mehriban, dürüst olduqlarına sarı yalnış bir *təsdiqə meyil*, səhv bir ön-mühakimə var. Gözəl olanlar işə daha tez götürülür, işdə daha tez yüksəlir, məhkəmədə gözəl olan yalançı şahidin dediyinə daha tez aldanır hakimlər. Tədqiqatlar deyir. Yəni bir çox qapı sırf gözəlliyin üçün sənin üzünə indidən açıqdır. Universitetdəykən bizim bir labaratoriya professorumuz var idi, utanmadan və gizlətmədən ən gözəl qızları işə, doktoranturaya götürürdü labaratoriyada. Hardasa on-onbeş assistenti var idi və bizim labaratoriyalarımıza onlar girirdilər. Heç bir dərsə getməsəm də onun dərslərinə gedirdim sırf o qızlarla birlikdə olmaq üçün. Adam gizlətmirdi də heç kimdən və məktəbdə hamı bilirdi ki o gözəl qadın hərisidir və sadəcə gözəlləri işə götürür. Onlar heç sənin qədər gözəl də deyildilər hələ.

Ümumiyyətlə, gözəllikdən əlavə sən bir qadınsan. Qadınların həmişə diqqət üstlərində olub. Təməl olaraq təkamüli nöqteyi nəzərdən yanaşsaq, biz insanlar bu həyata sadəcə cütləşmək üçün gəlmişik, vəssalam. Mümkün olduqca çox cütləşib uşaq doğub geni gələcəyə ötürmək. İndiki cəmiyyəti unut və bir dəqiqəlik keçmiş meşə insanını düşün. Necəydi? Kişilər dişilərin arxasınca qaçırdı, kişi mümkün olduqca daha çox fərqli qadınla cütləşib öz spermlərini buraxmalı, qadın isə hamiləliyi 9 ay çəkdiyi üçün ən uyğun partnyoru gözləməliydi. Seçici olmalıydı. Ən sağlam, güclü, yaraşıqlı və həm də zəngin ya da status sahibi olmalıydı kişi ki onun uşaqlarını daha yaxşı böyütsün deyə. Vaginanın bazar dəyəri penisdən həmişə daha üstün olub, ona görə də qadınlar gözləyir və seçirdi, onsuz da diqqət onların üstündəydi deyə nəsə etməklərinə ehtiyac yox idi. Kişilər neynirdi? Zaman irəlilədikcə və sivilizasiyalar inkişaf etdikcə sadəcə fiziki olaraq güclü olmaq bəs etmirdi, zəngin olmaq, status sahibi olmaq ya da "nəsə" bir şey olmalıydı kişi, ki qadın onu seçsin. Bunun yan təsirləri

nə oldu? Kişilər daha çox yazdı, yaratdı, elm adamları oldular. Hər şey seks üstündə quruldu yəni.

Sevdiyim bir psixoloq deyirdi ki, Peterson, gələcəyin filosofu, “qadının kişini rədd etməsi təkamülün ən güclü mexanizmidir əslində”. Kişinin təklifi rədd edilir və özünü inkişaf etdirir. “Sən söhbət etmək üçün yaxşısan, ancaq genlərin gələcək nəsilə ötürülməyi haqq etmir” deyir qadın rədd edərkən bir növ. Təkamülün təbii seçmə rolunu qadınlar oynayır. Onlar seçirlər kişiləri. Onda deyə bilərsən ki qadın təbiətdir ya da təbiət qadındır. Ona görə təbiət ana deyirik. Qadın rədd etdikcə kişilər inkişaf edib. Buna görə də kişi beyni daha kompleksdir, qadınlar isə fərqli sahələrdə daha çox inkişaf ediblər, emosional mənalarda. Qadınlar həmişə təsdiqləndiyi üçün də öz səhvlərini düzəltməyə çox da möhlətləri olmur, əsas da gözəl qadınlar. Ona görə də çoxu dayaz olur, oxumur belə. Təsdiqlənməyəndə də tərsləşir və naz edirlər. Oxumağa ehtiyacı olmayıb qadının çünki vaginası olub və özünü başqa cür göstərməyə ehtiyacı olmayıb. Kişi isə oxumağa möhtac olub çünki əlində nəsə olmalıdır ki qadını əldə etsin. Sonra min illər bu məcburiyyətləri vərdişə çevirib.

Bu arada, elmi olaraq sübut olunub ki qadın döşünü sıxmaq kişilərin stresini 74,3 faiz azaldır. Burdan hansı nəticəyə gəlirsən? Deməli sıxa bilməmək də stresi 64.7 faiz artırır. Rəqəmlər şərtidir.

Zarafat bir qırağa, demək istədiyim, insan zəkasının inkişaf səbəbi partnyoru cəlb etmək olub. Bütün o çəkilmiş, yazılmış, bəstələnmiş tarixi əsərlər bəlkə də status sahibi olmaq, vəzifə sahibi olmaq, “kimsə” olmaq üçündür. Ya da beyin o qədər inkişaf edib ki təməl məqsəddən uzaqlaşıb və özünü məşğul tutmağa çalışır, yoxsa intihar edəcək. Təkamül o qədər qarışıq prosedir ki, mutasiyalar var. Məsələn insanlardan uzağa, dağa çəkilmiş bir riyaziyyat alimi ola bilər, a-seksualdır, qadınlar vecinə deyil, orda da ölüb gedir. Deyə bilərsən onun ki vecinə deyil seks ya qadınlar ya status sahibi olmaq. Düzdür. Mən bunu mutasiya sayıram. Belə deyək,

genlərin öyrənilmiş bir alışqanlığıdır ya da özlərini həyatda saxlamaq üçün yaratmış olduqları məşğuliyyətlər. Mən sənə *təməl* səbəbi deyirdim. İndi hər şey daha çox mürəkkəbdir. İndiki dünyada da bu səbəb keçərlidir ancaq bu o demək deyil ki görülən bütün işlər qadınlar ya seks üçündür, yox, amma o işlər bəlkə də öyrənilmiş çarəsizlikdir. Status sahibi olmaq, hörmət sahibi olmaq sadəcə qadınlar üçün deyil artıq. Ümumiyyətlə hamı bunun üçün ya vuruşur ya da vuruşmadığı üçün əziyyət çəkir. Bəziləri şərq fəlsəfəsiylə öz acgözlüklərini basdıra bilir, bəziləri bilmir.

Burda əlaqəli başqa bir şeyi də deyim ki bu məlum səbəblərə görə də kişi və qadın beyni fərqli formada inkişaf ediblər. Bütün gün bar-bar bağıraraq kişi və qadın beyninin, zəkasının eyni olduğunu iddia edən medianın dediyinin əksinə, qadın və kişi hüquqi olaraq bərabər olsa da, beyinləri fərqli formadadır. Bu sadə bir induktiv düşüncə məhsuluyla gəlinə bilinəcək bir qərardı əslində, özün düşün, həyatda qalmaq üçün belə fərqli yollardan istifadə edən iki canlının beyni, zəkası, düşüncə forması necə eyni ola bilər? Biri digərindən güclüdür demirəm, fərqlidirlər deyirəm.

Nəsə, sözü sənin kitab oxumuram deməyinə gətirirəm, bəlkə də heç oxumaq məcburiyyətində də deyilsən. Kitab terapiya kimi, vaxt keçirmək kimi, başqa dünyaya girmək kimi oxunula bilinər. Sən başqa məşğuliyyətlərdən zövq alırsansa, məcbur deyilsən oxumağa, ümumiyyətlə heç vaxt kiminsə səni kitab oxumadığın üçün alçaltmasına icazə vermə. Onların bəzilərinin əslində əsas dərdi kitab oxuduqları üçün özlərini yüksəltməkdir, sənin kitab oxuyub oxumamağın yox. Xoşbəxt və dinc yaşamaq üçün burdayıq və bunun birdən çox yolu var. İki üstə üç də beş edir, dörd üstə bir də. Mühakimə etməyə dəyməz kimisə. Hərə bir cür qurur öz həyat fəlsəfəsini. Oxumaq yenə də, zövqlü məşğuliyyətdir, oxuya bilən üçün. Oxumağı hamı bacarmır.

Mən, məsələn, hal-hazırda sənə təsir edə bilmək üçün, gözəl danışa bilmək üçün, diqqətini çəkə bilmək üçün nələrsə

oxumuşam bəlkə də, ya da ilk başda atalarımızın bu məqsədlə etdiyi sonradan isə vərdişə çevrilmiş hərəkətlər bütünün nəticəsi olaraq oxumuşam. Bəlkə də sadəcə yalnız qalıb oxumuşam, bəlkə də canım sıxılıb deyə nələrsə öyrənmişəm, bəlkə də suallara cavab axtarırdım, bəlkə də kimsə  ya da nəsə olmaq istəmişəm. Ancaq, gördüyün kimi, bunlar heç bir işə yaramayıb və mən ölməyə gedirəm.

-O qədər şey dedin ki, bilmirəm nəyə cavab verim. Ancaq bir şeyi mütləq deməliyəm. Mən başa düşmürəm, sən sabah intihar edəcək bir insan üçün artıqlamasıyla soyuqqanlı görünürsən.

- Ani bir qərar deyil bu. Uzun müddətli götür-qoyun nəticəsidi. Və göründüyünün əksinə, içimdə tufanlar var əslində. Alkoqol sağolsun. Və yaxşı ki sən burdasan, sənə hər baxanda və söhbət edəndə, başım qarışır hətta bəzən sabah öləcəyimi də unuduram. Və bu barədə danışmaq istəmirəm ümumiyyətlə sənlə. Çalışıram ki unudum. Ona görə də minməmişdən də içmişdim, indi də.

- Bəlkə gözləyib bir az da düşünəsən bu barədə? Koloradoda bir evimiz var və mən tək olacam. Ailəm orda yaşamır. Gəlib orda bir müddət qala bilərsən bəlkə mənimlə? Sonra Kaliforniyaya keçəcəm. Ora da gedərik bəlkə?

- Yox, yox. Bunu eləmə. Sənə dedim axı qərarıma qarışma. Çox gözəl təkliflərdir, amma fikrimi yayındırırsan hal-hazırda. Yenə də təşəkkür edirəm. Gəlib qalacam ya intihar etməyəcəm nə olacaq? Bir müddət sonra yenidən iş tapmalı olacam, yenidən kira, yenidən maşın, telefon, lənətə gələsi iş görüşmələri və müdirlər. Hər şey yenidən, təkrar və təkar, lənətə gələsi əbədi təkrar olunma. Mən əslində kasıb doğulub kasıb böyümüşəm. Yəni kasıb yaşamağa alışmışam əslində, ancaq artıq bezmişəm sadəcə. Həm onsuz da mən iki ildir yubadıram intiharımı. Əslində hal-hazırda ölü bir adamla danışırsan, ruhum onsuz da iki il əvvəl ölüb, indi gedirəm bədənimi basdırım. İntihar dərdim sadəcə işləmək də deyil. Bir çox fərqli şəhərdə, ölkədə yaşamışam, o qədər acgözəm ki harda yaşasam da,

başqa bir yerdə bir şeyləri qaçırtma kimi bir dərdim var. Hamı belədi amma bəzilərində ifrat dərəcədədir. Məncə məndə nəsə xarabdı, çürümüşəm ya pozulmuşam. Beynimdəki həyatda qala bilmək üçün pis fikirləri basdırma funksiyası pozulub ya nəsə. Bunu düzəltmək üçün antidepressantları da yoxlamışam, şərq fəlsəfəsini də, pozitiv düşüncəni də, optimizmi də, ancaq olmur, işləmir. Murdar acgözün biriyəm sadəcə.

Boş ver. Mən ümumiyyətlə pessimist adamam. Özümü həmişə hər şeyin ən pisinə hazırlamışam, gözləntilərimi həmişə aşağı səviyyədə saxlamışam ki sonra pis olmayım. Optimizm mənə görə deyil. Yoxlamışamsa da beynimi aldada bilməmişəm. Bilirsən, elm deyir insanların səksən faizi optimist meyilli olurlar, çünki təkamül üçün bu daha faydalıdı. Geri qalan iyirmi faizin içində olmağımın özü də pis bir determinizmdi bəlkə də. Ancaq yenə də, həm pessimistlər həm optimistlər həyatda qalacaq formada formalaşıblar. Mən yenə də özümü ən pisinə hazırlamağı daha çox sevirəm. Defansiv pessimizm deyirlər buna. Xəyal qurmaq və ümidli olmaq hər nə qədər insana motivasiya versə də, sonra yerdən yerə də vurur. Məsələn bilirsənmi ki bütün yeni qurumlar biznes ideyalarının 97 faizi iflas edir? Ancaq optimist bir biznes təşəbbüsçüsünə bunu desən yenə də özünü həmin o üç faizin içində görəcək. İndiki fərdi inkişaf kursları, kitabları hamısı sənə *əgər çalışsan edərsən* deyirlər və optimistsənsə inanırsan. Amma başa düşmək istəmirsən ki, bütün çalışanlar müvəffəqiyyətli ola bilmir. Təsadüflərə də ehtiyacın var, şansa da, xoş-bəxtə ehtiyacın var. Kapitalist sloqanlar, "Sən edərsən!"-çilər və başqaları.

Onlar sənə deyəcəklər ki bir dəfə yaşayırsan və əgər düzgün yaşasan bəsdir. Elə deyil. Bir dəfə bəs deyil. Və bir dənə *düzgün forma* yoxdur. Yalan satırlar. Sən necə yaşayırsan yaşa yenə də içində təlaş olacaq həmişə. Özünü pisinə hazırlamalısan, yaxşısına yox. Seçdiyin həyat formasının səni maksimum səviyyədə xoşbəxt etməyəcəyini qəbul edərək yaşamalısan. Bütün bu moda minmiş optimist düşüncə tərzi və *sən edərsənçilər* hamısı bir şar kimidir, ümidlərlə şişir, şişir sonra birdən partlayır və o

insanları məhv edən bir məyusluq buraxır geriyə. Amma işin ironik tərəfi bilirsən nədi? Sonra nə olur? O şarlardan bəziləri normal olaraq partlamır, beş faizi deyək, təsadüflərin köməyilə sağ qalır və uğurlu olurlar. Sonra şarları partlamışlara sağ qalan şarların hekayələrindən bəhs edərək yeni şarları-insanları şişirtməyə başlayırlar. Sonra hər şey təkrar olunur. Ümumiyyətlə optimizm, kapitalizm, "çalışsan hər şeyi edərsən" ideyası möhtəşəm səslənir əlbətdə ki, ancaq reallıq elə deyil təəssüf ki. O istəsən edərsən-çilər harda yaşayırlar? Mən də o dünyaya getmək istəyirəm, utopiya kimi səslənir.

Bilirəm, olduqca ümidsiz biriyəm. Adətən belə pessimist danışmamağa çalışıram. Bunlar bilinən həqiqətlərdi və mənim yaşımda insanlar üçün maraqsız mövzulardı, çünki artıq bilirik. Sən hələ gəncsən, yeni-yeni aşina olursan bu mövzulara. Ona görə də sənə danışmaqda bir problem görmürəm. Canını sıxmıram ki? Yox? Yaxşı.

Başqa bir şey gəldi ağlıma onu deyəcəkdim. Səninlə belə söhbət etməyin başqa bir də bilirsən ən gözəl tərəfi nədir? Çünki gənc olduğun üçün sənə təsir etmək, təəccübləndirmək, heyrətləndirmək,  diqqətini çəkmək daha asandır. Çünki dediyim kimi, *bilmirsən*. Bunu səmimi bir fikir olaraq qəbul edirsən ümid edirəm. Bu nə də ki pis bir şey deyil, möhtəşəmdi mənə görə. O mənə dediyin bakirə gənc qız kimi, sənin beynin və fikirlərin də bakirədir. Bir çox primitiv məlumatı belə bilmirsən hələ. Səndən böyüklər o şeylərlə səni çox asan ələ ala bilir, xoşuna gəlmək üçün istifadə edir. Sənə dediyim hər primitiv şeylə gözlərinin bərəlməsi məni qürurlandırır. Üç-beş kitab oxuduqdan və bir xeyli film izlədikdən sonra özünün də biləcəyin fikirlərdir onsuz da. Ancaq gözəl tərəfi də odur ki bilmirsən. Məsələn mənim kimi orta səviyyəli üç-beş kitab oxumuş biri sənin yaşlarındakı qızları çox tez ələ ala bilir danışaraq. Ancaq mənim öz yaşımdakı qızlar sənin qədər hər şeyə təəccüblənmirlər. Sənin kimi gənc qızları oğlanların sevməsinin bir səbəbi də budur, cahillik və təcrübəsizliyiniz.

Ona görə də, əvvəllər sevmək, sevişmək daha gözəl idi,

yemiyetməlik və iyirmili yaşların başları. Sonralar, iyirmilərin sonlarından başlayaraq qadınların çoxu səndən artıq sadəcə *səni* yox, həm də kimliyini tələb edirlər, 'nəsə' olmalısan, 'kimsə', sənət sahibi, status, vəzifə, hörmət ya hər 'nəsə', güc ya pul. O ehtiyacı sezə bilirsən bir çox qadında, tələblərini sezirsən. On səkkiz ya iyirmili yaşların başında heç bir qız səndən pul ya status tələb etmirdi, sadəcə saf zövq və həyəcan, yataqda yaxşı olmaq, söhbətcil, zarafatcıl biraz da bilgi tələb edirdi. Elə daha gözəl idi hər şey. Ona görə də sənin yaşındakıları həmişə daha çox sevəcəm. Yaşca böyük olanların çoxu isə hiss edirsən ki sənin uduzmuş olduğunu ya da ən azından müvəffəqiyyət arxasınca qaçan biri olmadığını görüb səni elə yola verir ki, heç bilmirsən nə baş verdi. Bəziləri daha açıqsözlüdür və birbaşa üzünə deyir, sən "kişi" deyilsən, ya da onların xəyalındakı kişi obrazı deyilsən. Böyüyüblər və indi əvvəlki həyəcanların yerini əllə tutulan şeylər alıb, söz yox, əvvəlki həyəcanlarını da əllə tuturdularsa da, indiki ətdən yox, kağızdandır.

Qınanılası deyil, onlar sadəcə vaxtları gələndə təkamülün onlar üçün hazırladığı rola bürünürlər və daha güclü olan kişiləri axtarırlar. Heç kimin razılaşmaqdan başqa çarəsi yoxdur. Əvvəllər ilk tanışlıqda başqa şeylərdən danışılırdısa, böyüdükcə məsələn, barda tanışdığın təsadüfi bir qız söhbəti hərləyib fırlayıb nə işlə məşğul olduğunu öyrənmək üçün çırpınır, bilmir necə öyrənsin. Bəziləri birbaşa soruşur. Sonra, məsələn, ciddi bir işlə məşğul deyilsən deyək ki, bunu öyrənəndə bəziləri hələ məsləhət də verməyə başlayırlar. Sanki həyatını necə yaşaman gərəkdiyinə özün qərar verə bilmirsən kimi. Sənə ağıl verirlər, təsəlli verirlər, sənə uduzmuş adını verirlər. Halbuki bəlkə bunu özün seçmisən? Uduzmuş olmağı ya hansısa ciddi bir işlə məşğul olmamağı? Ümumiyyətlə heç bir insan cəmiyyətə fayda vermək məcburiyyətində deyil. Özünə fayda verib verməyəcəyi də öz işidir. Dediyim kimi, kapitalist rejim insanları dayanmadan müvəffəqiyyətə səsləyir, dayanmaq olmaz. İnsanlar boş oturduqları anlara görə peşmançılıq hiss edirlər. Hamı hər an "nəsə" etmək zorundaymış kimi hiss

edir, özünü günahkar hiss edir, bədbəxtçilikdir bu. Yaşamaq bu qədər çətin deyildi bilirsən? Vaxt öldürməyin günah olduğu bir dövrdə yaşayırıq. Elə belə də deyirdi ölü şair Bukowski, *"Bizi öyrəşdirdi qəhbə balaları, heç bir şey etmədən fırlandığın anlarda özümü günahkar hiss edirəm"*

Elə deyil? Qatılırsan mənə hə? Ay sağol. Mənim içkim bitdi biraz səninkindən içə bilərəm? Təşəkkür edirəm. Nə deyirdim, məsələn, tənbəllik ən gözəl insan haqlarındandır. Heçnə etmədən dayana bilmək möhtəşəmdir. Ancaq indiki dövrdə heçnə etmədən dayanıb sıxıla bilməyən adam az taparsan. Çünki şairin dediy kimi, bizi öyrəşdirib qəhbə balaları. Sən bir təsəvvür elə, heçnə etmədən oturursan və sıxılmırsan, gözəl sənətdi. Ancaq, biz yavaş-yavaş tənqid etdiyimiz cəmiyyətin bir parçasına çevrilirik istəməsək də. Bir də görürsən sən də onlardan birisən, mediyanın və cəmiyyətin yaratdığı süni hədəflər arxasınca qaçırsan. İnan mənə, xoşbəxt olmaq sanıldığı qədər çətin deyil əslində. Azla kifayətlənməyi qadağan edir indiki dövr. Yatmağı vaxt itkisi sayan insanlar var, təsəvvür elə. Belə təlaş içində yaşamaq olar? Nə bilim. "Böyük işlər görməlisən! Böyük işlər!" – deyir hamı, hər yer. İnsanlar həyatlarının üstündə əsirlər. Bu qədər iş görürlər, birdən sabah öləcəklərini düşünəndə isə mat olurlar. Hər şeyi çox ciddiyə alırlar. Hamımız acgöz olmuşuq, hamımız. Nietzsche bizə götüylə gülərdi. Dərdlərimizə. Bütün bunları sənə belə danışmağıma baxma, ən böyük acgöz elə özüməm. Daha doğrusu əvvəllər o qədər acgöz idim ki yatmağı vaxt itkisi sayırdım, indi isə o qədər bədbəxtəm ki beş il yatmaq istəyirəm. Acgöz və qısqanc olduğum üçün də indi ölümə aparır məni xislətim. Yozlaşmışam. Yozlaşmışıq. Deqradasiyaya uğramışıq. Hər şeyi istəyirik. Ani məmnunluqlar və qurbanları. Nihilist və hedonistləşmişik. İçinə düşdüyüm situasiya məni praqmatiktləşdirib. Oportunistləşdirib. Daha çox fürsətçi və faydaçı olmuşam. Bizdən əvvəlki nəsillər və indiki yaşlılar, nisbətən daha sakitdirlər, daha əvvəllər sakit yaşayırdı insanlar. Kaş ki internetin çıxışından əvvəlki vaxtlarda yaşasaydım məsələn, 80-ci illər və daha əv-

vəli. Hippilər və başqaları. Lənətə gələsi internetin çıxışından sonra hər şeyi virtual ekranlarda görürsən və can atırsan, ac göz olursan. Gediləcək nə qədər yer olduğunu görüb getmək istəyirsən, qadınları görürsən və istəyirsən. Keçmiş dostların heç vaxt keçmiş olmurlar çünki hər an kommunikasiya halında olursan. Bu yaxşıdırmı yoxsa pismi? Bəzən əmin ola bilmirəm.

Bir şeyləri qaçırtma qorxusu əsrimizin ən böyük xəstəliyinə çevrilir, necə ki nostalgiyaya çevrilir, necə ki olmadığın yer üçün darıxmağa çevrilir. Evdə oturarkən belə narahat ola bilirsən ki haralardasa nələrisə qaçırıram, evdən çölə çıxmalıyam. Ya şəhərdən çölə ya ölkədən çölə çıxmalıyam. Dayanmamalıyam deyə. Ancaq nəyi seçirsən seç, onsuz da geri qalan milyonlarla ehtimalı və seçimi qaçıracaqsan. Mənim kimi bəzilərinin beynində nöqsan var və bu bariz həqiqəti göz ardı edib yaşamağa davam edə bilmirik. Əvvəllər fikirləşirdim ki Tibet dağlarına ya Argentina çöllərinə gedib sakit yaşayaram, ancaq indiki acgöz və yalnız kimliyimlə bu mümkün deyil. Sivilizasiyadan uzaq qalma düşüncəsi məni dəli edir, çürümüşəm, xarabam mən. Torfa çevrilmişəm.

Bəzən özümə nifrət edirəm, iyrənirəm özümdən. Nifrət etdiyin bədənin içində yaşamaq istəyərsən? Yox. Ona görə də bəlkə də xislətim məni ölümə aparır. Amma sonra nə olur? Sonra əlbətdəki genlərim və eqom qalib gəlir və özümdən xoşhallanmaq üçün bir şeylər uydururlar, yadımdan çıxarırlar özümdən iyrəndiyimi və əslində yaxşı tərəfləri yadıma salırlar. Halbuki siktirmişik. Çətindi belə yaşamaq, mən başa düşə bilmirəm bu qədər insan necə yaşayır və həyatda qalmağa davam edir. Dəli olmurlar. Yəqin ki təkamül öz işini görür.

Vəziyyət elədir ki, sistemin çölündə qala bilmirsən, çölündə qalırsansa mənimkimilər kimi əzilib gedirsən. Sistemin içində qalmağa məcbursan, adi bir iş tapmaq üçün belə internet istifadə etməlisən, telefonun olmalıdı. Köhnə fikirli biri kimi başa düşmə məni, internet möhtəşəm icaddır, ancaq mən sadəcə onun mənfi tərəflərindən bəhs edirəm. İnsan həyatına necə təsir etdiyindən.

Mən həmişə inanmışam ki təkamül bir formada dünyanın gedişatını həmişə yaxşıya doğru çevirir və insanların həyatda qala bilməsi üçün necədirsə elədə olur, ideal şərait yaranır. Mənim kimilər həyatda qala bilmir, sadəcə bu problemi olmayanlar yaşayırlar. Amma belə problemsiz insan varmı, necə yaşayırlar artıq mən də başa düşə bilmirəm. Yəni paranoyalı olub dünyanın sonu gəlir kimi bir cümlə qurmaq çox məntiqsiz səslənərdi, çünki təkamül, təbiət, necə olursa olsun bir formada ordan sıyrılıb çıxardır özünü, sağ saxlayır öz güclülərini. Amma indiki gedişat elədir ki, bütün insanlar depressiv olmalıykən, hələ də yaşayırıq, yəqin ki dərmanlar filan, bir şəkildə öyrəşəcək insanlar.

Kaş ki beynimi, xatirələri, hər şeyi, bildiyim hər şeyi sıfırlamaq olsaydı və bir şəhər qurulsaydı sadəcə nəbilim, 80'lər, 70`lər insanlarının yaşayabiləcəyi bir şəhər və gedib orda yaşasaydıq, sakit olardı. Köçüb başqa bir yerə, uzaqlara gedib yaşaya bilsəydim kaş ki amma indiki beynim və yaddaşımla heç cür mümkün deyil. Yəni mənim, əzizim, ölməkdən başqa çarəm yoxdu.

* * *

Həm də ona görə ölməliyəm ki, həddindən artıq qısqancam.

- Nəyi qısqanırsan? Hansı həyatı? – deyə mavi gözlü Hera onun sözünü kəsdi.

- *Öz yaşama ehtimalım olan həyatları.*

13

# DİALEKTİK MONOLOQ

*Əzab çəkirsən çünki arzulayırsan.*
*-Budda, e.ə. 563*
*- Seçimlər -*

Sən sənin seçimlərinin bütünüsən, Hera. Həyatda seçiləsi tək bir mütləq yol yoxdur. Bu da insanlararası fərqlilikləri ortaya qoyur. Üstəgəl, sənin genetik və bioloji fərqliliyin. Böyük nature - nurture müzakirəsi var bu barədə. Yəni insanın təbiəti, genetikası versus yetişdiyi ətraf mühit, tərbiyə, təhsil, qidalanması və onun seçimləri. Genetikamızı seçə bilmərik, uşaq ikən yetişdiyimiz mühiti də seçə bilmərik, eləcə uşaqlıq tərbiyə və təhsilimizi də. Uşaqlıq qidalanmamızı da seçə bilmərik, halbuki bunlar sənin necə formalaşacağın barədə çox vacib amillərdir. Bura qədəri bizə valideyinlərdən gələn təsadüfi genetik kodlar və doğum sonrası ailənin verdiyi tərbiyə, təhsil, qidalanma və digər seçimlərdir. Bundan sonrası isə bir insanı insan edən ikinci hissə: sənin seçimlərindir. Geri qalan hər şey, ya da ən azından bir çox şey sənin öz əlindədir və bu çox ağır dərdir. Necə formalaşacağın, şəxsiyyətini nəyə quracağın tamamilə sənin əlindədir.

Həyatdakı bütün seçimləri eyni anda ya da eyni ömürdə

seçə bilmədiyi üçün insanı bədbəxtliyə məhkum bir varlıq olaraq sayıram öz lüğətimdə. Saf xoşbəxtlik, buna görə də, mümkün olmayan uzaq bir xəyaldır. İnsan sadəcə o xoşbəxtliyin axtarışında ola bilər. Bir həyata sığdırabiləcəyi seçimlər qədər xoşbəxt ola bilər hər insan sadəcə. İnsanın kədər və qəmə məhkum olma səbəbi də budur. Xoşbəxtsizliyə məhkumdur insan. Həyatı birdən çox formada yaşamaq olar, ancaq hər dəfə fərqində olaraq və ya olmayaraq sadəcə bir və ya bir neçə seçim edə bilir insan toplamda. Məmnunsuzluq da burdan başlayır, zira seçilməmiş yolda qalır gözü həmişə insanın. İndi texnologiyanın inkişafı insanın sonsuz istəklərini qarşılamaq üçün bir yol açdığı kimi, həm də əslində insanı xoşbəxtsizləşdirir, çünki seçimlərin sayı artır. Globalizmin sürətlənməsi və dünyanın kiçilməsi insana eyni anda olmasa da, bir ömrə birdən çox şeyi sığdırmağa şərait yaradır. Məsələn keçmişə nəzərən insanlar daha sürətli hərəkət edir sürətlənmiş nəqliyyat nəticəsində və bir ömürə daha çox şey sığıdırır. Ancaq texnoloji inkişaf eyni zamanda insanın doyumsuzluğuna yenilərini əlavə edir, insanlara nə qədər fərqli həyat tərzinin – seçiminin - olduğunu da göstərdiyi üçün fərqində olmadan depresiyaya yol açır. Texnologiya seçimlərimizi artıraraq bizi acgözləşdirirmi? Bütün seçimləri seçə bilməyəcəyimiz üçün insanı bədbəxtləşdirirmi? Buradan hərəkətlə, ortalama bir keçmiş insanı günümüz insanına nisbətlə daha dinc hesab oluna bilərmi?

Orta əsr və ondan geriyə getdikcə bir insanın yaşaya biləcəyi fərqli həyatların sayısı, günümüz insanından olduqca azdır kimi görünür. Başqa sözlə, edəcəyi seçimlərin sayı daha azdır. Ya kəndlisən ya savaşçı. Əsas məqsədin həyatda qala bilməkdir. Nəinki eyni anda birdən çox yerdə olmağı istəmək, birdən çox yerin olduğundan belə xəbərin yoxdur.

Bizim əsrdəysə dünyanın hər hansısa bir nöqtəsində yaşayan istənilən bir insan, eyni zamanda başqa torpaqlarda da yaşamaq istəyərdi. Ən gözəl diyar yoxdur, ən gözəl qadın yoxdur, ən gözəl sənət yoxdur. Hərəsi ayrı gözəldir və sənin seçimlərin limitlidir. Çox gözəl bir həyat yaşasan belə fikrin

başqa həyat formalarında qalacaq. Qonşunun həyətindəki otlar həmişə daha yaşıldır sözü bu söhbətin təsdiqidir. "Harada deyilsəm orada xoşbəxt olacağam kimi hiss edirəm həmişə" deyirdi Baudelaire.

Əksini iddia edənlər də yox deyil əlbətdə ki, Leibinz "Hər şey ola biləcək ən yaxşı formada irəliləyir" deyirdi. Determinist bir baxışdır. Dünya bir çox formada irəliləyə bilərdi, ancaq indiki formada irəliləyir. Bu təsadüflərin əsəridir yoxsa olması gərəkən bu idi? Kaş ki doğru olsaydı. Kaş ki hadisələrin gedişatı bizim yox taleyin əlində olsaydı. Kaş ki Laplas və Leibinz haqlı olsaydı. Baxmayaraq ki Leibinz "əgər tanrı varsa" şərtiylə demişdi bu ifadəni, mən sadəcə fərqli formada interpretasiya edirəm. Bəlkə də yanılıram, bəlkə də Laplas haqlıydı və bizlər istiqamətləri onsuz da müəyyən olan atomlar bütünündən başqa bir şey deyilik, azad iradə yoxdur. Bəlkə də müəyyənsizlik prinsipi ilə Laplace'ın səhv olduğunu sübut etmiş Heisenberg böyük bir səhv edirdi. Bunun belə olmadığını fərz edərək davam edirik əlbətdə ki, çünki elədirsə əgər oturub Laplas şeytanını axtarmaqdan başqa bir çarəmiz qalmır, seçimlərimizin bir mənası qalmır. Hansı ki möhtəşəm səslənir. Rahatladır.

Hər şeyin irəliləyə biləcəyi birdən çox yaxşı yol, seçim var. Şahmat kimi düşünək məsələn, atını sürəcəyin birdən çox yol var və hər biri ayrı bir strategiyanı başladacaq, birdən çox seçim. Birdən çox "mən". Sonsuz kombinasiyalar. Rəqibimin (həyatın) mən atımı oynadıqdan sonra nə oynayacağını təxmin etmə ehtimalım zəifdir. Nəticə etibarı ilə oynumuzda mütləq bir doğru gediş olmamış olur. Qələbəyə, xoşbəxtliyə, dincliyə gedən yol birdən artıqdır. Rəqib həmişə eyni oyunu oynamır, oynasaydı şahmatda – həyatda - mütləq bir gediş qaydası olardı, vəssalam. Ancaq elə deyil. Hər dəfə ayrı kombinasiyalar yaranır. Bunu həyata şamil etsək əgər, həyatın hamıya başqa oyunlar oynadığını və bu oyunlar qarşısında hərənin ayrı seçimləri yarandığını görərik. Bu seçimlər qarşısında seçəcəyimiz birdən çox yaxşı yol var. Birini seçərkən digərlərindən

imtina etməliyik. A'nı seçən insan B'dən imtina edir. Məsələn şahmatda çox vaxt möhtəşəm iki (və artıq) gedişin arasında qalır oyunçu, çox gözəl iki ayrı kombinasiya, hər ikisi fərqli yollar ilə qələbəyə ya həzzə çox yaxın addımlardır. Ancaq, hansını oynamalı? Hər ikisinin zövqünü almaq istəyən oyunçu nə etməlidir? Birini seçib digərlərindən imtina etməlidir. Ya da oyunu ordaca dayandırmalı və seçməməyi seçməlidir. Ölməlidir. Həyat kimi. Atını ya Argentinanın steplərinə sürürsən ya da Tibetin dağlarına.

Şahmatın açılış yəni başlanğıc mərhələsini fərdin yeniyetməlik addımları kimi qəbul edə bilərik. Hansı istiqamətdə seçsə seçimlərini elə biri olaraq formalaşacaq. Çətin seçimdir hə? Açılışını edirsən və rəqibinin zərbələri üstünə endirməsini gözləyirsən. Açılışını - yeniyetməliyini – nə qədər yaxşı etmisənsə zərbələrə olan dözümlülüyün bir o qədər güclü olacaq. Şahmatda fikirləşmə vaxtın varsa da, həyatda çox vaxt fikirləşmə şansın olmadan səhv seçimlər seçə bilirsən. Şahmatda hamı sıfırdan başlayır ancaq həyatda hərəmizin bir daşı oynanılmış halda verilir bizə. Genlərimiz və doğulduğumuz mühit. Yarı determinizmə sahibik ona görə də. Olacaqların bəziləri əvvəldən müəyyəndir.

Bir dəfə yaşayırıq və bu bəs deyil. İnsan özünü seçdiyi qərarların ən yaxşısı olduğuna inandırır, əksi halda iztirab və təşviş içində yaşayar zira, keçmiş peşmançılığı və gələcək qayğısı ilə, qərarsızlıq içində boğular. Buna görədə seçimlərinin ən yaxşı seçimlər olduğuna özünü və başqalarını inandırmağa çalışır. Hətta başqalarına da öz ideologiyalarını aşılamağa çalışır, çünki məgər onun seçimləri ən mükəmməli deyil ki? Seçimləri məhdud olduğundandırmı bilinməz, insan içində birdən çox kimliyə yer verir bəlkə də buna görə də. İçimizdə birdən çox biz var. Birdən çox kimliyimiz var. Özümüzü başa düşməyə başladığımız andan söhbətləşməyə başladığımız bizlər. Bizi ən yaxşı başa düşən içimizdəki bizlər. Seçimlərimiz nəticəsində yaranmış fərqli bizlərdir onlar. Bəzən çılğın bir romantik , bəzən kəskin bir rasional olan kimliyimiz. Bəzən bir-birinə

sanki tarixin ən böyük mübarizəsiymişcəsinə savaş elan edən iki kimliyimiz. Hər biri özünü reallaşdırmaq istəyir zira. Ancaq sadəcə bir bədən var. Qarşıya çıxmış bir situasiyada hər biri öz istəyini yeritmək istəyir. Ancaq biri qazanır. Nəticə? Məmnunsuzluq.

Bədbəxtliyə məhkum bu insanı, düşdüyü çuxurdan qurtarmaq üçün neçə fəlsəfələr, neçə dinlər yaradılıb, buddizm, taoizm fəlsəfələri, səmavi dinlər və s. İronik bir formada, insanın bu doymaq bilməyən istəklərindən yenə başqa doyumsuz insanlar faydalanaraq öz bitmək bilməyən arzularını doyurmaq üçün istifadə etdilər: vəhşi kapitalizm, konsyumerizm, istehlak cəmiyyəti və s. O kapitalist dediyimiz insanlar kimlərdir sanki? Sənin mənim kimi insanlardır sadəcə daha acgöz olanlarımızdır. Dinlərin insana qoyduğu qadağaların səbəbi onun seçimlərini məhdudlaşdıraraq acgözlüyünün qarşısını almaqdır. Dünyəvi nemətlərdən zövq almağı qadağan edir dinlər ya da bir limit qoyur. Amma əvəzində yenə eyni şeyi vəəd edirlər. Səmavi dinlərin cənnət anlayışına fikir ver, bitmək bilməyən arzuların və seçimlərin yerinə gətirilməsi vəədini verirlər. Bir başqa tərəfdə, şərq fəlsəfələrinin çıxış yolu isə bitmək bilməyən arzu və istəklərin cilovlanması və onlardan azad olmaqdır.

"Dukkha" deyirdi Siddharta hələ 2500 il əvvəl. Buddizmin dörd müqəddəs həqiqətindən birincisi olan dukkha ilə "əzab və iztirab varoluşumuzun bir parçasıdır" deyirdi Budda və yanılmırdı. "Samudaya" deyə davam edirdi ikinci müqəddəs həqiqəti ilə, "əzab və iztirablarımızın səbəbi arzu və istəklərimizdir" deyirdi və yanılmırdı. Əgər ən kiçik formada belə varsa arzuların, istəklərin, onda iztirab da həmişə səninlə olacaq.  "Nirodha" adlanan üçüncü müqəddəs həqiqətdə "istəklər buraxılsa iztirab sona çatar" deyirdi və fərd nirvanaya (mütləq xoşbəxtliyə) çatar deyirdi, nə dərəcədə haqlı olduğundan əmin deyiləm. “Magga” adlandırdığı çox həqiqətdə isə bunu necə etməli olduğumuzu deyirdi, nə qədər işə yarayır bilmirəm. Mən alındıra bilmədim.

İndiki kapitalist dünyada insanlara öz yolunu tapmaq aşıla-

nır. Və sanki doğruymuşcasına, hər insanın ən yaxşı olduğu bir sahə, bir sənət, bir peşə olduğu deyilir. Hər insanın öz məqsədini tapması gərəkdiyindən bəhs edilir. Hamısı cəfəngiyyatdır. Zira fərdin ən yaxşı olduğu bir sahə ya bir həyat tərzi yoxdur. Birdən çox şeyi bacara və istəyə bilər. İnsanın seçimləri həddindən artıq çox olduğu üçün onu öz məqsədlərinə uyğun olaraq yönləndirməyə çalışır hər sistem sponton formada. Əsas da yeniyetmə çağında fərdə ailədən və cəmiyyətdən gələn təzyiq onu daha da çarəsiz vəziyyətə salır və fərd ən bacarıqlı olacağı sahəni tapmağa çabalayaraq daha da çarəsizləşir. Hansısa sahəyə istiqamətlənmiş insan digər sahələrlə məşğul ola bilmədiyi üçün kefsizləşir, təşvişə düşür.

Milyonlarca illik təkamülün müvəffəqiyyətli bir parçası olan beynimiz o qədər mükəmməldir ki, insan istədiyi hər mövzuda ixtisaslaşa, ustalaşa və özünü reallaşdıra bilər. Amma təəssüf ki, fani olduğumuz üçün həyat sadəcə bir və ya bir neçə sahədə ixtisaslaşa biləcək qədər uzundur. Həm tibbin həm astronomiyanın həm ədəbiyyatın həm texnologiyanın dərinlərinə enə bilmir insan bir fani ömrü boyu. Sahib olduğumuz ən dəyərli şey olan zamanı bir sərmayə kimi düşünsək əgər, kimisi bu zamanı bu sərmayeni beyninə qoyur, kimisi bədəninə qoyur, kimisi bu sərmayesini bir başqasına sərf edir. Kimisi bütün bunların hamısını istəyir, ancaq seçimləri məhduddur. Nəticə etibarı ilə seçimlər qarşısında qalırsan və seçmədiklərin səni narahat edir, təşvişə salır. Hansısa bir seçimi etdiyin vaxt, o seçimi yerinə gətirəcəyin zaman dilimində edəbiləcəyin digər seçimlərdən imtina etmiş olursan. Kitablarını, romanlarını bitirmək istəyən yazar, başqa həyat tərzlərindən imtina etmiş olur. Romanları, kitabları oxumaq istəyən fərd, o vaxtı istifadə edə biləcəyi digər seçimlərdən məcburi imtina etmiş olur. Özünü bu məcburiyyətə və onun verdiyi iztiraba alışdırmalısan.

Bir qərar qarşısında qalınaraq seçilmiş bütün seçimlər insanın narahatlılığının səbəbi deyilmi?  Məsələn, evliliyin də təbiətində bir xoşbəxtsizlik yatdığı aşikardır. Zira evlilik də bir

seçimdir. Evlənərək digər seçimlərdən imtina etmiş olursan. İnsanın yenicə doğulmuş körpəsi baxıma digər canlılardan çox daha möhtac olduğu üçün ailə qavramı insan təkamülü zamanı tədricən ortaya çıxıb və ana uşağı saxlayarkən ata yem toplamaqla məşğul olub. Bu birlikdəlik daha sonra evliliyə çevrilib. Çünki insan genlərin həyatdakı tək və əsas məqsədi sağ qalmaq və nəsillərini davam etdirməkdir. Bunun bir nəticəsi olaraq da genlər insanı körpəsinin qeydinə qalmağa məcbur edir. Qadın və kişinin evlilik formasında birlikdəliyi buradan gəlir.

Ancaq, kişi genlərin istədiyi digər bir şey də var: mümkün qədər çox və fərqli sayıda qarşı cinslə cütləşərək ən yaxşı genetik kombinasiyaları yaratmaq və dünyaya gələcək fərdlərin içindən ən güclüsünü yarada bilmə istəyi. Seks aludəçiliyi, fərqli və daha çox partnyor istəyinin səbəbi budur. İndiki dünya o qədər deqradasiyaya uğrayıb ki "seks aludəçiliy" deyə bir xəstəlik var. Seks aludəçiliyini xəstəlik sayırlar. Çünki kapitalist dünyadakı insanı digər məqsədlərindən yayındırırmış seks. Hansı məqsəddir onlar? Bəyəm insanın ali nəsə məqsədi var ki? İşləmək və yüksəlmək məqsədləri imiş. Hansı ki insanın tək təməl məqsədi var o da seksdir, digər bütün heyvanlar kimi. Sən gedib bonobo meymunlarına deyə bilərsənmi ki daha az sevişin? Yox. İnsanları aldadırlar Hera, onlar da axmaq kimi aldanır.

Təməldə, bizim var olma məqsədimiz cütləşmək və həyatda qalamqdır, vəssalam. Təəssüf ki bu qədər primitivdir var olma səbəbimiz. Cütləşmək, mümkün qədər uzun müddət həyatda qalmaq, genləri mümkün qədər çox sayıda və mümkün qədər fərqli partnyorla yaymaq, doğmaq. Həyatın mənasını axtarır insanoğlu, halbuki bizim burada olmağımızın xüsusi bir mənası yoxdur. Bizlər sadəcə milyonlarca illik təkamülün bəxtigətirmiş müvəffəqiyyətli nəticələriyik. Bura qədər gəlib çıxmışıq. Bir zamanlar tək hüceyrəli mikro organizmlər idik. Sadəcə təkamülün milyonlarca məhsulundan bir digəriyik. Həyatın çox kiçik bir zaman dilimində və kosmik kainatın çox kiçik bir hissəsində yer alan kiçik bir parçayıq. Genlərimiz

sayısız müvəffəqiyyətli kombinasiyalar nəticəsində o qədər inkişaf edib ki şüurumuz ortaya çıxıb və niyə var olduğunu sorğulamağa başlayıb. Cavab sadədir: sağ qalmaq və mümkün qədər çox partnyorla mümkün qədər çox cütləşmək. Ən azından elmi, bioloji cavab budur. Kimsə bəyənməyə bilər, ancaq təməl məqsəd budur. Çox da ciddiyə almamaq lazımdır yəni həyatı ona görə də, milyonlarca illik mikro-orqanizmlərin bəxti gətirmiş davamçılarından başqa bir şey deyilik. Varlığımızın çox da bir mənası yoxdur.

Bu düşüncəni mənimsəməyin özü də bir seçimdir məsələn. Elmə ya təkamülə inanmaq da bir seçimdir. Sabah bütün bunların hamısının səhv olduğu kəşf edilsə onda yeni fərziyyələrə inanmağa başlayacağıq. Hər şeyi bilə bilmərik, bizə məntiqli gələn düşüncəni seçir və onun gözüylə baxırıq dünyaya. Dünyanın necə və niyə yarandığını, o yaranmamışdan əvvəl onun yerində nə olduğunu hələ də bilmirik məsələn. Kimisi bohem, pofiqist həyat tərzi yaşamağı seçərkən və ya onun kimyası belə ikən, kimisi varlığımıza dərin mənalar yükləyərək, həyatı çox ciddiyə alaraq yaşaya bilər. Bunlar sadəcə seçimdir, o qədər. Bunun üstündə dalaşmağa ehtiyac yoxdur. Bütün insanların beyin kimyası fərqlidir və bu sayılanlar insandan insana fərq göstərə bilər. Genetik kodumuzun məqsədi həyatda qalmaq ola bilər, amma şüur təkamülə qarşı bir qüsur olaraq ortaya çıxıb sanki zira insan həyatda məna axtarıb sonda özünü mənasızlıqdan öldürə bilir. İntihar məsələn, o mükəmməl seçim, təkamülün mükəmməl qüsurudur sanki elə deyil? Ağlıma bir şey gəldi indi, heç belə düşünməmişdim, intihar əslində bəlkə də təkamülün nöqsanı deyil, tam əksi, intihar əslində nöqsanlı canlını təbii seçmə ilə aradan çıxarmaq üçün təkamülün möhtəşəm gizli vasitəsidir. Doğrudan da, heç belə düşünməmişdim. Yəni sağlam olmayan canlını təkamül öz əliylə öldürür. Beyin balansı pozulduğu üçün özünü öldürdü deyirlər kimsə haqqında məsələn. Ancaq əslindəysə metaforik formada düşünsək, beyin balansı pozulduğu və artıq təkamülün məqsədlərinə xidmət etməyəcək biri olduğu üçün fərd, təkamül onu

intihar düşüncələrinə salır. Maraqlıdır. Deməli mən hal-hazırda azad iradəmlə ölümə getmirəm, məni ölümə aparan lənət təkamüldür. Qatilim təbiətdir.

Kimisi intiharı seçə bilər, kimisi doğmağı seçə bilər, kimisi evlənməyi, kimisi evlənməməyi. Pul üçün bir ömrü fəda etməyi ya etməməyi seçə bilər. Bir qadın cinsi orqanlarını nümayiş etdirməyi seçə də bilər, seçməyə də. San Francisco ayrı gözəldir Barcelona ayrı gözəl. Bəzilərinin yaşama istəyi çox, bəzilərinin ki az ola bilər. Kimisi həyata dərin mənalar yükləyə bilər kimisi yox. Kimi dünyanı inkişaf etdirmək ya xilas etdirmək istəyə bilər kimisi yox, müqəddəs məqsəd deyil dünyanı xilas etmək, çünki müqəddəs məqsdə yoxdur. Kimisi humanizm təbliğatı, siyasət, insan haqqları kimi məşğuliyyətlərlə başını qataraq üstün bir iş gördüyünü düşünür və həyatının bayağılığını azaldır, kimisi axşama qədər damarlarına heroin doldurur. Kimisi Maslovun özünü-reallaşdırma dediyi şeyi edə bilər kimisi etmək istəməyə bilər ya da heç buna şəraiti belə olmaya bilər. Yaxşı işi ya həyat şəraiti olmayan insan necə reallaşdıra bilər özünü? Çox çətin.

Seçimlərin çoxluğu çərçivəsindən baxanda insan evliliklə özünü bir növ məhdudlaşdırmış görünür. Ancaq, bioloji səbəbləri bir kənara qoysaq əgər, təkamülü gərəyi qrup halında yaşamağa doğru inkişaf etmiş sosial bir varlıq olan insan yalnızlığı sevməyən varlıq olduğu üçün evlilik onu bir mənada yalnızlıqdan uzaqlaşdırır. Bu mənada evlilik fərdin yararına olmuş olur. Ancaq ümumi çərçivədən baxanda fərd bir dilemmanın içinə düşür, çabalayır. Nəticə etibarı ilə hansı yolu seçir seçsin yenə bir narahatlıq içinə düşmə ehtimalı var. Bundan əlavə, insanlar genetik olaraq bu məsələdə ikiyə ayrılırlar, monoqam: tək partyorluluğu sevən və non-monoqam ya polyqam: çox partynorluluğu sevən. Ancaq yenə də, monoqam belə olsa insan, mükəmməl yoldaşını tapa bilərmi bu qədər çox seçim içində? Yoxsa tapdığı yoldaşın ən yaxşısı olduğunamı inandıracaq özünü? Bəli elə edirlər. Birini tapıb evlənirlər və özlərini bunun ən ideal olduğuna inandırırlar. İlluziyalar.

"Ən yaxşı seçim" yoxdur. Mənim ən-lərim yoxdur məsələn. Ən-lər insan beyninin illuziyalarıdır. Beyin özünü seçdiyi seçimin ən yaxşı olduğuna inandırır. Yoxsa onsuz da nəyi seçir seçsin narahat olacaq. Ən yaxşı şəhər, sənət ya qadın yoxdur. Hamısı ayrı gözəldir. Hər ölkə ayrı bir qadın kimidir, bəziləri melanxolik, bəziləri vəhşi, bəziləri doyumsuz və hamısı ayrı gözəldir. Hamısı üçün bir cür darıxıram. Yaşamadıqlarım üçün belə.

Fərqli həyatlar hər gün yolda yanımızdan keçən qadınlar kimidirlər, hamısını istəyirsən amma sahib ola bilməzsən, toxuna bilməzsən. Seçim sayın məhduddur. Sadəcə unutmağa çalışırsan digər ehtimalları. Bunda ustalaşmışıq əslində. Fərqli ehtimallara gözümüzü yummaqda ustayıq, ancaq bəzilərimiz çox da bacarmır, mənim kimi.

Hər şey fərqlidir. Hər həyat fərqlidir. Bütün tragediyalar. Dünyada nə qədər fərqli ölkə, dil və o dildə yaşayıb düşünən insanlar var. Fərqli insanların fərqli həyat fəlsəfələri var. Ən yaxşısı yoxdur aralarında, ən xoşbəxti yoxdur, 2+8 də 10 edir 4+6 da. Çirkin bir qadının belə sənə çəkici gələn tərəfləri ola biləcəyi kimi, fərqli ölkə və dillərin də sənə xoş gələcək tərəfləri ola bilər. Ən pisi odur ki bütün bu həyatlar içindən istədiyini özünə seçə bilərsən. Bu seçim azadlığı insanı məhv edir.

Bu saydıqlarımızı nəzərə alsaq, qərarsızlıq bir insanın ən təbii xarakteristikasıymış kimi görülür. Zira seçimlər qarşısında çarəsiz qalır və qərarsızlığa sürüklənirsən. Cəmiyyət qərarsızları sevmir. Əslində cəmiyyətə təkamülün qoruyucu funksiyasının zühur tapmış bir forması kimi baxmaq olar. Təkamülün himayəçisi. Fərdin həyatda olma məqsədi nədir? Nəslini davam etdirmək. Nələri xoşlamır cəmiyyət? İnsanın sağlıqlı bir formada nəslinin ötürülməsinə mane olacaq heçnəyi xoşlamır və əksinə buna kömək edəcək hər şeyi xoşlayır. Avaraları xoşlamır cəmiyyət. Avara həyat tərzini xoşlamır. Evlənmə və uşaq sahibi olma buna görə bir şərtdir, zira genlər həyatda qalmalıdırlar. Narkotik maddələri xoşlamır cəmiyyət, zira insanı əsas məqsədindən: nəsil davam etdirmə məqsədin-

dən uzaqlaşdırır. Cəmiyyət, dövlət və ailəni eyni mənada ələ ala bilmək olar bu mövzuda.

Hətta milliyətçiliyin bioloji səbəbləri də eyni qapıya çıxır: təkamül zamanı fərqliləşmiş gen qrupları öz oxşarlarını qorumağa çalışırlar. Arılar arasında məsələn, güclü qohumluq bağlılığı var. Nəinki arılar elmi təcrübələr zamanı ortaya çıxarılır ki mikroorganizmlər arasında belə, bir-birinə oxşar mikroorganizmlər bir bütün olaraq həyatda qala bilmələri üçün aralarında bəziləri öz canlarından vaz keçməyə razı olub fədakarlıq edirlər. Fədakarlıq və ya altruizm insan genlərindən gələn güclü bir xarakteristikadır. İnsanın və digər canlıların həyatda qalmaq üçün bir qrup halında yaşaması labüd olduğu üçün, təkamül prosesində canlılar fədakar və sosial olaraq inkişaf ediblər. Hətta öz ölümünü belə, ortaq genləri daşıdığı qrupun həyatda qalması üçün gözə ala bilir bir canlı. Çünki o həyatını sonlandırsa belə, oxşar genlərə sahib olduğu digərlərinin nəsillərinin artırılmasına kömək etmiş olacaq. Bütün bunları şüursuz və fərqində belə olmadan, instiktiv olaraq, niyəsini anlamadan yerinə yetirirlər. Taleyin ironiyası, səni altruist edən genlər həm də eqoist edirlər.

Cəmiyyət, ailə, dövlət və tanrı fərdin azadlığını basdıran, seçimlərini məhdudlaşdıran, ona öz mənafei uğruna istiqamət verən, necə yaşaması və necə yaşamaması lazım olması gərəkdiyini göstərən qaydalar bütünüdürlər. Aydınlanma – şüur oyanışı - üçün imtina etməlisən. Qarşı durulması və dəyişdirilməsinə cəhd edilməli olan ilk baryeralardır. Sənin seçimlərinin səlahiyyətlisi yalnız və yalnız özün olmalısan. Özünə seçəcəyin istənilən hakim güc, səlahiyyətli orqan, avtoritet, azadlığını məhdudlaşdıracaq və səni bir az da bədbəxtləşdirəcək. Bundan özüm də əmin deyiləm, bəlkə də kölə olmaq daha yaxşıdır. Ancaq fərd özü yox, bir başqası olacaq. Ya da “mən”ini özü yox başqası seçəcəkdir. Bəlkə də eləsi daha yaxşıdır, günahı həmişə başqasının üstünə ata bilərsən.

Cəmiyyət, ailə və dövlət tərəfindən şüursuzca sanki bizim üçün tək və ən gözəl seçim varmış kimi böyüdülmüşük. Müəy-

yən məsuliyyətlər yüklənərək böyüdülmüşük, hansı ki sanki bu göstərilmiş istiqamətlər tək və ən doğrusuymuş kimi. Bu universiteti oxuyub bu qızla evlənirsən, bu dini qəbul edirsən və bu şəhərdə yaşayırsan deyə istiqamətləndirmələrdən qurtulub öz seçimlərini edənlərdir azad insanlar. Bunlar kiçik misallardır əlbətdə ki, ilk etaplardır. Azadlıq beyində başlayır: sənə yüklənilmiş mənalardan azad olmaq, cəmiyyətin səni doğumundan etibarən formalaşdırdığı formadan azad ola bilmək. Hər insan bu yolu həyatında bir dəfə keçməlidir çünki hər insan bir avtoritet, hakim fikir, səlahiyyətli kimsə tərəfindən böyüdülür. Böyüdüldüyü mühitin hakim fikirləri aşılanır hər yeni doğulan və böyüdülən uşağa, ailə, cəmiyyət və dövlət tərəfindən. Zamanının mövcud ən yüksək keyfiyyətli cəmiyyətində belə doğulsan, fərqi yoxdur, böyüdüyün cəmiyyət və ya ailənin fikirlərini mənimsəməyin səni özündən uzaqlaşdıracaq, özün ola bilməlisən halbuki. Qınından çıxıb, bir baxmalısan ətrafa.

Buna görə cəmiyyət, bir organizm olaraq öz varlığını qorumaq üçün, onun içindən çıxıb onu bəyənməyənləri qınından çıxıb qınını bəyənməyənlər deyə ləkələyir. Zira öz varlığını davam etdirmək istəyir. Cəmiyyəti tənqid edən bu insanlar olmasaydı, keçmiş sivilizasiyalardan bugünümüzə qədər gələ bilməzdik. Çox gözəl prosesdi əslində, cəmiyyətin içindən çıxan düşünürlərin onu bəyənməyərək tənqid etmələri və yavaş-yavaş formasını dəyişdirməsinə təsir etmələri. Çıxdığın qabın rəngini dəyişirsən. İlk öncə bu qabığından çıxıb açıq dərrakə ilə dərk etməlidir fərd dünyanı və həyatı, sonra özü öz dərrakəsi ilə heç bir təzyiq ya təsir altında qalmadan yenə də çıxdığı qabığını belə şüurlu formada öz doğrusu kimi seçə bilər əlbətdə ki. Azad olmağı seçmək də bir seçimdir, seçməmək də. Seçməyə də bilərsən və kiminsə sənə qarışma haqqı yoxdur. Diləyən kölə olmağı da seçə bilər. İnsanın əsas istəyi xoşbəxt olmaqdırsa, kimisi azad olmamağı seçərək ya kölə olaraq xoşbəxt olursa, kimin nə haqqı var ona qarışmağa? Elə deyil? Biri “buraxın mən cahil olaraq qalacam, belə yaxşıyam” deyirsə,

kimin nə haqqı var onun rahatını pozmağa? Elədir? Yoxsa deyil?  Bütün bunların içində o kiçik nüans var: insan bu seçimi özümü edir yoxsa onun yerinəmi qərar verilir. Şüurlu olaraq edilmiş seçimdirsə əgər, azad olmamaq və ya kölə olmaq, bu fərdin seçimidir. Ancaq, heç vaxt azad şüurla mühakimə edilməmiş bir istiqamətləndirmədirsə bu fərdin həyatında, onda ortada bir problem var deməli.  Onda sözün əsl mənasında kölə olmuş olur fərd. Başqa bir beynin köləsi, başqa fikirlərin, hakim bir qüvvənin, bir liderin.

Başqalarını onların seçimlərinə görə mühakimə edə bilərik? Hər insan istədiyi seçimi seçə bilər. Doğru və ya səhv olması vacib deyil. Doğru və səhv nisbi qavramlardır. Mütləq bir həyat tərzi olmadığı kimi, mütləq seçimlər də yoxdur. Bir başqasının həyat tərzinin və ya seçimlərinin doğru və ya səhv olduğuna o seçimlər azad şüurla seçilmiş olduğu müddətcə qarışıla bilinməz. Bəs azad şüurla seçilməyiblərsə necə? Orasını bilmirəm.

Bir həyat tərzini mühakimə etmək, o fərdin vermiş olduğu qərarları, seçimləri mühakimə edib doğru və ya səhv, yaxşı və ya pis olduqları haqqında fikir bildirməkdir. Sanki mütləq bir doğru varmışcasına. Hansı etalona əsasən müqayisə edilir bir həyat tərzi? Nə əsas götürülərək bu yaxşı ya pisdir, doğru və səhvdir deyilir?  Bu dini bir fəaliyyətdir. Zira din sənə mütləq həqiqət göstərir, tək yol var deyir. Beləcə bir dini qəbul etmiş insan, başqa bir həyat tərzini, seçimləri o dini qaynağa əsasən mühakimə edir. Bir dini qəbul etmək, bir hakimiyyəti qəbul etmək deməkdir və beləcə insan şəxsi azadlığından imtina etmiş olur. Bu hərənin şəxsi seçimidir . Eynilə narkotik və ya psixoaktiv maddələrdən istifadə etməyi seçmiş şəxs kimi, o da bir seçim edir.

Ancaq başqa insanları mühakimə edərkən düşünməlisən əvvəlcə. Çünki insanlar həyatlarındakı hər şeyi özləri seçmir. Doğuştan sahib olduqları bir yarı-tale var. Doğulduqları kasıb ailə ya başqa faktorlar. Bunları bilmədən insanları mühakimə edirsən. Necə həyatları var bilmirsən, necə böyüyüblər.

Rəhmdəykən anası necə qidalanıb, beyinində qayt ya serotonin reseptorlarının balansı necədir, aldığı dərin travmalar varmı, itirdiyi yaxın insanlar olubmu, kiçik yaşlardakı yetişdirilmə forması onu necə formalaşdırıb, qorxaq, cəsur, vecsiz, aqressiv, içəqapanıq, depressiv ya pozitiv. Sən sadəcə mühakimə edirsən. Sanki onunla sən eyni insanmış kimi mühakimə edirsən, bilmədən. İnsanları tanımadan onlardan mərhəmət ya mədəniyyət gözləyirsən məsələn. Hansı ki məsələn mənə görə yaralı insandan mərhəmət gözləmək tərbiyyəsizlik, mədəniyyət gözləmək axmaqlıqdır.

Bizə necə davranmamız gərəkdiyini deyən mütləq bir doğru yoxdur, mütləq bir din yoxdur. Bu səbəblə də hərə istədiyi qərarı verməkdə sərbəstdir. Biz bir başqasına qarışa bilmərik. Mühakimə etmək olar? Bəli, bu fikir azadlığıdır. Qarışmaq? Yox. İfadə azadlığını dilə gətirə bilərsən, ifadə azadlığının bir limiti yoxdur, limiti olduqlarını deyənlərin hansısa bir avtoriteti var inandıqları. Bu mənim doğrularımdır əlbətdə ki, yoxsa mütləq bir iqtidar olmadığı kimi, bir başqasının həyatına qarışmağın səhv olduğunu buyuran bir mütləq əmr də yoxdur. Buna biz insanlar öz aramızda etika deyirik - əxlaq fəlsəfəsi, bizim yaratdığımız və inkişaf etdirdiyimiz etik qaydalar.

Əslində dinlər bir mənada həm də bu özbaşınalığın qarşısını almaq üçün yaradılıb. Biri bir başqasını öldürməkdə sərbəstdir, niyə də öldürməsin? Cəmiyyət də bir mənada bu səbəblə qurulub və formalaşıb, insanlar öz təhlükəsizliklərini təmin etsin deyə. Həyatımızı daha da asanlaşıdrmaq üçün cəmiyyəti qurmuşuq. Ancaq qurduğumuz cəmiyyət özümüzə zərər verir bəzən. Ya da hansısa azınlıqların seçimlərinə qarışır, həyatına qarışır. Evinin içinə girir. Həbs edir. Həbsxanaların varlığının müzakirəsi burada başlayır məsələn. Həbsxana, olması gərəkən bir şey yox, çoxluğun istediyi bir quruluşdur. Bizim, özümüzdən böyük iqtidarımız yoxdur, olmamalıdır, ola bilməz. Birisi bizə bir başqasını öldürmə, oğurluq etmə ya təcavüz etmə deməyib. İstənilən iqtidardan azad bir şəxs bunlardan hər hansı birini istəyirsə niyə də etməsin? Cəmiy-

yətin etik normlarını bir kənara qoysaq, qısaca belə izah oluna bilər: insan, özünə edilməsini istəmədiyi narahatedici şeyləri bir başqasına etməməlidir. Etik qaydalar da çoxluğun seçimlərinin birləşməsidir. Mütləq deyillər, nisbidirlər, inkişaf etdirilməlidirlər. Bir insan bu qaydalara uymağı seçə və ya seçməyə bilər. Olduqca normaldır. Ümumi nəqliyyatda hamilə qadına və ya qocaya yer verib verməmək bir seçimdir. Kimsə bunu seçməyə də bilər. Zira buna məcbur deyil. Yer verməyi seçdiyi təqdirdə təşəkkür edilməlidir, zira fərd bir fədakarlıq etmiş olur öz yerini verərək. Seçmədiyi halda qınanmamalıdır. Kimdir onu qınayan? Nəyə əsasən qınayır?  Heç kimə birbaşa zərəri olmayan fərdi seçiminə nəyə əsasən qarışır?

Dövlət də həmçinin cəmiyyət kimidir. Dövlət, vətəndaşlarının təhlükəsizliyini təmin etmək üçün onlar tərəfindən qurulmuş bir müəssisədir. İşin ironiyası, vətəndaşların təhlükəsizlyi üçün fəaliyyət göstərən dövlət, bəzən vətəndaşın təhlükəsizliyini təhdid edən ana qaynağa çevrilir. İnkişaf etməmiş dövlət/cəmiyyət olan üçüncü dünya ölkələrində məsələn, fərdlərin varlığına yönələn ən çox qorxduqları iki böyük təhdid var, hökümət və cəmiyyət. Fərdlər bəzən hər ikisindən təhdidlər alırlar heç kimə bir zərəri olmayan fikirləri, seçimləri səbəbilə. Hansı ki hər ikisi fərdin həyatını asanlaşdırmaq üçün mövcuddurlar (olmalıdırlar). Niyə təhdid edirlər bəs? Çünki həmin üsyankar fərd onların mövcud qaydalarına qarşı bir təhdiddir. Beləcə fərdi qorumaq üçün qurulmuş bu iki quruluş, içindəki seçimləri fərqli olan insanlara qarşı bir təhdidə çevrilir. Fərdin seçimlərinə qarışır, cinsi orientasiyasına qarışır, başqasına zərər vermədən istifadə etməyi seçdiyi narkotik maddələrə qarışır, hətta ölmə azadlığına belə qarışırlar. Mən öz ölkəmdə həm dövlət həm də cəmiyyətdən təhdidlər alırdım. Azad fikir və azad yaşama tərzimə görə. İndi bəzən ora qayıtmağa belə qorxuram. Öz keçmişim üçün darıxıramsa belə, ora qayıdıb gəzməyə tərəddüd edirəm bəzən. Çünki narahat edilirsən öz seçimlərinə görə. Mövcud bütün dövlət və cəmiyyətlər eyni dərəcədə səhv deyil əlbətdə ki. Birinci və üçüncü dünya

ölkələri var. Birinci dünya ölkələrindəki cəmiyyətlərin bəzi üstünlüklərini sən hətta dəstəkləyə də bilərsən, ancaq üçüncü dünya ölkələrindəki cəmiyyətləri ancaq tənqid edə bilirsən. Yaxşı tərəfləri varsa da azdır.

İnsanlığın şüuru inkişaf etdikcə bu tip qədim sivilizasiya əqidəli cəmiyyətlər və dövlətlər ayaqda qala bilmir və bilməyəcək, yox olmağa məhkumdurlar, dönüşəcəklər. Az inkişaf etmiş ölkələr daha da azadlıq məhdudlaşdırıcı olduqları üçün, insanların seçim azadlıqlarını basdırdığı üçün formalarını dəyişməyə məcburdurlar. Necəki indiki nisbətən inkişaf etmiş cəmiyyətlər keçmişdən yoğrularaq bu günə gəlib çatıblar. İçlərindəki həmin təhdid etdikləri aydın şüurlu insanlar o cəmiyyətlərin formalarını dəyişiblər, yontub, günümüzdəki formaya gətiriblər. Günümüzün ən inkişaf etmiş cəmiyyət/dövlətlərində belə hələ də çatışmamazlıqlar var, olacaq da, şüur inkişaf etdikcə cəmiyyətlər də o şüur inkişafına çatmağa çalışır, məcburdurlar.

Dünya globalizm ilə birlikdə növbəti aydınlanma dövrünə girib, çox sürətli bir aydınlanma və bütün bunlar ilə birlikdə bütün azadlıq baryeraları yıxılır. Globalizmin internetin yayılması ilə eyni vaxtlı olaraq yüksəlməyə başlaması təsadüf deyil. İnformasiya yayılır və fərdlər öz seçimlərini sekulyar, dünyəvi seçimlər istiqamətində seçir. Sekulyar insan yetişir. Daha əvvəl insanlar sadəcə yaşadıqları mühitin seçimləri ilə formalaşırdısa, o ərazidəki insanlara görə formalaşırdısa əxlaqı/etikası ya dünya görüşü, indi sekulyar/dünyəvi seçimlərə görə formalaşır. Dinlər arası tolerantlıq səviyyələri genişləyir. Beş on il bundan əvvələ görə belə indinin insanı başqa insanların başqa ölkələrin həyat tərzinə, seçimlərinə daha tolerantdır. Çünki gözü açılır. Millətlər arası tolerantlıq səviyyələri genişləyir və bir gün yersiz milliyətçilik kimi primitiv məfhumlar tarix olacaq. Bu arada milliyətçilik dedikdə mən daha çox həm də əsassız milliyətçiliyi nəzərə alıram. Keçmişi olmayan bap-balaca xalqlar belə milliyətçilik dərdinə düşüblər. Gülməli görünür. Taleylərini qəbul edə bilmir insanlar. Qəbul etmək

lazımdır, bəzi millətlər və mədəniyyətlər daha yaxşı, ağıllı və üstündürlər. Bərabərlik davası etmək lazım deyil.

Gələcəyin insanı bu mövzulara, indiki insanların, cəmiyyətlərin sahib olduqları tabbolara/qadağalara baxıb bizim indi keçmişdəkilərə baxıb güldüyümüz kimi güləcək. Çünki həqiqətən gülməlidir. Məsələn bir insan düşünün ki aldığı ən böyük zövqlərdən biri sevişmək ikən, bunu taboo edir, qadağa edir, ayıblayır. Meyvə yeməyi qadağan edirsən kimi. Ya da hərə sadəcə bir meyvəni seçib (evlənib) yeyə bilər. Digərlərinin dadına baxmaq olmaz. Gülüncdür.

Ən inkişaf etmiş sivilizasiyalarda belə məsələn, iki yetişkin evli insan özlərinin qərarı ilə evli qalıb ancaq qeyri-monoqam əlaqədə birdən çox partnyorluluğa razılaşıb, canları istəyəndə başqa partnyorlar ilə cinsi əlaqədə olurlarsa, bu cəmiyyət tərəfindən qınanır, ayıblanır. Cəmiyyətin buna qarışmağa haqqının olmaması bir kənara, bunu ayıblaması belə səhv deyilmi? İnkişaf etməmişliyin göstəricisidir. Seçimlərə qarışmaqdır. Heç bir tutarlı yanı yoxdur. Bu sadəcə kiçik bir misaldır. Əlbətdəki bir insan monoqam ola bilər deyək ki, tək partnyorluluğu seçə bilər, bu onun fərdi seçimidir, səhv və ya düz, yaxşı və ya pis deyil. Bir seçimdir. Ancaq, bir başqasının seçiminə qarışmaq? Nə həddlə? Tərbiyəsiz, ədəbsiz, əxlaqsız, deyilir iki evli insanın başqaları ilə cinsi əlaqədə olmasına. Hansı tərbiyyəyə əsasən? Hansı ədəb? Hansı əxlaq? Cavab: cəmiyyətin qəbul etdiyi əxlaqi normlar bütününə əsasən. Mütləq olmayan və dəyişkən normlar, zamanla inkişaf edən normlardır bunlar, keçmişdən günümüzə inkişaf edib, günümüzdən gələcəyə inkişaf edəcək. Gələcəyin bizə nisbətlə şüuru açıq, inkişaf etmiş, zəkalı insanlarının qurduğu cəmiyyətdə tərbiyyəsiz o adama deyiləcək ki, bir başqasının seçiminə qarışır. Yəni bugün başqalarına tərbiyyəsiz damğası vuran insanlar, gələcəyin tərbiyyəsizləri olacaq. İki azad insanın azad seçiminə qarışan insanlara deyiləcək əxlaqsız. Zira daha da inkişaf etmiş olacaq o cəmiyyətlərin - ya da tək dünyəvi cəmiyyətin - qoyduğu etik qaydalar, əxlaq,

ədəb qaydaları. Mövcud əxlaq qaydalarının bəziləri həyatımızı asanlaşdırmaq əvəzinə çətinləşdirir.

Bu arada sənə poliqamiya ilə bağlı maraqlı bir fakt deyim. Təkamüli olaraq insanların təkarvadlılığa meyilli formalaşmasının bir səbəbi də odur ki, çünki cəmiyyət çoxarvadlılığa meyilli olsaydı onda qadın sayı azlığı səbəbilə kriminallar artardı. Kişilər daha zorakı olardı. Yəni kifayət qədər qadın qalmazdı hamıya. Bərabər sayıda. Çünki məsələn, qadınların səksən faizi kişilərin ən təpədə duran iyirmi faizlik hissəsi ilə birlikdə olmaq, yatmaq istəyirlər. Statuslu, güclü kişilərlə. Kriminaların artmasının qadınlarla əlaqəli olduğu başqa bir fakt da deyim. Yoxsulluq cinayətlərin artmasına səbəb olur deyirlər ha? Yoxsulluq deyil o, nisbi yoxsulluqdur. Yəni elə ərazilər ki orda varlı və kasıb yanaşı yaşayır və bütün statuslar varlılarındır, bütün qadınlar da, bütün seks də. Elə yerlərlə çıxış yolu tapa bilməyən yoxsullar cinayətə meyl edir. Kriminal olurlar, çünki həm də status sahibi olurlar və qadın da əldə edirlər. Gəlirin ədalətsiz bölündüyü şəhərlərdə cinayətlər yüksəkdi, hamının kasıb ya varlı olduğu şəhərlərdə isə kriminallar azdır.

Görürsən, qadınlar statuslu, pullu, güclü kişi axtarmaqdan əl çəkib hamıya eyni gözlə baxsaydılar kriminal da olmazdı. Zarafat edirəm, bir qadına bunu demək, bir kişiyə gözəl qadınla çirkin arasında fərq qoyma demək qədər gülüncdür. Genlərinə tərsdir.

Sənə tək məsləhətim o ola bilər ki, onsuz da seçim sayının limitli olduğu bu həyatda heç olmasa öz seçimlərini əlinə al. Kapitalist və konsyumerist sistemin, ailənin ya cəmiyyətin ya dövlətin qurbanı olmuş insanlar var. Seçimlərini özləri etmirlər, fani ömürlərini bir başqalarının fikirləri ilə yaşayırlar. Həyatlarını reklamlara ya mediyanın istiqamətləndirməsinə əsasən yaşayırlar. Nəhəng bir marketing cəmiyyəti formalaşır, media cəmiyyəti. Hər gün böyüyən canavar kimi. İnsanlara nəyi etmələri gərəkdiyini öyrədir, onlar da aldanır. Bu marka paltarı geyinib, bu brend maşını alsan, bu kollecdə oxuyub bu marka qol saatını taxsan, bu marka telefonu alsan daha da

xoşbəxt olacaqsan deyə aldadırlar onları. Bu xoşbəxtlik deyil, illuziyadır, iqtisadi materializmdir. İnsanlar sahib olduqları əşyalara, maşınlara, evlərə görə status sahibi olur. Bir kasıb, bütün əmək gücünü sataraq əvəzində aldığı pulu verib ona reklamlarla sırıdılmış malları alır ehtiyacı olmasa belə, televiziyada, internetdə, mediyada gördüyü məşhurları təqlid edir. Ona bu öyrədilir, vəhşi istehlak cəmiyyətinin bir parçasına çevrilir. Etdikləri seçimlər onların yox, medianın onların əvəzinə verdiyi qərarlar olur. İstədikləri seçimi edə bilərlər əlbətdəki, ona söz yox, ancaq bunu öz iradələriyləmi edirlər yoxsa təsir altına düşmüş iradəyləmi, sual budur. Alt paltarlarının hansı marka olması ilə fəxr edən, öyünən insanlar var.

Girdiyimiz informasiya əsrində bir çox taboolar və şablonlar yıxılır. İnsan psixologiyasını, davranışlarımızın səbəblərini elmi dərinliklərə enərək, beyni incələyərək anlayırıq. Tarixin ən böyük düşünürlərini belə səhv çıxarırıq. Keçmişin psixoloq və filosoflarının davranışlarımız üzərindəki fərziyyələrini səhv çıxarırıq. Sorğulanmalıdır ən böyük filosof belə. Onların fərziyyələri belə yıxılır. Bir filosofun hər dediyini peyğəmbər kimi mənsimsəmir insan, öz doğrularını seçir aralarından və individualının yaradır.

Özümüzü anlamaq baxımından möhtəşəm bir əsrdəyik və bu davam edir. Təkamül mexanizmalarının gözü ilə baxırıq artıq hər şeyə və tapdığımız cavablar ecazkardır. Bunları bilməyi istəmək və ya istəməmək bir seçimdir. Bilməməyi seçmiş insan qınanmamalıdır.  Bilməyi seçmək və ya seçməmək, oxumaq və ya oxumamaq, bir şey yaratmaq üçün çabalamaq və ya yaratmamaq, yaşamağa davam etmək və ya intihar etmək. İşləmək ya evsiz olmaq, sağlam olmaq və ya olmamaq. Uşaq sahibi olmaq və ya olmamaq. Bütün bunlar seçimdir. Yaxşısı pisi olmadan. Zövq qaynaqlarımız fərqlidir, seçimlərimiz də fərqli olur.

İntihar zəiflik yox, sadəcə bir seçimdir. Möhtəşəm bir seçimdir əslində. Bir su kimi yaşamaq istəyə bilər məsələn insan, ya bir bitki kimi, şüursuz bir heyvan kimi, hamısı fərqli seçim-

lərdir. Dünyada özündən geriyə bir iz buraxmaq istəmək və ya bunu mənasız görmək. Cəmiyyətə fayda vermək ya vecə belə almamaq. Aktivist olmaq və ya pofiqist olmaq, vecə almamaq, apatiyaya bürünmək və bütün bunların fərqli kombinasiyaları: individualizm. Kimisi altruist, fədakar ikən kimisi olmaya bilər, şərt ya vacib deyil. Qarışma mənim seçimimə. Mühakimə etmə haqqın var sonuna qədər, özün bilərsən, ancaq narahat etmə məni. Kimisə məcbur inandırmaq zorunda deyilsən sənin ideologiyanın ən üstün olduğuna. Yaşa özün üçün, bir su kimi sakit səssiz ya bir tufan kimi səs küylü. Öz seçimini et. Özün ol.

Nəzakətli ol, ya olma. İstəmirsənsə nəzakətli olmaq, çıxar at o maskanı, nəzakətli olmağa məcbur deyilsən, vecinə belə alma. Ya da nəzakətli, mehriban ol və insanlara şirin yalan sat. Tam olaraq bunu etməlisən bəli. İnsanlarla həmişə səmimi ola bilməzsən, yalan deməlisən. Yalan deməyi öyrənməlisən, yoxsa nəzakətli biri ola bilməzsən. İnsanlar həmişə həqiqəti bilmək istəmir ya da həqiqəti istəyərkən belə səndən onları aldatmağını istəyirlər. Bu situasiya qarşısında nəzakətli olub yalan deməyi seçə bilər ya da səmimi olub qəddar cavabı seçə bilərsən. Bəzi kövrək insanlar var ki onlar həqiqətin bir qramına belə hazır deyil və səndən etdikləri bir məsələ ya özləri barədə bir fikir ya təsəlli istəyəndə sən qərar verməlisən: nəzakətli olub "narahat olma hər şey qaydasındadır"-mı deməlisən yoxsa səmimi və qəddar olub həqiqtəimi? Saf və axmaq bir yaxının səndən onun haqqında nə düşündüyünü soruşanda sən ona nəzakətli olub "məncə sən çox saf bir insansan" da deyə bilərsən, səmimi olub "məncə sən çox axmaqsan" da deyə bilərsən. Seçimdir və hərə birini seçir. Doğru seçim yoxdur, öz seçimini etməkdə sərbəstsən. Təəssüf ki sadəcə birini seçə bilərsən, sadəcə bir obrazla yaşayırıq. Mən həm nəzakətli kimliyimin həyatını, həm qəddar kimliyimin həyatını yaşamaq istəyərdim ayrı-ayrı. Ancaq sadəcə bir həyat şansımız var deyə, qarışdırıb yaşayıram. Sənə necə rahatdırsa onu et. Ama tək şərt var: bütün bu seçimlərini oyanmış şüurla et.

Yarı-aydın bir insan - ki bu yarı cahil kimi təhlükəlidir, amma eyni zamanda aydınlığa keçid təbəqəsi də ola bilər - başqalarının seçimlərinə çox şiddətli bir şəkildə qarışır. Daha çox ilk aydınlanmağa başladığı yeniyetməlik yaşlarında belə şiddətli olur, başqalarına ən doğru yolun öz seçdiyi yol olduğunu məcbur aşılamağa çalışması. Məsələn aktivistdirsə, hamının aktivist olması gərəkdiyini şiddətlə müdafiə edir və pofiqistləri, passivistləri boş və lazımsız adlandırır. Pofiqistdirsə də əksinə, bütün aktivistləri boş adlandırır. Hansı ki hər ikisi seçimdir. Nəinki sadəcə birini seçmək, bir insan müəyyən dövrlərdə bu tip seçimlərin hər ikisini zaman- zaman seçə bilər. Bəzən tufan kimi əsib səs küy sala bilər ikən, bəzən su kimi axıb gedər daşların onu apardığı istiqamətdə.

Bütün bu seçimlər, genetik xarakteristikamızla birləşərək bir fərd yaradır. Unikal bir fərd. Bir individual. Birdən fərqli fəlsəfi şərhi var həyatın və fərd o həyat tərzləri arasında seçimlərini edir. Öz doğrularından bir insan bir individual qurur və beləcə hər bir insan öz doğruları bütünündən ibarət olur və unikallaşır. Hamı unikaldır, bəziləri daha çox unikal olur, yalnız onlar ki seçimlərini daha çox özləri edib. Amma diqqətli olmaq lazımdır, indi individualizm də moda minib. Yanılğıya düşməmək lazımdır. O qədər iyrənirəmki bu dəbə minmiş individualizmdən. İndividuallıq yoxdur indi, ya da çox azdı. Əslində indi hamı ayrıca bir individual olduğunu düşünür, ancaq hamısı bir-birinə oxşayır. Bütün fikirləri. Media və internet səbəbilə. Hamı eyni şeyi deyir və edir ancaq fərqli olduğunu sanır. Lənətə gələsi populyar mədəniyyət və onun törəmələri. Humanizm belə dəb olub. İnternetdən əvvəl insanlar belə deyildilər. Daha orijinal idilər. İndi fikri olmayan insanlar da məşhur fikrləri mənimsəyib səsləndirir və arada heç bir fərq qalmır. Axmaqlar ordusu internet üzərindən özlərinə dəstək yığırlar. Feminizim belə çığırından çıxıb və mənasız hərəkata çevrilib. Özlərini sosial ədalət savaşçıları adlandıran axmaqlar ordusu hər gün bir yığın cahili manipulyasiya edərək özlərinin bir tayı edir. Radikal sol və müasir marksizmin fanatiklə-

ri azlıqda olan insanları qorumaq adıyla çoxluğun haqqlarını pozurlar. İkiüzlüdürlər. Mod olmuş şeylərlə diqqətli olmaq lazımdır. Çünki mod olan hər şeyi ağına qarasına baxmadan tərifləyirlər həmişə. Humanizm kimi məsələn, mod olduğu üçün təqlid edirlər və humanizmə layiq olmayan insanlara belə humanist davranırlar. Niyə? Çünki hər insanın hörmət haqqı var imiş. Bu nə deməkdi? Nə vaxtdan? Hamıya hörmət etmək reklam olunur. Hamıya hörmət edə bilməzsən, etməməlisən, onda hörmətin bir mənası qalmır. Təsəvvür et ateizm belə dəb olub. Zəka həqiqətən də çox şeyə təsir edir. Çünki dəb olduğu üçün ateist olan insanlar axmaq insanlardır. Onları axmaq olduğu üçün qınaya bilərikmi? Genetikaları odur. Öz götür qoyları ilə yox, məşhur insanların fikirləri əsasında ateist olanlar var, çünki axmaqdırlar və nəyə istəsən inandıra bilərsən onları. Sürülər və onlara təsir edən sürülər. Hamımız bu sürünün bir parçasıyıq çünki içində yaşayırıq, sadəcə bəzilərimiz daha az, bəzilərimiz daha çox təsirlənib o sürüdən. İnkar etdiyimiz cəmiyyətin bir parçasıyıq.

Bəziləri sürünün ən böyük parçası olur, doğulduğu andan etibarən ona yüklənmiş mənalar ilə davam edənlər. Düşün ki paltarından ağır daşlar asılıb hər tərəfdən və zorla yeriyirsən. Bax o daşlar, cəmiyyətin yüklədiyi mənasız və köhnə dəyərlər bütünüdür. O daşları atabilsən paltarından, nəinki yerimək, hətta qaçarsan və doya-doya yaşayarsan həyatını. Etmək istədiyin şeylər var və onları etmirsən. Səni böyüdənlərin "olmaz!", "ayıbdır!", "günahdır!", "camaat nə deyər sonra?!" mühakimələri gəlir gözünün qarşısına, hansı ki istəyirsən etməyi, həm də çox. Dayanma o zaman, öz seçimini et. Seçimlərinin yüyənini əlinə al. Seçimlərinin ipi sənin əlində deyil və bunu bilmirsən belə. Bu dünyada canın istəmədiyi müddətcə etməyə məcbur olduğun heç bir əmr yoxdur, olmamalıdır. Çox ciddiyə alırsan həyatı, hansı ki bir toz dənəsisən kainatda.

Çox da ciddiyə almamaq lazımdı həyatı, daha asan olur. Yıxılma ehtimalını gözə alıb qaçanda yıxılsan belə əsəbləşmirsən zira hesaba qatmışdın. Qaşları çatmamaq lazımdı. Za-

man-zaman sanki insanlıq tarixinin ən ciddi qərarını verirmiş kimi ciddiləşsən belə, bəzən isə sadəcə bir su kimi yaşamalısan. Sadəcə bir su kimi, axmalısan, daşların sənə verdiyi istiqamətə doğru getməlisən.

Bütün insanlar öz doğruları tərəfindən aldadılmış insanlardır və elə yaşayırıq. Birlikdə. Hər insanın beyni onu inandırır ki seçdiyi seçim ən doğrusudur və elə də yaşayır. Aramızda bəzilərini isə beyni aldada bilmir və o seçimlərin çoxluğunun fərqinə vararaq məhv olur. Əslində cahil formada, bir kor kimi ən doğru seçimin öz seçdiyi seçim olduğuna inanan insan xoşbəxtdir bəlkə də. Çünki onu digər seçimlər narahat etmir. Düşünən insan ona görə də əziyyət çəkir həmişə. Düşünməyən isə xoşbəxtdir, çünki o əslində nə qədər azad olduğunun fərqində deyil.

Yəni insan hər an həyatını başqa formada dəyişəcək qərarların içində yaşayır. Bunun fərqində olan insan bunun ağırlığı altında yaşayır. Hər an seçdiyimiz seçimlərlə yeni bir mən yaradırıq. Ya o seçimləri görmədən yaşamalısan ya da onların səni əzməsinə icazə verməlisən çünki onların arasında ən yaxşısı yoxdu. Hansını seçirsən seç təlaşlı olacaqsan.

Beş il bundan sonrakı sən, o beş ildə seçəcəyin, söhbət edəcəyin insanların, oxuyacağın kitabların, izləyəcəyin filmlərin, qısaca beyninə girəcək informasiyaların bütününə çevriləcəksən. “Seyr etdiyimiz şeyə çevrilirik” deyirdi William Blake. Yəni beş il bundan sonrakı “səni” qurmaq belə baxanda tamamilə ya da ən azından yarı-mənada sənin əlindədir. Necə səslənir? Mənim üçün narahat edicidir. Bunun ağırlığı altında necə yaşaya bilər insan? Heç təcrübə belə etmədən nəyi seçəcəyini necə bilərsən? Hansının daha yaxşı olduğunu necə bilərsən? Şərtlərin səni məhdudlama payını çıxdıqdan sonra belə, hər gecə yatağa girəndə sabah əslində həyatını tamamilə dəyişəcək bir addım ata biləcəyini bilə-bilə necə rahat ola bilərsən?

Üç yol var rahat olmağın üçün: ya özünü aldatmalısan ki əslində sadəcə bir seçimi seçə bilərsən digərlərini yox; ya bu fikirlə barışmalı və sakitləşməlisən; ya da özünü öldürməlisən.

Yoxsa heç vaxt rahat ola bilməyəcək və həmişə seçimlərin təlaşı altına əziləcəksən. Sahib olduğun məhdud şərtlər altında belə hansı addımı atsan da təlaşlı olacaqsan. Yenə də sadəcə birini seçmiş olacaqsan. "Ən yaxşı sən"-i seçmiş olduğunu necə biləcəksən? "Ən yaxşı sən" fikrinin olmadığı ilə rahatlatmalısan özünü, barışmalı və razılaşmalısan. Bacarsan əgər.

Bu insanın azadlığının öz əlində olması fikrini müasir lənətə gələsi media və kapitalistlər çox yaxşı istifadə edirlər zavallı cahil insanlar üzərində. Onlara axşama qədər deyirlər ki "nə istəsən o ola bilərsən", "sadəcə cəhd et" və s. Möhtəşəm səslənir, kağız üzərində nəzəri olaraq mümkün olsa da, praktiki olaraq təəssüf ki o qədər də asan deyil. Nikbinliyin bu qədəri sizin üçün zərərli ola bilər.

* * *

Seçimlərdən o qədər danışdım ürəyim sıxıldı lap. Canım o qədər sıxıldı ki, ölmək üçün səbirsizləndim bir an. Ölmək üçün o qədər səbəbim var ki, bəzən hələ də həyatda olduğuma çaşıram. Sinəmdəki nostalgia xəstəliyi, işsizlik, seçimlərin ağırlığı və s. Başqa çıxış yolum yoxdur, özümü öldürəcəm, çünki mən bacarmıram seçimlərin bu vəsəsəsiylə baş etməyi ya da Sartre demişkən, *mouvasie foi* : özümü buna inandırıram.

Necə? Davam edim danışmağa? Təkrarçılıqla canını sıxmadım? Yaxşı. Ölüm qabağı danışacağım son insansan deyə başını çox xarab edirəm. Belə pessimist danışaraq həm ölüb qabağı özümü intiharla doğru seçimi seçdiyimə inandırıram, həm də danışaraq fikrimi yayındırıram deyə ölüm qorxusu yadıma düşmür. Həm də o qədər içdim ki, danışmadan dayana bilmirəm.

Seçimlər haqqında bütün bu dediklərimi min illərdir deyən başqaları var. "Sən sənin seçimlərinsən" deyirdi Seneca, "Biz bizim seçimlərimizik" deyirdi Sartre. Mən özlüyümdə seçimlərin bu dəhşəti altında əzildikdən sonra sanki tapdığım cavablar məni bunu daha əvvəl demiş insanlara aparırdı. Gördüm

ki, düşündüyümün eynisini demiş nə qədər adam var. Hansıki onları heç vaxt oxumamışdım ya da anlamamışdım. *Mauvaise foi*, deyirdi Sartre məsələn. Bəd inam: əslində seçimləri öz əlində olan azad insanın özünü başqa çıxış yolum yoxdur deyə aldatması. Onu oxumamışdan məndə eyni şeyi düşünürdüm, ancaq bunu beynimdə ya dilimdə konseptləşdirə bilmirdim.

Sonra onları daha yaxşı oxumağa başlayırsan. İnsan, ətrafında danışacaq yaxşı bir dostu olmayanda ölmüş yazarların ruhları ilə söhbət etməyə başlayır və oxuyur. Amma sən oxuduqca sadəcə onlar danışırlar, sənsə susursan. Belə dialoq cansıxıcı ola bilər, hə? Ay sağol. Ona görə də danışacaq və onu başa düşən bir dostu olmayan yalnız insan, bir müddət oxuduqdan sonra danışmağa can atır və yazmağa başlayır. Bəlkə birgün biri oxuyar deyə. Bəlkə tam olmasa da, yarımçıq da olsa başa düşər kimsə. Ancaq heç kim oxumasa belə, o onsuz da yazarkən kimlərləsə söhbət etmiş olur.

Bütün bunlarla əlaqəli bir şey deyim. Bəzi kitablar və fikirlər var ki onları həyatının müəyyən bir dövründə ya da müəyyən ruh halında oxumasan başa düşə bilməzsən. Eynilə bəzi musiqi, film ya rəsm əsərlərinin müəyyən əhval, situasiya ya yaş içində olmadan anlaşılmayacağı kimi. Yeniyetməykən güclü və böyük yazarları oxuyanda böyüklər mənə deyirdilər ki "sən onlardan oxusanda nə başa düşəcəksən sanki, hələ o yaşın deyil". Əsəbləşirdim. Ağıl yaşda deyil başdadı deyirdim. Çünki yaşım az idi. Əslindəysə elə deyil. Ağıl tamamilə yaşda olmasa da yaşın, yəni zamanın öyrətdiyi çox təcrübə var. Bəzi şeyləri vaxtı gəlmədən anlaya bilməz insan. Başa düşə bilmirdim ki, məgər bir kitabda mənlə məndən 10 yaş böyük birinin fərqli formada oxuyacağı ya anlayacağı nə ola bilər ki? Ancaq doğruydu, illər sonra bənzər kimsələri ya da elə eyni kitabları oxuduğumda, paraqrafların arasında gizlənən o çığlıqları görə bilirdim. Çünki sinəmdə yaranmış o təlaşın əks sədası idilər. Beş sözlük bir cümlənin içindəki paraqrafları görə bilirdim artıq. Varoluş böhranını hələ yaşamamış biri o haqda yazılmışları nə dərəcədə dərk edə bilər? iyirmi yaşlı biri, otuz yaş böhranını

nə dərəcədə düşünə ya hiss edə bilər? İntihara meyilli olmayan biri, intihara meyilli birini necə başa düşə bilər müşahidə etmədən. İki insan, bir-birini tamamilə necə başa düşə bilər? Damarından içəri heroin girməmiş insan, heroin aludəçisiliyin necə dərk edə bilər? Qırmızı rəngi heç vaxt görməmiş biri, qırmızının rəngini necə təsəvvür edə bilər?

İnsan bir hadisəni özü təcrübə etmədən dərk edə bilər ya yox? Nə dərəcədə dərk edə bilər? Rasionalizm haqlıydı yoxsa empirizim? Bilgi ağıla dayanır ya təcrübəyə? Məsələn bir yeniyetmə, etməməsi gərəkən şeylərin mahiyətini dərk edə bilər yoxsa onları təcrübə etməlidir birincil əldən və ancaq ondan sonra dərk edə bilər? Qısaca: insan bir məsələnin mahiyyətini başı daşa dəymədən anlaya bilər, yoxsa başı daşa dəyməlidir?

Hər nə qədər rasionalizm ağır bassa da, bəzən empirizm haqlı çıxır. İnsan əvvəlcə bir şeyi təcrübə etməlidir ki sonra onu başa düşsün. Məsələn öz ölkəsindən xaricdə heç vaxt yaşamamış insan "getməyin" mahiyyətini tamamilə anlaya bilməz. Təcrübə etməlidir.

Otuz yaş krizinin nə olduğunu bir yeniyetmə ya iyirmili yaşlardakı bir gənc anlaya bilməz, təcrübə etməlidir. Tabula rasa. Yaşadıqca öyrənirik.

Yeniyetmə o qədər xoşbəxt ya başı həyata o qədər qarışıqdır ki, o irəli yaşlarda varoluş böhranını dərindən yaşamadan bunun nə olduğunu heç vaxt tam olaraq anlaya bilməz. O oxusa belə Sartreni, Nietzscheni, Kierkegardı heç vaxt tam başa düşə bilməz. Ağrının nə olduğunu bilməyən biri, Nietzscheni necə anlaya bilər?

Evlənməmiş biri, boşanmağın mahiyyətini dərk edə bilməz. Hər insanın yaşadıqları və təcrübələri unikaldır demək ki, bir insan başqa bir insanı heç vaxt sözün əsl mənasında başa düşə bilməz. Hal-hazırda sənin məni tam mənada başa düşmədiyin kimi.

Yeniyetmə nə qədər oxuyur oxusun, bilir bilsin, özündən 5-10 yaş böyüklərin həmişə ondan artıq bildiyi nəsə olacaq. Təcrübələr. Mən indi yeniyetmə ikən olan fikirlərimin yarısını

inkar etdiyim kimi, bundan on ya iyirmi il sonra da sağ olsaydım, indiki fikirlərimin yarısını inkar edəcəkdim. Məsələn əlli yaşımda hələ də sağ olsam bəlkə də uşaq doğmaq ya intihar etmək anlayışlarına başqa cür baxardım. Onsuz da əlli yaşlı biri sağdırsa, deməli onun genləri ona qalib gəlib və o intihar etməməyin yaxşı olduğuna aldanıb ya inanıb. Bu həbsxana dünyada nə qədər çox vaxt keçiririksə o qədər artır onun barədəki fikirlərimiz.

Özün düşün, bir həbsxanaya yenicə gəlmiş üç günlük məhbusun məsələn, həbsxana barədə fikri nə qədər güclü ola bilər? Bir də ordakı otuz ya əlli illik məhbusu düşün? Zaman, zarafat deyil.

Sonra üç günlük məhbusun bir ili dolur və o həbsxana barədə öz fikirlərini dilə gətirəndə görür ki əslində bunların çoxu çoxdan deyilib. "Bütün yaxşı fikirlərim qədim filosoflar tərəfindən oğurlanıb" deyirdi Emerson.

Yəni deyirdi ki dediklərimizin çoxu deyilib. Sən eyni şeyi iyirmi yaşında oxuyursan ancaq sənə çatmır, sonra otuz yaşında dərk edirsən və sanırsan ki nəyisə kəşf etmisən, ancaq oxuyub görürsən ki iki yüz əvvəl məsələn kimsə bunu deyib artıq. Önəmli olan məsələn Nietzsche oxumaq deyil, onun nə demək istədiyini anlamaq ya müşahidə etməkdir. Bütün insanlar filosofdur. Sadəcə bəzilərinin müşahidələri daha güclüdür və hisslərini linqvistik yolla, sözlə daha yaxşı ifadə edə bilirlər, onlara əsl filosof deyirik. Ya da filosof həm də odur ki məsələyə həm də həll yolu tapır. Ya da Şopenhaurun dediyi kimi "İstedad hamının gördüyü nişanı düz ortadan vuran insandırsa, dahi hamının görə bilmədiyi qədər uzaqdakı nişanı düz ortadan vuran insandır", ya da əsrinin irəlisini görə bilən insan.

Amma Emerson həm də onu deyirdi ki bütün insanlar unikladır, yəni bütün fikirlər deyilməyib, sənin də deyəcəklərin var və fikirlərinin arxasınca get, onları dilə gətir. Emersonu o qədər sevirəm ki, xatırlayanda sinəmdə güllər açır və damarlarım yaşam eşqiylə dolur. Ölümqabağı ondan danışmaq kefimi po-

zur. Məni bu halda görsə babat danlayardı öz lirizmiylə. Onun yaşadığı o lənət soyuq şəhərdə iki il yaşadım, ancaq onun nikbinliyinə sahib ola bilmədim.

Bütün insanların gözəl fikirləri, zövqləri, hissləri var. Ancaq hamı onları nümayiş etdirə biləcək qədər bəxtli olmur. Təsadüflər, şanssızlıqlar və imkansızlıqlar. Musiqi zövqü gözəl insanlar var məsələn. Mozartlar çoxdu. O insanları sevmirəm ki onlar sadəcə bir Mozart ola biləcəyini sanırlar. Xeyr. Qəbirsanlıqlar ölü Mozartlar və ümidlərlə doludur.

Əsrimizin Mozartı bəlkə də sizin küçənin avtobus şoferidir. Ancaq təsadüflər ondan yana işləməyib, xoş-bəxt olmayıb. Sadəcə bir Mozart olduğunu sananlar həm də elə sanırlar ki onlardan birdənədir. Əsrin xəstəliyi. “Mən xüsusiyəm” xəstəliyi. Xeyr, deyilsən, amma həm də eləsən, hə. Bir sahədəki uğurlu biri, o sahədəki bəxtigətirmiş olan kimsədir, yeganə bacarıqlı insan yox. İnsanlara şans verilsə əgər, öz bacarıqlarını göstərə biləcəklərinə inananlardanam.

Hər insan sənətçidir, sadəcə bəziləri, daha güclü sənətçidir. Sənətçi demişkən, seçimlərlə hər insan baş edə bilmir, nəyi seçməli olduğunla yəni. Bəlkə də, sənətçi o insandır ki o ideal seçimləri intuisiyası ilə hiss edib, tapıb tətbiq edə bilir. Sanki düşünmədən əmindir. Bir rəssam, musiqiçi ya yazar. Hansı rəng, hansı nota ya hansı söz ya cümlənin növbəti gələcəyini ya gəlməsi gərəkdiyini hiss edə bilir. Yaşama sənətini yaxşı bacaranlarda da elədir, onlar həmişə sanki nə etmələri gərəkdiyini bilir kimi olurlar əvvəlcədən və yaşama sənəti, hər insanın bacara bildiyi bir şey deyil.

Kaş ki mən də gözü yumulu yaşaya bilsəydim. Heçnə seçmədən ya da seçimlərimdən əmin formada.

Sənətçi demişkən. Sənətçi bütün seçimlərə açıq insandır mənə görə. Konservativ, mühafizəkar ya qapalı düşüncə formasının xaricinə çıxmağı bacaran insandır. Yaradıcılıqla konservativ düşüncə arasında güclü bir əlaqə olduğunu düşünürəm. Çünki yaradıcılıq yenilikçilikdir. Konservativ insan isə yenilikçiliyə soyuq baxır. Məsələn ədəbiyyatçı, rəssam, mu-

siqiçi, rejissor ya heykəltaraş sənətində etmək istədiyi ənənəyə qarşı bir dəyişikliyi “başqaları nə deyər” deyə düşünüb etməsə, yenilik və yaradıcılıq olmaz. Yaradıcı düşüncə, öyrəşilmişin xaricinə çıxa bilmə cəsarətidir. Başqalarının nə düşünəcəyini vecə almadan.

* * *

Bilirsən, mən taleyə inanan insan deyiləm. Müqəddəratımız öz əlimizdədir. Ancaq bəzən determinist damarım tutur və özümü aldadıramki bir alın yazım var deyək ki. İnan, o qədər rahatlayıram ki, görməlisən. İnsanın sinəsinə elə bil qızmar yay günündə sərin su səpilir. Tamamən boşalır bədənim. Sinəmdəki bütün dərdlər yox olur. Düşünürəm ki vəssalam, əgər bu mənim taleyimdirsə, demək ki heçnə edə bilmərəm. Ya da nə edirəmsə edim olan olacağına varacaq. Əlimdən heçnə gəlmir və sadəcə qəbullanmaq zorundayam. Həm də onda başa düşürəm ki, əslində mənim ya bizim dərdimiz keçmişimizlə deyil, gələcəyimizlədir. Çünki keçmişdə olan olub və bitib, ancaq gələcəkdə hər şey öz əlimizdədir. O zibilə qalası fikir ki var ha, "öz əlimizdədir", məni dəli edir. Yerində dura bilmirsən, çünki hər an gələcəyini dəyişdirə biləcəyin ideyası səni həm məst edir həm də məhv edir.

Ancaq, azad iradənin əksinə, düşünəndəki sənin bir alın yazın var, onda insan rahatlayır ki onsuz da nə edirəmsə edim, heçnə dəyişməyəcək.

Teoloji olaraq başa düşmə alın yazısı deyəndə, məni kvant deterministikası daha çox cəzb edir. Nəzəriyyəyə görə dünya yarandıqdan sonra bütün atomlar, zərrəciklər müəyyən bir trayektoriyanı izləməyə başlayıbılar və əgər biz hesablaya bilsəydik o zərrəciklərin sonrakı istiqamətlərini bilə-bilərdik. Bədənindəki zərrəciklərin nə edəcəkləri onsuz da məlumdur deyir yəqi qısaca. Einstein buna inanırdı, "tanrı zər oynamır deyirdi". Ancaq Heisengberg onu səhv çıxardı müəyyənsizlik prinsipi ilə.

Amma yenə də bəzən mənim buna inanasım gəlir, onda rahatlayıram. Dinlərin indiyə qədər insanları belə rahat yaşada bilmə səbəbi bu idi, insanlar öz bədbəxtliklərini taleylərinin üstünə yıxaraq rahatlayırdılar. "Mənim taleyim belədir", “nə etsəm dəyişməz” məntiqiylə. Möhtəşəmdi əslində. Kaş mən də elə olaydım. Ancaq mənim üçün artıq özümü belə bir düşüncəyə inandırmaq dişlərimi dişləmək qədər çətindir. Çünki başa düşürəm ki həyatının azadlığı tamamilə sənin əlindədir. Bəhanələrinin yarısı özünü aldatdığın illuziyalardır.

Sabahın hələ yazılmadığının fərqindəsən? Bir düşün bunu. Sabah yoxdur, hələ ki. Hələ ki bu dünya üzərində heç kim sabahı yaşamayıb. "Gənclərin ən çox etdiyi səhv odur ki, onlar elə bilir ki gələcək var" deyirdi bir üstad, ya da buna bənzər bi cümlə idi. Düşün bunu, gələcək gələcək dediyin şey yoxdu, qarşıdakı bir ili düşün. Düşündün? Hələ yoxdu hə? Boşluqdu? Ya da sənin xəyalında canlandırdığın illuziyalardan ibarətdir. Sabahı, seçimlərinlə quracaqsan, yazılacaq tarix o seçimlərdən ibarət olacaq. Üstad “gələcək var sanırlar” deyəndə vurğuladığı nöqtə daha çox o idi ki hər şeyi gələcəyə saxlayırlar sanki var olduğundan yüzdə-yüz əminmişlər kimi. Gənc bir yazar, ilk romanına gələcəkdə başlamaq istəyərək təxirə salır. O mükəmməl anı gözləyir, bir bütün olaraq heç vaxt reallaşmayacaq mükəmməl an. Ya da ən sonda gözləntilərini o qədər endirəcək ki aşağı, əslində başda başladığı şəraitlərə mükəmməl an adı verəcək. Sabah yoxdur. Sadəcə indi var. Sadəcə insanın qurduğu təqvim və saat var. Bohemian, hedonist, carpe diam fəlsəfəsi burdan gəlir və bir seçimdir. Anı yaşa. Gələcək? Hansı gələcək? Nə qədər əminsən? iyirmili yaşlarında təsadüfən ölmüş bütün gənclər gələcək var kimi yaşayırdılar həyatlarının bir dönəmində. Ancaq artıq onlar yoxdular. Biz burdayıq, onlarsa keçmişə gömülü. Hansı fikirlər ölüb onlarla görəsən? Hansı xəyallar ölüb? "Məzarlıqlar" deyirdi üstad, "neçə böyük ideyalarla doludur o məzarlıqlar", bir düşün deyirdi üstad, "neçə böyük ümidlərlə doludur” Amma, bu da bir seçim deyilmi? Anı yaşamaq ya planlı yaşamaq? Bu bir çox

şeyin nisbi olduğu dünyada başqa bir insanı mühakimə etmək nə qədər doğrudur onda madam ki hər şey seçməyə bağlıdır? Biz insanları, seçdikləri seçimlərə görə kategorizasiya edərək adlandırmalar edirik. Birinə öz cinsi ilə yatmağı seçdiyi üçün qey və ya lezbiyan deyib ona mənalar yükləyirik. Kiminə görə o bir pozğun və tərbiyəssiz ikən, kiminə görə sürünü dinləməyib istəklərinin arxasından gedəcək qədər üsyankar olduqları üçün əziz dostdurlar.

* * *

Hər şey nisbidir Hera. Hər şey insandan-insana həm fərqli həm nisbidir. Hər şey ona baxanın gözünə görə dəyişir, fərqli ya nisbi dəyərə və mənaya bürünür. A'nı qəbul edən insan B'nin doğruluğunu qəbul etməkdən imtina edir ya da hər ikisini qəbul və inkar edir. Biz heç birimiz eyni dünyaya baxmırıq. Biz hamımız öz gözümüzdə qavradığımız dünyaya baxırıq. Sadəcə bir obyekt var: dünya. Ancaq 7 milyard subyekt var: insanlar. Deməli 7 milyard subyektiv dünya var. Reallıq subyektivdir. Kişidən-kişiyə dəyişir Subyektiv idealism ya da Fenemenologiya. Sənin gördüyün dünya ilə mənim gördüyüm dünyanın fərqli olmasının iki fundamental səbəbi var: genetikamız və təcrübələrimiz.

Biz doğularkən onsuz da fərqli başlanğıc versiyalarla başlayırıq həyata. Sənin doğumda sahib olduğun bütün fərqli xüsusiyyətlərin sənə dünyanı fərqli formada qavradacaq və hiss etdirəcək. Üstünə də daha sonra yaşayacağın təcrübələrini gələcik, uşaqlıq vaxtı səni böyüdən insanın xarakteri belə sənə təsir edəcək və o istiqamətdə böyüyəcəksən. Beləcə hamı fərqliləşdikcə, gördükləri dünya da dəyişəcək. Kasıb uşağın gözündə dünya işgəncə olacaq ikən, varlı uşağının gözündə dünya əyləncə mərkəzi kimi görüləcək.

Hər ikisi eyni dərəcədə vacib amildir, həm bu reallığa baxış bucağımızı dəyişən təcrübələrimiz həm də genetikamız. Genetika və təcrübələri bir insanı intihara meyilli də edə bilər,

intihara axmaq hərəkət ki baxan biri də edə bilər. Bir insanı işləməyi sevən biri də edə bilər, işləməyə nifrət edən biri də. Bir insanı ailə adamı da edə bilər, ailə anlayışına nifrət edən biri də. Bir insanı nizamlı, hər qaydaya əməl edən də edə bilər, üsyankar, əxlaqsız və asi də edə bilər. Bir insanın narkotik aludəçisi olması da genetika və təcrübələrinin onda yaratdığı şəxsiyyətdən asılıdır, narkotik aludəçilərinə nifrət edən biri olması da.

Bütün bu dediklərimə qulaq asanda sənə də elə gəlmirmi ki sanki onsuz da bizim üçün biçilmiş bir yarı-taleyimiz var? Bayaq sənə dediklərimi indi daha yaxşı başa düşə bilirsənmi? Mən taleyə inanan insan deyiləm deyirdim ancaq sahib olduğumuz bir yarı-taleyimiz olduğu danılmazdır elə deyilmi?

Mən bəlkə də getdiyim hər yerdən qaçaraq taleyimə həyatım və azad iradəm öz əlimdədir deməyə çalışırdım ancaq indi başa düşürəm ki hara gedirəmsə gedib sahib olduğumuz yarı-deterministik həyatımızdan qaça bilmərik.

Hər şey genetika və təcrübələrdir Hera. Yaşayacağımız təxmini həyat formaları onsuz da biz doğularkən məlum olub. Genetika və doğum determinizmimizlə. Sən Minnesotada doğulmusan məsələn, mən başqa bir şəhərdə və hər şəhər bizə öz xarakteristikasından bağışlayıb. “Minnesota nəzakəti” deyə məşhur söz var bilirsən məsələn, Minnesotalılara dost canlısı və təcrübə və yeniliklərə açıq olduqları üçün verilən ləqəb. Təqdiqatlara görə siz Minnesotalılar Amerikadakı ən dost canlısı insanlarsınız. Şimaldakı insanların çoxu hətta, cənubdakılar isə kobud insanlardılar. Çünki məsələn bir açıqlaması odur ki sənin şəhərində evlər bir-birinə yaxındır və balaca şəhərciklərdən ibarətdir deyə şəhərdəki hamı bir-birini tanıyır və hamı beləcə isti qanlı olur. Elədir hə? Ay sağol. Görürsən? Doğulduğun yer çox sadə formada sənin xarakterini necə dəyişir? Bəlkə də sən mənim təyyarə tuvaletində sevişmə təklifimə sadəcə ona görə yox demədin ki, çünki Minnesotalılar yox deməyi bacarmır. Nəzakət xətrinə istəməsələr də hə deyirlər onlardan istənilən şeyə. Bunun kimi nə qədər dərinə ensən

misallar tapacaqsan. Məsələn linqvistik determinizmə də inanıram mən. Doğulduğun dilin sənin düşüncə formana və dünyanı qavramana təsir etməsi. Sən və mən, başqa dillərdə böyümüş insanlar olaraq başqa cür qavrayırıq dünyanı və buludları.

İnsan xarakteristikalarını psixologiyada beş fərqli şəxsiyyət növünə bölürlər: açıqlıq, intizamlılıq, ekstrovertlik, xoşluq və nevrotiklik. Həmçinin bunların əks xarakteristikaları. Bütün bu xarakter növlərinin müxtəlif birləşmələrindən cürbə-cür insanlar yaranır. Sonra bu insanlar bir-biri ilə dava edirlər, özlərini üstün tuturlar, fəxr edirlər ki sən eləsən mən belə. Hansı ki heç birinin öz əlində deyil. Belə doğulublar. Və təəssüf ki bəli bəziləri daha üstün doğulub genetik olaraq. Bəziləri zəki doğulub, ünsiyyətcil doğulub, daha az nevrotik doğulub. Həmin insanlar təkamülün ən güclüləridir və indiki dünyanın tələb etdiyi sürülərdir. Ancaq yenə də optimum insan forması yoxdur. Hər insan başqa bir situasiya üçün daha yaxşıdır.

Bəzi insanlar açıqdırlar, bəziləri qapalı, bəziləri nevrotik bəziləri sakin. Beyninin içində iki insanla yaşayan insanlar var, yaşamağa məcbur olan insanlar var, ikidən çox şəxsiyyətlə yaşayanlar var, buna görə dəli olanlar var. Onlar adətən daha az gördüklərimizdirlər, dəlixanaya tıxadıqlarımız. Ancaq unutmuş olduğumuz bir şey var: dəlilər varsa, dəliliyə keçiş mərhələsində ilişib qalıb, özünü saxlamağa, qurtulmağa çalışan insanlar var. Dəliliklə dəli olma arasındakı o incə cizgidə yaşayan insalar var. İnsan, adətən hamıya sanki özüymüş kimi baxmağa davam edərək o insanların bütün o dəliliyə rağmən normal olmağa çalışma cəhdlərini göz ardı edir və yeri gələndə o insanları başa düşmədiyini deyir. Burası dəqiqdir amma, başa düşmür, düşə bilməz. Bir insanı tamamilə başa düşmək mümkünsüzdür. Bütün insanların iç üzünü və düşüncələrini görə bilsəydik əgər, bu qədər insanın birlikdə necə yaşadığına heyran qalardıq. Bu çərçivədən məsələn, bütün olmuş və olacaq müharibələr heç də dəlilik kimi görülmür, bu sadəcə bir izhar ya təzahürdür. Dəliliyin təzahürü.

“Xarakter taledir” deyirdi Heraklitos. Möhtəşəm ifadədir.

Sənin sahib olduğun xarakter həyatının xülasəsidir. Xislətin taleyindir. Günün birində intihar edəcəksənsə əgər bu onsuz da genlərində yazılıb bir növ. Genlərinin sənin həyatında müəyyən etdiyi şeylərin hamısını bilsən çaşıb qalardın. Məsələn alkoloq aludəçiliyi ya evliliyə nifrət etmə ya da bu ikisinin tam tərsi, evlilik üçün can atma və alkoqol sevməmək genetikdir, adını unutduğum bir genin uzunluq dərəcəsinə görə dəyişir insanlarda. Xəyanəti vecinə almayan insan və nifrət edən. Buludları sevənlər və nifrət edənlər.

Məsələn bir misal, DRD4 deyə bir gen var, dopamin maddəsinin şablonunu kodlayan gen. Dopamin də ki həzzin kimyəvi maddəsidir. Yemək, seks, musiqi, narkotik qəbulu zamanı insanın həzz almasına səbəb olan şey. Bu genin 7R+ deyə bir alleli var, variasiyası yəni, fərqli forması. Beyninin hansısa bir hissəsinə digərindən daha artıq dopamin paylayır və beləcə hamı fərqli şeylərdən zövq alır. Bu 7R+ variasiyası olan insanlar məsələn, maddi risk altına girməyə daha meyilli olurlar, seksual müxtəlifliyə meyilli olurlar yəni hər qarşılarına çıxan bəyəndikləri insanla yatmaq istəyirlər və ən əsası yenilik axtarışçısı olurlar, yeniliyə aludə olurlar. Məsələn bir insanın həddindən çox miqrasiya etməsi, hər dəfə bir yerdən başqa yerə köçməsi onu buna vadar edən yenilikçi genetikasıdır. Bəzi insanlar axşama qədər evində otursa da canı sıxılmır, bəziləriysə yeni nələrsə kəşf etmədikləri gün depresiyaya girirlər.

Bütün bu xarakteristikalar ilk insanlardan bizə qalmış miraslardır. Məsələn ilk insanı Afrikadakı əlverişsiz şəraitdən çıxarıb yeni torpaqlar axtarmağa, Avropa ya Yaxın şərqə miqrasiya etdirən gen, 7R+ allelinin təsiri idi.

Bütün bunları sənə bilirsən niyə deyirəm? Yəni başa salmaq istəyirəm ki xoşbəxtlik və bədbəxtlik genetikdir. Ya da ən azından yarı mənada. Mən bugün ölümə gedirəmsə, yarı səbəbkarı da sahib olduğum genetik variasiyadır. Pessimistliyim və depressivliyim genetikdir. Günhakar mən deyiləm ya da özümü buna inandırıram. Mauvaise foi.

Məsələn başqa bir gen, 5-HTTLPR geninin serotonin da-

şınmasında rolu var və depresiyanı azaldır. Stresi az hiss edir həmin insanlar. Sözsüz ki içində olduğun situasiyaya da bağlıdır həyatdan məmnunluq dərəcən amma bu geni uzun olan insanlar məsələn vəziyyət pis də olsa stressi az hiss edir. Qısa olanlar da isə bəzən hər şey yaxşı belə olsa həmişə narahatçılıq yaşayırlar. Həmçinin bu geni uzun olanlar optimist olurlar, nikbin olurlar.

Elm adamları insanlara hər şeyi demirlər, bunları demirlər məsələn, daha doğrusu fakt olaraq təqdiqatı əlbətdəki nəşr edirlər ancaq söhbətlərində heç vaxt bunları vurğulamlırlar. Bilirsən niyə? Çünki xoşbəxtliyinin bu qədər ifrat dərəcədə genlərinə və bialogiyasına bağlı olduğunu desən bir insana, təşvişə düşəcək, özünü yeyib bitirib məhv edəcək. Və hətta intihar edəcək. Hansı ki insanların bu şeylərdən xəbərləri belə yoxdur. Onlar hələ də xoşbəxtliyi axtarırlar. Hansı ki bəziləri heç vaxt xoşbəxt ola bilməyəcək, gedib onlara bunu desən, inandırsan, intihar edəcəklər. Bəziləriysə doğuşdan xoşbəxt doğulublar. Xoşbəxtlik axtarışımı? Elm 1999-cu ildə tapdı o xoşbəxtliyi. Ekstrovertlik – nevrotizm = xoşbəxtlik. Kefin pozuldu? Məndə pozulmuşdu, ilk bu formulu görəndə. Təşvişə düşmüşdüm. Görəsən məndə hansı daha çoxdur ekstrovertlik yoxsa nevrotizm deyə suallara qərq olmuşdum. Ekstrovertlər pozitiv emosiyalara meyillidir, nevrotiklər isə neqativ emosiyalara. Vay o insanın halına ki onun xislətində ekstrovertlik minimum, nevrotizm isə maksimumdur. Deməli o insan əsl bədbəxtdir.

İstəyirsən əsəbləş, xoşbəxtlik kimi ülvi bir məqsədin riyazi formullarla sübut olunmayacağını qışqır bağır, istəyirsən otur ağla, heçnə dəyişməyəcək. Sənə daha da betər bir rəqəm verim? İnsanın həqiqi xoşbəxtliyinin bu formul ilə neçə faiz əlaqəsi olduğunu bilmək istəyirsən? 50%-75%. Dəhşətli rəqəmlərdir. Ancaq yenə də geri qalan 25-50%-lik hissə ilə öz xoşbəxtliyini qurmaq üçün çabalaya bilərsən. Sənin üçün bu daha asandır, pulun var, kasıblar üçün o da zülümdür. Hətta o geri qalan faizdən əgər insanların olduqları situasiyaları, aldıq-

ları travmaları çıxsaq geri qalır 5-10%. Yəni xoşbəxtliyinin 10 faizi sənin əlindədir. Di get bu informasiya ilə yaşamağa çalış, bacarsan.

Bu arada, qadın olduğun üçün diqqətini çəkəcək başqa bir fakt da deyim sənə xoşbəxtliyinlə bağlı. Ancaq o nikbin və yaxşı xəbər üçün yalvaran mavi gözlərinlə baxma elə yazıq-yazıq. Səni o qədər çox sevirəm ki deyə bilməyəcəyəm yoxsa. Yaxşı xəbər deyil. Qadınlar cinsi yetkinliklərinə qədər oğlan uşaqları ilə eyni dərəcədə az nevrotik olurlar. Amma sonra qadınlar cinsi yetkinliyə girdikdən sonra daha çox nevrotik olmağa başlayırlar. Daha depressiv və qəmli olurlar. Ən sadə şey üçün belə ağlayırlar çünki nevrotik sistem işə düşür və özlərini təhlükədə hiss edirlər. Ancaq təkamül bir tərəfdən alanda bir tərəfdən də verib, daha çox ağlayırsınız, hansı ki stres azaldıcı kimyəvi maddələr buraxılır bədəninizə. Qadınlar nevrotik formlaşıblar çünki zəifdirlər, özlərini qorumalıdırlar, uşaqları ola bilər və s. Yəni qadınlar həm də lənətlənib təkamül tərəfindən. Kişilər kimi.

Canını çox sıxdığımı bilirəm. Ona görə gəl sənə biraz kefini açacaq bir şey deyim. Bütün bu genetik deterministikamızın yaratdığı bədbəxtliyə baxmayaraq, yenə də az da olsa xoşbəxt ya dinc olmaq üçün bir yol var. Nevroplastiklik. Beyninin formasını dəyişə bilərsən. Pozitiv psixologiya. Beyninin düşünmə və hiss etmə formasını dəyişə bilərsən. Beyin bütün instrumentləri öyrəndiyi kimi hər şeyə alışa bilir. Nə oxuyursansa ya nəyə baxırsansa ona çevrilirsən. Nə düşünürsənsə ona çevrilirsən. Sadəcə yalan yerə gülərkən belə beyinə pozitiv impulslar göndərilir və bu daimi edildiyi zaman vərdişə çevrilir. O keyfiyyətsiz müvəffəqiyyət və xoşbəxtlik kitabları gücünü məhz bu plasebodan alır. Ucuz xoşbəxtlik kitablarında səfsətə də yazılmış olsa beyin ehtiraslanır. Hər nə qədər bərbad situasiyanın içində yaşasan da beyninin o vəziyyəti görmə və hiss etmə formasını dəyişə bilərsən. Özünü aldatmağı bacarırsansa. Mən bacarmadım məsələn.

Mən həmişə motivasiya verən ucuz Hollywood filmləri-

nin izlənilməməsi gərəkdiyini müdafiə edirdim. İnsanlar izləyib cuşa gəlir sonra öz həyatlarında eyni şeyləri görə bilməyib ruhdan düşürlər deyə. İzlədiyin şeyi diqqətli seçməlisən, ona çevriləcəksən çünki. Bütün bir nəsil o filmlərlə böyüyür və yarısı o filmlərin yaratdığı boynu bükük imitasiyalardır. Ölü ümidlərinə məzar axtarırlar. Ancaq yenə də əmin deyiləm, o tip filmlər izlənilməlidirmi yoxsa yox. Axı onları daha çox motivasiyalı edir.

Nevroplastiklik çox yeni sahədir. Əvvəllər elm buna inanmırdı. İndi isə şübhə içindədir. Yəni insanın beynini dəyişə biləcəyinə. Onun kimi yeni və əvvəllər elmin inkar etdiyi indi isə yeni-yeni şübhə etməyə başladığı başqa maraqlı bir sahə daha var, Epigenetika. Lamark 18ci əsrdə demişdi ki canlılar həyatları boyu öyrəndikləri şeyləri və dəyişiklikləri törəmələrinə ötürə bilərlər. Ancaq elm sonra onu yalanladı. Başqa sözlə deyirdi ki məsələn sonradan riyaziyyat ilə məşğul olmağa başlamış və riyazi hesablama qabiliyyətini inkişaf etdirmiş insanın yeni qazandığı hesablama gücü uşağına keçə bilər. Elm isə deyirdi ki yox, DNA dəyişmir. Ancaq sonra ortaya çıxdı ki yox, ötürülmə mümkün ola bilər. DNA dəyişmir bəli, ancaq ötürülmüş genlərin yeni bədəndə “ifadə” formaları dəyişir. Məsələn insan sonradan pessimistləşməyə başlasa, uşağı da pessimist təbiətli ola bilər. Bu xüsusiyyət daha yaxşı adaptasiya üçün inkişaf edib sözsüz. Amma mənə burda maraqlı olan odur ki, deməli insan genlərinin ifadə formalarını dəyişə bilirsə əgər, o qədər də bədbəxt deyilik bəlkə də. Əlbətdə ki bu çox çətin prosesdir, sahib olduğun təbitəini, xislətini dəyişmək. Hətta elm də bunun nə qədər mümkün olduğuna şübhə edir. Nikbin bir ümid axtarırsansa bu iki yeni sahənin haqlı çıxması üçün axşamlar dua et. Bəlkə bədbəxtliyindən qaça bilərsən.

Bütün bu dediyim şeyləri nəzərə alsaq, yəni bəzilərimizin bədbəxt ya da əlverişsiz genetika ilə doğulduğunu düşünsək və həm də təkamülün hələ də davam etdiyini düşünsək əgər, onda deməli insanların bəziləri əslində həyatda qalmaq üçün ən yaxşı psixologiya sahib deyil. Qıçı qırıqdır çoxumuzun. Şikəstik.

Aramızdakı 10 faizlik xoşbəxtlərə baxıb mən niyə elə xoşbəxt deyiləm deyirsən, çünki sən təkamülün ən yaxşı məhsulu deyilsən deməli. Burda səhv edirəm əslində, təkamülün ən yaxşı nəticəsi xoşbəxt insanlardır demək səhv olardı. Ancaq yenə də, anladın da sən məni. Bunu qəbul etməliyik. Taleyimizi qəbul etməliyik. Əsas da mənim kimi bədbəxtlər. Sadəcə şikəst doğan uşaqlar deyil təkamülün neqativ məhsulları, psixologiyası güclü olmayan hamımızıq. Mental şikəstlər. Günahı hər şeyə atırıq özümüzdən başqa. Qəbul etməliyik, bəzilərimiz bədbəxtliyə proqramlanmışıq, təsadüfən. Çox pessimistləşdiyimi bilirəm yenə. Özümü intihara hazırlayıram sadəcə.

Əslində bu qədər pessimist biri deyiləm, vecimə də deyil genlərim. Axşama qədər şikəst genlərimi qucaqlayıb qız kimi ağlamıram yəni. Pessimist olmaq işin asan tərəfidir, çətin olan optimist ola bilməkdir bu xaousun içində. Sadəcə pessimizmin içindəki lirizmə aşiqəm mən. Bəzən öz melanxoliyana bürünüb ağlamaq insana ləzzət edir. Mənim ölümə getmə səbəbim işləmək istəməməyimdir sadəcə. Ya da yaxşı bir iş sahibi ola bilməmiş olmağım. Onsuzda depressiya məsələn, o qədər də çox yayılan xəstəlik deyil. İnsanlar həyatlarında işlərin yolunda getməməsi ilə depressiyanı səhv salırlar. Sadəcə dominant iyerarxiyanın aşağı qatlarında olduqları üçün xoşbəxt deyillər və elə düşünürlər ki bu depressiyadır. Yox. Məsələ situasiyadır depressiya yox. Bu dediklərimi sadəcə dialektik bir monoloq kimi başa düş. Yenə də bu saydıqlarım yaşasam belə, yaxşı bir işim olsa belə məni həmişə narahat edərdilər. Xoşbəxt belə olsaydım yenə də başqa həyat ehtimallarını düşünərdim. Acgözlük, qısqanclıq, hərdəmxəyallıq, qərarsızlıq, kimsə ya nəsə üçünsə darıxmaq ən əsas problemlərimdir. Bütün bunlar əslində istənilən insanın fundamental problemləridir.

Hamısı da təkamüli olaraq əslində insanı daha da güclü etmək üçün formalaşıb. Qısqanırsan və bunun nəticəsində öz üstündə işləyib qısqandığın şeyə yaxınlaşdırırsan özünü. Bizimlə oxşar profillərə sahib olub ancaq bizdən artıq şeylərə sahib olan insanları qısqanırıq. Bu hiss bizi içdən-içə məhv

edir, yeməyə başlayır bizi. Bizə bənzər insanları qısqanırıq, bizimlə eyni məktəbdə oxumuş ya eyni şəhərdə böyümüş, ya eyni yaşa sahib, amma bizdən uğurlu olanları. Çünki eyni şəraitdə səndən daha artıqdırsa biri deməli sən də edə bilərdin eyni şeyi ancaq edə bilməmisən. Heç kim prezidentlərin uşaqlarını qısqanmır məsələn, bənzər şəraitlərə sahib deyillər çünki.

Qısqanclıq çox güclü hissdir. Bəzən sevmədiyimiz birini niyə sevmədiyimiz barədə min bir səbəb axtarır ya deyirik, ancaq əslində özümüzə də etiraf etmək istəmirik ki o sevmədiyimiz şəxsi bəyənməmə səbəbimiz sadəcə olaraq dərin qısqanclıq hissidir. Yoxsa başqa hansı səbəblə bir yad insana o qədər dərin bir nifrət duyasan? Bir yazara, bir rejissora, bir tanışına ya istənilən kimsəyə olan nifrətin altında bəzən sadə bir səbəb yatır, qısqanclıq.

Mənim kimi ifrat dərəcədə çürümüş zavallılar isə sənin ağlına gəlməyəcək xırdalıqdakı detalları belə qısqana bilirlər. Hər şeydən əvvəl öz yaşama ehtimalım olub da yaşaya bilmədiyim həyatların əzabı səbəbilə ölmək istəyirəm. Başqa insanları qısqanmaq elə o demək deyil ki sənin həyatın onlardan pisdir, xeyir, həm də ona görə qısqanırsan ki, çünki o həyatı da yaşaya bilərdin ancaq sadəcə bir şansın var. Nə edirsən et gözün başqa ehtimallarda qalır. Bəlkə də sadəcə məndə ya mənimkimilərdə belədir. Vacib olan bir şey var: o da bu şey mənə yaşamağa icazə vermir. Yaşaya bilmirəmsə öz istədiyim həyatı, ölməliyəm. Səyahət edə bilmirəm. Yaxşı işim yoxdur, axtarmaq da istəmirəm.

Ümumiyyətlə yaxşı işlər və ya yaxşı həyatlar çox vaxt cahillərə ya axmaqlara nəsib olur. Çünki onlar nə qədər cahil ya axmaq olduqlarının fərqində olmadıqları üçün özlərinə inamları çox yüksək səviyyədə olur. Onlar özləri haqqında şişirdilmiş təsəvvürə sahibdirlər. Bacarıqlı insanlar isə həmişə özləri barədə şübhə içində olurlar, mükəmməlliyyətçi olurlar. Psixologiyada buna Dunning-Kruger effekti deyirlər. Bacarıqsız insanlar həmişə işlərdə yüksək vəzifələrə qalxır, nisbətən zəki insanlar isə həmişə altda qalırlar.

Ümumiyyətlə sən bu tip insanlardan soruşsan əgər, çoxu xoşbəxt olduqlarını deyəcəklər. Onsuz da bu lənətə gələsi Amerikada "xoşbəxt deyiləm" deyəni asırlar elə bil. Çünki kimdən soruşsan çoxu xoşbəxtəm deyəcək. Xoşbəxt olmayanlar da yalan yerə xoşbəxtəm deyəcəklər çünki başqa insanların onların bədbəxtliyini bilmələrini istəmirlər. Bəzən çaşıb qalıram ki yəni doğrudanmı ətrafımda hamı xoşbəxtdir məndən başqa? Ya da ölkənin yarısı cahildir, çünki cahil insan xoşbəxt olur deyirlər. Mən həyatımın elə bir mərhələsindəyəm ki, cahilliyə də razıyam, təki xoşbəxt olum. Əvvəllər cahillikdən kamilliyə, rahatlıqdan azadlığa qaçırdım. Bu səni bilməməkdən bilməyə aparır. İndi isə nə azadlığı istəyirəm nə kamilliyi. İndi sadəcə zövq və həzzə can atıram. Ruhumun deqradasiya olması da vecimə deyil. Onsuz da dünya bir həzz distopiyasına çevrilir. Seks, narkotik və digər aludəçiliklər reklam edilir və insanların bir çoxu bunda problem görmür. Qadınlar biologiyalarını inkar edib iyirmili yaşlarında hər istədikləriylə yatırlar, otuzlu yaşlarında isə tək qalırlar. Təbiəti buna meyilli olanlar bir kənara, ancaq çoxu istəməsə belə media və müasir acınacaqlı düşüncə axımının qurbanı olaraq edirlər bunu. Məsələn narkotik, deyək ki marixuana reklam edilir və bütün dəbə minmiş şeylər kimi onun da pis tərəfləri unudulub yaxşılar tariflənir. Hansı ki elə deyil, marixuananın da zərərli tərəfləri var və onu qəbul edib istifadə etməlisən. Hətta nihilizm və hedonizmin də zərərlərini bilib elə yaşamalısan.

Ümumiyyətlə bütün aludəçiliklərin səbəbi reallıqdan uzaqlaşmaqdır. Diqqət dağıtmaq. Porno, oyun, film, qumar, oxumaq, işləmək, seks, ibadət və s. bütün obsessiya və aludəçiliklərin səbəbi bir anlıq belə olsa reallıqdan uzaqlaşmaq üçündür. İzlədiyi film bir insana özünü unutdurmadığı vaxt onlar filmi sevmədiklərini deyəcəklər. Bir oyun oynayırsan, bir nöqtədən sonra bezsən də yenə oynayırsan çünki başını qarışdırır, reallıqdan ayırır. Çünki insanlar həqiqəti istəmirlər. Niyə də istəsin axı? Əgər onunla savaşa bilməyəcəksə?

Reallıqdan uzaqlaşmaq, narahatedici sakitliyi pozmaq və

yalnızlıqlarından qaçmaq üçün edirlər hamısını. Futbol komandası fanatikliyindən tutmuş, saatlarca boş-boş siyasət və din mübahisəsi etməyə qədər edilən bütün mənasız hərəkətlər bütünü insanın acizliyi səbəbilədir. Bəzi insanlar sadəcə ölə bilmədikləri üçün yaşayırlar. Bu bilirsən nə deməkdir? Yəni sən yaşamırsan belə, sadəcə sürünürsən. Həyatı yola verirlər yəni. Heç nə veclərinə deyil. Mən də onlardan biriyəm. Sadıəcə bir fil olmaq istəyərdim. Bir fil görəsən, həyatın nə qədər fərqindədir? O yeddi ton ağırlığı daşıyan yorğun və qırışmış ayaqlar varlıqlarının nə qədər fərqindədirlər? Tək işim otlamaq olsun istəyərdim. Həyatımla bağlı heç bir məsuliyyəti istəmir və hamısından imtina edirəm. Tabula rasaya ehtiyacım var. Beynim təmiz boşalsın, ağ səhifə olsun və yaşamağa davam edim. Əlacım olsa bütün yaddaşımı silərdim. Öyrəndiyim hər şeyi. Təki bilməyim keçmişimi, uzaqları, seçimlərimi. Məni gözləyənləri və mənim gözlədiklərimi. Ancaq bəlkə də sahib olduğum instiktlərim məni yenə də eyni xislətli adam edərdi.

Bütün bu şeyləri fikirləşəndə çox maraqlı gəlir mənə, insanlar gələcəkdə necə olacaqlar. Psixologiyaları necə dəyişəcək. Məsələn indi doğmamaq və uşaq sahibi olmamağı seçən nə qədər insan var. Bu insanların sayısı artacaq. İnsanlar yavaş-yavaş anlayacaqlar uşaq doğmağın nə demək olduğunu, əziyyətini və məsuliyyətini.  Çox az insan uşaq sahibi olacaq. Mənə o ehtimal maraqlıdır ki heç kim doğmayacaq və dövlətlər xüsusi cihazlarda böyüdəcək embrionları. Ya da insanlar doğmaq istəsə də cihazları seçəcəklər daha asan olduğu üçün. Ana bətnini əvəz edəcək cihazlar. Narahat edici fikir kimi səslənir sənə? Mənə səslənmir. Sentimentallaşmağa ehtiyac yoxdur. Gələcək insanının ana qarnından yox aparatdan çıxması fikri narahat etmir məni. Huxleyin kitabındakı kimi. “Bəs müqəddəs ana məfhumu? Tarixə qarışacaq!” deyə romantikləşən insanlar əvvəlcə bunu inkar edəcək, sonra isə özləri də qəbul edəcəklər. Çünki həmişə belə olub. Qəbul ediblər sonradan. Ana məfhumu mənə maraqlı deyil. Cənnət anaların ayaqları altındadır deyirlər, mənə görəysə cəhənnəm anaların ayaqla-

rı arasındadır çünki bu cəhənnəm dünyaya giriş qapısıdır ora. Kimisi üçün bu bəyan tam tərsinə ola bilər. Anaların ayaqlarının arası cənnət olan bu dünyaya girişdir deyə bilər kimsələr. Sənə demişdim, həqiqət subyektiv və nisbidir.

Bizi xoşbəxtlik aparatlarına bağlayıb beynimizə xoşbəxtlik kokteyli töksələr onunla da razılaşacağıq. Mən indidən hazıram. Korlanmış iyrənc bir ruha sahib olduğumu düşünürsənsə sənə pis xəbərim var, mənə baxaraq 21-ci yüz illiyin insanı nə hala saldığını görə bilərsən. O yüzilliyin məhsuluyam çünki.

Yenə də hər nə qədər ruhum korlanmış olsa da, ordan sənə nə qədər daş ürəkli görünsəm də, deyəsən elə deyil. Çünki məsələn balaca bir qızım olmasını o qədər istəyərdim ki. Çox qəribədir. Bir qızım olmasını və onu bağrıma basmağı çox istəyərdim. Onun üçün yəqin ki hər şeyi edərdim. Öz həyatımdan keçib onu böyüdərdim. Əlimdə olmazdı bu. Məsələn oğlum üçün etməzdim bunu. Bəlkə də ona görə ki qızlar həssas, zəif və müdafiəsiz olurlar. Bilmirəm. Bəlkə də mən ona görə uşaq sahibi olmağıma bu qədər qarşıyam ki o uşağa çox bağlanardım. Ona dəyəcək ən kiçik zərərdə belə məhv olardım bəlkə də. Bu qədər vecsiz biri olmağıma baxmayaraq, genlər və instikt hər şeydən güclüdür yəqin. Elə ona görə bəlkə də məsuliyyətdən qaçıram.

Bilmirəm. Fikirlərim çox tez-tez dəyişir və eyni anda iki zidd fikirə sahib ola bilirəm. İnsanın qaçılmaz xislətidir bu. Özümü bəzən hansısa yazarın əsərində bir obraz kimi hiss edirəm, kefi olanda xoşbəxtəm kefi olmayanda bədbəxt. Mənim kimilər intihara məhkumdur. Onsuz da ölümü həmişə sağ cibimdə gəzdirirdim. Hətta bir vaxtlar özümə son istifadə tarixi qoymuşdum, dişlərim çürüməyə başladığı an öləcəkdim. Çünki diş həkimlərini sevmirəm. Ancaq belə getsə dişlərimdən də tez öləcəm, onlar hələ salamatdır. Çox böyütməmək lazımdır intiharı məncə. Çox normal hərəkətdi. Həyat metaforik mənəda qatıldığın bir qonaqlıq kimidir, əgər bəyənmirsənsə qalıb qonaqlığın formasını dəyişməyə çabalamaq ya o qonaqlığa uyğunlaşmaq üçün əlləşməyə ehtiyac yoxdur. Sadəcə tərk etməlisən.

Gör mənim nə qədər dərdim var. Yoxsa səncə mən xəstəlik xəstəsiyəm Hera? Hə? Ordan necə görünür? Bir deyil, iki deyil xəstəliyim. Üstünə hələ nostalgiya xəstəliyini də gəl. Keçmiş necə ola bilərdi şübhələri. Keçmişdə olmayan xəyalı insanlar və bunun ağrısı. Keçmişdə sahib ola bilmədiyim qadınlar üçün üzülürəm, bugün sahib ola bilmədiyim qadınlar üçün üzülürəm, ölsəm də ölməsəm də gələcəkdə sahib ola bilməyəcəyim qadınlar üçün üzülürəm. Onlar üçün darıxıram.

Bəzən heç olmadığım və heç olmayan yerlər və kimsələr üçün darıxıram. Hara olduqlarını bilmirəm. Ya illər əvvəl yuxumda görmüşəm ya hansısa kitabda oxuduğum xəyali bir küçə ya dəniz sahili. Olmayan qadınlar üçün belə darıxıram. Yuxularımda gördüyüm ya kitablarda oxuduğum üzünü xatırlamadığım qadınlar üçün darıxıram.

Qadınlara bu qədər mübtəla olmağımın səbəbi sadəcə cinsi istək də deyil. Qadınlarla ünsiyyəti sevirəm. Ünsiyyəti və əlaqələri sevirəm. İnsanlarla fərqli formalarda tanış olmaq istəmişəm həmişə. Yanımdan keçən maşınların içindəki insanlarla məsələn. Oxuduğum ikinci əl kitablarda bir iz axtarırdım həmişə əvvəlki sahibindən. Bir not ki bu cümləni sevdinsə məni tap. Bir əlaqə, adres. Yeniyetmə olanda həmişə xəyalını qururdum ki oxuduğum ikinci əl kitabın içindəki notları izləyərək bir qızla tanışacam bir gün.

İnsanlara əsas da qadınlara niyə bu qədər bağlıyam bilmirəm, bəlkə də ona görə ki mən uşaq olanda ətrafımda çox insan olub, bəlkə də ona görə ki ətrafımda heç insan olmayıb.

Ən lənət şey odur ki, yaş artdıqca yeniyetməlik illərindən fərqli olaraq daha az insanla tanışmağa marağın olur. Ya da istəsən belə tanışa bilmirsən artıq, xoşun gəlməyən insan sayısı artır ya da həvəsin olmur. Çünki əvvəllər hər insan təzə idi, pis və maraqsız insanlar belə yeni idi deyə bir mənası var idi. Böyüdükcə seçici olursan. Mən hər cür insanla əlaqə qurub söhbət edə bilərəm, istər yalançı olsun istər əclafın, oğraşın biri olsun istər xəyanətkar, ancaq nə olur olsun axmaq olmasın bircə. Ancaq indi ətrafımda nə yalançılar qalıb nə xəyanətkarlar.

Bir vaxtlar o qədər xoşbəxt idim ki qalın romanlar ya filosofları heç sayırdım. Vecimə də deyildilər. Mənə maraqlı deyildilər. Məni sadəcə qadınlar maraqlandırırdı. Kimdənsə yaşama məsləhəti almağıma ehtiyacım yox idi. O qədər gənc, laqeyd, etinasız və enerjiliydim ki, məni sadəcə bir sonrakı sevgilimin göz rəngi maraqlandırırdı. Sonra bir gün, içinə düşmüş olduğum bütün o gözəlliklər və xoşbəxtlik yox olub getdi. Necə oldu özüm də bilmədim. İki il əvvəl. Özümü ta bugünə qədər sürən dərin bir bədbəxtliyin içində tapdım. Bir də ayıldım ki həyatımda qadından çox filosof və onların kitabları var. Qadınlarla arama girmiş məsafə öz istəyimlə deyil şərtlərin məcburiyyətiylə olmuşdu. Hər biri ayrı bir dünya olan qadınlardan uzaq düşmüşdüm. Kitablarda sanki nəsə bir təsəlli axtarırdım. Nəsə bir işarə. Ya da ən sadə dillə, özümə bədbəxtlik dostları axtarırdım yüz illər əvvəl ölüb getmiş. Kədərimi alqışlayacaq birilərini axtarırdım. Və başa düşürdüm ki əslində əvvəllər onlar haqqında yanılmışam, filosoflar və onların fikirləri əhəmiyyətsiz deyillərmiş. Ya da sadəcə özümü təsəlli edirdim çünki buna məcbur idim.

Yaşamaq, həm çox asan həm çox çətindir Hera. Yaşamaq improvizasiya etməkdir. Sanki bir şəkil çəkirsən ancaq nəyin şəklini çəkdiyini bilmirsən, sadəcə təsadüflərin səni apardığı yerə gedirsən. Kənardan necə göründüyünü heç vaxt bilə-bilməzsən. Kənardakı insanlar deyirlər necə göründüyünü. Onlar da hərəsi bir cür görəcəklər. Bütün seçimləri seçə bilmədiyin üçün unikallaşırsan. Yavaş-yavaş yaşama sənətini öyrənirsən. Hərə öz formulunu yaradır və o formaya girir. Həmişə görəsən kənardan necə göründüyünü düşünür amma heç vaxt bilmir. Görəsən kifayət qədər nəzakətlimiydim? Görəsən səhv anlaşılmadım? Görəsənlər və kaş kilər.

Acgözlüyüm yaşamağıma əngəl olan bir başqa səbəbdir. Gördüyünüz şəkillə o an sağollaşın, bir də görməyəcəksiniz deyirdi sevdiyim bir şair, Emerson. O şəkili ordaca unudun deyirdi. Çünki insan doymazdır. Eyni şeydən təkrar zövq ala bilmir çox insan. Eyni rəsm əsərinə dəfələrlə baxa bilmirik.

Bunun da səbəbi biokimyamızdır, dedim sənə. Yenilik istəyir dopamin mərkəzin. Musiqi məsələn. Eyni musiqini dəfələrlə dinləyə bilən insandır xoşbəxt insan. Çünki doyumsuz deyil. Sakitdir. Mənim kimilər bacarmır çünki həmişə yenisini və daha artığını istəyir və belə insanlar həmişə narahat yaşayır. Konservativlər sənə narkotikin ziyan olduğunu, çünki hər dəfə daha artıq doza istəyərək azla qənaətlənməyib öləcəyini deyəcəklər. Ancaq onlar sənə deməyəcəklər ki həyatla narkotik arasında çox cüzi fərq var, bəlkə də bilmirlər. Həyatda da yaşadığın xoşbəxtlik dozası növbəti dəfə bəs etmir və daha artığını istəyirsən. Daha artığını istəyirəm və xoşbəxt deyiləm. Görəsən görməmiş adam, görmüş adamdır ya görməmiş? Mənə bəzən elə gəlir ki əsl görməmiş elə görmüşün özüdür. Çünki bir şeyi daha əvvəl dadmamış adam o şey üçün o qədər də həris olmur. Ancaq onu dadmış acgöz, doyumsuz formada həmişə görməmiş kimi arzulayır o şeyi. Səyahət etməmiş insan, səyahət etmiş insan qədər susaya bilməz gəzməyə. Ya əsl qadınla birlikdə olmamış insan onun mahiyyətini belə anlamır və çox da arzulamır, onun üçün ucuz fahişələrlə mükəmməl qadın arasında fərq yoxdur. Ancaq mükəmməl qadını dadmış insan, görməmiş kimi hər yerdə onu axtaracaq, hər dəfə. Həyatımda nə qədər qadın olubsa o qədər daha da acgözləşmişəm onlara qarşı, o qədər daha çox istəmişəm. Əslində tərsinəmi olmalıydı? Nə qədər çox qadınla birlikdə olmuşamsa o qədər sakitləşməli və istəməməlimiydim? Bəlkə mənimkimilərin genetikasıdır fərqli olan? Yəqin ki.

Bütün bu saydıqlarım, intihar üçün özümdə yaratdığım bəhanələrdir. Bunlar həyatın həqiqi ancaq başa çıxıla bilən problemləridir. Əgər xoşbəxt olsan bunların heç birinin əhəmiyyəti qalmır. Məsələn üç il əvvəl xoşbəxt idim. Və biri gəlib mənə intihar etmək istəyirəm desəydi ona deyərdim ki, əgər həyatı bəyənmirsənsə deməli sən bəlkə də onu düzgün yaşamırsan. Yaşama formanı dəyişməlisən bəlkə də. İndi mənə də sən eyni şeyləri deyə bilərsən. Bütün bu saydığım problemlərimlə baş etməyə gücüm çatar, ancaq işləməkdən başqa. Sadəcə istə-

mirəm. Ya da yaxşı işi tapmaq üçün çəkiləcək əziyyətdən də imtina edirəm.

“Mənə elə gəlir ki harda deyiləmsə orda xoşbəxt olacağam” ya da “çəpərin o biri tərəfindəki otlar həmişə daha yaşıldır”. Çünki mən acgöz varlığam. Bu təbiətin səni yaratma formasıdır həyatda qalmağın üçün. Acgöz. Lənətə gələsi acgöz. Əgər sən dövlət, tanrı, cəmiyyət ya da öz lənətə gələsi atan kimi ən çox bilinən axmaq iqtidarlara qarşı baş qaldıraraq ən yaxşı üsyançı olduğunu düşünürsənsə, yox, ən yaxşı deyilsən, bunlar heçnədir. Sadəcə bir tək böyük və güclü iqtidar var: sənin təbiətin, sənin genlərin. Əgər ən yaxşı qiyamçı olmaq istəyirsənsə, sadəcə öldür özünü.

Ya da həmişə əzab çəkəcək və mübarizə aparacaqsan, keçmişdən (hətta gələcəkdən) biri üçün darıxaraq, olduğun yerlər, yaşadığın və keçdiyin yerlər üçün darıxaraq. Hətta heç vaxt olmadığın yerlər üçün belə darıxacaqsan.

Öldür özünü ya da bununla başa çıx. Sən dünyadakı ən böyük kölәsən: genlərinin köləsi. Lənətə gələsi gen daşıyıcısısan, artığı deyil. İndi get və həyatın nə qədər gözəl olduğuna dair şeirlər yaz. Ya da xoşbəxtlik haqqında başqa nəsə axmaqca bir şeylər de. Səni qınamıram yenə də, o da sənin genlərindir ki beynini vadar edir bunları etməyə.

Sən əlbətdəki məni başa düşməyəcəksən əgər doğrudanda bilmirsənsə “darıxmaq” nə deməkdir, necə hiss etdirir. Bir qadın üçün darıxmağın yaratdığı o lənətə gələsi dəhşətli hiss, ya bir şəhər ya keçmiş üçün. Və sairə.

Yadında saxla: sən kölәsən.

* * *

## illuziya

özümü iki əvvəldə itirmişəm kimi hiss edirəm,
sanki ölmüşəm iki il əvvəl,
ya da ölməliymişəm.
bütün xoş günlər qalır geridə
və başqasının bədənində yaşayıram indilərdə.
sanki xatirələrim silinib
və sadəcə izlərini hiss edirəm.
üzümdə bir maska,
dartıb çıxara bilmirəm.

sanki iki ildir kabus görürəm.
həbs edilmişəm,
yuxudayam,
və yuxudaca öləcəyim üçün
heç vaxt ayılmayacam.
vəssalam.
ölümə hazır hiss edirəm.
sanki onsuz da ölmüşəm,

özümü xatırlayanda,
sanki yuxularda gördüyüm biriymiş kimi gəlir.
o qədər yadlaşmışam ki,
elə bilirəm bu mənəm.
yanılıram oysa,
bir başqasının həyatını yaşayıram,
itirmişəm özümü.
və darıxıram.
ölmək istəyirəm.
bugün,
burdaca,
lütfən tanrım,
mərhətəm et.

14

# ÖLÜM

*-Timor mortis conturbat me*
*(Ölüm qorxusu narahat edir məni)*

Günəşin istisini bədənində hiss etdi və havalimanının çıxışında dayandı. Bir siqaret çəkdi. Heranın hər ehtimal ona verdiyi kağıza yazılı telefon nömrəsi və ev adresini cibindən çıxardı, heyifsilənərək baxdı nömrəyə və adresə. Əgər fikrini dəyişsən, gələrsən demişdi. Cırdı və yerə səpələdi. Taksilərin olduğu hissəyə yaxınlaşıb ilk taksinin qapısını açıb arxada oturdu. Taksiçi maşını işə salıb tərpənirdi ki Mavi ona adresi dedi və maşın dayandı. Yaşlı kişi geriyə döndü, məyus və yazıq bir ifadəylə onu süzdü, sonra donmuş bir az da əsəbi bir səslə dilləndi:

- Mən o adresə müştəri aparmıram.

Niyə deyə soruşacaqdı ki Mavi, sözünü yarım saxladı. Biraz gözlədi. "Yaxşı" deyib maşından endi. Qoca yəqin ki ölüm kamplarına qarşı olan insanlardan idi və heç kimi ölümə aparmaq istəmirdi.

Enib arxadakı taksiyə yaxınlaşıb minmədən həmin adresə gedirmi deyə soruşdu. Hə cavabı alıb oturdu. Bir qədər uzaqlaşdıqdan sonra sürücü maraqla soruşdu:

- Evtanaziya kampında işləyirsən?

- Yox.

Sürücü yenə nələrsə soruşmaq istədi ancaq Mavinin danışmaq istəmədiyini bildirmə forması onu narahat etdi və susdu. Yolüstü içki mağazasına girmək istədiyini bildirdi Mavi. Sürücü razılaşdı.

Pəncərədən şəhəri və dünyanı izləməyə başladı. Təlaşlıydı. Ürəyini ölüm qorxusu basmışdı. Bu qədər çətin olacağını düşünməmişdi. Uzun müddətdi özünü bu an üçün hazırlamasına baxmayaraq yenə də qorxurdu. Təyyarədə başı yaxşı qarışmışdı deyə düşündü. Biraz içib danışa bilmişdi.

Bəlkə də Hera onun qarşısına çıxmamalıydı deyə düşündü və kefsizləşdi. Yersiz, vaxtsız və bərbad bir təsadüf idi. Ölməsəydi əgər, Herayla keçirəcəyi anların ehtimalları onu narahat etdi. Gənc və gözəl. Sanki sözün əsl mənasında tanrılar öz əlləriylə Heranı onun təyyarəsinə, onun yanına qoymuşdular. Təyyarədəki sevişmələrini düşündü. Sözün əsl mənasında hər an öləcəkmiş kimi yaşayan insanın təhlükəli imkanları necə dəyərləndirə biləcəyini düşündü.

Lənətə gələsi hava artıqlamasıyla möhtəşəm idi bu gün. İçindəki yaşama eşqini oyadırdı. Günəş dərisini yandırırdı. Bəlkə də bura almamalıydı bileti deyə düşündü. Belə gözəl gündə ölmək istəməzdi. Hava ölmək üçün heç uyğun deyildi.

Ağlına gələn bütün fikirləri rədd edərək düşünməməyə çalışırdı. Bura ölməyə gəlmişdi və öləcəkdi də. Burdan geri ən azından ona görə yol yox idi ki, əgər yaşayası olsa yenə lənətə gələsi eyni problemlərlə əlləşməli olacaqdı. İşləmək və yenə işləmək. Nə qədər zavallı olasan ki işləmək dərdinə görə özünü ölüdürəsən deyə iç səsi onu lağa qoydu. Sonra susmayan iç səsi təkrar dilləndi və başqa hansı qorxaq sənin kimi ölmək üçün təyyarə ilə başqa bir yerə uçardı deyə onu ələ saldı. Özünə yazığı gəlirdi.

O xaraba kamp, ölməyi belə bacara bilməyəcək dərəcədə qoca olan insanlar üçündür. Əli-ayağı tutmayan insanlar birinin onları iynə vurub  öldürməsi üçün ora gedir və yalvarır-

dılar. Sən isə öz əlin ayağınla ora gedib içəri yeriyib ölməyə gəldiyini bildirəcəksən. Və sənə acıyaraq güləcəklər! Nə qədər axmaq olduğuna güləcəklər!

Rədd olsunlar, onlar mənim nələr çəkdiyimi bilmirlər!

Tək istədiyim şey ölümün yüngüllüyünü bir an əvvəl hiss etməkdir. Vurulacaq iynənin zəhərini bütün bədənimə yayacaq olan damarlarımın hiss etdirəcəyi o yüngüllüyü istəyirəm. Başqa heç nə. İçimdə əksikliyini hiss etdiyim heç nəyin olmaması. Heçlik və yoxluq. Sadəcə bir gün daha dözməliyəm. Ya da bəlkə də elə bu gün, ora çatan kimi bitirməliyəm işi. Ya da özümlə son bir gün daha keçirməliyəm deyə düşündü.

Taksi bir içki mağazası qarşısında dayandı. Mavi enib bir siqaret, bir içki və yemək üçün bir  hamburqer aldı. Çıxarkən divarda Terence Mckenna və Timothy Learynin divara göbələklər içində çəkilmiş şəkilləri diqqətini çəkdi. Maşına mindi. İçəridə siqaret çəkə bilsəydi kaş deyə düşündü. İçkini açıb içmək istədi, sürücünün reaksiyası səbəbilə əvvəlcə tərəddüd etdi, amma sonra açdı və başına çəkdi butulkanı. Sürücünün aynadan ona baxışını gördü. Bəlkə də siqaret yandırmağı da soruşmalıydı. Fikrindən daşındı.

Bir müddət sonra maşın meşəliyə bənzər bir əraziyə girib yuxarı, gözəl mənzərələrlə dolu dağ yamacına doğru irəlilədi və bir az getdikdən sonra ağ bir binanın qarşısında dayandı. İçində kimsələr qışqırmağa başladı. İçindəki bitmək bilməz şəxsiyyətlərindən yaşam tərəfdarı olanlar sanki yalvarırmışcasına qışqırırdılar. Sürücüyə sür geri get dedizdirmək istədilər ona bir anlıq. Qaçıb ordan uzaqlaşmaq istədi. Baxışları donmuşdu. Sürücünün "çatdıq" deməsi onu oyatdı. Dönüb ona baxırdı kişi. Sanki ölmək üçün çox cavan olduğunu düşünüb acıyırdı. Borclu olduğu miqdarı dedi kişi və Mavi pulu verib endi. "Özünə gəl!" deyə səsli formada özünə təskinlik verməyə başladı. "Bütün o qədər vaxtdı istədiyin yoxluq, heçlik və dinclik indi cəmi bir neçə metr uzağındadı. Bəxtəvər hiss etməlisən özünü ay axmaq, qorxaq yox!"

Bir siqaret yandırdı. Binanın həyəti alçaq hündürlükdə

səliqəylə budanılmış kola bənzər bitkilərlə çərçivələnmişdi. Həyətində bir neçə maşın dayanmışdı. Ətrafdakı ölü sakitlik insanı qorxudurdu. Şəhərin bir az əvvəlki o günəşli və aydın havası sanki bir anda əksinə çevrilmişdi. Quşlar havada cansıxıcı dairələr yaradırdı. Buludlar sanki mənasızlıqlarını hiss edib kədərlənmişdilər və olduqca qüssəli görünürdülər. Tənbəl və kefsiz payız günəşi haralardasa gizlənmişdi nələrdənsə qorxarcasına. Tünd mavi bir çarəsizlik gəzirdi şəhərin üstündə. Ətrafı qorxunc bir təndirginlik bürümüşdü. Ölüm oradaydı, bunu hiss edə bilirdi.

Siqareti bitirib içəri geçdi. Binaya girməmişdən sağ tərəfdə aşağıda böyük bir göl olduğunu gördü. Bina dağın üstündəydi və yüksək uçurumdan aşağıda möhtəşəm bir göl mənzərəsi var idi. Ətraf hər yer ağaclarla örtülüydü. Mənzərənin gözəlliyi onun kefini pozdu və binanın içinə doğru yeridi. Kamp sanki dünyanın sonu, ucu və kənarı kimiydi. Uşaqlıqda həmişə düşünürdü ki, dünyanın axırına qədər yerisən necə bir yerə gedib çıxarsan görəsən. Bir uçuruma gedib çıxırsan, ətraf hər yer dumanlı. Tam da elə bir yerə gəlib çıxmışdı.

Çox da böyük olmayan ilk binanın girişində kiçik bir holl var idi və yaşlı bir qadın oturmuşdu. Başqa heç kim yox idi, sanki hamını öldürmüşdülər. Qadın narahat gözlərlə onu süzdü. Mavi yaxınlaşdı, salamlaşdı. Evtanaziya üçün gəldiyini bildirdi. Qadın fikrindən əmin ola bilməyib soruşdu:

- Siz, kimisə gətirmisiniz? Yoxsa necə? Özünüz üçün?

- Özüm üçün.

- Həkim icazəniz var?

- Var. Budur. Major depressiya səbəbilə – deyib Mavi cibindən klinikadan almış olduğu, lazım olan müddət psixiatr və anti-depressant müalicəsi almış olduğunu göstərən sənədi çıxardı.

- Təşəkkürlər, bir dəqiqə gözləyin, məlumatlarınınızı sistemdən yoxlamalıyam.

Kompyuter ekranında bir neçə dəqiqə sənədin nömrəsini və doğruluğunu yoxladıqdan sonra qadın ona yandakı qapıdan

otağa girməsini bildirdi. Masada oturmasını xahiş etdi və qarşıda oturub onu prosedurayla bağlı məlumatlandırdı.

- Evtanaziyalar hər gün səhər yerinə yetirilir – deyə başladı sözə.

Qarşısına çoxlu səhifələrdən ibarət bir sənəd qoydu, iş görüşmələrindəki müqavilələri xatırladırdı. Və bir növ eləydi də. Ölüm müqaviləsiydi. Mavini axmaq bir əsəb və bu əsəbin verdiyi acı gülüş bürüdü. Nə olduğunu bildiyi halda əsəbini cilovlaya bilməyib iztehzayla yorğun və olduqca alçaq bir səs tonuyla "Bu nədir?" deyə soruşdu. "Oxuyub imzalamalısınız. Sonra da barmaq izinizi və kamerayla könüllü formada evtanaziyanı qəbul etdiyinizin qeydini almalıyam, prosedura belədir" deyə izah etdi qadın. "Prosedura.." deyə mızıldandı Mavi. İş görüşmələrindəki o lənətə gələsi yorucu uzunluqdakı lazımsız müqavilələri xatırladı. Heç vaxt heç kimin oxumadığı. Qarşısındakı ölüm sənədini oxumadan imzaladı. "Buyrun" deyə qadına uzatdı. Qadın "Belə olmaz" deyib açıb sənədin içində ona seçməsi lazım olan variantları göstərdi.

-Assistentli evtanaziyamı, yoxsa fərdi evtanaziyamı olduğunu burdan seçməlisiniz. Əgər oxumaq istəmirsinizsə burda qısaca ikisinin fərqi yazılıb. Fərdi evtanaziyada siz bir otaqda evtanaziya apartıyla tək olacaqsınız. Ekranda çıxan sualları cavabladıqdan sonra aparat evtanaziyanı yerinə yetirəcək. Assistentlidəysə sizə iki həkim kömək edəcək.

Assistentli evtanaziya variantını işarələdi Mavi qəti əminliklə. O qədər yolu gəlmə səbəbi, ölümünün bir başqasının əlindən və rahat olmasıydı, özündə bunu edəcək cəsarəti tapa bilmirdi.

-Burdan tarixi seçin, zəhmət olmasa. Yeddi günə qədər burda qala bilərsiniz, qalmaq və qidalanmaq kimi xidmətlər pulsuzdur, – digər səhifəni çevirdi – bu səhifədə mal varlığınızın aqibətini bildirməlisiniz, burda isə orqanlarınızı evtanaziya sonrası bağışlamaq istəyib istəmədiyinizi.

Yeddi gün burda qalmaq fikri Maviyə hər nə qədər maraqlı bir fikir kimi səsləndisə də, o qədər müddət ölümün quca-

ğında gözləyə bilməyəcəyini düşündü və qərarsız barmaqları sabah səhərin tarixini işarələdi. Orqan bağışı hissəsinə gəldi və həmişə tərəddüdsüz razılıq variantını işarələdiyi bu sual qarşısında indi bir qədər dayandı və bilinməz bir düşüncələr bütününə qərq oldu. Bir neçə saniyə sonra özünə gəldi və təkrar düşündü. Taleyin ironiyası deyə düşündü, onun yaşaya bilməyib imtina etdiyi bu həyatda daha çox yaşaya bilmək üçün kimlərəsə onun orqanları veriləcəkdi. Bu fikir əvvəlcə onu bir qədər narahat etdi. Bir an ölüm üçün belə müqavilə oxuyub imzalamalı olduğu düşüncəsi onu dəli etdi və az qala kağızları götürüb cırıq-cırıq etmək istədi. Özünü ələ almağa çalışdı. Suala geri döndü. Ölüm sonrası onun orqanlarına nə olacağı fikrinin çox mənasız və əhəmiyyətsiz olduğunu düşündüsə də yenə də "razı deyiləm" xanasını işarələdi etinasızca. Geri qalan evtanaziya qanunları və yerinə yetirilmə məlumatlarını oxumadan son səhifəyə qədər getdi və imzaladı.

Birdən nəsə ağlına gəldi və geri səhifələrdən birinə qayıdaraq sabahkı evtanaziya prosessinin necə olacağı hissəyə gəlib sürətlə göz gəzdirdi. Üç mərhələli prosessin ilk mərhələsində anesteziya üçün 5 qram natrium pentotal adlı sürətli keyidici bir maddə verilirdi damarlara və xəstə yuxuya gedərək şüursuzlaşırdı. Bu mərhələ təxminən 10 saniyə çəkirdi. On saniyə düyə düşündü Mavi. Bədənini istilik bürüdü. On saniyə ölümünü gözləməliydi, ya da ən azından şüurlu formada gözləməliydi. Bir ömür kimi göründü o on saniyə ona. İynənin bədənə girdiyi andan etibarən on saniyə. Diqqət dağıdıcı nəsə varmıydı görəsən otaqda? Bom-boş divarlar idimi yoxsa sadəcə? Ölümə gedən on saniyəni ən yaxşı hansı məşğuliyyətlə yola vermək olardı? Nəyi düşünərək, nəyi xatırlayaraq, nəyə baxaraq? Lənətə gələsi on saniyə. On saniyə nə qədər uzun ola bilərdi? 21 qram nə qədər ağırdır? –deyə düşündü və təkrar düşündü. Oturduğu andan bu yana ayaqlarını bir an olsun yelləmədən dayanmadığını xatırladı və daha sürətli yellədi. Qadının bu işi necə seçmiş olduğu barədə fərziyələr düşündü. "Ehtiyacı var idi demək ki" deyə özünü cavabladı. Yoxsa kim

belə yerdə, insanlara ölüm müqaviləsi imzaladardı. Bəlkə də o evtanaziya könüllülərindən idi deyə düşündü. Oxumağa davam etdi, növbəti inyeksiya əzələləri iflic etmək üçün istifadə ediləcəkdi, 100 milliqram pankuronium bromid. Ən sonda isə ürəyi dayandırmaq üçün öldürücü dozada kalium xlorid. Onun xilaskarı. Lənətə gələsi kalium xlorid, indiyə qədər haralardaydın?

Qadına uzatdı müqaviləni. Barmaq izləri alındı. Qarşısındakı kameraya baxmasını xahiş etdi və onun şəklini çəkdi. Sonra qadının ondan video qeydi üçün deməsini istədiyi sözləri təkrarladı: “Mənə assistentli evtanaziya tətbiq edilməsinə könüllü olaraq razılıq verirəm”. Öldürməmişdən sanki suyunu sıxırdı bu lənət prosedura onun. Bunun harası xoşbəxt ölümdür deyə düşündü.

Son olaraq qadın ona binanın kiçik xəritəsi üzərində nəyin harada yerləşdiriyini göstərdi, yataqxana, yeməkxana, bar, baxça, kilsə, psixoloq otağı, meditasiya mərkəzi, oyun otağı və s. Sanki unudubmuşcasına başqa bi kağız daha uzatdı sonra. Ölüm ayağında olan xəstələrə həm son anlarını yaxşı keçirmələri üçün həm də son qərarlarını təkrar yaxşıca düşünmələri üçün tibbi marixuana və kiçik dozada tibbi mdma (başqa adla ekstazi olduğunu bildirdi) təklif olunurdu və bir sıra başqa anti-depressantlar. Major depresiya pozğunluğu kimi bir sıra psixoloji pozuntu səbəbilə gələnlərə xüsusilə təklif edildiyini vurğuladı və əgər istəyirdisə bu sənədi də imzalamalıydı sonra müəyyən dozada istifadə üçün ona veriləcəkdilər. Bəzi mümkün kiçik yan təsirlər barədə xəbərdarlıq edirdi sənəd həmçinin. Bu barədə daha əvvəl eşitmiş və düşünmüşdü Mavi. Kamplarda bu tip maddələrin istifadəsinə şərait yaradıldığını bilirdi. Əvvəllər bu fikrə də cazibəli baxmışdısa da, indi elə düşünmür və bunun sözün əsl mənasında ölümdən uzaqlaşdırma potensialına sahib bir seçim olduğunu düşünürdü. Ən yaxşısı içkiydi, bu onu sakinləşdirməyə bəs idi deyə düşündü. Heç bir maddə istəmədiyini bildirdi. Otağını açması üçün bir kart verdi qadın ona və proseduranın tamamlandığını bildirdi.

Qadınla sağollaşıb çıxdı Mavi. Onun bu iş üçün kifayət qədər soyuqqanlı biri olduğunu düşünüdü. Belə bir yerdə ancaq belə biri işləy bilərdi. Sabah səhər üçün ölümlə görüş təyin etmişdi Mavi. Bir tərəfdən içini sevinc bürüyür bir tərəfdən isə qırtlağında bir yumru yaranıb böyüyür və onu boğurdu.

Girişindən sağa dönüb ikinci mərtəbəyə çıxdı. 23 nömrəli otağı axtardı. Dar koridorun hər iki tərəfində bir-birinə yaxın qapılar düzülmüşdü, otaqlar olduqca kiçik olmalıydı. Koridorun o biri başında bir iki gənc qapının ağzında yüksək səslə və kefli formada söhbət edirdi. Onların bəlkə də qadının saydığı maddələrin təsirində olduğunu düşündü. Onunla eyni yaşdaydılar, iki qız və bir oğlan. Burda özüylə yaşıd kimlərisə görmək onu həm bir mənada sevindirdi həm də onların indi içində olduqları xoş əhvalı düşünüb canı sıxıldı. Bəlkə də onlarla tanışmalıydı. Görəsən onların evtanaziyası nə vaxt idi? Yoxsa görəsən bu sistemdən sui-isifadəmi edirdilər? Gəlib burda vaxt keçirib sonra çıxıb gedirdilərmi? Belə özbaşınalıqların qarşısını almaq mümkün idi görəsən kampda yoxsa belələri var idi doğrudan da? Bu fikir onu dəli etdi, kimlərinsə bura maraq ya əyləncə üçün gəlməsi fikri.

Otağa çatıb açıb içəri girdi. Bir yataq, kiçik bir masa və şkaf. Bir də pəncərə, çöldəki mənzərə yenidən diqqətini çəkdi və pəncərəyə yaxınlaşdı. Möhtəşəm gözəllikdə bir mənzərəyə açılırdı pəncərə. Kamp hündür bir ərazidəydi və pəncərədən qarşıda dağlar görülürdü. Tanrılara baş qaldıran dağlar. Aşağıdakı gölün rəngi yaşıl ilə mavi arasında bir şey idi. Aşağıda qərbə doğru axan bir çay da var idi. İçkisini masanın üstünə qoyub oturdu. Yatağa oturub əzilmiş hamburqeri yeməyə başladı. Aclıqdan başı çatlayırdı. Yeyib bitirdikdən sonra aşağı, bara endi.

Heç kimin olmadığı koridorlardan keçib ölümün səssizliyini dinləyərək giriş qapısının solundakı barın olduğu yerə gəldi. Orta böyüklükdə bir bar idi. Həm bar ətrafı stollar var idi həm də ayrıca oturmaq üçün stollar. İçəridə bir neçə nəfərin olduğunu görüb yalnız olmadığı üçün sevindi. Hətta musiqi

belə var idi. Köksündə kiçik bir sevincin həyəcanı peyda oldu. Bunun üstünə tək istədiyi şey bir pivə və siqaret idi. Otağın o biri başında əlil arabasında bir yaşlı qadın oturmuşdu və başqa bir qoca kişi onu qucaqlamışdı. İkisindən biri ölümə gedirdi yəqin, bəlkə də ikisi də. Onların yan masasında iki cavan qız və oğlan oturmuşdu. Bir də barmenin qarşısındakı yüksək stullarda oturan bir nəfər daha var idi.

Barmenə tərəf yaxınlaşdı qarşısındakı hündür stulların birində oturdu. Qırxlı yaşlarda özünə məxsus üz quruluşuna sahib bir kişi idi barmen. Hər gün ölülərlə söhbət edən bir barmenin necə bir üzü ola bilərdisə, elə bir üzü var idi. Alkoqol faizi yüksək bir pivə istədi və hesabını ödədi. Pivədən bir qurtum alıb sinəsinə yayılan sərinlikdən həzz aldı. Başını sola çevirib içərinin dekorasiyasına fikir verdi. Olduqca diqqətəlayiq olduğunu düşündü, divarlardakı abstrakt sənət əsərlərinə baxdı bir-bir. Qapının ağzında hətta musiqi seçmə aparatı da var idi. Buranı getdikcə sevməyə başlayırdı. Təkrar barmenə baxdı və başını sağa çevirdi. Yanında oturanın üzünü gördü və baxışları elə ordaca dondu. Çaşbaş qaldı. Nəsə deməyə çalışdı amma dili dolaşdı. Gördüyündən əmin olmağa çalışdı. Qeyri iradi olaraq "hey" deyə çağırdı yanında oturanı və o dönüb ona baxdı. "Mavi?!" deyə təəccübləndi.

Fələyin çarxında ilişib boğulurmuşcasına ya da taleyin ironiyası altında əzilirmişcəsinə boğuq bir səslə təəccüb içində dilləndi Mavi: "Sən nə edirsən burda!?"

Bir anlıq səksəkəli ziddiyətin yerini ani bir sevinc hissi aldı. Anlaşılmazlıq hələ də öz yerini qoruyurdu. Əliylə alnını möhkəmcə sıxıb olanlara məna verməyə çalışaraq ayağa durub ona yaxınlaşdı, onu qucaqlayıb bağrına basdı və təkrar etdi: "Lara! Nə işin var sənin burda? Başa düşmürəm".

Lara çox da təccüblənməmiş kimiydi. Soyuqqanlı və sərxoş görünürdü.

- Qurtuluşa xoş gəlmisən. – əlindəki içki bardağını yuxarı qaldırdı.

- Burada nə işin var axı sənin?!

- Burada nə işim ola bilər axı? Bir az məntiqli ol. – Həmişəki kimi etinasız idi.

- Sən, bilirsən mən səni nə qədər axtardım? Nə qədər gözlədim? Bura evtanaziya üçün gəlmisən? Axı sən bütün bunları axmaqlıq sayırdın?

- Saymırdım, sadəcə sənə elə deyirdim.

- Niyə?

- Nə bilim. Bəlkə də əks arqumentlərin nə qədər güclü olduğunu yoxlayırdım. Bunların heç bir əhəmiyyəti yoxdur artıq. Düzü sənin bura qədər gəlib çıxmana da təəccübləndim. Əgər gedəcəkdinsə də sənin Oreqon ya Floridaya gedəcəyini düşünürdüm, ona görə də öz biletimi bura almışdım. Axı sən okean ya dənizsiz yerləri sevmirsən, bura nə əcəb aldın biletini?

- Məndən qaçırdın? Niyə? Niyə təəccübləndin bura gəlib çıxmağıma?

- Gəlib çıxacaq cəsarəti tapacağını sanmırdım. Və bəli, gəlmə ehtimalına qarşı, sənin olacağın kampda olmaq istəmirdim, ancaq gördüyün kimi, fələyin başqa planları var imiş ki bizi burda görüşdürdü.

- Başa düşürəm məndən niyə qaçırsan. O gün səni evdə tək qoyub getdikdən sonra çox peşman oldum. Səni gözlədim, axtardım. Sadəcə sən getdikdən sonra başa düşdüm ki uzun müddət sonra əslində mənə lazım olan şeyi səndə tapmışdım. Biz səninlə hər şeyi yenidən ba…

- Mavi sus xahiş edirəm. Bu barədə danışmaq istəmirəm. “Biz” deyə bir şey yoxdu, bura qədər gəlmişiksə demək ki “yenidən” deyə bir şey də yoxdu artıq.

- Əgər mən bilsəydim ki bir-birimizə olan istəyimiz, bundan əvvəlki sevgililərimizdə olduğu kimi, qısa müddətdə bitməyəcək, bu dəqiqə ikimizi də götürüb çıxardım bu xarabadan. Mənim lənətə gələsi xislətim. Kaş ki tək bir qadını ölümünə sevə bilsəydim. Kaş tək bir qadınla xoşbəxt ola bilsəydim. Monoqam olsaydım. Lənətə gələsi genlərim, hər şeydə acgöz odluğum kimi qadınlarda da acgözəm və ən betəri də elə budu.

Qərar verə bilmirəm hansı daha çətin olardı görəsən, birlikdə yaşadıqdan sonra sənə olan arzumun azalmasını görməyim, yoxsa sənin mənə olan arzunun azalmasını görməyim? Yəqin ki qürurum işə düşərdi və sənin arzunun mənə qarşı azalması daha çox məhv edərdi məni. Bir qadına belə şeylər demək tərbiyəsizlikdi, üzr istəyirəm. Ancaq aramızda heç bir sirr yoxdu nəticədə. Amma, məsələ odur ki bütün bunlara baxmayaraq mən yenə də səni arzulayıram. Bir qadına deyilməyəcək başqa bir şey də var ki onu da deyəcəm. Əslində bu o qədər də xətrə dəyiləsi şey deyil ancaq qadınlar yaşla bağlı hər şeyə inciyirlər. Deyirdim ki, səni o qədər çox istəyirəm ki, keçmişdəki sənlər üçün belə darıxıram. Səni hər yaşında öpmək istəyərdim. 16 yaşında da, 18, 21, 25 ya gələcəkdə 35, 40 hər il başqa bir Larasan və mən hamısını arzulayıram. Təəssüf ki keçmişdəki Laraları heç vaxt görə bilməyəcəm. Səni niyə bu qədər çox istəyirəm bilmirəm. Bəlkə də sənə vurulma səbəbim sənin gözəlliyin deyil də mənim genetik geçmişimdi, ya bəlkə də anama oxşayırsan, ya ilk sevgiliмə. Bəlkə də üzünün kiçik bir kvadrat millimetrində hansısa arzusunda olduğum qalaktikanı görürəm. Səbəb hər nə olur olsun, bu dəqiqə sənə baxarkən bədənimdəki bütün hüceyrələr yerindən oynayır. Məsələ sadəcə gözəlliyin də deyil, mən sənin xarakterini, dostluğunu, etinasızlığını, zəkanı, vecsizliyini daha da çox sevirəm. Bəlkə son bir ayı birlikdə keçirək? Elə bax burdaca, bu şəhərdəcə, çıxaq burdan gedək birlikdə həyatda qalmağa çalışaq, gördük alınmır, ölüm burdadır, qaçmır ki. Hə? Nə deyirsən? Mən işləməyə nifrət edirəm, ancaq səninlə birlikdə yaşayacıqsa ona da razıyam.

- Zavallı səni. Bilirsən, sən mənlə birlikdə yaşamaq istəmirsən əslində, sadəcə ölməmək üçün bəhanə axtarırsan. Bundan əlavə, məsələ mən də deyiləm, məsələ sənin ehtirasındı. İkimiz də bilirik ki bədənimi istəyirsən, məni yox. Dediklərin mənə tərbiyyəsizlik kimi gəlir, amma xətrimə dəymir, çünki çox da bir xətrim yoxdu açıqcası. Onsuzda bir kişi beynində olan bir şeyi dilində deyirsə bu tərbiyyəsizlik olmamalıdı. Biz

səninlə bədbəxtlik dostuyuq. Bədbəxtlik dostlarının bir-birinə faydası yoxdu. Məni istədiyin qədər arzulaya bilərsən, bu heç nəyi dəyişməyəcək. Səninlə birlikdə olduğum gün məğlubiyyəti qəbullandığım gün olacaq. Ölməsəydim də səninlə birlikdə olmazdım. Çünki birlikdə olsaydıq çox bərbad birlikdəliyimiz olardı. Ruh olaraq bir-birimizə çox oxşayırıq. Özünün nə qədər əclaf olduğunu bildiyin üçün mənim də nə qədər əclaf olduğumu bilirsən. Sənin hiss etdiyin şeyin, düşündüyün şeyin eynisini mənim düşündüyümü bilirsən. Bu bilinməzliyi və romantikanı pozur. Romantika olmadan iki insan bir yerdə ola bilmir, çünki insanın yaradılışına tərsdi birlikdəlik. Sən də mənim kimi yaxşı bilirsən ki yeni doğmuş eşq kordur və sən hal-hazırda mənim pis tərəflərimi görmürsən. Frontal lobun işləmir. Bir ay sonra belə olmayacaq. Sən bunlardan xəbərdar, mən bunlardan xəbərdar. Özümüzə, öz xislətimizə olan nifrəti bir-birimizə qusub bütün gün dava edərdik yəqin. Biz dost da deyilik, biz sadəcə bir-birinin içini yaxşı bilən, birinin digərinə heyran olduğu iki insanıq.

- İnanmıram sənə. Sən nə deyirsən de, mənim psixoloji müdafiə mexanizmam beynimi aldadaraq belə deyəcək: “Belə deyir çünki əziyyət çəkməməyin üçün onu unutmağını istəyir. O da səni istəyir. Yalan deyir”. Məni sevmirsənsə belə, nifrət etməyini seçərdim vecsizliyindənsə. Sən hansı romantikadan danışırsan axı? Romantika nədir? Sən elə biri deyilsən. Bilirsən romantikanın saxtakarlıq olduğunu. On doqquzuncu əsr ədəbiyyatının hollyvududur romantika. Adi və bəsit şeyləri saxtalaşdıraraq müqəddəs kimi göstərməkdən başqa heç nə deyil romantika. Və sən bir romantik deyilsən, bunu ikimiz də bilirik. Sən elə nikbin və axmaq da deyilsən. Sən çox yaxşı bilirsən ki indiki qadınların çoxunu məhv edən şey elə romantikadır, çünki onlar oturub nə vaxtsa onları özlərindən də çox sevən və bitməyəcək bir sevgililərinin olacağını düşünürlər. Bundan daha artıq bir axmaqlıq? Bu da sonda onları məhv edən şeyə çevrilir. İfrat dərəcədə optimizm və məyusluq. Mən sənə bu şeylərin heç birini vəd etmirəm, mən sənə sadə-

cə öz pessimist - əslindəysə realist dostluğumu vəd edirəm. Mən səni sevirəm, ancaq mənim sevgi anlayışım fərqlidir. Monoqam deyil məsələn, bilirsən. Eyni anda birdən çox qadını sevə bilərəm. Səni aldatmıram. Ancaq səni sevirəm. Nə vaxtsa bitəcəyini də bilirəm, amma olsun. Əsas anı yaşamaq deyilmi? Nə olsun ki səninlə cəmi bir gün birlikdə olmuşuq? Bu o deməkdir ki sevə bilmərəm? Bir qadına bir saniyənin içində belə vurula bilərsən.

- Mavi, səndə alınmır, sən yozlaşmısan. Bu sevgi danışıqları səndə alınmır. Sən onsuz da istəsən belə heç vaxt romantik aşiq ola bilməzsən. Və bəli, mən saxta da olsa romantikanı seçərdim. Mən də sənin kimi düşünürəm, insan bir saniyənin içində aşiq ola bilər bəli. Səni sevməmə səbəbim bu deyil. Zəkandı. Biz ikimiz də zəkiyik. İkili əlaqəmizdə heç birimiz iqtidar ola bilməzdik. Özümüzü yalandan aldada da bilməzdik. Biz hadisələrin niyəliyini və necəliyini bilirik. Səni bəyənirəm, amma sevə bilmərəm, sevsəm də bəyənməzdim yəqin. Başa düşürsən? Mənə axmaq bir sevgili lazımdı Mavi, ağıllı yox. Mənə mənimləykən məntiqli düşünmə qabiliyyətini itirən biri lazımdır, sən yox. Tək sual verəcəm, qırx il yaşayardın mənlə ya yox? Burda məsələ bilirsən nədir? Əslində bir çox kişi qırx il yaşaya bilməz bir qadınla. Amma onların bəziləri yaşaya biləcəklərini sanır, həmin o romantiklər, bax mənə onların nikbinliyi və saflığı lazımdır, sənin nihilizmin yox. Mənə adi şeylərə axmaq kimi yüksək məna yükləyən axmaq bir sevgili lazımdır. Çünki bəli, hər nə olursa olsun, mən nəticədə qadınam. Və qadınlıq qürurum oxşanılmaq istəyir. Biz insan olaraq eyniyik dedim, tək fərqimiz cinsimizdi, o bir çox fərq yaradır, amma təməl olaraq eyniyik.

Bir içki daha istəyib davam etdi Lara:

- Sənin dostluğunu istəyərdim, amma sevgini yox. Sən məni sevmirsən, sadəcə doyana qədər sevişib, bezənə qədər sevirsən. Bir seks partnyoru olaraq hə, səninlə sevişmə fikri olduqca cazib gəlir, üstəlik zəkisən. Ancaq bir sevgili olaraq səninlə sevişmə fikri kokaini xatırladır, birdən birə pik həddə

vuran eyforiya, səhəri gün səni intihar sancılarıyla süründürür. Sus. Nə deyəcəyini bilirəm. Deməl istəyirdin ki, mən hələ dünyada tapılmamış səhəri gün səni məhv etməyən narkotik kimi romantik sevgini axtarıram hə? Ay sağol, elədir ki var. Onu axtarıram bəli. Gördün, sənə demişdim axı biz eyni şeyləri düşünürük. Bəli mən o sevgini axtarıram ki o əslində yoxdur, elə bir kokain ki eyforiyası heç vaxt bitmir, yan təsirləri yoxdur, səhəri gün səni tullayıb atmır. Bir növ də tapmışdım o narkotikimi. Bilirsən nə edirdim? İnternet tanışlıq saytlarından hər dəfə romantik profilə sahib birini tapırdım, yaraşıqlı ya güclü olmaqları vacib deyildi, əsas əmin olurdum ki bu adamlar həqiqətən də elə sanırlar ki romantika mövcuddur, nikbin və yalnızdırlar. Birbaşa evlərinə getməyi təklif edirdim. Qəbul edirdilər əlbətdə çox sevinərək. Mənə yeməklər bişirirdilər, birlikdə filmlər izləyirdik. Hətta bəziləri, romantik ya dram filmlərin ortasında ağlayırdılar, mən də özümü ağladırdım yalan yerə. Bilirsən qadın olaraq bu işdə yaxşıyıq, yalan yerə ağlamağı yaxşı bacarırıq. Çox vaxt bu ağlamaq bizi daha da çox birləşdirirdi. Göz yaşlarımı silah olaraq istifadə edirdim. Onlarla danışırdım. Başda danışmağa çəkinirdilər. Ancaq mən danışdırırdım onları. Bilirsən insanlar niyə özləri haqqında danışmağa çəkinir ya da yeni biriylə tanış olmaqdan qorxurlar? Çünki, qorxuları çox adi həyatları olmasından qaynaqlanır, danışmağa heç nə yoxdur. Mən onlara onlarınkindən də adi bir həyatımın olduğunu göstərərək danışdırırdım onları. Onlar hələ də kiçik şeylərdən böyük zövq ala bilən, hələ də yalanlara inanaraq saf uşaq kimi aldanan, bəsit şeylərə böyük mənalar yükləyən insanlar idilər və bu mənə ləzzət edirdi. Eynilə səndə olduğu kimi, mənim üçün də heç nəyin bir dəyəri ya mənası yoxdur, heç nə müqəddəs deyil. Ancaq bax bu bəhs etdiyim şey, mənim ən yaxşı hobbim və terapiyam idi. Bir-bir onların evlərinə gedir, dünyalarıyla tanış olur və onlarla birlikdə ağlayırdım. Sənin nəinki mənimlə birlikdə, ümumiyyətlə ağlaya bildiyini belə düşünmürəm. Mən də ağlayan biri deyiləm. Bilirsən, buraxsam indi səni, bir cümlənin içində üç fərqli sofis-

tik komplimenti iç-içə soxub deyərək qürurumu oxşaya bilərsən. Onlarsa sənin kimi zəki ya da dildən iti deyildilər, mənə baxanda tək deyə bildikləri “sən necə də gözəlsən” idi. Amma fərq odur ki, onların söylədikləri ürəklərinin dərinliklərindən gəlirdi, sən isə sadəcə fırıldaq edirsən, zəkanı danışdırırsan. Hə, bilirəm, indi deyəcəksən ki ürək nədi deyirsən, ürək deyil beyində baş verir bütün sevgi prossesi, bax elə məsələ də budur. Sən hər şeyə elmi ya məntiqi gözlə baxırsan, hisslərini itirmisən, yozlaşmısan, çirkinləşmisən. Ancaq yenə də sənin o məntiqindən doğan hisslərə də heyranam. Onlarsa bəziləri hələ də ruha, hisslərə inanan insanlar idilər. Sonda bilirsən nə edirdim? O bəhs etdiyim saf aşiqlərin heç biriylə sevişmirdim. Qətiyyən. Sevgilərini heç vaxt öldürmürdüm. Öpüşürdüm bəziləriylə, romantikanın sehrini  artıraraq qoruyurdum. Bəziləri utandıqlarından bilmirdi necə desin ki mənimlə sevişmək istəyirlər. Hamısına deyirdim ki, vaxtı gələndə. Axı romantiklər üçün hər şeyin bir vaxtı var. Onlar sevərək qəbul edirdilər. Sonra, sonra bir gün mən yox olub çıxıb gedirdim. Heç bir adresimi, nömrəmi bilmədikləri üçün heç vaxt məni tapa bilmirdilər, həmişə fərqli adlar deyib fərqli rollara bürünürdüm. Heç vaxt öz yaşadığım şəhərdən seçmirdim onları ki yolda qarşılaşmayaq, yaxın şəhərlərdən olurdular, uzağı bir saat maşın sürürdüm vəssalam. Beləcə özümə ölməz və bitməz eşqlər yaradırdım. Bəzən onlara notlar buraxırdım, mənim onlara layiq olmadığımla bağlı filan, bəzən buraxmırdım. Pis olmalarını istəmirdim. Ancaq onlar romantikdirlər nəticədə, onları atıb gedən qızların həsrət ya melanxoliyasında yaşamağa öyrəşiblər, hətta bu tip kədərlər onlara güc verir. Sevişmək lazım olandaysa, sənin tipində birini tapırdım. Nə etməsi gərəkdiyini yaxşı bilən biri. Onlar məsələn, mənim ürəyimə girib orda dizlərini qucaqlayıb yatmaq ya saatlarca oturub ağlamaq istəyərdilərsə, sən mənim içimə girib orda nəfəsin tükənənə qədər qışqıraraq doyumsuzluğunu bir az belə olsa sakitləşdirmək istəyərdin. O qədər acgözsən ki sadəcə bir hissənin mənim içimə girməsi səni qane etmir, əlacın olsa özünü də soxardın

içəri. Əslində, bunun da öz ehtirası var mənimçün. Onlar mənim mənəvi hisslərimi doyururdusa, sən cinsi-heyvani hisslərimi doyurursan. Nə onlar sənin yerini ala bilər, nə sən onların. Bəziləri mənim bədənimə baxmağa belə utanırdılar, gözlərinin sinəmə qaçmaması üçün özlərini güclə saxlayırdılar. Sənsə, indi belə mənlə döşlərimə ya dodaqlarıma baxaraq danışırsan, hətta sanki mənlə yox onlarla danışırsan və bunu heç çəkinmədən edirsən. Dediyim kimi, hərəsinin öz ehtirası var. Sən sevişərkən mənə vurmaq üçün icazə belə almırsan, onlaraysa desəm belə vura bilməzlər. Sənin kimilər seks və ehtiras tanrısıdırsa, onlar kimilər eşq və məhəbbət tanrısıdır. Özün də yaxşı bilirsən ki, həyat belədir, eyni anda iki ən yaxşı xüsusiyyəti eyni şeydə tapa bilmir insan. Həmişə nəsə yarımçıq olur. – Əllərində pivələriylə barın balkonuna çıxdılar və siqaret yandırdılar – O gecə həmin barda sənə yaxınlaşanda da sadəcə sevişmək üçün birini axtarırdım və üzündən xoşum gəlmişdi. Unikal və xüsusi bir üz quruluşun var, hamıda yoxdu, nəsə insanı özünə çəkir, sanki nəsə xoş bir şey deyir üzün və başa düşmək üçün daha da çox yaxınlaşırsan sonra birdən özünü ona yapışmış formada tapırsan. Bir tərəfdən də içimdə kiçik bir ümid var idi ki, bəlkə mənə yaşayacaq həyat eşqini verəcək həmin adam sənsən deyə, bəlkə bəhs etdiyim o həm eşq həm ehtiras tanrıları sənin içində məskən salıblar deyə. Amma sən pox çıxdın Mavi, pox. İçinə sıçdın. Hələ bir mənə deyir "kaş heç vaxt tanışmasaymışıq". Düşük oğlu düşük. Ətin tökülsün. Əlbətdə səhv məndəydi ki hər insanın düşdüyü o yanılma və illuziyaya düşərək möhtəşəm insanı axtarırdım.

Lara sözünü deyib üzünü gün batımına çevirdi. Batan günəş uzaqlardakı səmanı bəzəyir, yaranan çəhrayı və bənövşəyi rənglər sevişir və sevincləri səmanı boyayırdı. Bu izləyəcəkləri son qürub idi. Mavi bir siqaret yandırdı və nəsə demək istədi amma Lara davam etdi:

- Onlara etdiyim kimi sənin də yanından çıxıb getdim, onsuz da getməliydim, ölüm məni çağırırdı. Sənin əksinə mən o qədər də acgöz olmadığım üçün mənim üçün hər şey daha

asan oldu. Sənin kimi pərişan halda yox, mən sevinərək vidalaşıram dünyayla. Özümü yaxşı hiss edirəm. Mən özümə yaxşı davranırdım. İntihara götüm çatmayanda deyirdim deməli yaşamalıyam və heç olmasa onu yaxşı eləməyə çalışırdım. Sənsə çox ərköyünsən sanki. Bilmirəm səni anan belə böyüdüb, yoxsa qadınların. İntihara da götün çatmır, yaşamırsan da. Sən o gün evində evtanaziya kampları və intihar barədə danışanda sənin hələ hazır olmadığını hiss etmişdim. İstəyirdin, amma bütün qəlbinlə can atmırdın kimi. Ölsən də gözlərin arxada qalaraq öləcəksən kimiydin, səndə həyatdan istədiyini ala bilməmiş insan gözü görürdüm əslində, hər nə qədər bunun əksini göstərməyə çalışsan da. Ac gözlər. Bura gələndə dizlərinin əsəcəyini bilirdim, ancaq mənimkilər əsmir, aramızdakı fərq budur. Mənə intiharı düşünmək güc verirdi həmişə çünki əslində ölmək istəmədiyimi görürdüm və həyata daha bərk yapışırdım. Sonra gördüm ki ölümə hazıram artıq və bu qədər yaşadığım bəsdi, gəldim bura. Biz insanlar həqiqətən çox acgöz yaradılmışıq. Biraz sakit təbiətli olsaydıq, vaxtı gələndə sakitcə bir kənara çəkilib ölərdik. Əgər bədbəxtsənsə və bu bədbəxtliyi 80 il özünlə sürüyürsənsə bu daha da böyük bədbəxtçilikdir. Halbuki ölüm və yoxluq bir addımlığındadır. Ona görə də evtanaziya kampları layihəsi mənə çox cazibəli görünür. Möhtəşəmdi bura. Bilirsən neçə gündür burdayam və burda çox gözəl idi hər şey. Çox gözəl insanlarla tanışdıq. Burda gördüyün hamını tanıyıram. Hamısı möhtəşəm bədbəxtlərdi və çox yaxında hamımız yox olacağıq. Bu düşüncə bizə güc verir. Küçələrdə evsizlərin sayının azalmasına fikir verməmisən? Onların bəziləri başa düşür ki artıq sürünməyin bir mənası yoxdur, bəzilərisə həddindən artıq zəifdirlər və sürünməyə davam edirlər. Onlara yazığım gəlir. Edə biləcəkləri bir şey yoxdur təəssüf ki, həyat eşqləri ölümə qalib gəlir.

- Səninlə birlikdə intihar etmək istəyirəm – deyə sözünü kəsdi Mavi onun uzun danışıqdan sonra.

Olduqca qərarlı səslənmişdi. Hava getdikcə qaralırdı. Günəş dağların arxasından son dəfə göz qırpırdı. Ətrafda

ölümün sakitçiliyi varıydı. Bəzən həzin şimal küləyi harasa tələsirmişcəsinə ötüb keçirdi. Balkona ara-sıra kimlərsə gəlib gedir, ala-yarımçıq cümlələr deyirdilər. Hamı sanki ölüm qorxusuyla sevincini bir arada yaşayırdı. Binanın həyətinin o biri başında yaxınlaşmaqda olan bir kölgə peyda oldu. Aramla yaxınlaşan kölgə beli azca bükük əsrarəngiz bir qocaya çevrildi. Əlli, bəlkə də səksən yaşında və kor idi. Latınca anlaşılmaz bir şeiri təkrarlayırdı. *"Memento mori, memento mori"* - ancaq bu qədərini anladılar və onu tanımamazlıqdan gəldilər. Kişi bir anlıq başını çevirib onlara tərəf baxdı və onları görməməzlikdən gəldi. Əlində Borqesin əl yazmasını daşıyırdı.

- Birlikdə intihar edəbiləcəyim biri varsa intihar eləyəbilməzdim yəqin ki. O qədər sevəcəyim və mənə yaxın biri. Elə bir adam ki birlikdə yaşaya biləcəyim və evə gəlib onu hər dəfə görəndə çöldə nə problem yaşamışamsa da yaşayım, "bu adam varsa mənim həyatımda, soxdum qalan bütün dərdlərə" deyə biləcəyim biri. Bəlkə də sən elə biri ola bilərdin mənim üçün, amma artıq bunu yoxlamaq üçün çox gecdir. Sən birlikdə intiharı bəlkə də ona görə istəyirsən ki, intihara hazır deyilsən və yanında tanıdığın başqa birinin də bunu etməsi sənə güc verəcək deyə. Birlikdə intihar təklifin olduqca səmimi səslənir. Ancaq üzr istəyirəm ki qəbul edə bilmərəm. Həm ona görə ki, sən mənim üçün o qədər dəyərli biri deyilsən, həm ona görə ki sən ölümə hazır olmadığın üçün özümü günahkar hiss edə bilərəm, həm də ona görə ki mən tək öləcəm. Fərdi evtanaziyanı seçmişəm. Sabah səhər. Otaqda sadəcə mən olacam və ölüm maşınım. Nədi? Təəccübləndin? Təəccüblənəcəyini bilirdim. Sən assistentli evtanaziyanı seçmisən hə? Elə də bilirdim. Dedim axı. Mən ölümə hazır və sevərək gedirəm, sənsə narahat öləcəksən. Məsələn, niyə bura gəldin Mavi? Niyə ən yaxındakı baytara gedib bütün pulunu təklif edib sodium dilənmədin? Hazır deyilsən. Otaqda həm də ona görə tək olmaq istəyirəm ki ölümdən əvvəl heç kimin üzünü görmək istəmirəm. Sülh və dincliklə öz ölüm musiqimi dinləyərək gözlərimi yumacam. Sən yəqin ki inyeksiyadan sonrakı on saniyəni necə keçirəcə-

yini düşünürsən hə? Gəl səni bir də təəccübləndirim, mən öz ölüm zəhərimdəki natrium pentotalın dozasını azaltmaqlarını xahiş etmişəm və on saniyəni təxminən otuz saniyəyə qaldıracam. Zəhərin damarlarıma girdikdən sonrakı anları bir az da uzun yaşamaq istəyirəm. Həyatla vidalaşmaq üçün. Sənə məsləhətim, əgər qorxursansa onlardan xahiş et, sənə musiqi dinləmək üçün bir cihaz verə bilərlər. Mənim artıq varımdı və həmin o otuz saniyəmdə o çox sevdiyim ölüm musiqimi dinləmək üçün səbirsizlənirəm. Mən sadəcə, artıq savaşmaq istəmirəm. Yaşamaq mübarizəsindən imtina edirəm.

Lara monoloqunun yerini səssizliyə verdi və susdular. Küləyin vıyıltısını dinlədilər. Bəzən alkoqolun təsiriylə müvazinətlərini itirəcəkmiş kimi olurdular. Ətrafda baş verənləri tam olaraq dərk edə bilmirdilər çünki getdikcə daha da artıq içir və keflənirdilər. Mavi bayaqdan əlində bardan gətirmiş olduğu çəngəllə balkonun taxta məhəccərini cızaraq ikinci dünya savaşı zamanı əsgərlərin getdikləri şəhərlərdə divarlara yazdıqları o frazanı yazırdı, *"Kilroy burada olub"*. Sağ qalmış əsgərlərin yazmış olduğu frazayla o bu dünyadan getməmişdən ən azından sanki nəsə buraxmaq istəyirdi geridə. Bir yazı, bir işarə, bir mesaj. O özü də bilmədən bundan sonrakı kamp sakinlərinin rutininə çevriləcək olan ölüm imzası ritualını yaradırdı.

- Eyni xarakterdə insan olduğumuzu fikirləşmirəm – sərxoşluğun təsiriylə səs tonunu tarazlaya bilmədən gah alçaq gah yüksək gah yavaş gah sürətli formada danışırdı Mavi – özün dediyin kimi, tək fərqimiz cinsimizdirsə belə, bu böyük fərq yaradır. Sən kişi beyni ya hisslərini yaşamamısan, mən qadın. Bu fakt bizi inanılmaz dərəcədə fərqləndirir. İstər yaşam formalarımızı, istər arzularımızı, istər hisslərimizi, hərəkətlərimizi. Bir qadın olaraq məni acgözlükdə günahlandıraraq başdan səhv etmiş olursan onsuz da. Kişi acgözlüyünün nə olduğu barədə heç bir fikrin yoxdur. İstər daha çox gücə, istər daha çox qadına sahib olma acgözlüyü. Amma indi nə bunu nə də digər dediklərini mübahisə edəcək həvəsdə deyiləm, sikdir et.

Sabah ikimiz də ölüb gedəcəyik onsuz da. Heyif ki ikimizin də ölüm tarixi sabahdı, daha əvəldən gəlib o üç-dörd günü burda səninlə keçirmək istəyərdim. Buranı yavaş-yavaş sevməyə başlayıram deyəsən, bayaqdan balkona gəlib gedənlərə baxıram, hamı özü kimi davranır.

- Elədi. Burda kiməsə nifrət edirsənsə ona nifrət etdiyini deyirsən, çünki bunun ona yara verəcəyini düşünürsənsə belə, ağrısının çox çəkməyəcəyini bilirsən. Öləcək. Ya da kimisə sevirlərsə, gedib üzünə deyirlər. Ümumiyyətlə burda yaşadığım son günlər həm də ona görə gözəl idi ki çünki gələcəyi planlamadan yaşayırsan. Heç bir gələcək qayğısı səni narahat etmir. Veriləcək borclar, ev kirası ya dərdlərin. Amma həm də mənim üçün asan deyildi son günlər burda. Çünki ölməzdən əvvəl hamı gözəl və cavan bir qadınla sevişmək istəyir. Qarşıma çıxan hamı onlarla son bir dəfə üçün sevişməyim üçün yalvarıb bütün həftəni. Bəziləri sanki önəmi varmışcasına üstlərində olan bütün pulu təklif edirdilər ki, tək istədiyim şey ölməzdən əvvəl sənin kimi biriylə sevişməkdi. Bunu rədd etmək elə də asan deyil. Qadın olmağın da asan olduğunu düşünmə. Əgər içində bir qram mərhəmət hissin varsa rədd etdiyin insanların ağrısını paylaşacaqsan onlarla. Bir insana səninlə sevişmək istəmirəm, səni bəyənmirəm demək bəzən dünyanın ən çətin işinə çevrilə bilər. Hələ ən betəri də odur ki, onlardan bəziləriylə sevişib digərlərini rədd edəndə işlər daha da qəlizləşir hamımız üçün. İnsanlar sənin olan və onlara vermədiyin bir şey üçün səni qınaya belə bilirlər. Qəribədi.

- Burda kimləsə sevişib-sevişmədiyini bilməyimə ehtiyac yoxdur. Kim olduqlarınıysa heç bilmək istəmirəm.

- Yazıq Mavi. Kişilik qürurun və qısqanclıq duyğun səni ölüm ayağında belə rahat buraxmır hə? Bəzən düşünürəm ki ölmək belə sənin dərdinə kömək olmayacaq. Eyni insan olmasaq da bizi çox qəribə ziddiyətli bir ağrı birləşdirir, mən həyat eşqi əksikliyi səbəbilə ölürəmsə sən həyat eşqi artıqlığıyla ölürsən. Görəsən hansımızın dərdi böyükdü?

- Bağışlayın – deyə bayaqdan yanda durub siqaret çəkən

əfəl görünümlü  eynəkli gənc bir oğlan həvəslə Mavini çağırdı – Olar sizə bir iki sual verim? Mən gənc jurnalistəm, daha doğrusu olmaq istəyirəm. Burda evtanaziya üsulu ilə intihar edən insanların həyat barədə fikirlərini soruşur və səslərini qeyd edirəm. Hətta istəyən olsa kitab və səs qeydlərinin kopyasını dilənilən adresə də poçtla göndərirəm sonra. Bəlkə bir yaxınınıza göndərmək istəsəniz deyə, yəni. Nə deyirsiniz?

- Xətrinə dəymək istəmirəm, amma sikdirə bilərsən zəhmət olmasa? Bunu bura kim buraxıb? – deyə Mavi bardan eşidilən musiqi səsinin ritmiylə bədənini yavaşca templə oynadaraq sərxoş, mənasız, anlaşılmaz hərəkətlərini davam etdirərək Laraya baxdı.

- Təşəkkür edirəm, bunu da yazacam – deyə oğlan davam etdi – bəlkə bir şeir deyəsiniz? Ya sevdiyiniz bir mahnını?

- Mən də ona müsahibə vermişəm  – Lara sakit səslə araya girdi – Bu qədər tərsləmə, yaxşı uşaqdı. Safdı. Məncə danış. Rahatlayacaqsan, etiraflarını rahibə danışırmış kimi. – Sonra oğlana baxdı və davam etdi – bu arada, mənim adımı poçt siyahısından sil, məktubumu göndərməyinə ehtiyac qalmadı.

- Əlbətdə. Amma maraqlıdı bilmək olar niyə?

- Çünki, o artıq burdadır.

- Doğrudan? – həyəcanla soruşdu oğlan – bu idi poçt göndərdiyin şəxs? Çox qeyri-adi haldır, daha əvvəl heç belə təsadüf gəlməmişdi burda başıma. Bunu da yazacam mütləq.

- Mənə məktub göndərmişdin?

- Həm də səs qeydim olan bir disk. Dedim axı, bura gələcək cəsarəti tapa biləcəyini düşünmürdüm. Ya da bu qədər tez gələcəyini düşünmürdüm. Fərqi yoxdu ölsən də ölməsən də göndərmək istədim. Yəqin mən də bununla “Kilroy burada olub” demək istəyirdim.

Əllili yaşlarda bir kişi girdi balkona üzündə dərin bir xoşbəxtlik hissi ilə. Hamıyla bir-bir nəsə söhbət edir və onları sevinclə qucaqlayırdı. Bu ölüm bazarında bu dərəcə xoşbəxt insanları görmək Mavini təəccübləndirdi. Kişi onlara yaxınlaşdı və Laranı qucaqladı. Onunla hal-kef etməyə başladı. Sonra

Mavini qucaqladı. “Özümü çox xoşbəxt hiss edirəm” dedi. Kampda təklif edilən xoşbəxtlik həblərindən atdığını bildirdi. “Hamını qucaqlamaq istəyirəm, hamınıza ağrısız ölüm arzulayıram” deyə yüksək səslə hamıyla böyük həyəcanla söhbət edirdi. Balkondakı digər insanlara yaxınlaşdı.

- Çox zəngin bir həyat yaşayıb – dedi Lara – Nə qədər evi, milyonluq yaxtası olub. Biznesmendi. Amma burdadı. Çünki bezib. Sən bu adamları başa düşmərsən, amma məsələ odu ki onlar da səni başa düşə bilməz. Heç bir tərəf səhv deyil, sadəcə seçimlər ayrıdı.

- Düz deyir – deyə kişi kənardan eşidib söhbətə qatıldı – Hamı düşünür ki milyon dolların varsa həyat çox gözəldi və heç ölmək istəmərsən, yox. Hamısı müddətə bağlıdır. Bir nöqtədən sonra hər şeydən bezirsən. Milyon dolların olsa bəli əlbətdəki çox xoşbəxt olacaqsan, ancaq həmin həyat tərzi də rutinləşir nəticədə. Mən hələ milyonçu olmamışdan əvvəl bir məqalədə oxumuşdum ki, araşdırmalara görə amerikalıların 14%i bir milyon dollar üçün adam öldürə bilərmiş deyə. Çox əsəbləşmişdim. Söyürdüm ki bunlar necə insandılar və sair. Amerikanın və dünyanın içinə düşdüyü iqtisadi materializmi söyürdüm. Sonra özümə sual verdim ki bu məsələ məni niyə bu qədər narahat edir ki? Onda hiss etdim ki əslində məndə qəzəbə səbəb olan şey idraki dissonans, ziddiyət idi. Ona görə əsəbləşirdim ki əslində mən də edərdim eyni şeyi ancaq özümə etiraf edə bilmirdim. Pula bu qədər bağlı olduğumu qəbul edə bilmirdim. Sual verdim ki özümə, bir milyon üçün adam öldürərsənmi? Cavabım bilirsən nə oldu? “Baxır kimi”. Əgər məsələ “baxır kimi”yə keçirsə, deməli mənim də o on dörd faizdən çox da bir fərqim yox idi. Sonralar qazandım da o milyonları. İçimdəki o adam belə öldürəcək dərəcədəki pul hərisliyi məni arxasınca apardı pulun. Amma bax indi burdayam. O milyonları da xəstəxanalara bağışladım, heç olmasa yaşamaq istəyənlərə bir köməyi dəysin deyə. Bu barədə çox düşünmədim də heç. Çox da maraqlı deyil o pulların nəyə xərclənəcəyi mən öldükdən sonra. Gətirib burdakıların başına da səpə

bilərdim. Amma düşünmə ki bu bir yaxşılıq olardı. İndiysə çox xoşbəxtəm. Burdayam. Sabah öləcəm. Son günümdür. Möhtəşəm hiss edirəm. Möhtəşəm. Qorxuram, ancaq bu təbiidir. Sabahdan sonra o qorxu da olmayacaq. Ölüm, tək çıxış yolumuzdur.

Kişi istifadə etdiyi maddənin təsiriylə sürətli formada bu cümlələri deyib təkrar qucaqlaşıb əlində pivə butulkasıyla aşa-aşa getdi. Kampda hamı Laranı tanıyırdı sanki və hamı ona şişirdilmiş nəzakət göstərirdi gözəlliyi səbəbilə. Laranın yanına bir neçə nəfər daha gəldi və onu söhbətə tutdular. Mavi bitmiş içkisini yeniləmək üçün içəri keçdi. O qəribə üzlü barmendən yeni içki istədi. Barmen içkini yeniləyib Maviyə uzatdı və dilləndi: "Qoy bu çirkli su sənin bütün günahlarını təmizləsin"

Balkona çıxdı və Laranın hələ də kimləsə söhbət etdiyini gördü. Bir siqaret yandırdı. İstəmədən balkondakı digər ölüm namizədlərinin söhbətlərinə qulaq asdı. Yanındakı iki qocadan biri o birinə nələrdənsə bərk şikayətlənirdi:

- O şəhərə nifrət edirdim. Oranın tanrıları o qədər qəddardılar ki aprelin ortasında qar yağdıraraq başımıza sıçdılar sonra da sağolsunlar yağış yağdıraraq başımıza işədilər ki alın bu da mərhəmət. Belə də şey olar? Yəni ciddi soruşuram. Aprelin ortasında millətin başına qar yağdırıb sonra onlardan sənə hörmət etmələrini gözləyə bilməzsən. Belə tanrı olar a kişi? Necə tanrısan sən?

Onların yanında söhbət edən digər iki nəfərin söhbəti araya girdi:

- Bu yaşıma qədər, otuz yaşıma qədər narkoman olmuşam və axmaq insanlar həmişə baxıb gülüblər amma onlar anlamırdılar ki mən onlardan min dəfə yaxşı yaşamışam. Bədənimi məhv edəcək qədər gücül bir şeyə aludəyəmsə deməli onun verdiyi zövq adi həyatın sənə verəcəyindən min dəfə artıq gözəldir və ona görə edirsən. Ya da ən azından bir səbəbin var, hamı bu lənət dünyanı sevmək zorunda deyil.

Yandakı başqa birinin gileylənməsi diqqədini çəkdi:

- Sevgilimin evində yaşayırdım sonra bir gün məni barda bir qızı öpərkən gördü və evdən qovdu. Bir öpüşlə necə dəyişə bilər insan? Qadınlar yerlərini unudurlar. Bioloji kimliklərimizi unudurlar. 5000 il içindəki sivilizasiyalaşma ilə neçə milyon illik təkamülümüzü necə gözdən çıxarmaq olar? Biz qabağımıza gələn dişini sikən heyvanlar olmuşuq. Mən indi sənə deyirəm səni sevirəm, sən bir sikin davasını edirsən, ki sadəcə mənim olmalıdı. Keçmiş belə olmayıb, qətiyyən (..)

Söhbətləri dinləməyi dayandırdı. Laranın yanına gedərkən yandakı bir oğlanın geyim tərzi diqqətini çəkdi və məhəccərə söykənib bir az onu dinləməyə başladı. Başdan ayağa qara geyinmişdi və uzun saçları çiyinlərindən sallanırdı. Arıq idi və əynindəki dizlərinə qədər uzanan qara nazik dəri palto onu uzun göstərirdi. Dayanmadan siqaret çəkir və qarşısındakı alçaq boylu qıza dayanmadan həyata olan nifrətini qusurdu:

- Yolda maşın sürərkən yaxşı sürücü kimi davranmaq? Mənə görə deyil. Mən pis olanam. Bunu sevir və dəstəkləyirəm. Özüm üçün. Qabağındakı maşın sənin yolunu kəsir və sən arvad kimi deyinirsən ki bərbad sürücülər var? Xeyr arvad kimi ağlamamalısan. Yol sənindirsə onu qorumalısan. Biri qarşındakı boş yerə girə bilibsə deməli günah sənindir. Qız kimi ağlamağı kəs. Hərə özü üçündü bu dünyada. Nifrət edirəm o adamlara ki deyirlər “yaxşı sürməlisən, başqalarını düşünməlisən bla bla bla”. Zəhirmar. Necə istəyirəm elə sürərəm. Lap eşşək kimi sürürəm hamının yolunu kəsirəm. Əcəb edirəm. Onsuz da həyatımızda kifayət qədər qayda varkən bir də öz yazılmamış qaydalarınızı soxmayın həyatıma. Mən onsuz da motosikl sürürdüm deyə çox da vecimə deyildi. Alicənablıq varlıların borcudur və mən onlardan tələb edirəm. Kasıblar isə onsuz da geridə olduqları dünyada heyvan kimi hərəkət etməlidir bəli. Mədəniyyət onlar üçün ikinci plandadır. Əvvəllər iqtisadi bərabərliyi müdafiə edirdim, sonra onu müdafiə etmək dəb oldu, əksini müdafiə etdim. Əgər kasıbsansa qız kimi oturub ağlamağa ehtiyac yoxdur. Nə də doğulduğun ədalətsiz dünyaya ədalət gətirmək üçün götünü dağıtmamalısan. Biri

varlıdırsa deməli onun bəxti gətirib ya da daha çox bacarıqlı olub, əcəb edib. Hərə özü üçün yaşayır. Keçmişdə də belə olub. Güclü olan yuxarı qalxıb. Qəbul etməlisən kasıblığını, zəifliyini ya da ürəyinə bıçaq soxacaq cəsarətin olmalıdı. Mən bu dünya üçün çox üsyankaram. Nizamlı insanlara nifrət edirəm. Nə desən edəcəklər onlar, təki nizamlı olsun. İntizamlı. Səliqəli. Qayda və qanunları sevirlər, mənsə nifrət edirəm. Səliqəsiz insanları sevirəm mən. Müəllimin hər dediyi ilə oturub duranı yox yeri gələndə onun üzünə tüpürə biləni sevirəm. Şişirdilmiş nəzakətlərə nifrət edirəm. Saxta səmimiyyətə nifrət edirəm. Qadına, qocaya və uşağa yersiz hörmətə nifrət edirəm. Soyqırımlar və toplu insan ölümləri vecimə də deyil. Əsas mənəm və məndəm başqa heçnə vacib deyil. Hamını məmnun etməyi yox, doğrunu ya da mənə sərf edəni deyən adamam. Sadiq deyiləm və sadiqlərdən istifadə edirəm. Heç bir mübarizə mənimçün müqəddəs deyil və mənfəətim üçün hər şeyi edərəm. Qürur və şərəfimi pula satar sonra da üstünə mənə gülənlərə gülərəm. Çünki nə qürurum var nə şərəfim. Bunlar insanların başlarını qarışdırmaq üçün yaratdıqları illuziyalardır. İstəsəm və həbs edilməyəcəyimə əmin olsam insan da öldürərəm oğurluq da edərəm. Etmişəm də. Mənim üçün heç bir əxlaq nə də iqtidar yoxdur. Sərf edirsə əgər, istənilən cildə bürünə bilərəm. Çox şirin yalan da danışaram. İqtidar kim olur olsun etiraz edəcəm. Etiraz üçün doğulmuşam. Sanki həyat məqsədim etirazdır, mənası olmağına ehtiyac yoxdur. Çoxluğun dəstəklədiyi və bəyəndiyi hər şeyə nifrət edirəm və edəcəm. Çoxluğun özünə etdiyim kimi. Məni dəstəkləyib bəyənsələr də, özümə nifrət edəcəm. İnsanlar təcavüzü pisləyir və mən təcavüzün ən təbii insan davranışı olduğunu müdafiə edirəm. Təcavüz də etmişəm və qız sonra mənə aşiq olub. Heyvanıq biz, heyvan. Yalandan insanı yamsılamağa ehtiyac yoxdur. Amma təcavüz mod olsun, onda da onu pisləyəcəm. Yaxşılar qazansa pislər üçün savaşacam, pislər qazansa yaxşılar üçün savaşacam. Mənim təbiətim budur, başa düşürsən? Ümumiyyətlə bu dünya əgər qəhbəxanadırsa, deməli mən qəhbəyəm. Deməli sən də

qəhbəsən, o da qəhbədir, hamımız da. Bəyəndiyin qızın gözlərinə baxma cəsarəti nə vaxtan tərbiyyəsizlik olub? Yolda yanımdan bir qız keçsə və mən onu bəyənsəm, gözlərimi zilləyəcəm onun gözlərinə. Təkamülün mənə biçdiyi rolu oynayacam. Kimisə narahat etmək ya səviyyəli davranmaq vecimə də deyil. Başa düşürsən bütün bu dediklərimin məğzini? Nə demək istədiyimi başa düşürsən? Demək istədiyim odur ki, mənim kimilər belə dünyada yaşaya bilməz. Biz ölməliyik. Kaş yaşaya bilsəm. Ancaq bürünə bilmədiyim tək saxta rol varsa o da sistem adamı olmaq, iş adamı olmaq, ofis adamı olmaq roludur. Təəssüf ki, nə heç bir müdirin üzünə güləcək qədər riyakaram, nə də öz işimi quracaq qədər həyat aşiqiyəm. Küçələrdə yaşamaq istəmirəm, pul qazanma əziyyətindən də imtina edirəm. Bütün bunlar qarşısında təəccüblənəcəyin bir şey deyim? Bir qadını, dəli kimi sevə bilərdim. Hə, sevərdim. İki həftəlik ya bəlkə beş aylıq, amma yenə də sevərdim. Nəyi bacarmasam da onu bacarardım. Madam ki məsələ kəmiyyət deyil keyfiyyətdir, onda əsas məsələ sevginin müddəti yox kiçik bir zaman dilimində nə qədər güclü olduğudur. Başqa bir həyatda qarşılaşsaydıq əgər, səni sevə bilərdim Andrea.

Mavi gözünü oğlandan çəkmədən onun bütün dediklərini dinlədi. Yanındakı onu izləyən qızı izlədi və sonda Laranın yanına getdi. Qolundan tutub onu balkonun pilləkənləri ilə binanın arxasındakı kimsəsiz və qaranlıq baxçaya düşürdü. Onu ölüm kampının binasına söykədi və qarşısında dayanıb öz bədənini də onunkinə söykədi. Hər ikisinin gözü bir digərinin dodaqlarına kilidləndi. Lara bəzən Maviyə nifrət edircəsinə dodaqlarını tərəddüdlə geri çəkir, bəzən də onu bütün varlığıyla öpmək istəyirdi. Qadın sevgisinin irrasionalığının və məntiqsizliyinin bir təcəssümü kimi ona həm nifrət edirdi həm də vurğun idi. Lara onda ayıldı ki Mavi az qala ağzının içindədir və dilləri bir-birinə sarılıb. Hətta sanki icazə versə Mavi girib bütün bədənini onun dilinə sarıyıb orda da qalacaqdı bir ömür boyu.

“Çılpaq bədəninə sarılıb başımı yumuşaq amma sərt döşlərinin üstünə qoyub sonsuzadək yuxu görmədən yatmaq istə-

yirəm" dedi Mavi əlini Laranın ürəyinin üstündəki sol döşünün üsünə qoyub barmaqlarıyla yüngülcə sıxarkən. Lara qeyi-ixtiyari əlini onun saçları arasına salıb gəzdirdi. Sonra sağ ayağını qaldırıb sanki Mavinin çanağını içinə itələyirmişcəsinə qavradı ayağıyla onu arxadan sararaq. Sanki bütün hər şeyə baxmayaraq Mavinin qarşısında özünü aciz hiss edirdi. Biraz əvvəl Mavini o qədər alçaldan, ona əsəbləşən, zaman-zaman ona nifrət edən Lara, qadın hisslərindəki qərarsızlığın bir təzühürü kimi indi Mavinin alovunda əriyirdi. Hər şeyə baxmayaraq əlini Maviyə bulamaq istəyirdi ölüb qabağı. Titrəyən sümüklərini mavi bir ehtiras alovu sarmışdı və gecənin qaranlığı onu tünd mavi bir bilinməzə aparırdı.

Başlarının üstündə sayrışan ulduzların işıqlarının aydınlatdığı dodaqlarına baxdılar. Ətrafda mavi bir səssizlik var idi və Laranın papiros tutan sol əli sanki bütün tufanlı havaya baxmayaraq irəliləyən yelkəni qayıq kimi sürətlə amma yavaş-yavaş Mavinin ayaqları arasına sürüşürdü özündən xəbərsiz. Öz ayaqları arasında şəhvətlə alışıb yanan qara dəliyin içinə bastırıb itirmək istəyirdi Mavini. Ayaqlarının arasından bütün bədəninə bir istilik yayılırdı heç bitməyəcəkmişcəsinə. İndi bu anlarda başa düşürdü ki, onun Mavinin qısa müddət belə olsa birlikdə yaşamalarını yoxlamaq təklifini rədd etmə səbəbi o idi ki, Mavinin daha sonra ondan bezməsi ya da onun əvəzinə artıq ondan ilk başlarda aldığı zövqü gedib yeni qadınlardan alacağı fikrinə dözə bilmirdi. Özünü həmişə bu tip şeylərə qarşı vecsiz sanmış ya da göstərmişdisə də, indi başa düşürdü ki bu sadəcə onun müdafiə mexanizminin bir təzahürüydü. Sadəcə o fikri qəbul edə bilmirdi ki, Mavi bir gün ondan bezə bilər. Həyatın və genlərinin ona biçmiş olduğu taledən imtina edirdi. Onu bu kampa gətirən şeyin əslində Mavininkiylə eyni dərd olduğunu başa düşürdü. Maviyə nə qədər alçaq olduğunu deyərək əslində sadəcə özünü sakitləşdirirdi. Bütün həyatı boyu nifrət etdiyi o qadınlıq xislətindən onu sadəcə ölüm ayıra bilərdi.

Elə onda ayıldı ki Mavi az qala onun içindədir və onlar kampın yaxınlığındakı sıx ağaclı meşəlik ərazisindəki otların

üstündə çılpaq sevişirlər. Kampdan xeyli uzaqlaşmışdılar və ordan eşdilən uzaq və zəif səslər ölüm ayağında olan insanların son fəryadlarını xatırladırdı. Əlini üstündəki Mavinin sərtləşmiş ombasına qoyub onu içəri itələdi. İçindəki sərtləşmiş Mavini hiss etdi. Cırmaqlayan dırnaqları onun ətinin içinə girdi. Sanki içində yanan şəhvət atəşinə su səpib söndürməsi üçün Mavini içinə, daha da dərinlərə göndərirdi. Özünü Mavinin qoynundakı bihuşedici cənnətin içində itirməyə çalışaraq düşüncələrdən azad olurdu. Onun qoynundakı cənnətdə tapdığı bulaq suyundan içirdi doya-doya. Cənnətin havasını içinə çəkir və onun mavi çəmənliklərində sanki heç dayanmayacaqmışcasına qaçırdı. Mavini seyr etdi. Onun ulduzların altında parlayan çılpaq bədənini və güclü qollarını heyranlıqla izlədi. Mavi vəhşi bir heyvan kimi onu parçalamağa çalışır, tez-tez sərt əlləriylə şiddətli formada onun budlarına möhkəmcə vururdu. Cəngəllik onun içindəki meşə insanını ya da vəhşi meşə heyvanını çölə çıxarmışdı sanki və bu Laraya məst edici sonsuz bir həzz verirdi. Üstündəki bu iqtidarı ələ keçirmiş canavar tərəfindən parçalanmaq və oradaca ölmək istəyirdi. Rəqslərindən yaranan dalğalar qaranlığın aydınlatdığı kosmosa yayılırdı və Lara ölümqabağı Mavinin yaralarından öpürdü.

Üstündə dim-dik durmuş Mavini özünə tərəf çəkib üstünə uzatdı və onun qolunu möhkəm dişlədi. Daha da möhkəm dişləyib qoparmaq istəyirdi. O da yetmir, Mavinin bütün bədənini içinə ya da ağzına almaq istəyirdi. Mavi onun qulaq məməsini dodaqları arasına alıb sormağa başladı. Bir pələng dişisinə nə qədər zərif davrana bilərdisə ancaq o qədər zərif davranırdı. Mavinin burnundan çıxıb onun qulağına və boynuna yayılan isti nəfəsi, qaranlıq və sərin meşədə üşüyən çılpaq bədəninin bütün sümüklərini qızdırırdı. Qulaq ətrafına yayılan isti nəfəs onu xoşhallandırırdı. Dişisi uğrunda uzun bir döyüşdən qalib və yaralı çıxmış vəhşi heyvan kimi Mavi təngnəfəslə burnunu Laranın üzündə, boynunda, saçlarında gəzdirib hər tərəfini iyləyib dişisinin qoxusunu ciyərlərinə çəkirdi. Üzünün hər

nöqtəsini öpüb boynunu yalaya-yalaya əliylə qavradığı iri döşlərə enərək qadınının dirilik şərbətini əmməyə başladı. Laranın döşünün o qara giləsini dodaqları arasına aldı. Hədsiz eyforiya içində boğulan Laranın gözləri qaranlıq səmadakı ulduzlara sataşdı. Və xatırladı ki bu onun ulduzları görəcəyi son gecədir. Son sevişməsidir. Və son orqazmı. Hər ikisinin. Bu kədərli xoşbəxtliyin müşayiəti ilə onlar dünya ilə vidalaşırdılar. Laranın həzin iniltisi qaranlıq meşənin dərinliklərinə yayılaraq onun sakinlərinin yuxusunu qaçırırdı. Uzaqlardan eşidilən bayquşa bənzər bir səs onun iniltisini müşaiyət edirdi. Uşaq vaxtı danışılan bayquşun bədbəxtlik gətirdiyinə dair inancı xatırladı Mavi. Həyətlərinə hər bayquş qonduğunda anasının necə səksəkəyə düşüb qorxduğunu və uşaqları qorxmasın deyə heç nə olmayıbmış kimi davrandığı vaxtları xatırladı. O qədər bədbəxt və kasıb bir ailə idilər ki, bir bayquş belə rahatlıqla onların kefini qaçıra bilərdi. Bir bayquş, nə qədər zərərli ola bilərdi? Kədərli xatirə onu narahat etdi. Kefsizləşdi. Ölümü xatırladı. Sanki eyni anda eyni şeyi düşünmüş və bunun onların son gecələri olacağını xatırlamış və kədərlənmişdilər. Ölüm düşüncəsinin onların kefini qaçırdığı bu anlarda Mavi hiss etdi ki yerdə gicitkənə bənzər bir bitki o hər dəfə irəli-geri getdikcə onun dərisinə batır və ətini qıcıqlandırır, gicişdirirdi. Bu gicişmənin ona xüsusi bir həzz verdiyini və ağrının onu düşüncələrindən yayındırdığını hiss edib əliylə bitkini qavrayıb kökündən qopardı və Laranın budlarına vurmağa başladı. Bitkinin yarpaqlarındakı maddələr dəriyə dəydikcə onu yandırır və qaşındırırdı. Lara qışqırdı və onun səsi uzaqlarda hansısa mehriban bir dələnin yuxusunu qaçırtdı. Bir an sonra o hiss etdi ki bu gicişmə ona qeyri-adi bir zövq verirdi. Bitkini Mavinin əlindən aldı və var gücüylə onun ay işığının parlatdığı sinəsinə vurdu və təkrar vurdu. Bədənləri yaranmış ağrını azaltmaq üçün endorfin ifraz edir və bu endorfin dənəcikləri beyindəki opiat reseptorları ilə birləşib morfi ya kodein təsiri bağışlayaraq onları quş kimi yüngül hiss etdirib iztirablarından azad edirdi. Ağrı mərkəzini dəyişdirərək onlar düşüncələrinin

diqqətini yayındırırdılar. Eynilə Mavinin barda özünü döydürərək düşüncələrdən xilas olma cəhdi kimi. Yanmış və qızarmış bədənlərindəki ağrını dindirmək üçün sanki buludlar da öz son jestlərini göstərərək ağlamağa başladılar. Meşə, gecə, ulduzlar və buludlar – bütün təbiət onları yola salırdı və sanki nələrisə başa düşmüş kimiydilər. Bədənlərinə dəyən kiçik yağış damcıları onları bihuş etdi və təbiətin bu gözlənilməz hədiyyəsinə gülməyə başladılar. Gülüşləriylə onlar buludlara bir növ təşəkkür edirdilər. Yağış sürətlənməyə başladıqca onlar da sürətləndi. Bir-birlərinin bədənindən süzülən yağış damcılarını yaladılar. Elə onda birdən fərqinə vardılar ki, yağış damcıları şəffaf yox mavi idi. Və bütün bədənləri maviyə bulanmışdı. Tanrıların onları izlədiklərindən əmin oldular.

Laranın bütün bədəni gərildi və gərilən ayaqları məngənə kimi sıxdı dizləri arasındakı Mavini. Bədənləri heç qopmayacaqmış kimi bir anlıq bir-birinə kilidləndi, gərildilər və paralel orqazm. Bütün bədənləri boşaldı. Ruhları buludların üstünə qalxıb ekstaz içində boğuldu və Afrodita onlar üçün qədəh qaldırdı. İnilti səslərinin yerini təngnəfəsləri aldı və Mavi asi ruhlu qadının üstünə yıxıldı. Sanki tanrılar tanrısı Zeus onların sevincini qeyd edirmişcəsinə əsasını buludlara çırpdı və zil qaranlıq meşəni dərinliklərinə qədər aydınladan güclü bir ildırım çaxdı.

Geri dönüş yolunda meşədən anlaşılmaz qəribə səslər eşidir kimi oldular, geri dönüb şübhəylə baxdılarsa da heç nə görmədilər. Daha sonra Lara qaranlıqdan onları izləyən mavi bir pələng gördüyünü dedisə də Mavi ona inanmadı. Uzaqlaşdıqdan sonra təkrar dönüb baxdıqlarında bir-neçə mavi pələngin meşənin dərinliklərindən fosfor kimi parlayan mavi gözlərlə sakitcə onları izlədiklərini gördülər. Onları saymağa çalışdılar ancaq hər saydıqlarında pələnglərin sayısının artdığını görüb dəhşətə düşdülər. Vahiməylə qaçıb ordan uzaqlaşdılar. Borqesin ruhu dolaşırdı meşənin dərinliklərində və meşə, onlarla vidalaşırdı.

* * *

Bara geri döndüklərində içəridəki insanlar ölüm qorxusundan uzaqlaşmaq üçün daha da artıq çılğınlaşmış kimiydilər. Səs-küydən heç nə eşidilmirdi. Hərə bir tərəfdə oynayır, sevişir ya da yüksək səslə qızğın mübahisələr edirdi. Sanki hamı qorxusundan oynayırdı. Qorxusundan gəlib bu səs-küyün içinə girmişdilər ki iç səslərini və ölüm qorxusunu eşitməsinlər. Kənarda yalnız oturanların hamısını bir-bir rəqsə qaldıran qısa saç bir qız var idi. Onlara acıyır və yalnızlıqlarını bölüşürdü sanki. Otağın bir küncündə Andrea, həmin o üsyankar uzun qara paltolu oğlanı öpürdü. Bu keçici xoşbəxt yazıqların içindən keçib gedib hündür bar kətillərində oturub son içkilərini aldılar. Lara aşa-aşa musiqi aparatının yanına gedib bir musiqi seçdi sonra qayıdıb bütün pulunu barmenə verib qulağına yüksək səslə qışqıraraq sabah səhər saat neçədəsə bu mahnını, *"Alabama Shakes"* in *"Savaşmaq istəmirəm"* adlı mahnısını yüksək səslə oxutmasını istədi. Barmen başıyla razılaşdı. Mavi saatı eşidə bilməyib Laradan soruşdu. "12-də" deyə cavabladı Lara "sənlə eyni saatda, amma ayrı otaqlarda". Mavi bütün sərxoşluğuyla özünü ələ alıb "Lara, bəlkə biz sa.." deyə nəsə deməyə çalışdısa da Lara onun sözünü yarım kəsdi, "Yox. Bu barədə artıq heçnə danışmaq istəmirəm. Bəlkə sabah ölməyib gözləyək deyirsən? Yox. Bura qədər gəlib çıxmışamsa, burdan geri dönüş yoxdur. Çünki nələr olacağını bilirəm və təkrar hərlənib fırlanıb bura qayıdacağımı da bilirəm. Mavi, yadına sal, bu həyatda nə seçim ediriksə edək peşman olacıq, bizi sadəcə ölüm xilas edə bilə..". Sözünü bitirməmiş əlindəki bardaq yerə düşüb sındı. Sərxoşluqdan artıq ayaqda dura bilmirdi. Az qalırdı ki yerə yıxılsın, Mavi onu tutub qoluna girdi. "Bəlkə biz sabah birlikdə intihar edək deyəcəkdim, amma yaxşı, madam ki israr edirsən, ayrı-ayrı olar". Qarşısındakı bayaqdan sifariş vermiş olduğu iki kiçik içki qədəhindən birini Laraya verdi və dedi: "Qurtuluşumuzun sağlığına!". Qədəhi başlarına çəkdilər. İkisi də artıq demək olar ki ayaq üstə yıxılırdılar. "Yatmaq istə-

yirəm” deyə mızıldadı Lara, “özümü hazır hiss edirəm”. Seçdiyi musiqinin növbəsi çatdı və oxumağa başladı. Mavi Laranı otağına daşımağa başladı. Hər ikisi səndələyərək yeriyir və musiqinin nəqarətini oxuyurdular *“Artıq savaşmaq istəmirəm. Artıq savaşmaq istəmirəm..”*

Yaş paltarlarını çıxarıb yatağa girib bir-birlərinin çılpaq bədənlərini qucaqladılar. Həddindən artıq başgicəllənməsi, başağrısı və sərxoşluq çəkirdilər. Divarlar fırlanır, bəzən genişlənir bəzən də daralırdı. Hər şey fırlanır kimi görünürdü ancaq diqqətlə baxdıqlarında hər şeyi yerində görürdülər. Ən pisi də o idi ki, qusacaqmış kimi olur amma qusa bilmirdilər. Heçnə də yeməmişdilər. Bir an onlara elə gəldi ki heç vaxt yata bilməyəcəklər ancaq bir neçə dəqiqə sonra ikisi də yuxuya getdi. Başını Mavinin sinəsinə qoydu Lara və ruhunu ona söykədi.

Real dünyanın ağrılarından xilas olub şüuraltı dünyasının bilinməzliyində itdilər. Orda bəzən qorxu tapdılar bəzən dinclik. Bəzən quş olub uçdular, bəzən quş olub ovlandılar. Lara bir şəlalədən aşağı düşdüyünü gördü, qorxuya qapıldı, qışqırmağa başladı ancaq sonra necəsə başa düşdü ki bu şəlalə heç vaxt bitməyən sonsuz bir şəlalədir və qorxunun yerini qəribə bir zövq hissi aldı. Soyuq su dənəciklərinin içində bu dəfə xoşbəxtlikdən qışqırmağa və sonsuz axımla aşağı düşməyə başladı. Həmişə yüksək bir yerdən tullanmaq və o hissi yaşamaq istəmişdi, havadaykən yaşanılan adrenalin partlamasını hiss etmək istəmişdi həmişə ancaq yerə çırpılmaq düşüncəsi ona dəhşətli dərəcədə qorxunc gəlirdi. İndi, ölümündən bir gün əvvəl o bu hissi yuxusunda yaşayırdı. Şəlalə onu okeanın dibinə apardı. İnsanların suyun altında yaşamağa doğru təkamül etdiyi bir dünyaya girdi. Hər şey normal idi, maşınlar, evlər, işə gedən insanlar, yollar. Normal olmayan tək şey, hər şeyin suyun altında olması idi. Hər şey o qədər normal görünürdü ki, qaranlıq okean dibinin süni işıqlarla aydınlatılması ya da arada bir ortalıqdan keçən balıqlar belə onun diqqətini çox da çəkmirdi. Bir küçədə tapdı özünü, uzaqdan anasını və atasını gördü, həyət evlərinin qarşısında stol qoyub oturmuşdular. Kədər-

li-kədərli kimisə gözləyirdilər ancaq gəlməyəcəyini bilirdilər. Birdən o başa düşdü ki onları tərk etmiş qızlarını, Laranı gözləyirlər. Ağlamağa başladı. Gözyaşları okeanın suyuna qarışdı və o gözyaşı axıtmadan ağlayan heyvanları xatırladırdı. Suyun altında boğulurmuş kimi hiss etdi, sonra kədərli atasının boynunda qalxıb enən bir şey diqqətini çəkdi. Əlini öz boynuna atdı, qəlsəmə, qəlsəmələri var idi. Olduqca real görünürdülər. Bu düşüncə ilk başda onu narahat etdi. Sonra alışdı, hər şey kimi. Qaçıb ya da üzüb anasını qucaqlamaq istədi, ancaq bədəninin əks istiqamətdə hərəkət edib onu anasından uzaqlaşdırdığını gördü, həmişəki kimi. İnsan nə istəyir istəsin, xislətinin onu başqa istiqamətə aparacağının bir sübutu kimi. Sanki determinist bir dalğaya tutulmuş kədərli bir su pərisi kimiydi. Başqa insanların yanlarından keçib, onların söhbətlərinə misafir oldu. Yeniyetmə bir qız ağlayırdı və yanındakı dostuna dərdlənirdi *"bezmişəm, üzüb buralardan getmək istəyirəm, uzaqlara, lap uzaqlara, bəlkə Atlantik okeanına, deyirlər orda insanlar daha çox xoşbəxtdirlər". Qızda gəncliyini gördü, ona acıdı. Nə qədər yaxınlaşıb "getmək hər şeyi dəyişmir"* demək istədisə də, yaxınlaşa bilmədi.

Birdən onu nə olduğu bilinməz bir dəhşət bürüdü və bədənini Maviyə doğru sıxdı. Çılpaq və isti döşü Mavinin sinəsinə yayıldı. Mavi bu kiçik tərpənməni yuxusunda hiss etdi və bu kiçik hərəkət yuxusuna kəpənək effekti kimi təsir edərək onu yeraltı bir otaqda bir qoca ilə dialoqda olduğu yuxudan qapını açaraq onuncu mərtəbədə penisi olan bir qadının olduğu otağa keçirdi. Sarışın qadının çılpaq oturub bir kişi ilə söhbət etdiyini və qucağındakı uşağı döşləri ilə deyil, penisi ilə qidalandırdığını gördü. Başqa bir kainatda olduğunu anladı. Orda belə qidalandırırdılar uşaqları və qadınların penisi var idi. Qadının sərt, qalın, uzun və dik penisi və döşləri Mavinin ağlını başından aldı. Onun bədəninə baxdıqca baxır və doymurdu. Ona yaxınlşamaq istəyir, ancaq alınmırdı.

Yatdıqları otağın çölündən uzun bir səs eşidildi, bir bayquş səsi. Sonra bütün digər bayquşlar ilk bayquşa qoşuldu. Kam-

pın dörd bir tərəfini sarmış bayquşların səsləri binanın pəncərələrindən ölü canların otaqlarına dolub onları narahat etdi. Bəlkə də bayquşlarla bağlı rəvayətlər doğruydu və onların ölümünün xəbərçisiydi ətrafı bürüyən vahiməli səslər bütünü. Səslər Mavinin yuxusuna təsir etdi və o penisli qadının olduğu onuncu mərtəbədən başqa bir otağa, mərtəbəyə, şəhərə və kainata keçdi.

Bir yazarın romanındakı əsas obraz olduğunu hiss etdiyi bir yuxuya keçdi. Girdiyi otaq yazarının otağıydı. Səfil yazar yazısını yarım qoyub yerə yıxılıb yuxuya getmişdi. Bədbəxt birinə oxşayırdı. Sanki yaşamaq istədiyi həyatdan uzaqda olduğu üçün onu yazılarında yaşatmağa çalışırdı. Yalnız idi. Dar və dağınıq bir otağın küncündə yıxılıb qalmışdı. Üst başı çirkliydi, sanki həftələrdir çimmirdi və sanki bunların heç bir əhəmiyyəti yox kimiydi. Sanki yazmaq istəmirdi və nifrət edirdi yazdığı anlara çünki bu danışacaq heç kəsinin olmaması demək idi. İşgəncəsindən zövq almağı öyrənə bilməmiş insanları xatırladırdı.

Mavi yuxuda olub olmadığından əmin ola bilmir və bu fikir onu dəhşətə gətirirdi. Sadəcə bir əsər qəhramanıymış kimi və sadəcə yazılanları etmək məcburiyyətində olduğunu hiss edirdi. Sanki yazarının qələmi onun determinizm sopasıydı. Özünü bunun yuxu olduğuna inandırmağa çalışırdı ancaq alınmırdı. Oyana bilmirdi.

Mavi onu burdaca öldürsə heç kimin xəbəri olmayacaqdı. Bəlkə də onu burdaca öldürməliyəm deyə düşündü. Onsuz da istədiyi bu idi, belə bir əsər yazdığına görə. Ancaq bir anlıq iç-içə keçmiş qorxu və yazıqlıq hissi onu fikrindən daşındırdı. Otağa nəzər saldı, kitablar və cırıq səhifələr. Tütün və sarma kağızlar. Boş butulkalar və boş ümidlər. Sönük bir işıq. Yerdəki cırıq kitab səhifələrindən birini götürüb oxumağa çalışdı. Hansısa yazarın kitabının cırılmış və paramparça edilmiş səhifələri var idi bir tərəfdə. Divardakı notlara göz gəzdirdi. Yarımçıq şeirlər və silinmiş cümlələr. Birini oxumağa çalışdı:

*Bütün bu intihar sancılarına baxmayaraq,*
*Yaşamaq istəyirəm, həyat,*
*Sənin bütün ağrılarına baxmayaraq,*
*Yaşamaq istəyirəm.*
*Geridə qalır planlaşdırılmış bütün intihar girişimlərim*
*Yaşamaq istəyirəm,*
*Həm də bütün gücsüzlüyümlə,*
*Bütün bezmişliyimlə,*
*Bütün qorxaqlığımla.*

*İçimdə ağlayan biri var,*
*Yaşamaq istəyir.*
*İçimdə bir savaş var,*
*İki tərəfli,*
*Ölmək istəyən mənəm,*
*Yaşamaq istəyən onlar.*

*- timidus, ölümündən bir neçə il əvvəl gecəyarısı.*

Pəncərədən çölə baxıb hansı şəhər ya ölkədə olduğunu aydınlaşdırmağa çalışdısa da bir anlam verə bilmədi. Kiçik masanın üstündəki kompyuterin işığı otağı işıqlandırırdı. Keçib kompyuterin qarşısında oturdu. Romanın yazıldığı səhifə açıq idi. Ordan-burdan cümlələr oxuyub dəhşətə gəldi. Lara ilə sevişmə səhnəsi olduğu kimi yazılmışdı. Doğrumuydu? Həqiqətən həyatı sadəcə bir yazarın əsərindənmi ibarət idi? Dəhşətə qapıldı. Yazılara sürətlə göz atanda Mavini nəsə elə bir hiss bürüdü ki, bu yazıq yazar Mavini özündən belə daha çox sevir və ona dəyər verir. Ona təkrar acıdı. Kompyuterin ekranında başqa bir səhifənin açıq olduğunu gördü və səhifəni açdı. Bir-iki saat əvvəl bir qıza mesaj göndərilmişdi: "sənin üçün çox darıxıram". Məktubun göndərildiyi qızın yanda kiçik bir şəkli var idi. Şəkili açdı. Şəkil böyüdü və Mavini vahiməli bir hiss bürüdü. Bu qızın sanki kim olduğunu bilib amma

unutmuşdu. Üzündə dəhşətli bir tanışlıq hissi var idi ancaq nə qədər etdisə tanıya bilmədi. Qıza təkrar vuruldu. Qızı bəyənməsinin səbəbi yazarın da onu sevir olmasıydı yoxsa o özü öz azad iradəsiylə vurulmuşdu? Cavabsız suallara qərq olub hiddətləndi. Ağlını itirəcək kimiydi. Onun yazarının yuxusuna girməsi də mi yazılmışdı yoxsa bu bir nöqsanmı idi? Əsəb və qorxudan titrəyən əlləriylə ekranda açıq olan başqa bir səhifəni açdı, bu dəfə kimsə yazara məktub yazmışdı: *"Dur gəl. Ya gəl, ya da mənə bir də yazma. Yazdıqların ağlıma olmayacaq xəyalpərəst alternativlər gətirir. Sərhədlər. Aramızda neçə ölkə neçə sərhəd var. Ancaq günah məsafələrdə deyil. Məsafələr bizim addımlarımıza görə artıb azalır nəticədə. Bir neçə addım atsan, sənə bir faninin ayaqları və qolları arasında tapabiləcəyi maksimum dincliyi vəd edə bilərdim, amma çox açıq şəkildə qorxaq olduğunu deyirsən.." - yazını yarımçıq saxlayıb ona yazılmış cavabı oxudu: "Gəlmək məni qorxudur. Buranı da tərk edərək sadəcə yaralarımdan birini daha artıracam. Əvvəllər düşünürdümki bəlkə ölməyi qərara alsam okeanı keçib son dəfə gəlib orda yaşayıb elə ölərdim amma sonra anladım ki ölüm plan tanımır. Gəlməyin mənə köməyi olacağına dair şübhələrim böyükdü. Axmaqlığımmı deyirsən ya qorxaqlığımmı, motivasiyasızlığımmı ya tənbəlliyimmi adı hər nə olur olsun məni bariz istəklərimdən uzaqladşırır və istədiyim heçnə üçün addım atmıram. Biri xaric, onda da nə qədər uğurlu olacağım naməlumdu.."*

Biri xaric? Nə idi son planı? İntihar? Yazarın səfil həyatına yazığı gəldisə də, Mavi başa düşmürdü yazar niyə özünü bu qədər səfil günə salıb? Niyə normal yaşaya bilmir? Onu xoşbəxtlikdən ayıran şey nə idi ki belə əzab çəkirdi? O gedəcəyi yer hər hara idisə, niyə getmirdi? Niyə mübarizə aparmırdı? Sonra Mavi öz həyatını xatırladı və həyatları arasındakı bənzərliyi gördü. Eynilə yazara irad tutduğu kimi, özünə də irad tutdu. Yazara o qədər yazığı gəldi ki, özünün də o qədər səfil və bacarıqsız olmadığını göstərmək üçün bir anlıq yaşamağı və mübarizə aparmağı qərar almaq istədi. Ancaq gücü çatmadı.

Birdən o hiss etdi ki çox vaxtı yoxdur tələm-tələsik romanın yazılı olduğu səhifəni açdı. Öz sabahkı ölüm səhnəsini görən kimi bədənini istilik basdı. Əvvəlcə öz, sonra Laranın ölüm səhnəsini dəyişdirmək üçün girişirdi ki, əli masanın üstündəki boş butulkaya dəydi və yerə düşən butulkanın səsi yazarı və onu, hər ikisini oyatdı. Bir an yazarla göz-gözə gəldilər və oyandılar. Oyandığı anda bir anlıq hər şeyin yuxu olduğunu görüb sakitləşdisə də, yenə də yatıb həmin yuxunu görmək üçün çabaladı. Gözlərini yumdu, gözlədi, gözlədi, alınmadı. Tam son anda butulka yerə düşüb səs çıxarmamışdan əvvəl yuxuda ekranda açıq olan faylların adlarını oxumağa çalışmışdı. Hansının kitabın adı olduğunu yadına salmağa çalışdı. *Mavi, Evtanaziya kampları*, Bəd bəxt və bir də, bir də T hərfiylə başlayan bir söz görmüşdü ancaq nə qədər etdisə xatırlaya bilmədi.

Tərləmiş və təlaşlanmışdı. Son anda göz-gözə gəldiyi yazarının gözlərini xatlırladı. Üzünü xatırlamırdı. Narahatçılıq və qorxu hissiylə Laranın çılpaq kürəyini qucaqladı. Şüuraltısının ölümqabağı ona yaxşı oyun oynadığını düşündü. Təkrar yatsa eyni narahat edici yuxunu görəcəyindən çəkindi ancaq həm də görmək istəyirdi yenidən. Ancaq yatmasa bu gecəni oyaq keçirəcək qədər güclü olmadığı üçün təlaşlandı və bütün bu düşüncələrin qoynunda təkrar yuxuya getdi.

Əvvəlki yuxudan qalan kiçik hisslərin köməyi ilə ala-yarımçıq bir yuxu gördü. Yazarının otağına girdikdən sonra Mavi əsərin son səhnəsini dəyişməyə müvəffəq olmuş və özünü sağ saxlamışdı əsərin sonunda. Səhər oyanan yazar təkrar içmiş, bitirdiyi əsəri oxumadan çapa göndərmiş və Mavi ölümdən xilas olmuşdu.

Sinəsini daha ağır vəsvəsənin bürüdüyü başqa bir yuxuya oyandı. Başının üstündə biri dayanmışdı, olduqca böyük idi. Mavi isə olduğundan olduqca kiçik idi. Üstündə dayananın kişi dayanmadan ona istehzayla gülürdü. Aşağıdan yuxarı baxdığı üçün kişinin üzünü görə bilmirdi, sadəcə böyük bığlarını görürdü.

- Xoşbəxtlik axtarışına çıxmısan? Aciz insan. Ağrıya dözməyi öyrənməlisən səni axmaq, həzz dalınca qaçmağı deyil. – dedi kişi və Mavi onun Nietzsche olduğunu anladı.

-Mənə nə etməli olduğumu demə, necə etməli olduğumu de.

Nietzsche güldükçə böyüyür və Mavi kiçilirdi.

-Yarım buraxdığın kitablarımı oxusan bəlkə bilərdin. Sadəcə orta əsrlərdən qalmış üç-beş dəyəri rədd edərək üstinsan olduğunu sanırdın ancaq gündən-günə kiçilirsən. O qədər acizsən ki az qala özünü öldürəcəksən. Üstinsan olmaq istəyirsən? Yaşamalısan! Bu ağrıların içində ölmədiyin hər gün daha da yaxınlaşacaqsan üstinsana. Yaşadığın hər can sıxıntısını içki ya narkotiklə doldurmayaraq yaxınlaşacaqsan üst insana. Sonra bir gün heç bir ağrı sənə təsir etməyəcək. Nə məsafələr nə keçmiş xatirələri.

-Sən çarəsizlik təsəllisindən başqa bir şey deyilsən! Ən pis günlərimdə sənə sığınırdım çünki pessimizmin mənə güc verirdi. Amma artıq bəsdir. Acizlərin sığınacağısan sən. Ağrıya alışmaqdansa ağrını birdəfələik kəsəcəm özümü öldürərək. Məsələ bunların heç biri deyil! Məsələ nə nostalgia ağrısıdır nə xatirələr nə məsafələr. Mən sadəcə işləmək istəmirəm! Həyatda qalmaq üçün çəkməmiz gərəkən o əziyyəti inkar edirəm. Günah məndə deyil, müasir dövlətlərin insanları nə hala saldığını görürsən. İşləmək və yenə işləmək.

Nietzsche gülür, güldükcə böyüyür və Mavi kiçilirdi.

- Özünü öldürsən də məni haqlı çıxaracaqsan, öldürməsən də. Günahı başqasına atmaq axmaqlıqdır. Sənin həyatın sənin əllərindədir! Səfeh! İnsanın nə qədər doyumsuz olduğunu ən az mənim qədər yaxşı bilirsən. Onda nəyə görə həzz arxasınca qaçıb ağrıdan uzaqlaşırsan? Bitməz o yol. Özünü öldürmədiyin hər gün daha da güclənəcəksən. Tab gətirəcəksən. Dözəcəksən! Ölümə getdiyin bu son günlərdə belə həzzin ardınca qaçırdın! Seks və narkotikin qurbanı olmusan son günlərində belə. Bütün o post-modern bədbəxt insanlardan sadəcə bir başqasına çevrilmisən! Tarixin iki ən böyük həzz qaynağı. Qadınlar və uyuşturucular. Onların ardınca qaçdığın qədər on-

ların yoxluğu səni narahat edəcək. Mübtəlası olduğun həzzlərin fırtınasında itmisən. Qaçıb barlara gedirsən. Tragediyanı özünü uyuşduraraq üstündən atır və həzzin qurbanı olursan. Mənim dahi olduğumu inkar edirsən amma başa düşmürsən ki, dahi olma səbəbim tragediya ilə baş edə bilməyimdir! O lənət Qodotu gözləməyi buraxdığın gün azad olacaqsan. İçində olduğun bu bədbəxtliyi təkrar və təkrar yaşayacağını bildiyin və qəbullandığın gün azad olacaqsan. Xoş günləri gözləmədiyin gün və bəd günlərə tab gətirdiyin gün! Onları hiss etməyəcək qədər gücləndiyin gün fövqəl insan olacaqsan və tragediyanın fırtınasında rəqs etməyi öyrənəcəksən, fırtınadan qaçmağı yox. İztirab həyatın ayrılmaz bir parçasıdır. Döz! Tab gətir və dayan! Sənə əzab verən xatirələrini unutmağa çalışma. Onları xatırla və ağrılarına dayan! Ümidlərini öldür və işgəncəni yox et! Mərhəmət duymuram sənə və iztirab arzu edirəm, bədbəxtlik, tənhalıq, xəstəlik və işgəncə arzu edirəm! Arzulayıram çünki bunlara tab gətirə bilməyini diləyirəm.

Nietzsche qaranlığa qərq olub itdi və Mavi səhər bu yuxunu xatırlasa da, sonra xatırlamayacağı başqa yuxular görməyə davam etdi.

* * *

*Artıq savaşmaq istəmirəm.*

*Artıq savaşmaq istəmirəm.*

Səhərə doğru yuxusunda Laranın dünən oxutduğu ölüm mahnısını eşidirdi Mavi.

*Mən artıq savaşmaq istəmirəm.*

Səsi daha da yaxından eşitməyə başladı. Sanki tam da qulağının dibindən. Daha da diqqətlə fikir verdi və o anda gözləri açıldı. Musiqi davam edirdi. Pəncərədən otağa dolan işıq dənəcikləri gözünü qamaşdırdı. Yanına baxdı. Lara orda deyildi. Musiqi davam edirdi. Saat axtardı gözləri otaqda. Yox idi. Ədyalı üstündən tullayıb sürətlə ayağa qalxdı və müvazinətini qoruya bilməyib yıxıldı. Şalvarını götürüb çıxdı otaqdan.

*Artıq savaşmaq istəmirəm.*

“Lara” deyə qışqıraraq çağırır və koridorla qaçırdı. Giriş qapısındakı qadının yanına gəldi təngnəfəs. Saatı soruşdu. Doqquz tamam idi. Qərarsız hərəkətlərlə hara gedəcəyini bilmədən ortada fırlandı bir an. Bara qaçdı. Boş idi bar və eyni musiqi təkrar çalmağa başladı. Geri qayıdıb evtanaziyaların harda yerinə yetirildiyini soruşdu qadından. Arxa binaya gedən koridoru göstərdi qadın.

Qaçmağa başladı.

Koridorun sonundakı yarı açıq qapıdan içəri girdi. “Lara” deyə qışqırırdı. Üst tərəfində kiçik pəncərələri olan beş ya altı qapının olduğu bir otağa girdi. Qapıların üstündəki kiçik pəncərələrdən içəri baxmağa başladı bir-bir. Otaqdakı iki həkim onu dayandırmağa çalışdı. Anlaşılmaz sözlər deyərək onlardan birini itələdi. Təkrar baxmağa başladı kiçik pəncərələrdən.

Üçüncü pəncərə.

Dördüncü pəncərə.

Və Lara.

Hərəkətsiz bədəni boş otaqdakı yatağın üstünə uzanmışdı və qollarından venadaxili şprislər sallanırdı. Qapını açmağa çabaladı Mavi. Bağlıydı. Otaqdakı iki nəfərin üstünə yeriyib özünü itirmiş formada qışqıraraq qapını açmalarını istədi. Onu sakitləşdirməyə çalışdılar. Alınmadı. “Qapını açın!” deyə qışqırdı təkrar. “Xahiş edirik sakitləşin. Pasientin icazəsi olmadan qapını aça bilmərik. Onun yerində özünüzü təsəvvür edin. Kiminsə gəlib sizi dayandırmasını istəyərdinizmi?” deyib sakitləşdirməyə çalışdılar onu. Qapının ağzında dayanıb kiçik pəncərədən Laranı izləməyə, qapını təpikləməyə və hıçqıraraq ağlamağa başladı. “Lara!”, “Niyə mənə yalan dedin!”, “Nə mənası var idi sanki!”, “Səni heç vaxt bağışlamayacam Lara!”.

Durduq yerdə gah diksinir, gah nəsə pıçıldayır, gah da yumruğunu divara sıxırdı. Ürəyinin qapısı açıq qalmışdı və çölün bütün soyuq havası içinə dolurdu. Laranı niyə bu qədər sevdiyini özü də bilmirdi. Ona görə ki onlar bədbəxtlik dostuydular? Yoxsa sadəcə ona görə ki Lara hədsiz gözəl idi? Yox. Bəlkə də ona görə ki onun Laradan başqa heç kimi yox idi.

Laranın üzünə baxdı. Üzündə olduqca dinc bir ifadə var idi. Rahat ölmüşdü. Təbəssüm edir kimiydi. Qulaqlığı hələ də qulağındaydı. Musiqi hələ də oxuyurdu. Üzündəki ifadə sanki Maviyə bir işarə idi: “Qorxma, ölüm sandığımızdan da gözəl imiş”

Lara qurtulmuş, heçliyə qovuşmuşdu və indi xilas olma sırası Mavidəydi.

Yerə çökdü və dizlərini qucaqlayıb ağladı. İlk dəfə sevdiyi birinin ölümünü görürdü və ilk dəfə ölümü bu qədər yaxınında hiss etmişdi. Bir qədər hərəkətsiz oturduqdan sonra elə indicə ölməliydi deyə düşünərək başını qaldırıb soruşdu:

-Mənim evtanaziyam saat 12-dədir, indi edə bilərsiniz?

-Əgər istəsəniz bəli, sadəcə barmaq izinizi aparata göstərməyiniz lazımdır ki, məlumatlarınızı görə bilək.

Donuq baxışlarla fikirləşdi bir qədər. Üç saat gözləyə bilməzdi deyə düşündü. Gözləyib nə edəcəkdi sanki. Ən yaxşısı indicə, burdaca işi bitirmək idi. Üstündə çox fikirləşmədən ölümə və heçliyə qovuşmalıydı. Ayağa durdu. Həkimin göstərdiyi aparata doğru yeridi. Baş barmağı tərəddüdlə aparata doğru uzatdı. Şəklinin və bütün informasiyalarının olduğu səhifə gəldi kompyuterin ekranına. “Əgər hazır hiss edirsinizsə başlaya bilərik” dedi həkim ekrandakı informasiyaları yoxlayaraq. “Hazıram” deyə mızıldandı Mavi çarəsiz və taqətsizcə. Nə qədər hazır ola bilərdisə, o qədər hazır idi.

“Məni izləyin zəhmət olmasa” deyib dörd nömrəli otağa yaxınlaşıb qapını açıb içəri girdi həkim yanındakı qızla birlikdə. Tərəddüdlü addımlarla düşüncəli formada onları izlədi Mavi. Dörd divarı ağ rəngə boyanmış dar bir otaq idi eynilə Laranınkı kimi. Otağın cansıxıcı aurası Mavini narahat etdi. Belə bir yerdə ölmək istəməzdi deyə düşündü. Ancaq artıq çox gecdir və ölümü bir addım uzaqlığındadır deyə fikirləşdi.

Həkim danışaraq ona bir şeylər deyir, proseduranı başa salırdı. Lənətə gələsi prosedura deyə düşündü, ölmək üçün belə hansısa proseduranı izləməliydi. Ölməyə belə ərindirirdilər insanı. Bəlkə də qayıdıb bir-iki qədəh vodka içməliydi. Biraz vecsizləşərdi. Yox əşi. Hər nə isə. Bir dəqiqə sonra bunların heç

bir mənası qalmayacaq. Bir dəqiqə? Bəlkə də daha az. “Oturun zəhmət olmasa”, “İndi arxaya doğru uzanıb rahat nəfəs alın”. Ölüm qabağı nə qədər rahat nəfəs ala bilərsən? Natrium pentotal. Ölüm mələyim. Tez ol.

Həkimin əlindəki iynəni gördü və beynindəki emosiya mərkəzi olan amiqdalasının bütün neyronları aktivləşdi. Qorxu sardı bütün bədəni. Ölüm cəngavərinə qarşı bədənin bütün ordusu ayağa qalxdı. Qorxmuşdu. Lara kimi sakit qarşılamırdı ölümü. Lara sakitmi qarşılamışdı? Göründüyü qədər güclü qızmı idi? Üzündəki ölüm sonrası ifadə elə deyirdi zira. Təbəssüm edərək ayrılmışdı. Sanki həyata son istehzalı gülüşünü ataraq ondan qorxmadığını bildirirmiş kimiydi.

-Qolunuzu uzadın zəhmət olmasa.

Laranın natrium pentatol dozasını azaldaraq bihuş olma müddətini təxminən 30 saniyəyə qaldırtdığı doğruydu görəsən? Necə bir cəsarət idi ilahi. Lara. Sən tanıdığım ən güclü qadın idin. Bəlkə də yaşasam da tanımazdım daha cəsarətlisini.

-Bir dəqiqə oturun, indi gəlirəm – deyib çölə çıxdı həkim.

Beyninin qorxu mərkəzi amiqdala onun verdiyi intihar əmrinə qarşı çıxaraq bütün bədənə savaş ya qaç siqnalları göndərir.

Savaş ya da qaç.

Savaşmaqmı? Ölümlə necə savaşa bilərsən? Həm, Laranın mahnısında dediyi kimi, mən artıq savaşmaq istəmirəm. “Qorxaq!” deyə içindən tanımadığı səslər yüksəlir və onu cürətsiz adlandırırdılar. Qorxaq! Axmaq! Bir qədər fikir verdikdən sonra gördü ki, onu ölümdən qorxduğu üçün yox, yaşaya bilmədiyi üçün qorxaq adlandırırdılar. Bəli, yaşaya bilmirəm. Bu qorxaqlıq deyil şikəstlikdir. Bacarıqsızlıqdır. Siz şikəst insanlara şikəst deyə xitab edirsiniz? Axı bu tərbiyyəsizlikdir.

Kimi aldadıram? Məgər mən şikəstəm? Yoxsa bu sadəcə bir təsəllidir? Deyil. Axı şikəstlik sırf fiziki olmur. Mənimki də psixi şikəstlikdir. Məgər depressiya xəstəlik deyilmi? Xəstəlikdir ki mənə ölüm icazəsi veriblər. Ölüm icazəsi. Necə də gülünc səslənir. Bədbəxtsən sən, bədbəxt.

Qorxurdu və ölmək istəmirdi. Atasını xatırladı. Yanında olsaydı da onu qucaqlayıb ağlasaydı deyə düşündü, amma bacarmazdı.

Beyni ilə ürəyi arasındakı müharibənin bu dəfəki nəticəsini sadəcə həmişə alkoqolun yıxdığı qaraciyəri deyil, bütün bədəni çəkəcəkdi. Elə ona görə də bədənində əli silah tutan bütün hüceyrələr ayağa qalxmışdı. Başlarında bu ölkədəki, bu bədəndəki indiyə qədərki bütün savaşlarını qazanmış bir sərkərdə gedirdi. Heç bir savaşda uduzmadığı üçün bədən sakinləri ona *yenilməz həyat eşqi* adını vermişdilər. Əlində nizəsi beyinə doğru yol almaqdaydı. Beynin ən güclü ölüm cəngavərinə qarşı savaşacaqdı. Həm də ölümünə.

Ürəyinin döyüntüsü o qədər güclüydü ki, heç öz fikirlərini belə eşitmirdi. Qorxu anında beyin bütün gücünü bədənə verdiyi üçün keçici olaraq rasional şüur və düşüncələr basdırılaraq arxa plana keçirdi. Meşənin yırtıcı heyvanlarına qarşı müdafiə mexanizmi olaraq inkişaf etdirmiş olduğumuz qorxarkən bədəndəki tüklərin böyüyərək bizi böyük və vahiməli göstərməsi xüsusiyyətinin təkamüldən qalmış qırıntısı işə düşür və tükləri biz-biz olurdu. Yenə eynilə, yırtıcı heyvan görüb qorxarkən diqqət çəkməməkçün tərpənmədən dayansaq heyvan bizi görməyəcəyi üçün bədənimizdə inkişaf etmiş olan qorxu zamanı yerindəcə dayanma xüsusiyyəti işə düşür və bədəni olduğu yerdəcə donur, bir nöqtəyə zillənirdi gözləri. Bir tərəfdən kimyəvi, bir tərəfdən psixoloji olaraq bütün bədəni ona baş qaldırırdı. Bədəni *savaş ya qaç* rejiminə girdiyi üçün gözlərinə daha çox işıq girsin və ətrafdakı hər şeyi görsün deyə göz bəbəkləri böyüyür, bu da zaman hissini yavaşladır və saniyələri uzadırdı.

İçindəki savaşdan bir xəbər gəlir, bütün ordusunu yığıb yenə bədəni, dayanıb beynin qapısına. Beyninə savaş açıb ürəyi, təhdid edir onu, mümkün bir intihar girişiminə qarşı. Ölümü hər təsəvvür edişində ürəyində bir gurultu başlayır. Qulaqlarına qədər. Yorğun cəngavərlər ordusudunun uzaqdan gələn uğultusu. Damarlarda irəliləyən qan dənəcikləridir onlar. Savaşa hazırlaşırlar. Həm də Ölümünə! Həm də ölümünə! Ya-

yılırlar bütün bədənə. Beyinə doğru yol alır əsas hissə. Hayqırışlarla! Gurultuyla! Qışqır bağırla!

İçi qan ağlayır. Ölümünə. Qan beynə vurur. Bütün gücüylə. Ölümünə.

Həyəcan telləri çalınır bütün bədəndə. Nəfəs itiləşir. Dil quruyur və göz qaralır.

Ən təpədə yer alır, kralın şəhəri. Paytaxtların ən görkəmlisi. Qan beyin baryerasıyla qorunan, o möhtəşəm, bezmişlərin şəhəri. Küçələrində söyləntilər gəzir, "Kral özünü öldürəcək! Kral özünü öldürəcək!". Qan su yerinə axır bugünlərdə, paytaxtın küçələrində və beynin dərinlərinliklərinə.

Kralın ən güclü cəngavəri dayanıb, paytaxtın qapısında. Bütün varlığıyla. Tərəddüdsüz! Titrəmədən! Qanlı ordunu gözləyir, Titrəmədən! Gözündə dərin qaranlıqla, Orcus adlı ölüm tanrısı. Savaşı gözləyir, Titrəmədən!

Dizləri əsir kralın, ölmək istəmir. Həyat eşqiylə doluydu və doyumsuzluğa uduzdu. Sonra pıçıldadı yavaşca: "Ürəyə ən çox, yaşamaq ziyandı".

-Bunu etmək istədiyinizdən əminsiniz? – həkimi gözləyən gənc qız soruşur.

Əlbətdəki deyiləm deyə iç səsi cavab verir. Həyatda bu qədər seçim varkən atdığın hansı addımdan əmin ola bilərsən ki? Sadəcə axmaqlar atdıqları hər addımdan sonuna qədər əmin ola bilər. Və mən bir axmaq deyiləm. Yoxsa yanılıram? Əmin deyiləm. Heç nədən əmin deyiləm. Əmin olduğum tək şey, yaşama sənəti haqqında sandığımdan daha az şey bildiyimdi. Lənətə gələsi filosoflar, bəlkə də bizi aldadırdılar. Lənətə gələsi məktəblər, bizə əvvəlcə yaşamağı öyrətməliydilər. Lənətə gələsi rejim, məni öldürür. Lənətə gələsilər Laranı öldürdü! Lənətə gələsi Tanrılar! Kaş ki var olsaydılar! Lənətə gəlsin məni yoxdan var edənlər!

-Sən yaşamaq istədiyindən nə qədər əminsənsə - deyə qıza cavab verir

Doktor ölüm otağa girir, Kevorkian ədasıyla.

-Təəssüf ki, əlimizdə kifayət qədər kalium xlorid qalma-

yıb. Biraz gözləməli olacaqsınız. Birazdan gətirəcəklər. Yoldadırlar. Normalda saat 12də gələcəkdilər.

Sanki ölümü kifayət qədər gözlədiyim bəs deyilmiş kimi. Bir də bu çıxdı. Əzrailim yoldadı. Ümid edirəm tıxaca düşməz. Lənətə gələsi əclaflar, son kalium xloridlə Laranı öldürdülər.

Kalium xlorid. Lənətə gələsi kalium və xlorid. Həkimlər deyir ki kalium əksikliyi sizdə problemlərə səbəb ola bilər. Kalium artıqlığı isə sizi öldürə bilər. Bu lənətə gələsi kaliumla diqqətli olmaq lazımdır. Kalium əksikliyi bulantıya, qusmaya, tərləməyə və yorğunluğa səbəb olur. Ancaq düzgün qaydada qəbul edilən kalium faydalıdır. Yüksək təzyiqinizin qarşısını alır. Kalium, xloridlə birləşərək daha da faydalı olur. Yüksək təzyiq problemi yaşayan xəstələr kimi süfrə duzundan təsirlənən insanlara bəzən süfrə duzu olan natrium xlorid əvəzinə dadsız duz olan kalium xlorid məsləhət görülür. Kalium xlorid süfərnizdəki duz olan natrium xloridin əmisioğludur. Və aşağı dozada zərərsizdir. Ağız yoluyla qəbulu faydalıdır və ölümcül dozası olduqca azdır, cəmi 2.5 qr/kq, kilonuz başına 2.5qr. Ən yaxındakı aptekinizə gedərək kalium xlorid tələb edin, sağlığınız üçün zəruridir. Kalium xloridin həzm sistemi mərhələsinə girmədən venadaxili yolla qəbulu isə sizi öldürə bilər. Ürək tutulması yaşayıb ani ölümə yaxalanırsınız.

Mənim sevimli kalium xloridim birazdan məni əbədi heçliyə qovuşduracaq. Kalium xlorid və xoşbəxtlik. Heçlik. Fikirsizlik. Əbədi dinclik. Qaranlıq və səssizlik. Qurtuluşa bir addım!

İndi mən ölüyəm yoxsa diri? Heç biri. Varlıq və yoxluq arasında yoxluğa yaxın olan bir yerlərdəyəm.

Bütün hamısı səhv çıxdı. Bütün nikbin filosoflar və onların fəlsəfələri. Bütün şərq fəlsəfəçiləri. Su kimi yaşayın, görəcəksiniz asandır deyənlər və digərləri. Lənətə gələsilər. Elə deyil. Alınmadı. Asan deyil. İşləmir. Bəlkə də məni öldürən sizin nikbinliyiniz idi? Yoxsa anamın nikbinliyi? Hər şeyin yaxşı olacağını deyənlərin nikbinliyi. Bəlkə də bizi hər şey çox pis olacaq deyərək böyütməliydilər ki, heçnə gözləməyək. Gözləmək. Gözləntilər. Lənətə gələsi Qodot. Gəlmədi.

Gələcək səfərə, nikbinliyinizi ətrafa yaymayın. Kimlərisə öldürə bilərsiniz.

Sağ cibinizdə saxlayın, sadəcə özünüz üçün.

Niyəmi ölürəm? Səbəbini deməyə utanıram desəm? İşləmək istəmirəm. Bəli. Bu qədər sadə və acınacaqlı. Hətta utanılacaq bir tərəfi də görmürəm. O dərəcə utanmazam.

Lənətə gələsi tövsiyyələri eşidir kimiyəm, "Niyə *yaxşı bir iş tapmırsan?*", "Sevdiyin bir iş tap!", "İş insanın cövhəridir". Artıq hətta götümün belə gülməyi gəlmir bu lənət sözlərə. Sevdiyin işmiş. Yaxşı işmiş. Yaxşı iş deyə bir şey yoxdur, o işi sevirsənsə onsuzda iş olmaqdan çıxmır o şey? Bu lənət planetdə hamı sevdiyi işi tapa bilsəydi nə var idi ki. Kapitalistlər sizə yalan deyəcək və əgər çalışsanız istədiyiniz şeyi edə bilərsiniz deyəcəklər. Elə deyil. Üç nəfər işçilik limiti olan bir işi yüz nəfər arzulayırsa necə? Hamısı istəyir və çalışır ancaq sonda sadəcə üçünə bəs edəcək yer var. Sağlam rəqabət deyə başınızı aldadacaqlar. Ta başdan çürük rəqabətdir halbuki.

"Yaxşı iş tap başın açılsın". Bəsdir. Cənablar, sizdən xahiş edirəm, sikdirib gedəsiniz.

Mən yoxladım. Hamısını yoxladım. Əlimdən gələn qədər. Yaxşı iş tapmağı da yoxladım. Həyatda qala bilmək üçün. İşləməyi də yoxladım, işləməməyi də. Kasıb həyata alışmağı yoxladım. Buddizmi yoxladım. Nikbin filosofları və fəlsəfələrini yoxladım. Evsiz qalmağı yoxladım. Evli olmağı yoxladım. Saxta xoşbəxtliyi yoxladım. Sosializmi yoxladım. Kapitalizmi də. Müdürümün üzümə tüpürməsinə göz yummağı yoxladım. Taleyimlə qəbullanmağı yoxladım. Sağlam bədən və sağlam ruh üçün idmanı yoxladım. İçkini də yoxladım, içməməyi də. Narkotikləri də yoxladım təmiz bədənlə yaşamağı da. Səhərlər tez durmağı yoxladım. Axşamlar tez yatmağı. Başqa insanların xoşbəxtliyini görməməyi də yoxladım. Qısqanmamağı yoxladım. Gözütox olmağı yoxladım. Oxumağı yoxladım. Oxumamağı yoxladım. Dostluqları da yoxladım, yalnızlığı da. Beynimə aldanmağı yoxladım. Beynimi tərbiyyə etməyi yoxladım. Hər səhər sanki hər şey yolundaymış kimi durub

evi yığışdırıb yemək bişirməyi yoxladım. Amerikan tərzi hər necəsən sualına  tərəddüdsüz "əlayam!" deməyi də yoxladım. Heidegger'i dinləyib tez-tez məzarlıqlara getməyi yoxladım. Elmi dinləyərək üzümdə süni gülüş yaradaraq beynimə hiylə etməyi yoxladım. Uzaq bir kənddə ya böyük bir şəhərdə yaşamağı yoxladım. Hamısını yoxladım.

Yaşamağı yoxladım. Geriyə yoxlanılmamış tək şey qalıb, ölüm. İndi onu yoxlayacam. O da alınmasa, nə edəcəm bilmirəm və bu müəyyənsizlik məni öldürür.

Belə çıxır ki, mənim fikirlərimi ciddiyə almamaq lazımdır zira mənim fikirlərim və yaşam tərzim məni ölümə aparır. Yoxsa yox? Əmin deyiləm.

İşləmək azadlığımı əlimdən aldı və məni həyata küsdürdü. Azadlıq insanın öz vaxtı üzərində iqtidarı olmasıdır prinsipcə. Kamyu da mənə qatılardı, digərləri də. İşləyən insan azad deyil. Hər şey çox sadədir əslində. İşləməklə keçən ömür bir müqavilə kimidir. Sənə deyirlər ki həftənin 40 saatını işləyəcəksən, geri qalanını yaşamağa çalışacaqsan. Bəziləri bunu qəbul edir, bəziləri də imtina edir. Bu qədər sadə. Hər intiharın müqəddəs və görkəmli bir səbəbi olmaq məcburiyyətində deyil. Bəziləri çox bəsitdir.

Bu otaqda siqaret yandıra bilərəm görəsən?

Quşların nikbinliyi məni narahat edir. Necə də xoşbəxt dövriyyələr vururlar. Səfehlər.

Bütün insanlar nikbinlikdən ölmür, bəziləri bədbinlikdən ölür. Bəlkə də bu kapmda daha çox vaxt keçirib digərlərinin niyə intihar etdiklərini sormalıydım. O qədər cəsarətliydim? Lara qədər? Bəlkə hə. Bəlkə yox. Artıq bunu heç bir əhəmiyyəti yoxdur. Lənətə gələsi qaranquşlar.

Məni bu qədər uzaqlara onlar gətirdilər bəlkə də. Bəlkə də olmağım lazım olan yerdən çox uzaqlaşmışam. Bəlkə də ona görə ölürəm. Yalnızlıqdan. Ya nostalgiyadan. Ya yaşamağa ərinirəm. Ya da bəlkə də sadəcə ona görə ölürəm ki mən buludları qısqanıram.

Ya da bəlkə də kasıblıqdan. İnsanlar sizə kasıblıqdan öl-

mək istədiklərini deməyəcəklər. Əgər intihar edirlərsə daha müqəddəs bir cavab deyəcəklər. “Bu dünyanın mənasızlığını qaldıra bilmirəm!”. Sarsaqlar. Gülüncdür.

Buddizm. Lənətə gələsi Budda. Kasıblıqdan zövq alma sənətinə Buddizm deyilir. Uzaq şərqdə və yaxın qərbdə. Deyilənə görə Budda öz kral atasının bütün var dövlətini atıb meşənin dərinliklərinə qaçıb xoşbəxtliyin formulasını axtarıb və tapıb ki o kasıblıqdır. Axmaq. Bəlkə də sadəcə arvadından qaçırmış. Hindistanda neçə nəfəri nirvanaya çatdıra bilib görəsən? Görünür bacarıb. Yoxsa hindlilər bu qədər səfil həyatlarının içində o qədər rahat hiss etməzdilər. Məndə alınmadı Budda. Hindistanı bilmirəm amma bizim buralarda küçədəki ağaclardan meyvə dərərək həyatda qalmaq olmur. İşləməlisən. Heç küçədə meyvə ağacı da yoxdur. Hamısını yığışdırıblar. Qəhpə balası kapitalistlər.

Bəlkə də Hindistana köçməliydim.

Bəlkə də öz ölkəmdən qərbə yox şərqə getməliydim. Ya da nə fərqi, nə edirəmsə edim peşman olmayacaqdımm? Kierkeqaard haqlıydı. Yoxsa yox?

Belə ölməməliydim. Bəlkə də o bərbad işlərdə biraz da işləyib pul yığıb Kambocaya köçüb ucuz qiymətə kralın villasının arxasında bir ev tutub bir ay yaşayıb sonra ölməliydim. Lənət olsun. Harda qaldı mənim fantastik intihar planlarım. Bəlkə dövlətdən yüklü miqdarda borc alıb sonra da ölə bilərdim. Yox. Hansı göstəricilərə əsasən mənə borc verəcəkdilər sanki. Harda qaldı axı mənim kalium xloridim. Zibilə qalsın. Düşdüyüm vəziyyətə gülməyim gəlir. Nietzschenin və Buddanın mənə gülmələrinə icazə verməyəcəm.

Bu qız görəsən ölü həkimi olmaq üçün neçə il oxuyub? Xoşbəxtdi görəsən? Nə işi var bunun burda? Ölü görməkdənmi zövq alır yoxsa?

- Xoşbəxtsən sən?

- Necə?

- Xoşbəxtsənmi deyirəm. Xoşbəxtlik. Bəxtəvərlik? Yoxsa xoşbəxtliyin nə olduğunu bilmirsən heç?

- Belə də. Çalışıram.

- Alındıra bilirsən?

- Belə də - qız məni ölüm qabağı yola verir.

- Olar məni sən öldürəsən? İynəni sən vur. Bir qadının ayaqları arasında ölmək istəmişəm həmişə. Madəm o alınmadı, heç olmasa cəlladım qadın olsun.  Həm də sənin kimi ehtiraslı və gənc bir qadın. Afrodita filan göndərməyib ki səni təsadüfən? Bu ağ xalat səni əməlli-başlı ölüm mələyinə oxşadır. Ya da mən ölümümü romantikləşdirməyə çalışıram. Çox bezidirirəm? Öldür məni onda. Sən ümumiyyətlə bu evtanaziya kamplarını dəstəkləyirsən yoxsa çörək pulu üçün adam öldürürsən?

- Mən könüllüyəm, stajoram burda.

- Ölüm praktikantı. Məzəli səslənir. Necə də həvəslisən. Belə pis çıxmasın, bunun nəyini məşq etdirirlər ki? İynəni soxursan xəstə də ölür də. Nəysə əşi. Zəng edib soruşa bilərsənmi harda qaldı bu zibil? Əzrailim tıxaca düşüb ya nə? Ölməyim gəlir.

- Gəlirlər. Bəlkə keçib barda oturasan? Sakitləşəsən. Ayaqların bayaqdan yellənməkdən dayanmayıb. Çox gərginsən.

- Bu otaqdan çıxsam əgər, 120 yaşıma qədər birdə intihar edəcəyimi sanmıram kimimə gəlir. Həyat bu otaqdan baxanda çox şirin görünür.

- Onda niyə öldürürsən özünü?

- Boş ver. Uzun məsələdi. Bura gəlmək üçün altı ay məşq eləmişəm. Bəxtə bax ki bütün ümidlərimi öldürüb gələndə son bir həftənin içində yeni ümidlər yarandı, yeni insanlar tanıdım. O ümidlərdən biri indi sağdakı otaqda ölü yatır. Ümidim, Lara, özü-özünü öldürdü.

Həkim içəri girdi. Əlində ölüm məlhəmi var idi. Vaxt gəlib çatmışdı. Mavini dizlərindən ürəyinə qədər keçən sürətli bir həyəcan siqnalı bürüdü. Bağırsaqlarındakı neyronların impulslarını hiss etdi. İçindəki qışqırıqlar yüksəlməyə başladı. Ayaqları daha tez yelləndi. Bütün dünyanın ayaqlarının altından süzülüb getdiyini hiss edirdi. Həkim gətirdiklərini hazırlamağa başladı.

"Geriyə doğru uzanın zəhmət olmasa"

Artıq iştahı qalmamışdı yaşamağa. Taqəti yox idi. Yaşamın təklif etdiyi gözəllikləri düşündükdə içində bir pərvazlanma hiss etmirdi artıq, gözəl qadınları belə düşünərkən fərq etmirdi. Deyəsən ölməyə bütün qəlbiylə hazır idi. O sadəcə səhv çıxmaq istədiyini özünə belə qəbul etdirə bilmirdi. Yaşadığı bu ziddiyətlərin səbəbi bu idi. Yanılmışdı. Və indi səhvini düzəltməyin vaxtı gəlmişdi. Ya ölməli ya da düşüncə formasını dəyişməliydi, hansı ki birinci variant daha asan görünürdü. Nifrət etdiyi insanlara indi qibtə edirdi. Dünyaya nifrət edərək ölmürdü, qibtə edərək ölürdü. Və dünyaya, həyata qibtə edərək ölmək o qədər də asan deyildi.

Həyatı sevmədiyi üçün tərk edənlər onu qınaya bilərdilər, onlar da sevmək istəyə bilərdilər. Amma bir nüans var idi, sevdiyin şeyi tərk etmək sevmədiyin şeyi tərk etməkdən daha çətin idi. Bu sanki bir qadını tərk etməyə bənzəyirdi. Biri var sevmədiyin bir qadını tərk edirdin, biri də var çox sevdiyin bir qadını. Və bu, ən çətin olanı idi.

İndi içindəki digər şəxsiyyətlərindən hamısı ölmüş geriyə sadəcə ikisi qalmışdı: ölüm və yaşam adlı iki ayrı qrup. Ölüm deyə qışqıranlar, xoşbəxtlik adlı ümidləri öldürmüş, geri qalan kiçik qruplar isə yaşam adı altında birləşmişdilər. Bütün hamı ölmüşdü, bütün ümidlər. Bu son anlarda ölüm qrupu ilə yaşam qrupu arasında şiddətli bir savaş gedirdi. Və o beyniylə ürəyi arasındakı bu savaşda tərəfində olması gərəkəni seçə bilmirdi. Mütərəddid qayğılar içində elə batmışdı ki öz iç səsini belə eşitmirdi. Sinəsi savaş meydanına dönmüş və xarbalığa çevrilmişdi. Bədəndəki hər iki tərəf, ölüm və yaşam dəstəkçiləri əllərindəki bütün silahları götürüb meydana çıxmışdılar. Bu son savaş idi. Bütün ordular oradaydı. Sinəsində. Beynində. Ürəyində. Dizlərində və ruhunda.

Dəstəkçilər arasında yaşam savaşlarında ad qazanmış ən güclü və qorxmaz olanları ön cəbhəyə: beyinə getmişdilər. Bir qrup yaşam dəstəkçisi amiqdalaya göndərilmiş və qorxu impulslarının artdırılmasından məsul tutulmuşdular. Hədəfləri

Mavinin daha çox qorxmasını əldə etmək idi və amiqdalanın ətrafı sarılmışdı.

İkinci böyük bir qrup nikbin dəstəkçi frontal loba göndərilmiş və lobun analitik, rasional işləmə prinsipinin dayandırılması tapşırılmışdı. Çünki ən güclü ölüm tərəfdarı bədbinlər məhz buradaydı və silahları olduqca güclüyüdü: rasional düşüncə. Nikbinlər frontal lobu söndürə bilsələr əgər savaşı qazana bilər və Mavini həyatda tuta bilərdilər. Ölümü ən çox dəstəkləyən frontal lobdakı rasional düşüncələr idi zira. Əgər düşüncə mərkəzi sönsə, bədən özü qaçıb özünü ölümdən qurtara biləcəkdi

"Qolunuzu uzadın zəhmət olmasa" – quyunun dibindən uzaq və soyuq bir səs eşidilir.

Zaman daralır. Frontal lobdakı bədbinlərin dəstəkçiləri olduqca çox və güclüdür. Ən güclü devizlərini qışqırırlar: "Peşman olunmayacaq tək seçim ölümə saniyələr qalır! Əbədiyyətə qovuşmağa saniyələr qalır!"

Üçüncü və hər iki tərəfin böyük saylı ordu göndərmiş olduğu yaddaş cəbhəsindən nikbinlərin yaxşı bir xəbəri gəlir. Onlar yaxşı xatirələrin saxlanıldığı hissələrdən bir neçəsini ələ keçirə biliblər! Və xatırlama prinsipinin yerinə yetirilməsi üçün böyük saylı impulslar göndərilir! Bir hissə görüntü yaddaşının olduğu sağ temporal lobu, bir hissə isə dil yaddaşının yerləşdiyi sol temporal lobu impuls atəşinə tutur. Millisaniyələr içində milyonlarla impuls və Mavi xatırlayır! Sahili, günəşi, istini, dənizi, qadınlarını, ürəyinin ən gözəl döyündüyü anları, keçmişini və gələcəyini xatırlayır. Xatırladı və gələcəkdəki özü üçün darıxdı Mavi. Onun ölümündən sonrakı dünya üçün darıxdı. Onun ölümündən sonra xoşbəxt olacaq insanları qısqandı. 40 yaşlı Mavi üçün darıxdı. Onunla oturub söhbət etmək istədi. Ondan soruşmaq istədi, ölümmü deyə. Xoş xatirələrlə tərəddüdə düşmüş frontal lob zəifləyir və nikbinlər ordusu sürüylə zəifləmiş hissələrdən frontal loba daxil olur. Yaddaşdakı müdafiəyə lazımi önəmi vermədiklərini görən bədbinlər ən güclü cəngavərlərdən ibarət bir qrupu yaddaşa göndərirlər.

Pis xatirələrin olduğu bazanı sürətli impulslarla vurmağa başlayırlar. Güclü akson atəşinə məruz qalan unudulmuş xatirələr canlanır. Dərinlərə basıdırlmış xatirələr qıcıqlandırılaraq ön yaddaşa ötürülür.

Xoş xatirələrin sərxoşluğuna tutulmuş Mavinin yaddaşında impuls savaşları gedir və o paralel olaraq bəd xatirələri xatırlamağa başlayır. İşsizliyi və əlacsızlığı, müdürləri və müştəriləri, aclığı və çarəsizliyi, darıxmanı və sərhədləri, qısqanclığı və acgözlüyü xatırlayır. Beyinin pis xatirələri unudaraq bizə yaşanmış hadisələri sanki daha yaxşı yaşanıbmış kimi göstərmə prinsipi pozulur və Mavi bir dəqiqə artıq belə yaşamaq istəmir. Artıq okeanın o biri tayını belə arzulamır çünki o istənilən ölkədəki öz iztirablarını xatırlayır. Hər şey heç də yaxşı olmamışdı.

O günləri xatırladı, o günlər ki o nifrət etdiyin tənha evində oturursan və heçnə etmək istəmirsən. Ya da nəsə etmək istəyirsən ancaq edəcək heçnə yoxdur. Hamısı bir ildir alışdığın və nifrət etdiyin o boz monotonluqdan ibarətdir. Görüşəcək yeni bir insan və gedəcək yeni bir yerin yoxdur. Həyatına və özünə nifrət edirsən. Qaçıb uzaqlara getmək istəyirsən, ancaq hansı pulla? Daha da əsəbləşir və bütün ümidlərini soxub içinə oturursan.

Həkim ona bir şeylər deyir və gözü bir nöqtəyə fokuslanmış Mavi heç nə eşitmir. Ziddiyətli fırtınaların dövr vurduğu şüurunda göz gözü görmür ağız deyəni qulaq eşitmirdi.

Neyron aksonlarından saniyədə 30-40 dəfə açılan atəşlər digər neyronları və onların dendritlərini vurur, minləycə, milyonlarca neyron aktivləşir, xatirələr canlanırdı.

Nikbinlərin möhtəşəm bir xəbərilə bütün bədəni həyəcan basır: Hərəkət mərkəzi cortex motoriusu ələ keçirmiş milyonlarca neyrondan ibarət böyük bir qrupun atəşlədiyi impulsların təkidi ilə Maviyə durub otağı tərk etmə əmri verilmişdi. Cortex motorius'dan çıxan hərəkət əmri siqnalı əzələlərə doğru hərəkət etməyə başlayırdı ki nikbinlər heç gözləmədikləri bir xəbərlə qarşılaşdılar: bütün əmrlərin keçib bədənə ötürüldüyü onurğa

beyni bədbinlərin əsarəti altındaydı! Belə olan halda beyində alınacaq heç bir qərarın bir əhəmiyyəti olmayacaqdı çünki Mavinin durub otağı tərk etməsi üçün hərəkət siqnalları onurğa beynindən keçə bilməliydi. Mavi istəsə də tərpənə bilmirdi.

Saniyələr içində Mavi durub otağı tərk etmək istədi. Ancaq bədbin fikirlərin təsirilə istəsə də tərpənə bilmirdi. Bədəni o yatağa yapışmışdı və onun sözünə qulaq asmırdı. Ayaqları tərpənmirdi. Özünü saxlayır və o bədbin fikirləri təkrarlayırdı: “Dayan. Əgər bir neçə dəqiqə də dözsən yox olacaqsan və bundan sonrakı həyatında heç bir peşmançılıq, kədər, əzab, intizar olmayacaq. Sadəcə otur və gözlə! Vəssalam!”

Beynindəki ziddiyətli fırtınalar bir-biriylə toqquşur və yüksək gərginlik yaradırdı və Mavi varlıqla yoxluq arasında ilişib qalmış parçalanmaqda olan bir buludu xatırladırdı. Bir anlıq var olduğundan belə əmin ola bilmədi. Hansı daha asan idi, yox ikən varmış kimi davranmaq yoxsa var ikən yoxmuş kimi davranmaq?

Oturdu və gözlədi.

- Demək istədiyin son bir sözün var?

- Ölümə qovuşub azad olacağım üçün Asclepiusa bir xoruz borcum var, ancaq Sokratın əksinə, borcumu ödəyəcək heç kimim yoxdur.

Həkim başa düşmür və Mavi son təbəssümünü edir.

- Bu biraz incidə bilər.

Öldürücü inyeksiyanın iynəsini Mavinin qolundakı qabarmış damardan içəri sancır həkim. İynənin ağrısı sinirlərlə şimşək kimi bütün bədənə göndərilir və fikirlərə qərq olmuş Mavini oyadır.

- Əgər hazırsınızsa prosesi başlada bilərik – doktor-ölüm onun son qərarını gözləyir.

Beynindəki nikbinlərin ümidsiz qışqır-bağırından o həkimi güclə eşidir və könülsüz tərəddüdlər içində dodaqlarından o yorğun hərflər tökülür: “Hazıram..”

Ölüm üçün səbirsizlənirdi, bədənindəki bu savaşı bitirsin deyə.

Nə yaddaşı, nə ümidləri, nə rasional nə də emosional qərarları idarə edən hissələrdə artıq nikbinlər ordusunun edə biləcəyi heçnə qalmamışdı. Bütün neyronlar son ümidlərini qucaqlarına alıb qorxu içində onurğa beyinə doğru qaçırdılar. Bir köç var idi Mavinin ruhunda və beynində. Son və ən böyük savaşın getdiyi yerdə. Bədniblıəri yenib, verilmiş hərəkət əmrinin icrası üçün siqnalın onurğa beyindən keçib əzələlərə çatmasına qadir olmaq lazım idi.

Bütün orduların onurğa beyinə getdiyini görən bədbinlər də ora yönəlirlər. Frontal lobdakı hissənin böyük bir dəstəsi onurğa beyinə gedirdi və başlarında o ən əzəmətli neyron qrupu var idi: ölüm tanrısı Orcus'un qrupu

Nikbinlərin özlərinə olan inamları tükənirdi. Dizləri əsirdi. Onların bəziləri yarı yolda ölürdü. Neyron savaşlarının ən özünəməxsus xüsusiyyəti də o idi ki, bu savaşda ölən neyron yox olmurdu. Daha da betər idi: ölənlər düşman tərəfin əmrinə keçirdi. Və hansı tərəfdə, hansı fikirdə neyron sayı daha artıq idisə o tərəf də qazanırdı. Nikbinlər ordusundan saniyələr içində minlərlə nəfər ölürdü və bədbinlərin sayı artırdı. İki ordu arasındakı fərq milyonlara çatanda, savaş qazanılmış olacaqdı. Frontal lobdan onurğa beyinə qədər yolda düzülmüş bədbin neyronlar, nikbinlərdən göndərilən yardım siqnallarını dayanmadan akson atəşinə tutur və onları məhv edərək öz tərəflərinə keçirirdilər.

Beyin, bədbinlərin iqtidarındaydı.

Ölüm tanrısı Orcusun onurğa beyində olduğunu eşidən heç bir neyron qrupu ora girməyə cürət etmirdi, girən qruplar da özlərinə inamsızlıqdan Orcusun qarşısında dizləri əsir və ölüb onun tərəfinə keçirdilər. Neyronlar savaşalarda heç vaxt intihar etməzdilər, çünki qarşı tərəfin sayını artırardılar yoxsa. Amma indi onlar hətta intihar etməyə başlayırlar, həm də sürətlə.

Bir neyron ancaq o vaxt ölüdür ki o özünə inamını itirib.

Bir fikir ancaq o vaxt ölüdür ki o özünə inamını itirib.

Bir insan ancaq o vaxt ölür ki o özünə inamını itirir.

Həkim aparatın start düyməsinə basaraq evtanaziyanı baş-

latdı və ölümcül zəhər incə plastik şlanqdan sürətlə aşağı – Mavinin damarına doğru süzülməyə başladı.

Balanslarının itirilməsinin intiharla çox yaxından əlaqəsi olduğuna inanılan Qayt reseptorlarının müvazinəti pozulmuşdu. Serotoninlər yerdə yaralı yatırdı və Mavi, ölürdü.

Biləklərinin kəsilmiş olduğunu gördü kiçik bir an içində. Qanının rəngi mavi idi və biləklərindən süzülüb bütün otağa və divarlara yayılırdılar. Ölüm otağı melanxoliyanın rənginə boyanırdı. Öz qanında boğulurmuş kimi hiss etdi. Öz xislətində boğulurdu. Hər yeri mavi bir kədər bürümüşdü. Təkrar özünü inandırırdı: ona görə ölürdü ki, çünki onun qanı mavi idi. Bütün digər mavi qanlılar kimi qırmızı qanlıların əksinə onlar yaşamağa yox ölməyə proqramlanmışdılar.

Mavi bir pələng otağa girdi və Mavi onu tanımamazlıqdan gəldi.

Bir bayquş səsi eşidildi və Mavi özünü qorxmurmuş kimi apardı.

Qodot olduğunu gizlədən bir kişi otağa girib həkimin qulağına nələrsə pıçıldayıb çölə çıxdı. Uzaqlarda bir yerlərdən Poseidonun qəzəbi eşidildi. Otağın divarında bir pəncərə açıldı və günəş Maviyə onu bağışladıqlarını bildirdi.

Bütün gümanın qırılıb inamın öldüyü və bədbinlərin qələbə qışqırıqları atmağa başladıqları anda yaratdıqları uğultu taa beynin dərinliklərindən eşidilən olduqca kiçik qrup bir cəngavərin ayaq səsləri eşidilməyə başlanıldı ön cəbhədə.

Saniyələr içində ön cəbhəyə daxil oldu bu kiçik cəngavərlər ordusu və gözlərindəki inam bütün ölüm dəstəkçilərini lərzəyə gətirdi. “Ümid” adlı həmin qrup idi bu.

Son saniyədə bütün beyin hüceyrələrini ümidləndiririlər. Və bütün tribunalar onların ətrafına yığışıb qışqır-bağırlara onları dəstəkləyirdilər. Qorxmadan Orcusun gözünün içinə baxmalarını və onu qorxutmuş olmaqlarını alqışlayırdılar. Bütün bədən və beyin birləşərək ölümə meydan oxuyurdu və tək silahları var idi: ümidlər. Dəfələrlə savaşa girib çıxmış ancaq yenədə ölməmiş, yorulmamış, bezməmiş ümidlər. Hər dəfə

yenidən canlanan o yorğun, bezgin amma nikbin ümidlər. Sanki heç puç olmamış kimiydilər. Heç vaxt məyus olmamış, heç pərt olmamışdılar. Özlərini heç vaxt pərt olmamış kimi aparırdılar. "Hər şey yaxşı olacaq" deyə qışqırırdılar. "Gələcək! Və hər günün gətirdiyi yeniliklər! Qarşına çıxacaq şanslar! Hər gün belə olmayacaq. Bir gün hər şey düzələcək. Bir gün təkrar o isti okean sularında üzüb sümüklərini qızdıracaqsan. Bir gün sən də bizim kimi heç məyusluq yaşamamışcasına diri hiss edəcəksən özünü. Birgün həsrətində olduğun hər şeyə qovuşacaqsan. Sadəcə bizə vaxt ver" deyə qışqırırdılar. "Bir gün çox xoşbəxt olacaqsan. Sinən cırılırmışcasına xoşbəxt hiss edəcəyin o günü yaşamaq üçün indi tək edəbiləcəyin şey çıxıb çölə o günü gözləməyindir. Onu axtarma. Vaxtı gələndə o səni tapacaq. Qodot gələcək. Sənin yox sandığın Qodot gələcək! Çölə çıx və günəşin istiliyini dərində hiss et. Bugün hava ayrı bir gözəldir."

Bütün gücüylə çəkir qılıncını qanlı ordu və Orcus yıxılır. Səslər yüksəlir, Ölümsüz Orcus yıxılır! Ölümsüz Orcus yıxılır! Ölüm tanrısı, yıxılır!

Orcusu yıxıb saniyənin onda biri qədər əvvəl başladılmış evtanaziya aparatının nazik şlanqından damara doğru sürətlə axan zəhər çayını dayandırmaq üçün şığıyır bütün ordu. Bütün baxışları bir nöqtəyə zillənmiş Mavinin sağ əli havaya qalxır sürətli bir sinir zərbəsinin ardından. Sol qoluna sancılmış iynəyə bağlı olan şlanqı tutub sürətlə çıxarır qolundan zəhər çayı damarına girməyə macal tapmamış.

Sürətlə ayağa tullanır Mavi və qapıya atır bütün bədənini. Açıb qapının ağzında bir anlıq dayanıb dərin nəfəs alır. Qorxu dolu gözlərlə geriyə yanlardan sıxılaraq daralmaqda olan otağa baxır və özünü bir an əvvəl ordan çölə tullamaq istəyir.

Mavi pələng yaşlı bir kişiyə çevrilir və yox olurdu.

Divarlar içə doğru sıxılırdı. Gözəl üzlü qızın səsi quyunun dibindən gəlircəsinə uzaqlaşırdı. Çöldəki küləyin uğultusu onu çağırırdı. Həyat onu çağırırdı. Bayquşlar belə getmişdi. Yerini qaranquşlar almışdı. Onu çağırırdılar.

Mavi yavaş, bərk və qərarsız addımlarla ikinci koridorun sonundakı qırmızı hərfli "Çıxış" yazısına doğru addımlayır. Sanki həyat onu arxadan qovaraq çölə çıxarır. Ayaqlarını geri atmaq istəsə də getmir və sadəcə irəli, çıxış qapısına gedirdi bədəni. Kabus kimi.  Bir an əvvəl qapını açıp günəşi və istiliyini üzündə hiss etmək istəyir. Yaşadığını hiss etmək istəyir.

Qorxaq kral! Qorxaq kral!

Arasıkəsilməz məğlubiyyətlərinə birini daha əlavə edirdi kral, ölümə qovuşmadan.

Yaşama sevinci bir daha qalib gəlirdi bütün vaxtı keçmiş intihar cəhdlərindəki kimi.

İçində bir dilemma,
Bir savaş var.
Ölməyi istəyən sənsən,
Yaşamağı istəyən genlərin.
Silah gücünə yaşayırsan sanki, ya da gen gücünə.

Qapını açıb çölə çıxdı. Heç sönməyəcəkmiş kimi parlayan günəşin nikbinliyini üzündə hiss etdi. Gözləri qamaşdı və ruhu pərvazlandı. Ciyərləri açılıb bu xoşbəxtliyi qeyd etmək üçün daha çox oksigen şərabına ehtiyac olduğunu qışqırdılar və dərin bir xoşbəxtlik nəfəsi alındı.

Təhlükə, geridə qalmışdı.

Endorfin müjdəçisi adrenalinlər sardı bütün bədəni və rəqs etdi vücudundakı hər bir hüceyrə.

Yorğun və itkin olaraq cəhənnəmin çıxış qapısında dayanırdı. Bitkin gözlərlə çölə baxırdı. Həyata bir daha uduzurdu içində inanılmaz bir yaşama istəyi ilə. Hara gedib nədən başlayacağını bilmirdi. Ancaq sanki 40 illik yuxudan oyanmış və bütün fani dadlar üçün darıxmışdı. Bu dəqiqə ən çox istədiyi şey bir içki idi. Düşünməmək, əylənmək və sanki yenidən doğuluşunu qeyd etmək istəyirdi.

Bütün varlığıyla yaşamaq istəyirdi indi. Bədənindəki hər hüceyrə sanki yenidən başlamaq üçün can atırdılar.  Gözü parlayırdı. Günəşli bir Kolorado sabahı. Yaşamaq üçün çox gözəl bir gün idi.

Laranı xatırladı. Bütün bu sevincinə baxmayaraq ürəyinin bir kamerası onun üçün yas tutmuşdu. Xatırladıqca ulğumunda bir düyüm nəfəsini boğurdu.

Pilləkənlərdən səndələyərək aşağı enib daşdan hörülmüş kənarlığa söykəndi. İçindəki sevinc qışqırıqları qulağını batırırdı.

Bir səs eşidirmiş kimi oldu və içindəki səs küydən qulağını ayırıb başını qaldırdı. Dünən gecə gördükləri həmin kor qocanı gördü. Orda durub ona baxır və rişxəndlə gülürdü. Bədənini dəhşətli bir qorxu bürüdü və birdən hansısa hiss ona dedi ki bu kişi qocalıqdakı Mavinin özüdür. Kişi ona yazıq-yazıq baxır və anlaşılmaz dildə bir şeylər mızıldanırdı. Nə dediyini anlamaq üçün daha diqqətli dinləməyə çalışdı:

"ti.. ti mus.. timid-us.. timidus. Qorxaq beyin! Qorxaq beyin!" – və indi yadına düşürdü, gecə yuxuda yazarının otağında gördüyü söz bu idi, timidus.

Mızıldanmağa davam edirdi kişi:

"Həyat ən zülmət qaranlıqda belə şirindir"

"Hər dəfə təkrar cəhd edəcək və müvəffəqiyyətsiz olacaqsan"

"Qorxaq. Timid us."

Ondan bir qədər aralıdakı kor kişiyə yaxınlaşıb kim olduğunu soruşmaq istəyirdi. Alacağı cavab onu qorxuda bilərdi. Buna hazır deyildi ancaq hazır kimi davranırdı. Əlində aldığı siqaret paketi yerə düşdü, əyilib götürdükdən sonra kişi yox olmuşdu. Biraz irəli gedib binanın ətrafını saran ağacların içinə baxdı. Heç kimi görmədi.

Laranın səsini eşidirmiş kimi olub arxasına döndü. Heçkəs yox idi.

Bir siqaret yandırıb qıcıqlanmış əsəbləri sakitləştirdi. Cəhənnəmin ya da bəlkə də cənnətin qapısından geri dönmüşdü. Yaşamaq üçün səbirsizlənirdi. Eyni girdabın içinə girib, eyni iztirabları təkrar və təkrar çəkmək üçün səbirsizlənirdi. Günəş üçün səbirsizlənirdi. Özünü dünyaya meydan oxumağa hazır hiss edirdi. İçində pərvazlanan bişeylər var idi. Dünyaya meydan oxumağa hazır hiss edirdi özünü.

Dibi görmüşdü.

Dibə vurmuşdu.

Həyat sanki başdan bəri kimin qalib gələcəyini bilirmiş kimiydi və indi ikrah hissiylə ona gülürdü. Hara gedib nədən başlayacağını bilmirdi. Ancaq sevincliydi. Qorxmuşdu. Təhlükə qət edilmişdi və bədəni onu mükafatlandırırdı. Hər hüceyrəsində bayram var idi. İçində olduğu vəziyyəti rasional olaraq dərk edə bilmirdi şübhəsiz. Dərk etsə tərəddüdsüz geriyə, o otağa qayıdardı ancaq ordaca durur, ağacları və buludları izləyir, bioloji xoşbəxtliyinin dadını çıxarırdı. Neçə dəfə belə olmuşdu və neçə dəfə belə olacaqdı?

Lara haqlıydı. Əgər ölməyə cəsarətin çatmırsa ən azından yaşamağa cəhd etməliydin. Yoxsa iki cənnət arasında bir yerlərdə sürünəcəkdin. Bu qədər sadəmiydi yaşamağın formulası? Deyildi. Həyatdakı əsl boşluq əslində ölümün sahib olduğu o yoxluq ya heçlik deyildi. Əsl boşluq varlıq və yoxluq arasındakı o boşluq idi. Hansı ki orda nə yaşaya nə ölə bilirsən. O boşluq ki sağa ya sola, ölümə ya yaşama addım atacaq taqətin yoxdur.

“İnsan ölümü lap axıra kimiləngitmək, uzaqlaşdırmaq istəyir. O həmişə həyata can atacaq və iki yol ayrıcında - fəlakətlə mövcudsuzluq arasında qaldıqda həmişə fəlakəti seçəcək” sözlərini xatırladı Faulknerin. O da həmin o öz fəlakətlə mövcudsuzluğunun arasındakı uçurumunda dayanmışdı indi. Fəlakəti seçir və o fəlakətin içində özünə mərhəmət axtarırdı. Öz acgöz xoşbəxtlik axtarışının qurbanı olurdu yenidən. Bir sonrakı intihar girişiminə qədər yaşama haqqı qazanmışdı. O vaxta qədərsə indi tək etmək istədiyi şey yaşamaq və bütün o fani dadları yenidən dadmaq idi. İndi başa düşürdü ki o intiharı yox, ölümü sevir. Xəbərsiz gələcək ölümün mübtəlası idi, öz əlləriylə özünü öldürməyin yox.

Özündən üzr istədi. Özünə yaşatmış olduğu bütün bu zillətlər üçün üzr istədi. Biz deyə düşündü, insanlar, özümüzdən başqa hamıdan üzr istəmək barədə düşünməyə həmişə kifayət qədər vaxt sərf edirik. Ancaq heç vaxt papağımızı qabağımıza

qoyub özümüz barədə, özümüzdən üzr istəmək barədə lazımi qədər düşünmürük. Sanki onsuz da lazım deyilmiş kimi, sanki “onsuz da özümüzünküdür inciməz” deyirik. Ən çox inciyənsə məhz elə odur – özümüz. İncinməsindən ən çox zərər çəkdiyimiz insan da odur – özümüz. İçimizdəki şəxslərə sanki yoxmuşlar kimi davranmağı seçirik. Onlara heç vaxt şans vermirik. İçimizdə əsas bir “mən” var, içimizdəki izdihamın içindən seçdiyimiz ən ağır basan mənimiz. Onu seçdikdən sonra içimizdə sayı hər keçən gün artan o kimsələr ki var, optimisti, pessimisti, nihilisti, qəddarı ya nəzakətlisi, sağlamlıq tərəfdarı, yaşama tərəfdarı, xoşbəxtlik tərəfdarı kimi onlarca ya yüzlərcə kiçik mənlərimizin dediklərinin hamısını qulaq ardı edirik. Onlara heç vaxt əsas “mən” olma şansı vermirik. Onlar sanki içimizə girmiş evsiz insanlar kimidir. Küçədə gördüyümüz bir evsizə acıyırıq, ancaq içimizdə sözünü heç eşitmədiyimiz o evsizlərə ya bədənsizlərə heç vaxt acımırıq. O mən ki gəlib sənin bədənində gizlənib, demək ki aranızda ortaq olan birşyelər var və demək ki onun qayğısına qalmalısan. Bəlkə də əsl ya da ən yaxşı mənimiz onların arasında gizlənib. Onlara növbəylə mən olma şansı verməli və bir müddətlik bədənin və beynin idarəsini onların iqtidarına buraxmalıyıq. Əks halda, yerinə yetirilməyən diləkləri onları bədbəxt edir və içimizdə olduqları üçün onların neqativ enerjisi bizi vuraraq bizi də bədbəxt edir. Bütün hamısından üzr istədi. Və səsi ən yüksəkdən eşidilən – isti günəş şüaları altında okean sularına qərq olmaq istəyən - bir qrupa onları ən qısa müddətdə isti okeana apararaq diləklərinə çatdıracağına dair söz verdi.

Özünü daha güclü hiss edirdi. İndiyə qədər özünü ölüm düşüncəsinin pafosunda boğmuşdu. İndiysə istədiyi tək şey, həyatın pafosuna tutulmaq idi. Sanki ani epifaniyayla aydınlanmışdı. İndiyə qədər təsadüflərin onu tapmamasını bəhanə edərək özünə bəraət qazandırmışdı. Əgər xoşbəxtlik təsadüflərin kəsişmə nöqtəsidirsə və təsadüflər onu tapmırdısa, getməli və o təsadüfləri bir-bir, bezmədən, yenidən yaratmalıydı. Sanki ölüm qorxusu deyilən şey yox olmuşdu canından və istənilən

riski almağa hazır idi yaşamaq üçün. Bir dəniz sahilinə gedib günəşin qızdırdığı isti qumların üstündə ayaqyalın ağrı hiss etməyəcəyi ana qədər qaçmaq istəyirdi. Okeanın o biri tayına sahillə qaçaraq getməyə hazır idi sanki.

Sonra təkrar okeanın o biri tayını xatırladı. Bu lənət ölkədən çıxacağı təqdirdə geri dönə bilməyəcəyini xatırladı. Təkrar kefi pozuldu. Eyni problemlər heç tərpənmədən öz yerlərini qoruyurdular. Bir həll yolu tapmalıydı. Ya getməli ya qalmalı. Ya keçmişinin onu şirin xatirələrlə narahat etməsinə əngəl olmaq üçün keçmişinə qayıtmalı, ya da buranı tərk edərək özünə təkrar başqa bir keçmiş yaratmamaq üçün əvvəlki keçmişini unudacaq dərəcədə xoşbəxt olmalıydı bu torpaqlarda. Ya da ağrıya alışmalı və onu aşmalıydı.

Həzz ardınca qaçdığı müddətcə heç vaxt məmnun olmayacaq və daha artığını istəyəcəkdi. Həyat narkotik kimidir və hər xoşbəxtlik özündən sonra daha artıq dozada xoşbəxtlik istəyir yoxsa məmnun olmur fərd. Məmnun olmurdu çünki Nietzsche haqlıydı. Kierkegaard haqlıydı, Budda haqlıydı, Watts haqlıydı. Çünki Amerikan distopiyasının, dünyanı ovucuna almış distopiyanın, Huxleyin əvvəldən gördüyü o distopiyanın altında əzilir və hər keçən gün onun bir parçasına çevrilirdi. Həzzin aludəçisi və məmnuniyyətsizliyin qorxağı olmuşdu.

Nietzscheni və yuxusunu xatırladı. Hər şeyə inad yaşama sözü verdi özünə. Ağrılara tab gətirməyi öyrənəcək və bunu çox sadə yolla edəcəkdi: hər gün yaşayaraq. Zira yaşadığı və ölmədiyi hər gün onu daha da güclü edəcəkdi.

Məsələn indi başa düşürdü yaşlıların xatirələrə və ağrılara necə dözdüyünü ya həyatın ağırlığını necə qaldırdıqlarını. Çünki heç kim birdən birə qoca olmur. Hamı yavaş-yavaş, dəqiqələrlə, saatlarla, aylar və illərlə yaşlanırdı. İnsan, həyatda olduğu hər dəqiqə ağrılarla baş etməyi öyrənir və yaşlandıqca güclənirdi.

Ən güclü fəlsəfə o idi ki, insanı aldatmadan həyatda saxlamağı bacarırdı. Beyni transformasiya edə bilir və dəyişə bilirdi. Beyini passiv nihilizimdən aktiv nihilizmə keçirə bi-

lirdi. Həyatın bütün mənasızlığını başa düşən beyini həyatda salxaya bilirdi. Ən güclü fəlsəfə bu idi. Bu bəlkə Nietzschenin fəlsəfəsiydi bəlkə Petersonun ya bir başqasının. Yaşayacaq və o fəlsəfəni kəşf edəcəkdi. Ya da öz fəlsəfəsini yaradacaqdı və gücləndirəcəkdi.

Qalacaq və Qodot'u gözləyəcəkdi. Bəlkə də məsələ xoşbəxtliyin gəlib çıxması deyil onu gözləmək idi? Bəlkə də insana güc verən yaşam arzusu ümidlərinin nə vaxtsa real olacağını gözləməsidir? Ümidləri öldürməkmi yaxşıdır yoxsa ümidlərlə yaşamaqmı? Təcrübəsizliyi, püxtələşməmiş və yetişməmiş beyni doğru suallara səhv cavablar verirdi. Doğru cavablarını yaradacaqdı.

Ya da Qodotu gözləməyəcəkdi. Heç kimi gözləməyəcəkdi. Həyatının taleyi sənin əlindədir. Heç kimin vecinə deyil sənin taleyin. Nə dövlətin nə başqalarının. Öz taleyini öz əlinə alıb düzəltməyə çalışmalısan. Oturub qız kimi ağlamaq lazım deyil. Yaşamaq istəyirsənsə, özünü ələ almalısan.

Madam ki həyatı bu qədər sevirdisə, ölməyəcəkdi. Qalacaq və savaşacaqdı. Həyatının mənası, varlığın bu qədər ağırlığına baxmayaraq həyatda qalmağı bacara bilmək olacaqdı. Pozitiv psixologiyasını inkişaf etdirməliydi. Xoşbəxliyi axtarmamalıydı çünki xoşbəxtlik keçici bir illuziyaydı. Qalıcı olan tragediyaydı və iztirablara qarşı immunitet yaradaraq onlara dözməyi bacarmalıydı, əgər yaşamaq istəyirdisə. Özünə "axı niyə?" sualını verməyəcəkdi bir daha. Bu pafosun içində boğmayacaqdı özünü. Niyə qalıb mübarizə aparmalıyam? Çünki ölməyə cəsarətin çatmır, çünki həyatı çox sevirsən və madam ki elədir, Laranın dediyi kimi, "əgər ölməyə cəsarətin çatmırsa onda yaşamağı bacarmalısan".

Kamyu'ya duyduğu o xoşagəlməz hissi başa düşdürdü indi. Çünki eyni təbiətli idilər, o da onun qədər riyakar və xudbin idi. Yoxluğun necə tək və müqəddəs əbədi nemət olduğunu dərk etməyinə baxmayaraq həyatı seçirdi, çünki onu sevirdi və belə deyirdi Kamyu: "Ölüm qarşısında dəhşətimin kökündə həyata qısqanc sevgim durur. Mən yoxluğumdan sonra ya-

şayanları və onların həyatında mövcud olan gülləri, qadınları qısqanıram. Mən paxılam çünki həyatı çox sevirəm. Cəhənnəm olsun əbədiyyət!"

O uzaq diyarlardakı ən dərin və xoş hisslərin yaşandığı mistik adadan gələn bir qaranquş onun qulağına bir şeylər pıçıldayıb geri uçdu. Hansı rəng olduğuna qərar verə bilmədiyi bilinməz bir kölgə ona yaxınlaşdı və itirməməsi gərəkdiyini bərk-bərk tapşıraraq ona görünməz bir açar verdi. Buludlar ona bir daha ağlamamaq sözü verdilər və gülərüz günəş onu salamladı. Uzaqlardan eşidilən qəmli bir musiqi onun melanxoliyasına müşaiyət etdi. Yaşıl cəngəlliyin içindən Poseidondan məktub gətirmirmiş kimi davranan və uzun yoldan gəldiyi məlum olan at belində bir cəngavər ona yaxınlaşıb bir məktub verdi və Mavi məktubu oxuyub dəhşətə qapıldı. Bir anlıq var olduğundan əmin ola bilmədi və özünü yalandan varmış kimi aparmağa çalışdısa da müvəffəqiyyətsiz oldu. Arxasından indiyə qədər heç vaxt dəniz görməmiş olmasından gileylənən bir göyərçinin səsi duyuldu və geri dönüb ona təskinlik vermək istəyərkən Mavi kampın yoxa çıxıb yerinə sadəcə hündür ağaclar və alçaq otların olduğu bir dəlixana həyəti görürmüş kimi oldu. Bir anlıq özünü sadəcə Fredin yazdığı romanın bir qəhrəmanı kimi sandısa da, Fred onu bunun doğru olmadığına inandırdı. Dağın ətəyindəki gölün dalğası kədərləndi və bir leysan başladı Mavinin sinəsində heç vaxt bitməyəcəkmişcəsinə.

Yaşamaq, hələ ki əziyyətinə dəyirdi, deyə düşündü və bir sonrakı uğursuz intihar təşəbbüsünə qədər özünə yaşama sözü verib bədənini ən yaxındakı isti okean sularına qərq edərək azadlığı iliklərində hiss etməyə yollandı.

Səssizliyin Gurultusu / 7
Evtanaziya Kampları / 17
Lara / 30
Saudade / 40
Evsiz və İşsiz / 57
Riçard / 75
Yorğun Ümidlər / 99
Gerçəyin Hallüsinasiyaları / 129
Müqəddəs Günah / 156
Ağrılar və Həzzlər / 175
Fred / 212
Buludların Üstündə / 248
Dialektik Monoloq / 285
Ölüm  / 332